البينات في الرد على أباطيل المراجعات

أبو علي عبد الله ابن أبي أفندي الحنبلي العجاراي التركي

"Müraciət" kitabında olan yalanların ifşası

Əbu Əli Abdullah ibn Əbu Əfəndi əl-Ucari əl-Hənbəli

Ön söz

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən Peyğəmbərimiz Muhəmmədə *(sallallahu aleyhi va səlləm)*, ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun. Oxucuya təqdim olunan bu çalışma Əbu Əli Abdullahın rus dilində qələmə aldığı "Ясные доводы в ответ на ложъ книги Мураджиат" kitabından Azərbaycan dilinə çevrilmiş tərcümə işidir. Müəllif şiələrin Əhli sünnəyə qarşı fəxrlə istifadə etdiyi bu kitaba tutarlı dəlillərlə cavablar vermişdir. Haqqı araşdıran müsəlmanlara faydalı olması ümidi ilə.

Müəllifin ön sözü

Mərhəmətli və rəhmli Allahın adı ilə! Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Sonuncu Peyğəmbər Muhəmmədə və əhlinə salam və xeyir dua olsun. Allah Təala onun səhabələrindən və onlara xetir işdə tabe olanlardan razı olsun.

Ömər ibn Xəttab *(radiyallahu anhu)* rəvayyət edir ki, Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurmuşdur: **"Həqiqətən, əməllər niyyətlərə görə dəyərləndirilir və hər bir insana da onun niyyətinə görə əcr verilər. Ona görə də Allah və Elçisi üçün hicrət edən ona yetişmiş olar. Dünya malı və qadın üçün hicrət edən də ancaq istədiyinə çatmış olar."**[1]

İmam Nəvəvi nəql edir ki, Əbu Səid Əbdurrahmən ibn Mehdi dedi: **"Kitab yazmaq istəyən hər kəs qoy bu hədislə başlasın."**[2]

Bu kiçik çalışma Əbdulhüseyn Şərəfuddin Musəvinin "Müraciət" vəya "Məktublarda İmam Əlinin vilayəti" kitabında gətirilən iddiaların təhlilinə həsr olunacaqdır. Bu kitab 1998-ci ildə beynəlxalq "Əhli beyt" cəmiyyəti tərəfindən rus dilində nəşr olunmuşdu. "Müraciət" kitabı haqqında bir neçə kəlmə fikir söyləmək yerinə düşərdi. Bu məlumatsız müsəlmanları şübhəyə salmaq üçün şiələrin istifadə etdikləri ən sevimli əsərlərdəndir. Adətən bu kitabı "mənim səndən daha dəyərli yoldaşım yoxdur, mən yalnız səni fikirləşirəm" görüntüsü ilə ilə oxumağa verirlər. Əgər müsəlmanlar bu kitabda nə qədər yalan, faktların təhrifi və s.uydurmaların olduğunu bilsəydilər, onlar heyrətə gələrdilər. Kitabın təhlilinə keçməmişdən öncə yalan haqqında bir neçə açıqlama gətirmək istərdim.

Uca Allah buyurur: **"Dediyi elə bir söz yoxdur ki, (onu yazmaq üçün) yanında hazır durmuş gözətçi olmasın."**[3]

---

[1] Səhih Buxari, №1

[2] "əl Əzhər muntəhaba əl əbrar", səh 24

[3] Qaf 18

İbn Məsudun *(radiyallahu anhu)* rəvayyətinə görə Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* demişdir: **"Həqiqətən, doğru danışmaq əməlisalehliyə aparır, əməlisalehlik də Cənnətə. Bir bəndə o vaxta qədər doğru danışar ki, Allah dərgahında onun adı doğru danışanlar siyahısına yazılar. Həqiqətən, yalan danışmaq günaha aparır, günah da Cəhənnəmə. Bir bəndə o vaxta qədər yalan danışar ki, onun adı Allah dərgahında yalançılar siyahısına yazılar."**[1]

Buxari və Muslim "Səhih" əsərlərində Abdullah ibn Amr ibn əl Asdan *(radiyallahu anhu)* rəvayyət edirlər ki, Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurdu: **"Kimdə bu dörd şey olsa, o əsl münafiqdir. Kimdə bu dörd şeydən əlamət varsa, onu tərk edənə kimi onda nifaqın əlamətləri qalar: Ona bir şey əmanət ediləndə, əmanətə xəyanət edər, danışanda yalan danışar, vəd edərkən vədini yerinə yetirməz, münaqişə etdikdə çirkin əmələ əl atar."**[2]

Buxaridə keçən uzun bir hədisdə mələklər Peyğəmbərə qəbirdə olan bəzi əzabların səbəblərini izah edərkən dedilər: **"Sonra ağzı, burnunun deşiyi və gözü ənsəsinə kimi yırtılan adam səhərlər evdən çıxaraq yalanlar danışardı və onlar yer üzündə yayılardı."**[3]

Yalan İblisin silahıdır ki, o bunun vasitəsilə ilk insanlar olan Adəm və Həvvanı Cənnətdən çıxartmağa nail olmuşdu. Bidət və hava əhli kimsələr müsəlmanları haqq yoldan azdırmaq üçün bu silahdan da istifadə edirlər. İstənilən məsələdə, mübahisədə müsəlman öz fikrini əsaslandırmağa çalışarkən yalnız düzgünlüyə əməl etməli və doğru danışmalıdır. Mənsur ibn Mutəmmirdən rəvayyət olunur ki, Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurdu: **"Haqqa üz tutun. Siz buna görə həlak olacağınızı görsəz belə, bilin ki, qurtuluş doğruluqdadır."**[4]

Yalanla kimisə aldatmaq, dünyalıq nəsə əldə etmək, kiminsə hörmətini qazanmaq olar. Lakin, yalan sonunda sahibini peşman edib, od sakinlərindən edəcəkdir.

---

[1] Buxari, 6094-cü hədis; Muslim, 6579-cu hədis

[2] "Riyadus salihin", №1543

[3] "Riyadus salihin", №1546

[4] Munziri "Tərqib" 5/494

Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurmuşdur: **"Doğruluqdan ayrılmayın, o xeyirdəndir. Bunların hər ikisi cənnətdədir. Yalandan çəkinin, o günahlardandır. Bunlarda cəhənnəmdədir."**[1]

İmam Əhməd Əbu Umamə əl Bəhlidən və Sad ibn Əbu Vəqqasdan rəvayyət edir ki, Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurmuşdur: **"Mömində yalan və xainlikdən başqa istənilən xüsusiyyət ola bilər."**[2]

Munziri Beyhəqiyə istinad edərək Peyğəmbərin *(sallallahu aleyhi va səlləm)* belə buyurduğunu yazır: **"Yalan sahibini imandan uzaqlaşdırır."**[3]

İnsan zəifdir və o istəklərə uyur. Müsəlman şəxs istənilən pis xüsusiyyətə sahib ola bilər. Lakin, o yalançı olmamalıdır. Malik Səfvan ibn Suleymdən nəql edir ki, o Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* soruşdu:

- Ya Rəsulullah! Mömin qorxaq ola bilərmi?

-Bəli,ola bilər.

-Mömin xəsis ola bilərmi?

-Bəli,ola bilər.

-Mömin yalançı ola bilərmi?

-Xeyr,ola bilməz."[4]

Həmçinin, nəql olunur ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: **"Qəlbdə imanla küfr bir arada ola bilməz. Eləcə də doğrulula yalan və xainliklə sədaqət də bir yerdə ola bilməzlər."**

[1] Munziri "Tərqib" 5/495
[2] Munziri "Tərqib" 5/500
[3] Munziri "Tərqib" 5/499
[4] Munziri "Tərqib" 5/500

Bizim hər birimizdə anadan olandan yalana qarşı fitri bir ikrah hissi vardır. Hər zaman doğru danış deyə bizə uşaqlıqda tərbiyyə verilib. Lakin, həyatda və bu kitabı oxuduqdan sonra görəcəyiniz kimi bəzi insanlar üçün yalan danışmaq nəfəs almaq qədər zəruri bir ehtiyyac olmuşdur. "əl Müraciət"-in müəllifi kitabını təhrif, üstüqapalı sözlər və yalanlarla doldurmuşdur. Bu şiələrin nəzdində heç də qeyri-adi bir üslub deyildir. Əbdulhüseynin sələfi olan ibn Muttəhər əl Hilli də öz "Minhəcul kəramə" kitabını yalanlarla süstləmişdi ki, ona sözü və dəvəti yalanlardan ibarət olan İblis yoldaşlıq etmişdi. Şiələr üçün müxalifə yalan danışmaq adi bir şeydir. Bu davranış onlarda alimləri tərəfindən icazəlidir və bu onların kitablarında təsbit olunmuşdur.

20-ci əsrin ən böyük şiə alimi Əbul Qasim əl Xoyiyə sual verdilər:

"Sual: Bidət əhli vəya zəlalətə dəvət edən bir adama cavab verərkən yalan demək olarmı, o məqsədlə ki, bu yalanla onun dəlili və arqumentləri təkzib olunur."

Cavab: "Əgər bu cavab onu zəlalətdən qoruyacaqsa onda olar."[1]

"əl Müraciət" kitabı guya əl Əzhər şeyxi olan Səlim əl Bişri ilə Əbdulhüseyn arasında olan yazışmanın xülasəsidir. Bu yazışma yalnız şiə Əbdulhüseyn tərəfindən daha sonralar dərc edilmişdi. Lakin, şeyx əl Bişri tərəfindən bizə bu yazışmanın təsdiqi vəya təkzibi haqqında heç bir məlumat varid olmamışdır. Şeyx Abdullah ibn Əbaşan əl Qamidinin qeyd etdiyi kimi bu kitab şeyx əl Bişrinin vəfatından sonra ilk dəfə nəşr olunmuşdur. Şeyx hicri 1335-ci ildə vəfat etmişdi. Bu kitab isə onun vəfatından 20 il sonra, yəni 1355-ci ildə dərc olunmuşdu. Kitabı oxuyan hər kəs şahid ola bilər ki, əsər uydurmadır və iki şəxs arasında yazışma olmamışdır. Çünki, Əbdulhüseynin məktubları dəlil və arqumentlərlə yazıldığı halda əl Bişrinin məktubları yalnız bu şiə müəllifə tərif və həmin qayda ilə davam etməsi üçün edilən xahişlərdən ibarətdir. Bundan başqa əl Bişriyə isnad edilən məktublarda bu rafizi müəllifin açıq-aydın yalanlarını inkar etməyə heç bir cəhd də yoxdur. Heç bir şübhə yoxdur ki, əl Əzhər şeyxi yalançı Əbdulhüseyni tamamilə təsdiq edən qədər cahil ola bilməz.

[1] http://arabic.al-khoei.org/falea.htm

Qeyd etmək lazımdır ki, kitabının müqəddiməsində Əbdulhüseyn demək olar ki, əsərin əvvəldən axıra qədər özü tərəfindən uydurulduğunu etiraf etmişdir.

O deyir: *"İndi, mən deyə bilmərəm ki, bu məktublar o zaman bizim yazdığımız məktubların eynisidir. Həmçinin, mən deyə bilmərəm ki, burada keçən ifadə və sözlər həqiqətən olduğu kimi mənə vəya ona aiddir. Çünki, keçən dövr ərzində məktublar mühafizə oluna bilmədi. (mən bunları yenidən yazmağa məcbur oldum)"*[1]

Əbdulhüseynin bu məktubları əl Bişrinin adından yazdığına daha bir dəlil onun tərəfindən kitabda yazılan bu sözlərdir: Guya əl Bişri yazır: *"Mən bundan əvvəl heç vaxt şiələrin vəziyyəti və mötəqid olduqları inanclarına dair məlumat əldə etmək fikrinə düşməmiş, adət-ənənələrinə də bələd olmamışam. Çünki, xüsusi məclislərində olmamış, ölkələrində yaşamamışam. Amma, çox istəyirdim ki, onların alimləri ilə mübahisədə iştirak edim, fikirləri, axtarışları və istəkləri haqqda dərindən bəhs etmək üçün onların arasında olum. Taleh mənə sənin dərya tək varlığını aşkar etdikdən sonra, dodaqlarımı elminin sərin suyu ilə islatdı. Allah bu ləzzətli su ilə xəstəliyimi sağaltdı, yanğımı söndürdü. Cəddin Mustafanın (sallallahu aleyhi və səlləm) "elm şəhəri"nə və onun qapısı atan Mürtəzaya (ə) and olsun ki, mən sənin ləzzətli çeşmənin yanğısöndürən şərbətindən daha ləzzətli başqa bir şərbət tapmadım."*[2]

Bu anda diqqət edin. Heç bir əl Əzhər şeyxi bu qədər cahil ola bilməz ki, hər bir müsəlmanın andının yalnız Allaha aid etməli olduğunu bilməsin. İbn Hacər əl Əsqalani yazır: **"Abdullah ibn Ömərdən** *(radiyallahu anhu)* **rəvayyət olunur ki, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **səhabələrə üz tutaraq buyurdu: "Diqqət edin! Allah sizə atalarınıza and içməyi qadağan etmişdir, kim and içərsə ya Allaha and içsin, ya da sussun!"**[3]

Necə ola bilər ki, əl Əzhər şeyxi Səlim Bişri Maliki bu hədis və bu tipli hədislərdən qafil olsun?! Bu misal Hüseynin qulunun bu sözləri yazarkən nəyi qəsd etdiyini anlamağı bizə imkan verir: *"İndi, mən deyə bilmərəm ki, bu*

[1] "Məktublarda İmam Əlinin vilayəti", səh 20
[2] 1-ci məktub,səh 25
[3] Buxari, 9/174 (2482); Muslim, 8/436 (3105

məktublar o zaman bizim yazdığımız məktubların eynisidir. Həmçinin, mən deyə bilmərəm ki, burada keçən ifadə və sözlər həqiqətən olduğu kimi mənə vəya ona aiddir."

Bu çalışmanı yazarkən Allahın məni müvəffəq etməsini diləyir və onun adı ilə bu kitabın təhlilinə başlayıram.

Abdullah Əbu Əli. Səfər ayı, 1431-ci il

Birinci fəsil: Müəllifin kitabda, nəqllərdə yalan dediyi məqamlar

Bu fəsildə biz Əbdulhüseynin bəzi hədisləri yalandan bəzi kitablara isnad etməsindən nümunələr gətirəcəyik.

1) Musəvi yazır: *"Şübhə yoxdur ki,Qədir hədisi Əhli sünnədən mütəvatir formada varid olmuşdur."(ərəbcə mətni budur:* «بل لا ريب في تواتره من طريق أهل السنة»)[1]

— Söhbət həccdən dönən zaman Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* insanlara etdiyi xitabdan gedir: **"Mən kimin mövlası (dost, vəli) isəm, Əli də onun mövlasıdır."** Bu hədisi nəql edərkən şiələr nə edirlər?

Ayrı-ayrı kitablarda yuxarıdakı Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözlərinə müxtəlif sözlər əlavə olunur. Şiələr bu rəvayyəti nəql edərkən adətən "veniqret" düzəldirlər. Yəni, müxtəlif kitablarda nəql olunan bu hadisənin versiyalarını bir araya cəm edib, özlərinə sərf edən hissələrini toplayıb, özlərin versiyalarını tərtib edirlər. Eyni ilə Əbdulhüseyn də bu cür etmişdir. O, şiələrin ümumi razılaşdırılmış versiyasını nəql etmişdir. Bu mətn isə mütəvatir deyildir. Mütəvatir yalnız **"Mən kimin mövlası (dost, vəli) isəm, Əli də onun mövlasıdır."** ifadəsidir.

Bu hədisə **"Ey Allah! Ona dost olan dost, ona düşmən olana isə düşmən ol"** ifadəsinin əlavə olunması isə mübahisəlidir. İslam alimləri arasında bu əlavələrin uydurma olduğunu qeyd edən imamlar olmuşdur. Rafizilər zəif

[1] 56/263

və uydurma rəvayyətlərə istinad edərək iddia edirlər ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Qədir-xum adlı yerdə dediyi bu sözlərdən sonra bu ayə nazil oldu: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."**[1]

İmam Tirmizi yazır: "Tarik ibn Şihab rəvayyət edir ki: "Bir yəhudi topluluğu Ömər ibn Xəttaba *(radiyallahu anhu)* bu sözlərlə müraciət etdilər. "Ey Möminlərin Əmiri! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim..."ayəsi bizim üçün nazil olsaydı həmən gün bizdə bayram olardı. "Ömər *(radiyallahu anhu)* dedi: **"Bu ayənin nə zaman nazil olduğunu mən yaxşı bilirəm. Bu Ərafa gününün cümə gününə təsadüf etdiyi vaxt baş vermişdi."**[2]

Bədrəttin Çətinər yazır: **"Bu rəvayyət təkcə Ömərdən** *(radiyallahu anhu)* **gəlməyib. Bunu Əli** *(radiyallahu anhu)*, **Müaviyə** *(radiyallahu anhu)*, **Səmurə ibn Cundub** *(radiyallahu anhu)* **da rəvayyət etmişdir. Həmçinin, mürsəl olaraq bu rəvayyət Şabi, Qatadə və başqalarından da varid olmuşdur."**[3]

Muslim Tarix ibn Hişamdan rəvayyət edir: "Bir yəhudi Ömərə *(radiyallahu anhu)* üz tutaraq: "Ey Möminlərin Əmiri! Əgər "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim..."ayəsi biz yəhudilər üçün nazil olsaydı, o günü biz bayram edərdik. Ömər *(radiyallahu anhu)* dedi: **"Mən həmin günü və ayənin harda nazil olmasını yaxşı xatırlayıram. Bu ayə Allahın Elçisinə Ərafa günü nazil olmuşdu."**[4]

[1] Maidə 3
[2] "Sunən" hədis №3043
[3] "Əsbab ən nüzul" c.1,səh 293
[4] "Təfsir əl Munir"c.3,səh 368

İmam Təbəri yazır: **"Tarix ibn Hişam, İbn Abbas, Muhəmməd ibn Kəb əl Kurayzi, Əmr ibn Şabi, Qatadə, İkrimə, Şəhr ibn Həvşəb, Əsma bint Yezid, Müaviyə və Ömər ibn Xəttaba görə bu ayə cümə gününün axşamı Vida Həcci zamanı "Ərafa"da nazil olmuşdu."**[1]

2) Musəvi yazır: *"Allah "Leylət əl mubit" gecəsi Əlinin (əleyhisalam) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yatağına uzandığı gecə Cəbrayıl və Mikayilə buyurdu: "Mən sizin aranızda qardaşlıq təlif etdim və birinizin ömrünü uzatdım. Sizdən kim ömrünün qardaşının ömründən qısa olmasına razı olar?" Hər iki mələk daha çox yaşamağı arzu etdilər.Allah Təala onlara buyurdu: "Məgər siz Əli ibn Əbu Talib kimi ola bilmirsiz? Mən onunla Muhəmməd (sallallahu aleyhi və səlləm) arasında qardaşlıq təlif etdim və o qardaşının yerinə uzanaraq özünü fəda etməyə razı oldu. Yerə enin və Əlini düşmənlərdən mühafizə edin. Mələklər yerə endilər. Cəbrayıl Əlinin başı üzərində, Mikayıl isə ayaqları tərəfdə dayandı. Cəbrayıl dedi: "Sənə müjdələr olsun Əbu Talibin oğlu! Allah sənlə mələklər önündə fəxr edir." Allah Təala onda bu ayəni nazil etdi: "İnsanların elə də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir."* Bu rəvayyətə isnad verərkən o yazır: *"Bu rəvayyəti "Sunən" müəllifləri öz musnədlərində, Fəxr ər Razi isə Bəqərə surəsinin təfsirində nəql etmişlər. (ərəbcə* أخرجه اصحاب السنن في مسانيدهم، وذكره الامام فخر الدين الرازي في تفسير هذه الآية من سورة البقرة ص 189 الجزء الثاني من تفسيره الكبير مختصرا*)*[2]

— Bu yalan və cahillik göstəricisidir. Əvvəla,"Sunən" müəllifləri öz "Musnəd"lərində ifadəsini necə başa düşək ki, bu hər ikisi fərqli tip olan kitablardır? "Sunən"də rəvayyətlər fəsillərə görə, "Musnəd"də isə ravilərin adına görə nəql olunur. İkincisi, şiələrin imamı bu rəvayyəti "Sunən"ə isnad etməklə ağ yalan danışmışdır. "Sunən" kitabları dedikdə ağıla ilk öncə Tirmizi, Əbu Davud, Nəsai və ibn Məcanın kitabları gəlir. Bu kitabların heç birində bu rəvayyət mövcud deyildir. Rafizi müəllif konkret heç bir mənbə göstərə bilmədiyindən Razinin təfsirinə istinad etməyə qərar vermişdir. ər-Razi bu rəvayyəti nəql edərək deyir: **"və nəql olunur ki, o yatanda.... (**ويروى أنه لمّا نام**).** "Nəql olunur" ifadəsi elmdən xəbəri olanlar üçün çox şeydən xəbər verir. Bu ifadələrlə alimlər adətən nəql etdikləri xəbərin etimad

[1] Təbəri, "Təfsir"c.3,səh 205; Maidə surəsinin təfsiri

[2] 34/201

olunmayan rəvayyət olmasına işarə edirdilər. Bu rəvayyət haqqında **əs Subki "Təbəqat şəfiətul kubra"[1] kitabında yazır ki, bu rəvayyətin sənədi yoxdur. Şeyxul İslam "Minhəcus sunnə"[2]də qeyd edir ki, rəvayyət hədis alimlərinin ittifaqı ilə yalandır. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[3]də uydurma adlandırmışdır.**

3) Əbdulhüseyn yazır: *Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurur: "Ey Qureyşlilər! Siz Allahın qəlbi imanla dolu bir adamı üzərinizə göndərmədiyi müddətcə pis əməllərinizə davam edəcəksiz.O, başınızı üzəcək və siz ondan qoyun sürüsü kimi qaçacaqsız. "Əbu Bəkr soruşdu: "Bu mənəm?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Xeyr." Ömər soruşdu: "Bu bəlkə mənəm?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Xeyr, bu ayaqqabı düzəldən bir adamdır." Bu zaman Əli Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ayaqqabısını təmir edirdi."Bu hədis bir çox "Sunən" müəllifləri tərəfindən nəql olunmuşdur. Bu "Kənzəl ümməl" kitabında 610-cu hədisdir." (ərəbcə mətn:* نظير قول رسول الله صلى الله عليه وآله: لن تنتهوا معشر قريش حتى يبعث الله عليكم رجلا امتحن الله قلبه بالايمان، يضرب أعناقكم وانتم مجفلون عنه اجفال الغنم، فقال أبو بكر: انا هو يار رسول الله، قال: لا، قال عمر: انا هو يا رسول الله، قال: لا ولكنه خاصف النعل، قال وفي كف علي نعل يخصفها لرسول الله صلى الله عليه وآله، أخرجه كثير من أصحاب السنن وهو الحديث 610 في أول صفحة 393 من الجزء 6 من الكنز)[4]

— Şiələrdən hər hansı birisi görəsən istənilən "Sunən" kitabında olmayan bu rəvayyəti göstərə bilərmi? Baxmayaraq ki, Əbdulhüseyn bir çox "Sunən" müəllifləri deyir. "Kənzəl ümməl" kitabı Muttəqi əl Hindinin hədis fihrist toplusudur ki, o bunu müxtəlif mənbələrdən toplamış və rəvayyətləri sənədsiz olaraq nəql etmişdir.

4) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Qoy mənim Əhli beytim sizin üçün bədəndə baş,başda isə gözlər kimi olsun. Çünki, baş gözlər ilə qərar verir."* Rusca olan nəşrdə bu rəvayyətin mənbəyi göstərilməyib.

[1] 6/348
[2] 7/110
[3] 4946
[4] 44/223

Ərəbcə olan nəşrdə haşiyədə yazılır: *"Bu rəvayyəti "Sunən" müəlliflərindən bir qrupu Əbu Zərrdən nəql etmişlər."*(أخرجه جماعة من أصحاب السنن بالاسناد إلى أبي ذر مرفوعا،)[1]

— Bu ifadə yalandır. Bu uydurma rəvayyəti heç bir "Sunən" müəllifi nəql etməmişdir. Rəvayyəti Təbərani məkuf formada Salman Farisidən rəvayyət etmişdir. əl Heysəmi "Məcməu zəvaid" də yazır: **"Rəvayyətin sənədində Ziyad ibn Munzir vardır ki, o mətruk (tərk edilmiş) ravidir."**[2] **"Ziyad ibn Munzir əl Həmədani vəya Səqafi – o yalançı olmuşdur."**[3]

5) Musəvi yazır *"Məgər onlar insanları Allaha tərəf yönəltmirlərmi? Rəd surəsində Allah Təala buyurur: "Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni vardır." (Rəd 7)*

Haşiyədə yazır: *"Səlabi öz "Kəbir"adlı təfsir kitabında bu ayənin altında İbn Abbasdan bir hədis nəql edir ki: "Bu ayə nazil olandan sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) əlini Əlinin (əleyhisalam) sinəsinə qoyub buyurdu: "Mən qorxudanam və Əli yol göstərəndir. Ey Əli, hidayət olunanlar sənin vasitənlə hidayət olunurlar."Bu rəvayyəti bir çox şərhçilər və "Sunən" müəllifləri ibn Abbasa istinad edərək nəql etmişlər."*[4]

— Bu yalandır və rəvayyət heç bir "Sunən" kitabında yoxdur. Bu hədisi siz nə Tirmizi, nə Əbu Davud, nə ibn Məca, nə də Nəsaidə tapa bilərsiz. Rəvayyət özü-özlüyündə ibn Teymiyyə və şeyx Albaninin[5] qeyd etdikləri kimi yalandır.

[1] 10/50
[2] 9/57
[3] "Mizanul itidal",c.2,səh 93, №2965
[4] 12/58
[5] "Silsilə əhadis əd daifə" №4899

Sələbi bu rəvayyəti Ata ibn Səibdən, o Səid ibn Cubeyrdən, o da ibn Abbasdan nəql etmişdir. Bu rəvayyətin tam sənədi Təbəri və ibn Əsakirin kitablarında mövcuddur. Rəvayyətin sənədində Ata-dan Muaz ibn Muslim, ondan da Həsən ibn Hüseyn əl Ənsari rəvayyət edir. Bu ravi silsiləsi olduqca zəifdir. "Muaz ibn Muslim məchuldur."[1] "Ata ibn Səibin hafizəsi ömrünün sonunda pozulmuşdu."[2] "Həsən ibn Hüseyn əl Ənsari zəif şiədir."[3]

6) Musəvi yazır: *Məgər Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sonra müsəlmanlara vilayət və hökumət etməyi onlara aid etməmişmi? Belə isə, bu ayəni oxu: "Başçınız və rəhbəriniz yalnız Allah, onun peyğəmbəri və o kəslərdir ki, iman gətiriblər, namaz qılır və rüku məqamında zəkat verirlər; o kəslər ki, Allahın, onun peyğəmbərinin və iman gətirmiş kəslərin vilayətini qəbul edərlər (qalibdirlər, çünki) Allahın firqəsi və qoşunu qalibdir."*

Haşiyədə yazır: *"Bütün müfəssirlər bu ayənin Əli (əleyhisalam) baradə nazil olması məsələsində həmfikirdilər və bu ayə Əli (əleyhisalam) haqqında rüku vaxtı,o sədəqə verərkən nazil olmuşdur."*[4]

— Allahın lənəti yalançıların üzərinə oslun. Hafiz ibn Kəsir yazır: **"Bəziləri nəql etmişlər ki, bu ayə Əli ibn Əbu Talib** *(radiyallahu anhu)* **haqqında nazil olmuşdur. Guya o namazda ruku edərkən məscidə bir fəqir daxil olur və ona Əli** *(radiyallahu anhu)* **öz üzüyünü sədəqə verir. İbn Əbu Hatim Rabi ibn Süleyman ....o da Utbə ibn Hatimdən rəvayyət edir ki,bu ayədə nəzərdə tutulan Əlidir. Əbu Səid əl Əşşas Sələmədən rəvayyət edir ki,** *(radiyallahu anhu)* **öz üzüyünü ruku zamanı sədəqə vermişdir. Məhz, Əli buna görə ayə nazil olmuşdur.**

Təbəri yazır: "Haris Habil ibn Ubeydullahdan, o da Mücahiddən rəvayyət edir ki, bu ayə Əli ibn Əbu Talib *(radiyallahu anhu)* **baradə üzüyünü sədəqə verərkən nazil olmuşdu. Əbdurrəzzaq da bunu Əbdulvahhabdan, o da ibn Abbasdan rəvayyət etmişdir. Əbdulvahhab ibn Mücahiddən gələn bu xəbər qəbul edilə bilməz. İbn Mərdəveyh**

[1] "Mizanul itidal"c.4,səh 132, №8613
[2] həm.yer c.3,səh 70, №5641
[3] həm.yer c.1,səh 483, №1829
[4] 12/59

Süfyan əs Sevridən rəvayyət edir ki: "İbn Abbas dedi ki, Əbu Talibin oğlu namaz qılırdı. Namaz əsnasında rukuya gedərkən məscidə fəqir daxil olur və Əli *(radiyallahu anhu)* **ona öz üzüyünü sədəqə verir." Bu rəvayyətin ravisi Dəhhaq ibn Abbas** *(radiyallahu anhu)* **ilə heç zaman görüşməmişdir. İbn Mərdəveyh bu rəvayyəti həmçinin, Muhəmməd ibn Səddan nəql etmişdir ki, bu ravi də "mətruk"dur və xəbərin sənədi qəbul edilməzdir. Həmçinin, o bu rəvayyəti Əli** *(radiyallahu anhu)*, **Əmmar** *(radiyallahu anhu)* **və Əbu Rafidən nəql etmişdir. Lakin, bu rəvayyətlərin heç birinin sənədi səhih deyil. Sənəd zəif, ravilər isə cahil olublar."**[1]

Cəlaləddin Suyuti öz kitabında yazır: **"Bu ayə Abdullah ibn Salam** *(radiyallahu anhu)* **haqqında onun Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **belə dediyi vaxt nazil olmuşdu."Ey Allahın Elçisi! Qövmümüz bizi tərk edibdir."**[2]

İstərdik qeyd edək ki, bir neçə səbəbə görə bu ayə Əli ibn Əbu Talib *(radiyallahu anhu)* haqqında nazil ola bilməz:

1. Bu ayənin Əliyə *(radiyallahu anhu)* görə nazil olması heç bir hədis toplusunda qeyd olunmayıb. İbn Kəsir bu baradə olan rəvayyətləri nəql edəndən sonra deyir: **"Bu hədis heç bir yöndən doğru sayıla bilməz. Çünki, xəbərin isnadı zəifdir. Əli** *(radiyallahu anhu)* **baradə xüsusi olaraq, ayrıca heç bir ayə nazil olmamışdır."**[3]

2. Rukuda zəkat baradə olan rəvayyətlər həm rical baxımından zəifdir, həmdə məntiqlə düz gəlmir. Çünki, namaz o zaman əfzəl sayılır ki, onun icrası zamanı artıq hərəkətlər edilmir.

3 Əgər bu rəvayyətləri doğru saysaq, onda belə çıxacaq ki, ən əfzəl zəkat rukuda verilən zəkatdır. Bu isə heç bir fiqh kitabında yoxdur.

4. Zəkatı niyə rukuda vermək lazımdır? Məgər yaxşı olmazdımı ki, namazdan sonra zəkat fəqirə verilsin.

---

[1] İbn Kəsirin təfsiri

[2] "Cəlaleyn təfsiri" c.1,səh 339

[3] "əl bidayə vən nihayə"c.7,fəsil "Əlinin fəziləti baradə daha bir hədis"səh 552

5. Həmçinin, "vəli" sözü bir neçə məna ifadə edir: İdarə edən, rəhbər, köməkçi, dost və s. Bu konteksdə sözün hansı mənaya gəldiyi bəllidir. Bu ayədən əvvəlki və sonrakı ayələrə baxmaq kifayətdir.

"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz."[1]

"Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın. Əgər möminsinizsə, Allahdan qorxun."[2]

Söhbət rəhbərlik və ümməti idarə etmə barədə deyil, Allah üçün dostluqdan gedir. Allah Təala açıq şəkildə bildirir ki, müsəlmanların dostları xristian və yəhudilər deyil, möminlərdir. Misal olaraq həmçinin, bu ayəni nümunə gətirmək olar:

"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir."[3]

"Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə onlardan özünüzə dost tutmayın. Əgər üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir dost, nə də bir köməkçi tutun."[4]

Göründüyü kimi bu ayələrdə "vəli" sözü əmir deyil, dostluq mənasında işlənmişdir.

6. Həmçinin, bu rəvayyət əslində Əli *(radiyallahu anhu)* üçün fəzilət sayıla bilməz. Çünki, Allah Təala Quranda buyurur: **"Möminlər, həqiqətən də, nicat tapmışlar, o kəslər ki, namazlarında mütidirlər"**[1]

---

[1] Maidə 51
[2] Maidə 57
[3] Tövbə 71
[4] Nisa 89

Şübhəsiz ki, Əli *(radiyallahu anhu)* bu şəkildə ibadət edənlərdən idi və biz onu dünyada yaşamış ən təqvalı adamlardan biri hesab edirik. Əgər biz ruku zamanı zəkatı həqiqət olaraq ələ alsaq, onda elə alınacaq ki, Əli *(radiyallahu anhu)* namaz vaxtı məscidə kimlərin girməsini, nə danışmalarını, nə istəmələrini eşidir və ruku zamanı o fəqirə üzüyünü sədəqə verir.

7. İslamın digər sütünları kimi zəkatın da müəyyən şərtləri vardır. Əgər söhbət qızıldan gedirsə, onda bu 85 qr. olmalı və üzərindən bir il keçməlidir. Zəkat fəqirin istəməsi ilə verilməz, üstəlik üzük heç verilməz. Bunu sədəqə adlandırmaq daha münasibdir.

8. Əgər ayədəki sözə fikir versək, görərik ki, söz çoxluq mənasında işlənmişdir. «وَالَّذِينَ»----onlar, «يُقِيمُونَ»-----namaz qılırlar, «وَيُؤْتُونَ»-----zəkat verirlər. Yəni, söhbət bir adam haqqında deyil, adamlar baradə gedir.

9. "Vilayə" sözü fəthə ilə yazıldıqda düşmənçilyin əksi, yəni dostluq mənası verir. Ayədə isə məhz, bu şəkildə yazılmışdır. Əgər "vilayə" kəsrə ilə yazılsa onda bu rəhbərlik, idarə etmə anlamına gəlir. Məhz, buna görə burada rəhbərlik deyil, bütün müsəlmanlar nəzərdə tutulur.

Qurtubi deyir: **"Uca Allah ayə nazil etdi. "Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir..." Cabir ibn Abdullah dedi ki, Abdullah ibn Salam** *(radiyallahu anhu)* **Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Bizim Kureyza və Nadirə qəbilələri iman gətirdiyimizə görə bizdən üz döndərdilər. Onlar and içdilər ki, bizlə oturmayacaqlar. Bizim evlər uzaqdadır və biz müsəlmanlarla əlaqə saxlaya bilmirik. "Bunun üzərinə Allah Təala bu ayəni nazil etdi. İbn Salam dedi: "Biz himayədarımızın Allah, Onun Elçisi və möminlər olmasından razıyıq."**[2]

[1] Muminun 1-2

[2] Fəxrəddin Razi ,"Təfsir məfatuhul qeyb" ,c.9,səh 118

Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibə sual verdilər: **"Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir..." ayəsində Əli** *(radiyallahu anhu)* **nəzərdə tutulur? O, cavabında: "Əli ibn Əbu Talib də möminlərdəndir və bildirdi ki, burada qəsd olunan bütün möminlərdir."**[1]

Əbdulhüseynin sözlərinə qayıdaq. O deyir: *"Bütün müfəssirlər bu ayənin Əli (əleyhisalam) baradə nazil olması məsələsində həmfikirdilər."*

Oxucuya aydın olduğu kimi rafizi müəllifin bu sözləri açıq-aydın yalandır. Bu ayənin Əli *(radiyallahu anhu)* haqqında nazil olduğunu kitablarında yazan alimlər zəif və uydurma rəvayyətlərə istinad etmişlər.

7) Əbdulhüseyn yazır: *"Məgər Peyğəmbər (sallallahu aleyhi və səlləm) "Qədir" günü onun təbliğinə başlamadımı və uca səslə hamıya çatdırmadımı? Allah həmin gün ("Maidə", 3-cü ayə) nazil etdi: "Bu gün dininizi kamil etdim və nemətimi sizin üçün tamamladım və İslamı (əbədi) dininiz kimi qəbul etdim." Məgər bilmirsən ki, Allah onların vilayətini açıq şəkildə inkar edən və Peyğəmbər ilə müxalifət edən şəxslə necə rəftar etdi? O şəxs uca səslə dedi: "Əgər bu haqq olub Sənin tərəfindəndirsə, onda göydən üstümüzə daş yağdır vəya bir ağır əzab bizə nazil et."Allah da onu göydən endirdiyi daşla "fil səhabələri"ni məhv edən kimi, yox etdi və o vaxt bu ayə nazil oldu. "O hacət istəyən kəs elə bir əzabın baş verməsini istəmişdir ki, kafirlər ondan müdafiə oluna bilməzlər."* Kitabın ərəbcə olan variantında haşiyədə yazılır: *"Hakim "Müstədrək" əsərində Məaric surəsinin təfsirində bunu nəql etmişdir. Bu kitabın 2-ci cildində? 502-ci səhifəyə müraciət edin." (orijinalda:* واخرجها الحاكم في تفسير المعارج من المستدرك، فراجع صفحة 502 من جزئه الثاني.)[2]

— Bu yalandır. "Müstədrək" kitabında bu surənin təfsirində belə bir rəvayyət nəql olunmayıb.

[1] "əl Camiul əhkamul Quran",c.6,səh 288

[2] 12/60-61

8) Daha sonra Əbdulhüseyn yazır: *"O, həzrət deyərdi: "Allaha and olsun ki,mən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) qardaşı, vəsisi, əmisioğlu və onun varisiyəm. Məndən daha çox ona kim yaxın ola bilər?"* Haşiyədə yazılır: *"Müstədrək" kitabının 3-cü cildində səhifə 126-a baxın. Zəhəbi "Təlxis" kitabında hədisi səhih hesab etmişdir."*[1]

— Biz bu misalda tərcüməçinin cahilliyini və müəllifin yalanını görürük. Tərcüməçinin cahilliyi ondan ibarətdir ki, o ifadəni səhv tərcümə etmişdir. Düzgün tərcümə belə olmalıdır: "Allaha and olsun ki, mən onun qardaşı, əmisioğlu və onun elminin varisiyəm. Məndən daha çox kimin buna haqqı çatır?!"

"Müstədrək" kitabının 3-cü cildində səhifə 126-a baxın. Zəhəbi "Təlxis" kitabında hədisi səhih hesab etmişdir." ifadəsi isə yalandır.

Hakim bunu 4645 nömrəli rəvayyət kimi nəql etmişdir və bu haqqda heç bir fikir bildirməmişdir. Zəhəbi də həmçinin, bu rəvayyətin doğruluğu haqqında "Təlxis" kitabında heç bir rəy bildirməmişdir. Bu rəvayyət Zəhəbiyə görə münkərdir.[2]

Rəvayyətin özünə qayıdaq: (حدثنا) محمد بن صالح بن هانئ ثنا أحمد بن نصر ثنا عمرو بن طلحة القناد ثنا أسباط ابن نصر عن سماك بن حرب عن عكرمة عن ابن عباس رضى الله عنهما قال كان علي يقول في حياة رسول الله صلى الله عليه وآله ان الله يقول افئن مات أو قتل انقلبتم على اعقابكم والله لاننقلب على اعقابنا بعد إذ هدانا الله والله لئن مات أو قتل لاقاتلن على ما قاتل عليه حتى اموت والله اني لاخوه ووليه وابن عمه ووارث علمه فمن احق به مني

Rəvayyətin ravilər silsiləsi olduqca zəifdir. Simak ibn Hərb adlı ravi mühəddislər arasında haqqında fikir ayrılığı olan ravidir. Saleh Cəzri, Şubə və Süfyan onu zəif hesab etmişlər. İbn Mədaini onun İkrimədən (bu rəvayyətdə olduğu kimi) nəql etdiyi rəvayyətlərin dolaşıq olduğunu qeyd etmişdir."Əsbat ibn Nəsri adlı ravini Əbu Nueym və Nəsai zəif hesab etmişlər."[3]Amr ibn Həmmad ibn Təlha adlı ravi isə şiələrdən olan siqa ravidir.

[1] 34/202
[2] "Mizanul itidal" 3/255/№6353
[3] "Mizanul itidal" 1/175/№712

9) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Fatiməyə (əleyhisalam) buyurdu: "Məgər sən öz izdivacından razı deyilsənmi?!? Allah yer əhlinə nəzər saldı və iki nəfəri seçdi, biri atan, o birisi həyat yoldaşın."*

Haşiyədə yazır: *"Hakim "Müstədrək"in 3-cü cildinin 129-cu səhifəsində bunu nəql etmiş, çoxlu "Sunən" müəlliflər onu nəql etmiş və düzgün hesab etmişlər." (orijinalda:* أخرجه الحاكم من صحيحه المستدرك، ورواه كثير من أصحاب السنن وصححوه)[1]

— Bu şəxs yenədə yalan danışdı! Bu rəvayyət heç bir dörd "Sunən" kitabında yoxdur. "Müstədrək" kitabının əldə olan iki elektron versiyasını yoxladım. Onlardan biri Beyrutda "Darul mərifət" nəşriyyatı tərəfindən, ikincisi isə "Darul kutub əl ilmiyyə" nəşriyyatı tərəfindən Beyrutda nəşr edilmişdir. Onların heç birində Hakimin bu rəvayyəti səhih hesab etdiyi yazılmamışdır. Hakim bu rəvayyəti necə doğru hesab edə bilər ki, bu rəvayyəti nəql edən şeyxini yalanda ittiham etmişdir?

Bu onun kitabından olan rəvayyətin mətnidir: (حدثنا) أبو بكر بن ابي دارم الحافظ ثنا أبو بكر محمد بن احمد بن سفيان الترمذي ثنا سريج بن يونس ثنا أبو حفص الابار ثنا الاعمش عن ابى صالح عن ابى هريرة رضي الله عنه قال قالت فاطمة رضى الله عنها يا رسول الله زوجتني من علي بن ابي طالب وهو فقير لامال له فقال يا فاطمة اما ترضين ان الله عزوجل اطلع إلى اهل الارض فاختار رجلين احدهما ابوك والآخر بعلك

Hakim bu rəvayyəti nəql edən şeyxi yalançı adlandırmışdır. Bu Əbu Bəkr Əhməd ibn Muhəmməd ibn əs Sara ibn Yəhya ibn Əbu Daramdır. Zəhəbi onu yalançı rafizi adlandırmışdır və Hakimin onun haqqında belə dediyini nəql etmişdir: **"Siqa olmayan rafizidir."**[2]

Lakin, bu ravi sənəddə olan yeganə problem deyil. Muhəmməd ibn Əhməd Tirmizi adlı ravi də tərk olunmuşdur. Zəhəbi bu ravinin Sirac ibn Yunusdan uydurma rəvayyətlər nəql etdiyini qeyd etmişdir."[3]

Əbdulhüseyn bu rəvayyətə №68-li məktubda qayıdaraq yazır: *Xətib "Müttəfəq" kitabında İbn Abbasdan siqa ravilərin yolu ilə nəql etmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Fatiməni Əli ilə evləndirəndə Fatimə ərz etdi: "Ey Allahın*

[1] 48/235-236
[2] "Mizanul itidal" 1/139/№552
[3] "Mizanul itidal" 3/457/№7140

rəsulu! Məni kasıb və mal-dövlətsiz bir kişiyəmi verdin?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: Razı deyilsənmi? Allah yer üzünün adamları arasından iki nəfəri seçdi: "Biri atan, o birisi ərin."

Birincisi, bu rəvayyəti nə qədər səy göstərdiksə, Xətib əl Bağdadinin kitabında tapa bilmədik. Xətib bu rəvayyəti "Tarix Bağdadi" kitabında[1] Əbu Salatə Əbdussəlam ibn Saleh əl Hərviyə istinad edən sənədlə nəql etmişdir. Bu ravi məşhur yalançı olmuşdur. Ukeyli onun haqqında yazır: **"İfrat rafizidir", İbn Adiy: "yalanda ittiham olunub", Nəsai: "siqa deyil"**[2]

Əbu Nueym İsfəhani yazır: **"Əbdussəlam ibn Saleh ibn Süleyman əbu Salat Hərvi. Həmmad ibn Zeyd, Əbu Müaviyə, Abbad ibn əl Əvvam və digərlərindən münkər rəvayyətlər nəql edərdi."**[3]

Heysəmi rəvayyəti "Məcmau zəvaid" də nəql edərək yazır: **"Təbərani nəql etmişdir. Sənəddə zəif ravi olan Əbdussəlam ibn Saleh Hərvi vardır."**[4]

10) Əbdulhüseyn haşiyədə yazır: *"və sənin üçün bircə bu kifayətdir ki, o (Əli (ə), Allahın rəsulunun özü kimidir. Fəxri Razinin "Mübahilə" ayəsinin təfsirində ("Məfatihul-Qeyb" təfsiri, 2-ci cild, səh 488) göstərdiyi kimi."*[5]

— Rafizilərin yer üzündə məxluqatın ən yalançıları olması baradə deyilən sözlər haqqdır. Sanki, şeytan onları yalana və hiyləyə əl atmağa sövq edir. Fəxr Razi "Məfatihul-Qeyb" kitabında mübahilə ayəsinin təfsirində tərəflərin bir sıra rəylərini qeyd etmişdir. Onların arasında da Əlinin *(radiyallahu anhu)* digər peyğəmbərlərdən üstün olduğunu iddia edən Mahmud ibn Həsən əl Xumsinin sözü vardır. Fəxr Razi bu sözü gətirərkən yazır ki, bu adam Rey

[1] 4/196
[2] "Mizanul itidal", №5051
[3] "Kitabu duafa", №140
[4] №14670
[5] səh 245

şəhərindən olan şiə isnaəşari şiədir. Həmçinin, eyni yerdə Razi Əlini *(radiyallahu anhu)* Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* bərabər hesab edən digər şiələrin sözlərini də gətirir.

Daha sonra Razi yazır: **"Buna belə cavab veririk: "Muhəmmədin** *(sallallahu aleyhi və səlləm)* **Əlidən** *(radiyallahu anhu)* **daha fəzilətli olması baradə icma olduğu kimi, yenə də icma vardır ki, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **gəlməmişdən öncə digər peyğəmbərlər bütün insanlardan əfzəl idilər. Həmçinin, müsəlmanlar icma ediblər ki, Əli** *(radiyallahu anhu)* **peyğəmbər deyil."**

Allah xətrinə! Razi haqqında necə belə demək olar? Halbuki, o yalnız bu sözü deyən rafizilərin sözlərini yazır, sonra isə onlara cavab verir. Bu Əbdulhüseynin növbəti hiyləsi deyildə, bəs nədir?! Şiələrin alimləri belə aşkar yalan danışırlarsa, adi şiələrdən nə gözləmək olar?

11) Əbdulhüseyn yazır: *"Həmçinin, onun təvatürünə dəlalət edən şahidlərdən Əbu İshaq Səlabinin "Məaric" surəsinin təfsirində iki mötəbər sənədlə verdiyi hədisdir: "Elə ki, Allahın rəsulu (sallallahu aleyhi və səlləm) Qədir-xum günü camaatı bir yerə yığdı, Əlinin əlindən tutub buyurdu: "Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Bu xəbər hər yerə yayıldı və Haris ibn Numan Fəhriyə çatdı. O, Allah rəsulunun yanına gəldi və dəvədən düşüb, onu bir yerə bağladı. Sonra üzünü Peyğəmbərə (sallallahu aleyhi və səlləm) tutub dedi: Ey Məhəmməd! Bizə əmr etdin ki, Allahın birliyinə şəhadət verək elədik, dedin, Allahın rəsulusan, qəbul etdik, əmr verdin gündə beş dəfə namaz qılaq, səndən qəbul etdik, zəkatı əmr etdin, qəbul etdik, ramazan ayının orucunu əmr etdin, qəbul etdik, həcc əmri verdin, eşitdik və itaət etdik. Yenə də bunların hamısına razı olmadın, axırda əminoğlunun əlindən tutub, onu bizim hamımızdan üstün etdin və dedin: «من كُنْتُ مَوْلاهُ فَعَلِيٌّ مَوْلاه» Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Bu əmr öz tərəfindən idi, ya Allah tərəfindən? Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "And olsun o Allaha ki, bu fərman onun tərəfindəndir. Haris geri döndü və dəvəsinə tərəf hərəkət edərək dedi: Ey Pərvərdigar, Məhəmmədin dedikləri həqiqətdirsə, göyün daşlarını üstümüzə yağdır vəya bizə ağır əzab göndər. Hələ dəvəsinə çatmamışdı ki, Allah bir daş göndərdi və onun başına dəydi. Sonra Allah bu ayəni nazil etdi: "(Kafirlərdən) biri vaqe olacaq əzab barədə soruşdu. (O əzabı) kafirlərdən dəf edə biləcək bir kimsə yoxdur! (O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!" Tanınmış sünni alimlərindən bir çoxu bu hədisi mübahisəsiz qəbul etmişlər."*

Haşiyədə yazır: *"Bu hədis Hələbinin "Seyrat" kitabında cild 3,səhifə 214-də nəql olunmuşdur"*[1]

— 1. Məaric surəsinin ilk iki ayəsi Məkkədə yəni, hicrətdən öncə nazil olmuşdur. İbn Cəuzi "Zadul meysir" kitabında[2] yazır: "**Alimlərin yekdil rəyinə görə bu surə Məkkədə nazil olmuşdu. İbn Kəsir və Vahidi İbn Abbas** *(radiyallahu anhu)* **istinad edərək nəql edirlər ki, bu ayə Nədr ibn Haris ibn Kaladə haqqında nazil olmuşdu. O, Allaha dua edərək Muhəmmədin** *(sallallahu aleyhi və səlləm)* **həqiqətən Allahdan haqqla gəldiyi təqdirdə özü üçün bəla istəmişdi. O, Bədr günü əsir düşdü və öldürüldü."**[3]

2. Bu hədisi qəbul edən çoxlu sünni alimləri də kimdir?Niyə dəccal bir adamın da adını qeyd etmədi?

3. Şeyx Abdullah ibn Əbaşan əl Qamidinin qeyd etdiyi kimi Əbdulhüseynin istinad etdiyi Hələbi bu hekayəni nəql edərək bunun yalan olduğunu söyləmişdir.

12) Daha sonra Əbdulhüseyn yazır: *Aişə deyir: "Rəsulullah (sallallahu aleyhi və səlləm) xəstə ikən, dərdi gücləndiyindən iki nəfər qoluna girmiş halda evdən bayıra çıxırdı və ayaqlarını da çəkirdi. Bu iki nəfərin biri Abbas ibn Əbdul-Muttəlib, biri də başqası idi." Aişədən bu xəbəri nəql edən Ubeydullah ibn Abdullah ibn Ütbə ibn Məsud deyir: "Aişənin bu sözünü Abdullah İbn Abbasa dedim. İbn Abbas dedi: Heç bilirsənmi, Aişənin adını çəkmədiyi o başqa birisi kim idi? Dedim: Yox. Dedi: Əli ibn Əbu Talib idi. Sonra İbn Abbas əlavə etdi: Aişənin Əlidən xoşu gəlmirdi və heç vaxt istəmirdi ki, Əlinin adı yaxşılıqla xatırlansın."*

Haşiyədə yazır: *"Bu xüsusi cümləni, yəni İbn Abbasın "Aişənin Əlidən xoşu gəlmirdi və istəməzdi ki, ondan yaxşılıqla danışılsın" – cümləsini Buxari ixtisar etmiş və onun əvvəlini vermişdir ki, adəti üzrə belə hallar onda vardı. Amma sünnilərdən çoxu düzgün sənədlərilə onu vermişlər. O cümlədən İbn Sədd "Təbəqat"ın 2-ci cildinin 2-ci hissəsinin 29-cu səhifəsində Əhməd*

[1] 56/264-265
[2] 6/277
[3] "Əsbab ən nuzul", 2/906

ibn Həccacdan, o da Abdullah ibn Mübarəkdən, o da Yunisdən və Muammər onu Zuhridən, o da Abdullah ibn Utbə ibn Məsud İbn Abbasdan nəql etmişlər. Sənədin ravilərinin hamısı huccət və məqbuldur."[1]

— Elm əhli kimsələr bilir ki, hədislərin müxtəlif versiyaları olur. Ayrı-ayrı ravi silsilələrindən eyni hadisənin müxtəlif versiyaları nəql olunur ki, burada mətnlər bir-birindən fərqlənir. Əgər hər dəfə mühəddislər belə ittiaham olunarsa dində alim qalmazdı. Bu rəvayyəti "Sunən" müəllifləri nəql etmişdir deyən Əbdulhüseyn yalan danışır. Əbdulhüseyn yazır: *"Bütün bu şəxslər mötəbərdir."* Lakin, bu təkcə rəvayyətin mötəbər olması üçün kifayət etmir.

Açıq dəlillər vardır ki, Aişə *(radiyallahu anhu)* Əliyə *(radiyallahu anhu)* qarşı pis münasibət bəsləməmişdir. Şureyh ibn Hani deyir: **"Mən Aişənin yanına gəlib soruşdum: "Ey möminlərin anası! Xufa məsh etmək baradə nə düşünürsən?"**

Aişə *(radiyallahu anhu)* dedi: **"Əlinin yanına get.O,bu məsələdə məndən daha çox bilir." O axı Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **ilə səfərlərdə olmuşdur..."**[2]

Bir adam elm öyrənmək üçün xoşu gəlməyən adamın yanına adam göndərərmi? Aişə *(radiyallahu anhu)* həmçinin, onun yoldaşı Fatiməni *(radiyallahu anhu)* tərif edərdi. İbn Hacər əl Əsqalani "Mətalibu aliyyə" kitabında Amr ibn Dinardan nəql edir ki, Aişə *(radiyallahu anhu)* dedi: **"Onun atasından sonra mən sözlərində Fatimə qədər sadiq birini görmədim."**[3]

İmam Busıri deyir: **"Hakim bu hədisi nəql etmiş və bunun Əbu Yalə və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir."**[4]

Heysəmi yazır: **"Hədisi Əbu Yalə və Təbərani nəql etmişdir. Hər iki sənəddə olanlar "səhih"in ravilərıdir."**

---

[1] 74/314-315
[2] "Şərhul məanil əsər", 1/265/№482, 1/274/№512
[3] c.4,səh 453, №3986
[4] "Məcmau zəvaid", 9/102

İkinci fəsil: Əbdulhüseynin mətnlərdə etdiyi təhriflər və ixtisarlar

1) Əbdulhüseyn yazır: *"Yenə də onların fədakarlıqları haqqda Allah buyurur:* وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللهِ وَاللهُ رَؤُوفٌ بِالْعِبَادِ *"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır."(Bəqara 207)*

Haşiyədə yazır: *"Hakim "Müstədrək"in 3-cü cildinin 4-cü səhifəsində ibn Abbasdan nəql edir: "Əli canını satın qoydu və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) paltarını əyninə geydi." Hakim bu hədisin doğru olduğunu aydınlaşdırmış, Buxari və Muslimin şərtlərinə görə hədisin səhih olduğunu qeyd etmişdir."*[1]

— Hakim bu rəvayyəti kitabında nəql etmişdir: (حدثنا) أبو بكر احمد بن اسحاق ثنا زياد بن الخليل التسترى ثنا كثيرين يحيى ثنا أبو عوانة عن ابي بلج عن عمرو بن ميمون عن ابن عباس رضى الله عنهما قال شرى علي نفسه ولبس ثوب النبي صلى الله عليه وآله ثم نام مكانه وكان المشركون يرمون رسول الله صلى الله عليه وآله وقد كان رسول الله صلى الله عليه وآله البسه بردة وكانت قريش تريد ان تقتل النبي صلى الله عليه وآله فجعلوا يرمون عليا ويرونه النبي صلى الله عليه وآله وسلم وقد لبس بردة وجعل علي رضى الله عنه يتضور فإذا هو علي فقالوا انك للئيم انك لتتضور وكان صاحبك لا يتضور ولقد استنكرناه منك * هذا حديث صحيح الاسناد ولم يخرجاه وقد رواه أبو داود الطيالسي وغيره عن ابى عوانة بزيادة الفاظ

Lakin, o sənədin Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu deməmişdir. O, yazır: "Rəvayyətin sənədi səhih ravilər silsiləsindən ibarətdir, amma onlar bunu nəql etməmişlər." Elmdən xəbəri olanlar "hədis səhihdir" ifadəsi ilə "ravilər silsiləsi səhihdir" ifadəsi arasında fərqi bilirlər.

Əbdulhüseyn İsmail ibn Xəlifə adlı ravinin tərcümeyi halında yazır: "**Əbu Hatim onun hədislərini yaxşı hesab etmiş və onu tərifləmişdir."**[2]

[1] 12/68
[2] 16/78

Halbuki, Əbu Hatim bu ravi haqqında deyir: **"Ona etimad edilməz, o hədisdə "həsənul hədis"-dir."**[1]

Əbdulhüseyn Əmmar ibn Müaviyənin tərcümeyi halında yazır: **"Zəhəbi onu yad etmiş və dediklərimizi "Mizanul-İtidal"da şərhi-halında xatırlamış, şiə və etimadlı olduğunu aydınlaşdırmışdır. Açıq demişdir ki, Ukeylidən başqa kimsənin onun haqqında əskik söz dediyini bilmir və şiəlikdən savayı başqa bir eyibi yoxdur."**[2]

Bu isə yalandır. "Mizan"da qeyd olunur ki, Ukeylidən başqa onu tənqid edənlərin olduğu bilinmir. Bunun səbəbi isə Əbu Bəkr ibn Əyaşdan nəqldir. İbn Əyaş deyir ki, bu ravi Səid ibn Cubeyrdən xəbər eşitməmişdir. Yəni, Ukeyli onun ibn Cubeyrdən nəqllərinə şübhə edərdi.

3) Əbdulhüseyn yazır: *"Məgər Əlinin övladlarının adının Harunun övladlarının adından fərqli olmadığını mülahizə etmirsənmi? Həzrət onları Həsən, Hüseyn və Möhsün adlandırdı. Onların adının Harunun övladlarının adlarına – Şübbər, Şübeyr və aralarındakı oxşarlığa təkid etmək və bu ikisinin arasındakı oxşarlığı hər yerdə, bütün sahələrdə ümumiləşdirmək nə deməkdir?* Haşiyədə yazır: *"Siz "Müstədrək"in 3-cü cildinin 165-167-ci səhifələrinə müraciət etsəniz, bu məzmunda doğru hədis görəcəksiniz ki, Buxari və Muslimin şərtinə görə doğrudur."*[3]

— Hakimin "bu hədis iki şeyxin şərtlərinə görə səhihdir" sözü Əbdulhüseynin yalanıdır. Hakim bu rəvayyəti kitabında nəql edərək yazır: "sənədin ravilər silsiləsi səhihdir, amma onlar bunu nəql etməmişlər." Rəvayyətin sənədində iki şeyxin ravisi olmayan Hani ibn Hani vardır.

4) Rafizilərin yalanının sonu yoxdur. Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona buyurdu: «أَنْتَ أَخِي فِي الدُّنْيَا وَ الآخِرَةِ» "Sən həm bu dünyada, həm də axirətdə mənim qardaşımsan"* Haşiyədə yazır: *"Hakim "Müstədrək"in 3-cü cildinin 14-cü səhifəsində iki doğru yolla Buxari və Muslimin "şərtləri"nə əsasən ibn Ömərdən nəql etmişdir və Zəhəbi "Təlxis"də onu doğru və qəti hesab etmişdir. Tirmizi ibn Hacərin "Səvaiqul-Muhriqə"nin 72-ci səhifəsində yazdığına əsasən nəql etmişdir.*

[1] "Mizanul itidal", 4/490/№9957
[2] 16/139
[3] 34/198

"Səvaiq"in 9-cu babının 2-ci fəslindəki hədislərdən 7-ci hədisə müraciət et. "Uxuvvət" (qardaşlıq) hədisini "sirə" və "əxbar"da nəql edənlər bu hadisəni yəqinliklə nəql etmişlər."[1]

— Bütün güc və qüvvət Allaha məxsusdur! Hakimin kitabında olan iki rəvayyətin ərəbcə mətni budur:

(اخبرنا) عبد الله بن اسحاق بن ابراهيم العدل ببغداد ثنا عبد الرحمن بن محمد بن منصور الحارثى ثنا على بن قادم ثنا على بن صالح بن حي عن حكيم بن جبير عن جميع بن عمير عن ابن عمر رضي الله عنهما قال لما ورد رسول الله صلى الله عليه وآله وسلم المدينة آخى بين اصحابه فجاء علي رضى الله عنه تدمع عيناه فقال يارسول الله آخيت بين اصحابك ولم تواخ بيني وبين احد فقال رسول الله صلى الله عليه وآله يا علي انت اخي في الدنيا والآخرة * تابعه سالم بن ابي حفصة عن جميع بزيادة في السياق *

(حدثنا) أبو سهل احمد بن محمد بن زياد النحوي ببغداد ثنا أحمد بن محمد بن عيسى القاضى ثنا إسحاق بن بشر الكاهلى ثنا محمد بن فضيل عن سالم بن ابي حفصة عن جميع بن عمير التيمى عن ابن عمر رضى الله عنهما قال ان رسول الله صلى الله عليه وآله آخى بين اصحابه فآخى بين ابي بكر وعمر وبين طلحة والزبير وبين عثمان بن عفان وعبد الرحمن بن عوف فقال علي يارسول الله انك قد آخيت بين اصحابك فمن اخي قال رسول الله صلى الله عليه وآله وسلم اما ترضى يا علي ان اكون اخاك قال ابن عمر وكان علي رضى الله عنه جلدا شجاعا فقال علي بلى يارسول الله فقال رسول الله صلى الله عليه وآله انت اخى في الدنيا والآخرة

Hakim bu rəvayyətlərin mötəbərliyi haqqında heç bir söz deməmişdir. Zəhəbinin "Təlxis"də bu rəvayyəti səhih adlandırmasını deyən müəllif yalan danışmışdır. Əksinə, Zəhəbi hər iki sənəddə adı keçən Cami ibn Umeyrin yalanda ittiham olunduğunu, ikinci ravi İshaq ibn Bişr əl Kəhalinin isə məchul olduğunu qeyd etmişdir.

5) Əbdulhüseyn yazır: *"Qadınların seyyidəsi ilə Əhli beytin seyyidi və böyüyü evlənən zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ümmi Əymənə buyurdu: "Ey Ümmi Əymən, qardaşımı çağır! Ümmi Əymən dedi: O, sənin qardaşındır, qızını ona verirsən? Buyurdu: Bəli, ey Ümmi Əymən! Ümmi Əymən Əlini çağırdı. Əli gəldi..."*

Haşiyədə yazır: *Hakim "Müstədrək"in üçüncü cildi, 109-cu səhifədə söyləmiş və Zəhəbi Təlxisdə doğru olduğunu qeyd etmişdir."*[2]

— Bu isə yalandır. Zəhəbi "Təlxis"də yazır: **"Rəvayyət səhvdir. Əsma Fatimənin toyu günü Həbəşistanda idi."**

[1] 34/199
[2] 34/200

6) Əbdulhüseyn yazır: *"İbn Abbasdan soruşuldu: Peyğəmbər (sallallahu aleyhi və səlləm) can verəndə başının kimin dizinin üstündə olduğunu gördünüzmü? Cavab verdi: Əlinin sinəsinə söykəmişdi. Ona deyildi: Urvə Aişədən nəql etmiş ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun qucağında vəfat etdi. İbn Abbas onu inkar edib dedi: Sən də buna inanırsanmı? Allaha and olsun ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə söykənən halda vəfat etdi və ona qüsl verən də o idi."* Haşiyədə yazır: *"İbn Sədd yuxarıdakı səhifədə onu nəql etmişdir ki, "Kənzul-Ümmal"ın 4-cü cildinin 55-ci səhifəsindəki 1108-ci hədisdir."*[1]

— Əbdulhüseyn əl Hindinin sözlərini ixtisar etmişdir. Beləki, o bu rəvayyəti "Kənzul-Ümmal"da nəql edərək bunun zəif olduğunu qeyd etmişdir. İbn Sədd da bu rəvayyəti kitabında[2] əl Vahididən nəql etmişdir ki, bu ravi mətruk (tərk olunmuş) ravidir.

7) Əbdulhüseyn Uca Allaha böhtan ataraq yazır: *"Bu da təəccüblü deyildir ki, onların vilayətini hətta peyğəmbərlər elan etmək üçün göndərilmiş və Allahın huccət və canişinləri camaatı onunla tanış etməyə məmur olunmuşlar. Belə ki ,Allah buyurur: "Səndən əvvəl göndərdiyimiz peyğəmbərlərdən soruş."*[3]

— Bu sözlərlə Əbdulhüseyn özünü qardaşları yəhudilərə bənzətmişdir ki, onlar kitabın bir hissəsini oxuyar, digər hissəsinə isə göz yumardılar. Uca Allah bu ayədə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əhlinin vilayətindən söz açmır. Bunu anlamaq üçün ayəni sona kimi oxumaq lazımdır. Allah Təala buyurur: **"Səndən əvvəl göndərdiyimiz elçilərdən (onların davamçılarından) soruş; Biz Mərhəmətli (Allahdan) başqa ibadət ediləsi məbudlarmı icad etmişik?"**[4]

Dəccal ayənin əvvəlini gətirir, son hissəsini gizlədərək Allaha iftira ataraq ayənin vilayət barasində olduğunu iddia edir.

---

[1] 76/325
[2] 2/263
[3] 12/61
[4] Zuxruf 45

8) Əbdulhüseyn yazır: *"Onlar Allahın ödəməyini əmr etdikləri haqq sahibləridir. "Yaxınların və qohumların haqqını ver."*[1]

— Bu "Əhli beytin vilayətini" isbat etmək üçün yalançının gətirdiyi ayələrdən biridir. Lakin, biz ayəni sona kimi oxusaq görərik ki, buna təkcə onların deyil, hər bir yolçu və fəqirin haqqı çatır. Uca Allah buyurur: **"Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin (malını) lazım olmayan yerə sərf etmə."**[2]

9) Daha sonra yazır: *"Xüms onlara məxsusdur, hansıki, bunsuz müsəlmanlar haqqlarını verməmiş olarlar. Allah buyurur: "Əgər siz Allaha və (haqla batilin) ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir." (Ənfal 41)*

— Əgər xümsə haqqı olmaq idarəçiliyə və vilayətə dəlildirsə, onda Əhli beytlə yanaşı bu haqqa yetimlər, fəqirlər və müsafirlərdə malik olmalı idi.

10) Əbdulhüseyn yazır: *"Onlar Peyğəmbərə (sallallahu aleyhi və səlləm) qohumluq münasibəti ilə yaxındırlar. Allah buyurur: "Allahın Öz Peyğəmbərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrəbaya məxsusdur"*[3]

— Uca Allah buyurur: **"Allahın Öz Peyğəmbərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o aranızdakı zənginlərin dövləti olub qalmasın. Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir."**[4]

[1] 12/70
[2] İsra 26
[3] 12/70
[4] Həşr 7

11) Əbdulhüseyn yazır: *"Onlar "Ali-Yasin"dirlər ki, Allah onlara salam göndərir və buyurur:* سَلَامٌ عَلَى إِلْ يَاسِينَ *"Ali-Yasinə salam olsun." (Səffat 130)* Haşiyədə yazır: *"Sonuncu ayəni İbn Həcər "Səvaiq"in 11-ci babında yazmış və demişdir ki, bir sıra müfəssirlər ibn Abbasa istinad edərək deyirlər: "məqsəd Ali-Muhəmmədə salamdır. "İbn Həcər yazır: "Kəlbi də belə demişdir."*[1]

— Bu ayəni gətirib, haşiyəni yazmaqla dəccal elə göstərmək istəmişdir ki, bu ibn Hacərin fikridir və başqa rəy də yoxdur. Bu da rafizinun növbəti hiyləsidir. İbn Hacər yazır: **"Amma, əksər müfəssirlər hesab etmişlər ki, burada Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **əhli nəzərdə tutulmur."**[2]

Bundan əlavə adı keçən Kəlbi yalançı olan Muhəmməd ibn Səib əl Kəlbidir.

12) Musəvi yazır: *"Ali-Muhəmməd onlardır və Allah onlara salam göndərməyi bəndələrinə vəzifə bilərək buyurur:* إِنَّ اللهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا *"Allah və mələkləri Peyğəmbərə salam göndərirlər, ey iman gətirən şəxslər, siz də ona salam göndərin." Hədislərin birində deyilir: "Ey Allahın peyğəmbəri, sənə "salam"ı bildik, buyur de, sənə "salavat"ı necə göndərək? Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu, belə deyin:* «اَللّٰهُمَّ صَلِّ عَلي مُحَمَّدٍ وَ عَلي آلِ مُحَمَّدٍ» *"İlahi, Məhəmmədə və Ali-Məhəmmədə salavat göndər (xeyir-bərəkət yetir)!" Bu hədisdən məlum olur ki, onlara salavat göndərmək bu ayədə əmr olunan salavatdır və buna görədir ki, alimlər bu ayəni Əhli beytin şəninə nazil olan ayələrdən sayırlar. İbn Həcər "Səvaiq" kitabının 11-ci babında bunu onların barəsində nazil olan ayələrdən hesab edib."*[3]

— Musəvi qeyd etməmişdir ki, ibn Hacər iki şeyxə istinadən qeyd etmişdir ki, müsəlman salam göndərəndə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələrinə də salam göndərməlidir. Hədis belədir: **"Allahım! İbrahimə və onun ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və onun zövcələrinə, zürriyətinə də bərəkət ver!"**[4]

---

[1] 12/70
[2] "Səvaiqul-Muhriqə", səh 336
[3] 12/70
[4] Buxari və Muslim 1/306

13) 16-cı məktubda Əbdulhüseyn mühəddis Əbdurrazzaq ibn Həmmam əs Sənaninin tərcümeyi halını gətirmişdir. Orada Hüseynin qulu bəzi alimlərin Əbdurrazzaqın şiə olması baradə sözlərini qeyd etmişdir. Oxucu bilməlidir ki, ilk əsr şiələri ilə sonrakı dövr şiələri arasında böyük fərqlər vardır. O zaman Əlini *(radiyallahu anhu)* Osmandan *(radiyallahu anhu)* üstün hesab edən şiə hesab edilirdi. Bizim dövrümüzdə şiələrə o kəslər deyilir ki, onlar ümməti küfrə düşməkdə, bir neçə nəfər istisna olmaqla səhabələri küfrdə ittiham edir, rəcatə (ölülərin dünyaya qayıtmasına) və s. batil inanclara inanırlar. Qısa desək, bizim dövrümüzdə qulat rafiziləri şiə adlandırırlar.

Şiə alimi Məmqani bu baradə yazır: **"Bizim indiki şiəlik məzhəbinin zəruriyyətlərindən saydığımız göruşləri ilk dövr alimlərimiz ğuluv sayardılar və bununla ən etibarlı kəsləri ittiham edərdilər."**[1]

"Əbdurrazzaqdan nəql olunur ki, o rafiziləri təkfir etmişdir."[2] Əbdulhüseyn həmçinin, qeyd etməmişdir ki, Əbdurrazzaq demişdir: **"Allaha and olsun ki, mənim qəlbim heç vaxt Əlini Əbu Bəkr və Ömərdən əfzəl hesab etməmişdir." Həmçinin o deyir: "Fəzilətdə mən iki şeyxi üstün hesab edirəm, ona görə ki, Əli onları özündən üstün hesab etmişdir."**[3]

Yenə o deyir*:* **"Əbu Bəkr-Allah ondan razı olsun, Ömər-Allah ondan razı olsun, Osman-Allah ondan razı olsun, Əli-Allah ondan razı olsun. Bunları sevməyən mömin deyildir."**[4]

Bu məktubda o həmçinin, imam Hakimi təsvir etmiş və fəxrlə onun şiə olduğunu qeyd etmişdir. Heç şübhə yoxdur ki, imam Hakim indiki şiələrdən və fikirlərindən günəş yerdən uzaq olduğu kimi uzaq idi. Məşhur "Müstədrək" kitabında Hakim iki şeyxin fəziləti baradə çoxlu hədislər nəql etmiş, rafizilərin imamət etiqadını alt-üst etmişdir. Misal olaraq, imam Hakim "Müstədrək"də yazır:

---

[1] "Tənqih əl-Məqal", 3/23
[2] "Mizanul itidal", 2/613
[3] Əbduləəziz Dihləvi, "Bustanul muhəddisin", səh 126
[4] Təhzib əl kəmal",c.18, №3415

[4467] أخبرني أبو بكر محمد بن أحمد المزكي بمرو ثنا عبد الله بن روح المدائني ثنا شبابة بن سوار ثنا شعيب بن ميمون عن حصين بن عبد الرحمن عن الشعبي عن أبي وائل قال قيل لعلي بن أبي طالب رضى الله تعالى عنه ألا تستخلف علينا قال ما استخلف رسول الله صلى الله عليه وسلم فاستخلف ولكن إن يرد الله بالناس خيرا فسيجمعهم بعدي على خيرهم كما جمعهم بعد نبيهم على خيرهم هذا حديث صحيح الإسناد ولم يخرجاه

Əlidən *(radiyallahu anhu)* soruşdular: **"Özünə varis təyin edirsənmi?" O, dedi: "Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **varis təyin etmədi ki, mən təyin edim. Lakin, Allah insanlar üçün xeyir diləsə onları məndən sonra ən xeyirliniz ətrafında toplayacaqdır. Necə ki, Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra insanları ən xeyirlisi ətrafında topladı."**

İmam Hakim hədisdən sonra qeyd edir ki, sənədin ravilər silsiləsi səhihdir. Təkcə bu hədisə imam Hakimin səhih deməsi şiələrin bu alim haqqında olan bütün iddialarını alt-üst edir. Çünki, bu hədisdən aşağıdakı nəticələr çıxır:

1) Əlinin *(radiyallahu anhu)* birbaşa və aşkar xəlifə təyini olmamışdır.

2) Əli *(radiyallahu anhu)* Əbu Bəkri *(radiyallahu anhu)* Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra sağ qalan insanların ən əfzəli hesab etmişdir.

Yenə həmin "Müstədrək" kitabında hədisdə buyrulur:

[4446] حدثنا أبو عبد الله محمد بن يعقوب الحافظ ثنا يحيى بن محمد بن يحيى ثنا مسدد ثنا كهمس عن عبد الله بن شقيق قال قلت لعائشة رضى الله تعالى عنها أي الناس كان أحب إلى رسول الله صلى الله عليه وسلم قالت أبو بكر ثم عمر ثم أبو عبيدة بن الجراح هذا حديث صحيح على شرط الشيخين ولم يخرجاه

Aişədən *(radiyallahu anhu)* soruşdular: **"İnsanlar arasında Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **üçün ən sevimli insan kim idi?" O dedi: "Əbu Bəkr, sonra Ömər, sonra Əbu Ubeydə ibn əl Cərrah."**

Bu hədisi Hakim səhih adlandırmışdır. Yenə həmin kitabda:

[4428] حدثنا أحمد بن إسحاق العدل الصيدلاني ثنا الحسين بن الفضل ثنا علي بن بحر بن بري ثنا سعيد بن مسلمة القرشي عن إسماعيل بن أمية عن نافع عن بن عمر رضى الله تعالى عنهما قال دخل رسول الله صلى الله عليه وسلم المسجد وإحدى يديه على أبي بكر والأخرى على عمر فقال هكذا نبعث يوم القيامة

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* **məscidə bir əli Əbu Bəkrin, digər əli isə Ömərin üzərində olaraq daxil oldu və buyurdu: "Qiyamət günü biz belə bu şəkildə diriləcəyik."**

[4483] حدثنا أبو العباس محمد بن يعقوب ثنا محمد بن إسحاق الصغاني ثنا شبابة بن سوار ثنا المبارك بن فضالة عن عبيد الله بن عمر عن نافع عن بن عمر رضى الله تعالى عنهما أن النبي صلى الله عليه وسلم قال اللهم أيد الدين بعمر بن الخطاب

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Ya Allah! Bu dini Ömər ibn Xəttabın əli ilə gücləndir."**

[4484] حدثنا أبو بكر بن إسحاق أنبأ محمد بن غالب ثنا سعيد بن سليمان ثنا المبارك بن فضالة عن عبيد الله بن عمر عن نافع عن بن عمر رضى الله تعالى عنهما عن بن عباس رضى الله تعالى عنهما عن النبي صلى الله عليه وسلم أنه قال اللهم أعز الإسلام بعمر هذا حديث صحيح الإسناد ولم يخرجاه

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Ya Allah! Bu dini Ömərin əli ilə dəstəklə."** İmam Hakimə görə hədisin ravilər silsiləsi səhihdir.

[4487] حدثني أبو سعيد أحمد بن يعقوب الثقفي ثنا عمر بن حفص السدوسي ثنا عاصم بن علي ثنا المسعودي عن القاسم بن عبد الرحمن عن أبيه عن عبد الله رضى الله تعالى عنه قال والله ما استطعنا أن نصلي عند الكعبة ظاهرين حتى أسلم عمر هذا حديث صحيح الإسناد ولم يخرجاه

Abdullahdan nəql olunur: **"Allaha and olsun ki, biz Kəbədə Ömər iman gətirənə qədər açıq-aşkar ibadət edə bilmirdik."** Hakimə görə hədis səhihdir.

Bu və digər hədislər imam Hakimin şiəliyi baradə bizə dolğun məlumat verir. O, ilk üç xəlifə və möminlərin anasını küfrdə ittiaham edənlərdən olmamışdır. O, səhabələri lənət etmək üzərinə kitabını yazmamışdır. Onun şiəliyi haqqında isə imam Əbduləziz əd Dəhləvinin sözlərini gətirmək yerinə düşərdi.

O yazır: **"Bir sıra alimlər onun şiəliyə meylliyi baradə belə hesab edirdilər ki, bu onun Əlini** *(radiyallahu anhu)* **Osmandan** *(radiyallahu anhu)* **üstün hesab etməsi ilə əlaqədardır. Bu öz-özlüyündə elm əhli arasında məşhur olan görüşlərdən biridir."**[1]

Həmin məktubda Atiyyə ibn Səid əl Aufi haqqında bəhs edərkən Əbdulhüseyn yazır: *"İbn Sədd "Təbəqat"ın 6-cı cildində onu şiəlikdə nüfuzlu və sabitqədəm kimi təqdim etmişdir."*[2]

[1] "Bustanul muhəddisin", səh 119

[2] 16/131

Öz adəti üzrə bu rafizi özünə sərf etməyən yerləri ixtisar etmişdir. İbn Sədd yazır: **"Atiyyə siqa idi və onda pis olmayan hədislər vardı və insanlardan ona etibar etməyənlər də var idi."**[1]

Həmin məktubda Fudeyl ibn Mərzuq adlı ravi haqqında rafizi yazır: **"Zəhəbi onu "Mizanul itidal" kitabında qeyd etmiş və demişdir ki,o şiəliyi ilə məşhur olmuşdur."**

Müəllif Zəhəbinin bu sözlərini kəsib: **"O, səhabələri təhqir etməməklə şiəliyi ilə tanınmışdır."**[2]

Görəsən, Hüseynin qulu Zəhəbinin sözlərini niyə təhrif etmişdir? Yoxsa ona görə ki, o bir zamanlar indiki rafizilərin səviyyəsinə düşməyən, səhabələri tən etməyən məşhur şiələrin olduğunu etiraf etmək istəməmişdir. Məktubunun sonunda Əbdulhüseyn yazır:

"Bu, qısa müddətdə saymaq istədiyimiz şəxslərin sonuncusudur. Bu yüz nəfər pak və təqvalı şəxslər şiənin dahiləri və sünnə əhli üçün dəlildir. Onlar ümmətin elm mənbəyi, nübüvvət mirasının mühafizləri və "səhih", "musnəd" və "sunən" kitablarının qaynağı olmuşlar. Onların adlarını çəkdik və sünni alimlərinin onların şiəliyini aydınlaşdırmalarını və sözlərindən dəlillər gətirdiklərini qeyd etdik, qoy özləri öz ehkamlarına əməl etsin və öz qərarlarında möhkəm olsunlar."

Bu məktubda o 100 ravini qeyd etmişdir. Bu yüz nəfərin böyük əksəriyyəti zəiflik və mötəbərlik dərəcəsi olmamalarına görə alimlər tərəfindən tənqid olunublar. Misal olaraq, o Muhəmməd ibn Ubeydullah ibn əbu Rafini qeyd etmişdir. Bu ravinin zəif və mətruk olmasını Buxari, Əbu Hatim, Yəhya ibn Məin qeyd etmişlər."[3]

Fudeyl ibn Mərzuq Kufi. Onun zəifliyini ibn Hibban, Nəsai və Osman ibn Səid qeyd etmişlər.[4]

Abdullah ibn Meymun əl Qəddah. Onun zəif və mətruk olmasını Əbu Hatim, Buxari, Əbu Zura və ibn Hacər qeyd etmişlər."[1]

---

[1] "Təbəqat əl kubra", 6/305

[2] وكان معروفاً بالتشيع من غير سب

[3] "Mizanul itidal", 3/634/№7904

[4] həm.yer 3/362/№6772

Bu rafizinin gətirdiyi 100 nəfərdən üçü idi. Onun "bu sünnilər tərəfindən qəbul görmüş ravilər" sözünün yalan olması üzə çıxmış oldu.

14) Musəvi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mən hikmət evi, Əli isə onun qapısıdır."*Haşiyədə yazır: *"Tirmizi "Səhih"-də, ibn Cərir kitabında nəql etmiş, onlardan da bir çox alimlər nəq etmişlər. Onlardan biri də Muttəqi əl Hindidir."*[2]

— Rafizi Tirmizinin sözünü qeyd etməmişdir. Tirmizi bu rəvayyəti nəql edərək yazır: **"Rəvayyət qərib və münkərdir"**[3]

Bu illər ərzində rafizilərlə söhbət əsnasında, kitablarını oxuyarkən Tirmizinin kitabından bu rəvayyəti nəql edərkən onun sözünü gətirən bir adama rast gəlmədim. Allahın izni ilə biz bu rəvayyəti digər rəvayyətlərlə birgə kitabın sonunda təhqiq edəcəyik.

15) Əbdulhüseyn yazır: *"Əbu Dərdanın hədisinə əsasən Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Canım əlində olana and olsun ki, sizin aranızda elə bir adam var ki, mənim ölümümdən sonra Quranın açıqlanması uğrunda mənim müşriklərlə Quranın nazil olması uğrunda savaşdığım kimi savaşacaqdır."*Haşiyədə yazır: *"Hədisi Deyləmi nəql etmiş, bu haqqda "Kənzul ümməl" kitabının altıncı hissəsinin,155-ci səhifsində qeyd etmişdir. "*[4]

— Adəti üzrə müəllif rəvayyətin bir hissəsini ona sərf etmədiyi üçün kəsmiş, ixtisar etmişdir. Rəvayyətin sonunda Əlinin *(radiyallahu anhu)* savaşdığı kimsələr haqqında söhbət gedir: *"və onlar Allahdan başqa ilah olmadığına şəhadət edəcəklər."* Bunu rafizi ona görə kəsmişdir ki, müəyyən səbəblərə görə onlara görə Əli *(radiyallahu anhu)* ilə savaşan Təlhə, Zubeyr, Aişə kafirdilər.

---

[1] həm.yer 2/512/№4642
[2] 48/229
[3] "Sunən", №3723
[4] 48/240

16) Əbdulhüseyn Ənəs ibn Malik *(radiyallahu anhu)* adından yalan deyərək, yazır: *Bu iki günün arasındakı (Rəhəbə və "qədir" günləri) ən azı 25 il fasiləyə baxmayaraq, bu vaxt ərzində öldürücü taunlar, müharibələr baş vermişdi. Əsrin dörddə biri olan bu müddətdə uzun müharibələr, əsirlik, taun, öldürücü vəbanın təsirindən "qədir" günü orada olanların əksəriyyəti, qocalar yaşlılar, həmçinin dəliqanlı cavanlar, bir çox mücahidlər dünya ilə vidalaşmışdılar. Belə ki, sağ qalanlar dünyadan köçənlərə nisbətən az bir hissəni təşkil edirdi. Qalanlar isə hər bir tərəfə dağılışmış və "Rəhəbə" əhvalatında Əmirəl-möminlə İraqda olanlardan başqa heç kəs sağ deyildi. Beləliklə, 25 ildən sonra 30 nəfərin birdən ayağa qalxması, onlardan on ikisisinin Bədr müharibəsinin iştirakçılarından olması və "qədir" hadisəsində Peyğəmbər (sallallahu aleyhi və səlləm) -dən eşitdiklərinə və gördüklərinə şəhadət verməsi, o hadisənin nə qədər əhəmiyyət daşıdığını göstərir. Əlbəttə, bəzisinin Ənəs ibn Malik kimi, imamla düşmənçiliyi səbəb oldu ki, şəhadət verməkdən çəkinsinlər.*Haşiyədə yazır: *"İmam Əli (əleyhisalam) buyurdu: "Nə üçün Peyğəmbərin (sallallahu aleyhi və səlləm) əshabələri ilə birgə ayağa durmadın ki, gördüklərinə şəhadət verəsən? Dedi: Ey Əmirəl möminin! mənim ömrümün çoxu gedib,qocalıb yaddan çıxarmışam. Əli (əleyhisalam) buyurdu: "Əgər yalan deyirsənsə, Allah səni bərəsə (ekzema: çil-çil olma) mübtəla etsin, belə ki, hətta əmmamənlə də onu örtə bilməyəsən. Hələ yerindən qalxmamışdı ki, üzünü ləkələr tutdu. Ondan sonra deyirdi: "Allahın saleh bəndəsinin nifrininə mübtəla oldum."*[1]

— Birincisi, bu hekayənin ibn Quteybə "Məarif"[2]də qeyd etdiyi kimi əsası yoxdur. İkincisi, Ənəs ibn Malik *(radiyallahu anhu)* "qədir" hədisini yəni, "Mən kimin mövlası isəm, Əli də onun mövlasıdır" sözlərini rəvayyət etmişdir ki, Qəttani bunu "Nəzmul mutənasira"[3] kitabında nəql etmişdir.

17) Əbdulhüseyn imam Sindinin sözlərini ixtisar etmişdir. Musəvi yazır: "İmam Sindi yazır: *"Gizli qalmasın, bu söz heç də o demək deyildir ki, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ölümündən əvvəl onun vəsiyyət etməyinin qarşısını alsın və o*

[1] 56/257-258
[2] 194-195
[3] səh 456, №233

demək deyildir ki, bəli, o Həzrət qəfildən ölmüşdür! Belə ki, bu fikir hətta təsəvvür oluna bilməz. Axı necə ola bilər?Halbuki əcəlinin çatdığını xəstəliyindən əvvəl xəbər vermişdi."[1]

— Halbuki, imam Sindi sonra yazır: **"Bəli, o Əliyə** *(radiyallahu anhu)* **Quran və sünnəyə tabe olmağı vəsiyyət etmişdi və bu təkcə Əli** *(radiyallahu anhu)* **üçün deyil, bütün müsəlmanlara şamil idi. Mülkə gəlincə isə, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **vəsiyyət ediləsi bir mal tərk etməmişdi. Daha doğrusunu Allah bilir."**[2]

18) Əbdulhüseyn yazır: *Ömər özü də xilafətin son cüməsində Peyğəmbərin (sallallahu aleyhi və səlləm) minbərində söylədiyi xütbəsində aşkar bu məsələyə şəhadət verdi və bu hadisə hər yana yayıldı. Buxari bu xütbəni öz "Səhih"ində kamil vermişdir ki, biz burada yalnız lazım olan hissəni zikr edirik: "Mənə xəbər çatıb ki, filankəs sizə demişdir: Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik. Əbəda! Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və nəhayət baş tutdu. Bəli, Əbu Bəkrə beyət o cür olub. Amma, Allah onun şərrini uzaq etdi..... (Ehtiyyatlı olun) kim birinə məşvərətsiz beyət etsə, (bilməlisiniz ki,) nə beyət edən, nə də beyət olunan kəs xalq tərəfindən seçkidən məhrum olacaq. Onlara beyət olunmamalıdır. Çünki, onlar öldürüləcək,çünki, onlar müsəlman icmasına qiymət qoymur və gərək cəmiyyətdən uzaqlaşdırılıb öldürülsünlər."*[3]

— Öz adəti üzrə rafizi mətndən Ömərin *(radiyallahu anhu)* **"o zaman bu işə yalnız Əbu Bəkr layiq idi"** sözlərini çıxarmışdır. Mətndə "....." olan hissədə Ömərin *(radiyallahu anhu)* sözləri nəql olunur: "Əbu Bəkrdən başqa heç biriniz ona tərəf gedişdə dəvələrin sıxlıqda tələf olmasına layiq deyilsiz." Tam mətn belədir: **"Mən sizin bu sözlərinizi, "əgər Ömər ölərsə mən filankəsə beyət edəcəyəm" – eşitmişəm. Lakin, heç kəs Əbu Bəkrin beyətinin təsadüfən olduğunu deməyə cürət etməsin. Bəli, hətta bu belə olsa da, həmin vaxt Allah, xoşagəlməz hadisələrin baş verməsinə izn vermədi. <u>Əbu Bəkrdən başqa heç biriniz ona tərəf gedişdə dəvələrin sıxlıqda tələf olmasına layiq</u>**

[1] 69/298
[2] "Həşiyyətul Sindi alə Sunən Nəsai", 6/551
[3] 80/333

deyilsiz. Kim, müsəlmanlarla məsləhətləşmədən bir insana beyət edərsə, onları döyüşə cürətləndirməmək üçün, ona və ona beyət edənə itaət edilməz."[1]

Rafizi bilərək mətndən həmin hissəni çıxartmışdı ki,oxucu Ömərin *(radiyallahu anhu)* Əbu Bəkri *(radiyallahu anhu)* xilafətə daha layiqli hesab etməsini bilməsin. Ömərin *(radiyallahu anhu)* bu sözlərlə belə mühüm məsələlərdə tələsik qərar verməkdən çəkindirir.

19) Əbdulhüseyn yazır: *"Eləcə də, mötəbər alimlərdən bir çoxu, imam Şəhabəddin Əhməd kimi ("İqdul-Fərid" kitabının birinci cildində) "əshabi-əhva" (rəy sahibləri) barəsində danışarkən bu mətləbi doğru saymışlar. O, bu qəziyyənin sonunda belə yazır: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: O, ümmətim arasında tapılacaq ilk tüğyan edən şəxsdir ki, əgər onu öldürsəydiniz, hətta iki nəfər də olsun belə ixtilaf etməyəcəkdi. Bəni-İsrail 72 firqə oldular, bu ümmət isə 73 firqə olacaqdır ki, bir firqədən başqa onların hamısı atəşdədir."*[2]

— Öz adəti üzrə bu şəxs mətnin özünə sərf etməyən hissəsini çıxrmışdır. Hədisin davamında deyilir: "və biz dedik: "ya Rəsulullah! Xilas olan firqə kimlərdir? Buyurdu: "Camaat" Rəvayyətin ravilərindən biri olan Yezid ər Rəqqaşi dedi: "Mən Ənəsə dedim: "Ey Əbu Həmzə, bu camaat hardadır?" O dedi: "onların əmirlərinin yanında, onların əmirlərinin yanında." Musəvinin belə təhrifinin vəyalanının mənası nədir? Bununla nəyə nail olmaq olar? Bununla yalnız bir sıra müsəlmanları aldatmaq və hər iki dünyada xar olmaq olar!

Üçüncü fəsil: Əbdulhüseynin açıq yalanları, cahilliyi və onun iç üzü

[1] Səhih Buxari, Kitab əl-Hudud, Bab "Rəcmul hublə minəz zina izə əhsanət, № 3930

[2] 94/377

1) Əbdulhüseyn yazır: *"Mən aranızda iki xəlifə qoyuram: göydən yerədək (vəya göy ilə yer arasında) uzanan Allahın kitabı və Əhli beytim. Onlar hovuz (Kövsər) kənarında mənə çatmayınca heç vaxt bir-birindən ayrılmayacaqlar."* Haşiyədə yazır: *"Bu hədisi Əhməd ibn Hənbəl, Zeyd ibn Sabitdən iki doğru silsilə ilə nəql etmişdir. Birinci vasitə "Musnəd"in 5-ci cildinin 182-ci səh-də və ikincisi isə 189-cu səh-dədir." (ərəbcə:* أخرجه الامام أحمد من حديث زيد بن ثابت بطريقين صحيحين أحدهما في أول صفحة 182، والثاني في اخر صفحة 189 من الجزء الخامس من مسنده)[1]

— Bu yalandır! Rafizinin dediyi birinci və ikinci hədislər:

حدثنا عبد الله حدثني أبي حدثنا الأسود بن عامر حدثنا شريك عن الركين عن القاسم بن حسان عن زيد بن ثابت قال: قال رسول الله صلى الله عليه وسلم: –إني تارك فيكم خليفتين كتاب الله حبل ممدود ما بين السماء والأرض أو ما بين السماء إلى الأرض وعترتي أهل بيتي وأنهما لن يتفرقا حتى يردا عليَّ الحوض

– حدثنا عبد الله حدثني أبي حدثنا أبو أحمد الزبيري حدثنا شريك عن الركين عن القاسم بن حسان عن زيد بن ثابت قال: قال رسول الله صلى الله عليه وسلم: –إني تارك فيكم خليفتين كتاب الله وأهل بيتي وإنهما لن يتفرقا حتى يردا علي الحوض جميعا.

Aydın olduğu kimi hər iki hədisin sənədinin 4-cü raviyə qədər hissəsi eynidir. Şərik ər Ruqeyndən, o da əl Qasim ibn Hisandan, o da Zeyd ibn Sabitdən rəvayyət edir. Şureyk bu Şərik ibn Abdullah ibn Əbu Şureyk ən Nihaidir. İbn Mədini deyir: **"Mən Yəhya və Əbdurrahmənin Şərikdən nəsə nəql etdiyini görmədim."Abdullah ibn Mubarək dedi: "Şərikin rəvayyətlərinin heç bir dəyəri yoxdur." Cuzədcani onun zəif yaddaşı olduğunu, İbrahim ibn Səid əl Cəvhari isə onun 400 rəvayyətdə səhv etdiyini bildirmişdir." Dəraqutni deyir: "Şərik təkbaşına etdiyi rəvayyətlərdə zəifdir."**[2]

Yəqub ibn Şeybə deyir ki, Şərik zəif yaddaşı olan siqa ravi olmuşdur. İnşəallah bu ravi haqqında bu sözlər daha doğrudur. Təkcə Şərikin sənəddə olması bu iki rəvayyətin səhih olmamasına dəlildir. Bu hədisin sənədinə əl Qasim

[1] 8/42

[2] "Mizanul itidal" 2/270/№3

ibn Hisanı əlavə etsək hədisin halı necə olacaq? Buxari bu ravinin məchul və rəvayyətlərinin münkər olduğunu qeyd etmişdir."[1]

2) Musəvi Abdullah ibn Meymun adlı ravinin tərcümeyi halında yazır: *"Ona Tirmizi istinad etmişdir."*[2]

— Bu yalandır! Əgər kimsə bir nəfərdən rəvayyət nəql edirsə, bu o demək deyil ki, ona etimad etmək lazımdır. Heç də bütün alimlər kitablarına yalnız səhih hesab etdikləri rəvayyətləri yazmağı lazım bilmirdilər. Onların çoxu kitablarına zəif hesab etdikləri ravilərin nəqllərini yazmışlar. Abdullah ibn Meymun İslam alimlərinin yekdil rəyinə görə zəif ravi olmuşdur. Tirmizi də onu zəif hesab etmişdir. "Sunən" kitabında Tirmizi onun haqqında yazır: **"onun rəvayyətləri münkərdir"**[3]

İslam aliminin sözlərinə baxın, sonra bu yalançının sözlərinə diqqət edin.

3) Nafi ibn əl Haris adlı ravi haqqında danışarkən Musəvi yazır: *"Ukeylii deyir: "O, rafizilikdə ifrata varardı." Buxari demişdir: "O, şiə olduğu üçün ardınca danışardılar."Mən deyirəm: Süfyan, Həmam, Şərik və bu təbəqədən olan başqa mühəddislər ondan hədis söyləmişlər. Tirmizi öz "Səhih"ində onun hədislərindən dəlillər gətirmişdir."*[4]

— Birincisi, rafizi Buxarinin adından yalan deyir. Beləki, Buxari onun tənqid olunması üçün rafizi olmasını səbəb göstərmir. Onun tənqid olunması yalanda ittiham olunmasındadır. **Onu yalanda Qatadə ittiham etmişdir. İbn Məin və Əbu Zura qeyd edirlər ki, Nafi "heçnə"dir. Nəsai və Dəraqutni onun mətruk ravi olduğunu qeyd etmişlər."**[5]

---

[1] "Mizanul itidal",3/369/№679

[2] 16/122

[3] İbn Hacər, "Təhzib ət təhzib", 6/44/№92

[4] *(ərəbcə:* (قال العقيلي: كان يغلو في الرفض وقال البخاري: يتكلمون فيه – لتشيعه – قلت: أخذ عنه سفيان، وهمام، وشريك، وطائفة من أعلام تلك الطبقة، واحتج به الترمذي في صحيحه

[5] "Mizanul itidal", 4/272/№9115

Rafizi alimləri həmişə İslam alimlərinin ədalətinə kölgə salmağa çalışmışlar ki, guya onlar raviləri məhz şiə olduqlarına görə tənqid etmişlər. Belə yalan iddianı ifşa etmək üçün təkcə Əbban ibn Təqlib adlı ravinin bioqrafiyasına baxmaq kifayətdir. O, öz şiəliyi ilə məşhur idi və onun mötəbər olmasını İslam alimləri təsdiq etmişlər.

İkincisi, Musəvi Nafinin siqa olmasını təsdiq edən bir alimin adını çəkə bilmədiyindən bu ravidən rəvayyətlər nəql olunduğunu demişdir. Sual yaranır: Məgər rəvayyətlər yalnız siqa ravilərdən nəql olunub? Əlbəttə ki, xeyr.

4) Musəvi yazır: *"Zəhəbi adlar sırasında onu "H" "hərfində və künyələr" hissəsində, "Mizanul-İtidal"da vermişdir. "Künyələr" hissəsində adının kənarında "T. Q." yazmaqla ona etimad edən "Sunən" yazıçılarına işarə etmişdir. Onun Həsən və Qərzidən nəql etdiyi hədislərini "Səhih-Tirmizi" və başqalarında müşahidə edə bilərsiniz. Şeyban ibn Fərrux, Qəvariri və başqaları ondan hədis söyləmişlər."*[1]

— Söhbət Hişam ibn Ziyad Əbu Məqdam əl Bəsri adlı ravi haqqında gedir. İmam Zəhəbi bu ravini kitabında zikr etmişdir və Musəvinin dediyi hərflər [ق ،ت] bu ravidən Tirmizi və ibn Macənin nəqllər etdiyinə işarədir. Rafizi müəllif bu ravinin adının Zəhəbinin kitabında keçdiyini deməklə onun haqqında heç bir rəy söyləməmişdir. Halbuki, orada yazılır: **"Onu Əhməd və başqaları zəif hesab etmişlər."** Nəsai onun haqqında: **"mətruk (tərk olunmuş) ravidir."** İbn Hibban: **"Mötəbər ravilərə istinad edərək uydurma nəqllər edərdi" Əbu Davud: "siqa deyil",** Buxari: **"onu tənqid etmişlər"**[2]

Dəccalın istinad etdiyi Tirmizi də bu ravini zəif hesab etmişdir. O deyir: **"qeyd olunduğu kimi Hişam Əbu Miqdəm zəifdir."**[3]

5) Əbdulhüseyn yazır: *"Ömər ibn Xəttab,səhih hədisdə Buxari və Muslimin şərtlərinə əsasən, deyir: Əli ibn Əbu Talibə üç şey verilmişdir.Əgər onlardan biri məndə olsa idi, qırmızı tüklü dəvələrdən (ərəbin ən yaxşı sərvəti) mənim üçün daha yaxşı*

[1] 16/156
[2] "Mizanul itidal", 4/298/№9223
[3] "Sunən", №2889

olardı. Zövcəsi Fatimə Peyğəmbər (sallallahu aleyhi və səlləm) qızı, məskəni (Allah rəsulu ilə birlikdə) məscid, Peyğəmbərə (sallallahu aleyhi və səlləm) halal olan hər bir şey Əliyə də halal idi. Və bir də "Xeybər günü" bayraq onun əlində idi." Haşiyədə yazır: *"Müstədrək"in 3-cü cildinin 125-ci səhifəsində bu hədis vardır. Əbu Yəla "Səvaiq" kitabının 3-cü fəslinin 9-cu babında olduğu kimi onu nəql etmişdir. Onun 76-cı səhifəsinə müraciət et. Əhməd ibn Həmbəl həmin mənaya oxşar sözlərlə Abdullah ibn Ömərdən "Musnəd"in 2-ci cildinin 26-cı səhifəsində nəql etmiş və yenə Ömərdən və oğlu Abdullahdan bir sıra məşhur şəxslər müxtəlif sənədlər ilə nəql etmişlər."*[1]

— Bu rəvayyətin Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu deyən Musəvi yalan danışır. Hakim bu rəvayyəti nəql edərək yazır: "Sənədin ravilər silsiləsi səhihdir, amma onlar bunu nəql etməmişlər."

(اخبرني) الحسن بن محمد بن اسحاق الاسفرايني ثنا أبو الحسن محمد بن احمد بن البراء ثنا علي بن عبد الله ابن جعفر المديني ثنا أبي اخبرني سهيل بن ابي صالح عن ابيه عن ابي هريرة قال قال عمر بن الخطاب رضى الله عنه لقد اعطي علي بن ابي طالب ثلاث خصال لان تكون لى خصلة منها احب الي من ان اعطي حمر النعم قيل وماهن يا امير المؤمنين قال تزوجه فاطمة بنت رسو ل الله صلى الله عليه وآله وسكناه المسجد مع رسول الله صلى الله عليه وآله يحل له فيه ما يحل له والراية يوم خيبر * هذا حديث صحيح الاسناد ولم يخرجاه *

Zəhəbi "Təlxis" kitabında yazır: **"Əksinə, əl Mədini Abdullah ibn Cəfər zəifdir." Başqa yerdə isə yazır: "Yekdil rəy vardır ki,bu ravi zəifdir."**[2]

Rafizi imam Əhmədin kitabına istinad edir. Öz adəti üzrə o mətni təhrif etmişdir. Hədisin mətni belədir:

حدثنا عبد الله حدثني أبي حدثنا وكيع عن هشام ابن سعد عن عمر بن أسيد عن ابن عمر قال: –كنا نقول في زمن النبي صلى الله عليه وسلم رسول الله خير الناس ثم أبو بكر ثم عمر ولقد أوتي ابن أبي طالب ثلاث خصال لأن تكون لي واحدة منهن أحب إلي من حمر النعم زوجه رسول الله صلى الله عليه وسلم ابنته وولدت له وسد الأبواب إلا بابه في المسجد وأعطاه الراية يوم خيبر

İbn Ömər deyir: "Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* zamanında deyirdilər: **"Ən fəzilətli insanlar Əbu Bəkr, sonra isə Ömərdir və Əliyə də üç xüsusiyyət verilmişdir...."** Əbdulhüseyn mətndə olan bu mühüm hissəni ixtisar etmişdir. Çünki, ona və firqəsinə bu sərf etmir. İbn Ömərdən *(radiyallahu anhu)* olan bu rəvayyət isbat olunmayıb. Şeyx Şueyb Arnaut deyir: **"sənədin ravilər silsiləsi zəifdir və hədisin birinci hissəsi səhihdir."**

[1] 34/203

[2] "Mizanul itidal", 2/401/№4247

6) Musəvi yazır: *"Yenə doğru hədisə əsasən, bir gün Səd ibn Malik Əlinun (əleyhisalam) bəzi xüsusiyyətlərini nəql edərək dedi: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) əmisi Abbası və başqalarını məsciddən çıxartdığı vaxt, Abbas o həzrətə ərz etdi: "Bizi çıxardırsan, Əlini orada qoyursan? Həzrət cavab verdi: "Sizi mən çıxartmadım, Allah sizi çıxartdı və ona yer verdi."* Haşiyədə yazır: *"Müstədrək"in 3-cü cildinin 117-ci səhifəsinin əvvəlində deyildiyi kimi, bu hədis doğrudur və "Sunən"də mövcuddur və sünnə əhlinin bir çox etimadlı şəxsləri onu nəql etmişlər."*[1]

— Hakim bu rəvayyəti kitabında nəql etmişdir. Amma, bu rəvayyət haqqında heç bir söz söyləməmişdir. Bu həmin rəvayyətin tam mətnidir ki, orada bu ifadələr keçir:

فحدثناه أبو زكريا يحيى بن محمد العنبري ثنا إبراهيم بن أبي طالب ثنا علي بن المنذر ثنا بن فضيل ثنا مسلم الملائي عن خيثمة بن عبد الرحمن قال سمعت سعد بن مالك وقال له رجل إن عليا يقع فيك إنك تخلفت عنه فقال سعد والله إنه لرأي رأيته وأخطأ رأيي إن علي بن أبي طالب أعطي ثلاثا لأن أكون أعطيت إحداهن أحب إلي من الدنيا وما فيها لقد قال له رسول الله صلى الله عليه وسلم يوم غدير خم بعد حمد الله والثناء عليه هل تعلمون أني أولى بالمؤمنين قلنا نعم قال اللهم من كنت مولاه فعلي مولاه وال من والاه وعاد من عاداه وجيء به يوم خيبر وهو أرمد ما يبصر فقال يا رسول الله إني أرمد فتفل في عينيه ودعا له فلم يرمد حتى قتل وفتح عليه خيبر وأخرج رسول الله صلى الله عليه وسلم عمه العباس وغيره من المسجد فقال له العباس تخرجنا ونحن عصبتك وعمومتك وتسكن عليا فقال ما أنا أخرجتكم وأسكنته ولكن الله أخرجكم وأسكنه وأما ما ذكر من اعتزال أبي مسعود الأنصاري وأبي موسى الأشعري فإن أمير المؤمنين عليا رضى الله تعالى عنه وجه إلى الكوفة ليأخذ البيعة له محمدا ابنه ومحمد بن أبي بكر وكان على الكوفة أبو موسى الأشعري وأبو مسعود فامتنع أبو موسى أن يبايع فرجعا إلى أمير المؤمنين فبعث الحسن ابنه ومالك الأشتر

Zəhəbi "Təlxis"də yazır: **"Hakim rəvayyətin səhihliyi baradə heç bir söz söyləməmişdir. Muslim (əl Məlai) adlı ravi mətruk ravidir."** Rəvayyətin səhih olduğunu iddia edən Musəvi yalan danışmışdır.

7) Musəvi yazır: *"Bütün bunlardan başqa, müxaliflərimizin ayrıca söylədikləri rəvayyətləri və bəyan etdikləri fəzilətləri götür-qoy etdik, onlarda nə zikr olunmuş rəvayyətlərin əksini gördük, nə də onların əleyhinə olan dəlil. Elə buna görə də üç xəlifənin xilafətinin isbatı üçün heç kəs onlardan dəlil gətirməmişdir."*[2]

— Söhbət üç Raşidi xəlifə barasində varid olan səhih hədislərdən gedir. Mənə maraqlıdır ki, bu sözü yazan rafizinin ağlı yerində idimi? Əhli sünnə mənbələrində səhabələrin fəziləti mövzusunda onların xilafətinə dəlil yoxdur?! Bir neçə hədisi nümunə olaraq qeyd edək:

[1] 34/203
[2] 52/246

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Məndən sonra Əbu Bəkr və Ömərə itaət edin."**[1]

Tirmizi yazır: **"Hədis həsəndir."** İbn Əbd əl Birr Maliki "Cami bəynəul ilm vəl fədlihi" kitabında yazır ki, **hədis həsəndir."**[2] İbn əl Ərabi "Əvasim minəl kəvasim" kitabında yazır ki, **hədis səhihdir."** [3] Şəukani "İrşadul fusul" kitabında yazır ki, **hədis səhihdir."**[4] Albani yazır: **"Hədis səhihdir."**[5]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Mən bilmirəm, bundan sonra sizin aranızda nə qədər qalacam. Məndən sonra gələnlərə itaət edin deyərək Əbu Bəkr və Ömərə işarə etdi."**[6]

Hədisi Tirmizi "Sunən" kitabında Huzeyfa ibn əl Yəməndən *(radiyallahu anhu)* rəvayyət etmişdir. Şeyx Albani "Səhih ibn Macə" də yazır: **"Hədis səhihdir."**[7]

İmam Buxari Səhih"də yazır ki, Cubeyr ibn Mutim *(radiyallahu anhu)* dedi: **"Bir gün Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına bir qadın gəldi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onun yanına gələn qadına qayıdıb, bir müddət sonra gəlməyini bildirdi. Qadın: "Səni tapa bilməsəm necə?" deyə soruşduqda, O dedi: "Məni tapmasan, Əbu Bəkrin yanına get!"**[8]

Əbu Səd əl Məlini "Ərbain fi şuyuh əs sufiyyə" kitabında Ənəs ibn Malikə istinadən nəql edir ki, Ənəs *(radiyallahu anhu)* dedi: **"Bəni Mustəliq və bəni muntəfiq elçiləri Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **yanından gedərkən mən onlarla getdim. Onlar mənə dedilər: "Ənəs! Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **yanına qayıt və bizim adımızdan**

[1] Tirmizi, "Sunən" №3662; İmam Əhməd, "Musnəd" №23946; Beyhəqi, "Sunən" №10348 və s.
[2] 2/1165)
[3] səh 252
[4] c.2,səh 275
[5] "Səhih əl cami", №1142
[6] Tirmizi, "Sunən" №3663
[7] №80
[8] "Səhih Buxari", 7/22, 3659-cu hədis

ondan soruş: "Ya Rəsulullah! Səni tərk edən zaman biz bu sualı soruşmağı unutduq: "Səndən sonra zəkatı kimə verək?" Mən qayıdaraq bu sualı soruşdum. O, buyurdu: "Bunu Əbu Bəkrə verin." Onlara qayıdanda mən cavabı onlara dedim. Onlar dedilər: "Əbu Bəkr ölsə zəkatı kimə verməliyik?" bu sualın cavabını da öyrən." Mən gedib soruşdum. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Bu halda Ömərə verərsiz."Onlara qayıdıb, cavabı onlara çatdırdım. Onda onlar soruşdular: "Ömər öləndən sonra kimə verməliyik?" Mən geri qayıdıb, bu sualı Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **verdim. O, buyurdu: "Get və de ki, o halda Osmana versinlər."**

Bu kitabın redaktoru Əmir Həsən Səbri dedi: "Rəvayyətin ravilər silsiləsi həsəndir." Bu rəvayyəti Hakim "Müstədrək"[1] kitabında nəql edərək, səhih olduğunu bildirmiş, Zəhəbi də onunla razılaşmışdır.

Səhih hədisdə Aişə *(radiyallahu anhu)* deyir: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **xəstələndiyi zaman mənə dedi: "Əbu Bəkri və qardaşını mənim yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə iştahalı biri desin ki, mən daha layiqəm. Lakin, Allah və möminlər Əbu Bəkrdən qeyrisinə razı olmazlar."**[2]

Əbu Bəkrin sünnəsinə tabe olmağına daha bir dəlil onun namazda Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəfindən imam təyin edilməsidir. Muhəmməd ibn Cəfər əl Qəttani "Əbu Bəkrin *(radiyallahu anhu)* Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəfindən imam təyin olunması" fəslində yazır:

"Əbulhəsən əl Əşari dedi ki, bu hadisə çoxlu sayda səhabələr tərəfindən rəvayyət olunmuşdur. Heç kəs buna etiraz etməmişdir. Suyuti "Tarixul xulafə" kitabında yazır: "Bu hədis Buxari və Muslim tərəfindən Əbu Musa əl Əşaridən rəvayyət olunmuşdur. Hədis mütəvatirdir və bu Aişə, ibn Məsud, ibn Abbas, ibn Ömər, Abdullah ibn Zəməa, Əbu Səid əl Xudri, Əli, Həfsə və digər səhabələrdən rəvayyət olunmuşdur."[3]

[1] 3/77

[2] Səhih Muslim, "Kitab Fədailus Səhabə" № 2387; Səhih Buxari "Kitabul Marad" № 5666

[3] "Nəzmul mutənasira minəl hədisəl mutəvatira", №228

Əli *(radiyallahu anhu)* məhz bu hadisəyə əsaslanaraq Əbu Bəkrin *(radiyallahu anhu)* xilafətinin səhih olduğunu demişdir. Onun oğlu imam Həsən *(radiyallahu anhu)* atasından rəvayyət edir: **"Peyğəmbər** (sallallahu aleyhi və səlləm) **vəfat etdikdə biz öz halımıza baxdıq. Biz gördük ki, Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **namazda Əbu Bəkri önə çəkdi və bizdə ondan sonra dünyəvi işlərimizi dinimizin tapşırıldığı adama təhvil verdik. Beləcə Əbu Bəkri seçdik."**[1]

Yalançıdan başqa kim Əhli sünnə mənbələrində ilk üç xəlifənin xilafətinə dəlil olmadığını iddia edə bilər?!

8) Musəvi yazır: *"Dəlil gətirənlərin güman etdikləri qərinə də yalandır və həqiqəti gizlətmək, onu yalanla qarışdırmaq üçün bir bəhanədir. Çünki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlini iki dəfə Yəmənə göndərmişdir. Birinci dəfə hicri 8-ci ildə oldu və boşboğazlar aranı vurmağa başladılar. Mədinəyə qayıdandan sonra Peyğəmbərə (sallallahu aleyhi və səlləm) ondan şikayət etdilər və Peyğəmbər (sallallahu aleyhi və səlləm) çox narahat oldu və onların sözünü qətiyyətlə rədd etdi. Belə ki, bir daha onun haqqında belə sözlər danışmadılar. İkinci dəfə hicrətin 10-cu ilində baş verdi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) özü ona bayraq verib, öz mübarək əli ilə o həzrətin başına əmmamə qoydu və buyurdu: "Hərəkət et və heç nəyə fikir vermə." Və o, doğru yolla başı uca, şərəflə hərəkət etdi və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) fərmanını yerinə yetirdi. Sonra Vida həccində Allahın rəsuluna qoşuldu və həccin niyyətini Peyğəmbər (sallallahu aleyhi və səlləm) kimi etdi və onun əməlinə uyğun ehram bağladı. Çünki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu özünə qurbanda şərik etdi. Bu dəfə heç kəs Peyğəmbərə (sallallahu aleyhi və səlləm) onun haqqında bir söz demədi və heç bir boşboğaz onun haqqında pis söz danışmadı."*[2]

— Musəvi yenə yalan danışır. Çünki, məhz vida həcci olan ili Əli ibn Əbu Talib *(radiyallahu anhu)* Yəmənə göndərildikdən sonra geri qayıdarkən, bəziləri Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* onun haqqında şikayət etməyə başladılar. İbn Hişam məşhur "Sirə" kitabında yazır:

"Əli *(radiyallahu anhu)* **Yəməndən Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **ilə Məkkədə görüşməsi üçün geri qayıdan zaman tələsirdi və yerinə dəstənin başına yaxın adamlarından birini təyin edir. Bu adam dəstədə olan hər adama**

[1] İbn Cəuzi, "Sifətus səffa" səh 113

[2] 58/269-270

gətirdiyi mallar arasında olan bahalı paltarlar geydirir. Dəstə Məkkəyə yaxınlaşan zaman Əli *(radiyallahu anhu)* **onları qarşılamaq üçün şəhərdən çıxır. Onların üzərində bu bahalı paltarları görən zaman qəzəblənir və deyir: "Vay olsun sizə, bu nədir?!" Ona əmir deyir: "Mən onlara insanlar arasında gözəl görsənmələri üçün belə geydirdim." Əli** *(radiyallahu anhu)* **qəzəblənərək dedi: "Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **hüzuruna qayıtmamışdan öncə bütün bu paltarları dəyişin." O, insanlardan bütün bahalı paltarları aldı və onlar bu davranışa görə Əlidən narazı qaldılar."**

İbn Hişam davam edərək yazır: **"İnsanlar Əli** *(radiyallahu anhu)* **baradə şikayət etdikdə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **nitq söylədi."Ey insanlar! Əlidən şikayət etməyin. Allaha and olsun ki, o belə qəzəblə yalnız Allaha görə davranmışdır. Şikayət etməyə dəyməz."**[1]

Əli *(radiyallahu anhu)* haqqında şikayətlər çoxaldıqda Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* növbəti dayanacaqda nitq söylədi və orada bu ifadəni işlətdi: **"Mən kimin mövlası isəm, Əli də onun mövlasıdır."**

Əlinin *(radiyallahu anhu)* iki dəfə Yəmənə göndərilməsi hadisəsi isə isbat olunmamışdır.

9) Musəvi yazır: "*Buxari və Muslim öz "Səhih"lərində və "Sunən" və "əxbar" müəllifləri Əlinin (əleyhisalam) beyətə zidd olmasını yazmış, Fatimənin (əleyhisalam) beyətdən 6 ay keçməsinə baxmayaraq xilafətin başçısı ilə sülh və barışıqda olmadığını demişlər. Amma,6 ay sonra İslam ümmətinin xeyir-məsləhətini, ağır şərait və mövqeyini nəzərə alaraq məcbur oldu ki, onunla sülh etsin. Bu haqqda bir hədis də Aişədəndir. Orada aydın deyilib ki, Zəhra Əbu Bəkrdən küsdü və Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sonra onunla danışmadı."*[2]

— Bu açıq yalandır. Birincisi, Aişədən olan hədisdə Əli deməmişdir ki, guya Əbu Bəkr ondan xilafəti qəsb etmişdir. Orada Əli belə deyir: **"Biz sənin fəzilətini və Allahın sənə verdiyi üstünlüyü etiraf edirik. Allahın sənə**

[1] "Vida həcci" fəsli

[2] 80/335

verdiklərinə görə paxıllıq etmirik. Lakin, bu məsələdə sən tək başına hərəkət etdin. Biz hesab edirdik ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* **ilə qohumluq əlaqələrimizə görə buna haqqımız çatır."**[1]

Qeyd etdiyimiz kimi burada Əlinin *(radiyallahu anhu)* sözlərindən aydın olur ki, o idarə etmə işlərində onun fikrinin də nəzərə alınmasını istəyirdi. Daha sonra rafizi yazır ki, Aişədən olan hədisdə Əlinin Əbu Bəkrə beyət etməsinə işarə yoxdur. Bu isə yalandır.

İmam Muslimdə "Səhih"də deyilir: **"Əli qalxaraq Əbu Bəkrin haqqını, fəzilətini qeyd edib, onun İslamı ilk olaraq qəbul etməsindən danışdı. Sonra o Əbu Bəkrə yaxınlaşaraq, ona beyət etdi."**[2]

Zeyd ibn Əli (İmam Zeynəlabiddinin oğlu imam Zeyd) öz atalarından rəvayyət edir ki, Əbu Bəkrin xilafəti zamanı Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* minbərinə qalxaraq camaata səsləndi: **"Ey insanlar! Aranızda məni xəlifə görmək istəməyənlər varmı? Əgər varsa, mən onu beyətdən azad edirəm." O, bu sözü bir neçə dəfə təkrar etdi və hər dəfə də Əli** *(radiyallahu anhu)* **qalxaraq: "Allaha and olsun ki, biz sənin istefanı qəbul etmirik və bunu istəmirik də. Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **səni önə keçirtdiyi halda kim səni arxaya keçirməyə cürət edə bilər?"**[3]

Əbu Səid əl Xudri *(radiyallahu anhu)* deyir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* vəfat etdikdən sonra camaat Sədd ibn Ubadənin evində toplaşdı. Onların arasında Əbu Bəkr və Ömər də var idi. Ənsarlardan bir nəfər dedi: **"Bildiyiniz kimi biz Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **ənsarları (köməkçiləri) olmuşuq. İndi isə onun xəlifəsinin ənsarları olacayıq. Rəvayyətçi deyir ki, bu zaman Ömər ibn Xəttab qalxıb dedi: "Sizin adamınız doğru danışır. Əgər siz bundan başqa bir söz desəydiniz biz sizinlə beyət etməzdik." Sonra Ömər, Əbu Bəkrin əlini tutub dedi: "Sizin adamınız budur, ona beyət edin", deyib özü beyət etdi, ardınca isə mühacir və ənsarlar beyət etdilər. Rəvayətçi deyir: "Əbu Bəkr minbərə çıxıb, camaata nəzər yetirdi və onların arasında Zubeyrin olmadığını görüb, onu**

[1] "Səhih Muslim" №(1759)-52
[2] Səhih Muslim №(1759)-53
[3] "Həyatus sahabə",c.1,səh 400-401; Hindi "Kənzul ümmal",c.8,səh 863, №14145

çağırtdırdı və dedi: "Ey Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **bibisi oğlu, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?" Zubeyr: "Ey Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **xəlifəsi, heç şübhən olmasın," deyib, beyət etdi. Sonra yenə də camaata nəzər yetirdi və Əlinin orada olmadığını görüb, onu da çağırtdırdı və dedi: "Ey Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **əmisi oğlu və kürəkəni, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?" Əli: "Ey Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **xəlifəsi, heç şübhən olmasın, deyib, beyət etdi."**

Bu rəvayyəti Hafiz ibn Kəsir "əl Bidayə vən Nihayə"[1] adlı kitabında qeyd etmiş və rəvayyəti Beyhəqiyə isnad etmişdir. Həmçinin, "Fəslul xitab fi məukiful əshab"[2] kitbında bu hədisin ravilər silsiləsinin səhih olduğunu qeyd etmişdir.

Şiə alimi Seyyid Cəfər Şəhidinin Arif Əliyev tərəfindən dilinizə tərcümə olunmuş "İslam tarixi və təhlillər" kitabında yazır: **"Bəzi tarixçilərin yazdığına görə Əli** *(əleyhisalam)* **Peyğəmbərinin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından 6 ay sonra, yəni Fatimənin** *(əleyhisalam)* **vəfatına qədər Əbu Bəkrə beyət etmədi. Lakin, bu deyilənlər heç də həqiqətə yaxın deyil. Birincisi, Fatimə** *(əleyhisalam)* **6 aydan tez bir müddətdə vəfat etmiş, ikincisi Əli** *(əleyhisalam)* **ümmət arasına düşə biləcək təfriqədən ehtiyyat edərək beyəti gecikdirməmişdir."**[3]

Əbu Səid və Aişənin hədislərini asanlıqla cəm etmək mümkündür. Aişə *(radiyallahu anhə)* Əlinin *(radiyallahu anhu)* ilk günlərdə beyət etməsini bilmirdi. Ona görə də onun ikinci dəfə beyət etməsini ilk beyət kimi təqdim etmişdir. Əli ibn Əbu Talib Fatimənin vəfatından sonra yarana biləcək şayiə və dedi-qoduların qabağını almaq üçün Əbu Bəkrə ikinci dəfə beyət etdi."

[1] c.6,səh 306
[2] səh 61-62
[3] səh 85

10) Musəvi yazır: *"Tarixçilər icma etmişlər ki,Əbu Bəkr və Ömər Usamənin ordusunda idilər. Bu barədə heç bir fikir ayrılığı yoxdur."*[1]

— Nəfsinin qulu və şeytanın dostu yalan danışır. Şeyxul İslam ibn Teymiyyə dedi: **"Bu elə bir yalanlardandır ki, tarix və siyər elmindən xəbərdar olanlar bunun yalan olmasına şübhə etmirlər. Alimlərdən heç kəs Əbu Bəkr vəya Osmanın Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **tərəfindən Usamənin ordusuna göndərildiyini deməmişlər. Bunu yalnız Ömər baradə demişlər. Əbu Bəkr orduya necə göndərilə bilər ki, Peğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **xəstələyi əsnasında o namazda imamlıq edirdi."**[2]

Əbu Bəkrin *(radiyallahu anhu)* Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəfindən namazda imam təyin olunması hadisəsi əvvəldə qeyd olunduğu kimi mutəvatir xəbərdir.

11) Əbdulhüseyn yazır: *Başqa birisi isə Əlinin (əleyhisalam) dostu və özü yazıçı olan Abdullah ibn Əbu Rafedir. Bu, həmin şəxsdir ki, Allah rəsulundan (sallallahu aleyhi və səlləm) Cəfər Təyyara buyurduğu hədisi eşitmiş və rəvayyət etmişdir: "Sən yaranışda və əxlaqda mənə bənzəyirsən." Bu hədisi bir qrup ondan nəql etmişlər. O cümlədən, Əhməd ibn Hənbəl öz "Musnəd"ində, İbn Həcər "Əl-İsabə"nin 1-ci cildində onu Übeydullah ibn Əsləm adı ilə vermişdir Ubeydullah Peyğəmbərin (sallallahu aleyhi və səlləm) əshabından "Siffeyn" döyüşündə iştirak edənlər barəsində bir kitab yazmışdır ki, İbn Həcər "Əl-İsabə" kitabında dəfələrlə bu kitaba müraciət edir. Ora müraciət edə bilərsiniz."* Haşiyədə yazır: *"Cubeyr ibn Hubab ibn Munzir Ənsarinin şərhi-halına ("Əl-İsabə", 1-ci qisim) baxın."*[3]

— Şeyx Qamidi qeyd etdiyi kimi kim ibn Həcərin "əl İsabə" kitabına müraciət etsə, bu rafizinin əsl siması ilə tanış olmuş olacaqdır. İbn Hacər bu Ubeydullahdan heç nə nəql etməmişdir. O, yalnız yazır: "Onu Mutəyanu bir sıra

[1] 90/364
[2] "Minhəcus sunnə", 5/486
[3] 110/420

səhabələr arasında zikr etmişdir. O deyir: "O (Cubeyr ibn Hubab) Ubeydullah ibn Əbu Rafinin tarixində Siffində Əli tərəfində vuruşan tərəfdarları arasında zikr edilmişdir."[1]

12) Musəvi yazır: *"İbn Hallikan "Vəfiat əl əyan" kitabında yazır ki, Malik anasının bətnində üç il qalmışdır. İbn Quteybə "Muarrif" kitabında 170 və 198-ci səhifələrdə qeyd edir ki, Malik o adamlardandır ki, anasının bətnində ümumi bilinən vaxtdan çox müddət qalmışdır."*

— Biz burda da bu adamın qardaşlıq maskası altında gizlənmiş iç üzünü görmüş oluruq. Bu üz qəzəb, kin və rəqibini istənilən üsulla ləkələmək istəyindən ibarətdir. Mən kitablardan bu yalançı məlumatı gətirərək imam Maliki, anasını və təmiz soyunu ləkələməyə çalışan şeytanlara rast gəlmişəm. Bu rafizilərdən nə gözləyəsən? Axı onlar kitablarında hər kəsi belə bu şəkildə ittiham etmişlər. Şiə alimi Haşim Bəhrani "Burhan" təfsirində Meysəm ibn Yəhyadan o da imam Cəfər ibn Muhəmməddən nəql edir:

"Elə bir dünyaya gələn körpə yoxdur ki,onun doğulmasında cinlərdən olan şeytan iştirak etməsin. Əgər o bilsə ki, doğulan körpə bizim şiələrdəndir onda o onu tərk edər. Əgər o bizim şiələrdən olmazsa onda şeytan barmağını onun arxasına salar və qabağdan çıxardar. Əgər körpə qızdırsa onda şeytan barmağını onun fəcrinə salar və o fahişə olar. Məhz, buna görə də körpə ana bətnindən çıxan zaman belə möhkəm ağlayır."[2]

Bu sözü imam Malik haqqında gətirməkdə nə maraq var? Əgər fərz etsək ki, bu doğrudur, nə olacaq ki? Əgər bu qüsurdursa onda vaxtından qabaq doğulmuş uşaq haqqında nə deyək? Axı "Səduq" ləqəbli ibn Babveyh Qümmi öz "İlaluş şəriə" kitabında qeyd edir ki, Fatimə *(əleyhisalam)* imam Həsən *(əleyhisalam)* ilə 6 ay hamilə olmuşdur. Bu bidətçilərin cəsarəti çatarmı bu qadına dil uzatsınlar?

13) Rafizi 70-ci məktubun haşiyəsində yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə onun vəsisi arasında olan qardaşlıq mutəvatirdir.32-ci və 34-cü məktublara baxmaq kifayətdir."*

[1] "əl İsabə", 1/590/№1090

[2] Haşim Bəhrani, "Burhan" c.2,səh 300

— Bu da yalandır. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə qardaşlıq hədisləri ya zəif, ya da uydurmadır, heç cür mutəvatir deyildir. Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* mühacir və ənsarları qardaş etmələri varid olmuşdur.

Dördüncü fəsil: Əbdulhüseynin dəlillərinin araşdırılması

Biz burada müəllifin doğruluğu təsdiq olunmayan mənbələrdən gətirdiyi arqumentlərə fikir bildirəcəyik. Bu kitabında rafizi müəllif dəfələrlə Şərif Rzanın yazdığı "Nəhcul Bəlağa" kitabından sitatlar gətirir. Bu Əli ibn Əbu Talibə *(radiyallahu anhu)* nisbət edilən məktublar, xütbələr və sözlərin toplandığı məcmuadır. İbn Hallikan "Vəfiat əl əyan" kitabında yazır: "**İnsanlar Əli ibn Əbu Talibin** *(radiyallahu anhu)* **sözlərini toplayaraq bu kitabı yazanın kimliyi baradə ixtilaf etmişlər.**"[1]

Bu kitabı Şərif ər Rza yoxsa qardaşı Əli yazıb? Həmçinin, demişlər ki, burada olan sözlər Əliyə *(radiyallahu anhu)* yə aid deyil və müəllif bunları ona nisbət verərək uydurmuşdur. Daha doğrusunu Allah bilir."

Zəhəbi yazır: **"Kim "Nəhcul Bəlağa" kitabını oxusa anlayar ki, bu Əlinin** *(radiyallahu anhu)* **adından uydurulan bir əsərdir.**"[2]

İbn Hacər əl Əskalani Şərif Murtəza haqqında yazır: **"O, bu kitabı uydurmada ittiham olunan adamdır."**[3]

[1] 3/124
[2] "Mizanul itidal", 3/124/№5827
[3] "Lisanul mizan", (4/223

Şeyxul İslam ibn Teymiyyə yazır: **"Elm əhli olanlar bilir ki, bu kitabda olan sözlərin çoxu Əlinin** *(radiyallahu anhu)* **adından uydurulmuşdur."**[1]

Ağıl sahibi olan kimsələr üçün bu kitaba etimad edilməməsinə dəlil olaraq təkcə bu fakt kifayətdir ki, bu kitabın müəllifini Əli *(radiyallahu anhu)* ilə bağlayacaq ravilər silsiləsi və sənədi yoxdur. Əbdulhüseyn həmçinin, ibn Quteybənin "İmamət və siyasət" kitabına müraciət edir. Bu kitab yalandan ona nisbət edilir. İmam Muhəmməd ibn Muslim ibn Quteybə bu əsərin müəllifi deyil. Onun tərcümeyyi halını yazanlar yazdığı tarix kitabları arasında yalnız "Muarrif" kitabını göstərmişlər. Öz kitablarını ibn Quteybə geniş müqəddimə ilə başlayar və kitabının yazılma səbəblərini qeyd edərdi. "İmamət və siyasət" kitabının müqəddiməsi isə yalnız bir neçə cümlədən ibarətdir.

"İmamət və siyasət" kitabının müəllifi ibn Əbu Leyladan sanki, ondan özü şəxsən eşitdiyi kimi nəql edir. İbn Əbu Leyla bu hicri 148-ci ildə vəfat etmiş fəqih Muhəmməd ibn Əbdurrahmən ibn Əbu Leyladır. İmam İbn Quteybə isə onun vəfatından 65 il sonra hicri 213-cu ildə doğulmuşdur."İmamət və siyasət" kitabında onun digər kitablarında şeyxlərindən nəqllər etdiyi kimi qeyd etdiyi nəqllər yoxdur. Bu kitabda çoxlu məchul ravilərdən rəvayyət olunan nəqllər vardır. Məs: "bir Misirlidən rəvayyət olunur.","Misir mühəddislərindən eşidən Muhəmməd ibn Süleymandan rəvayyət olunur.","bizə Fasdan olan bir mühəddis nəql etdi","mühəddislərdən birindən rəvayyət olunur." və s. Belə nəqllər ibn Quteybənin digər kitablarında etdiyi nəqllərdən köklü şəkildə fərqlənir. "İmamət və siyasət" kitabında Misirdən olan iki böyük alimdən sitatlar nəql olunur,ibn Quteybə isə Misirdə olmamışdır."

Əbdulhüseynin gətirdiyi dəlillərə nəzər salaq.

1) *Abdullah ibn Həntəb rəvayyət edir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) "Cuhfə"də bizə xütbə söylədi və soruşdu: "Məgər mən sizin canınızdan sizə daha yaxın deyiləmmi? Dedilər: Bəli, ya Rəsulullah. Buyurdu: "Mən iki şeyi sizdən tələb edəcəyəm: Quran və Əhli-beytimi."*[2]

[1] "Minhəcus sunnə", 4/24

[2] Məktub 8

— əl Heysəmi "Məcmau zəvaid"də yazır: **"Təbərani nəql etmişdir. Sənəddə mənə məchul olan ravilər vardır."**[1] Bu rəvayyəti imam Təbəraninin kitabları içərisində tapa bilmədik.

2) *"Bu Əli-Quranla, Quranda-Əli ilə bərabərdir. Onlar mənə Kövsər hovuzunda qovuşana qədər bir-birindən ayrılmazlar."*[2]

— əl Heysəmi "Məcmau zəvaid"də[3] yazır: "Təbərani "Saqir"[4] və "Ausat"[5] kitablarında nəql etmişdir. **"Ravilər silsiləsində zəif olan Saleh ibn Əbu Əsvəd vardır."**

Rəvayyətin zəif olmasını Muhəmməd əl Huut "Əsnəl məttallib"[6] və Albani "Səhih və dəif əl camiu əs saqir"[7] kitablarında qeyd etmişlər. Bu sözləri imam Hakim "Müstədrək"[8] kitabında böyük bir hədisdən bir hissə olaraq nəql etmişdir. Birinci problem Amr ibn (Həmmad ibn) Təlha əl Qanadidir. **"O, siqa olan rafizi ravi idi."**[9]

İkinci və üçüncü problem Əli ibn Haşim ibn əl Bureyd və onun atası Haşimdir. Buxari onun haqqında deyir: **"O və atası öz məzhəblərində ifratçı idilər." İbn Hibban dedi: "Şiəlikdə ifratcıldır və məşhur ravilərdən münkər rəvayyətlər nəql edərdi."**[10]

---

[1] №8993
[2] Məktub 8
[3] №14767
[4] №720
[5] №4880
[6] №898
[7] №8239
[8] №4628
[9] "Mizanul itidal", 3/254/№6353
[10] "Mizanul itidal", 3/160/№5960

“Haşim bu rəvayyəti Əbu Səid Ukeyzi ət Teymidən nəql etmişdir. Nəsai onun güclü olmamasını, Dəraqutni isə onun mətruk (tərk olunmuş) ravi olduğunu qeyd etmişdir.”[1] Ukeyzə bu rəvayyəti Əbu Zəranın mövlası olan Əbu Sabitdən nəql etmişdir. Biz bu ravi baradə bir məlumat əldə edə bilmədik.

3) Rafizi yazır: *“Bu mənanı təsdiq edən daha dəqiq ifadə isə Təbəraninin nəql etdiyi Peyğəmbərin (sallallahu aleyhi və səlləm) “səqəleyn” hədisinin ardınca buyuruğudur: “Onlardan irəli keçməyin ki, həlak olarsınız və geri qalmayın ki, həlak olarsınız. Onlara heç nə öyrətməyin. Çünki, onlar sizdən biliklidirlər.”*[2]

— Albani rəvayyəti “Silsilə əd daifə”[3] kitabında zəif adlandırmışdır. Təbərani rəvayyəti “əl Kəbir”[4] də nəql etmişdir.” Sənəddə Hakim ibn Cubeyr adlı mətruk ravi vardır. Onu Əhməd, Şubə, Nəsai, Dəraqutni və digərləri tənqid etmişlər.”[5]

4) *“Yalnız mənim Əhli beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən şəxs nicat tapar, ondan ayrı düşən məhv olar. Mənim Əhli beytim sizin aranızda Bəni-İsrailin “Hittə qapısı” kimidir. Oradan daxil olan şəxs rəhmət qazanar.”*[6]

— Şeyx Albani yazır: **“Hədis zəifdir.”**[7] Bu rəvayyətin bir neçə illəti (gəlmə yollar) vardır ki, hamısı zəifdir.

---

[1] Zəhəbi, “Muğni fi duafa”, №2057
[2] Məktub 8
[3] №4914
[4] №4971
[5] “Mizanul itidal”, 3/160/№5960
[6] Məktub 8
[7] “Camius sağir”, №4784,12028

Rəvayyətin birinci sənədi Əbu Zərə *(radiyallahu anhu)* **çatır.**

Bunu İmam Hakim "Müstədrək"[1] də nəql etmişdir:

[3312] أخبرنا ميمون بن إسحاق الهاشمي حدثنا أحمد بن عبد الجبار حدثنا يونس بن بكير حدثنا المفضل صالح عن أبي إسحاق عن حنش الكناني قال سمعت أبا ذر يقول وهو آخذ بباب الكعبة أيها الناس من عرفني فأنا من عرفتم ومن أنكرني فأنا أبو ذر سمعت رسول الله صلى الله عليه وسلم يقول مثل أهل بيتي مثل سفينة نوح من ركبها نجا ومن تخلف عنها غرق

Bu rəvayyətin sənədində yəni, ravilər silsiləsində ciddi qüsur onda Mufəddəl ibn Salehin olmasındadır. Bu ravi haqqında Buxari: **"onun hədisləri qəbul olunmur."**[2] İbn Hacər deyir: **"zəifdir"**[3]

Hənaş ibn Mutəmar əl Kinani adlı ravi: Nəsai: **"o güclü deyil"**, Buxari: **"onun hədisləri tənqid olunmuş"**, ibn Hibban: **"ona etimad olunmaz" demişlər."**[4]

İbn Hacər və Əhmədin nəql etdiyi rəvayyətdə də bu iki ravi iştirak edir. Hənaşdan bu hədisi Əbu Yəla da nəql edir.

"İbn Kəsir bu rəvayyəti təfsirində yazır və qeyd edir ki, sənəd zəifdir."[5]

"Hənaşdan əlavə sənəddə Suveyd adlı ravi də vardır. Onun haqqında fikirlər fərqlidir. Buxari və Nəsai onu zəif hesab etmişlər."[6] Mufəddəl ibn Abdullah bu elə Mufəddəl ibn Salehdir ki, onun haqqında yuxarıda bəhs etmişdik. İbn Hacər bu rəvayyəti Əbu Zərrə istinadən nəql etmişdir:

حدثنا عبد الله ، ثنا عبد الكريم بن هلال ، أخبرني أسلم المكي ، أخبرني أبو الفضل ، أنه رأى أبا ذر قائما على الباب وهو ينادي : يا أيها الناس ، تعرفوني ؟ من عرفني فقد عرفني ، ومن لم يعرفني فأنا جندب صاحب رسول الله صلى الله عليه وسلم ، وأنا أبو ذر الغفاري ، سمعت رسول الله صلى الله عليه وسلم يقول : « إن مثل أهل بيتي فيكم مثل سفينة نوح ، من ركبها نجا ، ومن تخلف عنها غرق ، وإن مثل أهل بيتي فيكم مثل باب حطة »

---

[1] №3312
[2] "Mizan", №8728
[3] "Təqrib", №6854
[4] "Mizanul itidal",1/583/№2215
[5] "Təfsir Quranul Azim",c.7,səh 203-204
[6] "Mizanul itidal", 2/248/№3621

Davamında isə yazır: **“Sənəddə mənim tanımadığım ravilər vardır. Əbdulkərim ibn Həllal məchul ravidir.”**[1]

Bunu həmçinin, Bəzzar “Musnəd”[2] də nəql etmişdir:

3900 حدثنا عمرو بن علي والجراح بن مخلد ومحمد بن معمر واللفظ لعمرو قالوا نا مسلم بن إبراهيم قال نا الحسن بن أبي جعفر عن علي بن زيد عن سعيد بن المسيب عن أبي ذر رضي الله عنه قال قال رسول الله (مثل أهل بيتي كمثل سفينة نوح من ركب فيها نجا ومن تخلف عنها غرق ومن قاتلنا في آخر الزمان كان كمن قاتل مع الدجال)

Sənəddə ibn Əbu Cəfər Cəfri adlı ravi vardır. Təbərani də “Mucəm əs Saqir” də nəql etmişdir:

391] حدثنا الحسين بن أحمد بن منصور سجادة البغدادي حدثنا عبد الله بن داهر الرازي حدثنا عبد الله بن عبد القدوس عن الأعمش عن أبي إسحاق عن حنش بن المعتمر أنه سمع أبا ذر الغفاري يقول سمعت رسول الله صلى الله عليه وسلم يقول مثل أهل بيتي فيكم كمثل سفينة نوح من ركبها نجا ومن تخلف عنها هلك ومثل باب حطة بني إسرائيل لم يروه عن الأعمش إلا عبد الله بن عبد القدوس

Bu əlavə ilə: “Mənim Əhli beytim sizin üçün bəni İsrailin əvf olunma qapısı kimidir. Kim ora daxil olsa əvf olunar.” Sənəddə Abdullah ibn Dəhr adlı ravi vardır.”

Hafiz əl Heysəmi “Məcməuz zəvaid” də yazır:

رواه البزار والطبراني في الثلاثة وفي إسناد البزار الحسن بن أبي جعفر الجفري وفي إسناد الطبراني عبد الله بن داهر وهما متروكان

“Bəzzar və Təbərani rəvayyət etmişlər. Bəzzarın sənədində Həsən ibn Əbu Cəfər Cəfri, Təbəraninin sənədində isə Abdullah ibn Dəhr vardır. Hər ikisi mətruk (qəbul olunmayan) ravilərdir.”[3]

Əbu Cəfər Cəfri haqqında ibn Mədini deyir: **“zəifdir, zəifdir.” Onu imam Əhməd və Nəsai də zəif görmüşdür. Buxari deyir: “rəvayyətləri münkərdir.”**[4]

“Abdullah ibn Dəhr də olduqca zəif ravi olmuşdur. İmam Əhməd və ibn Məin bu ravinin “heçnə” olduğunu qeyd etmişlər.”[1]

---

[1] “Lisan əl mizan”,c.4,səh 52, №147Beyrut

[2] №3900

[3] c.9, №14978

[4] “Mizanul itidal”, 1/482/№1826

Təbəraninin və Bəzzarın sənədlərində ki, yeganə problem təkcə ibn Əbu Cəfər deyil.

حدثنا علي بن عبد العزيز ثنا مسلم بن إبراهيم ثنا الحسن بن أبي جعفر ثنا علي بن زيد بن جدعان عن سعيد بن المسيب : عن أبي ذر رضي الله عنه قال قال رسول الله صلى الله عليه و سلم : مثل أهل بيتي مثل سفينة نوح من ركب فيها نجا ومن تخلف عنها غرق ومن قاتلنا في آخر الزمان فكأنما قاتل مع الدجال

"Əli ibn Zeyd ibn Cadaan adlı ravi imam Əhmədin qeyd etdiyi kimi yaddaşı zəif olan rafizidir. Yəhya ibn Məin bu ravinin "heçnə" olduğunu qeyd etmişdir."[2]

Təbərani bu rəvayyəti "Mucəm əs saqir" kitabında Əbu Səid əl Xudridən *(radiyallahu anhu)* rəvayyət etmişdir:

حدثنا محمد بن عبد العزيز بن ربيعة الكلابي أبو مليل الكوفي حدثنا أبي حدثنا عبد الرحمن بن أبي حماد المقري عن أبي سلمة الصائغ عن عطية عن أبي سعيد الخدري سمعت رسول الله صلى الله عليه وسلم وآله وسلم يقول إنما مثل أهل بيتي فيكم كمثل سفينة نوح من ركبها نجا ومن تخلف عنها غرق وإنما مثل أهل بيتي فيكم مثل باب حطة في بني إسرائيل من دخله غفر له

Bu əlavə ilə: **"Mənim Əhli beytim sizin üçün bəni İsrailin əvf olunma qapısı kimidir. Kim ora daxil olsa əvf olunar."** Bu rəvayyət baradə Heysəmi deyir:

رواه الطبراني في الصغير والأوسط وفيه جماعة لم أعرفهم.

"Təbərani "Saqir"də rəvayyət etmişdir. Ravilər silsiləsində mənim tanımadığım adamlar vardır."[3]

Təbərani həmçinin başqa sənədlə də nəql edir:

حدثنا محمد بن عبد العزيز بن محمد بن ربيعة الكلابي قال نا أبي قال نا عبد الرحمن بن أبي حماد عن أبي سلمة الصائغ عن عطية عن أبي سعيد الخدري قال سمعت رسول الله صلى الله عليه و سلم يقول إنما مثل أهل بيتي مثل سفينة نوح من ركبها نجا ومن تخلف عنها غرق إنما مثل أهل بيتي فيكم مثل باب حطة في بني إسرائيل من دخل غفر له

Hər iki isnadda Əbu Səid əl Xudridən *(radiyallahu anhu)* Atiyyə Aufi adlı ravi nəql edir. Birincisi, Atiyyə Aufi bir ravi kimi Əhli sünnə alimləri tərəfindən çox ciddi tənqid olunmuşdur. Nəsai: **"Atiyyə Aufi zəifdir."**[4] Əbu Hatim: **"zəifdir"**[1], Zəhəbi: **"zəifdir"**[2]**,** imam Əhməd: **"zəifdir."**[3]

---

[1] həm.yer 2/416/№4295
[2] həm.yer 3/127/№5844
[3] "Məcməuz zəvaid", c.9, №14981
[4] "Duafa vəl mətrukin", №481

İkincisi, bu ravi silsiləsi haqqında Şeyx Albani deyib: *"...Əbu Səiddən zəif ravi olan Ayiyyənin rəvayyət etməsi."* Bu baradə imam Nəvəvi "əl Əzhər"də, ibn Teymiyyə "əl Qaidə əl Cəlilə"də, Zəhəbi "Mizan"da qeyd etmişlər. Zəhəbi "Duafa"[4] kitabında qeyd etmişdir ki, alimlər onun zəif ravi olması barasində ittifaq etmişlər. Onu dəfələrlə Hafiz Heysəmi "Məcməuz zəvaid"[5] kitabında zəif adlandırmışdır. Əbu Bəkr əl Bəlabaki onun haqqında müəllifi olduğu "Zəif və münkər ravilər toplusu" kitabında qeyd etmişdir. Onu Busıri zəif hesab etmişdir. Hafiz ibn Hacər onun haqqında deyib: **"Düzgün, ancaq tez-tez səhv edən ravidir, şiə və təhrifçi olub."**

Atiyyə zəif yaddaşa sahib idi. İbn Hacər onu *"o tez-tez səhv edirdi"* deyə qeyd edib. "Tabakat əl Mudallisin" kitabında o bir başa qeyd edir ki, onun zəif yaddaşı var idi. Daha dəqiq qiyməti isə ibn Hacər "Təlxis əl Xabir"[6] kitabında verib.

Başqa hədisi şərh edərkən, o deyib: **"Bunun digər ravilərindən biri də Atiyyə bin Səid əl Aufi olub ki, o zəif ravidir."**

İkincisi, o təhrifçi idi(المدلس). Amma, ibn Hacər onun hansı təhrifi etdiyini açıqlamayıb. Məlumdur ki, hədis alimləri bir neçə təhrif növünü fərqləndirirlər ki, onlardan ən tanınmış növləri bunlardır:

Birinci halda, ravi gördüyü adamın adından ondan eşitmədiyi sözü rəvayyət edir vəya o onun zəmanəsində yaşayan digər birindən onu görmədiyi halda onun adından rəvayyət edir ki, bununla da o bu sözləri birbaşa ondan eşitdiyini bildirmək istəyir. Burada o hədisi onun adından (عن فلان) vəya onun sözlərinə istinad edərək(قال فلان) nəql edir.

---

[1] ibn Hacər, "Təhzib"c.7, №414
[2] "Mizan", №5667
[3] Mizzi,"Təhzib əl kamal"c.20,№3956
[4] 1/88
[5] 5/236
[6] səh 241 Hind.çapı

Digər halda, ravi öz az tanınmış şeyxinin (müəlliminin) adını vəya künyəsini çəkir ki, onun şəxsiyyətini gizlətmiş olsun. Alimlər yekdilliklə qeyd edirlər ki, əgər o şeyx etibarlı deyilsə və nəql edən, ravilər zəncirini təhrif edirsə belə etmək qadağandır. Bununla o çalışır ki, hədis alimləri onun şeyxini tanımasınlar vəya onu digər adı və künyəsi eyni olan etibarlı ravi ilə səhv salsınlar. Bu təhrif növü "şeyx təhrifi"deyə adlandırılır. (تدليس الشيوخ)

Atiyyənin təhrifinə gəldikdə isə bu təhrif məhz bu növdəndir. Bu baradə "Silsilət əl əhadis əd Daifa" kitabında daha geniş yazılıb. Konkret desək, Atiyyə Əbu Səid əl Xudridən hədislər nəql edərdi. Onun ölümündən sonra o yalan hədislər nəql etməkdə məşhur olan əl Kəlbi adında yalançının məclislərini ziyarət etməyə başladı. Onun adından nəql edərkən Atiyyə onu Əbu Səid adlandırardı və dinləyicilər səhvən elə güman edirdilər ki, o Əbu Səid əl Xudrini nəzərdə tutur. Güman edirəm ki, elə bu kifayətdir ki, Atiyyəi ədalətsiz ravi hesab olunsun. Onun zəif yaddaşını nəzərə alsaq isə artıq söz deməyə ehtiyyac yoxdur."[1]

<u>Bu rəvayyət ibn Abbasdan</u> *<u>(radiyallahu anhu)</u>* **<u>da nəql olunmuşdur:</u>**

Heysəmi yazır:

رواه البزار والطبراني وفيه الحسن بن أبي جعفر وهو متروك

"Təbərani və Bəzzar nəql etmişlər ki, sənədində mətruk ravi olan Həsən ibn Əbu Cəfər vardır."[2]

<u>Bu rəvayyət ibn Zubeyrdən</u> *<u>(radiyallahu anhu)</u>* **<u>də nəql olunmuşdur:</u>**

Heysəmi yazır:

رواه البزار وفيه ابن لهيعة وهو لين.

"Bəzzar nəql edir ki, sənədində zəif sayılan ibn Luhiyyat vardır."[3]

[1] Şeyx Albani, "Təvəssül"Şübhəli dəlillər və onların təkzibi"fəsli, "Allaha yaxınlaşmaq baradə zəif hədislər"

[2] "Məcməuz zəvaid", c.9, №14979

[3] "Məcməuz zəvaid", c.9, №14980

Abdullah ibn Luhiyyat haqqında şeyx Albani: **“O zəif yaddaşına görə zəif hesab olunur.”**[1] Zəhəbi “Mizanul itidal” da ibn Məin deyir: **“Zəifdir, ona istinad edilməz.”**[2], imam Nəsai: **“zəifdir”**[3]

<u>Bu rəvayyət Ənəsdən</u> *(radiyallahu anhu)* **<u>də nəql olunmuşdur:</u>**

Şeyx Albani yazır: **“Ənəsdən** *(radiyallahu anhu)* **bunu Əban ibn Əbu Əyaş nəql etmişdir.”**[4]

“Nəsai, ibn Məin və imam Əhmədə görə ibn Əbu Əyaş mətruk ravidir.”[5]

Rəvayyəti həmçinin, Dəvləbi Əbu Tufeylə istinadən nəql etmişdir:

حدثني روح بن الفرج قال : ، ثنا يحيى بن سليمان أبو سعيد الجعفي قال : ، ثنا عبد الكريم بن هلال الجعفي أنه سمع أسلم المكي قال : أخبرني أبو الطفيل عامر بن واثلة قال : سمعت رسول الله صلى الله عليه وسلم يقول : « مثل أهل بيتي مثل سفينة نوح من ركبها نجا ومن تركها غرق »

“Sənəddə məchul ravi Əbdulkərim ibn Həllal vardır. Həmçinin, Yəhya ibn Süleyman Nəsaiyə görə siqa deyil.”[6]

Hədisi həmçinin, Əbu şeyx əl İsfəhani “Əmsalu hədis”[7] kitabında da nəql etmişdir:

أخبرنا أبو يعلى ، ثنا عبد الله بن عمر بن أبان ، ثنا عبد الكريم بن هلال القرشي ، قال : أخبرني أسلم المكي ، ثنا أبو الطفيل ، أنه رأى أبا ذر قائما على هذا الباب وهو ينادي ، ألا من عرفني فقد عرفني ، ومن لم يعرفني فأنا جندب ، ألا وأنا أبو ذر ، سمعت رسول الله صلى الله عليه وسلم يقول : « مثل أهل بيتي مثل سفينة نوح ، من ركب فيها نجا ومن تخلف عنها غرق »

ibn Həllaldan başqa sənəddə Abdullah ibn Ömər ibn Əbban da vardır. Müəllifə görə sənəd zəifdir. “Muraciət” kitabının müəllifi Əbdulhüseyn “Nuhun gəmisi haqqında hədis mütəvatirdir” deməklə yalan danışmışdır.

---

[1] “Silsilət daifə”, №4503
[2] “Mizanul itidal”, №4530
[3] “Duafa vəl mətrukin”, №346
[4] “Silsilə əd daifə”, №4503
[5] “Mizanul itidal”, 1/10/№15
[6] “Mizanul itidal”, 4/382/№9532
[7] №333

5) *"Ulduzlar yer əhlinə nur saçdığı kimi, Əhli beytim də ümmətə (dində ixtilafdan qorumaq üçün) bir çıraqdır. Buna görə də ərəblərdən kim onlarla müxalif olsa, (Allah ehkamlarında ixtilaf salmı) və ixtilaf salsa, İblisin firqəsinə qoşulmuş olacaqlar."*[1]

— İbn Hacər rəvayyətin birinci hissəsini "Mətalibul aliyyə"[2] kitabında Musəddada, Əbu Bəkr ibn Əbu Şeybə və Əbu Yəlaya istinad edərək nəql etmişdir. İmam Busiri dedi: **"Bu rəvayyəti ibn Əbu Şeybə nəql etmiş, ondan da Əbu Yəla almışdır. Sənəddə Musa ibn Ubeydat adlı zəif ravi vardır."**[3]

Bənzər rəvayyəti Hakim "Müstədrək" kitabında da nəql etmişdir:

حدثنا أبو القاسم عبد الرحمن بن الحسن القاضي بهمدان من أصل كتابه ثنا محمد بن المغيرة اليشكري ثنا القاسم بن الحكم العرني ثنا عبد الله بن عمرو بن مرة حدثني محمد بن سوقة عن محمد بن المنكدر عن أبيه عن النبي صلى الله عليه وسلم النجوم أمان لأهل السماء فإن طمست النجوم أتى السماء ما يوعدون وأنا أمان لأصحابي فإذا قبضت أتى أصحابي ما يوعدون وأهل بيتي أمان لأمتي فإذا ذهب أهل بيتي أتى أمتي ما يوعدون

Muhəmməd ibn əl Muğira əl Yəşkuri adlı ravi zəifdir. Hafiz əs Süleymani bu ravinin sual altında olduğunu qeyd etmişdir."[4]

6) *"Kim sevinclə mənim kimi yaşayıb, mənim kimi ölmək istəyir və əbədi cənnət bağlarına düşmək istəyirsə,Əlini məndən sonra özünə dost və əmir bilməlidir. Onu sevib və məndən sonra Əhli beytimə tabe olmalıdır. Çünki, onlar məndən yaranıb və mənim elmimi əxz etmişlər.Ümmətimdən onların fəzilətini ikar edib,onlarla mənim aramı ayıranlara yazıqlar olsun. Allah onlara şəfaət etməmə izn verməyəcəkdir."*[5]

— İmam Hakim "Müstədrək"də nəql edir:

---

[1] Məktub 8
[2] 4/№4002
[3] "Mətalibul aliyyə", 4/460
[4] "Mizanul itidal", 4/46/№8196
[5] Məktub 10

حدثنا بكر بن محمد الصيرفي بمرو ثنا إسحاق ثنا القاسم بن أبي شيبة ثنا يحيى بن يعلى الأسلمي ثنا عمار بن زريق عن أبي إسحاق عن زياد بن مطرف عن زيد بن أرقم رضى الله تعالى عنه قال قال رسول الله صلى الله عليه وسلم من يريد أن يحيى حياتي ويموت موتي ويسكن جنة الخلد التي وعدني ربي فليتول علي بن أبي طالب فإنه لن يخرجكم من هدى ولن يدخلكم في ضلالة

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: "Kim mənim kimi yaşayıb, mənim kimi ölmək və vəd olunan əbədi cənnət bağlarında olmaq istəyirsə, o Əli ibn Əbu Talibin vilayətini qəbul etməlidir ki, o sizi heç vaxt Allahın itaətindən uzaqlaşdırıb, zəlalətə aparmaz."[1]

Zəhəbi deyir: *"Təlxis"kitabında qeyd edir ki, bu rəvayyət uydurmaya bənzəyir."* هو إلى الوضع أقرب

Şeyx Albani yazır ki, **"hədis təhrif olunub."**[2]

Bu rəvayyəti Təbərani də nəql etmişdir. Hafiz Heysəmi yazır: **"Təbərani nəql etmişdir ki, sənədində Yəhya ibn Yali Əsləmi vardır ki, o zəifdir."**[3]

"Yəhya ibn Yali Əsləmi haqqında Buxari: **"onun hədisləri dolaşıqdır", Əbu Hatim isə "o zəifdir" demişdir."**[4]

Oxşar rəvayyəti Əbu Nueym "Hilliyyətul əvliya" kitabında da nəql etmişdir.

عن زيد بن وهب، عن حذيفة، قال: قال رسول الله صلى الله عليه وسلم من سره أن يحيا حياتي ويموت ميتتي، ويتمسك بالقصبة الياقوتة التي خلقها الله بيده ثم قال لها كوني فكانت، فليتول علي بن أبي طالب

Rəvayyətin sənədi olduqca zəifdir. "Muhəmməd ibn Zəkəriyyə əl Qələbi mətruk ravidir. Dəraqutni yazır ki, o hədislər uydurardı. İbn Məndəh onun tənqid olunduğunu, Zəhəbi isə zəif olduğunu qeyd etmişdir.[5]

Zəhəbi yazır: **"Əbu Hatim, Bişr ibn Mihranın hədislərini tərk etmişdir."**[6]

---

[1] №4642
[2] "Silsilə əd daifə", №892
[3] "Məcmau Zəvaid", №14639
[4] "Mizanul itidal", 4/415/№9657
[5] "Mizanul itidal", 3/550/№7537
[6] həm.yer 1/325/№1224

Şureyh ibn Abdullah olduqca zəif yaddaşı ilə seçilən siqa ravidir. Yəqub ibn Şeybə onun haqqında: **"Siqadır, amma çox zəif yaddaşı vardır. "İbrahim ibn Yəqub Cuzədcani qeyd edir ki, onun yaddaşı zəifdir və rəvayyətləri dolaşıqdır."**[1]

əl Amaş Süleyman ibn Mihran siqa ravidir, amma hədisdə etdiyi tədlisə (təhrif) görə tanınır və bu rəvayyət ondan bu formada nəql olunmuşdur. Tədlis kəlmə olaraq bir şeyin ayıb və qüsurunu gizləmək, açıq və bəlli olması lazım gələn bir şeyi gizli hala gətirmək; satıcının, satdığı malın qüsurunu alıcıya söyləməyib gizləməsi deməkdir. Hədis termini olaraq tədlis; ravinin bir hədisi almadığı kimsədən almış kimi rəvayyət etməsi vəya hədisi aldığı adamı bilinməyən bir ad ya da ləqəb ilə anması, yaxud da isnadda yer alan zəif bir ravini zikr etməyib, buraxmasıdır. Bu şəkillərdə rəvayyət edilən hədisə "*müdəlləs"* deyilir.

Tədlisin tərifindən də başa düşüldüyü kimi hədis rəvayyətində tədlis üç cür olur:

Ravinin bir hədisi özündən eşitmədiyi şeyxdən eşitmiş kimi rəvayyət etməsidir ki, buna "*isnad tədlisi"* deyilir.

Tədlisin ikinci növü; bir şəxsin rəvayyət etdiyi hədisin ravilərini zikr edərkən, o hədisi aldığı şeyxini hər kəs tərəfindən tanınan adı ilə deyil, bilinməyən bir ləqəb vəya künyə ilə anmasıdır. Buna "*şuyux tədlisi"* deyilir. Ravinin bu cür davranmasının yəni, şeyxini hər kəs tərəfindən tanınan adı ilə deyil, bilinməyən bir ləqəb vəya künyə ilə anmasının əsas səbəbi rəvayyət etdiyi hədisi qəbul etdirməkdir. Ravinin bu cür rəvayyət etdiyi hədis də müdəlləs qəbul edilir.

Tədlisin üçüncü növü; bir şəxsin rəvayyət etdiyi hədisin isnadında olan *siqa* ravilər arasındakı zəif bir ravini qeyd etmədən hədisi tamam etibarlı ravilərdən almış kimi göstərməsidir. Buna da "*təsviyyə tədlisi"* deyilir.

Oxşar rəvayyəti Əbu Nueym "Hilliyyətul əvliya" kitabında da nəql etmişdir.

[1] Mizzi, "Təhzib əl kəmal" c.12, №2736

حدثنا محمد بن المظفر ثنا محمد بن جعفر بن عبدالرحيم ثنا أحمد بن محمد بن يزيد بن سليم ثنا عبدالرحمن بن عمران بن أبي ليلى أخو محمد بن عمران ثنا يعقوب بن موسى الهاشمي عن ابن أبي رواد عن اسماعيل بن أمية عن عكرمة عن ابن عباس قال قال رسول الله صلى الله عليه و سلم من سره أن يحيا حياتي ويموت مماتي ويسكن جنة عدن غرسها ربي فليوال عليا من بعدي وليوال وليه وليقتد بالأئمة من بعدي فانهم عترتي خلقوا من طينتي رزقوا فهما وعلما وويل للمكذبين بفضلهم من أمتي للقاطعين فيهم صلتي لا أنالهم الله شفاعتي

İbn Əsakir "Tarix"[1] kitabında Əbu Nueymin sənədi ilə:

اخبرنا أبو علي الحسن بن أحمد أنا أبو نعيم أحمد بن عبد الله نا محمد بن المظفر نا محمد بن جعفر بن عبد الرحيم نا أحمد بن محمد بن يزيد بن سليمان نا عبد الرحمن بن عمران بن أبي ليلى أنا محمد بن عمران نا يعقوب بن موسى الهاشمي عن ابن أبي رواد عن إسماعيل بن أمية عن عكرمة عن ابن عباس قال قال رسول الله (صلى الله عليه وسلم) من سره أن يحيا حياتي ويموت مماتي ويسكن جنة عدن غرسها ربي فليوال عليا من بعدي وليوال وليه وليقتد بالأئمة من بعدي فإنهم عترتي خلقوا من طينتي رزقوا فهما وعلما ويل للمكذبين بمفضلهم من أمتي القاطعين فيهم صلتي لا أنالهم الله شفاعتي

"Kim sevinclə mənim kimi yaşayıb, mənim kimi ölmək istəyir və əbədi cənnət bağlarına düşmək istəyirsə, Əlini məndən sonra özünə dost və əmir bilməlidir. Onu sevib və məndən sonra Əhli beytimə tabe olmalıdır. Çünki, onlar məndən yaranıb və mənim elmimi əxz etmişlər. Ümmətimdən onların fəzilətini ikar edib, onlarla mənim aramı ayıranlara vay olsun. Allah onlara şəfaət etməmə izn verməyəcəkdir."

Bu rəvayyəti nəql edən ibn Əsakir yazır: **"Bu rəvayyət münkərdir. Sənədində bir neçə məchul ravi vardır." Şeyx Albani yazır ki, rəvayyət uydurmadır."**[2]

7) *"Mənə iman gətirən və məni təsdiq edənləri Əli ibn Əbu Talibin vilayətinə tapşırıram. Onu özünə vəli hesab edən şəxs məni özünə vəli hesab edib və məni özünə vəli bilən şəxs, Allahı da sevmişdir. Onu kim sevərsə,məni sevmiş olacaqdır. Məni sevən isə Allahı sevmişdir. Ona kin bəsləyən mənə kin bəsləmiş olar. Mənə kin bəsləyən şəxs isə Allaha kin bəsləmiş olar."*[3]

— Şeyx Albani yazır: **"Rəvayyət olduqca zəifdir."**[4]

Bu rəvayyəti ibn Adiy "Kamil fi duafa" kitabında nəql etmişdir:

[1] 42/240
[2] "Silsilə əd daifə", №894
[3] Məktub 10
[4] "Silsilə əd daifə",№4882

أخبرني محمد بن عبيد الله بن فضيل ثنا عبد الوهاب بن الضحاك ثنا بن عياش عن محمد بن عبيد الله بن أبي رافع عن أبي عبيدة بن محمد بن عمار بن ياسر عن أبيه عن جده قال قال رسول الله صلى الله عليه و سلم أوصي من آمن بي وصدقني بولاية علي فمن تولاه تولاني ومن تولاني تولى الله

Rəvayyətin sənədində üç ciddi qüsur vardır. **Əbdulvahhab ibn Dəhhaq mətruk ravidir.” Əbu Hatim onu yalanda ittiham etmişdir. Nəsai və Dəraqutni isə onu tənqid etmişlər.”**[1]

İsmail ibn Əyaş da tənqid olunmuş ravidir. **Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafinin zəif və mətruk olmasını Buxari, Əbu Hatim, Yəhya ibn Məin qeyd etmişlər.”**[2]

Muhəmməd ibn Əmmar ibn Yasir adlı ravi isə məchuldur. Şeyx Albani onun məchul olduğunu qeyd etmiş, ibn Hibban onu “Siqat” kitabında məchul ravilər sırasında zikr etmişdir.

8) *Əmmar Yasir (əleyhisalam) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) belə buyurduğunu rəvayyət edir: “Ey Rəbbim! O kəs ki, mənə iman gətirib və məni təsdiq edibdir, Əli ibn Əbu Talibin vilayətindən əl çəkməməlidir.Çünki, onun vilayəti mənim vilayətimdir və mənim vilayətim Allahın vilayətidir.”*[3]

— İbn Əsakir “Tarix”[4] kitabında bu rəvayyəti Təbəraniyə istinad edərək nəql etmişdir.

سليمان بن أحمد الطبراني نا محمد بن عثمان بن أبي شيبة نا أحمد بن طارق الوابشي نا عمرو بن ثابت عن محمد بن أبي عبيدة بن محمد بن عمار بن ياسر عن أبيه أبي عبيدة عن محمد بن عمار بن ياسر عن أبيه قال قال رسول الله (صلى الله عليه و سلم) من امن بي وصدقني فليتول على بن أبي طالب فإن ولايته ولايتي وولايتي ولاية الله

Sənəddə Amr ibn Sabit və Muhəmməd ibn Əmmar ibn Yasir adlı ravilər vardır. Amr ibn Sabit rafizi və mətruk ravidir. İbn Məin onun “heçnə” olduğunu bildirmiş, Buxari onlara görə güclü olmadığını, ibn Hibban onun uydurma rəvayyətlər nəql etdiyini qeyd edir.”[5]

---

[1] “Mizanul itidal”, 2/679/№5316
[2] “Mizanul itidal”, 3/634/№7904
[3] Məktub 10
[4] 42/239
[5] “Mizanul itidal”, 3/249/№6340

9) *Peyğəmbər (sallallahu aleyhi və səlləm) xütbələrinin birində buyurur: "Ey camaat! Fəzilət, şərəf, məqam və vəlilik Allah Rəsulunun və onun zürriyyəsinindir. Buna görə də yersiz və batil sözlər sizi yolunuzdan azdırmasın."*

10) *"Ümmətimin hər bir dövründə Əhli beytimdən olan adil və ədalətli adamlar olacaqdır ki, onlar yolunu azmış şəxslərin təhriflərini, təxribatçı adamların dində icad etdikləri puç məsələləri, cahil adamların din haqqındakı səhv təsəvvürlərini inkar və məhv edərlər. Bilin ki, imamlar və sizin rəhbərləriniz Allah dərgahında seçilmiş adamlardır. Belə isə Allah dərgahında özünüz üçün kimi rəhbər və öndər seçdiyinizə diqqət edin."*[1]

— İbn Hacər bu rəvayyəti "Səvaiq" kitabında Əbu Şeyx və Məlaiyə istinad edərək nəql etmişdir. Bu rəvayyəti sənədləri ilə birgə heç bir kitabda tapa bilmədik.

11) *Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Əhli beyt imamlarından qabağa keçməyin ki, həlak olarsınız və onlardan geri qalmayın ki, həlak olarsınız. Onlara öyrətməyin, çünki onlar sizdən daha çox agahdırlar."*[2]

— Bu sözləri Təbərani "Mucəm əl kəbir"[3] kitabında Zeyd ibn Ərqamdan "Səqaleyn" hədisinə əlavə olaraq nəql etmişdir. əl Heysəmi "Məcmau zəvaid" də qeyd edir: **"Sənəddə zəif ravi olan Hakim ibn Cubeyr vardır."** [4]

"Hakimdən bunu Bukeyr əl Qənavi rəvayyət etmişdir ki, o şiə və güclü olmayan ravi olmuşdur."[5] Albani rəvayyəti "Silsilə əhadis əd daifə"[6] də zəif adlandırmışdır.

12) *"Bizim Əhli beytimizi sevin! Bizi sevən kəs (qiyamətdə) Allah ilə görüşdükdə, bizim köməyimizlə behiştə daxil olacaq və canım əlində olana and olsun ki,bizim haqqımızı tanımayana əməlləri fayda verməyəcəkdir."*[1]

---

[1] Məktub 10
[2] Məktub 10
[3] №4971
[4] №14695
[5] "Mizanul itidal", 3/399/№4233
[6] №4914

— Təbərani rəvayyəti "Mucəm əl ausat"[2] da nəql etmişdir. əl Heysəmi "Məcmau zəvaid" də yazır: **"Sənəddə Leys ibn Əbu Suleym və başqaları vardır."**[3]

"Leysdən olan rəvayyəti Qeys ibn Rabiə, ondan Hüseyn ibn Əşkar, ondan da Hərb ibn əl Həsən nəql etmişdir ki, bunların hamısı zəifdir."[4]

Albani bu rəvayyəti **"Silsilə əhadis əd daifə"**[5] **də münkər adlandırmışdır. "İbn Hacər də qeyd etmişdir ki, rəvayyət zəifdir."**[6]

13) *"Ali-Muhəmmədi (sallallahu aleyhi və səlləm) tanımaq oddan xilas olmaqdır. Ali-Muhəmmədi (sallallahu aleyhi və səlləm) sevmək və ona məhəbbət bəsləmək sirat körpüsündən keçid vəsiqəsidir. Ali-Muhəmmədin (sallallahu aleyhi və səlləm) vilayəti əzabdan qurtuluşdur."*[7]

— **"Rəvayyət uydurmadır."**[8] Kələbazi bunu aşağıdakı ravi silsiləsi ilə nəql etmişdir: Muhəmməd ibn Fədl, Muhəmməd ibn Sad Əbu Tibdən, o da Miqdad əl Əsvəddən. Muhəmməd ibn Fədl bu Atiyyə əl Mərvazidir ki, o mətruk ravidir. Onu yalanda Fələsi ittiham etmişdir. Əhməd deyir ki, onun rəvayyətləri yalan əhlinin nəqlləridir. İbn Hacər də "Təqrib"də bu ravinin yalanda ittiham olunduğunu bildirir."[9]

---

[1] Məktub 10
[2] №2230
[3] №15007
[4] "Mizanul itidal", 1/469/№1768
[5] №4916
[6] "Səvaiqul-Muhriqə", 2/498
[7] Məktub 10
[8] "Silsilə əhadis əd daifə", №4917
[9] Həm.yer

Bu rəvayyəti yazdıqdan sonra Əbdulhüseyn haşiyədə yazır:

"Aydındır ki, onları tanımaqdan məqsəd konkret şəxsləri tanımaq,onların adlarını, Peyğəmbər (sallallahu aleyhi və səlləm) övladları olmasını bilmək deyil. Çünki, Əbu Cəhl və Əbu Ləhəb də bunları bilirdilər.Əksinə, məqsəd budur ki, onlar Peyğəmbər (sallallahu aleyhi və səlləm) sonra ixtiyar sahibləridirlər. Bu barədə Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Zamanının imamını tanımadan ölən şəxs cahiliyyət (İslamdan əvvəl zamanda yaşayan) ölümü kimi ölmüş olar." Onların "məhəbbət və vilayət"dən məqsəd o vilayətdir ki, haqq əhli onu imamlar üçün lazım bilirlər."

Qeyd olunan rəvayyətin Sünnə kitablarında əsası yoxdur. Rafizi müəlliflər yalandan bu hədisi imam Muslim, Əhməd və başqalarının kitablarına aid edirdilər. İbn Teymiyyə "Minhəcus sunən"[1] kitabında bu mətnlə mövcud olan hədisin bilinmədiyini qeyd etmişdir.

14) *"Qiyamətdə adam hələ yerindən tərpənməyə macal tapmamış, ondan dörd şey soruşulacaq: Ömrünü hansı yolda sərf etmiş, bədənini hansı yolda qocaltmış, var-yoxu hansı yolda xərcləmiş və bir də Əhli beytimizin məhəbbəti onda olmuşmu."*[2]

— Albani qeyd etmişdir ki, **"bu mətnlə olan rəvayyət uydurmadır."**[3] Rəvayyət ibn Abbasdan *(radiyallahu anhu)* nəql olunur. əl Heysəmi "Məcmau zəvaid" də yazır: **"Sənəddə Hüseyn ibn Həsən əl Əşkar adlı ravi vardır ki,o olduqca zəifdir."**[4]

15) *"Əgər insan bütün həyatı boyu namaz qılıb, oruc tutsa amma, Ali-Muhəmməd (sallallahu aleyhi və səlləm) ilə düşmənçilik etsə odda olacaqdır."*[5]

---

[1] 1/110
[2] Məktub 10
[3] "Silsilə əhadis əd daifə", №1922
[4] №18370
[5] Məktub 10

— Hədisi Təbərani "əl Kəbir"[1] kitabında, Hakim "Müstədrək"[2] də nəql etmişdir. Hakim qeyd etmişdir ki, hədis Muslimin şərtlərinə görə həsən-səhihdir və onunla Zəhəbi razılaşmışdır. Əhli sünnədən olan heç kəs Əhli beytə kin bəsləməyib və bəsləmir. Onlara bağlılıq və hörmət dinin əsaslarındandır. Şeyxul İslam "Vasitiyyə" kitabında yazır:

"Əhli sünnə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **əhlini sevməlidir, onlara dəstək olmalıdır və Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **onlar haqqında olan xatırlatmasını əsas tutmalıdırlar. Çünki, Qədir xumda buyurmuşdur: "Mən Allah xətrinə əhlimə qayğı göstərməyini istəyirəm, Allah xətrinə əhlimə qayğı göstərməyini istəyirəm."** (Muslim)

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* **əmisi Abbasa onun bəzi Qureyşlilərin Bəni Haşim baradə olan narazılıqlarını çatdırdıqda buyurdu: "Canım əlində olana and olsun ki,onlar səni mənim əhlimdən olduğun üçün sevmədikcə iman gətirmiş olmazlar."** (İmam Əhməd və s.)

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Həqiqətən Allah İsmail oğullarını seçdi, onlardan Kənanı,ondan da Qureyşi,Qureyşdən Bəni Haşimi,Bəni Haşimdən də məni seçdi."** (Muslim,Əhməd)

Bu rəvayyətlər yalnız rafizilərin əleyhinədir. Onlar təkcə möminlərin ansaı olan Aişəyə *(radiyallahu anhu)* qarşı duyduqları kinlərinə görə bu hökmə daxil olmuş olurlar.

16) *"Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbəti ilə ölən şəxs şəhiddir. Agah olun,Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbəti ilə ölən şəxs bu dünyadan bağışlanaraq köçəcəkdir. Bilin ki,Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbəti ilə canını tapşıran şəxs bu dünyadan tövbəli gedəcəkdir. Agah olun ki,Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) dostu olaraq ölən şəxs mömin və tam imanlı dünyanı tərk edəcəkdir.Bilin ki,Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) dostu kimi ölən şəxsin ruhunu mələk behiştlə müjdələyəcək,sonra Münkir və Nəkir ona müjdə verəcəklər. Agah olun ki,Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbəti ilə dünyadan köçənlər cah-calal və ehtiramla ər evinə daxil olan və behiştə gedən gəlinə bənzəyəcəklər.Bilin ki,*

[1] №11412
[2] №4712

Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbətilə dünyadan gedən şəxsin qəbrindən behiştə iki qapı açılacaq.Agah olun.Allah Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbətilə dünya ilə vidalaşan şəxsin qəbrini mələklərin ziyarətgahı olacaq. Yadda saxlayın ki, Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) məhəbbətilə can verən şəxs Peyğəmbərin (sallallahu aleyhi və səlləm) dini yolunda canını tapşırmış olar və agah olun ki, Ali Muhəmmədin (sallallahu aleyhi və səlləm) ədavəti ilə ölən şəxsin qiyamət günü alnında belə yazılmışdır: "Allahın rəhmətindən məhrumdur."[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2] də uydurma adlandırmışdır. Ərəbcə olan mətndə bu rəvayyətin Sələbi və Zəməxşərinin təfsirində olduğu bildirilmişdir. İbn Teymiyyə deyir: **"Sələbinin çox təqvalı və abid olmasına baxmayaraq, o sanki gecə qaranlıqda odun yığanlar kimi idi. Yəni, o kitabına təfsir baradə olan yalan-doğru bütün rəvayyətləri alardı."**[3]

Muhəmməd Hüseyn Zəhəbi deyir: **"Sələbinin təfsirini araşdırdıqdan sonra biz orada çoxlu uydurma vəyalan söz və mətnlərin olduğunu görmüş olarıq. Onun nəql etdiyi sözlər din və ağıla tərs gəlsə belə biz onun bunların yalan və uydurma olduqlarını dediyini görmürük."**[4]

17) *"Biz Əhli beyti yalnız əxlaqlı möminlər sevir.Bizimlə düşmənçilik edənlər isə zalım münafiqlərdir."*[5]

— İbn Hacər rəvayyəti "Səvaiq"kitabında Muhibb ət Təbəriyə istinadən sənədsiz nəql etmişdir. İndi isə, bir anlıq "əl Muraciət" kitabına qayıdaq. Bütün bu rəvayyətləri yazan Əbdulhüseynin məktubundan sonra guya sünni şeyxinin məktubu gəlir.

[1] Məktub 10
[2] 4920
[3] "Muqəddimə fi usuli təfsir",səh 79-80
[4] "əl İsrailiyyət fi təfsir vəl hədis",səh 169
[5] Məktub 10

Orada yazılır: *"Sənin dəlillərin arasında özümü qərq etdikdə və gətirdiyin dəlilləri dəqiq şəkildə araşdırdıqda özümü qəribə bir döyüşdə hiss etdim. Dəlillərinə nəzər salırdım və onları mütləq (sübut olunmuş) hesab edirdim. Əhli beytimamlarına baxmaqla, onları Allah və Peyğəmbər (sallallahu aleyhi və səlləm) qarşısında elə bir məqamda görürdüm ki, görkəmləri və cəlalları qarşısında təvazökarlıq qanadlarını sərmək lazımdır. Sonra cümhur, qiblə əhli və İslam ümmətinin (sünnilərin) əksəriyyətini müşahidə edərək onların Əhli beytələyhinə, yəni bu dəlillərin zahirlərinin tələb etdiyi şeyin əleyhinə olduqlarını görürdüm. Vücudumda möhkəm bir çəkişmə əmələ gəlmişdi. Özümdə iki mövqe görürdüm. Biri məni bir tərəfdən dəlilə tabe olmağa çəkir, o biri isə müsəlmanların əksəriyyəti olan tərəfə sövq edirdi. Birincisi cilovunu sənin əlinə tapşırmış və səndən ayrılmır, ikincisi isə inadkarcasına özünü sizdən uzaqlaşdıraraq üsyan edirdi."*

Allahu Əkbər! Rafizi məktubunda 14 dəlil gətirmişdi ki, onlardan 9-u zəif və uydurma olduğuna görə məqbul deyildi və bu dəlilləri Şeyx Bişri məqbul adlandıra bilərdi?!!! Rafizinin məktubunda olan düzgün arqumentlərə gəlincə, məgər müsəlmanlardan kimsə onlara etiraz edir? Rafizi müəllif bu məktubu Şeyx Bişri adından uydurараq ona və sünnilərə böhtan ataraq, yalan danışmış və Əhli sünnətə kölgə salmışdır!Allahın lənəti yalançıların üzərinə olsun.!!!

18) 12-ci məktubda Musəvi guya Əhli beyt baradə nazil olan ayələr baradə olan dəlilləri nəql edir. *"Məgər Quranda onlardan başqa digər kimsənin ricsdən (ləkə) təmizləndiyi qeyd olunubmu? Məgər "təthir" ayəsi onlardan başqa digər kimsə üçün nazil olubmu?"*[1]

— Allah Təala buyurur: **"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."**[2]

[1] Məktub 12
[2] Əhzab 33

Bu ayə şiələr tərəfindən Əhli beytin məsum olmasına dəlil olaraq gətirilir. Onlara görə Əhli beytə yalnız Əli *(radiyallahu anhu)* və ailəsi daxildir. Şiələr qətiyyətlə Əhli beytə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələrinin və Əlinin *(radiyallahu anhu)* ailəsindən başqa qeyrisinin daxil olmasını inkar edirlər.

Təbəri təfsiridə[1], Vahidi "Əsbab ən nuzul"da, Təbərani "Saqir"[2]də və "Ausat"[3] kitablarında Əbu Səid əl Xudridən *(radiyallahu anhu)* rəvayyət edirlər: **"Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir." ayəsi beş nəfər haqqında nazil olmuşdur. Bunlar Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **, Fatimə, Əli, Həsən və Hüseyndir** *(radiyallahu anhum)* **"**

Bu rəvayyətin bütün sənədlərində Atiyyə Aufi - Əbu Səiddən ravi silsiləsi mövcuddur. Bu haqqda yuxarıda bəhs edildi. Gəlin araşdıraq görək, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələri Əhli beytdəndirmi?

Əvvəla, öncəki ayələrə diqqət etmək lazımdır.

28. *Ey Peyğəmbər!* ***Zövcələrinə de:*** *"Əgər siz dünya həyatını və onun bərbəzəyini istəyirsinizsə, gəlin sizi dünya malıyla məmnun edib gözəl tərzdə sərbəst buraxım.*

29. Yox, əgər Allahı, Onun Elçisini və Axirət yurdunu istəyirsinizsə, bilin ki, Allah aranızdan yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır.

30. ***Ey Peyğəmbərin zövcələri!*** *Sizlərdən hər kim açıq-aşkar bir çirkin iş görsə, onun əzabı ikiqat artar. Bu, Allah üçün asandır.*

31. Sizlərdən hər kim Allaha və Onun Elçisinə itaət edib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bol ruzi hazırlamışıq.

---

[1] №21727

[2] №375

[3] №3456

*32. **Ey Peyğəmbərin zövcələri!** Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, yad kişilərlə nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Şəriətə müvafiq qaydada danışın.*

33. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və s.izi tərtəmiz etmək istəyir.

34. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, hər şeydən Xəbərdardır.

28-ci ayədən başlayaraq 34-cü ayənin sonuna qədər müraciət Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələrinədir. İmam Tirmizi "Sunən" kitabında yazır:

"Ömər ibn Sələmə rəvayyət edir ki, Əhzab 33-cü ayə Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* **Ümm Sələmənin evində nazil olmuşdu. Nüzuldan sonra Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **öz əbasının altına Fatimə, Əli, Həsən və Hüseyni aldı və dedi: "Allahım, bunlar mənim ailəmdir, onları günahlardan təmizlə və pak et." Ümm Sələmə soruşdu: Ey Allahın Elçisi. Mən də onlardanam? Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Sən yerində qal. Sən onsuz da xeyr içindəsən."**[1]

Sual yarana bilər: "Görəsən niyə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Ümm Sələməni əba altına almadı?"

Cavabında deyirik:

1) Əvvəla bu ayələr artıq Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələri haqqında enmişdi. Təkrar olaraq onları bir daha dilə gətirilməsinə ehtiyyac yox idi.

2) Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* əba altına kimləri salmışdı? Bunlar adı çəkilən dörd nəfər idi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Ümm Sələməni ona görə əba altına dəvət etmədi ki, orada ona naməhrəm olan Əli *(radiyallahu anhu)* var idi.

3) Hədisdə deyilir ki, ayə nazil olduqdan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlinin *(radiyallahu anhu)* əhlini əba altına topladı və buyurdu: **"Allahım, bunlar mənim ailəmdir, onları günahlardan təmizlə və pak et."**

[1] Sunən 3205

Hədisin bu hissəsi artıq ayənin Əlinin *(radiyallahu anhu)* əhli baradə nazil olması iddialarını puç edir. Əgər ayə onlar baradə nazil olsaydı, onları əlavə olaraq əba altına alıb, dua etməyə nə ehtiyyac vardı?

4) Quranın özündə zövcələrin Əhli beytdən olmasına kifayət qədər dəlillər vardır.

Allah Təala buyurur: *"Onun arvadı pərdə arxasında durmuşdu. O, güldü. Biz onu İshaqla, (İshaqın) ardınca da Yaqubla müjdələdik.O dedi: "Vay halıma! Mən bir qoca qarı, bu ərim də bir qoca kişi olduğu halda doğa bilərəmmi? Doğrusu, bu, təəccüblü bir şeydir".Onlar dedilər: "Allahın əmrinə təəccübmü edirsən?* ***Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun!*** *Həqiqətən, O Tərifəlayiqdir, Şan-şöhrətlidir."*[1]

Mələklər İbrahimin *(əleyhisalam)* zövcəsinin suallarına cavab verərkən dedilər: **"Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun!"**

Həmçinin, bu ayəni xatırlatmaqda fayda var:

"Bir zaman Musa əhlinə (öz ailəsinə): "Mən, doğrudan da, bir od gördüm. Qoy gedib ondan sizə bir xəbər vəya bir köz gətirim ki, qızınasınız"– demişdi."[2]

Musanın *(əleyhisalam)* zövcələrinin ailəyə daxil olduqlarını təsdiq edib, ev əhlindən olmamalarını söyləmək məntiqsiz olardı. Bu ayəni hər hansı kimsənin məsumluğuna dəlil olaraq gətirənə Qurandan digər bir ayəni misal çəkməkdə fayda var.

"Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun. Yaxınlıq edib natəmiz olmuşsunuzsa, qüsl edin. Əgər xəstə vəya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə vəya qadınlara toxunmusunuzsa (cinsi əlaqədə olmuşsunuzsa), su tapmasanız, təmiz torpaqla təyəmmüm edin

[1] Hud 71-73
[2] Nəml 7

*və ondan üzünüzə və əllərinizə sürtün. **Allah** sizi çətinliyə salmaq istəməz, lakin **O sizi pak etmək** və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz."*[1]

Əhli beytə olan **"Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."**müraciəti ilə bütün müsəlmanlara edilən "**Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz."** müraciəti arasında elə bir fərq yoxdur. Hər iki ayədə «لِيُطَهِّرَكُمْ» sözü istifadə olunur.

Cəlaləddin Suyuti yazır: "Ey ev əhli!" yəni, ey Peyğəmbər zövcələri! "Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir." yəni, **Allah sizi günahlardan təmizləmək və tərtəmiz etmək istəyir."**[2]

İbn Kəsir bu ayənin təfsirində yazır: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir." Bu ayə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **zövcələrinin Əhli beytdən olmalarına dəlildir. Çünki, məhsz onlara görə ayələr nazil olubdur."**[3]

Vəhb Zuhəyli dedi: **"Ey ev əhli!" Ey Peyğəmbər zövcələri. "Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. "Sizi günahlardan təmizləmək və ləkə olacaq əməllərdən çəkindirmək istər. Beyzəvi dedi: "Şiələr yalnız Əlinin** *(radiyallahu anhu)* **ailəsini Əhli beyt hesab edirlər və ittifaq ediblər ki, ancaq onlar hüccətdirlər. Bu çox zəif görüşdür. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **Əlinin** *(radiyallahu anhu)* **ailəsini əba altına alması onların Əhli beytdən olmalarını təsdiq edir. Amma, bu o demək deyildir ki, Əhli beyt ancaq onlardır."**[4]

Daha sonra Zuhəyli Əhli beytə konkret tərif verir: **"Zövcələr, yaxın qohumlar Əhli beyt sayılırlar"**[5]

---

[1] Maidə 6
[2] "Təfsir Cəlaleyn", c.3,səh 76
[3] "Təfsir ibn Kəsir", c.4,səh 532
[4] "Təfsir əl Munir",c.11,səh 309
[5] həmin yerdə səh 313

Məvdudi öz şərhində yazır: **"Bəzi hədislərə əsasən Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **zövcələrini Əhli beytdən saymayanlar səhv edirlər. Çünki, Quranın açıq aydın ayələri bəzi rəvayyətlərlə rədd oluna bilməz. Bundan başqa bu hədislər bizə bu qənaətə gətirmir. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **dörd nəfəri əbasının altına alıb Ümm Sələməni vəya Aişəni dəvət etməməsi heç də onların Əhli beytdən olmamalarına dəlalət etmir. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **zövcələri Əhli beytdən ona görə sayılırlar ki, onlara Quranda bu cür xitab olunub. Belə açıq ayəni görən Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **murad etdi ki, yanlışlıq olmasın və bildirsin ki, Əlinin** *(radiyallahu anhu)* **ailəsi də Əhli beytdəndir. Bu ayələr zövcələr baradə endiyinə görə əlavə olaraq onları bir daha zikr etməyə ehtiyyac yox idi."**[1]

Fəxrəddin Razi yazır: **"Əhli beyt: Bura həm kişilər, həm də qadınlar daxildir. Allah Təala qadın cinsində başlayıb, kişi cinsində ayəni tamamladı. Əhli beytə kimlər daxildir məsələsində fərqli fikirlər mövcuddur. Ən düzgün rəy: "Övladlar, zövcələr, həmçinin Həsən** *(radiyallahu anhu)* **və Hüseyn** *(radiyallahu anhu)* **Əhli beytdən sayılırlar."**[2]

19) "*Məgər Quran onlardan başqa kimsələri sevməyi vacib buyurmuşdur?*"[3]

— Burada Hüseynin qulu digər bir ayəyə işarə edir. Allah Təala buyurur: *"İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi (nemət) budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm." Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir."*[4]

Şiələrə görə bu ayədə əhli beytə məhəbbətin vacib olmasına dəlil vardır. Şübhəsizdir ki, müsəlman kəs əhli beyti sevməlidir. Lakin, bu ayə şiələr üçün dəlil sayıla bilməz. İmam Əhməd Musnədində yazır:

---

[1] "Təfhimul Quran"
[2] "Təfsir məfatihul qeyb", c.18,səh 261
[3] Məktub 12
[4] Şura 23

"Tavusdan rəvayyət olunur ki, bir adam ibn Abbasa gələrək bu ayəni oxudu. *"Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm"* və bunun izahını soruşdu. Yaxında olan Səid ibn Cubeyr cavab verdi ki, burada Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* əhli beyti nəzərdə tutulur. İbn Abbas *(radiyallahu anhu)* ona üzünü tutaraq dedi: **"Sən tələsdin. Bu ayə nazil olan zaman Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **hər Qureyş tayfası ilə qohumluq əlaqələri var idi. Bu ayədə: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm" nəzərdə tutulur ki, Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **onların qohumluq əlaqələrini möhkəmləndirməsindən başqa heçnə lazım deyil. Yəni, Qureyş Peyğəmbəri** *(sallallahu aleyhi və səlləm)* **heç olmasa qohumluq əlaqələrinə görə sevməyə dəvət edilir."**[1]

İbn Hacər" Matalibul Aliyyə" kitabında bu hədisi Əhməd ibn Maniidən rəvayyət edir və deyir ki, **hədis səhihdir."**[2]

İbn Kəsir yazır: *" De. Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm."* **Ey Muhəmməd! Qureyşdən olan müşriklərə de:" Mən sizdən risaləti təbliğ müqabilində heçnə istəmirəm. Sizdən mənə qarşı heç bir pislik etməmənizi və risaləti təbliğdə mənə yardım etmənizi istəyirəm. Əgər yardım etmirsinizsə, heç olmasa qohumluq əlaqələrimizə görə mənə qarşı pislik etməyin."**[3]

İmam Buxari "Səhih"də yazır: "İbn Abbas *(radiyallahu anhu)* dedi: **"Qureyşdə elə bir nəsil yox idi ki, Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **onlar ilə qohum olmasın. İbn Abbas** *(radiyallahu anhu)* **deyərdi: "De: Mən sizdən bunun əvəzində" yəni, bizim aramızda olan qohumluq əlaqələrini qoruyun."**[4]

[1] İbn Hacər,"Fətul Bari", 8/427
[2]" Matalibul Aliyyə", 3/368
[3] Təfsir İbn Kəsir 5/312
[4] "Səhih Buxari" №4818

Bu həmçinin, imam Qurtubinin öz təfsirində istinad etdiyi rəydir. Şabi dedi: **"İnsanlar bizə bu ayə baradə çox sual verməyə başlayanda biz ibn Abbasa** *(radiyallahu anhu)* **məktub yazdıq. Cavabında ibn Abbas** *(radiyallahu anhu)* **yazırdı."Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **Qureyşin bütün nəsilləri ilə qohumluq əlaqələri var idi. O, Qureyşin bütün nüfuz sahibi kimsələrinə qohum sayılırdı. Uca Allah ona ayə nazil etdi.** *"De. Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm."* **Yəni, mən sizdən heçnə istəmirəm. Sadəcə mənə qohumunuz olduğuma görə hörmət edin və sevin. Mənimlə qohumluq əlaqələrini davam elətdirin və göndərildiyim risaləti təsdiq edin."**[1]

Ona görə burada qohumluq əlaqələri nəzərdə tutulur. Yəni, mənə Peyğəmbər kimi tabe olmursunuzsa, heç olmasa qohumunuz kimi tabe olun.

İkrimə dedi: **"Qureyş elə bir qəbilə idi ki, orada qohumluq əlaqələrinə böyük önəm verilirdi. Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **peyğəmbərlik veriləndə bu qohumluq əlaqələri kəsildi. Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **isə onlara deyirdi: "Mənimlə qohumluq əlaqələrini əvvəllər olduğu kimi davam elətdirin."**[2]

İmam Təbəri dedi: **"Şabi və Tavus ibn Abbasdan, Muğira İkrimədən, Hüseyn Malikdən, Səid ibn Cubeyr Qətadadan, Əbu Nuceyx Mücahiddən rəvayyət edirlər: De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm." Yəni, mən sizdən qohumluq əlaqələrini qırmamağı istəyirəm. Bu mətnə görə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **Qureyşə dedi: "Əgər mənə kömək etmirsinizsə,heç olmasa məndən şərinizi uzaq edin. Risaləti sərbəst yaymaqda mənə mane olmayın, qohumluq əlaqələrini qoruyun."**

20) *"Məgər onlardan başqası "Həl əta" surəsində tərifləmirmi? Allaha and olsun ki,orada yalnız onlardan bəhs edilir."*

— Haşiyədə yazır: *"76-cı surə olan "İnsan" surəsi nəzərdə tutulur ki,orada peyğəmbər əhli beyti və onların düşmənləri baradə bəhs olunur."*[3]

---

[1] əs Sabuni "Səffətul təfsir" c.6,səh 453

[2] "əl Camiul əhkamul Quran", c.15,səh 396

[3] Məktub 12

Uca Allah buyurur:

6. (Bu elə) bir bulaqdır ki, Allahın qulları ondan (doyunca) içər və onun mənsəbini istədikləri səmtə yönəldərlər.

7. Onlar vəd etdikləri nəziri verər və vəhşəti (hər yeri) sarsıdacaq Gündən qorxarlar.

8. Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər

9. (və deyərlər): "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik!

Şiələr hesab edirlər ki, bu ayələr iki fəqir və bir əsirə evlərində qalan son yeməyi sədəqə verən zaman Əli ibn Əbu Talib və zövcəsi Fatimə *(radiyallahu anhə)* baradə nazil olmuşdu. Vahidi bu rəvayyəti "Əsbab ən nuzul" kitabında sənədsiz olaraq nəql etmişdir. Bu tipli rəvayyətlər çox şübhəlidir. Təfsir alimi Alusi bu rəvayyətləri şiələrin uydurması hesab etmişdir.[1]

Bəğəvi "Məalimul tənzil" kitabında yazır ki, bu ayələr bir ənsarın eyni gündə fəqiri, yetimi və əsiri yedizdirdiyi zaman nazil olmuşdu."[2]

Həmçinin, nəql olunur ki, bu ayələr "Əbu Dəhdah əl Ənsari baradə, o iftarını açmaq istədiyi zaman onun yanına gələn fəqir, yetim və əsiri yedizdirdiyi zaman nazil olmuşdu."[3]

Əgər mövcud rəvayyətlərdən heç birinin səhihliyini təsdiq etmək mümkün olmazsa, onda Qurtubinin rəyini əsas almaq lazım gəlir. O, deyir: **"Daha doğru rəy bu olardı ki, bu ayələr xeyir və saleh əməllər etmək istəyənlərin hamısı baradə nazil olmuşdu."**

Qeyd etmək lazımdır ki, Əli *(radiyallahu anhu)* və Fatimə *(radiyallahu anhu)* hicrətin ikinci ilində evlənmişdilər. Eyni zamanda alimlər bu surənin hicrətdən öncə, yoxsa sonra nazil olması baradə ixtilaf etmişlər. Həsən və İkrimə hesab

[1] "Əsbab ən nuzul" 2/928

[2] 4/428

[3] İbn Cəuzi "Zadul məsir" 6/345

etmişlər ki, 24-cü ayədən başqa bütün surə Məkkədə, yəni hicrətdən öncə nazil olmuşdu. İbn Yasər və Mukattil həmçinin bu suranı Məkkə surələrindən hesab etmişlər. İbn Abbasdan da bu rəy varid olmuşdur."[1]

21) Musəvi yazır: *"Allahın ipindən yapışın və ayrılmayın. (Ali İmran 103)* Haşiyədə yazır: *"Səlabi "Kəbir" təfsirində sənəd ilə Əban ibn Təğlibdən, o da İmam Sadiqdən (ə) nəql etmişdir ki, Həzrət deyib: "Yuxarıdakı ayədə "həbibullah"dan məqsəd bizik."*[2]

— Şəhiq ibn Məsuddan rəvayyət edir və **Qatadə, Dəhhaq, Suddi demişlər ki, "Allahın ipi"dən nəzərdə tutulan Qurandır. Şabi, ibn Məsuddan rəvayyət edir ki,"ipdən" məqsəd - camaatdır. İbn Abbas, ibn Zeyd, Muqəttil və ibn Quteybə demişlər ki, "ipdən" məqsəd Allahın dinidir."**[3]

Bura hər bir şiənin əzbər bildiyi "Səqaleyn" hədisindən bir hissəni də əlavə etmək yerinə düşərdi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Bu Allahın kitabı olan Qurandır. <u>O sanki, yer üzünə endirilmiş bir ipdir...."</u>**

Şiələrin ən mötəbər kitabı olan "Nəhcul Bəlağa" "Allahın ipi"nin" Quran olduğunu təsdiqləyir. 176-cı xütbədə Əli *(radiyallahu anhu)* deyir: **"Həqiqətən bu Quran Allahın möhkəm ipidir...."**

22) *Məgər onlar həmin sadiqlər deyildirlərmi? Allah buyurur: "Sadiqlərlə olun."*[4]

— Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun."**[5]

Şübhə yoxdur ki, Allahın elçisi *(sallallahu aleyhi və səlləm)* ən birinci sadiq idi. Həmçinin, onun əshabı və Əhli beyti də sadiq olmuşlar. Axı bu ayənin Əhli beyt haqqında nazil olmasının dəlili nədir? Ayə bütün bu gözəl xüsusiyyətə sahib

[1] "Əsbab ən nuzul" 2/927
[2] Məktub 12
[3] İbn Cəuzi "Zadul məsir" 1/420
[4] Məktub 12
[5] Tövbə 119

olan sadiqlər haqqında nazil olmuşdu. Ayənin nazil olma səbibinə gəlincə, buna səbəb Kəbb ibn Malik *(radiyallahu anhu)* olmuşdur. Ayələrə ümumi konteksdə nəzər salaq:

118. *Geri qalmış üç nəfəri də (bağışladı). Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri (kədərdən) sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra (Allah) peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir.*

119. *Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.*

120. *Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə (döyüşdə) Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz."*

Bu ayələrin nazil olma səbəbi baradə olan hadisələri Mubarəkfurinin kitabından oxuyuruq:

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Təbuk səfərindən qayıtdıqdan sonra onun yanına bir qrup bu səfərdə iştirak etməyən münafiq gəldi. Onlar döyüşə getməmələrinə bəhanə olacaq səbəblər və üzrlər gətirərək, Allaha and içdilər. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* isə onların andlarını qəbul edərək, onları Allaha həvalə etdi. Həmçinin, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına üzrə, bu səfərə getməyən üç səhabə də gəldi. Bunlar – Kəbb ibn Malik, Murarə ibn ər Rabi və Hilal ibn Umeyyə idi. Onlar həqiqəti söyləyərək, heç bir konkret səbəb olmadan bu səfərdən geri qaldıqlarını dedilər və bəhanə gətirmədilər. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onlara Allah haqqlarında hökm verənə qədər gözləmələrini əmr etdi. Bu müddət ərzində isə bütün müsəlmanlara onları boykot etmələrini, əlaqələri kəsmələrini tapşırıldı. Bundan sonra ətrafdakıların onlara münasibəti kəskin dəyişdi və dünya onlara dar gəlməyə başladı. Qırx gündən sonra isə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələrinə yaxınlaşmağı belə onlara qadağan etdi. Təqribən əlli gündən sonra Allah Təala onların tövbələrini qəbul etdiyini bildirən ayələr nazil etdi.

Uca Allah buyurur: ***"Geri qalmış üç nəfəri də (bağışladı).*** *Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri (kədərdən) sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra (Allah) peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir."*

Bunu öyrənən müsəlmanlar sevindilər və bu xoş xəbəri digər müsəlmanlara çatdırmağa tələsdilər. Bu gün onların həyatında ən əlamətdar günlərdən biri oldu. Onlar kimsəsizlərə sədəqə verir və bol ehsanlar edirdilər. Bununla yanaşı münafiqləri və onların yalanlarını ifşa edən bir sıra ayələr nazil oldu."[1]

İbn Kəsir təfsirində yazır: **"Onların bu səfərdə iştirak etməmələri üçün üzrlü səbəbləri yox idi. Ona görə onlar müəyyən müddətə belə cəzaya layiq görüldülər. Sonra Uca Allah onların tövbəsini qəbul etdi. Onların həqiqəti (münafiqlər kimi bəhanələr gətirmədilər) söyləmələri tövbələrinin qəbul olunmasına vəyaxşı sonluğa yetişmələrinə səbəb oldu. Məhz, buna görə Allah bu ayəni nazil etdi: "Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun." yəni, həqiqəti söyləyin, haqqla olun və sadiqlərlə olun ki, ziyana və həlaka uğramaqdan qorunasız."**[2]

Həmçinin, bu ayənin ibn Ömər tərəfindən məqbul və məntiqli izahını Suyuti "Durr əl mənsur" kitabında nəql edir: **"İbn Munzirdən, ibn Əbu Hatim və ibn Mərdaveyh, ibn Ömərin belə dediyini rəvayyət edirlər: "Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun" yəni, Muhəmməd** *(sallallahu aleyhi və səlləm)* **və səhabələri ilə birgə olun."**

Səid ibn Cubeyr dedi: **"sadiqlərlə birgə olun" yəni, Əbu Bəkr və Ömər ilə."**[3]

Həmçinin, ibn Mərdaveyh ibn Abbasdan *(radiyallahu anhu)* nəql edir: **"yəni, Əli ibn Əbu Taliblə birgə olun."**[4]

---

[1] "Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* həyatı","Təbuk səfərindən geri qalanlar" fəsli

[2] Təfsir "Tövbə 119

[3] "Durr əl mənsur"Tövbə 119

[4] həm.yer

İbn Əbu Hatim Suddidən rəvayyət edir: **"yəni, Kəbb ibn Malik, Murarə ibn Əbu Rabi və Hilal ibn Umeyyə ilə birgə olun."**[1]

Yekun olaraq demək istərdik ki, bu ayədə düzgünlük və sadiqliklə seçilən bütün insanlar nəzərdə tutulur. Bu üç səhabə ayələrin nazil olmasına səbəb olmuşdularsa, bu Allahın hökmü qiyamət gününə qədər müsəlmanlara haqq yolu göstərir. Hər zaman və hər yerdə sadiqlərlə birgə olmaq lazımdır. Daha doğrusunu Allah bilir!

23) Musəvi yazır: *"Məgər onlar "siratullah" deyildirlərmi ki, Allah buyurmuşdur: "Pərakəndə yol ilə getməyin, yoxsa Allah yolundan saparsınız"*[2]

— Söhbət Ənam surəsinin 153-cü ayəsi baradədir. Uca Allah buyurur: *"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar)sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz"*[3]

Ayəni düzgün anlamaq üçün ona ümumi konteksdə yanaşmaq lazımdır.

152. *"Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız."*

153. *"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar)sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz"*

152-ci ayədə gördüyümüz kimi Rəhman Allah 153-cü ayədə "doğru yolun" nə olduğunu izah etmişdir.

Doğru yolla getmək istəyənə Uca Allah buyurur:

[1] həm.yer
[2] Məktub 12
[3] Ənam 153

a) *Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın!*

b) *Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin.*

c) *Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun.*

d) *Allah qarşısındakı əhdə sadiq qalın.*

İmam Darimi ibn Məsuddan rəvayyət edir: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **əli ilə qumda xətt çəkdi və bizə dedi: "Bu Allahın doğru yoludur." sonra bu xəttin sağında və solunda digər xəttlər çəkdi və buyurdu: "Bu elə bir yollardır ki,onların hər birinin başında şeytan oturaraq insanları ora çağırır." sonra bu ayəni oxudu: "Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar) sizi Allahın yolundan uzaqlaşdırar."**[1]

Qurtubi bu hədisin isnadının səhih olduğunu qeyd etmişdir.[2]

İmam Təbəri "Ədəbin nufus" kitabında nəql edir: **"Bir nəfər ibn Məsuddan soruşdu: "Hansı yol düzgün (siratul mustəqim) yoldur? O, dedi: "Muhəmməd** *(sallallahu aleyhi və səlləm)* **bizi bu yola yönəltdi. Onun bir tərəfi cənnətə gedir. Onun sağında və solunda bir neçə başqa yollar vardır ki, orada olan carçı ətrafdan keçənləri ora dəvət edir. O yollar özlərinə tabe olanları gec vəya tez cəhənnəmə aparacaqdır. Kim ki, doğru yola tabe olarsa, bu yol onu cənnətə çatdıracaqdır." Sonra ibn Məsud bu ayəni oxudu: "Bu, Mənim doğru yolumdur, onu tutub gedin...."**[3]

24) Əbdulhüseyn yazır: *"Məgər onlar "ulul-əmr" (rəhbərlər) deyillərmi? Allah buyurur: "Ey iman gətirənlər. Allaha itaət edin, Peyğəmbərə və sizin özünüzdən olan rəhbərlərin əmrinə də itaət edin."*[4]

---

[1] Darimi, "Sunən" №204, Əhməd "Musnəd" №3928 və s

[2] "Camiul əhkamul Quran" Ənam 153

[3] "Camiul əhkamul Quran", Ənam 153

[4] Məktub 12

— Uca Allah buyurur: *"Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə (şəriətə uyğun şəkildə itaət edin). Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanır-sınızsa, Allaha və (Onun) Elçisinə müraciət edin. Bu, (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."*[1]

Nüzul səbəbi:

İmam Buxaridə keçən hədisdə: "Əli *(radiyallahu anhu)* rəvayyət edir ki, bir dəfə Rəsulullah *(sallallahu aleyhi və səlləm)* qəzvəyə bir dəstə əsgər göndərdi. Onların başına ənsarlardan birini təyin edir və digərlərinə ona itaət etmələrini əmr edir. Səfərdə olarkən onların əmiri nədənsə qəzəblənir və deyir: "Məgər Allah Rəsulu *(sallallahu aleyhi və səlləm)* sizə mənə tabe olmanızı əmr etmədimi?! Onlar bəli dedilər. Əmirləri onlara odun toplamağı əmr elədi, onlar tapşırığı yerinə yetirdilər. Daha sonra o bu odunları yandırmağı əmr etdi, onlar da bunu yerinə yetirdilər. Hər şey hazır olandan sonra başçıları onlara bu tonqala girməyi əmr elədi. Onlar ilk öncə bunu etmək istədilər. Sonra bir-birilərini bundan çəkindirməyə başladılar və dedilər: "Oddan Allah Rəsuluna sığınırıq." Bu sözü onlar alov və qəzəb səngiyənə kimi söylədilər. Bu hadisə Rəsulullaha *(sallallahu aleyhi və səlləm)* çatdıqda buyurdu: **"Əgər onlar bu oda girsəydilər, artıq oradan Qiyamət günü qopana qədər çıxmayacaqdılar. Həqiqətən, itaət şəriətin hüdudları çərçivəsində olmalıdır."**[2]

Ayənin təfsiri

İbn Kəsir yazır: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* qəzvəyə bir dəstə əsgər göndərir və onları başçı olaraq bir ənsarı təyin edir. Bir neçə gün səfərdən sonra əmirləri əsgərlərinə qəzəblənir və deyir: "Məgər Allah Rəsulu *(sallallahu aleyhi və səlləm)* sizə mənə tabe olmanızı əmr etmədimi?! Onlar bəli dedilər. Əmirləri onlara odun toplamağı və onu

[1] Nisa 59
[2] "Səhih Buxari" №4340

yandırmağı əmr elədi. Daha sonra dedi: "İndi sizə əmr edirəm ki, bu oda girin." Onlar tərəddüddə olarkən aralarında olan bir gənc dedi: "Siz Allah Rəsuluna *(sallallahu aleyhi və səlləm)* oddan xilas olmaq üçün itaət etmisiz. Bu əmri Rəsulullaha *(sallallahu aleyhi və səlləm)* çatmamış yerinə yetirməyin. Əgər o bunu bizə əmr etsə bunu edərik."

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına çatanda onlar bu hekayəni ona danışdılar. O isə cavabında dedi: "Əgər siz bu oda girsəydiz, artıq oradan Qiyamət günü qopana qədər çıxmayacaqdınız. Həqiqətən, itaət şəriətin hüdudları çərçivəsində olmalıdır. "Bu hədisi Buxari və Muslim rəvayyət etmişlər.

"özünüzdən olan rəhbərlərə" **sözlərinə gəlincə, alimlərin əksəriyyətinin görüşünə görə bu əmr, güc, hökm sahibi olan hər kəsə, həmçinin alimlərə şamildir.**

"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin."

Allah Təala bildirir ki, istənilən mübahisəli məsələ üçün müsəlmanlar Allah və Rəsulunun hökmünə müraciət etməlidirlər. Necə ki, digər ayədə buyrulur: *"İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir."*[1]

Əbul Qasim əl Qəzvini bu ayənin şərhində yazır: **"Bəzilərinə görə "özünüzdən olan rəhbərlərə" ayəsinə sərkərdələr, bəzilərinə görə isə alimlər aiddir." Amma, bu ifadəyə hər iki məfhum daxildir."**[2]

İmam Qurtubi yazır: **"Cabir ibn Abdullah və Mücahid hesab edirdilər ki, "ulul əmr" sözündən Quranı və elmi bilənlər nəzərdə tutulur. Həmçinin, imam Malik də bu rəydə idi. Dəhhaq da bu fikirdə idi: "Uca Yaradan fəqih və din alimlərini nəzərdə tuturdu."**

Mücahiddən nəql olunur ki, burada nəzərdə tutulanlar səhabələrdir. İkrimə burada Əbu Bəkr *(radiyallahu anhu)* və Öməri *(radiyallahu anhu)* də nəzərdə tuturdu. Süfyan ibn Ueyynə Hakəm ibn Əbandan rəvayyət edir ki, İkrimədən ağasından övlad dünyaya gətirən cariyyə baradə soruşdular. O, dedi ki, belə qadınlar azad edilməlidir. Ondan bunun dəlilini istədikdə isə dedi: "Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət

[1] İbn Kəsir təfsiri, c.1,səh 436

[2] "Muxtəsər şuabul iman", səh 139

edin. ”Ömər *(radiyallahu anhu)* əmr sahiblərindən idi. O, deyirdi ki, hətta cariyyə ölü uşaq dünyaya gətirsədə onu azad etmək lazımdır. İbn Keysan “aranızdan olan əmr sahibləri”dən məqsədin insanların işlərini idarə edənlər və elm əhli olduğunu deyərdi. Ən doğru rəy isə burada birinci və ikinci rəylərdir.”[1]

İmam Buxari Səhihində: “İbn Ömər *(radiyallahu anhu)* Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu deyir: **”Eşitmək və itaət etmək Allaha asilik əmr edilmədikcə vacibdir. Ona görə əgər Allaha asilik əmr olunarsa nə dinlənilər, nə də itaət olunar.”**[2]

Suyuti yazır: *“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə itaət edin...”* **yəni, sizi Allaha itaət etməyə çağıran rəhbərlərə.”**[3]

Sabuni yazır: **“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin Quran və Sünnəyə tabe olmaqla itaət edin. Allahın dininə itaət edən rəhbərlərə, möminlərə itaət edin. Amma, asilikdə isə itaət yoxdur.”**[4]

Məvdudi kitabında yazır: **”Bu ayə özündə İslamın bütün dini, mədəniyyəti və ictimai əsaslarını ehtiva edir. Bu ayədən aşağıdakı nəticələr çıxır:**

1) Ən əsas sözsüz itaət Allaha məxsusdur. Müsəlman hər şeydən öncə Onun quludur. Ona görə mömin və müsəlman toplumu ilk öncə Allahla möhkəm rabitə qurmalıdırlar. Bu dünyada olan digər əlaqələr və dəyərlər isə ikinci plana keçir. İnsanlar Allahla bağladıqları əhdlərinə sadiq qalmalıdırlar. İstənilən digər öhdəliklər buna müxalif olmasa həyata keçirilə bilər. Allaha asilik sayılan hər şey tərk edilməlidir. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* buyurur: “Allaha asilikdə məxluqa itaət yoxdur.”

[1] “əl Camiul əhkamul Quran”, c.5,səh 297
[2] Səhih №2955
[3] “Təfsir Cəlaleyn”,c.1,səh 257
[4] “Səffətul təfasir”,c.1,səh 540

2) İslamın ikinci önəmli əsası Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* itaətdir. Bu yeganə üsuldur ki, bunun vasitəsi ilə Allaha itaət olunur. Axı Peyğəmbərlər yeganə kanaldır ki, onların vasitəsi ilə Allah Təalanın bəyanları və buyruqları bizə çatır. Beləliklə, biz Allaha onun Elçisinə tabe (itaət) olmaqla itaət edə bilərik. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* yolundan ayrılmaq Allaha asilik və üsyan deməkdir. Hədisdə dedyilir: "Mənə tabe olan Allaha itaət etmiş olur. Mənə asi olan isə Allaha asilik etmiş olur."

3) İki əsasdan sonra dərəcə etibarı ilə sonuncu yəni, üçüncü əsas gəlir. Bu müsəlmanlar arasından seçilmiş rəhbərlərlə bağlıdır."Ulul əmr"ifadəsi geniş izah oluna bilən məfhumdur. Müsəlmanların başında duran hər bir səlahiyyət sahibi "ulul əmr"dir."[1]

25) Musəvi yazır: *"Məgər onlar zikr əhli deyillərmi? Quranda buyrulur: "Əgər bilmirsinizsə zikr əhlindən soruşun."* Ərəbcə olan nəşrdə haşiyədə Qurtubi, Təbəri və ibn Kəsirin təfsirlərinə istinad edilir.[2]

— Subhənallah! Musəvinin həyasızlığının həddi yoxdur. Adamda elə bir təəsürat yaranır ki, şiələr bizimlə söhbət edərkən sanki, cahil əcnəbilərlə bəhs etdiklərini zənn edirlər və elə güman edirlər ki, istədikləri yalanı dəlil əvəzi yeridə bilərlər.

Allah buyurur: *"Biz səndən əvvəl də, özlərinə vəhy etdiyimiz məhz kişiləri elçi göndərmişdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun."*[3]

Digər ayədə də Allah buyurur: *"Biz səndən əvvəl də onlara vəhy nazil etdiyimiz ancaq kişilər göndərmişdik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun."*[4]

---

[1] Məvdudi, "Təfhimul Kuran"
[2] Məktub 12
[3] Nəhl 43
[4] Əraf 7

Təbəri yazır: **“Mücahid, Əmaş və ibn Abbasa görə “zikr əhlindən” məqsəd əvvəlki ümmətlərdən olan kitab əhli kimsələrdir.”**[1]

Ərəb müşriklərə onların arasından çıxan birinin peyğəmbərlik iddiası etməsi qəribə gəlirdi.

İbn Kəsir bu ayənin təfsirində yazır: “Dəhhaq ibn Abbasdan nəql edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* risalət ilə qövmünə gəldikdə müşriklər dedilər: “Allah bizim kimi bir məxluqu elçi göndərməkdən münəzzəhdir.” Cavab olaraq Allah onlara buyurdu: *“İçərilərindən bir adama: “İnsanları qorxut və iman gətirənləri müjdələ ki, özlərinin Rəbbinin dərgahında onların etdikləri yaxşılıqların mükafatı vardır!”– deyə vəhy etməyimiz insanlara qəribəmi göründü? Kafirlər: “Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!”– dedilər.”*[2] və bu ayə *“Biz səndən əvvəl də, özlərinə vəhy etdiyimiz məhz kişiləri elçi göndərmişdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun”* Burada kitab əhli nəzərdə tutulur. Yəni, onlara göndərilən elçilərin kim olduğunu soruşun. Onlar insan idilər, yoxsa mələk? Əgər mələklər olublarsa qəbul etməyin, amma insan olublarsa Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* risalətini inkar etməyin.”[3]

Qurtubi yazır: **“Bu ayə Məkkə müşrikləri haqqında nazil olmuşdu. Onlar deyirdilər ki, Allah bizim kimi bir məxluqu elçi göndərməz. O niyə bir mələk göndərmədi? Cavabında Allah buyurdu: “Ey Muhəmməd! “biz səndən əvvəl də əvvəlki ümmətlərə Adəm övladlarından məhz kişiləri elçi göndərmişdik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun”** Süfyan dedi: **“Burada iman gətirmiş kitab əhli nəzərdə tutulur. Onlardan siz əvvəlki elçilərin də insan olduğunu öyrənmiş olarsız.”**[4]

[1] Təbəri təfsiri Nəhl 43
[2] Yunus 2
[3] İbn Kəsir ,“Təfsir”,Nəhl 43
[4] “əl Camiul əhkamul Quran”, Nəhl 43

Nə Qurtubinin, nə də ibn Kəsirin təfsirlərində bu ayənin Əhli beyt haqqında nazil olduğuna dair bir işarə görmədik. Yalnız Ənbiya surəsində bir ayəyə izah olaraq Qurtubi Cabir Cufidən rəvayyət edir ki, Əli *(radiyallahu anhu)* demişdir: "Biz zikr əhliyik."

Cabir Cufi kimdir? Cabir ibn Yezid ibn Haris Cufi Kufi - şiədir. Nəsai onun haqqında deyir: **"Mətruk (tərk olunmuş) ravidir"**[1], Yəhya Qəttan deyir: **"Yalançı və heçnədir."**[2], Zəhəbi "Muğni fi duafa"[3] kitabında bir sıra alimlərin onu yalanda ittiham etdiklərini demişdir.

Fərz etsək ki, bu rəvayyət səhihdir, bu məgər zikr əhlinin yalnız onlar olduğuna işarədir? Əli ibn Əbu Talib deyir: "Biz" Məgər bu sözü "biz-səhabələr" olaraq izah etmək olmazmı?

26) Əbdulhüseyn yazır: *"Məgər Nisa surəsi 115-ci ayədə bəhs edilən məhz "möminlər" onlar deyildir?" Allah Təala buyurur: "Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir." (Nisa 115)*[4]

— Allah Rəhmandır! Bu məktub və Əzhər şeyxinin buna cavabı bu kitabın yalan və təhrif üzərinə yazıldığına dəlildir! Necə ola bilər ki, Əzhər şeyxi Hüseynin qulunun belə sayıqlamalarına bir cavab verməsin?

Uca Allah buyurur: *"Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."*[5]

Məgər yalnız Əhli beyt mənsubları möminlər sırasına daxildir? Bu ayə dəlildir ki, şiə-rafizi-imamilər odda yanmağa məhkumdurlar. Çünki, onlar möminlərdən üz döndərmişlər! Onlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)*

[1] "Duafa", №100, səh 71
[2] "Mizanul itidal", 1/379/№1425
[3] №1079
[4] Məktub 12
[5] Nisa 115

demək olar ki, bütün tələbələrindən üz döndərmişlər. Bu ayə dəlildir ki, bütün ümmət haqq yoldan aza bilməz. Suyuti bu ayənin təfsirində yazır: "Tirmizi və Beyhəqi ibn Abbasdan *(radiyallahu anhu)* rəvayyət edirlər ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Allah heç vaxt mənim ümmətimi (vəya bu ümməti) zəlalət üzərində birləşdirməz və Allahın əli camaatın üzərindədir."**[1]

İmam Qurtubi yazır: **"Bir sıra alimlər hesab etmişlər ki, bu iki ayə ibn Ubeyrək haqqında, o oğurluq etdiyi zaman nazil olmuşdu. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **cəza olaraq onun əlinin kəsilməsinə hökm etdikdə o dindən dönərək, Məkkəyə qaçmışdı."**[2]

Həmçinin, yazır: "Dəhhaq dedi: **"Bir qrup Qureyşli Mədinəyə gələrək İslamı qəbul etmişdi. Sonra dindən dönərək Məkkəyə qayıtmışdılar. Buna görə Allah bu ayəni nazil etdi."**[3]

Bütün bu yazılanlara əlavə olaraq, Uca Allah buyurur: *"Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və* ***<u>möminlərin yolundan başqa bir yolla getsə,</u>*** *onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."*[4]

Allah Təala peyğəmbər yolu ilə yanaşı möminlərin yolunun da mühüm olduğunu və ondan üz döndərənlərin cəhhənnəm əhli olduğunu bəyan edir. Gəlin baxaq görək, Quranda Uca Allah kimə möminlər deyə xitab edir?

"İman gətirən, <u>hicrət edən</u> və Allah yolunda cihad edənlər (mühacirlər) və sığınacaq verib köməklik göstərənlər (ənsarlar)– ***<u>məhz onlar həqiqi möminlərdir.</u>*** *Onlar üçün bağışlanma və bolluca ruzi vardır."*[5]

---

[1] "Durr əl mənsur", Nisa 115
[2] "əl Camiul əhkamul Quran", Nisa 115
[3] həm.yer
[4] Nisa 115
[5] Ənfal 74

Göründüyü kimi Allah Təala Quranda mühacir və ənsarları həqiqi möminlər olaraq adlandırmışdır. Bu və digər çoxsaylı ayələr səhabələrə tabe olmaqla, onların yolu ilə getməyin zəruriliyinə dəlildir.

27) Əbdulhüseyn yazır: *"Məgər onlar "Rəd" surəsinin 7-ci ayəsində deyildiyi kimi, Allah tərəfə "hidayət edənlər" deyillərmi? "Sən yalnız qorxudansan və hər bir qövmün (dəstənin) hidayətçisi vardır."*[1]

— Haşiyədə yazır: *"Sələbi öz "Kəbir" təfsirində bu ayənin altında ibn Abbasdan bir hədis nəql edir: "Bu ayə nazil olandan sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) əlini Əlinin (radiyallahu anhu) sinəsinə qoyub buyurdu: "Mən qorxudanam və Əli yol göstərəndir. Ey Əli, hidayət olunanlar sənin vasitənlə hidayət olunurlar."*

Şeyxulİslam ibn Teymiyyə "Minhəcus sunnə"[2] kitabında yazır: **"Bu rəvayyət hədis əhlinin yekdil rəyinə görə yalandır."** Şeyx Albani yazır: **"rəvayyət uydurmadır"**[3]

Oxşar rəvayyəti Hakim "Müstədrək"də nəql etmişdir:

[4646] أخبرنا أبو عمرو عثمان بن أحمد بن السماك ثنا عبد الرحمن بن محمد بن منصور الحارثي ثنا حسين بن حسن الأشقر ثنا منصور بن أبي الأسود عن الأعمش عن المنهال بن عمرو عن عباد بن عبد الله الأسدي عن علي إنما أنت منذر ولكل قوم هاد قال علي رسول الله صلى الله عليه وسلم المنذر وأنا الهادي

Əli *(radiyallahu anhu)* "Sən yalnız qorxudansan və hər bir qövmün (dəstənin) hidayətçisi vardır" ayəsi haqqında demişdir: **"Mən yol göstərənəm, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **isə qorxudandır."**

Şeyx Albani yazır: **"Hakim nəql etmiş və demişdir: "İsnadı səhihdir." Zəhəbi isə deyir: "Xeyr, bu yalandır. Bunu uyduranın Allah bəlasını versin." Lakin, o bunda kimin müqəssir olmasını deməmişdir. Mənə görə bu sənəddə mətruk ravi olan Hüseyn Əşkardır."**[4]

[1] Məktub 12
[2] 7/139
[3] "Silsilə əhadis əd daifə", №4899
[4] "Silsilə əhadis əd daifə",c.10, №4899

Sənədi daha da qeyri məqbul edən tənqid olunan ravi Abbad ibn Abdullah əs Suddidir. Həmçinin, Süleyman əl Əmaş rəvayyət edərkən bunu özünün birbaşa eşitdiyini bildirməmişdir.

28) Əbdulhüseyn yazır: *"Məgər onlar "O kəslər ki, Allah onlara nemət bağışlayıb"dan deyillərmi? "Həmd" surəsi yenə onlara işarə edərək buyurmuşdur ki, "Bizi doğru yola hidayət et, nemət verdiyin kəslərin yoluna."*[1]

— Haşiyədə yazır: *"Səlləbi "Kəbir"də "Fatihə" surəsinin təfsirində Əbu Bureydədən nəql etmişdir ki, "Siratəl-mustəqim"dən məqsəd Ali Muhəmməddir."*

Biz yuxarıda Səlləbinin təfsiri baradə danışmışdıq. Onun Əbu Bureydədən nəql etdiyi rəvayyətin sənədində Əbul Hüseyn Muhəmməd ibn Osman əl Bağdadi adlı ravi var ki, o yalançıdır."[2]

Təfsir alimi Əbdurrahmən əs Sadi yazır: "Bizi doğru yola yönəlt" yəni, bizə doğru yolu göstər, ora yönəlt və o yolla getməkdə yardım et. Bu aydın yol Allaha aparır və cənnətdə bitir. Buna yalnız haqqı dərk edib, onu əməllərində tətbiq edənlər nail ola bilərlər. Bunun mənası həmçinin, budur: Bizi doğru yola yönəlt və o yolla apar. Birinci hissənin mənası İslamı qəbul edərək, digər batil inanclardan üz döndərmək, ikincisi isə dinin ehkamlarının öyrənilərək, həyatda tətbiqidir. Bu İslamda olan ən faydalı, dərin və çox əhatəli dualardan biridir. Allah Təala bu sözlərlə ona hər rükətdə dua edilməsini vacib buyurmuşdur. Çünki, hər insan Rəbbinin yardımına ehtiyyacı vardır."[3]

29) Əbdulhüseyn yazır: *"Məgər Allah İmamları rəhbər qəbul etmək şərti ilə tövbə edib,iman gətirib,saleh əməllər edənlərin əhv olunacağını bildirməmişdir? Ta-Ha surəsi 82-ci ayədə buyrulur: "Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram."*

[1] Məktub 12
[2] "Mizanul itidal", 3/643/№7935
[3] "Təfsir Sadi"

— Haşiyədə yazır: *"İbn Həcər "Səvaiq" kitabının 11-ci babının 1-ci fəslində bu ayə barədə bəhs edərkən deyir: "Sabit Bənani demişdir ki, "hidayət olunmuş"dan məqsəd, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Əhli beytinin vilayəti ilə hidayət olmuş deməkdir."*[1]

Yuxarıda deyildiyi kimi "Səvaiq" kitabında olan rəvayyətlər sənədsiz olaraq nəql olunur. Ona görə də sənədsiz rəvayyətin dərəcəsi haqqında bir söz demək çətindir. Ayələrdə nədən söhbət getdiyini anlamaq üçün onları ümumi konteksdə oxumaq lazımdır.

77. Biz Musaya: "Qullarımla birlikdə gecə yola çıx, əsanı suya vurmaqla onlar üçün dənizdə quru yol aç. Düşmənin sizə çatmasından qorxma, çəkinmə!"– deyə vəhy etdik.

78. Firon öz ordusu ilə onları təqib etdi və dəniz onları qaplayıb batırdı.

79. Firon öz xalqını azğınlığa sürüklədi və onlara doğru yol göstərmədi.

80. Ey İsrail oğulları! Biz sizi düşmənizdən xilas etdik. Sizə dağın sağ tərəfinə gəlməyiniz üçün vədə verdik. Sizə göydən manna və bildirçin endirdik.

81. Sizə verdiyimiz ruzilərin təmizindən yeyin və bunda həddi aşmayın, yoxsa sizə qəzəbim tutar. Qəzəbimə gəlmiş kimsə isə bədbəxt olar.

82. ***Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram.***

83. Allah buyurdu: "Səni öz qövmündən ayrılmağa tələsdirən nə idi, ey Musa?"

84. Musa dedi: "Onlar da arxamca gəlirlər. Məndən razı qalasan deyə, Sənin yanına tələsdim, ey Rəbbim!"

85. Allah buyurdu: "Səndən sonra qövmünü sınağa çəkdik. Samirəli onları yoldan çıxartdı".

[1] Məktub 12

86. Musa qəzəbli, kədərli halda qövmünün yanına qayıdıb dedi: "Ey qövmüm! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Doğrudanmı bu vaxt sizə uzun gəldi? Yoxsa Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz vədə xilaf çıxdınız?"

87. Onlar dedilər: "Biz sənə verdiyimiz vədə öz ixtiyarımızla xilaf çıxmadıq. Lakin biz o xalqın zinət əşyasından olan ağır yüklərlə yüklənmişdik. Biz onları oda atdıq. Həmçinin samirəli də onu oda atdı".

88. Samirəli onlar üçün böyürən bir buzov heykəli düzəltdi. Buzova məftun olanlar: "Sizin də tanrınız, Musanın da tanrısı budur. Lakin o bunu unutmuşdur"– dedilər.

89. Məgər bu heykəlin onlara heç bir cavab vermədiyini, onlara nə bir zərər, nə də bir fayda verməyə qadir olmadığını görmürdülərmi?!

90. Bundan əvvəl Harun onlara demişdi: "Ey qövmüm! Siz bununla ancaq sınağa çəkildiniz. Həqiqətən, sizin Rəbbiniz Mərhəmətli Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!"

91. Onlar: "Musa yanımıza qayıtmayınca biz ona sitayiş etməkdən əl çəkməyəcəyik!"– dedilər.

92. Musa dedi: "Ey Harun! Onların azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki,

93. ardımca gəlmədin? Əmrimə qarşımı çıxdın?

94. Harun dedi: "Ey anamın oğlu! Saqqalımdan, saçımdan tutma. Doğrusu, mən sənin: "İsrail oğullarını bir-birindən ayırdın, sözümə baxmadın!"– deyəcəyindən qorxdum.

95. Musa dedi: "Məqsədin nə idi, ey samirəli?"

96. O dedi: "Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrailin atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi".

97. Musa dedi: "Çıx get! Sən həyatın boyu: "Mənə toxunmayın, mən də sizə toxunmayım!"– deməli olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq.

98. Sizin məbudunuz yalnız Özündən başqa heç bir məbud olmayan Allahdır. O, elm ilə hər şeyi əhatə edir".

30) Rafizi yazır: *"Məgər onların vilayəti Allahın buyurduğu əmanət deyilmi: "Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik, onlar onu götürməkdən çəkindilər. Lakin insan onu qəbul etdi. Amma insan (özünə qarşı) zülmkar və çox cahildir."*[1]

— Suyuti yazır: *"Fərabi Dəhhaqqdan nəql edir ki, o demişdir: "Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik"yəni, dini."*[2]

İbn Cibrin deyir: **"Əmanət" dedikdə dini vacibatlar nəzərdə tutulur. Allah Təala bu təklifi (əmrlər, qadağalar, cəza və mükafatı) məxluqata etdi. Lakin, onlar bu məsuliyyəti daşımaq istəmədilər və qoxdular ki, bu yükü sona kimi daşıya bilməzlər. Onlar hərəkət etməyən, cansız obyektlər olmağı üstün tutdular. Əgər bu təklifi qəbul etsəydilər insanlar kimi mükəlləf olacaqdılar."**[3]

31) Rafizi yazır: *Məgər onların vilayəti həmin "İslam" deyilmi ki, Allah ona bağlanmağı əmr etmişdir? Allah buyurur: "Ey iman gətirənlər hamınız "İslama (sülh və barışığa) gəlin, şeytanın ardınca getməyin." Məgər onların vilayəti həmin "nəim" deyilmi ki, Allah buyurub: "Mütləq o haqqda sorğu-sual olunacaqsınız."*[4]

Haşiyədə "Həyat əl məram" kitabına istinad olunduğu qeyd edilir. Bu rafizi müəllif Haşim Bəhraninin çox cilddli bir kitabıdır. Bu kitabdan nəql olunanlar dəlil hesab oluna bilməz.

Allah buyurur: *"Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir."*[5]

Şeyx Əbdurrahmən əs Sadi yazır: "Uca Allah möminlərə İslamı tam olaraq qəbul etməyi, bütün əmrləri yerinə yetirməyi və heç birindən geri çəkilməmələrini əmr etmişdir. Müsəlman şəxs İlahi əmrləri icra edərkən öz nəfsinə uyğun gələnləri qəbul edib,uyğun gəlməyənləri isə qəbul etməyənlərə bənzəməməlidir. Müsəlman öz istəklərini dinin

[1] Məktub 12
[2] "Durr əl mənsur", Əzhab 72
[3] "Fətava əl İslamiyyə",c.7,səh 124
[4] Məktub 12
[5] Bəqara 208

buyruqlarına tabe etməli və gücü çatan bütün saleh əməlləri etməlidir. Əgər o buyruqların bir hissəsini yetirə bilməzsə, niyyətində bu olmalıdır ki, ilk imkanda etmədiklərini etməlidir. İnsan İslamı şeytanın yolundan dönmədikcə bütünlüklə qəbul edə bilməz. Daha sonra Allah möminlərə şeytanın addımları ilə gedərək günah və fasiq işlər görməyi qadağan etmişdir.Axı, insanın düşməni olan şeytan ona zərər verə biləcək çirkin və günah işləri görməyi əmr edər. Fəqət, insan səhv və qüsurlardan uzaq ola bilməz. Ona görə növbəti ayədə Uca Allah buyurur: "Sizə açıq-aydın dəlillər gəldikdən sonra (haqq yoldan) çıxsanız, bilin ki, Allah Qüdrətlidir, Müdrikdir."

Allah buyurur: *"Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız"*[1]

Qurtubi təfsirində "nemətlər" baradə bir neçə səhabənin rəyini nəql edir: 1) Təhlükəsizlik və səhhət. Bu ibn Məsudun sözüdür.

2) Səhhət və boş vaxt. Bu Səid ibn Cubeyrin fikridir.

Buxari Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu nəql edir: **"İki nemət var ki, insanların çoxu onların dəyərini bilmir. Bunlar sağlamlıq və asudə vaxtdır."**

3) Görüb və eşitmək. Bu ibn Abbasın rəyidir. Allah buyurur: **"Çünki qulaq, göz və ürək – bunların hamısı sahibinin əməlləri barəsində sorğu-sual olunacaqdır."**[2]

4) Yemək və içmək. Bu Cabir ibn Abdullahın rəyidir. Bunu təsdiq edən Əbu Hureyrənin *(radiyallahu anhu)* hədisi də mövcuddur."[3]

32) Rafizi yazır: *"Məgər Peyğəmbər (sallallahu aleyhi və səlləm) "qədir" günü onun təbliğinə başlamadımı və uca səslə hamıya çatdırmadımı? Allah həmin gün ("Maidə", 3-cü ayə) nazil etdi: "Bu gün dininizi kamil etdim və nemətimi sizin üçün tamamladım və İslamı din olaraq qəbul etdim."*[1]

[1] Təkəsur 8
[2] İsra 36
[3] "əl Camiul əhkamul Quran" Təkasur surəsinin təfsiri

Bu yalandır! Maidə surəsi 3-cü ayə Ərafa günü Vida həcci zamanı nazil olmuşdu. İmam Tirmizinin yazdığına görə: ”Tarik ibn Şihab rəvayyət edir ki: “Bir yəhudi topluluğu Ömər ibn Xəttaba *(radiyallahu anhu)* bu sözlərlə müraciət etdilər. ”Ey Möminlərin Əmiri! *“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim... ”*ayəsi bizim üçün nazil olsaydı həmən gün bizdə bayram olardı.” Ömər *(radiyallahu anhu)* dedi: **”Bu ayənin nə zaman nazil olduğunu mən yaxşı bilirəm. Bu Ərafa gününün cümə gününə təsadüf etdiyi vaxt baş vermişdi.”**[2]

Bədrəttin Çətinər yazır: **”Bu rəvayyət təkcə Ömərdən** *(radiyallahu anhu)* **gəlməyib. Bunu Əli** *(radiyallahu anhu)*, **Müaviyə** *(radiyallahu anhu)*, **Səmurə ibn Cundub** *(radiyallahu anhu)* **da rəvayyət etmişdir. Həmçinin, mürsəl olaraq bu rəvayyət Şabi, Qatadə və başqalarından da varid olmuşdur.”**[3]

Vəhb Zuhəyli yazır: ”Bir yəhudi “Bu gün dininizi sizin üçün kamil etdim” ayəsini eşitcək dedi: ”Əgər bizə bu ayə endirilsəydi, nazil olma günü bizdə bayram olardı. İbn Abbas dedi: ”Bu ayə iki bayramın bir yerə təsadüf etdiyi gün nazil olmuşdu.”

Muslim Tarix ibn Hişamdan rəvayyət edir ki: **“Bir yəhudi Ömərə** *(radiyallahu anhu)* **üz tutaraq: ”Ey Möminlərin Əmiri! Əgər “Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim...” ayəsi biz yəhudilər üçün nazil olsaydı, o günü biz bayram edərdik. Ömər dedi: ”Mən həmin günü və ayənin harda nazil olmasını yaxşı xatırlayıram. Bu ayə Allahın Elçisinə Ərafa günü nazil olmuşdu.”**[4]

---

[1] Məktub 12
[2] “Sunən” hədis №3043
[3] “Əsbab ən nüzul” c.1,səh 293
[4] “Təfsir əl Munir”,c.3,səh 368

İmam Təbəri yazır: **"Tarik ibn Hişam, ibn Abbas, Muhəmməd ibn Kəb əl Kurayzi, Əmr ibn Şabi, Qatadə, İkrimə, Şəhr ibn Həvşəb, Əsma bint Yezid, Müaviyə və Ömər ibn Xəttaba görə bu ayə cümə gününün axşamı Vida Həcci zamanı "Ərafa"da nazil olmuşdu."**[1]

İbn Kəsir öz təfsirində yazır: **"Əsbat Suddidən rəvayyət edir ki, bu ayə Ərafa günü nazil olmuşdu. Bu ayənin Cümə və Ərafa günü nazil olmasında heç bir şəkk şübhə yoxdur."**[2]

İmam Suyuti də bu fikirdədir: **"Bu gün dininizi sizin üçün kamil etdim..."**

"Səhih"də Ömərdən *(radiyallahu anhu)* **varid olub ki, bu ayə cümə günü, axşam Vida Həcci zamanı nazil olmuşdu. Bu hədisin bir çox illəti vardır. Lakin, ibn Mərdaveyh Səid əl Xudridən bu ayənin Qədir Xum məntəqəsində nazil olduğunu nəql edir. Həmçinin, Əbu Hureyradan bu ayənin Zülhiccə ayının 18-i Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **Vida Həccindən geri döndüyü zaman nazil olduğu varid olubdur. Mərdaveyhdə olan bu iki rəvayyət doğru deyildir."**[3]

Bu hadisəni Mubarəkfuri belə izah edir: "Günəşin doğuşundan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Minadan Ərafata yol aldı və ora çatanda artıq günəş batmaq üzrə idi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dəvəsinə minərək yaxın bir vadiyə gəldi və ətrafında toplanan insanlara xitab etdi. Allaha həmd sənə etdikdən sonra şəhadət kəlməsini dedi və insanları xeyirxah işlərdən geri çəkilməməyə çağırdı. Daha sonra bu sözlərlə onlara xitab etdi:

"Ey insanlar! Məni dinləyin. Həqiqətən, bəlkə sizi bu ildən sonra burada yenidən görə bilmədim. Həqiqətən sizin canınız, malınız və namusunuz bugün, bu ay və bu yer kimi toxunulmaz olmalıdır. Məgər mən bütün cahiliyyə hökmlərini ləğv etmədimmi? Həmçinin, İslamdan öncə olan qan düşmənçiliyini aradan qaldırıram. Bu birinci növbədə Rabia ibn əl Harisə şamildir. Cahillikdən qalma israfçılığı sizə qadağan edirəm. Həmçinin, Abbas ibn

[1] "Təfsir", c.3,səh 205,Maidə surəsi
[2] "İbn Kəsir", Maidə surəsi 3 ayənin təfsiri
[3] "əl İtqan fii ulumil Quran", c.1,səh 30-31

Əbdulmutallibin bütün borc sahiblərinin faizlərini aradan qaldırıram. Qadınlar baradə Allahdan qorxun. Onlar sizə verilmiş əmanətdirlər. Sizin onlar üzərində haqqınız var ki, başqalarını sizin yatağa buraxmasınlar. Əgər onlar bunu etsələr onları möhkəm olmadan vura bilərsiz. Onların da haqqıdır ki, sizdən onları yedirmələrini, geydirmələrini tələb etsinlər. Mən sizə möhkəm tutunacağınız halda yolunuzu azmayacağınız bir şey tərk edirəm. O Allahın Kitabıdır... İndi mənə deyin görək. Mənim baradə soruşulacağınız zaman nə deyəcəksiniz?

İnsanlar dedilər: "Biz şəhadət edirik ki, sən bizə sənə əmr olunanı çatdırdın, risaləti kamil şəkildə qorudun və çatdırdın və bizə doğru yolu göstərdin."

Rəsulullah *(sallallahu aleyhi və səlləm)* üç dəfə dedi: "Ey Rəbbim, şahid ol!"

Bundan başqa Rəsulullah *(sallallahu aleyhi və səlləm)* digər xüsuslara da toxundu. Xitabı qurtardıqdan sonra Uca Allah bu ayəni nazil etdi.

"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim." və bugün rəhmət, bərəkət və şükür günü oldu."[1]

İbn Abbas dedi: **"Bu ayə iki bayramın (ərafa və cümə) üst-üstə düşdüyü gün nazil olmuşdu."**[2]

33) Əbdulhüseyn yazır: *Məgər Peyğəmbər (sallallahu aleyhi və səlləm) bütün insanlara onların vilayətini çatdırmalı deyildimi? Məgər Allah Təala ona təhdid xarakterli vəhy endirib buyurmadımı: "Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz"(Maidə 67)*[3]

— Vahidi "Əsbab" kitabında Atiyyə əl Aufi, o da Əbu Səiddən bu ayənin "Qədir xum" haqqında nazil olduğunu rəvayyət etmişdir. Bu ravi silsiləsinin zəif olduğunu yuxarıda qeyd etmişdik.

[1] Allah Rəsulunun həyatı,fəsil.Peyğəmbərin vida həcci
[2] Sunən Tirmizi,hədis №3044
[3] Məktub 12

"İbn Hibban "Səhih" kitabında nəql edir: **"Əbu Hureyra** *(radiyallahu anhu)* **rəvayyət edir ki, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **səfərə çıxan zaman səhabələr ətrafda olan ən böyük ağacı seçərdilər,ona bu ağacın kölgəsində istirahət etməyi təklif edərdilər və özləri də burada dincələrdilər. Bir səfərdə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* öz **qılıncını ağacdan asır. Bunu görən bədəvilərdən biri qılıncı ağacdan götürüb, Peyğəmbəri** *(sallallahu aleyhi və səlləm)* **oyadıb, ondan soruşur: "Ey Muhəmməd! İndi səni kim məndən xilas edə bilər? Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **deyir: "Allah..."Bu səbəblə Allah bu ayəni nazil edir.**

"Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz"[1]

Bu hədis həsən - hədisdir. Bu hədisdə ravi Muammal ibn İsmail var. Bəzi alimlər onun zəif yaddaşı olduğunu qeyd etmişlər. İbn Kəsir öz Təfsirində bu hədisi təsdiqləyən digər hədis gətirmişdir. Beləki, Muammal ibn İsmailin hədisi Adəm ibn Əbi İysanın hədisi ilə möhkəmlənir. Həmçinin, bu hədis Buxarinin Səhihində ayə nazil olma səbəbi göstərilmədən rəvayyət olunmuşdur. [2]

İmam Qurtubi yazır: **"Bu ayənin nazil olma səbəbinə gəldikdə isə o zaman Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **ağac altında dincəlirdi. Bunu görən bir bədəvi onun qılıncını ağacdan götürüb, onun başının üzərində dayanıb dedi: "Səni indi məndən kim qoruyacaq?"**

Allah Rəsulu *(sallallahu aleyhi və səlləm)* **isə dedi: "Allah..." Bunu eşidən bədəvinin əlləri titrədi və qılınc əlindən yerə düşdü"**[3]

[1] Suyuti, "Lyubabu nukul" c.1,səh 149
[2] Muqbil ibn Hadi Əl Vadi, "Səhih Musnəd",5/67 nazil olma səbəbi cild 6,səh 213-215
[3] Qurtubi, "əl camiul əhkam Quran",c.6,səh.320

Vahidi öz kitabında nəql edir: ”İbn Abbas dedi: **Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi ki, Allah məni bu risalətə mükəlləf etdikdən sonra mən bunu yaymağa çəkinirdim. Fikirləşirdim ki, insanlar məni yalançılıqda günahlandıracaqlar və Allah bu ayəni nazil etdi.”**[1]

34) Rafizi yazır: *“Məgər bilmirsən ki, Allah onların vilayətini açıq şəkildə inkar edən və Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə müxalifət edən şəxslə necə rəftar etdi? O şəxs uca səslə dedi: “Əgər bu haqq olub Sənin tərəfindəndirsə, onda göydən üstümüzə daş yağdır vəya bir ağır əzab bizə nazil et.” Allah da onu göydən endirdiyi daşla “fil səhabələri”ni məhv edən kimi, yox etdi və o vaxt bu ayə nazil oldu: “O hacət istəyən kəs elə bir əzabın baş verməsini istəmişdir ki, kafirlər ondan müdafiə oluna bilməzlər.”*[2]

— Hüseynin qulunun bu iddiası baradə biz yuxarıda bəhs etdik. Sadəcə, qeyd etmək istərdim ki, rafizilərin əsərlərində bu ayənin bir qədər fərqli versiyaları vardır. Şiə Şərəfuddin Əli Hüseyni Əstərabadi kitabında yazır:

عن أبي عبدالله عليه السلام أنه تلا " سأل سائل بعذاب واقع للكافرين بولاية علي ليس له دافع " ثم قال: هكذا (هي) في مصحف فاطمة عليها السلام

İmam Əbu Abdullahdan rəvayyət olunur ki, o bu ayəni oxudu: *“İstəyən kimsə baş verəcək əzabı <u>Əlinin vilayətini</u> inkar edənlər üçün istədi. O əzabın qarşısını alan tapılmayacaq”* sonra dedi: “Fatimənin müshəfində bu ayə belədir.”[3]

“Əlinin vilayəti” ifadəsi Quranda varmı və Fatimə müshəfi haradadır?

35) Rafizi yazır: *“Tezliklə insanlar Qiyamət günü onların vilayəti baradə soruşulacaqlar. Saffat surəsi 24-cü ayədə buyrulduğu kimi.”*[4]

— Ayədə nədən söhbət getdiyini anlamaq üçün ona ümumi konteksdə baxmaq kifayətdir. Uca Allah Saffət surəsində buyurur:

1. *And olsun göylərdə və yerdə səf-səf duranlara,*

[1] Vahidi, “Əsbabi nuzul Kuran”,səh 204
[2]Məktub 12
[3]“Təvil əyatul zahir” c.2,səh 284
[4]Məktub 12

2. imansızları qətiyyətlə qovanlara

3. və Zikri oxuyanlara!

4. Həqiqətən, sizin məbudunuz Təkdir!

5. O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir.

6. Biz dünya səmasını parlaq ulduzlarla bəzədik

7. və onu hər bir asi şeytandan mühafizə etdik.

8. Onlar artıq ali topluma (mələklərin söhbətlərinə) qulaq asa bilməzlər və hər tərəfdən üstlərinə yandırıb yaxan alovlar yağdırılar

9. və oradan qovularlar. Onları uzun sürəcək bir əzab gözləyir.

10. Lakin şeytanlardan hər kim o söhbətlərdən bir söz qapıb qaçarsa, onu yandırıb-yaxan parlaq bir alov təqib edər.

11. Kafirlərdən soruş ki, onları yaratmaq çətindir, yoxsa Bizim başqa yaratdıqlarımızı? Biz ki onları yapışqan kimi palçıqdan yaratdıq.

12. Sən onlara təəccüb edirsən, onlar isə səni ələ salırlar.

13. Onlara xatırlatdıqda düşünüb ibrət almırlar.

14. Bir möcüzə gördükdə isə ona istehza edir

15. və deyirlər: "Bu ancaq gözlə görülən bir sehrdir.

16. Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi?

17. Ya da atalarımızmı dirildiləcəklər?"

18. De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda dirildiləcəksiniz".

19. Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar.

20. Günahkarlar deyəcəklər: "Vay halımıza! Bu ki, Haqq-hesab günüdür!"

21. Onlara deyiləcək: "Bu, yalan saydığınız Fərqləndirmə günüdür!"

22. Mələklərə belə əmr olunacaq: "Toplayın bir yerə zalımları, onların yoldaşlarını və ibadət etdiklərini –

23. Allahdan başqa. Onları Cəhənnəm yoluna yönəldin.

24. ***Onları dayandırın, çünki onlar sorğu-sual olunacaqlar".***

25. Günahkarlara deyiləcək: "Sizə nə olub ki, bir-birinizə kömək etmirsiniz?"

26. Bəli, onlar bu gün baş əyəcəklər!

27. Onlar bir-birinə üz tutub soruşacaqlar.

28. Tabe olanlar deyəcəklər: "Siz bizim yanımıza sağ tərəfdən gəlirdiniz".

29. Başçılar deyəcəklər: "Xeyr! Siz inanan adamlar deyildiniz.

30. Bizim sizin üzərinizdə heç bir hökmranlığımız da yox idi. Xeyr, siz özünüz həddi aşmış adamlar idiniz.

31. Rəbbimizin Sözü bizim barəmizdə həqiqətə çevrildi. Biz əzabı hökmən dadacağıq.

32. Biz sizi azdırdıq. Çünki biz özümüz də azmış adamlar idik".

33. Şübhəsiz ki, həmin gün onlar əzaba şərik olacaqlar.

34. Həqiqətən, Biz günahkarlarla belə rəftar edəcəyik.

Bu ayələrdə Əhli beytin vilayəti baradə heç bir nişanə belə yoxdur.

36) Rafizi yazır: *"Allah insanın ilk dəfə xəlqindən sonra onunla əhd-peyman bağlamışdır. Əraf surəsinin 172-ci ayəsində deyilir: "Allah insan övladı doğulmamışdan əvvəl ondan əhd-peyman aldı və onları özlərinə (bir-birinə) şahid etdi və (onlara dedi:) Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər: Bəli,biz şahid olduq!"*[1]

[1] Məktub 12

— Söhbət Əraf surəsinin 172-ci ayəsindən gedir: *"Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?"(– deyə) onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!"– demişdilər. (Bu ona görədir)ki, siz Qiyamət günü: "Biz bundan xəbərsiz idik!"– deməyəsiniz."*

Qeyd etmək lazımdır ki, şiə mənbələrinə görə bu ayə təhrif olunub. Şiə təfsirçisi Muhəmməd ibn Məsud əl Əyyaşi kitabında yazır: [1]

عن جابر قال قال لی أبو جعفر علیه السلام: یا جابر لو یعلم الجهال متی سمی أمیر المؤمنین علی لم ینکروا حقه، قال: قلت: جعلت فداك متی سمی ؟ فقال لی: قوله (واذ أخذ ربك من بنی آدم) إلی (ألست بربکم وان محمدا [نبیکم] رسول الله وان علیا أمیر المؤمنین) قال: ثم قال لی یا جابر: هکذا والله جاء بها محمد صلی الله علیه واله

Cabirdən rəvayyət olunur: **"Mənə imam Əbu Cəfər dedi: "Ey Cabir! Əgər cahillər Əlinin necə möminlərin əmiri təyin olunmasını bilsəydilər, bunu inkar etməzdilər." Mən soruşdum: "Sənə fəda olum, o necə adlandırılıb?" İmam dedi: "Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və "Mən sizin Rəbbiniz, Muhəmməd elçiniz, Əli də möminlərin əmiri deyillərmi?" Sonra imam mənə dedi: "Ey Cabir! Allaha and olsun ki, Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil olan ayə belə idi."**

37) *"İbn Abbasdan (radiyallahu anhu) rəvayyət olunur ki, bir gün Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) soruşdular ki, Adəmin Allahdan aldığı hansı sözlərə görə onun tövbəsi qəbul olundu? O, buyurdu: "Adəm Allaha Muhəmməd,Əli,Fatimə,Həsən və Hüseynin adları ilə tövbə etdi və beləcə Allah onun tövbəsini qəbul etdi."*[2]

— İbn Cəuzi "Məvduat"[3] və ibn Ərraq əl Kinani "Tənziru şəria"[4] kitablarında qeyd etdikləri kimi hədis uydurmadır. Sənədi: Hüseyn əl Əşkar - Amr ibn Sabitdən, o atasından, o Səid ibn Cubeyrdən, o da ibn Abbasdan.

[1] 2/41/№114
[2] Məktub 12
[3] 2/3
[4] 1/395/№139

Amr ibn Sabit rafizi və mətruk ravi olmuşdur. İbn Məin onun "heçnə" olduğunu bildirmişdir. Buxari onun mötəbər olmadığını, ibn Hibban isə onun uydurma rəvayyətlər nəql etdiyini qeyd etmişlər."[1]

Hüseyn əl Əşkar baradə isə yuxarıda bəhs edildi.

38) *"Ənfal surəsinin 33-cü ayəsində deyilir: "Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək."*[2]

— Qurtubi yazır: *"Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək"* ayəsi Əbu Cəhlin bu sözlərindən sonra nazil olmuşdu: **"Ya Allah! Əgər bu sənin tərəfindəndirsə bizə göydən daş yağdır və bizləri şiddətli bəlaya düçar et." İbn Abbas** *(radiyallahu anhu)* **dedi: "Uca Allah heç bir qövmə peyğəmbərləri onları tərk etməmiş bəla verməmişdir."**[3]

Suyuti yazır: **"Buxari, ibn Əbu Hatim, Əbu Şeyx, ibn Mərdaveyh və Beyhəqi Ənəs ibn Malikdən rəvayyət edirlər: "Əbu Cəhl dedi: "Ya Allah! Əgər bu sənin tərəfindəndirsə bizə göydən daş yağdır və bizləri şiddətli bəlaya düçar et." bunun üzərinə ayə nazil oldu:** *"Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir."*[4]

39) *"Məgər onlar başqalarının həsəd etdiyi kimsələr deyillər? Allah buyurur: "Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?"*[5]

— Qurtubi yazır: **"Uca Allah yəhudilərdən bəhs edərkən buyurur:** ***"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?"*** **insanlara yəni, peyğəmbərə. Bu təfsiri ibn Abbas, Mücahid və başqaları vermişlər. Yəhudilər Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **onun elçi olmasına, səhabələrə isə ona iman**

[1] "Mizanul itidal" 3/249/№6340
[2] Məktub 12
[3] "əl Camiul əhkamul Quran"
[4] "Durr əl mənsur"Ənfal 32-33-34
[5] Məktub 12

gətirdiklərinə görə həsəd aparırdılar. Qatadə hesab etmişdir ki,"insanlardan" məqsəd ərəblərdir. Yəhudilər sonuncu peyğəmbərin ərəblərdən olduğunu gördükdə paxıllıq etməyə başladılar."[1]

İbn Kəsir qeyd edir: **"Onlar (yəhudilər) Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **paxıllıq edirdilər. Çünki, o yəhudilərdən deyil, ərəblərdən çıxmışdı."**[2]

40) *"Həmçinin bilməliyik ki, "əraf"dakılar onlardır və Allah buyurur: "Ərafda elə adamlar vardır ki, hamını simalarından tanıyırlar."*[3]

— Uca Allah Əraf surəsində buyurur:

44. *Cənnət əhli Od sakinlərini səsləyib deyəcəklər: "Biz Rəbbimizin bizə vəd etdiyinin doğru olduğunu gördük. Siz də Rəbbimizin sizə vəd etdiyinin doğru olduğunu gördünüzmü?" Onlar: "Bəli!"– deyəcəklər. Bu zaman onların arasında bir carçı səsləyib deyəcəkdir: "Allahın lənəti olsun zalımlara!*

45. O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və axirəti inkar edirdilər".

46. Hər iki tərəfin arasında pərdə və Sədin üzərində hər kəsi simasından tanıyan insanlar olacaqdır ki, onlar Cənnət əhlini səsləyib: "Sizə salam olsun!" deyəcəklər. Halbuki özləri çox istədikləri halda hələ Cənnətə girməyəcəklər.

47. Onların gözləri Od sakinlərinə tərəf çevrildikdə isə deyəcəklər: "Ey Rəbbimiz, bizi zalımlara tay tutma!"

48. Sədd əhli əlamətlərindən tanıdıqları adamları səsləyib deyəcəklər: "Sizə nə yığdıqlarınız, nə də təkəbbürlük göstərməyiniz fayda vermədi".

49. "Allah onlara mərhəmət nəsib etməyəcəkdir"– deyə barəsində and içdiyiniz kəslər bunlardırmı?" Sədd əhlinə deyiləcəkdir: "Cənnətə girin! Sizə heç bir qorxu yoxdur və siz kədərlənməyəcəksiniz".

---

[1] "əl Camiul əhkamul Quran"

[2] "Təfsir"Nisa 54

[3] Məktub 12

50. Od sakinləri Cənnət əhlini səsləyib deyəcəklər: "Bizim üstümüzə bir az su vəya Allahın sizə verdiyi ruzidən tökün". Onlar isə deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir".

51. O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq.

52. Biz onlara biliyimizlə izah etdiyimiz, iman gətirən qövm üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik"

Qurtubi yazır: **"İbn Məsud, Huseyfə, ibn Abbas, Şabi, əd Dəhhaq və ibn Cubeyr demişlər ki, "Sədin üzərindəki insanlar" onlardır ki, onların pis əməlləri yaxşı əməllərini, yaxşı əməlləri isə pis əməllərini üstələmir."**[1]

İbn Kəsir yazır: **"Cabir ibn Abdullahdan rəvayyət olunduğuna görə Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **pis əməlləri yaxşı əməllərinə bərabər olacaq insanlar haqqında soruşduqda buyurdu: "Bu Əraf əhlidir. Onlar cənnətə girməmişlər, amma ümid edirlər."**[2]

Əbu Leys əs Səmərqəndi bu ayələr baradə "Təfsir" kitabında yazır: **"Bəzi alimlər qeyd etmişlər ki, Əraf əhlindən məqsəd yaxşı və pis əməlləri eyni səviyyədə olan insanlardır."**

Səid Quttub yazır: **"Ərafda - yəni, cənnət və cəhənnəmi ayıran sədd. Bu o kimsələrdir ki, yaxşı və pis əməlləri eyni ölçüdə olacaqdır. Ona görə də onlar nə cənnətə, nə də cəhhənnəmə girə bilməyəcəklər. Bu halda onlar Rəbbinin mərhəmətini ümid edəcəklər."**[3]

Əgər ayələrin ümumi axarına fikir versək, bu daha doğru təfsirdir.

41) *"Onlar həmin səddaqətli və vəfalı adamlardır ki, Quran onların haqqında buyurur: "Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər"*[1]

[1] "əl Camiul əhkamul Quran"
[2] "Təfsir" Əraf 46
[3] "fi zilali Quran",Əraf 46

— Söhbət Əraf surəsi 23-cü ayə baradə gedir. "Onlar həmin sədaqətli və vəfalı adamlardır ki, Quran onların haqqında buyurur: *"Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər."*

İbn Məndah və ibn Əsakir Əsma bint Əbu Bəkrdən rəvayyət edirlər: **"Təlha ibn Ubeydullah Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **hüzuruna girdi və ona deyildi: "Ey Təlha! Sən o kimsələrdənsən ki, əhdini yerinə yetirdin."**[2]

Əbdurrəzzaq, Əhməd, Buxari və Tirmizi Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu nəql etmişlər: **"Ey Təlha! Sən əhdi yerinə yetirənlərdənsən."**[3]

Səid ibn Mənsur, Əbu Yəla, ibn Munzir, Əbu Nueym, ibn Mərdaveyh Aişədən *(radiyallahu anhə)* rəvayyət etmişlər ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: **"Kim yerdə gəzib, əhdini yerinə yetirən insana baxmaq istəyirsə, qoy Təlhaya baxsın."**[4]

Bu hədisi ibn Sədd "Təbəqat əl kubra"[5] ,Təbərani "əl Ausat"[6] ,əl Həllal "Sunən"[7] kitablarında nəql etmişlər. Albani hədisi "Silsilə əs səhih[8] kitabında səhihləşdirmişdir. Bu iki rəvayyətin də iki təsdiqi vardır.

Tirmizi "Sunən"[1] kitabında Musa ibn Təlhadan rəvayyət edir: **"Mən Müaviyənin yanına daxil oldum və o soruşdu: "Sənə müjdə verimmi?" Mən dedim, bəli. Müaviyə dedi: "Təlha öz əhdini tutanlardan və din yolunda şəhid olanlardan oldu."**

---

[1] Məktub 12
[2] Suyuti, "Durr əl mənsur", Əhzab 23
[3] həm.yer
[4] həm.yer
[5] 3/218
[6] №9382
[7] №737
[8] №125

İkincisi isə Əlinin *(radiyallahu anhu)* şəhadətidir. Şəukani "Fəth əl qədir"də qeyd edir ki, Əbu Şeyx və ibn Əsakir Əlidən *(radiyallahu anhu)* nəql etmişlər ki, bu ayə Təlha baradə nazil olmuşdu."

İmam Buxari "Səhih"də Ənəs ibn Malikdən rəvayyət edir:

"Bir gün mənim Bədrdə iştirak etməyəm əmim Ənəs ibn ən Nadr Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* dedi: **"Ya Rəsulullah! Mən sənin müşriklərlə olan ilk qəzvəndə iştirak etmədim. Amma, əgər belə bir döyüş yenə olsa Allah şahid olacaq ki, mən orda nə edəcəm!" Uhud günü müsəlmanlar məğlubiyyətə uğradıqda o hayqırdı: "Ya Allah! Mən bunların (yoldaşları) etdiklərinə görə səndən üzr istəyirəm və şahid olmanı istəyirəm ki, mən bunlardan (müşriklər) deyiləm. Bunu dedikdən sonra o irəli getdi və qaçan Sədd ibn Muazla qarşılaşdı və ona dedi: "Ey Sədd! Mən Rəbbimin cənnətinə tələsirəm! Həqiqətən, mən onun təravətini Uhud tərəfdən hiss edirəm."**

Ənəs dedi: "Döyüşdən sonra biz onun müşriklər tərəfindən öldürülmüş eybəcər hala salınmış cəsədində 80-dən çox qılınc, ox, nizə zərbəsi saydıq. Onu heç kəs tanıya bilmədi. Yalnız bacısı barmağındakı üzüyə görə onu tanıya bildi. Ənəs dedi: "və biz hesab edirdik ki, məhz o və onun kimilər haqqında nazil olan ayədə buyrulur: "Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər."[2]

42) *"Onlar həmin zikr əhlidir ki, Allah onların barəsində buyurmuşdur: "Səhər-axşam onun zikri ilə məşğul olarlar.O kəslər ki, ticarət, alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi gündən (qiyamət) qorxarlar."*[3]

Uca Allah Nur surəsində buyurur:

---

[1] №3202

[2] Zubeydi, "Səhih Buxari, № 1156,2805

[3] Məktub 12

36. Bu nur Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. Orada səhər-axşam Ona təriflər deyirlər.

37. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.

38. Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir.

Qurtubi yazır: "Bu ayədə hansı evlərin nəzərdə tutulmasına dair beş rəy mövcuddur:

1) Uca Allaha ibadət məqsədi ilə tikilmiş məscidlər.Ulduzlar yer əhlinə nur saçdığı kimi bu məscidlər də səma əhli üçün nur saçırlar.Bu təfsiri İbn Abbas,Mücahid və Həsən vermişdir.

2) Beytul Məqdisdə olan ev.Bu təfsir də Həsəndən varid olmuşdur.

3) Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* evi. Bu təfsir də Həsəndən varid olmuşdur.

4) Bütün evlər.Bu təfsir İkrimədən varid olmuşdur.

5) Peyğəmbərlər tərəfindən inşa edilən dörd məscid.Kəbə,Beytul Məqdis,Mədinə və Kuba məscidi.**Mən deyirəm: Birinci rəy daha doğrudur."** [1]

Daha sonra o yazır: "Orada səhər-axşam Ona təriflər deyirlər.O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır."

Səhabələrin əksəriyyəti hesab edirdilər ki,bu ayə azan eşidərkən işlərini atıb,məscidə tələsənlər haqqında nazil olmuşdu.Səlim ibn Abdullah insanların bazardan namaza getdiklərini görərkən dedi: "Allah bunu deyərkən onları

[1] "əl Camiul əhkamul Quran" Nur 36

nəzərdə tutub: "O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır." Bu ibn Məsuddan da varid olmuşdur."[1]

Belə bir xəbər "Əsbab ən nuzul" kitabında bu ayənin təfsirində ibn Ömərdən də varid olmuşdur.

43) "*Onlar o kimsələrdir ki,"Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər!Onlar Allaha yaxın olanlar"*[2]

— Uca Allah Vaqiə surəsində buyurur:

1. Vaqiə qopacağı zaman

2. onun qopduğunu heç kəs dana bilməz.

3. O bəzilərini alçaldacaq, bəzilərini də ucaldacaqdır.

4. Yer şiddətlə titrədiyi zaman,

5. Dağlar parça-parça olub ovxalandığı

6. və ətrafa səpələnmiş toz-torpağa döndüyü zaman,

7. siz üç qrupa ayrılacaqsınız.

8. Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri!

9. Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!

10. Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər!

11. Onlar Allaha yaxın olanlar

Qurtubi yazır: **"Həsən və Qatadə hesab etmişlər ki,"*öndə gedənlər*"-dən məqsəd ilk iman gətirənlərdir." (Xədicə, Zeyd, Əli, Əbu Bəkr) Oxşar təfsiri İkrimə də vermişdir. Muhəmməd ibn Sirin hesab etmişdir ki, burada**

[1] həm.yer

[2] Məktub 12

***"iki qibləyə"* namaz qılanlar nəzərdə tutulur. Mücahid və başqaları hesab etmişlər ki, bunlar hamıdan daha tez cihada və namaza gedənlərdir. Səid ibn Cubeyr hesab etmişdir ki, bunlar tövbə etmədə və saleh əməllər görmədə tələsənlərdir."**

44) *"Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır, (haqqı rəhbər tutaraq onlar arasında) ədalətlə hökm edirlər." Bu ayə də Əhli beytvə onların dostları haqqda nazil olmuşdur."*[1]

— Allah Quranda Əraf surəsində buyurur:

181. *"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər."*

Fəxrəddin Razi yazır: **"Təfsirçilərin əksəriyyəti bu rəydədir ki, burada nəzərdə tutulan İslam ümmətidir. Qatadə və ibn Cureyc Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **rəvayyət etmişlər ki, o demişdir: "Bu ayadə mənim ümmətimdən bəhs olunur."**[2]

Təbəri yazır: **"Burada hədisdə deyildiyi kimi Muhəmmədin** *(sallallahu aleyhi və səlləm)* **ümməti nəzərdə tutulur. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Ümmətimdən bir dəstə Rəbbin iradəsini həyata keçirməyə davam edəcəkdir. Onlara qarşı çıxanlar onlara heç bir zərər yetirə bilməyəcəklər. Bu iş Rəbbin əmri gələnə qədər davam edəcəkdir."**[3]

45) Əbdulhüseyn yazır: *"Əhli beyt və onların şiələri baradə Quranda oxuyuruq: "Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar."*[4]

---

[1] Məktub 12
[2] "Məfatihul qeyb"
[3] "Təfsir", Əraf 181
[4] Məktub 12

— Söhbət Beyyinə surəsi 7-ci ayədən gedir. *"Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar."*[1]

Təbəri təfsirində Muhəmməd əl Baqirin Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* adından belə dediyini nəql edir: *"Sən və sənin şiələrin"* ən yaxşı məxluqatsız." Birincisi rəvayyət qopuqdur. İmam Baqir Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə görüşməmişdir. İkincisi, Təbəridəki rəvayyətin sənədi zəifdir. Orada Ziyad ibn Munzir Əbu Carud əl Kufi adlı mətruk ravi vardır."[2]

İmam Tirmizi "Sunən"[3] kitabında Ənəs ibn Malikdən rəvayyət edir: "Bir adam Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* dedi: "Ey məxluqatın ən xeyirlisi!" Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* cavabında dedi: "Sən dediyin İbrahimdir."

Bu ayənin təfsirində Əbu Leys Səmərqəndi yazır: "Yəni, bunlar Allahı rəbb olaraq qəbul edənlərdir ki, qəlblərində olan iman təmiz və pakdır. Onlar ki, əməllərində göstəriş etməzlər. Onlar ki, səhabə və tabeinlərin yolu ilə getmişlər. Onlardan başqa imanlarında səmimi kim ola bilər?"

Muhəmməd Mahmud Hicazi yazır: "Peyğəmbərə iman gətirən, onu və qiyamət gününü təsdiq edən Allahın xəlq etdiyi məxluqatın ən xeyirliləridir. Onlara mükafat olaraq cənnət vardır."[4]

46) Rafizi yazır: *"Buna dəlil Dəraqutninin nəql etdiyi Əlinin Ömərin təyin etdiyi altı nəfər şura əhlinə dediyi sözləridir: "Sizi Allaha and verirəm! Məgər aranızda məndən başqa bir kimsə haqqında Peyğəmbərin (sallallahu aleyhi və səlləm) "O cənnət və cəhənnəm əhlini təyin edəcəkdir" dediyi bir adam varmı?" Hamı dedi: "Sən özün bilirsən ki,xeyr."*[5]

---

[1] Beyyinə 7
[2] "Mizanul itidal", 2/93/№2965
[3] №3352
[4] Təfsir "Furqan"
[5] Məktub 12

— Bu rəvayyət uydurmadır və bunu uyduranın Allah bəlasını versin! İbn Hacər "Səvaiq" kitabında Dəraqutniyə istinadən yazır: **"Bu rəvayyətin sənədini tapa bilmədim.Yalnız Allah Təala qullarını cənnətə salıb vəya oda ata bilər. Buna dəlil olaraq çoxlu Quran ayələri vardır."**

"İman gətirib saleh əməllər işləyənləri isə ağacları altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları sıx kölgəliklərdə yerləşdirəcəyik."[1]

"İman gətirib saleh əməllər edənləri isə ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəyik. Bu, Allahın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər?"[2]

"İman gətirib yaxşı işlər görənləri əməlisalehlərə qovuşduracağıq."[3]

"Kim Allaha və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır."[4]

47) *"Yenə də onların fədakarlıqları haqqda Allah buyurur:"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır."*[5]

— Uca Allah buyurur: *"İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir."*[6]

[1] Nisa 57
[2] Nisa 122
[3] Ənkəbut 9
[4] Nisa 14
[5] Məktub 12
[6] Bəqərə 207

Şiələrə görə bu ayə hicrət zamanı Əli baradə, onun Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yatağına uzandığı vaxt nazil olmuşdur.

Ayənin nazil olma səbəbi:

İmam Əbu Abdullah əl Hakim nəql edir: **"İkrimə rəvayyət edir ki,Suheyb Məkkədən Mədinəyə hicrət edən zaman Məkkəlilər onu təqib etməyə başladılar. O,öz yayını və 40 oxunu əlinə alıb hayqırdı: "Əgər siz yanıma yaxınlaşsanız mən sizin hər birinizə ox atacam, sonra öz qılıncımı alıb sizinlə döyüşəcəm. Siz bilirsiz ki,mən mərd adamam. Məkkədə iki kəniz tərk etmişəm, qoy onlar sizin olsun. Allah Təala elçisinə bu ayəni nazil etdi: "İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir. "Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **Suheybi** *(radiyallahu anhu)* **görcək buyurdu: "Əbu Yəhya ticarətdə karlı çıxdı" və bu ayəni oxudu."**[1]

İmam Hakim bu hədisi Ənəs ibn Malikdən *(radiyallahu anhu)* rəvayyət edir və yazır ki, hədis imam Muslimin şərtləri ilə səhihdir. Bu hədisin ravilərinin zənciri ibn Həcər əl Əskalaninin və ibn Sədin kitablarında da mövcuddur. [2]

Bu hadisəni Əbdurrəhman Rafət əl Başa belə izah edir: "Suheybin *(radiyallahu anhu)* qaçmasından az sonra nəzarətçilər onu görmədən oyandılar və atlara minərək, ona çatana qədər təqib etməyə başladılar. Təqibçilərin yaxınlaşdığını görən Suheyb yaxın yüksəklikdə mövqe tutdu. Oxu kamandan çıxarıb, yayı dartaraq hayqırdı:

— Ey Qureyşlilər! Allaha and olsun ki,siz mənim aranızda ən mahir oxçu olduğumu yaxşı bilirsiz. Siz mənim yanıma yaxınlaşana kimi mən hər oxla sizin hər birinizi vuracam. Ondan sonra isə mən sizinlə qılıncım ilə döyüşəcəm.

Təqibçilərdən biri dedi:

[1] "Müstədrək" c.3,səh 398

[2] "əl İsabə" c.2,səh 188;"Təbəqat" c.3,səh 162-163

—Allaha and olsun ki, biz sənə pullar ilə sağ-salamat getməyinə icazə verməyəcəyik. Sən Məkkəyə fəqir biri olaraq gəlmişdin. Sonra burda varlandın və mülk sahibi oldun.

Suheyb soruşdu:

— Əgər mən sizə öz pullarımı versəm, siz mənə yoluma davam etməyə imkan verəcəksinizmi?

— Onlar: Bəli dedilər.

Suheyb onlara pullarını Məkkədə harda gizlətdiyini söylədi. Təqibçilər Məkkəyə qayıdıb, onun pullarını alandan sonra onu buraxdılar. Suheyb Mədinəyə öz dinini yaşamaq üçün üz tutmuşdu. O, heç də bu gənc yaşında tərk etdikləri pullara görə heyfslənmirdi. Hər dəfə onu yorğunluq əldən salanda onun qəlbində Allah Rəsuluna qarşı şiddətli istək yaranırdı. Onda gümrahlıq yaranırdı və o səfərinə davam edirdi. O, Mədinədən iki mil aralı olan Quba kəndinə çatanda onu Rəsulullah *(sallallahu aleyhi və səlləm)* gördü. Suheybin salamat çatmağına sevinən Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu:

— "Alış veriş karlı oldu ey Əbu Yəhya, alış veriş karlı oldu... O,üç dəfə bu sözləri təkrar etdi.

Suheybin *(radiyallahu anhu)* üzü sevincindən parladı və o dedi:

—Allaha and olsun ki, ya Rəsulullah! Məni səfərdə heç kəs keçmədi və bu xəbəri sənə Cəbrayıldan başqası gətirməyib.

—Həqiqətən, ticarət karlı çıxdı...

Bu səmadan nazil olan ayə ilə öz təsdiqini tapdı. Buna Cəbrayıl *(əleyhisalam)* Allahın aşağıdakı ayəsini çatdıranda şahidlik etmişdir. "İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir."

Vəhb Zuhəyli öz təfsirində yazır: "əl Haris ibn Əbu Usamə öz "Musnəd"ində və ibn Əbu Hatim Səid ibn Cubeyrdən rəvayyət edirlər ki: "Suheyb *(radiyallahu anhu)* Məkkədən Mədinəyə hicrət edərkən Məkkəli müşriklər onu təqib etməyə başladılar. Bu əsnada o öz oxlarını alaraq yayını çəkir və hayqırır: Ey Qureyşlilər! Allaha and olsun ki, siz

mənim aranızda ən mahir oxçu olduğumu yaxşı bilirsiz. Siz mənim yanıma yaxınlaşana kimi mən hər oxla sizin hər birinizi vuracam. Ondan sonra isə mən sizinlə qılıncım ilə döyüşəcəm. Ondan sonra siz nə istəsəz edərsiz.Yox, əgər razılaşsaz mən sizə Məkkədə olan varımın harda olduğunu məni tərk etməyiniz şərti ilə deyərəm. Bu şərt ilə müşriklər razılaşdılar. Suheyb *(radiyallahu anhu)* Mədinəyə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına gələndə Allah Rəsulu *(sallallahu aleyhi və səlləm)* buyurdu: "Əbu Yəhya...! Karlı ticarət, karlı ticarət"

Allah Təala bu ayəni nazil etmişdi. *"İnsanların elə‌si də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər..."*[1]

48) Uca Allah Quranda buyurur: *"Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər."*[2]

— İbn Abbasdan nəql olunur ki, bu ayə Əli *(radiyallahu anhu)* baradə nazil olmuşdu. Beləki, onun 4 dirhəmi var idi. O, birini səhər və gecə, digər dirhəmləri isə aşkar və gizli sədəqə verərdi."

Bu rəvayyəti Vahidi "Əsbab ən nuzul"da Əbdulvəhhab ibn Mücahiddən, o da atasından nəql etmişdir. Vaqiəyə qeyd etdiyi kimi Əbdulvəhhab atasından rəvayyətlər eşitməyib. Bundan başqa o ibn Məin və imam Əhməd tərəfindən tənqid olunmuşdur."[3]

Əbdulvəhhabdan bu rəvayyəti ibn Əsakir, Əbdurrəzzaq, ibn Humeyd, ibn Cərir, ibn Munzir, ibn Əbu Hatim və Təbərani də nəql etmişlər.

49) Rafizi yazır: *"Onlar haqqı və doğrunu təsdiq etdiklərinə görə Allah bu haqqda buyurur: "Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir."*[4]

---

[1] Təfsir əl Munir c.1,səh 496

[2] Bəqara 274

[3] "Mizanul itidal" 2/682/№5324

[4] Məktub 12

— Burada Zumər surəsinin 33-cü ayəsinə toxunulur. Qurtubi Əlidən rəvayyət edir: "Haqqı gətirən"-Muhəmməd *(sallallahu aleyhi və səlləm)* "və onu təsdiq edənlər isə"-Əbu Bəkrdir. İbn Zeyd, Qatadə və Muqatil qeyd etmişlər ki, "Haqqı gətirən"-Muhəmməd *(sallallahu aleyhi və səlləm)* "və onu təsdiq edənlər isə"- möminlərdir."[1]

Fəxrəddin Razi buna müfəssəl izah verir: **"Bil ki, "onu təsdiq edənlər" sözlərindən məqsəd yalnız xüsusi bir şəxslər deyil, bütün təsdiq edən möminlərdir ki, Əbu Bəkr də** *(radiyallahu anhu)* **onlardan biridir. Alimlər ittifaq etmişlər ki, kişilərdən Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **iman gətirən və onu təsdiq edən Əbu Bəkr** *(radiyallahu anhu)* **və Əlidir. Bu sözü ilk öncə Əbu Bəkrə** *(radiyallahu anhu)* **aid etmək daha doğru olardı. Axı, Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **vəhy nazil olanda Əli** *(radiyallahu anhu)* **hələ uşaq idi. Aydındır ki, onun o zaman iman gətirməsi İslam dini üçün o qədər də əhəmiyyətli rol oynamadı. Əbu Bəkrə** *(radiyallahu anhu)* **gəlincə isə, o həm yaşına, həm də cəmiyyətdə tutduğu mövqeyə görə nüfuzlu bir şəxs idi. Onun dinə gəlməsi İslamın güclənməsi və möhkəmlənməsi baxımından çox əhəmiyyətli hadisə oldu. Ona görə də bu ayəni Əbu Bəkrə şamil etmək daha doğru olardı."**[2]

Bu ayənin təfsiri ilə bağlı Əbu Leys Səmərqəndinin sözləri də maraqlıdır. O,"Təfsir"də yazır: **"Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir."-bunlar Əbu Bəkr, Ömər, Osman, Əli (Allah onların hamısından razı olsun) və digər səhabələr və həqiqi möminlərdir. Onlar Allahın rizasını qazanmaq üçün Rəbbləri tərəfindən nazil edilən Quranı təsdiq edib,iman gətirdilər. Fərzləri yerinə yetirib,haramlardan çəkindilər və saleh əməllər etdilər. Məhz onlar həqiqi müttəqilərdir."**[3]

[1] "əl Camiul əhkamul Quran"

[2] "Məfatihul qeyb", Zumər 33

[3] "Təfsir", Zumər 33

50) Rafizi yazır: *"Onlar- Allahın buyurduğu qohumlardır: "Sonradan iman gətirənlər, hicrət edib sizinlə bərabər cihad edənlər də sizdəndirlər. Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar. Həqiqətən, Allah hər şeyi bilir."*[1]

— Ərəbcə olan nəşrdə yazılır ki, bu ayə Əli *(radiyallahu anhu)* baradə nazil olmuşdu. Söhbət Ənfal surəsi 75-ci ayədən gedir.

Uca Allah buyurur: *"Sonradan iman gətirənlər, hicrət edib sizinlə bərabər cihad edənlər də sizdəndirlər. Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar. Həqiqətən, Allah hər şeyi bilir."*[2]

Əbu Davud Teyləsi ibn Abbasdan *(radiyallahu anhu)* nəql edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* mühacir və ənsarları qardaşlaşdırdı və onlar bir-birilərinə varis oldular. Sonra bu ayə nazil oldu: **"Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar."** Bundan sonra insanlar yalnız qohumlarına varis oldular."[3]

Bu rəvayyəti Təbərani, Əbu Şeyx və ibn Mərdaveyh də nəql etmişlər.

51) Rafizi Əbdulhüseyn yazır: *"İbn Abbas deyir ki,Əli ibn Əbu Talib haqqında 300 ayə nazil olmuşdu."*[4]

— Rəvayyət uydurmadır. Bunu ibn Abbas *(radiyallahu anhu)* deməmişdir. Bunu ibn Əsakir və Xətib nəql etmişlər. İmam Şəukani deyir: **"Xətib ibn Abbasdan rəvayyət etmişdir. Sənədində Salam ibn Süleyman Səqəfi və Cuveybir adlı şəxslər vardır ki, bunlar mətruk ravilərdir. İbn Cəuzi rəvayyətin uydurma olduğunu demişdir."**[5]

Burada rafizinin 12-ci məktubdan gətirdiyi dəlillərin təhlilini yekunlaşdırıram. Sünni şeyxi tərəfindən guya yazılan cavab isə heyrətamizdir. 13-cü məktubda biz rafizinin açıq-aşkar yalan iddialarına qarşı heç bir etiraz

[1] Məktub 12
[2] Ənfal 75
[3] "Əsbab ən nuzul", c.1,Ənfal 75
[4] Məktub 12
[5] "Fəvaid əl Məcmua",bab,Mənaqib xəlifətul ərbavə əhlil beyt","Əli haqqında, №79

görmürük. Orda biz oxuyuruq: *"Bu dəfə yazdıqlarınızdan elm seli axır, dalğaları çox ucadır. Möhkəm ayələr və dəlillər gətirməklə, öhdəndə olan vəzifəni yaxşı və nöqsansız yerinə yetirmiş və heç nəyi əsirgəməmişsən. Buna görə də sənin dəlillərini rədd etmək istəyən kəs inadkarlıq, alçaqlıq və pisliyə qədəm qoymuş olar,əsassız sözlərə əl atar, batil ikən inad edər, cahil və nadan adamlar kimi zorakılığa başlayar."*

Allahu Əkbər! Allah yalançıya lənət etsin. Mən sanki, Əbdulhüseynin öncə öz adından məktub tərtib edib yazdığını, daha sonra sünni şeyxinin adından özünü tərif edən yazılar yazdığını görürəm.

52) Rafizi 14-cü məktubda yazır: "*Buna görə də onların həmin rəvayyətçilər misilsiz sədaqət və əmanətdən başqa bir tərifə layiq deyil və şiənin hədis söyləyən qəhrəmanlarının pəhrizkarlıqda və ehtiyyatda tayları yoxdur. Təqvada, ibadətdə, gözəl əxlaqda, ürək paklığında və cihadda bənzərini tapmaq mümkün deyildir. Gecə-gündüz gördükləri işin hesabını diqqətlə izləyən, (hədislərin) hifz və qeyd olunması işində mətanətlə çalışan rəvayyətçiləri heç kəs qabaqlaya bilməz və həqiqətləri bir-birindən seçmək və rəvayyətlərin doğru vəyanlış işində diqqət və mötəbərliyi izləməkdə onlarla bir sırada ola biləcək şəxs tapılmaz."*

— İlk olaraq şiə kitablarında olan ravilərin "təqvalı və mömin" olmalarına nümunələr gətirək. Misal olaraq Əbu Həmzə Sabit ibn əbu Səfiyyə Dinar əs Sumələni deyək. Bu ravi bütünlüklə şiə alimləri tərəfindən mötəbər ravi olaraq qəbul edilir. Şiələrin şeyxi Tusi onun haqqında yazır: **"Muhəmməd ibn Hüseyn ibn Əbdul Xəttab ilə Əmmar ibn Abdullah əl Yəzdi və bəzi yoldaşları bir yerdə oturarkən onların yanına Əbu Həmzə daxil oldu. Əbu Həmzə Əmmara üz tutaraq dedi: "Ey Əmmar! Əbu Abdullaha gedib, mənim şərab içdiyimi sən demisən? Əmmar ona dedi: "Mən ondan sadəcə şərəb baradə soruşdum. İmam dedi ki, hər içki, şərab haramdır və əlavə etdi ki, "Əbu Həmzə şərab içir." Əbu Həmzə dedi: "Mən Allaha tövbə edirəm və ona üzrlərimi bildirirəm."**[1]

[1] Tusi "İxtiyar mərifətul rical", c.2,səh 456, №354

Həmçinin, şiələrin bir çox kitablarının mötəbərliyi elə şiə alimlərinə görə sual altındadır. Şeyx Əbu Cəfər ət Tusi yazır: **"Baxmayaraq ki, bizim kitabların və üsul müəlliflərinin çoxu batil məzhəblərə etiqad edirdilər, amma onların kitabları qəbul edilir."**[1]

Şiənin ən məhşur və ən qabaqcıl mühəddislərindən biri olan Hurr əl-Amili yazır: **"Onlar (şiə alimləri) elə adamları mötəbər hesab etdilər ki, onların fisqini (günahlar) bilir və məzhəblərinin küfr və yalan olduqlarına inanırdılar."**[2]

Əbdulhüseynin *"şiələrin həqiqətləri bir-birindən seçmək və rəvayyətlərin doğru və yanlış işində diqqət və mötəbərliyi izləməkdə onlarla bir sırada ola biləcək şəxs tapılmaz"* sözü həqiqətən gülməlidir. Hədis sahəsində şiələrin üsul qaydalarını bu kitaba görə aldığı ən mötəbər əsər Muhəmməd Kuleyninin yazdığı "Kafi" əsəridir. Bu kitabda 15 000-dən çox hədis var ki, elə şiələrin özlərinə görə onlardan 9483 hədis zəifdir. Onun kitabında rəvayyətlərin yarıdan çoxu zəifdirsə, görünür bu firqənin ən böyük mühəddisi yalanı doğrudan heç də ayıra bilmirdi. Qeyd etmək lazımdır ki, şiəlikdə ilk hədis elmi baradə olan çalışmanı qələmə alan şəxs ibn Muttahar əl Hilli (öl.726) olmuşdur. İkinci rəyə görə isə bu sahadə ilk çalışmanı Şəhid əs Sani (öl.956) qələmə almışdır.

Müqayisə üçün qeyd etmək lazımdır ki, Əhli sünnədə ravilərin halını İraqda araşdıran ilk alim imam Şubə ibn əl Həccac (öl.160) olmuşdur. Abdullah ibn Mübarək (öl.180) deyir: **"İsnadın (ravi silsiləsi) bilinməsi dinin bir hissəsidir. Əgər isnad olmasaydı, hər kəs istədiyini danışa bilərdi."**[3]

Həmçinin, ibn Mübarəkə bir gün bir hədis dedikdə o dedi: **"Onu qəbul etmək üçün sağlam əsasa (isnad) ehtiyyac vardır."**[4]

---

[1] "Fihrist",səh 32
[2] "Vəsailuş-şiə", 30/260
[3] Tirmizi "Sunən"
[4] həm.yer

Buradan görünür ki, Əhli sünnə bu sahadə şiələri ən az 500 il qabaqlamışdır.

53) Rafizi yazır: *"Elə buna görədir ki, o siqətul-İslam Muhəmməd ibn Yaqub Kuleyni və Səduq – Muhəmməd ibn Əli ibn Babaveyh Qümmi və ümmətin şeyxi və böyüyü Muhəmməd ibn Həsən ibn Əli Tusini ittiham edir və onların müqəddəs və pak kitablarını yüngül sayır."*[1]

— Muhəmməd Yəqub əl Kuleyni o adamdır ki, kitabını küfr, müsəlmanlara, səhabələrə və Qurana hücum etməklə doldurmuşdur. İbn Babaveyh əl Qümmi o şeytandır ki, İslam ümmətini "İtiqad" kitabında küfrdə ittiham etmişdir. Daha sonra 16-cı məktubda rafizi özünün dediyinə görə İslam alimlərinin üzərlərində dayandığı "100 şiə ravi"-nin adını çəkir. Qeyd etmək istəyirəm ki, müəllif bir adamı şiəliyə nisbət vermək istərkən tez-tez ibn Quteybə və Şəhristaniyə istinad edir.Əgər bu alimlərin sözləri "cərh və tədil" kitablarından heç bir dəlilə əsaslanmırsa, qəbul edilə bilməz.

54) Əbban ibn Təqlib – sadiqliyi ilə seçilən şiə olmuşdur.

İbrahim ibn Yezid ən Nəhai – Alimlər onun barasində ixtilaf etdilər. Əbu Məryəm ibn Muhəmməd əl Əzəminin qeyd etdiyinə görə ibn Quteybədən başqa heç kəs onun şiə olmasını deməmişdir.

İsmail ibn Xəlifə - Əbdulhüseyn bu ravi baradə Əbu Hatimin sözünü təhrif etmişdir. Əbu Hatim deyir: **"Ona etimad edilməz, rəvayyətləri yaxşıdır." İmam Əhmədin "onun hədisləri yazılar" sözü tərif deyil.** Bu ravi baradə Əbdulhüseyn yazır: **"Tirmizi öz "Səhih"ində və bir sıra başqa "Sunən" müəllifləri ondan hədis nəql ediblər."**

Cahil! O, hardan bilsin ki, imam Tirmizi bu ravinin mühəddislər yanında zəif olmasını qeyd etmişdir."[2]

İsmail ibn Zəkəriyyə - Bu ravi haqqında bizə alimlər tərəfindən ziddiyyətli və fərqli məlumatlar gəlib çıxmışdır.

İsmail ibn Əbu Kərim Suddi – Onun haqqında alimlər kifayət qədər fərqli fikirlər söyləmişlər. Kimsə onu siqa, kimi zəif, kimi isə yalanda ittiham etmişdir. Yəhya əl Qəttan onun haqqında deyir:

[1] Məktub 14
[2] "Sunən №198

"Onda müşkülat yoxdur." İbn Məin: "onun rəvayyətlərində zəiflik var" Əbu Hatim ona etimad edilmədiyini, Əbdurrahmən ibn Mehdi isə onun zəif, Leys ibn Əbu Suleym isə onun yalançı olduğunu demişlər."[1]

Təlid ibn Süleyman əl Kufi – "Bu ravini ibn Məin yalançı, Nəsai isə zəif adlandırmışdır."[2]

Xətib nəql edir ki, ibn Məin demişdir: ***"Təlid yalançıdır. O,Osmanı söyərdi. Hər kim Osmanı, Təlhanı və hər hansı digər səhabəni söyərsə o dəccaldır. Ondan hədis yazılmaz və belələrinə Allahın, mələklərin və insanların lənəti olsun."***[3]

Zəhəbi onu "Kəşşaf"[4]da, ibn Hacər isə "Təqrib"də zəif adlandırmışdır. İmam Əhməddən iki rəy varid olmuşdur. Onlardan birini imam Mizzi "Təhzib əl kəmal" kitabında Təlidin bioqrafiyası bölümündə nəql etmişdir. O,yazır: "İbrahim ibn Yəqub əl Cuzədcani deyir: "Mən Əhməd ibn Hənbəlin belə dediyini eşitdim: "Təlid ibn Süleyman nəql etdi və bizə görə o yalançıdır."

Sabit ibn Dinar – Əhməd və ibn Məin qeyd etmişlər ki,o "heçnədir" Nəsai onun "siqa" olmadığını bildirmişdir."[5]

Rafizi müəllif bu raviyə istinad edildiyini deməklə yalan danışmışdır.

Suveyr ibn Əbu Faxtə - İbn Məin onun haqqında: "heçnə",Əbu Hatim "zəif",Dəraqutni isə "mətruk"-dur demişdir."[6]

---

[1] "Mizanul itidal", 1/236/№907
[2] "Mizanul itidal", 1/358/№1339
[3] "Tarix Bağdad", 7/137
[4] №670
[5] "Mizanul itidal", 1/363/№1358
[6] "Mizanul itidal", 1/375/№1408

"Süfyan və Şubə ondan rəvayyətlər almışlar. Lakin, bu heç də onların bu ravini "siqa" hesab etdikləri mənasına gəlmir. Süfyan əs Sevridən nəql olunur ki,o demişdir: ***"Suveyr yalan üzərində qurulmuş bir dayaqdır"***[1]

Bu misal bir daha təsdiq edir ki,əgər "siqa" ravi bir nəfərdən hədis nəql edərdisə,bu heç də onun rəvayyətini aldığı ravinin "siqa" olması anlamına gəlməz.

Cabir ibn Yezid ibn Haris Cufi əl Kufi – Bu ravi rafizi, bidətçi və yalançı olmuşdur. Birincisi, o şiə imamlarının qisas almaq üçün qiyamət günündən öncə yer üzünə qayıdacaqlarına etiqad edən ilk şiələrdən olmuşdur. Bu bidət heç bir səhih dəlilə əsaslanmır. İnsanların dirilərək bu dünyaya qayıtmasına inam Allaha küfrdür.

İmam Əbu Muhəmməd Həsən ibn Əli əl Bərbəhari (ö.329 il) deyir: **"Bu dünyaya ölmüş adamların yenidən qayıtması (rəcat) bidət və Allaha küfdür. Buna kim inanarsa kimliyindən asılı olmayaraq o kafirdir və bunda şübhə yoxdur. Rəcatə inanan və Əli,***(radiyallahu anhu)* **Muhammməd ibn Əli, Cəfər ibn Muhammməd haqqında belə şeylərə və onların qeybi bildiklərinə etiqad edərsə kafirdir."**[2]

Bu ravi haqqında Şubə demişdir: **"Sən Allah Rəsulu** *(sallallahu aleyhi və səlləm)* **adından yalan uydurmadıqca ölməyəcəksən və az müddət keçmədi ki, onu belə yalan üstündə ifşa etdilər. Yəhya əl Qəttan onun rəvayyətlərini tərk edərdi. Əbu Hənfiə Cabirdən daha yalançı bir adama rastlamadığını demişdir. Leys ibn Əbu Suleym onu yalançı, Nəsai isə "mətruk" ravi adlandırmışdır. Əbu Davud dedi: "Fikrimcə onun rəvayyətlərində dəyər yoxdur."**[3]

Bir baxın! imam Nəsai bu ravini "mətruk",Əbu Davud "zəif" adlandırdığı halda Əbdulhüseyn yazır: ***"Mən deyirəm.Bununla yanaşı ona Nəsai və Əbu Davud etimad etmişlər."***

[1] həm.yer
[2] "Şərhus sunnə", səh 102,məsələ 160
[3] "Mizanul itidal", 1/379-381/№1425

— Allahın lənəti yalançıların üzərinə olsun! Bu Əbdulhüseyn də bu firqənin imamı, nurlu alimlərindən hesab olunur! İmam Muslimin müqəddiməsində Cabirdən gətirdiyi nəqlə gəlincə, bütün cümləyə baxmaq kifayətdir ki, Muslimin bunu bidətə misal olaraq gətirdiyini anlayasan.

Musəvi yazır: *"Səhih-Nəsai" və "Səhih-Əbu Davud"un "səcdəyi-səhv" bablarına müraciət etsəniz hədislərini tapa bilərsiniz."*

— Cahil və yalançıdan nə gözləmək olar? Nəsai və Əbu Davudun "Səhih" adlı kitabları yoxdur. Əbu Davud Cabirə istinad etməmişdir. O, yalnız kitabında ondan bir hədis nəql etmiş və qeyd etmişdir: "bu rəvayyətdən başqa mənim kitabımda Cabirdən heç bir nəql yoxdur."[1]

Həmçinin, bu ravi haqqında şiə mənbələrindən də bəzi qeydləri etmək yerinə düşərdi. Şiə kitablarına görə Cabir Cufi imam Muhəmməd Baqirdən 70.000 hədis rəvayyət etmişdir."[2]

Bundan sonra şiələrin, xüsusən Əbdulhüseynin Əbu Hureyrəni *(radiyallahu anhu)* onun çox hədis nəql etdiyinə görə tənqid etməyə nə cəsarətləri çatır? Ən qəribəsi budur ki, imam Cəfərdən Cabirin hədisləri baradə soruşduqda o demişdir: ***"Mən onu atamın yanında yalnız bir dəfə görmüşəm, mənim yanımda isə heç vaxt olmayıb."***[3]

Cami ibn Umeyrə ibn Sələbə - Allahu Əkbər! Mən başa düşmürəm ki, bu rafizilər müsəlmanlara və onların alimlərinə necə şər atırlar! Bu ravinin təsvirində Əbdulhüseyn yazır: *"Əbu Hatim "Mizanul-İtidal"da onun şərhi-halının axırında olduğu kimi onun adını çəkmiş və demişdir: "Kufəlidir, hədisləri doğrudur və əsilli, şərafətli vəyaxşı şiələrdəndir."*

— Mizanda yazılır: "Kufəlidir, salihul-hədisdir". Əbu Hatimin oğlu ibn Əbu Hatim dedi: ***"Əgər ravi haqqında "salihul-hədis" deyilirsə, bu o deməkdir ki, onun rəvayyətləri sonrakı təhlillər üçün yazılır."***[4]

---

[1] Əbu Davud, "Sunən" №1036

[2] Şeyx Səduq ,"İləuş şəria"c.2,fəsil 3;"Vəsailuş-şiə", 20/151 vəya 30/329

[3] "Ricəlul-Kəşşi", səh 169; Məməqani, "Tənqihul-məqal"2/203

[4] İbn Saleh Şəhrəzuri, "Kitab mərifət ənvə ilm əl hədis",səh 93

Musəvi daha sonra yazır: *"İbn Hibban "Mizan"da olduğu kimi, adını çəkmiş və demişdir: "Rafizidir."*

— Adəti üzrə Hüseynin qulu alimin sözünü təhrif etmişdir. Halbuki, ibn Hibban demişdir: "rəvayyətlər uyduran rafizi idi."

İbn Numeyr bu ravi haqqında deyir: ***"o ən yalançı adamlardan biridir" və onun Buxari sual altında olduğunu demişdir."***[1]

Haris ibn Husira – Əbdulhüseyn Əbu Hatimin sözünü ixtisar edərək yazır: *"Əbu Hatim Razi onun haqqında deyir: "o siqa, əxlaqlı və mehriban şiədir."*

Halbuki, davamında deyilir: *"Əgər ondan Süfyan nəql etməsə idi, o tərk olunardı."*

Haris ibn Abdullah Həmədani – Şabi, Əli ibn Mədini onu yalançı adlandırmışlar. Dəraqutni onu zəif adlandırmışdır. İki fərqli rəyy ibn Məin və Nəsəidən varid olmuşdur. Nəql olunur ki, onlar onda bir qüsur görməmişlər və onu zəif hesab etmişlər. Onun zəif olmasını ibn Hibban da qeyd etmişdir."[2]

Musəvinin bu sözlərinə gəlincə: *"Zəhəbi "Mizanul-itidal"da onu yad etmiş və etiraf etmişdir ki, tabeinlərin böyük alimlərindəndir. Sonra ibn Həyyandan belə nəql etmişdir: "O, şiəlikdə ifrata varmışdır." Şiə olduğuna görə sünnə əhli onun haqqında böhtanlar və nalayiq sözlər demişlər."*

— Bu dəccal məntiqə və özünə zidd gedir. Halbuki, o Əbban ibn Təqlibin tərcümeyi halında bizim imamların sözlərini gətirmişdir ki, onlar bu ravilərin şiə olmalarına baxmayaraq, onları "siqa" hesab etmişlər. Ravinin tərk olunması yalnız onun şiəliyinə görə olmamışdır. Əgər bizim alimlər raviləri yalnız şiə olmalarına görə tərk etsəydilər,onda gərək bütün şiələri tərk edəydilər. Lakin, Əhli sünnə alimləri hər şeydən öncə təqvalı və ədalətli insanlar olmuşlar. Onlar yalnız zəif və Əbdulhüseyn kimi "alim" olmasına baxmayaraq yalançı şiələri tərk etmişlər.

[1] "Mizanul itidal", 1/421/№1552
[2] "Mizanul itidal", 1/435/№1627

Hubeyb ibn Əbu Sabit – Şeyx Əbu Məryəm əl Əzəminin qeyd etdiyinə görə ibn Quteybə və Şəhristanidən başqa heç kəs bu ravini şiə adlandırmamışdır. Bu iki alimin də heç biri cərh və tədil elmində mütəxəssis deyillər. Daha doğrusunu Allah bilir.

Həmad ibn İsa-Cuhfədə qərq olmuşdur – Bu ravini İslam alimlərindən heç kəs "siqa" hesab etməmişdir. Əbu Hatim, Əbu Davud və Dəraqutninin qeyd etdikləri kimi o zəifdir."[1] Cahil Əbdulhüseyn onu "siqa" hesab edən heç bir alimin adını gətirə bilmədiyinə görə yazır: *"Zəhəbi sonra ona hücum edərək münasib olmayan məsələləri ona aid etmiş, beləliklə, hər kəs şiəliyinə görə onu zəif bilmiş və ona hücum çəkmişdir. Təəccüblüdür ki, Daraqutni onu zəif hesab etsə də, özü onun hədislərindən dəlil gətirmişdir."*

— Birincisi, harada Zəhəbi ona hücum etmişdir? İkincisi, Dəraqutni və digər imamlar öz kitablarında olan ravilərin hamısı "siqa" hesab etmirdilər. Onlar hər hansı bir rəvayyəti öncəki rəvayyəti təsdiq etmək üçün nəql edirdilər və bunun sənədində zəif ravi ola bilərdi.

Həmran ibn Əyan - Onun tərcümeyi halını "Muraciət"də oxuyanda biz Əbdulhüseynin seçkin sitatlar gətirdiyini görürük. O yazır: *"İbn Məin onun haqqında deyib: "Mühüm deyildir." Əbu Hatim: "O, ustad və böyük şəxsdir." Əbu Davud: "O rafizidir..."*

— İbn Məinin "leysə bi şey" sözü "o heçnədir" mənasına gəlir. Əbu Hatim isə onun haqqında sadəcə "şeyx" ifadəsi işlətmişdir. Tərcüməçi isə bunu *"O, ustad və böyük şəxsdir"* deyə tərcümə etmişdir. Halbuki, ibn Əbu Hatim demişdir: "Əgər ravi haqqında o "şeyxdir" deyilirsə, deməli o üçüncü dərəcədədir. Yəni, onun rəvayyətləri yazılıb, yoxlanıla bilər."[2] Musəvi Nəsainin sözlərini yarımçıq gətirmişdir. O, deyir: "siqa deyil"[3]

Xalid ibn Muxəllәd Qətvani Əbu Heysəm Kufi - O, səhabələri söyən və lənət edən rafizilərdən olmamışdır.

---

[1] "Mizanul itidal", 1/598/№2263

[2] "Kitab mərifət ənvə ilm əl hədis",səh 93

[3] "Mizanul itidal", 1/604/№2292

Davud ibn Əbi Auf – Əbdulhüseyn onun haqqında yazır: *"İbn Adiy demişdir: "O, elə şəxslərdən deyildir ki, mən hədislərindən dəlil gətirəm. Çünki o, şiədir və bütün rəvayyətləri Əhli beytin fəzilətlərinə aiddir... Fikirləş və təəccüb et! Süfyan Sauri, Süfyan ibn Uyeynə, Əli ibn Abis və bu təbəqədən olan başqa rəhbərlər ondan hədis öyrənəndən sonra, doğrusu Nasibilərin sözü Davuda nə zərər yetirə bilər?"*

— Əvvəldə qeyd etdiyim kimi əgər bir nəfər kimsəddən rəvayyət nəql edirsə, bu onu nəql edən adamın "siqa" olmasına dəlalət etmir. Bizim alimlər "siqa" hesab etdikləri ravilərdən hədis nəql etdikləri kimi "zəif" və "heçnə" olan ravilərdən də rəvayyətlər nəql etmişlər. İkincisi, Hüseynin qulu burada utanmadan ibn Adiyi nasibi adlandırır. Nasibilər isə şiələrə görə küfrün başıdırlar. Bu şiə və xəvariclərin ortaq xüsusiyyətidir. Onlar heç bir sıxıntı çəkmədən fikirləri ilə razılaşmayan müsəlmanları asanlıqla təkfir edirlər. Nahaq yerə xəvariclər məhz şiələrdən yaranmamışlar.

Zeyd ibn Həbab – Şeyx Əbu Məryəmin qeyd etdiyi kimi ibn Quteybədən başqa heç kəs bu ravini şiə hesab etməmişdir. Bu ravi tərəfindən rafizilərin etiqadına əks olan rəvayyətlər nəql olunur. İbn Macə "Sunən"[1]də Zeyd ibn Həbab sənədi ilə dəstəmaz zamanı xoffun üstündən məsh çəkilməsinin caiz olduğunu nəql edir.

Səlim ibn Əbu Həfs İcli Kufi – Fələsi onun haqqında deyir: "zəif ravidir və şiəlikdə ifrata getmişdir."İbn Adiy: "onu ifrata getməkdə təqsirləndirmişlər. ", Nəsai də bu ravini "siqa" hesab etməmişdir."[2]

Səlim imamlardan rafizilərin əsaslarına tərs olan rəvayyətlər nəql etmişdir. Zəhəbi "Siyər ələmun nubalə" kitabında yazır: ***"İbn Fudeyl Səlim ibn Əbu Həfsdən nəql edir ki, o imam Baqir və Cəfərdən Əbu Bəkr və Ömər barədə soruşdu. Onlar dedilər: "Ey Səlim! Onlara dost ol və onların düşmənlərindən uzaq ol.Onlar doğru yolun imamları olmuşlar."***[3]

[1] №555
[2] "Mizanul itidal", 2/110/№3046
[3] səh 606, №43,573

Sədd ibn Tərif İskaf Hənzəli Kufi – İbn Hacər "Təqrib" kitabında yazır: "Mətruk ravidir. İbn Hibban onu rəvayyətlər uydurmada təqsirli hesab etmişdir və o rafizi olmuşdur."

Mən bu ravi haqqında müsbət rəy söyləyən heç bir alimə rast gəlmədim.

İbn Məin deyir: ***"Ondan kiminsə nəsə nəql etməsi caiz deyil."*** Əhməd və Əbu Hatim onu "zəif", Nəsai və Dəraqutni isə onu "mətruk" ravi hesab etmişlər. Onu həmçinin, Buxari və Fələsi də tənqid etmişdir. Musəvi yazır: ***"Mən deyirəm: Amma,şiəlikdəki ifratı Tirmizi və başqalarının ondan hədis nəql etmələrinə mane olmamışdır."***

Bu yalançı qeyd etməmişdir ki, Tirmizi Əskafdan nəql etdiyi rəvayyəti zəif hesab etmişdir."[1]

Salmat ibn Fədl Əbraş – olduqca zəif ravidir. Onun "zəif" olmasını Nəsai və İshaq ibn Rəqaveyh qeyd etmişlər. Onu Buxari də tənqid etmişdir. Əbu Hatim ona etimad edilmədiyini bildirmişdir."[2]

Əbdulhüseyn dəccal əl Musəvi bu rəylərin heç birini qeyd etməmişdir. Əvəzində, adəti üzrə o sitatlardan ustalıqla ixtisarlar etmiş və cümlələri təhrif etmişdir.

Salamat ibn Kuheyl - əl İcli onun haqqında "Mərifətu əs siqat"[3] kitabında deyir: ***"Onda biraz şiəlik var idi və o etimad əhli olan Kufəlilərdəndir."*** Şübhə yoxdur ki, Kuheyl müasir rafizilər kimi səhabələri təhqir etmirdi. İbn Macə "Sunən"[4]də ondan xofflara məsh edilməsinin caiz olmasını nəql etmişdir. Rafizilər isə bu sünnəni inkar edirlər.

Süleyman ibn Sərd Xəzai – Əbdulhüseyn yazır: *"O, öz dövründə İraqın adlı-sanlı şiələrindən olmuşdur. Hamı onunla məsləhətləşirdi. Belə ki, İraq şiələri imam Hüseynə məktub yazarkən onun evinə toplaşmışdılar"*

Deməli, sonradan Hüseynə *(radiyallahu anhu)* xəyanət edənlər onun evində toplaşmışdılar. Tarix kitablarında imam Hüseynin Kufəlilərə dediyi sözlər qalmaqdadır.

---

[1] "Sunən", №801

[2] "Mizanul itidal", 2/192/№3410

[3] №646

[4] №554

O, deyir: **“Ey Şəbs ibn Rabi,Hacər ibn Əbcur,Qeys ibn Əşşas,Yezid ibn Haris! Məgər siz mənə məktub yazmadızmı ki, meyvələr yetişib, ətraf yaşıllıqdır?” Cavabında ona dedilər: “Biz sənin nədən danışdığını bilmirik. Yezidə beyət et.”**[1]

Həmçinin, imam Hüseyn *(radiyallahu anhu)* Kufəlilərə bu sözlərlə müraciət etdi: **“Sizi qəmdən qurtulmayasız. Ey insanlar! Siz bizi sidq ürəklə köməyə çağırdız, biz də hərarətlə sizin yardımınıza gəldik. Bizim sizə əvvəllər verdiyimiz qılıncla bizim əleyhimizə qalxdız. Bizim düşmənlərə hazırlanan oda siz bizi atdız. Düşmənlə birləşərək siz öz dostlarınızın əleyhinə qalxdız. Bununla belə düşmənlər sizinlə adil davranmadılar.....Yazıqlar olsun sizə!”**[2]

“Bureyr ibn Xuzayr Quran hafizi idi və Kufəlilər arasında əməlisaleh səhabə kimi tanınmışdı. İmam ata mindi və səhabələri ilə birgə Kufəlilərə tərəf gəldi. Hüseyn *(radiyallahu anhu)* istədi ki, Bureyda insanlarla danışsın və onları haqqa çağırsın. Bureyda Kufəlilərə üz tutaraq: “Ey insanlar! Allahdan qorxun. Muhəmməd *(sallallahu aleyhi və səlləm)* sizin aranızda əmanətdir. Bu Peyğəmbər övladı, onun ailəsidir, siz onlarla nə etmək istəyirsiniz?

Dedilər: “Onları ibn Ziyada təhvil vermək...

Bureyda dedi: “Siz razı olarmısınız ki,onlar gəldikləri yerə getsinlər? Ey Kufəlilər! Sizə yazıqlar olsun. **Siz imama məktub yazaraq, ona beyət edib, Allahı şahid çağırmadınızmı?** Sizə ar olsun. Siz Peyğəmbər ailəsini şəhərinizə çağırıb, onun yolunda ölümə hazır olduğunuzu dediz. Amma,onlar sizin şəhərinizə gələr-gəlməz siz onlara heç su vermədiz. İndi isə onları ibn Ziyada təhvil vermək istəyirsiz? Niyə Peyğəmbər ailəsi ilə belə pis rəftar edirsiz? Sizə nə olub?”[3]

[1] Seyyid Əli Əkbər Qureyşi, “Kərbəla meydanı”səh 13
[2] Seyyid Əli Əkbər Qureyşi, “Kərbəla meydanı” səh 14
[3] Seyyid Əli Əkbər Qureyşi “Kərbəla meydanı” səh 21

Kufəlilərə üz tutan imam Hüseyn dedi: **"Ey Kufə əhli! Siz mənə məktub dalınca məktub yazdız və mənə beyət etdiz. İndi məni bura gətirərək mənimlə belə xaincəsinə davranırsız?"**[1]

Həsən ibn əl Hüseyn ibn Şubə əl Hərrani imamın Kufəlilərə belə dediyini nəql edir: ***"Allah bəlanızı versin! Ey insanlar! Siz bizi həyacanla köməyə çağıranda biz sizin yardımınıza tələsdik.Siz bizə qarşı sağ əlimizdə olan qılıncı qaldırdız və bizə qarşı od qaladız."***[2]

Süleyman ibn Tehran - Onda Əliyə *(radiyallahu anhu)* bağlılıqdan başqa şiəlikdən heçnə yox idi.

Süleyman ibn Qərm – İbn Məin onun haqqında deyir: "heçnədir." Əbu Zura dedi: "o qəbul edilmir." Nəsai dedi: "zəif"dir."[3]

Rafizi yazır: "*Yenə o, Əməş, Əmr ibn Murrə, Abdullah ibn Haris, Zuheyr ibn Əqmər və Abdullah ibn Əmrdən belə nəql etmişdir: "Həkəm ibn Əbul-As Peyğəmbəri (sallallahu aleyhi və səlləm) yamsılayaraq onun sözlərini Qureyşə nəql edirdi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) isə ona və qiyamət gününə qədər əmələ gələn bütün nəslinə lənət və nifrin etdi."*

— Bu rəvayyəti Zəhəbi "Mizan"da nəql etmişdir. Süleyman ibn Əməş rəvayyəti nəql edərkən, onu özü eşidib-eşitmədiyini bildirməmişdir. Əməş öz tədlisləri ilə məşhur idi. Ondan və ibn Qərmdən belə rəvayyətlər qəbul edilə bilməz."

Süleyman ibn Mihran əl Əməş – Tabeindən olan doğru və adil ravilərdən biridir. Onu şiəliyə nisbət vermək qətiyyən doğru deyil. Zəhəbi "Tarixul İslam" kitabında əl İclinin "Əməşda şiəlik var idi" sözlərini nəql etdikdən sonra yazır: **"Bunu o deyib, amma bu doğru deyil. Əksinə, o sünnə əhlindən olmuşdur."**

Şiələrin Əməş haqqında bütün iddialarına qarşı onun öz sözünü nəql etməklə son qoymaq olar. Təbərani ondan "əl Kəbir"[1]də nəql edir: **"Əgər Müaviyəni görsəydiniz, deyərdiz ki, o Mehdidir."**

---

[1] Təbəri "Tarix" c.4,səh 105)

[2] "Tuhəf əl uqul"səh 282

[3] "Təhzib ət Təhzib",4/187

Əmaşdan Əbu Bəkr, *(radiyallahu anhu)* Ömər *(radiyallahu anhu)* və digər səhabələrin fəziləti baradə hədislər nəql olunmuşdur. İbn Macə "Sunən"[2]də onun sənədi ilə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu nəql etmişdir: ***"Heç kəsin malı mənə Əbu Bəkrin malı qədər fayda verməmişdir."***

Şərik ibn Abdullah ibn Sənan ibn Ənəs Nəxəi – Zəif yaddaşı ilə seçilən siqa ravidir ki, nəqllərdə çoxlu səhvlər edərdi. İbn Mubarək dedi: ***"Şərikin rəvayyətlərinin dəyəri yoxdur." Cuzədcani onun baradə dedi: "Zəif yaddaşı var, nəqlləri dolaşıqdır." İbrahim ibn Səid əl Cəvhiri dedi: "Şərik 400 rəvayyətin nəqlində səhv etmişdir." Dəraqutni dedi: "Şərik təkbaşına nəql etdiyi rəvayyətlərdə güclü deyildir."***[3]

Musəvi yazır: *"Əbu Davud Rəhavi, ("Mizanul-İtidal"da yazıldığı kimi) Şərikdən belə eşitmişdir: "Əli insanların ən yaxşısıdır və bu sözü qəbul etməyən kəs bidətçidir."*

— Adəti üzrə rafizi bu sözdən sonra Zəhəbinin etdiyi qeydi gizlətmişdir. Zəhəbi yazır: **"Mən deyirəm: "Bəzi yalançılar bu sözü tərif kimi gətirmişlər və şübhə yoxdur ki, bu sözləri zahirinə görə anlamaq olmaz. Şərik inanmırdı ki, Əli** *(radiyallahu anhu)* **peyğəmbərlərdən üstündür. O,demək istəmişdir ki, Əli** ***(radiyallahu anhu)*** **öz xilafəti dövründə insanların ən fəzilətlisi idi."**[4]

Şeyxul İslam ibn Teymiyyə "Minhəcus sunnə"[5] kitabında maraqlı bir əhvalatı nəql edir. Əbul Qasim əl Bəlxi dedi: **"Bir adam Şərik ibn Abdullahdan soruşdu: "Kim daha fəzilətlidir: Əbu Bəkr, yoxsa Əli?" O, dedi: "Əbu Bəkr." Adam dedi: "Sən şiə olaraq, belə deyirsən?" Şərik dedi: "Bəli, kim belə hesab etməzsə o şiə deyil."**

---

[1] №691

[2] №94

[3] "Mizanul itidal", 2/270/№3697

[4] قلت: بعض الكذابين يرويه مرفوعان ولا ريب أن هذا ليس على ظاهره، فإن شريكا لا يعتقد [قطعا] أن عليا خير من الانبياء ما بقى إلا أنه أراد خير البشر في وقت، وبلا شك هو خير البشر في أيام خلافت

[5] 1/6

"Muxtəsər uluv"[1] kitabında Abbad ibn əl Əvvamdan nəql olunur: ***"Təqribən 50 il öncə Şərik ibn Abdullah bizə gəldi. Biz ona dedik: "Ey Əbu Abdullah! Bizim yanımızda mötəzilərdən olan bir dəstə vardır.Onlar Allahın dünya səmasına nazil olması və onun cənnətdə möminlərə görünəcəyi baradə olan hədisləri inkar edirlər." Bunun üzərinə Şərik bizə bu haqqda olan 10 hədis danışdı və dedi: "Biz dinimizi tabeinlərin övladlarından almışıq,onlar isə səhabələrdən almışlar. Bunlar dinlərini hardan alıblar?"***

Həmçinin, Şərikin belə dediyi nəql olunur: **"Rafizilərdən başqa sizə rast gələn bütün müsəlmanlardan elm ala bilərsiz. Çünki, onlar rəvayyətlər uydurur və onun üzərində dinlərini qurarlar."**[2]

Əbdulhüseyn yazır: *"Şərik Əlinin xilafətinə mötəqid idi və onu nəql edənlərdəndir. "Mizanul-İtidal"da deyildiyi kimi, Əbu Rəbiə Əyadi, ibn Bureydədən, o da öz atasından "mərfu" şəkildə belə nəql etmişdir: "Hər bir peyğəmbərin vəsi və varisi var, Əli də mənim vəsim və varisimdir."*

— Musəvini həyatda olduğu zaman görməyi çox arzu edərdim ki, onun yalanlarını üzünə çırpım. O, Zəhəbiyə istinad edir. Amma, bu kitabda yazılır:

"Muhəmməd ibn Humeyd ər Razi – doğru adam deyil. Bizə Sələmə əl Əbraş, ibn İshaq – Şərikdən nəql etdilər, o Əbu Rabi əl Əyadidən, o ibn Bureydədən, o da atasından mərfu şəkildə rəvayyət etmişdir: "Hər bir peyğəmbərin vəsisi və varisi vardır. Mənim vasim və varisim də Əlidir." Mən (Zəhəbi) deyirəm: "Bu yalandır."[3]

Zəhəbi "Mizan" kitabında ibn Humeydin zəiflyini göstərməklə yanaşı,əl Əbraşın da zəifliyini qeyd etmişdir. Əbu Rabi əl Əyadi də zəif ravidir. Əbu Hatim onun haqqında "munkərul hədis" ifadəsi işlətmişdir.

---

[1] səh 176, №146

[2] "Minhəcus sunnə", 1/23; "Mizanul itidal"1/28/№73

[3] محمد بن حميد الرازي – وليس بثقة، حدثنا سلمة الابرش، حدثنا ابن إسحاق، عن شريك، عن أبي ربيعة الايادي، عن ابن بريدة، عن أبيه – مرفوعا: لكل نبي وصي ووارث، وإن عليا وصي ووارثي. قلت: هذا كذب .

Əbdulhüseyn yazır: *"Şərik o kəsdir ki, Asim, Zərr və Abdullah ibn Məsuddan "mərfu" şəkildə rəvayyət nəql etmişdir. Nəql etdiyi rəvayyətlərdən birində Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Müaviyəni mənim minbərimdə görən zaman onu öldürün."* Haşiyədə Zəhəbiyə, onun da Təbəriyə istinad etdiyi bildirilir.

— Bu rəvayyət haqqında əl Ukeyli dedi: **"Bu məna ilə sabit olan heç bir səhih hədis yoxdur."**[1]

İbn Cəuzi bu rəvayyəti[2] kitabında uydurma adlandırmışdır.

Zəhəbi bu rəvayyəti İbad ibn Yəqubun tərcümei halında nəql etmişdir. İbad ifrat şiə idi və bu firqə sahibindən belə bir nəql qəbul oluna bilməz. Şərikin zəifliyi baradə yuxarıda bəhs edildi. O, bu rəvayyəti Asimdən nəql etmişdir. Bu Asim ibn Bəxzələ Əbu Nucut Kufidir. Zəif yaddaşı olan "siqa" ravidir."[3]

Yəni, bu rəvayyətin sənədində ən azı üç qüsur vardır.

Şubə ibn əl Həccac – İslam alimlərindən olan imam, mühəddis və etimad sahibi bir adam idi. O, qətiyyən şiə deyildi. İbn Quteybə və Şəhristaninin onun haqqında sözləri dəlil deyildir.

Tavus ibn Keysan – Əbdulhüseyn yazır: *"Sünnilər onun şiə etiqadında olmasında əmindirlər."*

Şeyx Əbu Məryəmin qeyd etdiyi kimi Musəvinin bu sözü yalandır. Süfyan əs Sevridən başqa heç kəs ibn Keysanın şiəliyə meylli olmasını deməmişdir. Bundan öncə də qeyd etdiyimiz kimi ilk dövr şiəliyi ilə özünü şiə adlandıran müasir şiəlik arasında yerlə-göy qədər fərq vardır. Şiə alimləri özləri etiraf etmişlər ki, onların etiqadları keçmiş şiələrin etiqadlarından seçilir. Müasir dövrdə şiə alimlərinin ən böyüklərindən sayılan əl-Məmqani yazır: ***"Bizim indi şiəlik məzhəbinin zəruriyyətlərindən saydığımız göruşləri ilk dövr alimlərimiz ğuluv sayardılar və bununla ən etibarlı kəsləri ittiham edərdilər."***[4]

---

[1] Şəukani, "Fəvaid əl məcmua", səh 164, №480

[2] "əl Məvdua", (2/265)

[3] "Mizanul itidal", 2/357/№4068

[4] "Tənqih əl-Məqal", 3/23

Abdullah ibn Davud Əbdurrahmən Həmədani Kufi – Mən bu ravini şiəliyə nisbət edən heç bir alimə rast gəlmədim. İbn Quteybənin bu haqqda sözü dəlil hesab oluna bilməz.

Abdullah ibn Ömər ibn Muhəmməd ibn Əban ibn Saleh ibn Umeyd – O, da həmçinin rafizi deyildi və bunu Suyutinin "Tarixul xulafə"[1] kitabında Beyhəqiyə istinad edərək nəql etdiyi hədis təsdiq edir. Abdullah ibn Ömər Cufi (digər adı) dedi: ***"Mənə əmim Hüseyn əl Cufi dedi: "Sən bilirsən niyə Osmani "iki nur" sahibi adlandırmışlar?" Mən dedim: "Xeyr", o dedi: "Adəmin xəlqindən sonra Osmandan başqa heç kəs peyğəmbər qızlarını bir araya gətirməmişdi."***

Bu hədisi müasir rafizilərin fikirləri ilə müqayisə edin.

Abdullah ibn Luheyyə – Yəhya ibn Məin onun haqqında deyir: *"zəifdir və ona etimad edilməz."Onu Nəsai də "zəif" adlandırmışdır."*[2]

Əbdulhüseyn yazır: *"Əbu Yəla, Kamil ibn Təlhədən nəql edir: İbn Luheyyə Həyy ibn Abdullah Məğafiridən, Əbu Əbdurrahmən Həblidən, Abdullah ibn Amrdən bizə hədis söyləmişdir ki, o hədisdə deyilir: Allah Rəsulu (sallallahu aleyhi və səlləm) xəstə olan vaxt buyurdu: "Qardaşımı çağırın, mənim yanıma gəlsin. Əbu Bəkri çağırdılar. Peyğəmbər (sallallahu aleyhi və səlləm) üzünü ondan döndərdi. Sonra Əliyə xəbər verdilər. Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlini yatağının yanına çağırdı və üstünə salınmış örtüyün altından onu qucaqladı. İmam onun yanından çıxanda ondan soruşdular: Peyğəmbər sənə nə dedi? Cavab verdi: Min elm qapısını mənə öyrətdi ki, hər birindən min qapı açılır."*

— Bu rəvayyəti Zəhəbi konkret bu ravinin tərcümeyyi halını təsvir edərkən qeyd etmişdir ki, bu ravinin zəifliyini isbat etsin. Bu rəvayyət baradə ibn Cəuzi "İləl əl mutənahiyyə"[3] kitabında yazır: ***"Bu rəvayyət doğru deyil və ibn***

[1] səh 134

[2] "Mizanul itidal", 2/475/№4530

[3] 1/221/№347

Luheyyə "zəhib əl hədis"-dir. Yəni, bu o deməkdir ki, ravi sonuncu dördüncü pillədədir və onun rəvayyətləri yazılmır."[1]

Əbu Zura və ibn Məin bu ravini "heçnə" hesab etmişlər. İmam Abdullah ibn Əhməd "Kitabu sunən"[2]də Əmir ibn Vəsilidən rəvayyət edir ki, Əlidən *(radiyallahu anhu)* soruşdular: ***"Bizə Rəsulullahın*** *(sallallahu aleyhi və səlləm)* ***sənə sirr olaraq öyrətdiklərindən danış." O, dedi: "Rəsulullah*** *(sallallahu aleyhi və səlləm)* ***mənə insanlardan gizlədəcəyi elə bir şey deməmişdir."***

Abdullah ibn Meymun Qadəh – Bu ravi heç nəyə yaramayan şiə olub. Demək olar ki, bütün alimlərin tənqid etdiyi ravidir. Əbdulhüseyn onun haqqında yazır: *"Ona Tirmizi istinad etmişdir."*

— O, yenə də yalan danışmışdır. Tirmizi hər hansı bir ravidən rəvayyət nəql edərsə, bu o demək deyildir ki, Tirmizi onu etibarlı hesab etmişdir. Timizi "Sunən"[3]də yazır: **"Abdullah ibn Meymun-munkər əl hədis"**

Əbdurrahmən ibn Saleh Əzadi – Musəvi bu ravi haqqında məlumatı Zəhəbinin kitabından nəql etmiş, amma öz adəti üzrə özünə sərf etməyən sözləri ixtisar etmişdir. Halbuki, orada yazılır ki, əl Bəğəvi Əbdurrahmən ibn Salehin belə dediyini eşitmişdir: **"Bu ümmətin Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra ən əfzəl şəxsləri Əbu Bəkr və Ömərdir."**[4]

Şübhə yoxdur ki, müasir rafizilər belə sözlər deyəni təkfir etmədə tərəddüd etmirlər. Bu bir daha sübut edir ki, zaman keçdikcə şiələr çox dəyişmişlər və keçmiş şiələr ilə müasir şiələri eyni tutmaq qətiyyən yol verilməzdir.

Bu kitabda mən Əbdurrazzaq ibn Həmam haqqında bəhs etmişdim. Musəvi Əbdurrazzaq baradə danışarkən haşiyədə bu rəvayyəti nəql edir: *"Onun tərəfindən nəql olunan rəvayyətlər arasında həmçinin, Əhməd ibn Əzharın hədisinə də*

[1] İbn Saleh Şəhrəzuri, "Kitab mərifət ənvə ilm əl hədis",səh 93
[2] №1256
[3] №2144
[4] "Mizanul itidal", 2/569

rast gəlmək olar. O,dedi: "Əbdurrazzaq mənə dedi ki, Muəmmər ona dedi ki, o Zəhəridən, o Ubeydullahdan, o da ibn Abbasdan eşitmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə baxıb,dedi: "Sən həm bu dünyada,həm də axirətdə imamsan. Səni sevən, məni sevmişdir. Sənə kin və nifrət bəsləyən isə,mənə nifrət etmişdir. Sənin dostun – Allahın dostu,sənin düşmənin isə Allahın düşmənidir.Sənin düşmənin olan adma vay olsun." Bu hədis Hakim tərəfindən "Müstədrək" kitabında 128-ci səhifədə nəql olunmuşdur.

— "Suyuti "Tədrib ər ravi"[1]də qeyd etmişdir ki, rəvayyəti ibn Məinin qeyd etdiyi kimi yalan və uydurmadır. Zəhəbi "Təlxis əl mustədrak"da qeyd etmişdir ki, rəvayyət uydurmaya çox yaxındır.

Albani isə "Silsilə əhadis əd daifə"[2]də *rəvayyəti uydurma adlandırmışdır.*

Osman ibn Umeyr – Bu ravi haqqında yazarkən biz "Muraciət" kitabının tərcüməçisinin yalanına şahid oluruq. Orada yazılır: *"Əbu Əhməd Zubeyri demişdir: O mömin idi və "rəcət"ə inanırdı."* Ərəbcə olan mətndə və "Mizan"da isə bu belədir: *"Əbu Əhməd Zubeyri demişdir: O, rəcatə inanırdı"* və onun möminliyi baradə heç bir söz deyilmir. Bu ravi haqqında Nəsai dedi: ***"güclü deyil", Dəraqutni dedi: "zəifdir", ibn Məin dedi: "heçnədir"***[3]

Əli ibn Zeyd ibn Cədan – Əbu Hatim və Buxari qeyd etmişlər ki, ona etimad edilməz. İbn Məin onun "heçnə", imam Əhməd "zəif", Əhməd əl İcli isə onun güclü olmadığını bildirmişlər."[4]

Əli ibn Munzir Tərafi əl Kufi – Bu ravini müasir şiəliyə aid etmək üçün insanda güclü fantaziya olmalıdır. Lakin, biz gördüyümüz kimi Əbdulhüseyn belə xəyal dünyasına sahib idi. İbn Munzirin rafizilikdən uzaq olmasına dəlil onun Tirmizinin"Sunən"[5] kitabındakı hədisidir. Burada Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Aişəyə *(radiyallahu anhu)*

[1] №4894
[2] №4894
[3] "Mizanul itidal", 3/50/№5550
[4] "Mizanul itidal", 3/127/№5844
[5] №2693

belə dediyi nəql olunur: ***"Ey Aişə! Bu Cəbraildir. Sənə salam deyir!" dedi. Mən də: "Ona da Allahın salamı, rəhməti və bərəkəti olsun!"***

Əmmar ibn Zərik – Onun rafizi olmasına gəlincə, Zəhəbi Süleymaninin bu baradə sözünü nəql etdikdən sonra yazır: ***"Yalnız Allaha bu məsələnin həqiqiliyi məlumdur"***

Əbu İshaq əs Sabii – Öz tədlisləri ilə məşhur olan və həyatının sonunda rəvayyətləri dolaşıq salan "siqa" ravidir. Əbdulhüseyn yazır: *"Muğeyrənin dediyi "Kufə əhlini Əbu İshaq və Əməş həlak edibdir." – sözünü yalnız buna görə deyiblər ki, onlar Əhli beytin xalis şiələrindən, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) hədislərinin qoruyucuları, elm dəryası və Allahın fərmanının icrasına can-başla hazır olanlardan idilər."*

— Bu isə Musəvinin cahilliyinə dəlildir. "Mizan" kitabında Muğiratın belə dediyi nəql olunur: ***"Kufə əhlinin hədislərini Əbu İshaq və əl Əmaşdan başqa heç kəs zay etməmişdi."*** Burada isə adı çəkilən iki ravinin yalnız vəyalnız tədlis etdiklərinə işarə edilir. Əbu İshaqın rafizilikdən uzaq olmasına onun rəvayyətləri dəlalət edir. Məhz, o Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu nəql etmişdir: ***"Əgər insanlardan özümə ən yaxın dostu seçsəydim, mütləq ki, Əbu Bəkri seçərdim."***[1]

Əbu Nueym Fəzl ibn Dəqin – Musəvi yazır: *"Zəhəbi "Mizan" kitabında onu yad edərək demişdir: "Fəzl ibn Dəqin, hafiz və hüccətdir."* O,yenə Zəhəbinin sözünü ixtisar etmişdir. Zəhəbi yazır: *"Fəzl ibn Dəqin, hafiz və hüccətdir. Lakin,o ifratsız şətaşəyu olub,səhabələrə tən etməzdi."*

— İbn Hacər "Fəthil Bari"[2] də nəql edir ki, Fəzl demişdir: **"Yazan mələklərdən heç biri mənim nə vaxtsa Müaviyəni söydüyümü yazmamışlar."** Bu sözləri müasir şiələrin fikirləri ilə necə daban-dabana zidd olduğuna fikir verin.

[1] Tirmizi, "Sunən" №3655

[2] səh 434

Fudeyl ibn Mərzuq – Nəsai və Osman ibn Səid bu ravini zəif hesab etmişlər. Zəhəbi yazır: ***"O, səhabələri təhqir etməyən şiəliyi ilə tanınırdı."*** "Dəccal Musəvi isə "səhabələri təhqir etmədiyi" sözünü ixtisar edərək cümləni təhrif etmişdir. Çünki, səhabələri söymək və təhqir etmək Əbdulhüseyn və onun kimi rafizilərin dinidir. İbn Hibban dedi: ***"Onun rəvayyətləri olduqca məqbul deyildir. O, "siqa" ravilərə istinad edərkən səhvlərə yol verərdi. Atiyyə əl Aufidən uydurma nəqllər edərdi."*** Bütün bunlardan sonra Zəhəbi əlavə edərək yazır: ***"Atiyyə ondan zəifdir."*** İbn Adiy dedi: ***"Mənim zənnimcə əgər o "siqa" ravilərin nəql etdiyi rəvayyətləri nəql edərsə,bu halda ona güvənmək olar."***[1]

Bu ravinin təsvirində Əbdulhüseyn yazır: *"Zeyd ibn Həbabın onun guya hökmranlığa aid söylədiyi hədis isə onun haqqında deyilmiş yalandır."*

— Əbdulhüseyn eyni məktubda öz-özünü inkar edir. Zeyd ibn Həbab haqqında danışarkən alimlərin onun haqqında dürüst və əxlaqlı olduğunu dediklərini qeyd edir. Fudeylin təsvirinə gəldikdə isə o Zeydi yalanda ittiham etmişdir. Çünki, Zeyd Fudeyldən rafizilərin xoşuna gəlməyən hədis nəql etmişdir. Belə bir iddia isə sadəcə gülüş doğurur.

Fitr ibn Xəlifə - Siqa ravidir. Onun şiə olması baradə imam Sacinin sözünü demək yerinə düşərdi: ***"O, Əlini Osmandan üstün görərdi."***[2]

Malik ibn İsmail – Müasir şiələr kimi səhabələri söyüb, təhqir edənlərdən və rafizi deyildi. Ondan nəql olunur ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əbu Bəkrə dedi: *"Sən mənim hovuzumda və mağarada olan yoldaşımsan."*[3]

Bu ravidən Buxari hədis nəql edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: ***"Hər bir peyğəmbərin öz həvarisi vardı. Mənim həvarim isə Zubeyr ibn Əvvamdır."***[4]

---

[1] "Mizanul itidal", 3/362/№6772
[2] İbn Hacər, "Təhzib ət təhzib" 8/271
[3] Tirmizi, "Sunən" №3670 – hədis zəifdir
[4] №3514

Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafi – Alimlərin əksəriyyətinin görüşünə görə zəif ravidir. Onun təsvirində Əbdulhüseyn rəvayyət nəql edir: *"Təbərani "Mucəmul-Kəbir" yazır: "Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafinin atası babasından nəql etmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Behiştə birinci daxil olacaq şəxs mən, sən, Həsən və Hüseyndir. Övladlarımız arxamızca, şiələrimiz sağ və sol tərəfdən ilk dəstə olaraq behiştə daxil olacaqlar."*

— Bu rəvayyət uydurmadır. Zəhəbi rəvayyətin batil olduğunu qeyd etmişdir. Ubeydullah ibn Əbu Rafi haqqında isə Buxari dedi: **"munkərul hədis"** Əbu Hatim onun rəvayyətlərinin olduqca qeyri məqbul, ibn Məin isə onun nəqllərinin *"heçnə"* olduğunu demişdir."[1]

Bu rəvayyətin sənədində həmçinin Hərb ibn əl Həsən və Yəhya ibn Yali vardır. Hər iki ravi də tənqid olunmuşlar.

Muhəmməd ibn Fudeyl ibn Qəzvan Əbu Əbdurrahmən Kufi – Bu ravi də Əbdulhüseyn kimi rafizi deyildi. Bu ravidən nəql olunur ki, o demişdir: ***"Allah Osmana rəhmət etsin və ona rəhmət etməyənə də Allah rəhmət etməsin."***[2]

Muhəmməd ibn Muslim Taifi – İbn Hacər "Təqrib"də yazır: *"Səhv edən "siqa" ravidir.* Əhməd ibn Hənbəl onu zəif hesab etmişdir. Zəhəbi "Mizan"da Əbdulməlik əl Meymunədən nəql edir ki, Əhməd dedi: *"Əgər o kitabdan nəql etmirdisə, səhvə yol verirdi." sonra imam bu fikrini dəyişdi və onun həm kitabdan, həm də yaddaşından etdiyi nəqlləri zəif heasb etdi."*[3]

— Əbdulhüseyn belə deməklə yalan danışmışdır: *"Bəzilərinin onun rəvayyətlərini zəif hesab etmələri onun şiə etiqadına sahib olduğuna görə idi."* Ondan başlayaq ki, mən elə bir cərh və tədil mütəxəssisi tapmadım ki, onu şiəliyə nisbət etsin. Əbdulhüseynin dediyi Əbu Cəfər Tusi ər Rafizinin sözü bizə görə dəlil deyildir. İkincisi, alimlər açıq bəyan etmişlər ki, onun zəifliyi rəvayyət nəql etmədə etdiyi xətalardır.

[1] "Mizanul itidal",c.3,səh 634, №7904
[2] İbn Hacər "Fəthəl bari" 1/441
[3] "Mizanul itidal", 4/40/№8172

Müaviyə ibn Əmmar Dəhni Bədcəli Kifi – Bu ravinin də şiə olmasını təsdiq edən sağlam mənbələrə rast gəlinmir. Bu ravi nəql edir ki, o imam Zeynəlabiddindən Quran haqqında soruşmuşdu: *"Quran məxluq deyil, O Allahın kəlamıdır."*[1]

Mənsur ibn əl Mutəmmir – Bu ravi ifrat şiə və rafizi deyildi. İcli onun haqqında dedi: *"Onda biraz şiəlik vardı və ifratcıl deyildi."*[2]

Musəvi yazır: *"Vay olsun,vay olsun! Sanki,guya yalan Əhli beyt şiələrinin əsas xüsusiyyətləridir!!!"*

— Allaha həmd olsun ki,bizə ağıl vermişdir və biz bu kitabda nə qədər yalan olduğunu görmüş oluruq. Halbuki, Əbdulhüseyn də özünü Əhli beyt şiələrinə nisbət verirdi.

Minxəl ibn Amr – Mən Dəccal Musəvidən başqa heç kəsin bu ravini şiəliyə nisbət etdiyini görmədim.

Musa ibn Qeys – Səhabələri söyməyən və həddi aşmayan şiə idi. "Mizan"da deyildiyi kimi ondan Əbu Bəkr və Əli baradə soruşduqda o dedi: ***"Mən daha çox Əlini sevirəm."*** [3] O,Əbu Bəkrə tən etməzdi.

Musəvi onun haqqında yazır: *"Musa Sələmə ibn Kuheyldən,o Əyaz ibn Əyazdan,o Malik ibn Cəunədən nəql etmişdir ki,o Ümm Sələmədən eşitmişdir: "Əli haqq yolundadır, ona itaət edən şəxs də haqq yolundadır. Onu tərk edən şəxs haqqı tərk etmiş olur."*

— Əbu Cəfər əl Ukeyli bu hədisi "Duafə əl kəbir"[4]də,Təbərani də "əl Kəbir"[5]də nəql etmişlər. əl Heysəmi "Məcməu zəvaid"[6]də Malik ibn Cəunun məchul olduğunu qeyd etmişdir. Digər ravi Əyaz ibn Əyaz haqqında Əbu

[1] "Aləmun nubəla", səh 318, № 3(208)
[2] Təhzib ət təhzib", 10/279
[3] "Mizanul itidal" 4/217/№8911
[4] 4/№1736
[5] №946
[6] №14768

Hatim ər Razinin "Cərh və tədil" [1] kitabında sadəcə onun adı çəkilir. İbn Hibban onu "Siqat"[2]da qeyd etmişdir. Lakin, məlumdur ki, ibn Hibban bir ravi haqqında pis bir şey bilinmirdisə, onu "siqa"hesab edirdi. Lakin, bu alimlərə görə doğru deyil.

Harun ibn Sad Əcali Kufi – İbn Hacər "Təqrib"də yazır: *"Rafizilikdə ittiham olunan "siqa"* ravidir. Nəql olunur ki, o bu yoldan sonra dönmüşdür."

Hişam ibn Ziyad Əbu Məqdəm Bəsri – Musəvi adəti üzrə alimlərin bu ravi haqqında rəylərini gizlətmişdir. Əhməd onu zəif, Nəsai tərk olunmuş ravi hesab etmişdir. İbn Hibban dedi: *"Siqa ravilərə istinad edərək uydurma rəvayyətlər nəql edərdi."* Əbu Davud dedi: *"dürüst deyil",Buxari dedi: "onu tənqid etmişlər."*[3]

Hişam ibn Əmmar ibn Yasir – Musəvi ərəbcə olan mətndə yazır: *"Mən deyirəm: O, başqa şiələr kimi inanırdı ki, Quranın sözlərini Allah yaratmışdır. Bu fikirlər Əhmədə çatanda...."Əhməd Hişamın bir kitabını ələ keçirdi və gördü ki, əvvəlində yazmışdır: "Sitayiş Allaha məxsusdur ki, məxluqlarına özünü yaratdıqlarıyla aşkar etdi."*

— Yəni, qısaca desək, Hişam Quranı məxluq hesab edirdi. Qeyd etmək lazımdır ki,Musəvi bu yazıda yalana yol verir. O,yazır ki, Hişam Quranı xəlq olunmuş hesab edirdi və "Mizan"da deyildiyi kimi imam Əhməddən Haşimin sözləri haqqında soruşulmuşdu və ona kəskin etiraz etmişdi. Kim ki, Quranın sözlərinin xəlq olunduğuna etiqad edərsə bidət etmiş olur. Lakin, bu bidət şiələrin "Quran xəlq olunmuşdur" deməsi bidətlərinə çatmaz ki, bu söz küfrdür. Qeyd etmək lazımdır ki, əhli beyt belə mötəzili bidətindən uzaq idilər. İmam Zeynəlabiddindən Quran haqqında soruşulduqda demişdi: *"Quran məxluq deyil, O Allahın kəlamıdır."*[4]

[1] 6/409/№2289
[2] №4770
[3] "Mizanul itidal",4/298/№9223
[4] "Aləmun nubəla", səh 318, № 3(208)

Vəkiyə ibn Cərrah – Zəhəbi "Mizan"da ibn Mədininin sözünü nəql edir: *"Onda biraz şiəlik var idi"*[1]

Biz öncə gördük ki, Əbdulhüseyn fəxrlə Hişamın digər şiələr kimi Quranın xəlq olunduğuna inandığını deyirdi. Burada isə Zəhəbinin "Təzkiratul huffaz"[2]da Vəkiyə ibn Cərrahdan nəql etdiyi sözləri yazmaq yerinə düşərdi. Vəkiyə dedi: *"Kim hesab etsə ki,Quran xəlq olunub,o küfr etmiş olur."* İmam Əbu Bəkr əl Acurri "Şəria" kitabında Əbu Ömərdən nəql edir: *"Mən imam Əhməd ibn Hənbəldən "Quran xəlq olunmuşdur" deyən adam haqqında soruşdular. İmam dedi: "Bu deyən kəs kafirdir." Həmçinin Vəhb ibn Baqi əl Vasitidən nəql olunur ki, o Vəkiyənin belə dediyini eşitmişdir: "Kim desə ki, Quran məxluqdur,o kafirdir."*[3]

Vəkiyə həmçinin dedi: ***"Rafizilər qədərilərdən daha şərlidirlər. Xəvariclər isə onların hər ikisindən də şərlidir. Cəhmilər isə onlardan da pisdir. Allah buyurdu: "Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı." Cəhmilər isə deyirlər ki, Allah onunla danışmamışdır və iman yalnız qəlblə təsdiqdir."***[4]

Vəkiyə isim və sifətlər mövzusunda bu ümmətin sələfinin yolunda idi. Əhməd əd Dəvraki nəql edir: *"Mən Vəkiyənin belə dediyini eşitdim: "Bu hədisləri olduğu kimi qəbul edin və soruşmayın ki, bu necə ola bilər və s.?Söhbət "səmalar və Adəmin qəlbi Rəhmanın barmaqları arasındadır" hədislərindən gedir."*[5]

Məgər bu imamın sözü rafizilərin bu məsələyə olan baxışları ilə eynidirmi?

Yəhya ibn Cəzar Ərani – Musəvi onun haqqında yazır: *"Əmirəlmöminin səhabələrindən idi."*

— Bu rafizinin cahilliyinə misaldır. İmam Əhməd ibn Cəzarın Əlidən *(radiyallahu anhu)* xəbərlər eşitmədiyini demişdir. *Şubə ibn əl Həllac dedi ki, ibn Cəzar Əlidən yalnız üç rəvayyət eşitmişdir."*[1]

---

[1] "Mizanul itidal", 4/336/№9356

[2] 1/309

[3] "Şəria"?səh 72,№162

[4] Buxari?"Xəlqul əfalul ibəd"səh 28-29

[5] "Muxtəsər uluv"səh 195, №186)

Yəhya ibn Səid əl Qəttan – İbn Quteybədən başqa heç kəs bu ravini şiəliyə isnad etməmişdir. Bu imamın sözlərində onun şiə olmadığına dair dəlillər vardır. Zəhəbi "Təzkiratul huffaz"[2] da ondan nəql edir: *"Hər kim desə ki,"O Allah əhəddir" ayəsi məxluqdur,o zındıqdır."*

Eyni yerdə ondan buyrulur: *"Mən kimə rast gəldimsə o deyirdi ki,iman dillə və əməllə təsdiqdir.Onlar cəhmiləri küfrdə ittiham edir və Əbu Bəkr və Öməri üstün hesab edirdilər."*

Zəhəbi əl Qəttanın belə dediyini yazır: *"Bu necə ola bilər ki,Allah deyir ki, "O Allah əhəddir",onlar isə deyirlər ki,bu xəlq olunub."*[3]

Yezid ibn Əbu Ziyad – Görəsən bu adda olan bir şiə tapılarmı? Bu ravi İslam alimlərinin qeyd etdiklərinə görə çox zəif idi. İbn Məin onun mötəbər olmadığını və ona etimad edilmədiyini qeyd etmişdir. Əbdulhüseynin şiə elan etdiyi Vəkiyə də bu ravinin "heçnə" olduğunu bildirmişdir. Musəvinin yenə şiə elan etdiyi Şubə dedi: *"Bu adam hədis nəql etmədə diqqətcil deyildi."*[4]

Əbdulhüseyn yazır: "*Zəhəbi etiraf etmişdir ki, o Kufənin məşhur alimlərindən idi. Buna görə də ona zülm edib,hər nə bacarırdılarsa onun ünvanına (eyib və irad) deyirdilər. Bunun səbəbi onun Əbu Bərzə, yaxud Əbu Bərdədən bir hədis nəql etməsi idi: "Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanında idim. Birdən musiqi (haram avaz) səsi eşidildi. Məlum oldu ki, oxuyan Əmr ibn As ilə Müaviyədir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Allah! Onları çətin bir fitnəyə sal və atəşə tulla!"*

— Nəfsinin qulu yalan danışmışdır. Heç bir kiçik dəlil belə yoxdur ki, alimlər bu ravini məhz bu rəvayyətə görə inkar etmişlər. İbn Qeyyum əl Cəvziyyə dedi: ***"Bu rəvayyət yalan və uydurmadır"***[5]

---

[1] "Təhzib ət təhzib", 11/169

[2] 1/299

[3] "Muxtəsər uluv",səh 187, №168

[4] "Mizanul itidal", 4/423/№9695

[5] "əl Mənar vəl munif",səh 296

İbn Cəuzi də "Məvdua"[1] da bu rəvayyətin uydurma olduğunu qeyd etmişdir. Əbu Ziyadın zəifliyi ilə yanaşı sənəddə olan digər problem onun şeyxidir. Əbu Ziyad bu rəvayyəti Süleyman ibn Amr ibn əl Əxvazdan nəql etmişdir ki, ibn Qəttan onu məchul hesab etmişdir."[2]

Təbərani bu rəvayyəti "əl Kəbir"[3] də Əbu Ziyadın olmadığı sənədlə nəql etmişdir. Amma, əvəzində sənəddə ibn Məinin yalançı hesab etdiyi İsa ibn Səvadat Nəxai vardır."[4]

Bu rəvayyətə maraqlı şərhi imam Şəukaninin kitabında tapdım. O yazır: *"Təbərani bənzər rəvayyəti "Mucəm əl kəbir"də nəql etmişdir. Bu rəvayyəti o digər sənədlə nəql etmişdir. Bu rəvayyətdə oxuyanlar Müaviyə ibn Rafi və Amr ibn Rifai ibn Tabut idi. Suyuti "Ləal əl məsnua"da yazır: "Bu rəvayyət sualı köküdən həll edir." Göründüyü kimi ilk rəvayyətdə səhv bir sözdə idi.Bu "ibn As" sözü idi. Onun əsl adı Amr ibn Rifai idi ki, bu tanınmış münafiqlərdən idi. Daha doğrusunu Allah bilir."*[5]

Bu məktubun sonunda Əbdulhüseyn yazır: *"Bu, qısa müddətdə saymaq istədiyimiz şəxslərin sonuncusudur. Bu yüz nəfər pak və təqvalı şəxslər şiənin dahiləri və sünnə əhli üçün dəlildir."*Bu məktubda olanlara izah gətirərək göstərdik ki, Musəvinin dediyi yalnız boğazdan yuxarı deyilən sözlərdir.

55) Əbdulhüseyn 18-ci məktubda yazır: *"Hələ onların imamət və xilafətinə dəlalət edən dəlil və "nass"ları qoyaq bir kənara! Gəl görək elm, əməl və təqvada Əşəri və sünnə əhlinin digər imamları ilə müqayiSəddə onlarda bir qüsur və əksiklik tapırsanmı? Əgər onlarda bir qüsur belə yoxdursa, nə üçün rəhbərlikdə başqaları onlardan irəli və layiq olmalıdırlar?"*

— Əhli beytin sözlərinin tərk edilib, üstünlüyün digərlərinə verilməsi iddiası həqiqət deyil. Ondan başalayaq ki, müsəlmanlar Əhli beyti yalnız Əlinin *(radiyallahu anhu)* ailəsi ilə məhdudlaşdırmırlar. Bizə görə Peyğəmbərin *(sallallahu*

[1] 2/28
[2] "Təhzib ət təhzib", 4/186
[3] №10970
[4] "Mizanul itidal", 3/312/№6569
[5] "Fəvaid əl məcmua",səh 481, №165

aleyhi və səlləm) zövcələri, ibn Abbas kimi qohumları da Əhli beytdəndirlər. İbn Abbasdan *(radiyallahu anhu)* 1660 hədis, möminlərin anası Aişədən *(radiyallahu anhu)* isə 2210 hədis varid olmuşdur.

Başqalarını əhli beytdən üstün görmədiyimizə dair dəlillərdən biri də odur ki, Əli ibn Əbu Talibdən *(radiyallahu anhu)* nəql olunan hədislərin sayı Əbu Bəkr *(radiyallahu anhu)* və Ömərin *(radiyallahu anhu)* bir yerdə nəql etdiyi hədislərin sayından daha çoxdur. Demək olar ki, bizim aramızda olan ixtilaflı məsələləri biz Əlidən *(radiyallahu anhu)* varid olan hədislərə görə həll edirik. Məhz, onun sözlərinə görə biz dəstəmazda ayaqların məsh edilməsini deyil,yuyulmasını deyirik.

Əbd əl Xeyr nəql edir ki, bir gün Əli *(radiyallahu anhu)* **bizə gələrək namaz qıldı. Sonra o dəstəmaz almaq üçün su istədi. Biz onun namaz qıldıqdan sonra su istəməsinə təəcübləndik. Onun məqsədi isə bizə öyrətmək idi. Ona kasada su gətirdilər. O, sağ əlinə su töküb, əllərini üç dəfə yudu. Sonra o üç dəfə su ilə ağız və burnunu yudu və sildi. Sonra üç dəfə üzünü, sonra isə sağ və sol əllərini yudu. Əlini suya salaraq o yaş əllə başına məsh çəkdi. Sağ və sol ayaqlarını üç dəfə yuduqdan sonra o dedi: "Kim Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **necə dəstəmaz aldığını görmək istəyirsə, onu gördü."**[1]

Şeyx Əhməd Şakir bu hədisin sənədlərini "Musnəd"[2] kitabının şərhində səhih adlandırmışdır.

Onun sözlərinə əsasən biz mutə nigahının haram olduğunu deyirik. Əli ibn Əbu Talib dedi: **"Allahın Rəsulu** *(sallallahu aleyhi və səlləm)* **mutə nigahını və eşşək ətini Xeybər günü qadağan etdi."**[3]

Belə nümunələr çox gətirmək mümkündür. Müsəlmanlar heç vaxt əhli beytdən uzaq düşməmişlər. Həccə və onun qaydalarına dair ən təfsilatlı hədis bizə Muhəmməd Baqir və oğlu Cəfər Sadiq tərəfindən nəql olunmuşdur. **"Ümumilikdə isə Cəfər əs Sadiqin fiqhi və məzhəbi digər dörd məzhəbdən elə də seçilmir. Yəni, onun fikirləri**

[1] Əbu Davud, "Sunən" №111; Nəsai "Sunən" №91

[2] 2/344

[3] Tirmizi, "Sunən" №1121

əhli sünnə ilə əsas məsələlərdə fərqlənmirdi. Yalnız imam Cəfərin vəfatından sonra bir qrup iftiraçılar ona bir çox şeylər isnad etməyə və camaat arasında yaymağa başladılar. Əgər o sağ olsaydı, heç şübhəsiz haqqında gəzən şayiələri təkzib edərdi."[1]

56) Əbdulhüseyn 18-ci məktubda yazır: *"Amma, sizdən xahiş edirəm ki, qiblə əhlinin bütünlüklə əhli beytdən üz döndərməsi haqqında söylədiklərinizin hamısını yenidən nəzərdən keçirəsiniz və xatırladıram ki, qiblə əhlinin yarısı –Əhli beytin şiələri onlardan və imamlardan heç vaxt üz döndərməmiş və döndərməyəcəklər.Əsas və ikinci dərəcəli məsələlərdə də onlara daim tabe olmuşlar."*

— Burada rafizinin sağlam optimizminə diqqət etmək istərdim. Gördüyümüz kimi o şiələrin dünya müsəlmanlarının yarısını təşkil etdiyini qeyd edir. Burada 2009-cu ildə nəşr olunan statistik məlumatları qeyd etmək istərdim. ru.trend.az saytı yazır: "200-dən artıq ölkələrdə aparılan kompleks demoqrafik araşdırmalar aşkar etmişdir ki, dünyada bütün yaşlar səviyyəsində 1.57 milyard müsəlman yaşayır."

Ümumi müsəlman əhalisinin 10-13%-i şiələr, 87-90%-i isə sünnilərdir. Şiələrin əksəriyyəti (68-80%) əsasən dörd ölkədə yaşayırlar. Bunlar: İran, Pakistan, Hindistan və İraqdır."[2]

Elə isə, şiələrin müsəlmanların yarısı olması iddiası nəyə dayanır?! Gördüyümüz kimi bu iddiaların yeganə mənbəyi Əbdulhüseynin "sağlam" optimizmidir.

57) Əbdulhüseyn 20-ci məktubda yazır: *"İslamın başlanğıcında, Məkkədə İslamın rövnəq tapmasından əvvəl Allahın nazil etdiyi bu ayəni mülahizə etmək sizə kifayət edər: "Ən yaxın qohumlarını qorxut." – ayəsi nazil olan vaxt Həzrət yaxın qohumlarını əmisi Əbu Talibin evinə topladı. Düz, qırx nəfər yığışdılar ki,onların arasında əmiləri Əbu Talib, Həmzə, Abbas və Əbu Ləhəb də var idi. Bu hədis doğru hədislərdəndir. Hədisin sonunda deyilir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onlara belə xitab etdi: "Ey Əbdil-Muttəlibin övladları! Allaha and olsun, mən ərəblərdən elə bir cavan tanımıram ki, mənim sizin üçün*

[1] Muhəmməd Əbu Zuhra, "İslamda məzhəb və firqələr tarixi",səh 204

[2] http://www.trend.az/life/interesting/1561978.html

gətirdiyimdən faydalısını onlar üçün gətirmiş olsun. Mən sizin üçün dünya və axirətin xeyrini gətirmişəm. Allah mənə əmr edib ki, sizi ona tərəf dəvət edim. Sizlərdən kim bu yolda mənə kömək olsa o, sizin aranızda mənim qardaşım, vəsim və xəlifəm olacaq. Hamı sükut etdiyi vaxt Əli yaşca hamıdan kiçik olmasına baxmayaraq, ayağa durdu və dedi: "Mən! Ey Allahın peyğəmbəri, mən bu işdə sənin vəzirin olacağam." Peyğəmbər (sallallahu aleyhi və səlləm) əlini onun çiyninə qoydu və buyurdu:"Bu sizin aranızda mənim vəsim və xəlifəmdir, ona qulaq asın və itaət edin." Camaat gülə-gülə yerdən qalxıb Əbu Talibə dedilər: "Sənə əmr etdi ki, oğlunun sözünə qulaq asmalı və ona itaət etməlisən!"

Daha sonra yazır: *"Nubuvvət əsərlərini qoruyub saxlayanların çoxu, İbn İshaq, ibn Cərir, ibn Əbu Hatəm, ibn Mərdəveyh, Əbu Nəim, Beyhəqi "Sunən" kitabları və "Dəlail"lərində, Sələbi və Təbəri, ibn Əsir bu hədisi olduğu kimi qəti şəkildə nəql etmişlər.*

— Mənə maraqlıdır, görəsən ibn Cərir ilə Təbəri arasında nə fərq vardır? Bu axı Muhəmməd ibn Cərir ət Təbəri adı ilə məşhur olan eyni şəxsdir. Rafizinin bu iddiasına iki tərəfdən toxunacağıq.

Birincisi bu ayənin nazil olmasından sonra baş verənlər haqqda.

Əbu Hureyra *(radiyallahu anhu)* dedi: ***"Uca Allah öz elçisinə bu ayəni nazil etdikdə: "Ən yaxın qohumlarını qorxut!" o Qureyşə üz tutaraq dedi: "Ey Qureyşlilər! Özünüzü xilas edin.Çünki,mən sizi Allahın əzabından qoruya bilmərəm. Ey bəni Əbd Mənaf! Mən heç cürə sizi Allahın əzabından qoruya bilmərəm. Ey Abbas ibn Əbdul Mutəllib! Mən heç cürə səni Allahın əzabından qoruya bilmərəm. Ey Səfiyyə! Mən heç cürə səni Allahın əzabından qoruya bilmərəm. Ey Fatimə! Mən heç cürə səni Allahın əzabından qoruya bilmərəm.Sahib olduğum maldan nə istəyirsənsə istə,amma səni Allahın əzabından qoruya bilmərəm."***[1]

Suyuti "Durr əl mənsur" kitabında bu hədisi Əhməd, ibn Humeyd, Buxari, Muslim, ibn Cərir, ibn Munzir, ibn Əbu Hatim, ibn Mərdaveyh və Beyhəqiyə istinad edərək nəql etmişdir. Tirmizi "Sunən"[2]də Aişədən *(radiyallahu anhu)*

[1] Buxari , Zubeydi "Muxtəsər əs səhih" № 1140. 2753

[2] №3184

rəvayyət edir ki, bu ayə nazil olduqdan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: ***"Ey Səfiyyə bint Mutəllib! Ey Muhəmmədin qızı Fatimə! Ey Əbdulmutəllibin oğulları! Allahın iradəsinə əks olan elə bir şey yoxdur ki,onu mən sizlər üçün edə bilim.Lakin,siz malımdan istədiyiniz qədər istəyə bilərsiz."***

Suyuti "Durr əl mənsur" kitabında bu hədisi Əhməd, Muslim, Tirmizi, ibn Cərir və ibn Mərdaveyhə istinadən nəql etmişdir. Hədisi ibn Hibban "Səhih"[1] də nəql etmişdir və Şueyb Arnaut hədisin sənədinin Buxarinin şərtlərinə görə səhih olduğunu demişdir.

Safi ər Rahmən Mubarəkfuri "Sirə" kitabında yazır: **"Peyğəmbər** (*sallallahu aleyhi və səlləm*) **üç il ərzində ayrı-ayrı insanlara təklikdə dəvət etdi və onun çağırışına Qureyşin və digər qəbilələrin ən yaxşı nümayəndələri cavab verdilər və iman gətirdilər. Bu zaman dəvətin aşkar edilməsinə tələbat yarandı və Allah Təala bu ayələri nazil etdi: "Ən yaxın qohumlarını qorxut! Sənə tabe olan möminləri qanadının altına al (onlara qarşı təvazökar ol)! Əgər onlar sənə asi olsalar, de: "Şübhəsiz ki, mən sizin etdiyiniz əməllərdən uzağam!"**[2]

Bundan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* yaxın qohumlarını yəni, Haşimiləri, bəni Mutəllibbin bəzi nümayəndələrini bir araya topladı. Allaha həmd sənа etdikdən sonra onlara üz tutaraq dedi:

"Həqiqətən öndə gedən öz yaxınlarına xəyanət etməz. Allaha and olsun ki, əgər mən bütün insanlara yalan danışmalı olsam, sizə yalan demərəm və əgər insanları zəlalətə çağırmış olsaydım, sizinlə belə etməzdim! Özündən başqa ilah olmayan Allaha and olsun ki, mən Allahın sizə və bütün insanlara göndərdiyi elçisiyəm! Allaha and olsun ki, siz yatdığınız kimi öləcəksiz və yuxudan qalxdığınız kimi qəbirlərinizdən qalxacaqsız. Bundan sonra etdiyiniz yaxşı və pis əməllərə görə hesab verməli olacaqsız.Yaxşı əməllərin mükafı əbədi nemətlər, pis əmələrin cəzası isə əbədi işgəncələr olacaqdır!"

[1] №6548

[2] Şuara 214-216

Buna cavab olaraq Əbu Ləhəbdən başqa hamı onunla yumşaq danışdı. Əbu Ləhəb isə dedi: "Bütün ərəblərin ona qarşı qalxmaması üçün onu qoymayın. Əgər bu baş versə və siz onu təslim etməli olsanız bu bizim üçün təhqir və rüsvayçılıq olar. Yox, əgər onu qorusanız,sizi məhv edərlər!"

Əbu Talib isə dedi: "Allaha and olsun ki,biz sağ olduqca onu qoruyacağıq!" Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* **müraciət edərək dedi: "Sənə buyrulanı etməyə davam et. Mən isə səni himayə etməkdən çəkinməyəcəyəm. Lakin, qəlbim Əbdul-Mutəllibin dinindən dönmək iqtidarında deyil."**[1]

İkincisi. Rafizinin nəql etdiyi rəvayyətə gəlincə,bu hədis şeyx Albaninin "Silsilə əhadis əd daifə"[2] də qeyd etdiyi kimi uydurmadır. İbn Cərir ət Təbəri "Təfsir",Bəzzar "Kəşaf",Əbu Nueym "Dəlail",ibn Əsakir "Tarix" kitablarında bu rəvayyəti aşağıdakı sənədlə nəql etmişlər: "Muhəmməd ibn İshaq-Əbduqaffar ibn əl Qasimdən,o Minhəl ibn Amrdan, o Abdullah ibn əl Haris ibn Əbdulmutəllibdən, o ibn Abbasdan, o da Əlidən." Bu sənəd bir neçə raviyə görə olduqca zəifdir.

1) İbn İshaq tanınmış tarixçidir. İbn Hacər "Təqrib"də qeyd etdiyi kimi ibn İshaq öz tədlisi ilə tanınırdı. Bu rəvayyəti nəql edərkən o "bir nəfərdən" ifadəsini işlətmişdir. Bu isə sənədi zəiflədir. Beləki, o bu rəvayyəti birbaşa olaraq özünün eşidib-eşitmədiyini bildirməmişdir.Yəhya ibn Məin ibn İshaqın "siqa" olmasını qeyd etməklə yanaşı, onun hüccət olmadığını bildirmişdir. Nəsai onun etibarlı olmadığını, Dəraqutni isə ona etimad edilmədiyini qeyd etmişdir. Hişam ibn Urvə və Süleyman ət Teymi ibn İshaqı yalançı adlandırmışlar. Vuheybin nəqlinə görə imam Malik də ibn İshaqı ittiham etmişdir."[3]

İbn İshaqın tədlisi Əbu Nueymin "Dəlail" kitabında açıq-aşkar görünür. Burada o rəvayyəti nəql edərək deyir: *"bunu mənə Abdullah ibn əl Harisdən eşidən nəql etmişdir."*

[1] "Sira","Qohumlara dəvət hadisəsi" fəsli

[2] 4932

[3] "Mizanul itidal", 3/468/№7197

2) Əbdulqaffar ibn əl Qasim Əbu Məryəm əl Ənsari. "Mizan" kitabında onun haqqında yazılır: ***"Etimad olunmayan rafizidir. Əli ibn Mədini dedi: "rəvayyətlər uydurardı." Yəhya ibn Məin: "heçnədir", Buxari: "onlara görə o güclü deyildi" demişlər. Əbu Hatim və Nəsai isə onu "mətruk əl hədis"adlandırmışlar.***[1]

İbn Kəsir "Təfsir"də yazır: ***"Əbdulqaffar ibn əl Qasim bu rəvayyətin şərhində yalnız qalmışdır və tərk olunmuş (mətruk) yalançı şiədir. Əli ibn Mədini və başqaları onu rəvayyətlər uydurmada ittiham etmişlər.Onu İslamın imamları zəif hesab etmişlər."***

Üçüncü. Rəvayyətin mətnində deyilir: *"Tam olaraq 40 adam toplandı."* Əbdulmutəllibin nəslindən olan bu 40 adam kimlər idi? Əbdulmutəllibin nəsli onun oğulları Abbas, Əbu Talib, Haris, Əbu Ləhəb vasitəsi ilə artmışdır. Əbu Talibin dörd oğlu var idi: Talib, Əqil, Cəfər, Əli. Harisin üç oğlu var idi: Əbu Süfyan,Rabiyyə və Nofəl. Əbu Ləhəbin iki vəya üç övladı var idi.

Daha sonra Əbdulhüseyn yazır: *"Bu hədis həmin mənada, təqribən sözləri oxşar şəkildə bir sıra hədis alimləri tərəfindən zikr olunmuşdur. Məsələn: Təhəvi, Ziya Muqəddəsi "Əl-Muxtarə"də, Səid ibn Mənsur "Sunən"də, Əhməd ibn Hənbəlin "Musnəd"inin birinci cildində Əlidən nəql olan hədisin 111-159-cu cüzünə müraciət etsəniz kifayətdir."*

Ərəbcə olan nəşrin haşiyəsində yazılır: *"Əhməd ibn Hənbəl "Musnəd"-də 2/165, №883 yaxşı sənədlə, 2/353, №1317-də isə səhih sənədlə nəql etmişdir."*

— Təhaviyə gəldikdə o,bu rəvayyəti "Şərhul məanil əsər"[2]də nəql etmişdir. Birincisi, bu rəvayyətin mətnində ***"bu mənim qardaşım,varisim və xəlifəmdir.Ona qulaq asıb, itaət edin "ifadəsi yoxdur. İkincisi, sənəd olduqca zəifdir. Sənəddə Abdullah ibn Abdulquddus vardır ki, o "heçnə"-dir."***[3]

[1] "Mizanul itidal", 2/640/№5147

[2] №7253

[3] "Mizanul itidal", 2/457/№4431

Həmçinin, sənəddə Süleyman əl Əmaş vardır ki, o məşhur müdəllisdir. İmam Əhmədin "Musnəd"ində olan №883-ci hədis. Əvvala rəvayyətdə***"bu mənim qardaşım,varisim və xəlifəmdir. Ona qulaq asıb, itaət edin "***ifadəsi yoxdur. Orada yalnız deyilir ki,*"razılaşan mənimlə cənnətdə olub, ailəmin varisi olacaqdır. "*İkincisi, rəvayyətin sənədi Şueyb Arnauta görə zəifdir."[1]

Sənəd belədir: "Mənə Abdullah, o atasından, o Əsvəd ibn Əmmardan, o Şərikdən, o Əmaşdan, o Minhəldən, o Abbad ibn Abdullah əl Əsədididən, o da Əlidən nəql etmişdir..."

Ravi silsiləsində üç qüsur vardır.

1) Şərik ibn Abdullah.Onun zəifliyi baradə biz yuxarıda bəhs etdik.

2) Süleyman əl Əmaş-müdəllisdir ki, rəvayyəti birbaşa özünün eşidib-eşitmədiyini qeyd etməmişdir.

3) Abbad ibn Abdullah. İbn Mədini onu "zəif" adlandırmışdır.

Buxari onun sual altında olduğunu qeyd etmişdir."[2]

Belə qüsuru olan sənəd nə yaxşı, nə də səhih adlandırıla bilməz. Onu yalnız zəif adlandırmaq olar. "Musnəd"[3]də olan ikinci rəvayyətdə də ***"bu mənim qardaşım,varisim və xəlifəmdir. Ona qulaq asıb, itaət edin "*** ifadəsi yoxdur. Orada yalnız deyilir ki, razılaşan *"mənim qardaşım və əshabım"* olacaqdır. Bu rəvayyətin sənədi Şueyb Arnauta görə zəifdir. Rabiyyə ibn Nəcat adlı ravi çox da tanınan biri deyil. İbn Hibban onu "Siqat"da zikr etmiş, Zəhəbi "Kəşəf"[4]də qeyd etmişdir ki, ondan yalnız Əbu Sadiq əl Əzdi nəql etmişdir.

58) Daha sonra Əbdulhüseyn yazır: *"Bu hədisin səhihliyi baradə onu demək kifayətdir ki,bu hədis"Səhih"kitabların müəllifləri tərəfindən etimad olunan mötəbər şəxslər tərəfindən nəql olunmuşdir.Əhmədin "Musnəd"kitabında 111-ci səhifəyə*

[1] "Musnəd", №883

[2] "Mizanul itidal", 2/368/№4126

[3] №1371

[4] №1557

baxın.Orada sən bu hədisi Əsvad ibn Əmmarın-Şərikdən,onun Əmaşdan,onun Minhəldən,onun Abbad ibn Abdullah Əsədidən,onun da Əlidən nəql etdiyini görəcəksən.Bu ravilərin hər biri "Səhih" müəllifləri tərəfindən mötəbər hesab olunub."

Haşiyədə yazır: *"Abbad ibn Abdullah ibn Zubeyr ibn Əvvam Kəraşi Əsədi. Buxari və Muslim "Səhih"kitablarında ona istinad etmişlər.O, Əbu Bəkrin qızları Aişə və Əsmadan hədislər eşitmişdir."*

— Biz burada bu dəccalın növbəti yalanının şahidi oluruq. Rafizinin bəhs etdiyi hədis №883-ə qayıdaq. İsnad belədir:

حدثنا عبد الله حدثني أبي حدثنا أسود بن عامر حدثنا شريك عن الأعمش عن المنهال عن عباد بن عبد الله الأسدي عن علي رضي الله

"Mənə Abdullah, o atasından, o Əsvəd ibn Əmmardan, o Şərikdən, o Əmaşdan, o Minhəldən, o Abbad ibn Abdullah əl Əsədidən, o da Əlidən nəql etmişdir…"

Yalançı Əbdulhüseyn iddia edir ki, bütün ravilər "Səhiheyn" kitabının ravileridir. Əsvəd ibn Əmmardan imam Muslim nəql etmişdir. Şərik, Əmaş və Minhəl də "Səhih" ravileridir. Abbad ibn Abdullah isə "Səhiheyn"ravilərindən deyildir.

İmam Mizzinin "Təhzib əl kəmal"kitabında Abbad ibn Abdullah adı ilə iki ravi qeyd olunmuşdur. 3086 nömrəsi ilə Abbad ibn Abdullah ibn Zubeyr ibn Əvvam əl Queyşi qeyd olunub. Siqa və etibarlı ravidir, onun təsvirində siz onun Əlidən nəql etdiyini vəya ondan Minhəl ibn Amrın nəql etdiyini görməzsiz. 3087 nömrəsi ilə Abbad ibn Abdullah Əsədi əl Kufi qeyd olunub. Bu ibn Mədini və Buxarinin zəif hesab etdikləri ravidir. Məhz, bu ravinin təsvirində qeyd olunur ki, o Əlidən, ondan da Minhəl ibn Amr nəql etmişdir. Dəccal Musəvi isə adı eyni və oxşar olan iki ravidən istifadə edərək zəif ravini "siqa" ravinin əvəzinə təqdim etmək istəmişdir. Öz yalanını möhkəmləndirmək üçün sünni şeyxinin guya ona yazdığı məktubunda yazır: *"Mən bu hədisi "Musnəd" kitabının 1-ci cildinin,111-ci səhifəsində gördüm.Sənədində olan raviləri təhlil edəndən sonra onların mötəbər ravilər olduğunu gördüm."*

Güc və qüdrət Allaha məxsusdur! Əbdulhüseynin bu kələyini necə istəyirsiz adlandırın! Yalan, təhrif və s. Məgər bu alimdir? Onların alimləri belə həyasızcasına yalan deyirlərsə, sıravi şiələrdən nə gözləmək olar?

59) Əbdulhüseyn 22-ci məktubda yazır*: "Amma, Muslim, Buxari və başqalarının bu hədisi nəql etməməsi məsələsinə gəldikdə isə bu ona görədir ki, onlar bunu öz əqidələrinin əleyhinə olan dəlil gördülər."* Sonra yazır: *"Buxarinin Əmirəl möminin və əhli beytə olan rəftarından agah olanlar bilirlər ki, onun qələmi "nassların" gözəllikləri qarşısında acizdir və onların xüsusiyyət və imtiyazlarını bəyan etdikdə quruyur (yəni, onların bütün xüsusiyyətlərini bəyan edə bilmir). Buna görə də onun və başqalarının bu hədisin üstündən ötəri keçməsi heç də təəccüblü deyildir."*

— Əgər bu imamlara böhtan və şər deyilsə, onda dünyada şər və böhtan yoxdur. Heç bir şeyx əhli beytin fəzilətini gizlətməmişdir!

İmam Buxari Sədd ibn Əbu Vəqqasdan *(radiyallahu anhu)* rəvayyət edir ki, Təbuk döyüşünə gedən zaman Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinədə Əlin *(radiyallahu anhu)* yerinə əvəz olaraq qoydu. Əli *(radiyallahu anhu)* ona dedi: "Ey Allahın elçisi! Sən məni qadın və uşaqlarla qoyub gedirsən?!"

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* isə buyurdu: **"Məgər sən mənim üçün, Harunun Musa nisbətində olmaq istəmirsən? Amma, məndən sonra peyğəmbər olmayacaqdır"**[1]

Buxari yazır ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əliyə *(radiyallahu anhu)* dedi: **"Sən məndənsən, mən də səndənəm."**[2]

Səhih Buxaridə Əbu Bəkrin *(radiyallahu anhu)* belə dediyi rəvayyət edilir: "Mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* minbərdən bir dəfə insanlara, bir dəfə də yanındakı nəvəsi Həsənə *(radiyallahu anhu)* baxaraq belə dediyini eşitdim: "Mənim bu oğlum seyyiddir. Allah onun əli ilə iki müsəlman kütləni barışdıracaq"[3]

Buxari Səhl ibn Səddan rəvayyət edir ki, Rəsulullah *(sallallahu aleyhi və səlləm)* Xeybər günü dedi: **"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onun əli ilə Allah bizə zəfər nəsib edəcəkdir."**

---

[1] Səhih Buxari, "Kitabu Fədailus Səhabə", Bab, mənaqibi Əli, 2607; Muslim "Kitabu Fədailus Səhabə"

[2] Zubəydi, "Müxtəsər səhih Buxari" № 1128,2699

[3] Buxari, "Kitabul-fadail əshab", 24/86)

Bu sözdən sonra səhabələr yerlərindən qalxdılar və sabah bu bayrağı əldə etmək ümidi ilə hər biri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **yanına gəldilər. Amma, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **soruşdu: "Əli hardadır?" Ona dedilər ki, onun gözü ağrıyır və nəhayət Əlini onun yanına çağırdılar. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **onun gözlərinə yaş əli ilə çəkdi və Əlinin gözləri sağaldı. Əli dedi: "Onların bizim kimi olmalarına qədər onlarla savaşalımmı?" Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Onlarla görüşənə qədər tələsmə, öncə İslama dəvət et və onlara fərz olunanları çatdır. Əgər Allah sənin əlinlə bir nəfəri haqqa yönəldərsə, bu sənin üçün qırmızı dəvələrə sahib olmaqdan daha xeyirli olar."**[1]

Buxari nəql edir: "əl Bəra *(radiyallahu anhu)* dedi: **"Mən çiynində Həsən ibn Əli olduğu halda Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **belə dediyini eşitdim: "Ya Allah! Həqiqətən mən onu sevirəm,sən də onu sev."**[2]

Buxari ibn Abbasdan *(radiyallahu anhu)* rəvayyət edir ki, Ömər *(radiyallahu anhu)* demişdir: **"Bizim aramızda ən yaxşı Quran oxuyan Ubeyy ibn Kəbb, ən yaxşı qazimiz Əli ibn Əbu Talibdir**."[3]

Muslim nəql edir: "Əbu Hureyra *(radiyallahu anhu)* rəvayyət edir ki, Xeybər günü Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu*:* **"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o Allahı və elçisini sevir. Allah onun əli ilə bizə zəfər nəsib edəcəkdir."**

Ömər *(radiyallahu anhu)* **dedi: "Əgər o günü saymasam, mən heç vaxt ordu başçısı olmaq istəməmişdim. Lakin, o an mən bayrağın mənə veriləcəyi ümidi ilə gözləməyə başladım. Fəqət, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **Əli ibn Əbu Talibi çağıraraq, bayrağı ona verərək buyurdu: "Get və Allah sizə zəfər verənə qədər heç nəyə fikir vermə." Əli ibn Əbu Talib oradan bir qədər uzaqlaşdıqdan sonra dayandı və arxaya dönmədən qışqırdı: "Ya Rəsulullah! Mən nəyin naminə bu adamlarla döyüşüm?" Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Onlar şəhadət kəlməsini təsdiq edənə**

[1] Zubəydi, "Muxtəsər Səhih Buxari" №1207,2942

[2] Zubəydi, "Muxtəsər Səhih Buxari" №1475. 3749

[3] Zubəydi, "Müxtəsər səhih Buxari" № 1634,4481

qədər onlarla döyüş. Əgər onlar bunu təsdiq etsələr ,canlarını mallarını qorumuş olacaqlar. Onların gizli hesabı isə Allaha aiddir."[1]

Hər iki şeyx nəql etmişdir: "Əbul Abbas Səhl ibn Sad əs Səidi *(radiyallahu anhu)* rəvayyət edir: "Xeybər günü Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu*:* **"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o Allahı və elçisini sevir, Allah və elçisi də onu sevir və Allah onun əli ilə bizə zəfər nəsib edəcəkdir."**

Bundan sonra adamlar gecəni sabah bayrağın kimə veriləyini müzakirə etməklə keçirdilər. Sabah tezdən onların hər biri bayrağı almaq ümidi ilə Rəsulullahin *(sallallahu aleyhi və səlləm)* **hüzuruna gəldilər. Lakin, Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **soruşdu: "Əli hardadır?" Ona dedilər ki,onun gözü ağrıyır və nəhayət Əlini onun yanına çağırdılar. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **onun gözlərinə yaş əli ilə çəkdi və Allaha dua etdi. Tezliklə Əlinin gözləri sağaldı və bayraq ona verildi. Əli** *(radiyallahu anhu)* **soruşdu: "Onlar bizim kimi olana qədər onlarla döyüşümmü?" Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Tələsmədən onlarla rastlaşana qədər irəlilə. Sonra onları İslama dəvət et və onlara Allahın nələri vacib buyurduğunu çatdır. Allaha and olsun ki, əgər Allah sənin vasitənlə bir adamı haqqa gətirərsə bu sənin üçün qırmızı dəvələrə sahib olmaqdan daha xeyirli olar."**[2]

Hər iki şeyx nəql etmişdir: Aişə *(radiyallahu anhu)* rəvayyət edir: **"Bir gün bizim Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **ilə birgə olduğumuz zaman yerişi ilə atasının yerişindən fərqlənməyən Fatimə (radiyallahu anhu) onun yanına gəldi. Onu görən Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **qızını salamladı vəyanında əyləşdirdi. Sonra onun qulağına nəsə dedi və bu zaman Fatimə** *(radiyallahu anhu)* **ağlamağa başladı. Onun qəmgin olduğunu görən zaman Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **yenə nəsə qulağına pıçıldadı və bu zaman Fatimə** *(radiyallahu anhu)* **gülümsədi. Mən isə ona dedim:**

[1] Nəvəvi, "Riyadus salihin" №94- imam Muslimə istinadən
[2] Nəvəvi, "Riyadus salihin" №175-Buxari və Muslimə istinadən

“Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* **sənə zövcələrinin yanında nəsə deyir və sən ağlayırsan!” Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **getdikdən sonra mən ondan soruşdum: “Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **sənə nə dedi?” O, isə dedi: “Mən onun sirrini açmaram”**

Rəsulullah *(sallallahu aleyhi və səlləm)* **vəfat etdikdən sonra mən Fatiməyə** *(radiyallahu anhu)* **dedim: “Səni Allaha and verirəm. O zaman Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **sənə nə demişdi?” O, dedi: “Bəli, indi deyə bilərəm.” Birinci dəfə mənə üz tutaraq buyurdu: “Cəbrayıl əleyhisəlam hər il Quranı mənimlə bir dəfə xətm edir. Lakin,bu il mənimlə bunu iki dəfə təkrar etdi. Mən elə zənn edirəm ki, bu mənim müddətimin bitdiyinə işarədir. Allahdan qorx və səbr elə. Çünki, mən sənin üçün saleh sələf olacağam.” Bu zaman mən ağlamağa başladım. Mənim qəmgin olduğumu görən zaman Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **bunları mənə dedi: “Ey Fatimə! Məgər sən cənnət qadınlarının seyyidi olmasına sevinmirsənmi?” və mən o zaman gülümsədim.”**[1]

Allahdan başqa güc və qüdrət sahibi yoxdur. İmam Buxari, Muslim və digər sünnə alimlərinin kitabları Əli *(radiyallahu anhu)* və onun əhlinin fəziləti baradə olan hədislərlə doludur. Məgər Əbdulhüseyn kimi rafizilər razı qalsın deyə bu alimlər kitablarını hər cür yalan və uydurma ilə doldurmalı idilər?! Bəlkə onda Əbdulhüseyn kimi yalançılar bu alimlərə böhtan atmazdılar. Təəcüblü hal budur guya sünni şeyxinin yazdığı cavab məktubunda rafizinin bu alimlərə qarşı etdiyi ittihamlara heç bir münasibət bildirilmir.

60) Musəvi 26-cı məktubda yazır: *“Dar” hədisindən sonra bu hədis sənin üçün kifayətdir. Hansıki, imam Əhməd “Musnəd”in birinci cildində, imam Nəsai “Xəsaisul-Ələviyyə”də, Hakim “Müstədrək”in üçüncü cildində, Zəhəbi öz “Təlxis”ində onun doğru olduğunu etiraf etmiş, bunlardan əlavə,bunun doğru olmasında hamı Sünnə müəllifləri yekdil olmuşdur.”*

— Hakim hədisin səhihliyini deyil, ravilər silsiləsinin səhihliyini qeyd etmişdir. Daha sonra Əbdulhüseyn guya bir neçə isnad sadalayır. Mən bu rəvayyətin yeganə olan bir isnadını tapdım. Rafizi bu rəvayyəti

[1] Nəvəvi, “Riyadus salihin” №687-Buxari və Muslimə istinadən

“Sunən”müəlliflərinin nəql etdiyini deməklə yalan danışmışdır. İmam Hakim “Müstədrək”də bu rəvayyəti ibn Suleymdən nəql etmişdir.”

[4652] أخبرنا أبو بكر أحمد بن جعفر بن حمدان القطيعي ببغداد من أصل كتابه ثنا عبد الله بن أحمد بن حنبل حدثني أبي ثنا يحيى بن حماد ثنا أبو عوانة ثنا أبو بلج ثنا عمرو بن ميمون قال

Nəsai “Xəsais”də:

(أخبرنا) ميمون بن المثنى ، قال : حدثنا الوضاح وهو أبو عوانة قال : حدثنا ابوبلج بن ابي سليم ، قال : حدثنا عمرو بن ميمونة قال : انى لجالس إلى ابن عباس

Mən bütün hədisi nəql etməyəcəyəm. Bu Əli ibn Əbu Talibin 10 fəziləti haqqında olan məşhur hədisdir. Aşağıda bu rəvayyətin ravilər silsiləsi və mətninin bir hissəsi təqdim olunur:

3062 – حدثنا عبد الله حدثني أبي ثنا يحيى بن حماد ثنا أبو عوانة ثنا أبو بلج ثنا عمرو بن ميمون قال : إني لجالس إلى بن عباس إذ أتاه تسعة رهط فقالوا يا أبا عباس أما ان تقوم معنا واما أن تخلون

Şeyx Şueyb Arnaut dedi: ***“Rəvayyətin sənədi zəifdir. Sənəddə olan qüsur Əbu Bəlacdır. Yəhya ibn Əbu Suleym. Onu ibn Məin, Nəsai, Dəraqutni “siqa” hesab etmişlər. Buxari dedi: “o sual altındadır.” Bu söz Buxarinin bir ravini mötəbər görmədikdə istifadə etdiyi ən kəskin ifadədir. Əhməd dedi: “O,münkər rəvayyətlər nəql edərdi.” Əbu İshaq İbrahim ibn Yəqub Cuzədcani dedi: “ona etimad olunmur.” İbn Hibban dedi: “o səhv edərdi”***[1] Səddi dedi: ***“Əbu Bəlac dürüst deyil”***[2]

Əbu Fədl Nuri imam Əhməddən nəql edir: ***“o münkər rəvayyətlər nəql edərdi.” İmam Zəhəbi də ibn Əbu Suleymi özünün zəif ravilər toplusunda qeyd etmişdir. Heysəmi “Məcməu zəvaid”də qeyd etmişdir ki, ibn Suleym düzgün***

[1] “Mizanul itidal”, 4/384/№9539

[2] İbn Adiy ,“Kamil fi duafa”c.7,səh 299

ravidir, amma onda zəiflik vardır." Əbu Hatim dedi: "o hədislərdə yaxşıdır." İbn Hacər "Təqrib"[1]də yazır: "siqadır, amma bəzən səhv edərdi." Daha doğrusunu Allah bilir.

İbn Saleh əl Şəhrəzuri yazır: ***"Əgər hər hansı bir ravi haqqında eyni zamanda həm tənqidi, həm də müsbət rəylər söylənilibsə, onda tənqidi rəylər üstünlük təşkil edir. Çünki,ravini tərif edən alim, onun haqqında bildiklərinə görə onu tərif edib. Onu tənqid edən alimə isə onu tərif edən alimdən gizli qalan məqamlar bəlli idi. Həmçinin,deyilir ki, əgər tərif edən alimlərin sayı tənqid edən alimlərin sayından çox olarsa,birincilərin rəyi üstünlük qazanır. Lakin, alimlərin əksəriyyətinin fikrinə görə doğru rəy budur ki, tənqidi rəy bizim dediyimiz səbəblərə görə üstünlük qazanmalıdır."***[2]

Bununla yanaşı Əbu Bəlac bu rəvayyəti Amr ibn Meymuna istinadən nəql etmişdir. İbn Rəcəb əl Hənbəli "Şərhul iləl Tirmizi"-də yazır:

وذكر عبد الغني بن سعيد المصري الحافظ أن أبا بلج أخطأ في اسم عمرو بن ميمون هذا ، وليس هو بعمرو بن ميمون المشهور ، (و) إنما هو ميمون أبو عبد الله مولى عبد الرحمن بن سمرة ، وهو ضعيف ، وهذا ليس ببعيد . والله أعلم .

"Əbdulqani ibn Səid əl Misri əl Hafiz qeyd etmişdir ki, Əbu Bəlac Amr ibn Meymunun adında xətaya yol vermişdir. Bu əslində Əbdurrahmən ibn Səmurənin movlası olan Meymun Əbu Abdullahdır ki,o zəifdir.Daha doğrusunu Allah bilir."

Musəvi hədisin mətnini yazır:

لا يذهب بها الا رجل هو مني وأنا منه،

"Məndən olan,mənim də ondan olduğum adam."

[1] №8003

[2] "Kitab mərifət ənva ilm əl hədis", №5,səh 84

— Mətnin özü digər rəvayyətlərlə ziddiyyət təşkil edir. Bu rəvayyətdə deyilir: ***"İbn Abbas qeyd etmişdir: "Əli öz həyatını Peyğəmbərə*** *(sallallahu aleyhi və səlləm)* ***görə təhlükəyə atmışdı. O,onun paltarını geyinib, yerinə uzanmışdı. Müşriklər ona daşlar atırdılar."***

Söhbət hicrət hadisəsi ərəfəsində baş verənlərdən gedir.

Safi ər Rahmən əl Mubarəkfuri bu hadisəni "Sira" kitabında belə təsvir edir: **"Bir qayda olaraq,Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **gecənin ilk 1/3-i yatardı. Gecənin ikinci yarısında isə qalxar, Kəbəyə gedib gecə namazı qılardı. Həmin gecə o yerinə Əlini** *(radiyallahu anhu)* **uzandırır və ona heç bir zərərin yetişməyəcəyini bildirir. Hamı yatdıqda Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **evinə müşriklər yaxınlaşaraq, onu mühasirəyə aldılar. Evdə yorğana bürünüb,yatan insanı gördükdə onlar elə düşündülər ki,bu Peyğəmbərdir.Onlar onun qalxıb,evdən çıxana qədər onu pusquda gözləməyi qərara aldılar. Allah Təala onların bu hiyləsini Quranda belə vəsf edir:**

"Bir zaman kafirlər səni həbs etmək, öldürmək vəya (yurdundan) qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır."[1]

İbn Hişam yazır: **"Mənə deyildiyinə görə Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **gizli olaraq gedişini Əli ibn Əbu Talib,Əbu Bəkr əs Siddiq və onun ailəsindən başqa heç kim bilmirdi. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **Əliyə** *(radiyallahu anhu)* **getməyini xəbər vermişdi və ona Məkkədə qalıb,ona əmanət olunan malların sahiblərinə geri qaytarmasını həvalə etmişdi. Çünki, Məkkədə olanlar hər hansı bir təhlükə əsnasında mallarını "Əmin"olan Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **əmanət edirdilər."**[2]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ona əmanət olaraq verilmiş malların sahiblərinə qaytarılmasını Əliyə *(radiyallahu anhu)* tapşırmışdı. Təbii ki, Əli *(radiyallahu anhu)* ona tapşırılan tapşırığı Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* hicrət etdikdən

[1] Ənfal 30
[2] "Sira", Hicrət fəsli

sonra etməli idi. Onda hansı təhlükədən söhbət gedə bilər? Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ona buyurdu: 1) Sənə heç bir zərər toxunmayacaqdır. 2) Ona Məkkədə qalıb, əmanət olunan malları sahiblərinə geri qaytarmasını tapşırdı.

Bu hədisdə həmçinin deyilir: *"İbn Abbas buyurdu:* **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **Təbuk səfərinə çıxmışdı. Onunla birlikdə bu səfərə çoxlu səhabələri yollandı. Əli** *(radiyallahu anhu)* **soruşdu: "Məndə sənin gəlim?" Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Xeyr." Əli bu zaman ağladı. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Məgər sən mənim üçün, Harunun Musa nisbətində olmaq istəmirsən? Amma məndən sonra peyğəmbər olmayacaqdır. Yalnız sən mənim xəlifəm və valim ola bilərsən."**

İmam Buxari Sad ibn Əbu Vəqqasdan rəvayyət edir ki, Təbuk döyüşünə gedən zaman Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinədə Əlini yerinə əvəz olaraq qoydu. Əli ona dedi: "Ey Allahın elçisi! Sən məni qadın və uşaqlarla qoyub gedirsən?!"Peyğəmbər isə *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Məgər sən mənim üçün, Harunun Musa nisbətində olmaq istəmirsən? Amma məndən sonra peyğəmbər olmayacaqdır"**[1]

Birincisi,"*Yalnız sən mənim xəlifəm və valim ola bilərsən."*əlavəsi düzgün tərcümə olunmamışdır. Doğru tərcümə budur: *"Səni xəlifəm təyin etmədən getməyim doğru olmazdı."*

Bu hissə faktlara ziddir. Çünki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinədə dəfələrlə ayrı-ayrı səhabələrini xəlifə təyin etmişdi. Təkcə bir yürüş zamanı Əli Mədinədə vali olaraq qalmışdı. Təkcə Ümm Məktumu Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinədə yerinə 13 dəfə vali təyin etmişdi."[2]

"Buvat" səfəri zamanı Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* yerinə Mədinədə Sədd ibn Muazı vali təyin etmişdi."Zul-əşara" səfəri zamanı Əbu Sələməni,Bədr səfəri zamanı isə Ümm Məktumu təyin etmişdi. Daha sonra onu Əbu Lubəb ibn Əbd əl munzir əvəz etmişdi və s. "Məgər sən mənim üçün,Harunun Musa nisbətində olmaq istəmirsən? Amma məndən sonra peyğəmbər olmayacaqdır" ifadəsi Təbuk səfəri zamanı deyilmişdi. Bu hədisi Əlinin Peyğəmbərə

[1] Səhih Buxari, "Kitabu Fədailus Səhabə" Bab, mənaqibi Əli, 2607; Muslim "Kitabu Fədailus Səhabə"

[2] Muhəmməd ibn Cəfər əl Qəttani, "Təratibul idariyyə" 1/484

(sallallahu aleyhi və səlləm) varis olmasına dəlil kimi gətirmək olmaz. Çünki, Harun *(əleyhisalam)* Musadan 3 il öncə vəfat etmişdi. Təbəri "Tarix"[1] də nəql etmişdir ki, Təbuk səfəri zamanı Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinəyə vali olaraq Siba ibn Urfət əl Qifarini təyin etmişdi. Əliyə isə buyurmuşdu: ***"Mədinəyə dön və əhli beytimə göz-qulaq ol."*** Yəni, Əli ümumiyyətlə Mədinədə əmir olaraq təyin edilməmişdi. Fəqət, əhli beytə qulluq etmək üçün göndərilmişdi. Peyğmbərin *(sallallahu aleyhi və səlləm)* Əlini *(radiyallahu anhu)* Mədinədə tərk etməsi heçdə onun fəzilətinə dəlil hesab oluna bilməz. Axı,biz oxuyuruq ki, Əli ağlayaraq deyirdi: ***"Ey Allahın elçisi! Sən məni qadın və uşaqlarla qoyub gedirsən?!"*** Əlinin özü bu hadisəni özünün şanına sığışdırmırdı. Bu hadisədə onun fəzilətini dəlil kimi iddia edənlər Əlidən *(radiyallahu anhu)* çoxmu bunu başa düşürlər?

Qeyd etmək lazımdır ki, Harun *(əleyhisalam)* Musa *(əleyhisalam)* tərəfindən İsrailə onun Tur dağından geri dönəcəyi müddətə qədər əmir təyin edilmişdi. Məhz, bu təyinatla Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əliyə üz tutmuşdu ki, o səfərdən geri dönənə qədər şəhərdə olanlara nəzarət etsin. Həmçinin, şiələr anlamalıdırlar ki, Əli Mədinədə çoxlu səhabələrin (Əbu Bəkr,Ömər və s.) olmadığı bir zamanda əmir təyin edilmişdi. Bu özü dəlildir ki,şiələrin **"Əli ilk xəlifə olmalıdır"** iddiaları əsassızdır.

Əli *(radiyallahu anhu)* Mədinədə başçı qaldı. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* isə bu zaman ordunun başında idi. Əlinin təyin olunması heçdə o demək deyil ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə nəsə baş versə idi, avtomatik olaraq Əli xəlifə olmalı idi. Harunun *(əleyhisalam)* misalına gəldikdə isə, o İsrailə Musa *(əleyhisalam)* təkbaşına Tur dağına getdiyi zaman rəhbər təyin edilmişdi. Əgər Əlinin əmir təyin edilməsi onun xəlifəliyinə dəlil hesab olunursa, onda biz gərək bu hədisi digər hədislərlə birgə dəyərləndirək. Əbu Bəkr Həccdə əmir təyin edilmişdi. Əli Məkkəyə bəzi surələrlə gəlsə belə,o əmir kimi deyil,məmur kimi gəlmişdi. Əbu Bəkr müsəlmanlara Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəfindən namazda imam təyin edilmişdi. Bu hadisə mutəvatir xəbərdir. O,Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hicrət zamanı yoldaşı olmuşdur. Bu hədisdə yenə deyilir: *"İbn Abbas qeyd etmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) məscidə tərəf açılan bütün qapıların bağlanmasını əmr etmişdi.Yalnız məscidə yaxın olan Əlinin qapısını bağlatdırmamışdı."*

[1] 3/288

Bu rəvayyətin mötəbərliyi müzakirə obyektidir. Bəzi alimlər bu rəvayyətin uydurma, bəzisi isə doğru olduğunu bəyan etmişlər. Bu hədisdə həmçinin deyilir: *"İbn Abbas libasını silkələyib, gələrək dedi: "Tfu,heç kəsdə olmayan 10 xüsusiyyətə sahib olan adam haqqında qeybət edirlər."*

Bu ifadə tarixi faktlara ziddir. Bu rəvayyətdə deyilir ki, Əli bir səfərdə Mədinədə vali təyin edilmişdi və biz qeyd etdik ki,digər səhabələr də bir çox səfərlərdə Mədinədə vali təyin olunmuşlardı. Bu rəvayyətdə deyilir ki, məscidə Əlinin qapısından başqa bütün qapıların bağlanması buyrulmuşdu. Biz isə bilirik ki,*"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrin qapısından başqa bütün qapıların bağlanmasını əmr etmişdi."*[1]

Bu hədis həmçinin "Səhih" kitabında da nəql olunur.

61) İbn Abbasdan nəql olunan Əlinin 10 fəziləti haqqında olan hədisi müzakirə edərkən, Əbdulhüseyn 28-ci məktubda yazır: *"Əmirəl-möminini söyən,onunla döyüşən və minbərlərdə Əlini söyməyi müsəlmanlara əmr edən Müaviyə də belə hədsiz həyasızlığı və düşmənçiliyinə baxmayaraq "Mənzilət" hədisini inkar etməmişdir. Muslimin nəql etdiyinə əsasən, Səd ibn Əbu Vəqqasa "Sənə nə mane oldu ki, Əbu Turabı söymürsən?" – dediyi vaxt onun cavabını inkar etmədi. Səd cavab verdi: "Peyğəmbərin (sallallahu aleyhi və səlləm) onun haqqında buyurduqları üç şeyi xatırladım və söyə bilmədim. Əgər onlardan biri məndə olsaydı, mənim üçün ərəbin ən əziz sərvətindən də qiymətli olardı. Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu bəzi döyüşlərdə Mədinədə saxladığı zaman eşitdim ki, ona buyurdu: "Razı deyilsənmi ki, sən mənə Harunun Musaya (vəsi) olduğu kimi olasan? Bu fərq ilə ki, məndən sonra Peyğəmbər yoxdur." Müaviyə sakit oldu və Səddi söyüş söyməkdən azad etdi."*

— Müaviyənin Əlini söyməyi əmr etməsi doğru deyildir. Musəvi Muslimin "Səhih" kitabına istinad edir. Orada Müaviyənin Səddan belə soruşduğu nəql olunur: *"Sənə nə mane oldu ki, Əbu Turabı söymədin?"*

Bu ifadədə söyüş söyməyə təhriki yalnız xəstə, kinli şiə təfəkkürü olan adam görə bilər. Əgər biz bir adamdan misal olaraq soruşsaq: "Sənə zina etməyə nə mane olur?" Bu o demək deyil ki,biz həmin adamı bu pis əmələ dəvət edirik. Şiələrin ən çox istinad etdikləri ikinci rəvayyət isə Sunən ibn Macədə olan hədisdir. Rəvayyət belədir: "Bir dəfə

[1] Tirmizi, "Sunən" №3678

Həcc mərasimi zaman Müaviyə gəldikdə onun yanına Sad ibn Əbu Vəqqas daxil oldu. Əli haqqında söz etdilər və Müaviyə onun əleyhinə bir söz dedi. Bu zaman Sədd hirsləndi və dedi....”

Birincisi, bu rəvayyətin ravi silsiləsi qopuqdur. Əbdurrahmən ibn Səbt ibn Əbu Vəqqasdan heç nə eşitməmişdir. Mizzi “Təhzib əl kəmal”[1]da dedi: “Deyildi ki, ibn Səbt Sad ibn Əbu Vəqqasdan eşitməmişdir.” Həmçinin, orada deyilir ki,Yəhya ibn Məin Əbdurrəhmanın Səddan nəsə eşitdiyini qəbul etməmişdir. İkincisi, fərz edək ki, bu rəvayyət səhihdir. Burada Müaviyənin Əlini söyməsi və ona təşviq etməsindən söhbət belə getmir. Sindinin qeyd etdiyi kimi biz Müaviyənin Əli haqqında həmin toplantıda konkret nə dediyini bilmirik. Bizim bu haqqda ehtimal etdiyimiz ən pis rəy bu ola bilər ki, Müaviyə Əlini bəzi məsələlərdə tənqid edərək onun səhvini qeyd edərmiş.

Şiələrin öz kitablarında dəlillər vardır ki, Müaviyə nəinki Əlini söyməyə təşviq etmir hətta, bu cür edənləri qınayırdı. Beləki, bir dəfə Müaviyənin yanında olan bir nəfər Əlini ən xəsis adam adlandırdı. Müaviyə ona dedi: **“Vay olsun sənə! Sən Əlini necə xəsis adlandıra bilərsən ki, əgər onun iki evi olsa, onlardan biri qızıldan, digəri samandan ola, o qızıldan olan evi digər evdən daha tez söküb, onu Allah yolunda xərcləyərdi.”**[2]

Həmçinin, nəql olunur ki, bir dəfə Müaviyənin yanında Əlini “ən bəlağətsiz adam”adlandırdıqda o dedi: **“Vay olsun sənə! O, xitab etmə baradə necə səriştəsiz ola bilər!? Allaha and olsun ki, ondan başqa heç kim Qureyşliləri bəlağətli danışmağa öyrətməmişdir!”**[3]

62) Əbdulhüseyn yazır: *“İbn Həcər “Səvaiq”(səh 107)-də deyir: Əhməd nəql edir ki, bir nəfər Müaviyədən bir məsələni soruşdu. Muaviyə ona dedi: Bu məsələni Əlidən soruş ki, o daha bilikli və daha agahdır. O, şəxs dedi: “Sənin cavabın mənə Əlinin cavabından daha əzizdir. Muaviyə dedi: “Pis danışdın. Elə bir kəsdən narahatsan ki, Allahın Rəsulu (sallallahu aleyhi və səlləm) onu*

[1] 17/№3822

[2] “Nəhcul Bəlağa”, Feyzulislamın şərhi ilə,c.1,səh 23

[3] “Nəhcul Bəlağa”, Feyzulislamın şərhi ilə,c.1,səh 26

elmin parlaq çöhrəsi adlandırmış və ona buyurmuşdur: "Sən mənə Harunun Musaya (vəsisi) olduğu kimisən, bu fərq ilə ki, məndən sonra Peyğəmbər yoxdur."[1]

— Bu rəvayyət imam Əhmədin "Fədailus səhabə" kitabında nəql olunur:

حدثنا محمد بن يونس نا وهب بن عمرو بن عثمان النمري البصري قال حدثني أبي عن إسماعيل بن أبي خالد عن قيس بن أبي حازم قال : جاء رجل الى معاوية فسأله عن مسألة فقال سل عنها علي بن أبي طالب فهو اعلم فقال يا أمير المؤمنين جوابك فيها أحب إلي من جواب علي فقال بئس ما قلت ولؤم ما جئت به لقد كرهت رجلا كان رسول الله صلى الله عليه و سلم يغره العلم غرا ولقد قال له رسول الله صلى الله عليه و سلم أنت مني بمنزلة هارون من موسى غير انه لا نبي بعدي وكان عمر إذا اشكل عليه شيء يأخذ منه ولقد شهدت عمر وقد اشكل عليه شيء فقال ها هنا علي قم لا أقام الله رجليك

Ravilər silsiləsi Muhəmməd ibn Yunusdan başlayır,daha sonra Vəhb ibn Əmr ibn Osman və atası gəlir. Vəhb haqqında məlumatı yalnız ibn Hibbanın "əs Siqat"kitabında tapa bildim. İbn Hacər "Təqrib"də onun haqqında deyir: "Məstur" yəni,ravi olaraq onun halı məchuldur."

63) Musəvi 32-ci məktubda yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun evinə gedər, ona hədis söyləyər və söhbət edərdi. Günlərin bir günü ona buyurdu: "Ümm Səlim! Əlinin əti mənim ətimdən, qanı mənim qanımdandır. Onun mənimlə nisbəti Harunun Musaya olan nisbəti kimidir."*

— Şeyx Albani "Silsilə əhadis əd daifə"[2] də rəvayyəti uydurma olaraq qeyd etmişdir. İbn Adiy bu rəvayyəti "Kamil fi duafa"[3] da Abdullah ibn Dəhr ər Razi adlı ravi haqqında bəhs edərkən, onun rəvayyət etdiklərinə misal olaraq nəql etmişdir. Eyni yerdə ibn Adiy qeyd etmişdir ki, Yəhya ibn Məin bu ravi haqqında deyir: ***"o heçnədir", Abdullah ibn Dəhr bu rəvayyəti rafizi olan atasından nəql edir."***[4]

[1] Məktub 28
[2] 4993
[3] 4/228/№1046
[4] "Mizanul itidal", 2/3/№2587

Hər iki ravi ibn Əsakirin kitabında keçən eyni tipli rəvayyətin sənədində iştirak edir. Bu rəvayyət Təbərani tərəfindən də nəql olunmuşdur. əl Heysəmi "Məcməu zəvaid"də yazır: ***"Sənəddə Həsən ibn Hüseyn əl Aruni vardır ki,o zəifdir."***[1]

64) *"Buna bənzər hədis Həmzənin qızının əhvalatıdır ki, Əli, Cəfər və Zeyd arasında onun haqqında söhbət gedən zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Əli, sən mənim üçün Harunun Musaya olan nisbəti kimisən..."*[2]

Haşiyədə yazır: *"İmam Nəsai bu hədisi "Xəsais" kitabında səhifə 19-da nəql etmişdir."*

— İmam Nəsainin kitabında bu rəvayyət aşağıdakı sənədlə nəql olunur: "əl Qasim ibn Yezid əl Curmi-İsraildən, o ibn İshaqqdan, o Hubeyra ibn Yərimdən, o Hani ibn Hanidən, o da Əlidən."

Bu ravi silsiləsində bir neçə qüsur vardır.

1) Hani ibn Hani. İmam Şafii demişdir ki, o Hanini tanımır. Əli ibn Mədini bu ravini məchul adlandırmışdır. İmam Mizzi "Təhzib əl kəmal"-da qeyd edir ki,bu ravidən Əbu İshaqqdan başqa heç kəs nəql etməmişdir.

2) Hubeyra ibn Yərəm. Nəsai onun mötəbər olmadığını,ibn Hiraş isə onun zəif olduğunu qeyd etmişdir."[3]

3) Əbu İshaq isə öz tədlisləri ilə tanınırdı. Bu rəvayyəti də o, bunu birbaşa özünün eşidib-eşitmədiyini bildirmədən nəql etmişdir.

Səhih Buxaridə varid olan uzun bir hədisdə Bəra ibn Əzib dedi: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Zilqadə ayında ümrə etmək istədikdə Məkkəlilər onunla şəhərdə yalnız üç gün qalmaq şərti ilə razılaşmaq istədilər. Müsəlmanlar hazırlanan sazişdə bunu qeyd etmişdilər: "Bu şərtlər əsasında Allahın elçisi Muhəmməd (sallallahu aleyhi və səlləm) sülh bağlamağa razıdır."*

Sənədlə tanış olan Qureyşlilər dedilər: "Biz bu sözlərlə razı deyilik. Əgər biz sənin Allahın peyğəmbəri olduğunu qəbul etsəydik, sənlə döyüşməzdik. Biz səni Muhəmməd ibn Abdullah kimi tanıyırıq."

[1] №14654
[2] Məktub 32
[3] "Mizanul itidal", 4/293/№9209

Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Mən Allahın elçisiyəm və mən Muhəmməd ibn Abdullaham." Sonra Əliyə "Allahın elçisi sözünü sil" dedi.

Əli (radiyallahu anhu) dedi: "Allaha and olsun ki,mən bunu silməyəcəyəm."

Onda Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu vərəqi aldı və bunu yazmağı əmr etdi: "Muhəmməd ibn Abdullah bu şərtlərlə razılaşdı: O Məkkəyə silahsız olaraq girəcək. Məkkədən ona qoşulmaq istəyən olsa da heç kəslə özünü aparmayacaq və heç bir səhabəsinə Məkkədə qalmağa mane olmayacaqdır."

Müddət bitdikdən sonra Məkkəlilər Əlinin yanına gəlib dedilər: "Dostuna de ki, bizi tərk etsin,onun müddəti bitib." Peyğəmbər (sallallahu aleyhi və səlləm) şəhəri tərk etdi və onunla bərabər Həmzənin qızı da qaçdı. Qızı Əli qəbul edib, Fatiməyə dedi: "Sənin qarşında əmin qızıdır,onu qəbul elə."

Bundan sonra Əli, Zeyd və Cəfər onun haqqında mübahisə etməyə başladılar. Əli dedi: "Mənim ona daha çox haqqım çatır. Çünki, o mənim əmim qızıdır." Cəfər dedi: "O mənim də əmim qızıdır.Bundan başqa mən onun xalası ilə evliyəm." Zeyd isə dedi: "O mənim qardaşımın qızıdır."

Bundan sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) qızı xalasının himayəsinə verərək, dedi: "Xala ana kimidir."

Sonra Əliyə dedi: "Sən məndənsən, mən də səndənəm.",Cəfərə dedi: "Sən mənə həm zahirən, həm də əxlaqca bənzəyirsən." Zeydə isə dedi: "Sən bizim qardaşımız və azadlımızsan."[1]

Şiələrin Əli *(radiyallahu anhu)* haqqında varid olan hər fəziləti onun vilayətinə yozmalarını nəzərə alaraq, qeyd etmək istəyirəm ki, *"Sən məndənsən, mən də səndənəm."* ifadəsini Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* təkcə onun haqqında işlətməmişdir. Buxari və Muslim nəql edirlər ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əşari qəbiləsi haqqında demişdir: **"onlar məndəndir, mən də onlardanam."**

Muslim nəql edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **"Culeybib məndəndir, mən də ondanam."**[2]

[1] Zubəydi, "Müxtəsər səhih Buxari" № 1128,2699

[2] №2472

65) Əbdulhüseyn yazır: *"Bundan başqa bir gün Əbu Bəkr, Ömər və Əbu Ubeydə Cərrah Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanında idilər. O həzrət Əliyə söykənərək əlini onun çiyninə qoyub buyurdu: "Ey Əli, sən möminlərdən ilk iman gətirən və İslamı qəbul edən ilk şəxssən. Sənin mənə nisbətin Harunun Musaya nisbəti kimidir."*[1]

— Şeyx Albani "Silsilə əhadis əd daifə"[2] də rəvayyəti **münkər adlandırmışdır.** Hakim "Kunyə"də, ibn Əsakir "Tarix"də bu rəvayyəti aşağıdakı sənədlə qeyd etmişlər: "İbrahim ibn Səid əl Cəvhəri - Xəlifə Məmundan, o Xəlifə Rəşiddən, o Xəlifə Mənsurdsan, o atasından, o da atasından, o da ibn Abbasdan." əl Mənsurun atasından başlayaraq ibn Səid əl Cəvhəriyə qədər olan ravilərin etibarlılığı haqqında məlumat yoxdur.

66) Musəvi haşiyədə yazır: *"İbn Əbdul Birr "İstiab" kitabında Əlinin şərhi-halında deyir: "Allahın rəsulu (sallallahu aleyhi və səlləm) mühacirlər arasında qardaşlıq peymanı bağladı və sonra mühacirlər və ənsar arasında qardaşlıq bərqərar etdi. O, hər dəfə Əliyə buyurdu: Sən bu dünyada və axirətdə mənim qardaşımsan."*[3]

— Güc və qüdrət yalnız Allaha məxsusdur! Bu mətnlə olan bütün rəvayyətlər bizə zəif ravilər tərəfindən nəql olunmuşdur.[4] Şeyx Albani rəvayyəti *"Dəif Tirmizi"də zəif olaraq qeyd etmişdir.* Bu mətnlə olan rəvayyətlər Cami ibn Umeyra və Hakim ibn Cubeyra adlı zəif şiə ravilər tərindən nəql olunmuşdur.

67) Rafizi yazır: *"Zeyd ibn Əbu Aufadan çatmış hədisi də qeyd etmək olar. Bu hədisi imam Əhməd Hənbəlin "Mənaqibi Əli" kitabında, ibn Əsakirin öz tarix kitabında, Bəğəvi və Təbərani öz "Məcmuə"lərində, Barudi "əl-Məricət"də və İbn Adiy və başqaları söyləmişlər. Hədis uzundur. "Qardaşlıq peymanı"nda belə deyilir: "Əli dedi: Ey Allahın rəsulu, qəlbim sındı. Çünki, gördüm məndən başqa əshabələrinə qardaş seçdin, amma mənə yox. Əgər bu, mənə qarşı qəzəbin nəticəsidirsə, səndən bağışlanmağımı istəyirəm və sən kəramətli və əzəmətlisən. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: Məni haqq üzrə*

[1] Məktub 32
[2] 4938
[3] Məktub 32
[4] "əl Bidayə vən nihayə",7/348

peyğəmbərliyə qəbul edən kəsə and olsun ki, səni özüm üçün axıra saxlamışam. Sən mənə Harunun Musaya olan nisbəti kimisən, bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur! Sən mənim qardaşım və varisimsən. Əli ərz etdi: Mən səndən nə irs ala bilərəm? Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: Məndən əvvəlki peyğəmbərlərin qanunlarının irsi, Allahın kitabı və sünnəsi. Sən behiştdə qızım Fatimə ilə mənim qəsrimdəsən.Sən mənim qardaşım və yoldaşımsan." Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) ayənin bu hissəsini tilavət etdi: "Qardaşlardır ki, (behiştdə) taxt üstündə üzbəüz oturmuşlar." Yəni, o adamlar Allah xətrinə bir-birlərini sevənlərdir."[1]

— Şeyx Albani "Silsilə əhadis əd daifə"[2]də rəvayyəti **zəif adlandırmışdır**. Bu mətnlə olan rəvayyəti əl Qatiy "Zəvaid fədailu səhabə", ibn Əsakir "Tarix", Təbərani "Kəbir" kitablarında aşağıdakı sənədlə nəql etmişlər: Əbdulməmun ibn Abbad-Yezid ibn Məandan, o Abdullah ibn Şurəhbildən, o da Zeyd ibn Əbu Aufdan.

"Əbdulməmun adlı ravini Əbu Hatim və Buxari zəif hesab etmişlər."[3]

Şurəhbildən sonra olan məchul ravi də sənəddə olan qüsurlardandır. əl Heysəmi "Zəvaid"[4] də buna bənzər rəvayyəti Təbəraniyə istinad edərək nəql etmiş və qeyd etmişdir ki, sənəddə ona məlum olmayan ravilər vardır.

Buxari "Tarixu əs saqir"[5] də bu rəvayyətin ilk hissəsini aşağıdakı sənədlə nəql etmişdir: "Hisan ibn Hisa – İbrahim ibn Bişr Əbu Amr əl Yəzdi – Yəhya ibn Məin əl Mədəni – İbrahim Qureyşi – Səid ibn Şurəhbil – Zeyd ibn Auf." Daha sonra Buxari yazır: **"ravilər silsiləsi məchuldur və belə sənədə istinad edilməz.**" Həmçinin, imam yazır: **"Bəziləri İsmail ibn Xəliddən, o Abdullah ibn Əbu Aufdan, o da Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **nəql etmişlər.Bunun əsası yoxdur."**

[1] Məktub 32
[2] №4935
[3] "Mizanul itidal",2/670/№5275
[4] №14925
[5] 1/№1035

68) Musəvi yazır: *"İkinci qardaşlıq peymanı" haqqında Təbəraninin "Kəbir" kitabında ibn Abbasdan söylədiyi hədis sənə kifayət edər. Orada deyilir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Mən mühacirlər və ənsar arasında qardaşlıq bərqərar edəndə, səni heç kəs ilə qardaş etmədiyim üçün mənə hirsləndinmi? Razı deyilsənmi mənə Harunun Musaya olan nisbəti kimi olasan, bu fərq ilə ki, məndən sonra peyğəmbər olmayacaqdır."*[1]

— *"mənə hirsləndinmi"* ifadəsi ərəbcə olan mətndədir. Halbuki, tərmüməçi bunu *"məndən narahatmı oldun"* kimi tərcümə etmişdi. Sadəcə olaraq, bir şiə üçün Əlinin Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* qəzəblənməsini söyləmək qəbul edilməzdir. Hədisə gəldikdə, şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2]də *uydurma adlandırmışdır*. Təbərani bu rəvayyəti "əl Ausat" [3]və "əl Kəbir"[4] kitablarında nəql etmişdir. əl Heysəmi "Məcməu zəvaid"[5]də yazır: ***"Sənəddə yalançı ravi olan Həmmad ibn Adəm əl Mərvəzi vardır."***

69) Musəvi yazır: *"Əlinin qapısından başqa məscidə açılan bütün qapıların bağlanması haqqındakı hədisləri misal göstərmək olar. Bu haqqda Cabir ibn Abdullahın hədisi kifayətdir. O, deyir: Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Əli, mənə məsciddə halal olan şey sənə də halaldır. Sənin mənə nisbətin Harunun Musaya olduğu kimidir, bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur."*[6]

Haşiyədə yazır: *"Yənabiul-Məvəddə" kitabının 9-cu babının sonunda Əxtəb Xarəzminin "Fəzaili-Əhli-beyt" kitabında nəql olunmuşdur."*

[1] Məktub 32
[2] 4936
[3] №7894
[4] №11092
[5] 9/114
[6] Məktub 32

— Şiələrin məşhur alimi Ağa Bəzrək ət Tehrani "əz Zəriyyə"[1] də "Yənabiul-Məvəddə" kitabının müəllifi Süleyman ibn Qunduz əl Hənəfi haqqında yazır: ***"Müəllifin şiəliyi məlum olmasa da,o qnostik idi və bu kitab şiələrin kitablarından sayılır."***

Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2] də olduqca qeyri məqbul adlandırmışdır. Ravi silsiləsində Haram ibn Osman vardır və həmçinin, qeyd etmişdir ki, "Yənabiul - Məvəddə" şiələrin kitablarındandır.

"Ey Əli, mənə məsciddə halal olan şey sənə də halaldır." ifadəsi sünnə kitablarında vardır. Bu Haram ibn Osmanın, ibn Cabir və Cabirin yolu ilə varid olmuşdur. Haram ibn Osman haqqında Malik və ibn Məin deyir: *"o siqa deyil"*,Şafii dedi: *"Haramdan nəql etmək haramdır."* İbn Hibban dedi: ***"Şiəlikdə ifratcıl idi və ravilər silsiləsi uyduraraq yarımçıq rəvayyətlər uydurardı."***[3]

Oxşar rəvayyəti Əbu Bəkr ibn Mərdaveyh də nəql etmişdir. İbn Cəuzi "əl Məvdua"[4]də bu rəvayyəti həmin isnadla nəql etmiş və qeyd etmişdir ki, bu doğru deyil. İbn Mərdaveyhin sənədində ki, problem bu isnaddır: Kəsir ən Nəuv – Atiyyə Aufi – Əbu Səid əl Xudri. Atiyyə və onun Əbu Səiddən nəql etdiyi hədislər haqqında yuxarıda bəhs etdik. Kəsir ən Nəuv həmçinin zəif ravi olmuşdur."Onu Nəsai və Razi zəif adlandırmışdır."[5]

Bu rəvayyət Bəzzar tərəfindən "Musnəd"də aşağıdakı sənədlə nəql olunmuşdur: İsmail ibn Əbu Uveys – atasından – Əbul Həsən ibn Zeyd – Həricə ibn Sad – atasından. Əbu Uveys siqa ravi idi,amma səhvlər edərdi. İbn Ziyad da belə idi. Həricə və onun atası məchuldur. İbn Əbu Vəqqasın Həricə adlı oğlu olmamışdır.

---

[1] 25/290
[2] 4937
[3] "Mizanul itidal", 1/468/№1766
[4] 1/367/№15
[5] "Məvdua" 1/368

Buna bənzər rəvayyəti imam Tirmizi "Sunən"[1]də aşağıdakı isnadla nəql etmişdir: Əli ibn Munzir – Muhəmməd ibn Fudeyl – Səlim ibn Əbu Həfs – Atiyyə - Əbu Səid. Ravilər silsiləsi bütünlüklə demək olar ki, şiələrdən ibarətdir. Atiyyə - Əbu Səid silsiləsindən bəhs etmişdik. Digər problem isə Səlimdir. Bu ibn Əbu Həfs əl İcli əl Kufi adlı ravidir. Bu ravi Fələsiyə görə zəif, Nəsaiyə görə dürüst deyildi." [2]

70) Rafizi 34-cü məktubda yazır: *"Məgər Əlinin övladlarının adının Harunun övladlarının adı ilə eyni olduğunu görmürsən? Onları Həsən,Hüseyn və Möhsün adlandırdı. Bu adlar Harunun övladlarının adlarına – Şübbər, Şübeyr və Muşbir adlarına bənzəyir. Bu adlar ilə Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əli ilə Harunun oxşarlıqlarını bildirmək istəmişdir."*

— Əli ilə Harunun müqayisə olunması onun Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* varis olmasına dəlil sayıla bilməz. Əgər Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini Yuşə ibn Nun ilə bənzətsəydi bu dəlil sayıla bilərdi. Çünki, məhz Yuşə Musaya *(əleyhisalam)* varis oldu. Harun *(əleyhisalam)* isə ondan öncə vəfat etmişdi. Əli harada oğullarının adlarını Harunun övladlarının adları ilə müqayisə etmişdir?

Əbdulhüseyn yazır: *"Siz "Müstədrək"in 3-cü cildinin 165-168-ci səhifələrinə müraciət etsən, bu məzmunda doğru hədis görəcəksiniz ki, Buxari və Muslimin şərtlərinə görə düzgündür."*

— İki şeyxin rəvayyəti səhih saymaları ilə iki şeyxin şərtlərinə görə səhihdir ifadəsi arasında böyük fərq vardır. Əbdulhüseyn *"bu rəvayyət iki şeyxin şərtlərinə görə səhihdir"*deməklə yalan demişdir. Hakim yazır: *"Bu rəvayyət səhih sənədə sahibdir. Lakin, onlar bunu nəql etməmişlər."* O, demədi ki, bu rəvayyət iki şeyxin şərtlərinə görə səhihdir. Rəvayyətə baxaq.[3]

(اخبرنا) أبو العباس محمد بن احمد المحبوبى بمرو ثنا سعيد بن مسعود ثنا عبيدالله بن موسى انا اسرائيل عن ابي اسحاق عن هانئ بن هانئ عن علي بن ابي طالب رضى الله عنه قال لما ولدت فاطمة الحسن جاء النبي صلى الله عليه وآله وسلم فقال اروني ابني ما سميتموه قال قلت سميته حربا قال بل هو حسن فلما ولدت الحسين جاء رسول الله صلى الله عليه وآله فقال اروني

[1] №3727

[2] "Mizanul itidal", 2/110/№3046

[3] "Müstədrək", 3/165

ابني ما سميتموه قال قلت سميته حربا فقال بل هو حسين ثم لما ولدت الثالث جاء رسول الله صلى الله عليه وآله قال اروني ابني ما سميتموه قلت سميته حربا قال بل هو محسن ثم قال انما سميتهم باسم ولد هارون شبر وشبير ومشبر

Rəvayyətdə deyilir ki, hər dəfə Əli ilə Fatimənin övladı olduqda onlar ona Hərb adı qoymaq istəyirdilər. Lakin, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ona başqa ad qoyardı. Birinci övladlarını Həsən, ikincisini Hüseyn, sonuncusunu isə Muhsin adlandırdı və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: *"Mən onları Harunun övladlarının adları ilə adlandırdım: Şibr, Şubeyr və Muşbir."*

Bu rəvayyətin sənədini bir neçə qüsur zəiflədir.

1) İsrail bu rəvayyəti Əbu İshaqqdan nəql etmişdir. İmam Əhməd qeyd etmişdir ki, İsrailin Əbu İshaqqdan etdiyi nəqllərdə zəiflik vardır. Beləki, o bunları Əbu İshaqqdan onun ölümünə yaxın zamanlarda eşitmişdir."[1]

Məlumdur ki, Əbu İshaqın ömrünün sonunda hafizəsi pozuldu və o səhvlər edərdi. Əbu İshaqın tədlisi odur ki, bu rəvayyəti birbaşa özünün eşidib-eşitmədiyini bildirməmişdir. Hani ibn Haninin məchul olması. Ubeydullah ibn Musa əl Kufi isə şiə olan düzgün və ədalətli ravidir.

İsrail – Əbu İshaqqdan – Hani ibn Hanidən silsiləsi "Musnəd"-də olan hər iki rəvayyətin tərkib hissəsidir. Hakim[2] bənzər rəvayyəti aşağıdakı isnadla nəql etmişdir: Cəfər ibn Aundan – Yunus ibn Əbu İshaqqdan – Əbu İshaqqdan – Hani ibn Hanidən – Əlidən. Yunusda zəiflik vardır.

İbn Kəsirin nəql etdiyi bu rəvayyətin başqa isnadı da vardır. Sənəd belədir: əl Əmaş – Səlim ibn Əbu Caddan – Əlidən. Sənəddə qopuqluq vardır. Çünki, Əbu Hatimin "Mərasil"[3] də qeyd etdiyi kimi Səlim Əli ilə görüşməmişdir. əl Əmaşın bu rəvayyətdə etdiyi tədlis də digər böyük qüsurlardandır. Onu da qeyd etmək lazımdır ki, sənəddə olan heç bir ravi yalanda ittiham olunmamışdır.

[1] Təhzib əl kəmal", 2/№402

[2] səh 168

[3] səh 80, №126/№289

Bu rəvayyəti Zəhəbi "Təlxis"də qəbul etdiyi kimi məqbul hesab etmək olar. Bu rəvayyətdə rafizilərin Ömər ibn Xəttaba atdıqları çirkin böhtana cavab vardır. Onlar iddia edirlər ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra Ömər Fatiməni qapı arasında sıxaraq hamilə olduğu körpəsi Muhsini öldürmüşdü. Lakin, burada deyilir ki, Muhsin Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sağlığında həyata göz açmışdır. Beləcə, biz növbəti dəfə rafizilərin ziddiyyətli dəlillərinin şahidi olmuş oluruq.

71) Musəvi yazır: *"Halbuki, deyildiyi kimi, Peyğəmbər (sallallahu aleyhi və səlləm) əshabələri arasında iki dəfə qardaşlıq peymanı bağladı. Birinci dəfə Əbu Bəkrlə Ömər və Osmanla Əbdurrəhman ibn Auf qardaş idilər. Amma, ikinci dəfə Əbu Bəkrlə Xaric ibn Zeyd və Ömərlə Ətban ibn Malik qardaş oldular."*[1]

— Rafizinin bu sözü də həqiqətə uyğun deyil. Buxari "Səhih"[2]də nəql etmişdir Əbdurrahmən ibn Auf Sədd ibn Rabi arasında qardaşlıq qurulmuşdu. İbn Hişam nəql edir: *"Əbu Bəkr əs Siddiq "Xəzrəcdən olan Xaric ibn Zeyd ibn Əbu Zuheyr ilə qardaş olmuşdu. Ömər ibn Xəttab isə yenə Xəzrəcdən olan Utbə ibn Malik ilə qardaş elan edildi."*

İkinci qardaşlıq baradə səhih məlumat yoxdur. Mubarəkfuri Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* haqqında olan kitabında yazır: *"Nəql olunur ki, ikinci dəfə yalnız mühacirlər bir-birilə qardaş edildilər. Lakin, dəqiq bilinən birinci qardaşlıqdır. Çünki, mühacirlər onsuzda həmyerli, qohum və dində qardaş idilər. Onların əlavə olaraq öz aralarında qardaşlıq qurmalarına ehtiyyac yox idi."*[3]

72) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə dedi: "Sən mənim bu dünya və axirətdə qardaşımsan."*

Haşiyədə yazır: *"Hakim "Müstədrək"in 3-cü cildinin 14-cü səhifəsində iki doğru yolla Buxari və Muslimin şərtlərinə əsasən ibn Ömərdən nəql etmişdir və Zəhəbi "Təlxis"də onu doğru və qəti hesab etmişdir. Tirmizi bunu ibn Hacərin "Səvaiqul-*

[1] Məktub 34
[2] № 933
[3] "Peyğəmbər həyatı", səh 223

Muhriqə"nin 72-ci səhifəsində yazdığına əsasən nəql etmişdir."Uxuvvət" (qardaşlıq) hədisini "sirə" və "əxbar"da nəql edənlər bu hadisəni yəqinliklə nəql etmişlər."[1]

— Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Əli ilə qardaş elan edilməsi rəvayyətlərinin hamısı zəifdir. Bu rəvayyəti şeyx Albani "Silsilə əhadis əd daifə"[2] də zəif adlandırmışdır. Hafiz əl İraqi dedi: *"Əli (radiyallahu anhu) ilə qardaşlıq haqqında varid olan bütün xəbərlər zəifdir."*[3]

"Müstədrək"də olan birinci rəvayyət "Hakim ibn Cubeyr – Cami ibn Umeyradan" ravi silsiləsi ilə varid olmuşdur. Cami ibn Umeyr tərk olunmuş (mətruk) ravidir. İbn Hibban dedi: *"Rəvayyətlər uyduran rafizi idi", ibn Numeyr dedi: "O ən yalançı insanlardan biridir" və onu imam Buxari sual altında qoymuşdur."*[4]

"Müstədrək"də olan ikinci rəvayyət də Cami ibn Umeyr yolu ilə varid olur. Lakin, ondan başqa sənəddə İshaq ibn Bişr əl Kaxili vardır. Əbu Zura və Musa ibn Harun bu ravini yalanda ittiham etmişlər. Fələsi onun mətruk ravi olduğunu, Dəraqutni isə onun rəvayyətlər uydurduğunu qeyd etmişdir.[5]

Bu iki hədis "əl Müstədrək" kitabında 4288 və 4289 nömrələri ilə qeyd olunub. Hakim bu rəvayyətləri kitabına yazarkən, onların səhihliyi baradə bir söz deməmişdi. Zəhəbi ikinci rəvayyətdən sonra yazır: *"Cami ibn Umeyr ittiham olunub və İshaq ibn Bişr əl Kəxali isə məhv olandır."* Cami ibn Umeyr Tirmizinin "Sunən[6] də nəql etdiyi bənzər rəvayyətin sənədində də mövcuddur.

---

[1] Məktub 34
[2] 1425
[3] "Əsna mətallib", №892
[4] "Mizanul itidal", 1/421/№1552
[5] həm.yer 1/186/№740
[6] №3720

Əbdulhüseynin növbəti dəfə bu sözləri yazmaqla etdiyi həyasızlığının şahidi olmuş oluruq: *"Hakim "Müstədrək"in 3-cü cildinin 14-cü səhifəsində iki doğru yolla Buxari və Muslimin şərtlərinə əsasən ibn Ömərdən nəql etmişdir və Zəhəbi "Təlxis"də onu doğru və qəti hesab etmişdir."*

— Şiələr böyük alimləri olan Şərəfutddinin necə asanlıqla yalan demələrinə baxsınlar. Həqiqətən belə adam "dinin şərəfi" ünvanına layiq görülə bilməz. Çünki, belə yalançılar ancaq şərəfsizlik gətirə bilər.

73) Rafizi yazır: *"Bir gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) şad halda səhabələrinin yanına gəldi. Əbdurrəhman ibn Auf bu sevincin sirrini soruşdu. Həzrət cavabında dedi: "Bunun səbəbi qardaşım, əmim oğlu və qızım haqqında Allahdan aldığım müjdədir. Allah Fatimə ilə Əlinin evlənməsini buyurmuşdur..."*[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2] də uydurma adlandırmışdır. Bunu Xətib əl Bağdadi "Tarix Bağdad" kitabında aşağıdakı sənədlə nəql etmişdir: Ömər ibn Muhəmməd ibn İbrahim əl Bəcli – Əbu Əli Əhməd ibn Səddaqət əl Biydən – Abdullah ibn Davud ibn Qubeysat əl Ənsaridən – Musa ibn Əlidən – Qənbər ibn Əhməd ibn Qənbəl məvla Əli ibn Əbu Talibdən – onun atasından – onun babasından – Kən ibn Nofəldən – Bilal ibn Həmamdan.

Xətib əl Bağdadi bu rəvayyəti nəql etdikdən sonra yazır ki,Bilal ilə Ömər ibn Muhəmməd arasındakı ravilər məchuldur.

74) Rafizi yazır: *"Qadınların seyyidəsi ilə Əhli beytin seyyidi və böyüyü evlənən zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ümm Əymənə buyurdu: "Ey Ümm Əymən! Qardaşımı çağır! Ümm Əymən dedi: "O,sənin qardaşındır, qızını ona verirsən?" Buyurdu: Bəli, ey Ümm Əymən! Ümm Əymən Əlini çağırdı. Əli gəldi..."* [3]

— Rəvayyəti Nəsai "əl Xəsais"[1] və "Sunən əl kubra"[2]da, Təbərani "əl Kəbir"[3]də, Hakim isə "Müstədrək"də Əbu Yəzid əl Mədəni – Əsma bint Umeys isnadı ilə gətirmişdir: "Mən Fatimənin *(radiyallahu anhu)* toyunda olmuşdum...."

[1] Məktub 34
[2] 4942
[3] Məktub 34

Zəhəbi "Təlxis"də qeyd etmişdir ki, rəvayyət səhvdir. Hədisi Əsma bint Umeys tərəfindən nəql olunub. Halbuki, həmiz zaman o Həbəşistanda hicrətdə idi.

75) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) həmişə Əliyə işarə edər və buyurardı: "Bu qardaşım, əmioğlum, kürəkənim və övladlarımın atasıdır."*[4]

Haşiyədə yazır: *"Şirazi "Əlqab"da və ibn Nəccar ibn Ömərdən və Muttəqi Hindi "Kənzul-Ümmal"da nəql etmişdir."*

— Muttəqi Hindi bu rəvayyəti kitabında[5] də nəql edərək yazır: "Ravilər silsiləsində İsmail ibn Yəhya vardır." Müəllif özü bu rəvayyətin qüsuruna toxunmuşdur. Şeyx Əbu Məryəm dedi ki, bu adda 4 ravi vardır. İsmail ibn Yəhya ət Teymi, əş Şeybani, ibn Salamat ibn Kuheyl və əl Məaqri. Birinci iki ravi yalançı, üçüncüsü mətruk, sonuncusu isə məchul ravidir. Daha doğrusunu Allah bilir.

76) Əbdulhüseyn yazır: *"Bir gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əli ilə söhbət edərkən buyurdu: "Sən qardaşım və yoldaşımsan." Başqa bir vaxt ona buyurdu: "Sən qardaşım və behiştdə yoldaşımsan." Başqa bir gün (Əlinin) qardaşı Cəfər və Zeyd ibn Harisə ilə söhbət zamanı Əliyə xitab edərək buyurdu: "Amma sən, ey Əli! Mənim qardaşım, övladlarımın atasısan, sən məndənsən, mənə tərəf qayıdacaqsan."*[6]

— *"Sən qardaşım və yoldaşımsan"* ifadəsi Həmzənin qızı baradə Cəfər, Əli və Zeyd arasında keçən mübahisə haqqında olan uzun bir rəvayyətin bir hissəsidir. Yuxarıda Buxaridə olan hədisdə bu ifadə yoxdur. əl Heysəmi bu rəvayyətin versiyasını "Məcməu zəvaid"[7] də Əhməd və Əbu Yəlaya istinad edərək nəql etmiş və qeyd etmişdir:

---

[1] №124
[2] №8509
[3] №364
[4] Məktub 34
[5] №12914
[6] Məktub 34
[7] №7702

“Sənəddə əl Həccac ibn Art adlı ravi var ki, o müdəllisdir.” Əbu Yəla bu rəvayyəti “Musnəd”[1] də nəql etmişdir. Şeyx Hüseyn Əsəd qeyd edir ki, rəvayyətin sənədi zəifdir. İbn Əbu Şeybə də bu rəvayyəti Həccacdan “Musənnəf”[2] də qısa forma ilə nəql etmişdir. Bütün sənədlər bu ravi silsiləsi ilə başlayır: Həccac ibn Art – Hakim ibn Uteybədən – Miqsamdan – ibn Abbasdan. İbn Hacər “Təqrib” kitabında ibn Art baradə yazır: *“Siqadır, amma çoxlu səhv və tədlis edərdi.”* Bu rəvayyətdə o Hakimdən bunu birbaşa özünün eşidib-eşitmədiyini açıq şəkildə bildirməmişdir.

“Sən qardaşım və behiştdə yoldaşımsan.” hədisi uydurmadır. Bunu şeyx Albani “Silsilə əhadis əd daifə”[3] də uydurma adlandırmışdır. Bu rəvayyəti Xətib “Tarix”də, ibn Əsakir də ondan aşağıdakı sənədlə nəql etmişlər: Osman ibn Əbdurrahmən – Muhəmməd ibn Əli ibn Hüseyndən – atasından – o da Əlidən. Osman ibn Əbdurrahmən - bu Qureyşi əl Vəkasidir. Hafiz dedi: *“Mətruk ravidir, onu ibn Məin yalanda ittiham etmişdir.”*[4]

Saleh ibn Muhəmməd əl Hafiz də bu ravinin rəvayyətlər uydurduğunu qeyd etmişdir.

“Amma sən, ey Əli! Mənim qardaşım, övladlarımın atasısan, sən məndənsən, mənə tərəf qayıdacaqsan.” hədisi də doğru deyildir. Hakim “Müstədrək”[5]də bu rəvayyəti aşağıdakı sənədlə nəql etmişdir: Cəfər ibn Muhəmməd ibn Nasir – Əli ibn Səid ibn Bəşir ər Razidən – İsmail ibn Ubeyd ibn Əbu Kuteybə əl Hərranidən- Muhəmməd ibn Məsləmədən – Muhəmməd ibn İshaqqdan – Yəzid ibn Abdullah ibn Qəsitdən – Muhəmməd ibn Usamə ibn Zeyddən – Usamə ibn Zeyddən.

[1] №2379
[2] №32141
[3] 4943
[4] “Təqrib”, №4493
[5] №4957

Dəraqutni Əli ibn Səid ibn Bəşirin zəif olmasını qeyd etmişdir.[1] Muhəmməd ibn İshaq isə tanınmış tarixçi və müdəllisdir və o bu rəvayyəti "kimdənsə" ibarəsi ilə rəvayyət etmişdir.

77) Musəvi yazır: *"Bir gün ona iş tapşıran və vəsiyyət edən vaxt dedi: "Sən mənim qardaşım və vəzirimsən, borclarımı ödəyirsən, vədələrimə vəfa edirsən, boynumda olanları yerinə yetirirsən."*[2]

Haşiyədə yazır: *"Təbərani "Kəbir"də ibn Ömərdən nəql etmişdir."*

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[3]də zəif adlandırmışdır. Təbərani "əl Kəbir"[4]də rəvayyəti bu isnadla nəql etmişdir: Muhəmməd ibn Osman ibn Əbu Şeybə - Əbu Haşim Muhəmməd ibn Yəzid ər Rifaidən – Abdullah ibn Muhəmməd ət Təhəvidən – Leysdən – Mücahiddən – ibn Ömərdən.

əl Heysəmi "Məcməu zəvaid"[5] də qeyd etmişdir ki, ravi silsiləsində ona məlum olmayan ravilər vardır. Mücahiddən başqa bütün ravilər zəifdir və sənəd zəifdir. Yalnız ibn Əbu Şeybə baradə fikir ayrılığı vardır. Abdullah ibn Muhəmməd ət Təhəvi baradə məlumat yoxdur. Əbu Haşim Muhəmməd ibn Yəzidin zəifliyini ibn Hacər və Buxari qeyd etmişlər. Leys – bu Əbu Suleymdir ki,siqa ravidir. Lakin,pis yaddaşına görə zəif hesab olunur.

78) Musəvi yazır: *"Vəfat edəndə (atam, anam ona qurban olsun) qardaşımı çağırın dedi. Əlini çağırdılar. Ona buyurdu: "Yanıma gəl!" Əli ona yaxınlaşdı.Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu sinəsinə söykədi, pak ruhu sinəsindən xaric olana qədər onunla söhbət etdi və o həzrətin ağzının suyundan bir qədər onun bədəninə süzüldü."*[6]

[1] "Mizanul itidal", 3/131/№5850
[2] Məktub 34
[3] 4944
[4] №13549
[5] №14704
[6] Məktub 34

— Rafizi ehmalla əl Hindinin fikrini ixtisar etmişdir. Halbuki, o bunu nəql etdikdən sonra yazır: "İbn Sədd nəql etmişdir və sənədi zəifdir."[1]

Rəvayyət yalandır. İbn Sədd bu rəvayyəti ikinci cildin 263-cü səhifəsində Muhəmməd ibn Ömər əl Vahididən rəvayyət etmişdir ki, o mətruk ravi olmuşdur. "Əhməd onu yalançı adlandırmış, Əbu Hatim və Nəsai isə onun rəvayyətlər uydurduğunu qeyd etmişlər."[2]

Rəvayyətin sənədinin bərbad olmasından əlavə bu Səhih Buxaridə olan hədisə ziddir. Buxari Aişədən nəql edir: ***"Allahın mənə bəxş etdiyi nemətlər arasında biridə budur ki, Rəsulullah*** *(sallallahu aleyhi və səlləm)* ***mənim evimdə, mənim növbəm olan gündə və mənim sinəmdə vəfat etmişdir.*** *Elə alındı ki,can verərkən onun ağız suyu mənim ağız suyuma süzüldü. Beləki,əlində misvaq tutan Əbdurrahmən yanıma gəldikdə, Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənə söykənmişdi. Onun misvaqa baxdığını gördükdə mən anladım ki,o bunu arzulayır.Mən soruşdum: "Onu istəyirsənmi?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) başı ilə razlıq işarəsi bildirdi. Mən misvaqı aldım,amma məlum oldu ki,ondan istifadə etmək ona ağırdır və mən soruşdum: "bunu yumşaldımmı?" və O yenə razılıq işarəsi etdi. Onda mən bu misvaq çubuğunu ehmalca çeynəməyə başladım və O,bunu dişlərinə sürtməyə başladı. Peyğəmbərin (sallallahu aleyhi və səlləm) önündə su ilə dolu olan kasa var idi və O hər dəfə əllərini yaş edərək üzünə və başına çəkərək deyərdi: "Allahdan başqa ilah yoxdur! Həqiqətən,ölümdən sonra qəbir həyatı vardır." Sonra O,əllərini yuxarı qaldıraraq "Ya Allah!Məni ali dərgahına qovuşdur." deyə dua etməyə başladı və bunu ruhunu təslim edib,əli yanına düşənə qədər təkrar etdi."*[3]

Bütün səhabələr adil idilər və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* iki ayrı yerdə vəfat edə bilməzdi. Məhz,buna görə "Təbəqat"da olan rəvayyət uydurmadır. Daha doğrusunu Allah bilir. Çox təəcüblü orasıdır ki, guya sünni şeyxi tərəfindən yazılan cavab məktubunda rafizinin bu yalan iddialarına qarşı heç bir irad görmək mümkün deyil. Bu kitabı daha çox oxuduqca əmin olursan ki, Əbdulhüseyn bunu əvvəldən sona qədər uydurmuşdur.

[1] "Kənzul ümmal", №18790
[2] "Mizanul itidal", 3/662/№7993
[3] "Muxtəsər Səhih Buxari", №1626,4449

79) Musəvi yazır: *Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Behiştin qapısında yazılmışdır: Allahdan başqa ilah yoxdur və Muhəmməd onun elçisidir.Əli isə Allah elçisinin qardaşıdır."*[1]

— Rəvayyət yalandır! Allaha and olsun ki,bunu Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* deməmişdir. Bu yalnız Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* adına uydurulan yalandır. Bunu uyduranı Allah məhv etsin! Haşiyədə yazır: *"Təbərani "Ausat"-da, Xətib "əl muttəffiq"-də və Muttəqi Hindinin "Kənzul-Ümmal"ın da onu nəql etmişlər."*

Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2] də uydurma adlandırmışdır. əl Hindi bu rəvayyəti "Kənzul-Ümmal"[3]da nəql etdikdən sonra qeyd etmişdir ki, ibn Cəuzi bu rəvayyəti "Vahiyyə" (uydurma rəvayyətlər məcmuası) kitabında qeyd etmişdir.

Xətib "Tarixul Bağdad"[4],Əbu Nueym "Hilliyyə" [5]də bu rəvayyəti bu isnadla nəql etmişlər: Muhəmməd ibn Osman ibn Əbu Şeybə - Zəkəriyyə ibn Yəhya əl Kisəidən – Yəhya ibn Səlimdən - əl Əşas ibn Həsən ibn Salehdən – Muassardan – Atiyyə Aufidən – Cabirdən.

Təbərani bu rəvayyəti nəql etdikdən sonra yazır: *"Bunu Muassardan əl Əşas ibn Həsən ibn Salehdən, ondan isə Yəhya ibn Səlimdən başqa heç kəs nəql etməmişdir. Zəkəriyyə ibn Yəhya əl Kisai bu rəvayyətin nəqlində tək qalmışdır."*

Bu ravi silsiləsində beş qüsur vardır:

Muhəmməd ibn Osman ibn Əbu Şeybə: Onun haqqında alimlərin fikirləri fərqlidir. İbn Hiraş və Abdullah ibn Əhməd ibn Hənbəl onu yalanda ittiham etmişlər.[6]

---

[1] Məktub 34
[2] 4901
[3] №33043
[4] 7/387/№3919
[5] 7/256
[6] "Mizanul itidal", 3/642/№7934

Zəkəriyyə ibn Yəhya: *"Nəsai və Dəraqutni onu mətruk ravi adlandırmışlar."* [1]

Yəhya ibn Səlim: "Dəraqutni onu zəif hesab etmişdir."[2]

əl Əşas ibn Həsən ibn Saleh: "*əl Heysəmi "Məcməu zəvaid"*[3]*də onu zəif hesab etmişdir."*

Atiyyə Aufi: Əksər alimlərin rəyinə görə bu ravi zəifdir.

80) Əbdulhüseyn yazır: *"Əli (ə) həmişə deyirdi: "Mən Allahın qulu və Rəsulun qardaşı, Siddiqi-Əkbərəm. Məndən başqa bu sözü yalnız yalançı deyər."*[4]

— Hədis "əl Muraciət"kitabının 90%-i kimi yalandır. İbn Cəuzi "əl Məvdua"[5], ibn Teymiyyə "Minhəcus sunnə"[6] , Zəhəbi "Mizanul itidal"[7], Suyuti "Ləal əl məsnu"[8],Albani "Silsilə əd daifə"[9]də bu rəvayyəti uydurma adlandırmışlar. Əlidən *(radiyallahu anhu)* bu rəvayyəti Abbad ibn Abdullah nəql etmişdir. İbn Mədini onu zəif adlandırmış, Buxari isə onun sual altında olduğunu qeyd etmişdir." [10]

---

[1] həm.yer 2/75/№2890
[2] həm.yer 4/377/№9513
[3] №14656
[4] Məktub 340
[5] 2/98
[6] 7/443
[7] 2/368/№4126
[8] 1/295
[9] №4947
[10] "Mizanul itidal", 2/368/№4126

81) Əbdulhüseyn yazır: *"Şura günündə o, Osman, Əbdurrəhman və Sədd və Zubeyrə dedi: "Sizi Allaha and verirəm, deyin görüm sizin aranızda məndən başqa elə bir adam var ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onunla qardaşlıq peymanı bağlamış olsun?" Dedilər: "Allah bilir ki, yox."* [1]

— Haşiyədə ibn Əbdulbərrin kitabına istinad verilir. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[2]də uydurma adlandırmışdır. İbn Əbdul bərr [3] rəvayyəti bu isnadla nəql etmişdir: Ziyad ibn əl Munzir – Səid ibn Muhəmməd əl Yəzdidən – Əbu Tufeyldən.

"Ziyad ibn əl Munzir yalançı olan Əbu Caruddur."[4]

82) Əbdulhüseyn yazır: *"Əli Bədr döyüşü vaxtı Vəlid ilə üzləşəndə Vəlid ondan soruşdu: "Kimsən?" Əli buyurdu: "Mən Allahın qulu və Elçisinin qardaşıyam."*[5]

— Haşiyədə ibn Sada istinad edildiyi bildirilir. "Təbəqat əl kubra"[6]da bu rəvayyət aşağıdakı isnadla gəlmişdir: "Yəhya ibn Zəkəriyyə ibn Əbu Zədat – İsmail ibn Əbu Xalid - əl Baxii. Ravilər "siqa"-dır amma, sənəd mürsəldir. əl Baxii - bu Musab ibn Zubeyrin mövlası olan Abdullah ibn Yasərdir. O,tabeindir və Bədr döyüşünün şahidi olmamışdır. Beləliklə, rəvayyət zəifdir."[7]

83) Əbdulhüseyn yazır: *"Yenə bir gün Əli (ə) Ömərin xilafəti vaxtında soruşdu: "Əgər Bəni İsraildən sənin yanına bir dəstə gəlsə və onlardan biri "Mən Musanın (ə) əmisi oğluyam" desə, sən onu başqalarından üstün tutarsanmı?" Ömər cavab*

---

[1] Məktub 34
[2] 4949
[3] 3/35
[4] "Mizanul itidal", 2/93/№2965
[5] Məktub 34
[6] 2/23
[7] "Silsilə əhadis əd daifə", № 4950

verdi: "Bəli!" Əli buyurdu: " Allaha and olsun,mən ki, Allah Rəsulunun qardaşı və əmisi oğluyam." Ömər əbasını yerə sərib dedi: "Allaha and olsun.Nə qədər ki, bir yerdəyik, bu yerdən savayı başqa bir yerdə oturmamalısan." Əli orada olanlar oranı tərk edənə qədər əbanın üstündə oturdu. Bu ehtiram və təvazökarlıq Allah Rəsulunun qardaşı və əmisi oğlunun xətrinə görə idi."[1]

— İbn Hacər bu rəvayyəti "Səvaiq əl muhriqa" kitabında sənədsiz olaraq nəql etmişdir. Sənədsiz bu rəvayyətin doğruluğunu yoxlamaq isə qeyri mümkündür.

84) Əbdulhüseyn yazır: *İbn Abbas deyir: "Allah Rəsulu (sallallahu aleyhi və səlləm) Əlinin qapısından savayı məscidə açılan bütün qapıları bağlatdı. Əli eləcə məscidə daxil olur və gediş-gəliş yolu oradan idi. Çünki,cünub olsa da belə başqa yolu yox idi."*[2]

— Rəvayyət doğru deyildir. İbn Cəuzi "əl Məvdua"[3]da yazır: **"Rafizilərin uydurmalarındandır."**

85) Əbdulhüseyn yazır: *"Yenə də səhih hədisə əsasən, bir gün Sədd ibn Malik Əlinin bəzi xüsusiyyətlərini nəql edərək dedi: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) əmisi Abbası və başqalarını məsciddən çıxartdığı vaxt, Abbas dedi:" Bizi çıxardırsan, Əlini orada qoyursan?" Həzrət cavab verdi: Sizi mən çıxartmadım, Allah sizi çıxartdı və ona yer verdi."*[4]

Haşiyədə yazır: *"Müstədrək"in 3-cü cildinin 117-ci səhifəsinin əvvəlində deyildiyi kimi, bu hədis səhih "sunən"də mövcuddur."*

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[5] də olduqca zəif adlandırmışdır. Hakim bu rəvayyəti "Müstədrək"[6]də bu isnadla nəql etmişdir: Muslim Məlai – Heysəmə ibn Əbrurrahmən. Bu rəvayətin səhih olduğunu deməklə Əbdulhüseyn yalan danışmışdır. Hakim bu hədisin mötəbərliyi haqqda bir şey yazmamışdır. Muslim Məlai

[1] Məktub 34
[2] Məktub 34
[3] 2/133
[4] Məktub 34
[5] 4952
[6] №4601

mətruk ravidir. Bu Muslim ibn Keysan Əbu Abdullah əl Mələidir. İmam Əhməd qeyd edir ki, onun rəvayyətləri yazılmaz. *"Yəhya onun etibarlı olmadığını, Nəsai onun tərk olunduğunu, Buxari isə onun tənqid olunduğunu qeyd etmişdir."*[1]

86) Əbdulhüseyn yazır: *Zeyd ibn Ərqəm deyir: "Allah Rəsulu (sallallahu aleyhi və səlləm) əshabələrinin bəzilərinin qapısı məscidə açılırdı və keçid yolları oradan idi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: Əlinin qapısından savayı başqa qapıları bağlayın. Bu barədə camaat arasında söz-söhbət oldu. Peyğəmbər (sallallahu aleyhi və səlləm) ayağa qalxıb, Allaha həmd və səna edəndən sonra buyurdu: Deyirlər ki, mən Əlinin qapısından başqa bütün qapıları bağlamağı əmr etdim! Amma həqiqətdə mən heç nəyi bağlamamış vəya açmamışam, mən məmur olunmuşam və itaət etmişəm."*[2]

Haşiyədə yazır: *"Əhməd "Musnəd"in 4-cü cildinin 369-cu səhifəsində bunu nəql etmişdir."*

— Bu rəvayyətin doğruluğu məsələsində alimlər ixtilaf etmişlər. "Musnəd"[3]də və "Fədail"[4]də, həmçinin, Nəsainin "Xəsais" [5]və Sunən əl kubra"[6] kitablarında rəvayyət bu isnadla nəql olunur: Meymun Əbu Abdullah – Zeyd ibn Ərkamdan. əl Heysəmi "Məcməu zəvaid"[7]də yazır: *"Ravilər silsiləsində Meymun Əbu Abdullah vardır ki, onu ibn Hibban "siqa",digər alimlər isə zəif hesab etmişlər."*

Şueyb Arnaut deyir: *"Ravilər silsiləsi zəif, mətn isə münkərdir. Meymun Əbu Abdullah bu əl Bəsri əl Kindidir. Onu ibn Mədini, Yəhya əl Qəttan, ibn Məin və Əbu Davud zəif hesab etmişlər. İmam Əhməd bu rəvayyəti "Musnəd" kitabında ibn Ömər və Abdullah ibn Rahim əl Kinanidən nəql etmişdir. Əbu Nueym bu rəvayyəti ibn Abbasdan, Xətib isə Cabirdən mərfu şəkildə nəql etmişdir. İbn Ömərdən nəql olunan rəvayyətin sənədində Hişam ibn Sədd vardır ki, ibn Məin onun "heçnə"olduğunu qeyd*

[1] "Mizanul itidal", 4/106/№8506
[2] Məktub 34
[3] №19306
[4] №985
[5] №38
[6] №8423
[7] №14671

etmişdir. Abdullah ibn Rahim əl Kinanidən nəql olunan rəvayyətin sənədində isə yalançı ravi olan Abdullah ibn Şərik vardır. Cabirdən nəql olunan rəvayyətin sənədində isə məchul ravilər vardır."[1]

İbn Cəuzi "Məvdua"[2] da qeyd etmişdir bu rəvayyət uydurmadır.

Əbu Səid əl Xudru *(radiyallahu anhu)* deyir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* insanlara xütbə verərkən dedi: *"Allah bir bəndəyə ya dünyanı ya da Onun nəzdində olanı seçməkdə ixtiyar etmişdir. O bəndə Allahın nəzdində olanları ixtiyar etdi". Bu zaman Əbu Bəkr (radiyallahu anhu) ağlamağa başladı. Biz isə onun ağlamasından təəcübləndik. Mən öz-özümə dedim: Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir bəndənin ixtiyar etməsindən danışır, bunda nə var ki? və əslində Peyğəmbər (sallallahu aleyhi və səlləm) ixtiyar edən idi, Əbu Bəkr isə bizim elmlimiz idi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrə (radiyallahu anhu) buyurdu: "Mənim dostluğunda və malında ən arxayın olduğum adam Əbu Bəkrdir. Əgər mən özümə Allahdan başqasını xəlil seçəsi olsaydım Əbu Bəkri seçərdim. Lakin, bu sadəcə İslam qardaşlığı və nəvazişidir.* ***Məsciddə olan bütün qapılar bağlansın yalnız Əbu Bəkrin qapısı açıq qalsın"*** [3]

Əlinin *(radiyallahu anhu)* qapı haqqında olan rəvayyətlərini doğru qəbul edən alimlər bu iki hədisi cəm etmiş və qeyd etmişlər ki, Əbu Bəkr *(radiyallahu anhu)* və Əlinin *(radiyallahu anhu)* qapısından başqa məscidə açılan qapı qalmamışdı.

87) Əbdulhüseyn yazır: *"Təbərani "əl Kəbir"də ibn Abbasdan nəql etmişdir ki, Allah Rəsulu (sallallahu aleyhi və səlləm) bir gün ayağa qalxaraq buyurdu: "Mən sizi öz yanımdan (məsciddən) çıxarıb, onu saxlamadım, Allah sizi çıxarıb onu saxlamışdır. Mən məmur olunmuş qulam, mənə verilmiş fərmana əməl edirəm. Mən vəhydən savayı heç nəyə itaət etmirəm."*[4]

[1] Şəukani, "Fəvaid əl məcmua"səh 449, 450/№57
[2] 2/134
[3] Buxari, "Kitab Fədailus Səhabə", № 3654
[4] Məktub 34

— əl Heysəmi "Məcməu zəvaid"[1]də yazır: "Təbərani nəql etmişdir. Sənədində olan ravilər haqqında ziddiyyətli fikirlər vardır." Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə"[2] də zəif adlandırmışdır. Təbərani bu rəvayyəti "əl Kəbir"[3]də nəql etmişdir. Sənəddə Meymun Əbu Abdullah, Kəsir ən Nəuv və Hüseyn əl Əşkar adlı zəif ravilər vardır.

88) Əbdulhüseyn yazır: *"Yenə Allah Rəsulu (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Ey Əli! Məndən və səndən başqa məsciddə cənabətli halda olmaq heç kəs üçün halal deyildir."* [4]

— İbn Kəsir "Təfsir"[5] də və Albani "Dəif əl cami"[6] kitablarında bu rəvayyətin zəif olmasını bildirmişlər. İbn Cəuzi "Məvdua"[7] və Zəhəbi "Tərtib əl məvdua" [8]kitablarında bu hədisin səhih olmadığını bildirmişlər.

Tirmizi "Sunən"[9]də hədisi bu isnadla nəql edir: Əli ibn əl Munzir – Muhəmməd ibn Fudeyldən – Səlim ibn Əbu Həfsdən – Atiyyədən - Əbu Səiddən. Ravilər silsiləsi demək olar ki,tamamən şiələrdən ibarətdir. Atiyyə - Əbu Səid rabitəsindən biz dəfələrlə bəhs etmişik. Digər qüsur isə Səlim adı ilə tanınan ibn Əbu Həfs əl İcli əl Kufidir.

Zəhəbi yazır: *"O, Fələsiyə görə zəif, Nəsaiyə görə isə dürüst olmayan ravi olmuşdur."*[10]

---

[1] №14677
[2] 4495
[3] №12722
[4] Məktub 34
[5] 2/312
[6] №6402
[7] 2/137
[8] №110
[9] №3727
[10] "Mizanul itidal", 2/110/№3046

Rəvayyət həmçinin, Xəracat ibn Sədd – Sədd ibn Əbu Vəqqas yolu ilə də nəql olunmuşdur. əl Heysəmi "Məcməu zəvaid"[1]də yazır: *"Bəzzar nəql etmişdir, sənədində tanımadığım Xəracat adlı ravi vardır. Digərləri isə etibarlı ravilərdir."*

89) Əbdulhüseyn yazır: *"Sədd ibn Əbu Vəqqas, Bəra ibn Azib, ibn Abbas,İbn Ömər və Huzeyfə ibn Useyd Qifari nəql etmişlərr ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) məscidə gəlib buyurdu: "Allah Musaya vəhy edərək buyurdu: "Mənim üçün pak bir məscid tik ki, səndən və Harundan başqa heç kəs orada məskən olmasın. Allah mənə də vəhy buyurub ki, pak və təmiz bir məscid tikəm və məndən və qardaşım Əlidən savayı heç kəs orada sakin olmasın."*[2]

— Haşiyədə "Yənəbil məvədda" kitabına istinad edilir. Bu kitab baradə biz yuxarıda bəhs etdik. Həmçinin, Musəvi ibn Məğazilinin uydurma və zəif rəvayyətlərlə dolu olan kitabına istinad edir.

90) Əbdulhüseyn yazır: *"Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) varid olmuş duada belə oxuyuruq: "Ya Rəbbi! Qardaşım Musa səndən xahiş edib dedi: Ya Rəbb! Mənə ürək genişliyi inayət et! İşimi asan et! Qüssə və düyünü dilimdən aç ki, camaat sözümü başa düşsünlər və mənim üçün ailəmdən (əhlimdən) vəzir təyin et! Harun qardaşımı və onun vasitəsilə arxamı möhkəmlət və onu işlərimə şərik et." Sən ona vəhy etdin ki, "tezliklə qardaşın vasitəsilə qollarını möhkəmlədəcəyəm və sizə yüksək məqam və mövqe əta edəcəyəm." Ey böyük Yaradan! Mən sənin qulun və elçin Muhəmmədəm. Mənə ürək genişliyi ver! İşimi asan et! Ailəmdən Əli qardaşımı mənə vəzir təyin et!"*[3]

— İbn Teymiyyə "Minhəc sunnə"[4] də yazır: *"Bu hekayə hədis elmi alimlərinin yekdil rəyinə görə uydurulmuş yalanlardandır."* Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[5] də uydurma adlandırmışdır. Sələbi bu rəvayyəti

[1] №14679
[2] Məktub 34
[3] Məktub 34
[4] 7/273
[5] 4958

Əbu Zərrdən böyük bir rəvayyətin kiçik bir hissəsi kimi nəql etmişdir. Rəvayyətin sənədi heç nəyə yaramır. Yəhya ibn Əbdulhəmid yalanda ittiham olunmuş, Qeys ibn Rabiə mətruk ravi, əl Əmaş isə müdəllisdir."[1]

91) Əbdulhüseyn yazır: *"Bəzzar da nəql etmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlinin əlini tutub dedi: "Musa Allahdan istədi ki, məscidini Harun üçün pak etsin, mən də Allahdan istədim ki, məscidimi sənin üçün pak və təmiz etsin. Sonra Əbu Bəkrə xəbər göndərdi ki, evinin qapısını bağlasın. O, əvvəl dedi: "İnna lillah və innə ileyhi raciun" və sonra dedi: "Eşitdik və itaət etdik." Sonra Ömər və Abbasa xəbər göndərdi ki, evlərinin qapısını bağlasınlar. Onda o zaman buyurdu: "Evlərinizin qapısını mən bağlamamış və Əlinin qapısını mən açmamışam. Allah onun qapısını açmış və sizinkini bağlamışdır."*[2]

— əl Heysəmi "Məcməu zəvaid"[3]də yazır: *"Bəzzar nəql etmişdir ki, sənədində mənə məlum olmayan ravilər vardır."* Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" [4]də olduqca zəif adlandırmışdır. Siz elə bir rafizi görməzsiz ki, o məlumatı gizlətməsin. O, Muttəqinin "Kənzul ümmal"[5] kitabına istinad edir, ancaq müəllifin rəvayyəti zəif görməsini gizlətmişdir. Muttəqi əl Hindi yazır: *"Sənəddə Əbu Meymunə vardır ki, o məchuldur."*

İmam Bəzzar bu rəvayyəti nəql etdikdən sonra yazır: "Bizə rəvayyətin bu mətnlə və digər isnadla Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* varid olması məlum deyil. Burada iki qüsur vardır: Əbu Meymunə adlı ravi bilinməyan adamdır və Ubeydullah ibn Musa və İsa əl Məlaidən başqa digər ravilər məchuldur."

Bununlada 34-cü məktubun təhlili başa çatdı. Allah yalançılara lənət etsin! Yalanlarla dolu olan bu məktubdan sonra guya sünni şeyxi əl Bişrinin məktubu gəlir: *"Allah atana rəhmət eləsin, nə qədər aydın və cah-cəlallı ayələr, əlamətlər və*

[1] "Mizanul itidal", 2/110/№3046
[2] Məktub 34
[3] №14673
[4] 4955
[5] №36521

dəlillərdir.Bəyan və dəlillərin necə də fəsahətdən faydalanmışdır! Ardını da zikr et,ardını..., elə o ardıcıl,"mutəvatir" və aydın "nass"lardan! Fəzl və üstünlük səndədir. Vəssalam."

Aydın dəlillər!!! SubhənAllah! Məgər Əzxər şeyxi bu yalançı rəvayyətləri aydın dəlillər adlandıra bilərdimi?!! Əbdulhüseyn növbəti dəfə şeyx Bişrinin adından yalan uydurараq özünə təriflər ünvanlamışdır.

92) Əbdulhüseyn əl Musəvi 36-cı məktubda yazır: *"İbn Abbasdan rəvayyət olunur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Sən məndən sonra bütün möminlərin vəlisisən"*

— Əhməd "Fədail"[1], ibn Əsakir "Tarix"[2],Hakim "əl Müstədrək"[3] və Təbərani "əl Kəbir"[4] kitablarında bu hədisi on fəzilətdən bəhs edən uzun bir rəvayyətin bir hissəsi kimi nəql etmişlər. İbn Teymiyyə "Minhəc" kitabında bu rəvayyətin uydurma olduğunu bildirmişdir. Rəvayyətin bütün sənədləri Əbu Bələc Yəhya ibn Əbu Suleymdən gəlir. Onu ibn Məin, Nəsai, Dəraqutni "siqa" hesab etmişlər. Buxari dedi: "O, sual altındadır." Bu isə Buxarinin bir ravini mötəbər görmədikdə istifadə etdiyi ən kəskin ifadədir.Əhməd dedi: "O, münkər rəvayyətlər nəql edərdi" Əbu İshaq İbrahim ibn Yəqub Cuzədcani yazır: "O, etimada layiq deyil."[5] İbn Hibban dedi: "O, səhv edərdi" [6] Sadi dedi: "Əbu Bəlac doğru danışan deyil" [7]

Əbu Fədl Nuri imam Əhməddən nəql edir ki, o demiştir: "O, münkər rəvayyətlər nəql edərdi" İmam Zəhəbi də "Muqni fu duafa"[8]kitabında ibn Əbu Suleymi zəif ravilər sırasında qeyd etmişdir. Heysəmi "Məcməu zəvaid"[1]də

[1] №1168
[2] 42/199
[3] №4652
[4] №12593
[5] "Əhvalu rical" №190
[6] "Mizanul itidal" 4/384/№9539
[7] "Kamil fi duafa"c.7,səh 299
[8] №6985

qeyd etmişdir ki, ibn Suleym "siqa"ravidir, amma onda zəiflik vardır." Əbu Hatim dedi: "O, hədislərdə yaxşıdır." İbn Hacər "Təqrib"[2]də qeyd etmişdir ki, ibn Suleym düzgün ravi olmaqla bərabər səhvlər edərdi. Əbu Əli Həsən ibn Əli ibn Nəsr ət Tusi "Mustəhrac"[3]da bənzər rəvayyəti bu isnadla nəql etmişdir: Cəfər – Yezid ər Raşiqdən – Mutərrif ibn Abdullahdan – İmran ibn Hüseyndən. Hədisin mətni belədir: *"Əli məndəndir,mən də ondanam və məndən sonra hər möminin vəlisidir."*

Kitabın müəllifi qeyd etmişdir ki,rəvayyət bu mətnlə münkərdir." İbn Hacər əl Heytəmi "Səvaiq"[4]də qeyd etmişdir ki, rəvayyət doğru deyildir. Tirmizi bu rəvayyəti "Sunən"-də nəql etdikdən sonra yazır ki, bu Cəfərdən başqa digər isnadla varid olmamışdır. Bu Cəfər ibn Süleyman əd Dəbbidir. Onun haqqında alimlərin fikirləri fərqlidir. İbn Sadın rəyini yekun rəy kimi qəbul etsək, qeyd olunmalıdır ki, Cəfər dürüstlüklə bərabər özündə zəiflik olan şiə ravi idi." [5]

Hədisin mətninə qayıdaq. Bu sözləri Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* niyə dedi? İmam Nəsainin "Xəsais"[6] və Əhmədin "Fədail səhabə"[7]kitablarında İmrandan varid olan hədisdə deyilir:

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ordu dəstəsi təlif edib, əmir olaraq Əlini təyin etdi. Bu dəstə ilə Əli yollandı və döyüşlərin birində qənimət olaraq bir cariyyə əldə etdi. Əsgərlər isə bunu xoş qarşılamadılar. Dörd səhabə öz aralarında razılğa gəldilər: "Biz bunu mütləq Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* xəbər verəcəyik."

---

[1] №14696
[2] №8003
[3] №83
[4] səh 283, №25
[5] "Mizanul itidal", 1/408/№1505
[6] №86
[7] №1035

Müsəlmanlar səfərdən dönən zaman ilk öncə Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* ziyarət edər, sonra evlərinə gedərdilər. Beləcə əsgərlər Mədinəyə gəldikdə, onlardan Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hüzuruna daxil oldular. Onlardan biri dedi: "Ya Rəsulullah! Əli filan və filan işi etdi." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ondan üz çevirdi. Sonra, ikinci və üçüncü əsgərlər də eyni şeyləri dedilər. Bundan sonra Rəsulullah *(sallallahu aleyhi və səlləm)* onlara üzündə qəzəb nişanəsi ilə dönərək dedi: "Əlidən nə istəyirsiniz? (Bunu üç dəfə təkrar etdi.) Əli məndən, mən də ondanam və o məndən sonra hər möminin vəlisidir."

Bənzər rəvayyət Abdullah ibn Bureydədən də nəql olunmuşdur. əl Heysəmi "Zəvaid"[1]də yazır: *"Əhməd və Bəzzar qısa şəkildə nəql etmişlər. Sənəddə Əclah Kindi adlı ravi vardır. Onu ibn Məin "siqa", digər qrup alimlər isə zəif hesab etmişlər. Əhmədin digər raviləri isə səhih ravilərdir. Şueyb Arnaut qeyd etmişdir ki, sənəd Əclaha görə zəifdir. Bu ravini Nəsai və Əbu Hatim zəif, digər qisim alimlər isə "siqa" hesab etmişlər."*[2]

Bu rəvayyət haqqında İbn Kəsir "əl Bidayə və nihayə"[3] kitabında yazır: ***"Bu mətn münkərdir və Əclah şiədir. Əgər bu təkbaşına nəql olunubsa, buna bənzər sözlər belə adamlardan qəbul edilə bilməz. Ondan isə bu rəvayyəti daha da zəif ravilər nəql etmişlər. Daha doğrusunu Allah bilir. Bu barədə doğru olan budur ki, Əhməd – Vəkiyyədən - əl Əmaşdən – Sədd ibn Ubeydədən – Abdullah ibn Bureydədən – atasından Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***belə buyurduğu nəql olunmuşdur: "Mən kimin mövlası isəm, Əli də onun mövlasıdır." (sitatın sonu)***

Bureydənin hədisində belə ifadə vardır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Yəmənə iki dəstə göndərdi. Birinci dəstəyə əmir olaraq Əlini,ikinci dəstəyə isə Xalid ibn Vəlidi təyin etdi.Sonra buyurdu: "İki dəsrə birləşəndə əmir Əli olacaq.Yox,əgər hər iki dəstə ayrı-ayrı qalsa hərəsinin öz əmiri olacaq."*

[1] №14732
[2] "Mizanul itidal", 1/78/№274
[3] 7/343

Bu Buxarinin Bəra ibn Azibdən rəvayyət etdiyinə ziddir. Bəra dedi: **"İlk olaraq Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **bizi Xalid ibn Vəlidin əmirliyi altında Yəmənə göndərdi. Sonra Əlini Xalidi əvəz etmək üçün göndərərək dedi: "Xalidin yoldaşlarına de ki, onlardan kim istəsə Yəməndə qalsın, istəməyən də Mədinəyə qayıtsın." Mən Əli ilə Yəməndə qalanlardan oldum və daha sonra mənə qənimət olaraq bir neçə qızıl da verildi."**[1]

Yəni, Xalidin dəstəsi ilk olaraq göndərilmişdi. Daha sonra Əli onu əvəz etmək üçün göndərilmişdi. Buxaridə olan bu hədis Əlinin Xalidi sadəcə əvəz etmək üçün göndərildiyini və ona əmir təyin olunmadığını göstərir. Bütün bu rəvayyətlərdə aydın görülür ki, söhbət rəhbər təyin olunmaqdan getmirdi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* iddiaçıların şikayətlərini rədd etdi və Əlini müdafiə etdi. Belə şikayətlər də Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* "qədir xum" məntəqəsində "Mən kimin mövlası isəm, Əli də onun mövlasıdır." sözlərini deməsinə vadar etmişdi."

Ərəbcə olan mətndə "vəli" kəlməsi istifadə olunur. Bunu rəhbər kimi tərcümə etmək doğru deyildir. Vali sözü tək haldadır. Cəm halda isə bu "əvliyya" olacaqdır. Allah Quranda buyurur:

"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları (özünə) dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz." (Maidə 51)

Uca Allah burada müsəlmanlara yəhudiləri özlərinə rəhbər seçməmələrini nəzərdə tutmur. Çünki, belə fikir heç bir müsəlmanın ağlına gəlməz. Söhbət dostluq və yaxınlıqdan gedir. Həmçinin, bizim müzakirə etdiyimiz rəvayyətdə də söhbət bundan gedir. Hədisdə istifadə olunan "vəli" kəlməsi yaxınlıq və dostluq mənalarını verir. Yəni, "Sən məndən sonra hər möminin dostu və sevimlilisisən." Daha doğrusunu Allah bilir.

Əli ibn Əbu Talibin özü bu sözləri özünün təyini kimi qəbul etmirdi. Buxarinin "Səhih" əsərində deyilir: *"İbn Abbas (radiyallahu anhu) dedi: "Əli (radiyallahu anhu) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sonuncu xəstəliyi zamanı yanından çıxdıqdan sonra insanlar soruşdular: "Ey Əbul Həsən! Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu səhər özünü necə hiss edir?" O dedi:*

[1] "Muxtəsər Səhih Buxari", № 1600 ,4349

"Allaha həmd olsun. Bu səhər özünü yaxşı hiss edir." Bu zaman Abbas ibn Əbdulmutəllib onun əlindən tutaraq dedi: "Allaha and olsun ki,üç gündən sonra sən artıq başqasına tabe olmuş olacaqsan və and olsun ki,mən düşünürəm ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu xəstəliyindən vəfat edəcəkdir. Çünki,mən Əbdulmutəllib övladlarının ölüm qabağı necə simada olduqlarını bilirəm. Gəl,onun yanına gedək və ondan sonra xilafətin kimə qalacağını soruşaq. Əgər bu iş bizə qalacaqsa bunu öyrənmiş olarıq.Yox,əgər başqalarına həvalə olunacaqsa bunu da bilmiş olarıq və Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizə tövsiyyələrini verər."

Əli (radiyallahu anhu) dedi: **"Vallahi, əgər biz xəlifəti istəsək və Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **onu bizə verməsə,ondan sonra insanlar bir daha bizə xilafəti həvalə etməzlər! Allaha and olsun ki,mən Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **bunu istəməyəcəyəm."**[1]

Bu hədisdə söhbət Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* Əli haqqında edilən şikayətlər və "Qədir xum" hadisələrindən sonra baş verənlərdən gedir. Əmisinin sualına o "soruşmaq nəyə lazım"və s.kimi sözlərlə cavab vermədi. Bu hədis böyük dəlildir ki, nə "Qədir xum"da nə də, ondan öncə təyinat olmamışdı. Bu rəvayyətlərlə Əlinin *(radiyallahu anhu)* təyinatını dəlil kimi başa düşənlər, bu hədisləri Əli *(radiyallahu anhu)* başa düşən kimi anlamayıblar. Əlinin fikrinə görə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* özündən sonra heç kəsi təyin etməmişdir. İmam Bəzzar səhih sənədlə rəvayyət edir ki, Əli *(radiyallahu anhu)* demişdir: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **xəlifə təyin etmədi ki, mən də sizə xəlifə təyin edəm."**[2]

Şiələrin ən mötəbər kitabında dəlil vardır ki, Əli *(radiyallahu anhu)* özünü xilafətə ən layiq namizəd görsə də özünün namizədliyini irəli sürməmişdi. "Nəhcul Bəlağa" kitabında Əlinin belə dediyi yazılır:

[1] "Muxtəsər Səhih Buxari", № 1625,4447

[2] "Səvaiq əl muhriqa",səh 128

"Ey Bəni Əsədin qardaşı!... Biz nəsil (Peyğəmbərlə qohumluq) baxımından üstün və Allahın Peyğəmbərinə yaxınlıq (və məqam) baxımından daha möhkəm olmağımıza baxmayaraq, (üç xəlifə tərəfindən) xilafətlə bizə hökmranlıq edilməsinin səbəbi xilafətin rəğbət bəslənilən və istənilən olması idi." [1]

Buna görə onun üçün əsas dəlil Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə qohum olmaq idi. Əli ibn Əbu Talib xilafəti istəmirdi və ona can atmırdı. O,deyərdi: **"Vallah xilafətə rəğbətim və hökm etməyə həvəsim yoxdur.** Bu iş üçün siz məni çağırdınız, bu yükü üzərimə siz yüklədiniz."[2]

Əsrlər boyu şiələr mübarizə aparıb, sübut etməyə çalışırlar ki, Əli *(radiyallahu anhu)* ilk xəlifə olmalı idi və bunu ondan zorla başqaları almışdılar. Lakin, Əli *(radiyallahu anhu)* bu vəzifəni əldə etmək istəyirdimi? XEYR!

Osmanın vəfatından sonra, camaat ona beyət etmək istəyəndə Əli dedi: ***"Məndən əl çəkin, başqasını axtarıb tapın..... Amma, məndən əl çəksəniz, sizlərdən biriniz kimi olaram. Kimi iş başına gətirsəniz, kimi özünüzə qulluq sahibi etsəniz, o buyruğu sizdən daha artıq dinlərəm, əmrinə sizdən artıq uyaram. "Mənim sizə vəzir olmağım, əmir olmağımdan daha xeyirlidir"*** [3]

Allah rizası üçün! Allahın ümmətə xəlifə etdiyi şəxs bu əmrdən necə boyun qaçıra bilər? İnsanları haqqa yönəltmək üçün hakim olan imam bu vəzifədən necə boyun qaçıra bilər?

Ayətullah Cəfər Sübhani Azərbaycan dilində, "Əl huda" tərəfindən, 2005 ildə nəşr olunan "İslam tarixı" kitabının, 332-333 səhifələrdə yazır: **"Osmanı öldürdükdən sonra Həzrət Əli mühacir və ənsarın əksəryətinin israrı ilə xilafətə seçildi. O, əvvəlcə bu vəzifəni qəbul etmək istəmədi, lakin mühacir və ənsarların israrından sonra bu vəzifəni ələ aldı."**

---

[1] xütbə 162

[2] Nəhcul-bəlağə, səh 225, 205 -ci xütbə. Mubahilə çapı, Baki 2006

[3] "Nəhcul bəlağa", "Xilafət dövrü, Cəməl döyüşü və Cəməldən sonra" başlığı altında, "Osmandan sonra Ona bey`ət etmək istəyənlərə buyurdu" xütbəsinə səh 136

Əli ibn Əbu Talib mühacir və ənsarların rəyi ilə xəlifə seçimini Allahın razılığı kimi qəbul edirdi. Müaviyəyə yazdığı məşhur məktubunda deyir: *"Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi.* ***Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı."***[1]

Təkcə bu mətnlə imamın Allah tərəfindən təyin edilməsi məsələsinə nöqtə qoymaq olar. Şiə müəllifləri bu sözləri izah etmək üçün iddia etdilər ki, Əli *(radiyallahu anhu)* dediyi bu sözlərə özü inanmırdı. Yəni, onlar qısaca olaraq imamı yalan deməkdə ittiham etdilər. Yuxarıda bəhs olunan mətnlər isbat edir ki, Allah tərəfindən "Qədir xum"da heç bir təyinat olmamışdır. Bunu bütün məşhur tarix kitablarında keçən rəvayyətlərdə təsdiq edir. Yəni, birincisi o hakimiyyəti istəmirdi, ikincisi o hakimiyyətin təqdim edildiyi zaman ondan imtina etmişdi, üçüncüsü o etiraf etmişdir ki, xəlifənin səhabələrin rəyi ilə seçilməsində Allahın razılığı vardır.

93) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) həyatı boyu heç kəsi Əliyə əmir təyin etməmiş, əksinə həmişə Əli başçı olmuşdur. Hər yerdə başqalarının fərqli olaraq o bayraqdar olmuşdur. Belə ki, Usamənin qoşununda əsgərlərdən olan Əbu Bəkr və Ömər "bayraqaltı" olublar. Bəli,"Mutə" döyüşü zamanı Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Usamənin ixtiyarına verdiyi qoşunda bu iki nəfər əlaltı idilər."*[2]

— Birincisi, Əbu Bəkrin Usamənin ordusuna daxil edilməsi həqiqətə uyğun deyil. Onun Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* son xəstəliyi zamanı namazda imam təyin olunması və vəfat edənə qədər bu işi icra etməsi rafizinin iddialarını alt-üst edir. İkincisi, Əlinin həmişə əmir olaraq təyin olunub, heç vaxt başqasının tabeçiliyində olmaması iddiasına gəlincə, bilmək lazımdır ki, orduya başçı təyini bu başçının orduda olan digər müsəlmanlardan dini cəhətdən üstün olmasına görə edilmirdi. Orduya sərkərdələri yaxşı döyüşüb,savaşda əsgərləri məharətlə idarə

[1] "Nəhcul bəlağə", səh 366-367 (tərcümədə səh 298, Tehran çapı, 1995),6-cı xütbə

[2] Məktub 36-da haşiyə

edənləri əmir təyin edirdilər. Bu təyinlər müxtəlif səbəblərə görə edilirdi. Misal olaraq "Zat əs Səlasil" səfərində orduya Amr ibn As əmir təyin olunmuşdu. İbn Hişam "Sirə"də bu haqqda yazır:

"Amr ibn Asın rəhbərliyində olan ordu dəstəsi Bəni udra torpaqlarında olan "Zat əs Səlasil" məntəqəsinə yürüş etdi. Bunun tarixi belədir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onu Suriyaya yürüş etmək üçün ərəbləri səfərbər etməyə göndərmişdi. əl Asın anası Bəlli qəbiləsindən idi. Ona görə də Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onu dostluq münasibəti qurmaq məqsədi ilə ora göndərdi. Yəni, o bu orduda ən fəzilətli adam olduğuna görə əmir təyin edilməmişdi. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* Əbu Bəkri həcc səfərlərinin birində əmir təyin etmişdi. İbn İshaq bu hadisəni təsvir edərək yazır:

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* bundan sonra Ramazan ayının qalan günlərini, şəvval və zilqadə ayını Mədinədə keçirtdi. Sonra hicri 9-cu ildə Əbu Bəkri həcc mərasiminə rəhbər olaraq Məkkəyə göndərdi. Müşriklər də əvvəlki kimi həcci yerinə yetirirdilər. Bu ərəfədə Bərəa (Tövbə) surəsi nazil oldu və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə müşriklər arasında qarşılıqlı olaraq bağlanmış Kəbə evini hər kəsin rahat şəkildə ziyarət etmə anlaşması pozulmuş hesab olundu. Bundan başqa Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə ərəb qəbilələri arasında müəyyən müddətə bağlanmış müqavilələr var idi. Bu surədə bağlanmış sazişlər, Təbuk döyüşünə getməmiş münafiqlər və onların gizli söhbətlərindən bəhs olunur. Allah Təala buyurur:

1. Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır.

2. Elə isə yer üzündə dörd ay gəzib dolaşın və bilin ki, siz müşriklər Allahdan yaxa qurtara bilməyəcəksiniz və Allah kafirləri rüsvay edəcəkdir.

3. Bu, Allah və Onun Elçisi tərəfindən ən böyük həcc günü insanlara Allahın və Onun Elçisinin müşriklərdən uzaq olmasını elan edəcək bir bildirişdir. Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Yox əgər üz döndərsəniz, bilin ki, siz Allahdan yaxa qurtara bilməyəcəksiniz. Kafirləri ağrılı-acılı bir əzabla müjdələ.

4. Saziş bağladıqdan sonra onu pozmamış və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi, müddəti bitənədək yerinə yetirin. Həqiqətən, Allah müttəqiləri sevir.

5. Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir.

6. Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar haqqı bilməyən bir qövmdür.

7. Məscidulharamın yanında saziş bağladığınız kəslər istisna olmaqla müşriklərin Allah və Onun Elçisi yanında nə əhdi ola bilər? Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir.

8. Necə ola bilər?! Əgər onlar sizə qalib gəlsələr, nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etməzlər. Onların qəlbində nifrət olduğu halda, dildə sizi razı salmağa çalışarlar. Onların çoxu fasiqlərdir.

9. Onlar Allahın ayələrini ucuz qiymətə satır və insanları Onun yolundan döndərirdilər. Onların tutduqları iş necə də pisdir!

10. Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər. Onlar həddi aşanlardır.

11. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələri bilən adamlara beləcə izah edirik.

Hakim ibn Hakim ibn Abbad ibn Huneyf mənə Əbu Cəfər Muhəmmədin (imam Baqir) belə dediyini nəql etdi: "Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* sazişləri ləğv etmək haqqında vəhy nazil olduqda, o Əbu Bəkr əs Siddiqi müsəlmanların həcc əmiri olaraq artıq göndərmişdi. Ona dedilər: "Ya Rəsulullah! Bəlkə, sən bu surəni Əbu Bəkrə çatdırasan?" Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Bunu yalnız mənim əhlimdən olan biri etməlidir." Sonra Əli ibn Əbu Talibi çağırdı və ona dedi: "Bu ayələrlə yola çıx və Qurban mərasimi günü bunu insanlara bəyan et. Bəyan et ki,

bu ildən sonra müşriklərə həcc etmək, lüt halda Kəbəni təvaf etmək qadağandır. Allahın Elçisi ilə bağlanmış sazişlərin müddəti isə təyin olunmuş vaxta qədərdir."

Əli ibn Əbu Talib dəvə ilə yola çıxaraq, Əbu Bəkrə yolda çatdı. Əli gələndə,Əbu Bəkr ondan soruşdu: "İtaət edən, yoxsa itaət olunan kimi gəlmisən?" Əli dedi: İtaət edən kimi gəlmişəm."[1]

Mubarəkfuri bu hadisə haqqında yazır: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini yeni nazil olmuş ayələrlə göndərdi və tapşırdı ki, Həcc zamanı bunları insanlara bəyan etsin. Əli Əbu Bəkr (Allah onların hər ikisindən razı olsun) ilə qarşılaşdıqda Əbu Bəkr ondan soruşdu: *"Sən başçı olacaqsan?" Əli isə dedi ki, əmir olaraq Əbu Bəkr qalacaq və bütün namazlar onun arxasında qılınacaq."*[2]

Nəsai "Xəsais"[3]də nəql edir: ***"Əbu Bəkr soruşdu: "Əmir kimi gəlmisən, yoxsa məmur kimi?" Əli dedi: "Məmur kimi"***

Kimsə deyə bilər ki, söhbət döyüş səfərindən getmir və haqqlı ola bilər. Biz sadəcə deyirik ki, bu hadisə zamanı Əli Əbu Bəkrə tabe olan kimi səfərə çıxmışdı və "Əli heç vaxt Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* başqa heç kəsə tabe olmamışdır" deməklə rafizi Musəvi növbəti dəfə yalan danışdı.

94) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) qapının arxasından onların səsini eşidirdi. Acıqlı halda evdən çıxdı və buyurdu: "Nə üçün bir dəstə adam Əlinin haqqında pis danışır? Məqsədləri nədir? Əliyə kin bəsləyən şəxs mənə kin bəsləmiş olur. Əlidən ayrılan şəxs məndən ayrılmışdır. Əli məndəndir və mən ondanam. O mənim gilimdən (torpağımdan) yaranmışdır, mən də İbrahimin gilindən (torpağından) və mən İbrahimdən üstünəm. Elə nəsillər vardır ki, biri digərindən*

[1] İbn Hişam, "Peyğəmbərin həyatı"-Əbu Bəkrin Həcc qafiləsi" fəsli
[2] "Peyğəmbərin həyatı", Əbu Bəkrin həcc əmirliyi "fəsli
[3] №78

alınmışdır. Allah eşidən və biləndir. Ey Bureydə, məgər bilmirsənmi ki, Əlinin o kənizdən də çox payı vardır.Ona mən icazə vermişəm,çünki, o məndən sonra sizin vəlinizdir."[1]

— Rəvayyəti Təbərani "əl Ausat"[2], Heysəmi "Zəvaid"[3]də nəql etmiş və demişdir: *"Sənəddə bir qrup ravilər var ki,onları tanımıram.Sənəddə olan Hüseyn əl Əşkar alimlərin əksəriyyətinə görə zəif, ibn Hibbana görə isə "siqa"dır."*

Hüseyn ibn Həsən əl Əşkar - Onu Əbu Muammar əl Xuzəi yalançı adlandırmış, Nəsai, Dəraqutni və Əbu Hatim isə qeyd etmişlər ki, o mötəbər deyildir. Buxari onun sual altında olduğunu bildirmişdir. Əbu Zurə onu *"munkər əl hədis"* adlandırmışdır."[4]

95) Əbdulhüseyn yazır: *Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ona dediyi elə sözlərdən bir hədisdə deyilir: "Ey Əli, Allahdan sənin üçün beş şey istədim, onlardan dördünü verdi, birini vermədi... Verdiyi şeylərdən biri bu idi ki, sən məndən sonra möminlərin vəlisi olacaqsan."*[5]

— Rəvayyət yalandır. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə"[6]də uydurma adlandırmış, ibn Cəuzi "İləl" [7] kitabında isə səhih olmayan rəvayyət adlandırmışdır. Xətib əl Bağdadi bu rəvayyəti Əhməd ibn Qalib ibn Əclah ibn Əbdussəlam adlı ravinin təsvirində nəql etmişdir ki, bu ravinin kimliyi bilinsin. Lakin, o bu ravinin mötəbərliyi haqqda bir söz deməmişdir. İbn Qalibdən başqa rəvayyətin isnadında İsa ibn Abdullah ibn Ömər ibn Əli ibn Əbu Talib vardır. Bu ravi heç nəyə dəyməz. İbn Hibban dedi: *"O, atalarına istinad edərək uydurma hekayələr nəql*

[1] Məktub 36
[2] №6085
[3] №14733
[4] "Mizanul itidal", 1/531/№1986
[5] Məktub 36
[6] 4957
[7] 1/246-247/№394

edərdi." Dəraqutni dedi: *"mətruk ravidir"* Əbu Nueym dedi: *"Atalarından münkər rəvayyətlər nəql edərdi.Ondan heç nə yazılmaz."*[1]

96) Əbdulhüseyn yazır: *"Buna oxşar hədisi İbn Sakin, Vəhəb ibn Həmzədən nəql etmişdir. "əs Səhabə" kitabında, Vəhəbin şərhi-halında yazılmışdır ki, Əli ilə səfərə çıxdım, ondan narahatçılıq gördüm. Dedim ki, qayıdanda ondan şikayət edəcəyəm. Qayıdanda Allah Elçisinə şikayət etdim. Buyurdu: Bunu Əli haqqında demə ki, o məndən sonra sizin vəliniz olacaqdır." Təbərani "Kəbir" kitabında Vəhəbdən onu nəql etmiş, yalnız bu fərq ilə ki, orada yazılmışdır: "Bunu Əli haqqında demə.Çünki,o məndən sonra sizə hamıdan daha yaxşıdır."* [2]

— Əbdulhüseyn öz adəti üzrə ibn Hacərin Vəhəbin tərcümeyi halında gətirdiyi ibn Sakinin sözünü ixtisar etmişdir. İbn Hacər yazır: "Vəhəb ibn Həmzə - İbn Sakin dedi: *"O, səhabələrdəndir və onun rəvayyətinin sənədində problem vardır."*[3]

Bu rəvayyətin raviləri haqqında kitablarda müxtəlif zidd fikirlər vardır. "İsabə"də Vəhəbdən Rukeyn nəql edir."Mucəm əl kəbir" [4]də bu ravi Dukeyn kimi qeyd olunur. əl Heysəmi "Məcməu zəvaid"[5]də yazır: *"Təbərani nəql etmişdir. Sənədində Dukeyn adlı ravi vardır. Onu ibn Məin qeyd etmiş, heç kəs onun zəifliyini bildirməmişdir."*

İbn Əbu Hatim bu ravinin izahını "Cərh və tədil"[6] kitabında belə vermişdir: *"Dukeyn Kufi - Vəhb ibn Həmzədən, ondan da Yusif ibn Suheyb nəql etmişdir. Mən bu sözləri atamdan eşitmişəm."*

---

[1] "Silsilə əhadis əd daifə", №4957
[2] Məktub 36
[3] "əl İsabə" 6/223/№9163
[4] 22/135/№360
[5] №14641
[6] №1995

Dukeyn məchul ravidir. Onun səhabə olması da sual altındadır. 38-ci məktubda rafizi "vəli" sözü haqqında araşdırma aparır. Rafizinin gətirdiyi heç bir rəvayyətdə "vəli" və "mövla" sözləri ilə İslam ümmətinə rəhbərlik etmək kimi mənalar verilmir. Yuxarıda da göstərildi ki, bu sözləri Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* hansı səbəblərə görə buyurmuşdu. Müxtəlif söz-söhbətlər, iradlar və ittihamlar Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* çatdıqda o Əlini haqqsız iradlardan qorumaq üçün onu "vəli" vəya "mövla" sözləri ilə tərif etdi. Lüğət alimi Rahib əl İsfəhani "Mufrədat fi qaribul Quran" [1] da deyir: **"Təvəlli və vəla... Bu yaxınlıq mənalarını verir.Yaxınlıq mövqe,qohumluq,din,dostluq,ümumu maraqlara görə ola bilər."**

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözünü sadə bir nümunə ilə də anlamaq mümkündür. Yanınıza sizə çox hörmət edən bir adam gəlir və sizin yaxın adamınızdan şikayət edir. Siz isə onun yersiz irad və ittihamlarına qarşılıq ona deyirsiz: "Əgər sənin üçün mən hörmətli adamamsa, onda sən ona da hörmət etməlisən."

Yuxarıda Buxarinin "Səhih" kitabından Əli ibn Əbu Talibin sözləri nəql olundu və o özü bu ifadələri özünün rəhbərliyə keçidi kimi başa düşməmişdi. 40-cı məktubda rafizi, Sələbinin təfsirindən bizim №90-da müzakirə etdiyimiz rəvayyəti nəql etmişdir.

97) Əbdulhüseyn yazır: *1. Cavabı budur ki, bəzən ərəblər müfrədi cəm halında məna incəlikləri tərkibinə görə işlədir. 2- Bu mənaya sübut Allah Təalanın "Ali İmran" surəsindəki 173-cü ayəsidir ki, orada oxuyuruq: "O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!"deyə cavab verdilər." <u>Bu sözü müfəssirlər, hədis alimləri və xəbər yazanların nəzərinə görə yalnız Nəim ibn Məsud Əşcəi demişdir."</u>*

— Rafizi icma olduğunu deməklə yalan demişdir. İbn Mərdaveyh Əbu Rafidən rəvayyət edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini bir dəstə ilə bərabər Əbu Süfyanı təqib etməyə göndərdi. Yolda "Xuzaa"deyilən yerdə bir

[1] 2/906

bədəvi ilə rastlaşdıqda, onlar ondan Əbu Süfyanın yerini soruşdular. Bədəvi dedi: "Əbu Süfyan toparlanaraq, sizin üzərinizə gəlir." Müsəlmanlar isə dedilər: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!"[1]

Rafizinin istinad etdiyi rəy Mücahid, Muqəttil, İkrimə və Kəlbidən varid olmuşdur. Əgər yalançı kimi Muhəmməd ibn Səib əl Kəlbini və yalançılıqda ittiham olunan Muqəttil ibn Süleymanı çıxsaq, ümumilikdə iki nəfər qalacaqdır. Daha sonra bu məktubda o şiə olan Təbərsinin, mötəzili Zəməxşərinin sözlərini nəql edir ki, bunlar bizə qarşı dəlil deyildir. Lüğəti mənada bir şeyi izah etməmişdən öncə,bu ayənin məhz Əli ibn Əbu Talib haqqında nazil olması haqqında səhih bir xəbərin olduğunu isbat etmək lazım idi. Beləki, bu haqqda olan rəvayyətlər ya zəif, yada uydurmadır.Lüğəti təfsilata getməyə də ehtiyyac yoxdur.

98) Əbdulhüseyn yazır: *Bu ayə öncəki qeyri müsəlmanlarla dostluq etməmək baradə olan ayələrə aid deyil və möminlərin əmirini tərif edən ayələrə şamil olunur.Çünki,burada imamın və əhli beytin vilayətindən və onlara qarşı gələnləri xəbərdarlqı etmədən bəhs olunur.Bunun səbəbi odur ki,bu ayəyə qədər aşağıdakı ayələr nəql olunur:*

"Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatəedəndir, Biləndir." Bu ayədə möminlərin əmirindən söhbət gedir."

— Məsələnin aydın olması üçün ayələrə ümumi konteksdə baxmaq lazımdır. Uca Allah Maidə surəsində buyurur:

51. Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz.

52. Sən qəlbində xəstəlik olanların: "Qorxuruq ki, başımıza bir fəlakət gələ"– deyərək onların Kitab əhli arasında vurnuxduqlarını görürsən. Ola bilsin ki, Allah qələbə bəxş etsin vəya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən peşman olsunlar.

[1] "Əsbab ən nuzul" 1/182-183

53. İman gətirənlər isə deyəcəklər: "Sizinlə bərabər olacaqlarına dair Allahın adı ilə möhkəm and içənlər bunlardırmı?" Onların əməlləri puça çıxdı, özləri də ziyana uğrayanlardan oldular.

54. Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatəedəndir, Biləndir.

55. Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər.

56. Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir.

57. Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın. Əgər möminsinizsə, Allahdan qorxun.

51-ci ayədə Uca Allah qullarına bildirir ki, onlar yəhudi və xristianları özlərinə dost tutmamalıdırlar və 55-ci ayədə isə həqiqi dostların kim olmasını bildirir. Rafizinin guya 54-cü ayənin Əli haqqında nazil olduğunu deməsi isə yalandır.

Dindən dönənlərlərdən bəhs edən ayə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* növbəti möcüzələrindəndir. Beləki, o bununla onun vəfatından sonra dindən dönənlərin olacağını xəbər vermişdir. Çox zaman keçmədi ki, onun vəfatından sonra ərəblərin əksəriyyəti dindən döndülər.

İbn İshaq dedi: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **vəfat etdikdən sonra üç məscid ətrafında olanlardan başqa bütün ərəblər dindən çıxdılar. Bunlar Məkkə,Mədinə və Çuvəs məscidləri idi. Ərəblərin dönməsi iki növ idi. Bir qisim bütünlüklə şəriəti inkar edib, dindən çıxdılar. Digər qismi isə zəkatı verməkdən başqa bütün ehkamları**

qəbul edirdi. Onlar deyirdilər: "Biz oruc tutub, namaz qılacaq, lakin zəkat verməyəcəyik." Əbu Bəkr əs Siddiq onların hamısı ilə savaşdı."[1]

əl Həsən və Qatadə qeyd etmişlər ki, *"Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən" ifadəsi ilə Əbu Bəkr əs Siddiq nəzərdə tutulur. əs Suddi qeyd etmişdir ki, bu ayə ənsarlar barədə nazil olmuşdu."*[2]

Hakim "Müstədrək"[3] də nəql edir ki, "Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən" ayəsi nazil olduqda Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əbu Musa əl Əşariyə işarə edərək, buyurdu: *"Bu sənin qəbiləndir ey Əbu Musa"*

Hakim qeyd etmişdir ki, hədis Muslimin şərtlərinə görə səhihdir və Zəhəbi də bunu təsdiqləmişdir. Təbəri təfsirində[4] Dəhhaqqdan bu ayə haqqında onun belə dediyini nəql etmişdir: *"Burada Əbu Bəkr və səhabələr nəzərdə tutulur. Ərəblər dindən döndükləri zaman İslama qayıdana qədər onlarla Əbu Bəkr və yoldaşları döyüşmüşlər."*

99) Dəccal Əbdulhüseyn öz batil iddialarını isbat etmək naminə Qurani Kərimə kölgə salaraq yazır: *"Quranda bir çox ayələr nazil olma ardıcıllığına görə tərtib olunmamışdır.Həmçinin, zövcələrlə bağlı olan yerdə "təthir" ayəsi göstərilir.Halbuki,səhih məlumatlara görə bu yalnız əhli beytdən olan beş nəfər haqqındadır."*[5]

— Müsəlmanların etiqadına görə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* surələrdə olan ayələri bizim indi gördüyümüz şəkildə tərtib etməyi əmr etmişdir. Qeyd etmək lazımdır ki, digər yerdə Əbdulhüseyn yazır: *"Çox ehtimal ki, Əhli beyt haqqında olan "təthir" ayəsi ayrıca nazil olmuşdu amma, daha sonra Quran ayələri toplananda Peyğəmbərin (sallallahu aleyhi və səlləm) zövcələri ilə əlaqədar olan ayələrin içərisinə ya səhvən,yada bilərək daxil edildi."*[6]

---

[1] Qurtubi , "əl Camiul əhkamul Quran"c.6,səh 286
[2] həm.yer
[3] №3220
[4] №9502
[5] Məktub 44
[6] Musəvi Lari,"İmamət" 19-cu dərs,ingilis dil.

Gördüyümüz kimi o Quranda bilərək, ya da təsadüfən səhvlərin edildiyini iddia edir. Daha sonra biz 48 nömrəli məktubu təhlil edəcəyik ki,əvvəlində yazılmışdır: "Sünnədən dəlil sayıla biləcək 40 hədis."

100) Əbdulhüseyn yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) əlini Əlinin çiyninə qoyub uca səslə dedi: "Bu yaxşıların imamı, pislərin və yolunu azmışların qatilidir. Elə bir şəxsdir ki, ona kömək edən qalib, alçaltmaq istəyən isə alçaldılacaqdır." Bu hədisi Hakim "Müstədrək"in 3-cü cildinin 129-cu səhifəsində Cabirdən nəql etmiş və sonra demişdir: "Bu hədisin sənədi doğrudur. Amma Buxari və Muslim onu nəql etməmişdir."*[1]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[2] də qeyd etdiyi kimi hədis uydurmadır. Hakim bunu "Müstədrək" kitabında sənədində Əhməd ibn Abdullah ibn Yezid əl Hərrani adlı ravinin olduğu isnadla nəql etmişdir ki, o bu rəvayyəti uydurmuşdur." [3]

101) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Əli haqqında üç şey vəhy olmuşdur: "O müsəlmanların ağası, təqvalıların imamı, alnı açıqların və nurluların yolgöstərəni və rəhbəridir." Hakim "Müstədrək"in 3-cü cüzünün 138-ci səhifəsinin əvvəlində bunu nəql etmişdir"*[4]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[5] də qeyd etdiyi kimi hədis uydurmadır və bunu Zəhəbi "Təlxis"də qeyd etmişdir. İbn İmad demişdir: ***"Bu rəvayyət olduqca münkərdir və çox güman ki, bu ifrat şiələrin uydurmasıdır. Belə xüsusiyyətlər Əliyə deyil, Peyğəmbərə*** *(sallallahu aleyhi və səlləm)* ***məxsusdur."***[6]

---

[1] Məktub 48
[2] №357
[3] "Mizanul itidal", 1/109/№429
[4] Məktub 48
[5] №353
[6] "Kənzul ümmal", №33010

Həqiqətən də yalnız Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* möminlərin rəhbəri, imamı və üzü nurlu olanların yolgöstərənidir. Hakim rəvayyəti bu isnadla nəql etmişdir: Amr ibn əl Xasin əl Ukeyli – Yəhya ibn Alə ər Razidən. Dəraqutni Amr haqqında dedi: *"Mətruk ravidir." Onu həmçinin Əbu Zura və Əbu Hatim də tənqid etmişlər."*[1]

Yəhya haqqında isə imam Əhməd demişdir: *"Rəvayyətlər uyduran yalançı idi."* Dəraqutni dedi: *"Mətruk ravidir."*[2]

Bu rəvayyəti Təbərani də nəql etmişdir. əl Heysəmi "Məcməu zəvaid"[3] də yazır: *"Təbərani "əs Saqir"*[4]*də nəql etmiş, sənədində İsa ibn Səvadət vardır və o yalançıdır." İbn Məin də bu ravini yalançı adlandırmışdır."*[5]

"Təbəraninin sənədində ikinci qüsur da vardır. Bu yenə yalançı olan Mucaşi ibn Amrdır."[6]

102) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu:"Müsəlmanların seyyidinə, mənim və təqvalıların imamına mərhəba."*[7]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[8]də qeyd etdiyi kimi rəvayyət uydurmadır. Əbu Nueym bunu "Hillyyətul əvliya"[9] da bu isnadla nəql etmişdir: Əhməd ibn Yəhya – Həsən ibn Hüseyndən – İbrahim ibn Yusif ibn Əbu İshaqqdan – atasından – Şəbidən – Əlidən.

Bu isnadda 4 ciddi qüsur var.

---

[1] "Mizanul itidal", 3/252/№6351
[2] həm.yer 4/397/№9591
[3] №14700
[4] №1012
[5] "Mizanul itidal", 3/312/№6569
[6] həm.yer 3/436/№7066
[7] Məktub 48
[8] №4885
[9] 1/66

1) Həsən ibn Hüseyn - Bu Aruni Kufidir. Şiələrdən olan zəif ravidir. İbn Adiy dedi: *"Onun nəqlləri mötəbər ravilərin nəqqlərinə bənzəmir."*[1]

2) İbrahim ibn Yusif ibn Əbu İshaq - İbn Məin onun "heçnə" olduğunu, Nəsai isə onun güclü olmadığını qeyd etmişdir. Əbu Davud və Cuzədcani onun "zəif" olduğunu söyləmişlər."[2]

3) İbrahim və atası arasında olan ravilər silsiləsi qopuqdur. Əbu Nueym dediyi kimi İbrahim ibn Yusif atasından rəvayyətlər eşitməmişdir."[3]

4) Şabi ilə Əli arasında olan ravi silsiləsi də qopuqdur.

103) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Bu qapıdan daxil olan ilk şəxs pəhrizkarların imamı, müsəlmanların seyyidi, dinin başçısı, xatəmul-vəsiyyin, nurlu üzlülərin rəhbəridir. Əli daxil oldu.Onun haqqında müjdə verən Peyğəmbər (sallallahu aleyhi və səlləm) ayağa durdu, onu qucaqladı, alnının tərini sildi və buyurdu: "Sən mənim borcumu ədа edən, mənim səsimi insanlara çatdıran, ixtilaflarını bəyan edənsən."*[4]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[5] də qeyd etdiyi kimi rəvayyət uydurmadır. Əbu Nueym bunu "Hillyyətul əvliya"[6]da bu isnadla nəql etmişdir: Muhəmmdə ibn Osman ibn Əbu Şeybə - İbrahim ibn Muhəmməd ibn Meymundan – Əli ibn Əyaşdan – Haris ibn Husiratdan – Qasim ibn Cundubdan. Bu isnad tamamən qüsurludur.

1) Qasim ibn Cundub haqqında müsbət vəya mənfi bir rəyin olması bilinmir.

2) Haris ibn Husirat şiələrdən olan ravidir.

---

[1] "Mizanul itidal", 1/483/№1829
[2] həm.yer 1/76/№258
[3] həm.yer 1/76/№258
[4] Məktub 48
[5] №4886
[6] 1/66

3) Belə görünür ki, sənəddə səhvlik olmuş və ibn Əyaş, bu Əli ibn Abisdir. Çünki,mən Haris ibn Husiratı Əli ibn Əyaşın şeyxləri arasında və ondan nəql edənlər arasında isə İbrahim ibn Muhəmmədi tapa bilmədim. Əksinə, bunların hər ikisi Əli ibn Abisin tərcümeyi halında mövcuddurlar."[1]

İbn Məin ibn Abisin "heçnə", Nəsai, Cuzədcani və Yezdi isə "zəif" olduğunu qeyd etmişlər."[2]

4) İbrahim ibn Muhəmməd ibn Meymun. Bu ravi də tənqid olunmuşdur."[3]

5) Muhəmmd ibn Osman ibn Əbu Şeybə haqqında yuxarıda bəhs edildi ki, o ittiham olunmuşdur. Bənzər rəvayyəti yalançı Cabir əl Cufi Əbu Tufeyldən nəql etmişdir.

104) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Allah mənə belə tövsiyyə etdi ki, Əli hidayət bayrağı, dostlarımın imamı, mənə itaət edənlərin nurudur. O elə bir "sözdür" ki, təqvalılar ona əməl etməlidir."*[4]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[5]də qeyd etdiyi kimi rəvayyət uydurmadır. Əbu Nueym bunu "Hillyyətul əvliya"[6]da bu isnadla nəql etmişdir: Abbad ibn Səid ibn Abbad əl Cufi – Muhəmməd ibn Osman ibn Əbu Bəhluldan – Saleh ibn Əbu Əsvəddən – Əbul Muttəhar ər Razidən - əl Əşas əs Səqəfidən – Salam əl Cufidən.

Demək olar ki,Salehdən başqa bütün ravilər məchuldur. Saleh isə Zəhəbinin "Muğni fi duafa"[7] da qeyd etdiyi kimi "münkər əl hədis"dir. İbn Əsakir "Tarix"[8] kitabında bənzər rəvayyəti Ömər ibn Əlidən nəql etmişdir ki, onun

[1] Təhzib əl kəmal", 20/№4093

[2] "Mizanul itidal", 3/134/№5872

[3] Zəhəbi "Muğni fi duafa", №170

[4] Məktub 48

[5] №4887

[6] 1/66-67

[7] №2815

[8] 42/270

sənədində Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafi vardır. Bu rəvayyəti nəql etdikdən sonra ibn Əsakir yazır: *"Sənəd qopuqdur."* Qeyd etmək lazımdır ki, ibn Əbu Rafi olduqca zəif bir ravidir.

Musəvinin haşiyədə işarə etdiyi Ənəsin hədisinə gəlincə, Əbu Nueym bunu "Hillyyətul əvliya"[1] da bu isnadla nəql etmişdir: Ləhz ibn Abdullah – Mutəmmər ibn Süleymandan – atasından – Hişam ibn Urvədən – atasından. İbn Adiy Ləhz baradə deyir: "Məchul olan Bağdadlıdır. Mötəbər ravilərə istinad edərək münkər rəvayyətlər nəql edərdi."[2]

Həmçinin, Xətib "Tarix[3] də bu ravinin məchul və etimad olunmayan ravi olduğunu qeyd etmişdir. Əbdulhüseyn bu altı uydurma vəyalan rəvayyəti nəql etdikdən sonra yazır: *"Gördüyün kimi bu altı hədis onun imaməti və ona itaətin vacibliyi haqqındadır."*

Bu rafizilərin dəlillərinin dəyəri və bu əsas üzərində tikdikləri saman çöpündən ibarət olan evləridir. Yalandan, təhrifdən, kindən və nifaqdan ibarət olan əsas. Əziz oxucu! Sən bu altı yalan rəvayyətin haqq tərəzisində olan dəyərinin şahidisən.

105) Əbdulhüseyn rafizi əl Musəvi daha sonra yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) əli ilə Əlini göstərərək buyurdu: "Bu mənə iman gətirmiş ilk şəxsdir və birinci adamdır ki, qiyamətdə mənimlə görüşəcəkdir. Bu, böyük vəfadar və ümmətin faruqudur – haqqı batildən ayırır və möminlərin başçısıdır."*[4]

— Hədis səhih deyil. Bəzzar bu rəvayyəti "Musnəd"[5] də Əbu Zərdən nəql etmişdir. Şəukani "Fəvaid"[1]də yazır: "Bəzzar bu rəvayyəti Əbu Zərdən mərfu şəkildə nəql etmişdir. ***Sənədində Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafi vardır. O, rəvayyətlərin uydurulmasında ittiham olunmuşdur. Abbad isə nəqqləri zəif olan rafizidir."***

[1] 1/66
[2] "Mizanul itidal", 4/356/№9440
[3] 14/98/№7441
[4] Məktub 48
[5] №3898

Təbərani “əl Kəbir”[2]də Salmandan rəvayyət etmişdir. Sənəddə əl Heysəminin “Məcməu zəvaid”[3] də “zəif” olaraq qeyd etdiyi Amr ibn Səid vardır. İbn Adiy “Kamil”[4] kitabında bu rəvayyəti ibn Abbasdan nəql etmişdir ki, sənədində Abdullah ibn Dəhr və atası mövcuddur. İbn Adiy Yəhya ibn Məin ibn Dəhr haqqında “heçnədir” təlifi vermişdir. Abdullah ibn Dəhr bu rəvayyəti rafizi olan atasından nəql etmişdir.”[5]

Ukeyli bu rəvayyəti Dəhr ibn Yəhyanın tərcümeyyi halında “Duafa”[6]da nəql etmiş və qeyd etmişdir ki, Dəhr nəqllərinə etimad edilməyən ifrat rafizi olmuşdur. Əbu Nueym “Mərifət” və ibn Əsakir “Tarix”[7] də Əbu Leylət əl Qifaridən nəql etmişlər ki,sənədində İshaq ibn Bişr vardır. İbnul Əsir “Usudul qabə” kitabında Əbu Leylinin tərcümeyyi halında yazır:

“Əbu Ömər dedi: “İshaq ibn Bişrə tək başına nəql etdiyi rəvayyətlərdə onun zəif və münkər nəqllər etdiyinə görə güvənilməz.”

İshaq çox güman ki, Əbu Huzeyfə əl Buxaridir. Dəraqutni və Əli ibn Mədiniyə görə yalançıdır.”[8]

Bu rəvayyəti İshaqqdan nəql edən İbrahim ibn Süleyman ibn Əlinin tərcümeyyi halına rast gəlmədim.

---

[1] səh 443/№45
[2] №6184
[3] 9/102
[4] 4/228/№1046
[5] “Mizanul itidal”, 2/3/№2587
[6] 2/№477
[7] 42/450
[8] “Mizanul itidal”, 1/184/№739

106) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Ənsar əhli! İstəyirsinizmi sizə elə bir şəxsi göstərəm ki, ona arxalanıb, heç vaxt yolunuzu azmayasınız? O, Əlidir. Məni sevdiyiniz qədər onu sevin, mənə etdiyiniz hörmət qədər ona ikram və hörmət edin. Çünki, sizə dediklərimi Cəbrail Allah tərəfindən mənə vəhy edib."*[1]

— Şeyx Albaninin "Silsilə əhadis əd daifə"[2]də qeyd etdiyi kimi rəvayyət uydurmadır. Muttəqi "Kənzul ümməl"[3]də bu rəvayyəti nəql etdikdən sonra ibn Kəsirin sözünü sitat gətirir: **"bu rəvayyət münkərdir"**

Təbərani "əl Kəbir"[4], Əbu Nueym "Hillyyətul əvliya"[5] da rəvayyəti bu isnadla nəql etmişlər: Muhəmməd ibn Osman ibn Əbu Şeybə - İbrahim ibn İshaq əs Sinidən – Qeys ibn ər Rabiədən – Leys ibn Əbu Suleymdən – Əbu Leylidən – Həsən ibn Əlidən: Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu:

"Mənə ərəblərin ağasını çağırın. Yəni, Əli ibn Əbu Talibi. Aişə soruşdu: "Məgər sən ərəblərin ağası deyilsən?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: "Mən Adəm övladlarının ağasıyam, Əli isə ərəblərin." Əli gəldikdə Peyğəmbər (sallallahu aleyhi və səlləm) ənsarlara buyurdu: "İstəyirsinizmi sizə elə bir şəxsi göstərəm ki, ona arxalanıb, heç vaxt yolunuzu azmayasınız? O, Əlidir. Məni sevdiyiniz qədər onu sevin, mənə etdiyiniz hörmət qədər ona ikram və hörmət edin. Çünki, sizə dediklərimi Cəbrail Allah tərəfindən mənə vəhy edib."

Rəvayyətin sənədi olduqca zəifdir.

1) Muhəmməd ibn Osman ibn Əbu Şeybə - Onun baradə alimlərin rəyləri fərqlidir. Abdullah ibn Əhməd ibn Hənbəl və ibn Hiraş onu yalanda ittiham etmişlər." [6]

---

[1] Məktub 48
[2] №4890
[3] №33007
[4] №2749
[5] 1/63
[6] "Mizanul itidal", 3/642/№7934

2) İbrahim ibn İshaq əs Sini. Dəraqutni dedi: *"Mətruk əl hədis"*[1]

3) Qeys ibn Rabiə - İbn Məin dedi: *"zəifdir"*. İmam Əhməddən bu ravinin nəqllərini niyə yazmadığını soruşduqda o demişdi ki, Qeys zəif yaddaşı olan şiə idi ki, nəqllərdə səhv edərdi. Onu ibn Mədini, Dəraqutni və Vəkiyyə zəif hesab etmişlər. Nəsai dedi: *"Mətruk ravidir"*[2]

4) Leys ibn Əbu Suleym doğru ravidir amma, zəif yaddaşına görə zəif hesab olunmuşdur.

107) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mən elmin şəhəri, Əli isə onun qapısıdır.Kim elm istəyirsə,bu qapıya gəlsin." Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir: "Mən hikmət evi,Əli isə onun qapısıdır."*[3]

— Biz bu rəvayyətləri bir çox alimlərin etdiyi kimi bir yerdə təhlil edəcəyik. Çünki, bunlar eyni hədisin iki ayrı versiyasıdır ki, onlardan heç biri səhih deyildir. Səid Mahmud Alusi "Tuhfə isna əşariyyə" kitabında yazır: ***"Yəhya ibn Məin bu rəvayyət haqqında demişdir: "Heç bir əsası yoxdur."***[4]

Buxari: ***"Rəvayyət münkərdir, onda səhih heç nə yoxdur."*** Tirmizi: ***"qərib və münkər."*** Bu sözləri imam Tirmizi həmin bu rəvayyəti nəql etdikdən sonra yazır.

İbn Cəuzi: ***"uydurmadır"***, İbn Dəhiq əl İyad: ***"təsdiq olunmamışdır"***

Səid Mahmud Alusi "Tuhfə isna əşariyyə" kitabında yazır: ***"Nəvəvi, Zəhəbi və Cəzairi də bunun uydurma olduğunu qeyd etmişlər."***[5]

Dəraqutni "İləl" kitabında yazır: ***"Hədis dolaşıqdır və əsli yoxdur."*** Əbu Hatim və Yəhya ibn Səid dedilər: ***"bunun əsası yoxdur"***[1]

---

[1] həm.yer 1/18/№31
[2] həm.yer 3/393/№6911
[3] Məktub 48
[4] Məvdudi, "Rəsail vəl məsail" 3/169
[5] səh 203,12-ci fəsil,hədis №5

İbn Cəuzi yazır: ***"Bu rəvayyət bütün isnadlara əsasən səhih deyildir."***[2]

İbn Adiy deyir: *"Bu rəvayyət qondarmadır. Əbu Salt (Əbdussalam ibn Salih) bunu uydurmuş, ondan da bir qrup bunu oğurlamışlar."*

İbn Hibban deyir: *"Bunun Rəsulullahdən (sallallahu aleyhi və səlləm) varid olan əsli yoxdur və bu ibn Abbas, Mücahid və Əmaş tərəfindən nəql olunmamışdır. Bu Əbu Müaviyənin də nəqli deyildir. Bu mətnlə rəvayyəti nəql edənlər onu Əbu Saltdan oğurlamışlar və ravi isnadını təhrif edərək, uydurmuşlar. "Əhməd ibn Hənbəldən bu hədis haqqında soruşduqda o demişdir: "Allah Əbu Salta lənət etsin."*[3]

Haşiyədə Musəvi Təbəraninin "Kəbir" və Hakimin "Müstədrək"kitablarına istinad edir. "Kəbir"[4], "Müstədrək"[5] və Təbərinin "Təhzib əl əsər" kitablarında bu rəvayyət aşağıdakı isnadla nəql olunur: Əbdussalam ibn Saleh əl Hərvi – Əbu Müaviyədən - əl Əmaşdan – Mücahiddən – ibn Abbasdan. Ravi silsiləsi olduqca zəifdir, əsas problem Əbdussalam ibn Salehdir.

əl Heysəmi yazır: ***"Təbərani nəql etmişdir, sənədində zəif olan Əbdussalam ibn Saleh əl Hərvi vardır."***[6]

Əbul Həsən Əli ibn Muhəmməd ibn əl Ərraq əl Kinani "Tənziru şəriyyə"[7] də yazır: ***"Əbdussalam ibn Salih Əbu Salt əl Hərvi. Onu yalançılıqda bir çox alim ittiaham etmişdir."***

---

[1] Əcluni, "Kəşful həva" №618
[2] "Məvdua",c.1,səh 353
[3] "Məvdua",c.1,səh 354
[4] №11061
[5] №4637
[6] "Zəvaid",№14670
[7] 1/79/№166

Əbu Abdullah əl Hakim ən Neysəburi "əl Mədhal ilə səhih"[1]kitabında yazır: *"Əbdussalam ibn Salih Əbu Salt əl Hərvi. Həmmad, ibn Ziyad, Əbu Müaviyə, Əbbad ibn əl Əvvamdan münkər olan rəvayyətlər nəql etmişdir."*

Bu sözləri həmçinin, Əbu Nueym əl İsfəhani "Kitabu duafa"[2] kitabında da qeyd etmişdir. Ukeyli onun haqqında: *"o ifrat rafizidir"*, İbn Adiy: *"Yalanda ittiham olunub"*, Nəsai: *"sadiq deyil"* Dəraqutni dedi: *"Rəvayyət uydurmada ittiham olunan xəbis rafizidir."*[3]

Zəkəriyyə əs Səcdi dedi: *"Münkər rəvayyətlər nəql edərdi və onlara görə o zəifdir."* Ukeyli də onu yalançı adlandırmışdır. Nəqqaş dedi: *"münkər nəql edərdi"*. Muhəmməd ibn Təhhar dedi: *"yalançıdır"*[4]

Hafiz əl Xəlili "İrşad" [5]da yazır: *"O onlara görə mötəbər deyildi."* İmam Zeylai "Nəsbu rəy" (1/345), ibn Rəcəb "Fəthul bəri" (6/412),ibn Hacər "Təhric əhadis kəşşaf" (2/465)-da dedilər: *"mətruk ravidir"*

Digər problem isə Əmaşın tədlisidir. Beləki, o bunu nəql edərkən özünün bunu birbaşa eşidib, eşitmədiyini qeyd etməmişdir. O, bunu Mücahidə isnad etmişdir. Yəqub əş Şeybə dedi: "Mən Əli Mədinidən soruşdum: "Əmaş Mücahiddən neçə dənə hədis eşitmişdir?" O dedi: "Əmaşın Mücahiddən etdiyi nəqllər təsdiq olunmamışdır. Onun "mən eşitdim ki, o demişdir" deyərək etdiyi nəqllər istisnadır." Əmaşın Mücahiddən etdiyi nəqllər Yəhya əl Qəttandan gəlir."[6]

[1] №139
[2] №140
[3] "Mizanul itidal", №5051
[4] "Təhzib ət təhzib", 6/286
[5] 3/873
[6] "Təhzib ət təhzib", 4/197

Yəhya ibn Səid əl Qətttan dedi: *"Mən Əmaşın Mücahiddən etdiyi nəqqləri yazırdım. Onların hamısını o birləşdirib, o özü ondan heçnə eşitməmişdir."*[1]

Hakimin ikinci isnadında (№4638) Muhəmməd ibn Əhməd ibn Təmim əl Qəntari. İbn Furas qeyd etmişdir ki,onda zəiflik vardır."[2]

Bu isnadda həmçinin, Hüseyn ibn Fəhm də vardır. Dəraqutni və Hakim onun mötəbər olmadığını bildirmişlər.Bu isnadda üçüncü problem yenə də Əmaşın Mücahiddən etdiyi nəqldir. Bu haqqda biz yuxarıda bəhs etdik. Hakim bu rəvayyəti üçüncü isnadla (№4639) Cabirdən nəql etmişdir. Sənəddə Zəhəbinin qeyd etdiyi kimi dəccal və yalançı olan Əhməd ibn Abdullah ibn Yezid əl Hərrani adlı ravi vardır. İbn Əsakir "Tarix" (42/378), Əbu Nueym "Mərifət"-də bunu Əlidən bu isnadla nəql etmişlər:

"Şərik – Sələmə ibn Kuheyl – Sənabihi – Əli. Sələmə ibn Kuheyl Sənabihidən nəql edir. Dəraqutni dedi: "Hədis dolaşıqdır və Sələmənin Sənabihidən nəsə eşitməsi təsdiq olunmamışdır."[3]

Şəukani "Fəvaid"də yazır: "əl Xətib,Təbərani, ibn Adiy,Ukeyli bu hədisi ibn Abbasdan mərfu şəkildə nəql etmişlər. Xətibin sənədində Cəfər ibn Muhəmməd əl Bağdadi vardır ki,o ittiham olunmuşdur."

Xətibin sənədində bu ravi Əbu Müaviyədən nəql edir. Rəvayyətin nəqlindən sonra yazılır: "Bu hədisi Əbu Müaviyədən heç bir mötəbər ravi nəql etməmişdir."[4]

Bu sözlərlə Xətib qeyd etmişdir ki, Cəfər ibn Muhəmməd əl Bağdadi etimad olunmayan ravidir. Zəhəbi "Mizanul İtidal"[5] da bu ravinin məchul olduğunu bildirmişdir. Sonra o bu rəvayyəti nəql etmiş və onun uydurma

[1] İbn Əbu Hatim ,"Cərh və tədil" 1/241
[2] "Lisanul mizan", 5/49/№166
[3] "Məvdua" c.1,səh 353
[4] "Tarix", 7/172
[5] 1/415/№1525

olduğunu qeyd etmişdir. Təbəraninin sənədində Əbu Salt əl Hərvi vardır. O,bu rəvayyəti uyduran şəxsdir. İbn Adiyin sənədində isə Əhməd ibn Sələməh əl Curcani vardır ki,o mötəbər ravilərə istinad edərək yalan rəvayyətlər nəql edərdi. Ukeylinin sənədində yalançı olan Ömər ibn İsmail ibn Mucəlləd adlı ravi vardır. İbn Hibbanın sənədində isə nəqlləri dəlil hesab olunmayan İsmail ibn Muhəmməd ibn Yusif adlı ravi vardır. Bu rəvayyəti həmçinin, ibn Mərdaveyh Əlidən mərfu şəkildə nəql etmişdir. Onun ravi isnadında olan ravilərin bir qisminin nəqlləri qəbul edilmir. İbn Adiy yenə bu rəvayyəti Cabirdən mərfu şəkildə nəql etmişdir. Mətn belədir: "Əli yaxşıların əmiri, fasiqlərin qatili, ona yardım edənlərin həmdəmi, onu tərk edənləri isə tərk edəndir. Mən elmin şəhəri, Əli isə onun qapısıdır. Kim elm istəyirsə,bu qapıya gəlsin."

Şəukani davam edərək yazır: "Qeyd olunmuşdur ki,bu hədisin əsli yoxdur və o səhih deyildir.İbn Cəuzi bu rəvayyəti "Məvdua" kitabında bir neçə isnadla nəql etmiş və qeyd etmişdir ki, bütün isnadlar səhih deyildir. Onunla Zəhəbi və digər alimlər razılaşmışlar."[1]

Alimlər arasında bu rəvayyəti səhih və həsən hesab edənlər olmuşdur. Heç kəs ideal deyil və hər kəs səhv edə bilər. Hətta, ravi isnadlarını təhlil etməmiş də mətnə müraciət etsək görərik:

Birincisi, Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* elm dəryasına bənzətmək daha münasib olardı. İkincisi, əgər o elm şəhəri və Əli qapı ilə vəsfləndirilirsə, bu o deməkdir ki, elmi ondan başqasından əxz etmək olmaz?! Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* elmini digər səhabədən alan şəxs qapını qoyub, şəhərin hasarından içəri girmiş sayılır? Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* elm mirasını yalnız bir adamla əlaqələndirmək, digər səhabələrdən varid olan sünnənin əksəriyyətini tərk etmək mənasına gəlir. Əli heç vaxt yalnız özünə aid olan xüsusi elmə sahib olduğunu bəyan etməmişdir. İmam Buxari nəql edir ki, Əli buyurdu:

"Bizdə Allahın kitabından və Peyğəmbərdən** (sallallahu aleyhi və səlləm) **qalan bu kağızdan başqa heçnə yoxdur. Orada yazılıb: "Mədinə Əir dağından filan yerə qədər haram bölgədir və burada günah edən və günah edənə himayədarlıq

[1] "Fəvaid",səh 445,ixtisarla

edən Allah, mələkləri və bütün insanların lənətinə gəlmişdir. Ondan nə vacib, nə də müstəhəb əməllər qəbul olunmaz....” [1]

Şiə mənbələrində də Əlinin *(radiyallahu anhu)* xüsusi bir elmə sahib olmadığına dair dəlillər vardır. Xaricilər Əlinin (radiyallahu anhu) yanına gəlib Osmandan *(radiyallahu anhu)* şikayət edəndə, o Osmanın yanına gəlib, belə demişdi:

“Arxamdakı adamlar məni səninlə özləri arasında səfir etmişlər. Allaha and olsun ki, bilmirəm sənə nə deyim. Elə bir iş yoxdur ki, mən bilim, sən yox. Biz nəyi bilirik, sən də bilirsən. Bir şeydə səndən irəlidə deyilik ki, sənə onun haqqında məlumat verək. Səndən bir şey də gizlətməmişik ki, indi onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi də eşitmisən, sən də Allahın elçisinin səhabələrindən olmusan.”[2]

Həmçinin, bəhs etdiyimiz rəvayyətin doğru olmadığnı təsdiq edən digər dəlil vardır.Rəvayyət olunur ki, Əli ibn Əbu Talib dedi: **“Məndən məzi çox gələrdi. Qızının (Fatiməni nəzərdə tutur) atasının yanında olan (yüksək) məqamına görə Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **(bunun hökmünü) soruşmağı utanırdım. Miqdad bin Əsvada tapşırdım, o da soruşdu. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Övrət yerini yusun və dəstəmaz alsın.”**[3]

Bu hədisi Buxari “Səhih”, Nəsai “Sunən” kitabında nəql etmişlər.

Əgər biz “elm şəhəri” hədisini səhih qəbul etsək, onda sual yaranır. Niyə görə “şəhərin qapısı” sayılan Əli ibn Əbu Talib “elm şəhərinə” yəni, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* digər qapı ilə yəni, Miqdadın vasitəsi ilə müraciət etdi? Bu hədis şiə mənbələrində də mövcuddur. Bunu Hurr Amili “Vəsailuş şia” (1/278/№7 (731) və Tusi “İstibsar” (1/91/№2 (292) kitablarında qeyd etmişlər.

[1] Zubəydi ,“Muxtəsər Səhih Buxari” № 856. (1870)
[2] “Nəhcul Bəlağə”, səh 234 tərcümədə səh 169, Tehran çapı, 1995
[3] Muslim, "Səhih", "Kitəbul həyz", 17

108) Rafizi yazır: *Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Sən, məndən sonra ümmətimə ixtilaflı olan hər bir şeyi bəyan edəcəksən."*[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4891) də uydurma adlandırmışdır. Hakim bu rəvayyəti "Müstədrək" kitabında sənədində Dirar ibn Surad adlı ravinin olduğu isnadla nəql etmişdir. Nəsai "Duafa" (№310)-da qeyd etmişdir ki, bu ravinin rəvayyətləri mətrukdur. İbn Məin Dirarı yalanda ittiham etmişdir."[2]

109) Rafizi yazır: *İbn Səmmak Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sözünü Əbu Bəkrdən "mərfu" şəkildə nəql etmişdir: "Əli ilə mənim nisbətim, mənim Allahla olan nisbətim kimidir"*[3]

— Haşiyədə rafizi ravi isnadı olmayan Səvaiq kitabını qeyd edir. Bu rəvayyətin heç bir sənədini tapmaq mümkün olmadı.

110) Rafizi yazır: Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: *"Əli ibn Əbu Talib bağışlanma qapısıdır.Bu qapıdan içəri girən mömindir.Ondan çıxan isə kafirdir."*[4]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (3913) də uydurma adlandırmışdır. Əcluni "Kəşful həva" (1/236)-da dedi: "Ravi isnadı zəifdir." Səhəvi "Məqasid" (124)-də dedi: ***"Ravi isnadı olduqca zəifdir."***

İbn Cəuzi "İləl"[5]də bu rəvayyəti Dəraqutninin isnadı ilə nəql etmiş və demişdir: *"Dəraqutni dedi: Hüseyn əl Əşkar Şərikdən nəql etdiyi bu rəvayyətin isnadında tək qalmışdır və o mötəbər deyildir. Buxari dedi: "Hüseyndə qeyri müəyyənlik vardır." İbn Adiy dedi: "Münkər rəvayyətlər nəql edərdi." Zənnimcə bu rəvayyətdə olan problem bu ravidədir. Əbu Muammər əl Xuzəli onun yalançı olduğunu qeyd etmişdir."*

---

[1] Məktub 48
[2] İbn Hibban "Məcruhin" 1/380/№515
[3] Məktub 48
[4] Məktub 48
[5] 1/241/№384

111) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) son Həcc səfərində Ərafada buyurmuşdu: "Əli məndən, məndə Əlidənəm. Mən və Əlidən başqa heç kəs (risaləti) çatdırmamalıdır."*[1]

Haşiyədə o yazır: *"İbn Macə özünün "Sunən"ində "Fəzaili-səhabə" babının 92-ci səhifəsində və Tirmizi, Nisai öz "Səhih"lərində onu nəql etmişlər və bu, "Kənzul-Ümmal"ın 3-cü cildinin 153-cü səhifəsindəki həmin 2531-ci hədisdir. İmam Əhməd onu Həbəşi ibn Cənadədən "Musnəd"inin 4-cü cildinin 164-cü səhifəsində hamısı səhih olan çoxlu isnadlarla nəql etmişdir."*

— Birincisi,imam Nəsainin "Səhih" adlanan kitabı yoxdur. Cahil bu kitabı ona görə səhih adlandırır ki, oxucu orada yazılanların hamısının səhih olduğunu güman etsin. İbn Macə bu rəvayyəti "Sunən" (№119) də aşağıdakı isnadla nəql etmişdir: Şərik – Əbu İshaq – Həbəşi ibn Cənadə.

Tirmizi "Sunən" (№3719)-də bu isnadla nəql etmişdir: Şərik - Əbu İshaq - Həbəşi ibn Cənadə. Nəsai "Sunən əl kubra" (№8147) da bu isnadla nəql etmişdir: İsrail – Əbu İshaq - Həbəşi ibn Cənadə.

Əhməd "Musnəd"[2] də bu isnadla nəql etmişdir: İsrail – Əbu İshaq - Həbəşi ibn Cənadə. Şueyb Arnaut "Musnəd"ə olan şərhində 17545, 17546, 17547 nömrəli hədislərin zəif olmasını qeyd etmişdir. №17540-li hədis haqqında o deyir: **"Ravi silsiləsi zəifdir, mətn münkərdir.Əbu İshaq öz tədlisi ilə məşhurdur."**

Tirmizi və ibn Macənin kitablarında keçən rəvayyətlər isə şeyx Albaninin dediyinə görə həsəndir.Bu rəvayyətlərin heç birində deyilmir ki,bu sözlər Ərafa günü buyrulmuşdur.Bu isə rafizinin növbəti yalanıdır.

"Musnəd"də yalnız deyilir ki, Həbəşi vida həccində iştirak etmişdir. Əbdulhüseyn özü öz yalanını təkzib edərək yazır:

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* son həcci zamanı Ərafada buyurdu: *"Əli məndən,məndə Əlidənəm. Mən və Əlidən başqa heç kəs (risaləti) çatdırmamalıdır." Bu hədisin mənbələrinə müraciət etsən,görərsən ki,bu Peyğəmbərin (sallallahu*

[1] Məktub 48
[2] №17540, 17547

aleyhi və səlləm) son həcc səfəri zamanı deyilmişdi.Qeyd etmək lazımdır ki,bundan az zaman öncə Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrə "Bəraət" surəsinin 10 ayəsini vermişdi ki,o bunu Məkkəlilərə çatdırsın.Lakin,daha sonra Əhmədin "Musnəd"in birinci cildinin 151-ci səhifəsində deyildiyi kimi Əlini çağıraraq dedi: "Əbu Bəkrə yetiş və ondan məktubu al.Məktubu özün Məkkəyə apar və onlara oxu." Əli Əbu Bəkrə "Cuhfə"-də çatdı və məktubu ondan aldı.Əhmədin dediyinə görə Əbu Bəkr Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına qayıdaraq dedi: "Mənim baradə ayəmi nazil oldu?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Xeyr" Lakin,Cəbrayıl mənə dedi ki,bunu ya sən,yada səndən olan biri etməlidir."

— Söhbət Əbu Bəkrin həcc səfəri zamanı müsəlmanların əmiri olaraq təyin edilməsi hadisəsindən gedir. Safiurahmən "Sirə" kitabında yazır: *"Ərəblər hər zaman iddia edirdilər ki, onlar İbrahimin dinini icra edirlər və bu dinin mühüm icraatlarından biri də Allahın evi olan Kəbəyə hər il həcc etməkdir. Onlar bu ziyarətə çox böyük önəm verirdilər amma, bununla yanaşı bu ibadətə çoxlu yeniliklər gətirmiş və təhriflər etmişdilər. Hicri 8-ci ildə müsəlmanlar Məkkəyə hakim olduqdan sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) Məkkədə Əttab ibn Useydi vali təyi etdi. Onun həcc səfəri zamanı onunla birlikdə müsəlman olmayan müşriklər də bu mərasimdə iştirak edirdilər. Onlar cahiliyyə dövründə olduğu kimi həcc edirdilər.* ***Lakin, hicri 9-cu ildə Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***Əbu Bəkri*** *(radiyallahu anhu)* ***həcc səfərinə çıxan müsəlmanlara əmir təyin etdi və həcc mərasimləri zamanı möminlərə rəhbərlik etməyi tapşırdı.*** *Bundan sonra Əbu Bəkr hicri 9-cu il,zilqadə ayının sonunda 300 nəfərdən ibarət olan həcc qafiləsi ilə bərabər Mədinədən yola düşdü. Özü ilə bərabər o Peyğəmbərin (sallallahu aleyhi və səlləm) 20 qurbanlıq dəvəsini və öz adından qurban kəsəcəyi 5 dəvəni aparırdı. Bundan bir müddət sonra Tövbə surəsinin ayələri nazil oldu ki, orada bağlanmış amma, müşriklər tərəfindən pozulan sazişlərin pozulmasına icazə verilirdi. Onlara və müsəlmanlarla heç bir sazişi olmayan müşriklərə 4 ay müddətində sərbəst gəzmə rüsxəti verilirdi. Bu ona görə edilir ki, onlar Allahın gücünün nəyə qadir olduğunu anlasınlar və bilsinlər ki,Allah mütləq kafirlərə qullarının əli əzab verəcəkdir.*

Həmçinin, müsəlmanlara müşriklər tərəfindən pozulmayan, onların əleyhinə heç kimə yardım etməyən müşriklərlə bağlanmış sazişlərə əməl etməyə çağrılırdı. Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlini (radiyallahu anhu) yeni ayələrlə göndərdi və tapşırdı ki, həcc mərasimi zamanı bu ayələri insanlara çatdırsın. Əli Əbu Bəkr (Allah onların hər ikisindən razə olsun) ilə rastlaşdığı zaman Əbu Bəkr ondan soruşdu: ***"Başçı kimi gəlmisən?" Əli isə dedi ki, başçı Əbu Bəkr olacaq və həcc günləri zamanı onun arxasında namaz qıldı.*** *Əbu Bəkr (radiyallahu anhu) həcc mərasimi zamanı müsəlmanların əmiri oldu və onların*

rəhbərlik etdi. Qurbanlıq günü çatdıqda isə Əli (radiyallahu anhu) Minada Tövbə surəsinin ilk ayələrini oxudu. Bundan sonra Əbu Bəkr (radiyallahu anhu) iki carçıya tapşırdı ki, insanlara bəyan etsinlər ki,gələn ildən etibarən müşriklərə həcc etmək yasaq elan olunur və bundan sonra Kəbəni çılpaq təvaf etmək qadağandır."[1]

Məhz, hicri 9-cu ildə Əli ibn Əbu Talib Tövbə surəsinin ayələrini Əbu Bəkrin həcc əmirliyi zamanı bəyan etmək məqsədi ilə göndərilmişdi. Elə bu il ***"Əli məndən,məndə Əlidənəm.Mən və Əlidən başqa heç kəs (risaləti) çatdırmamalıdır."*** sözləri deyilmişdi. Son həcc səfəri isə hicri 10-cu ildə icra edilmişdi. Beləliklə biz növbəti dəfə Əbdulhüseynin *"Əli məndən,məndə Əlidənəm.Mən və Əlidən başqa heç kəs (risaləti) çatdırmamalıdır."* sözlərinin son həcc səfəri zamanı deyildiyini deməklə yalan danışdığının şahidi olduq. Niyə məhz Əli ayələrin bəyan edilməsi üçün göndərildi sualına gəlincə isə ərəblərin adətinə görə iki tərəf arasında bağlanmış sazişi ya tərəflərdən biri,ya da onu əvəz edən qohum adam poza bilər."

112) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurub: "Mənə kim itaət etsə, Allaha itaət edər. Mənə qarşı üsyan edən Allaha qarşı üsyan və itaətsizlik etmişdir. Əliyə itaət edən mənə itaət etmiş və ona itaətsizlik edən mənə itaətsizlik etmişdir." Hakim "Müstədrək"in 3-cü cildinin 121-ci səhifəsində onu nəql etmiş və Zəhəbi "Təlxis"in həmin səhifəsində onu nəql etmiş və qeyd etmişdir ki,Buxari və Muslimin şərtlərinə görə hədis səhihdir."*[2]

— Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (№4892)-də zəif adlandırmışdır. Birincisi, Hakim və Zəhəbi rəvayyətin iki şeyxin qaydalarına görə səhih olduğunu deməmişlər. Hakim demişdir ki, rəvayyətin ravi silsiləsi səhihdir amma, onlar bunu nəql etməmişlər, Zəhəbi deyib: "Səhihdir."

[1] "Peyğəmbərin həyatı",Əbu Bəkrin həcc əmirliyi "fəsli

[2] Məktub 48

Heç kəs qüsursuz deyil. Hər iki alim xəta etmişlər. Bu rəvayyətin sənədində Yəhya ibn Yalə vardır. Şeyx Albani qeyd etmişdir ki, bu Əslamidir. Əbu Hatim bu ravini zəif adlandırmışdır. Zəhəbinin yazdığına görə Buxari bu ravinin rəvayyətlərinin dolaşıq olduğunu qeyd etmişdir."[1]

Eyni dövrdə bu adda iki ravi yaşamışdır. Biri Əsləmi ki, o zəifdir, digəri isə Teymi ki, o siqadır. Həsən ibn Həmmad (sənəddə adı keçən növbəti ravi) hər iki ravidən nəql etmişdir.Mövcud problem sənəddə olan Yəhyanın şeyxi tərəfindən çözülür. İbn Yəla bu rəvayyəti Bəsama ibn Abdullah əs Seyrafidən nəql etmişdir. İbn Adiy "Kamil" (7/233) kitabında Yəhya ibn Yalə əl Əsləminin tərcümeyi halında bu rəvayyəti eyni sənədlə nəql etmişdir: Həsən ibn Həmmad əs Səcada – Yəhya ibn Yalə - Bəssam ibn Abdullah əs Seyrafi.

Bununla müəllif izah etmişdir ki, burada adı keçən məhz,Əsləmidir. Həmin yerdə müəllif qeyd edir ki, Bəssamdan olan bu rəvayyət sənədində Yəhya ibn Yalə olmayan digər isnadla məlum deyildir. İbn Əbu Asim "Sunən"də səhih sənədlə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu nəql etmişdir: *"Hər kim mənə itaət edərsə,Allaha itaət etmiş, hər kim mənə asi olmuşsa,Allaha asi olmuşdur.Hər kim əmirə itaət edərsə, mənə itaət etmiş və hər kimdə əmirə asi olmuşsa mənə asi olmuşdur."*[2]

113) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Əli, məndən ayrılan kəs Allahdan ayrılmış və səndən uzaqlaşan kəs məndən uzaqlaşmışdır." Hakim bunu özünün "Səhih"inin 3-cü cildinin 124-cü səhifəsində nəql etmiş və demişdir: "Onun sənədləri düzgündür." Amma Buxari və Muslim onu nəql etməmişlər."*[3]

— Ərəbcə olan original nüsxədə Hakimin rəvayyətin iki şeyxin şərtlərinə görə səhih olduğunu deməsi qeyd olunmayıb. Bu sadəcə tərcüməçinin yalana yalan qatma istəyindən başqa bir şey deyildir. Zəhəbi "Təlxis"də qeyd etdiyi kimi rəvayyət münkər və zəifdir. Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (№4893)-də münkər

[1] "Mizanul itidal", 4/415/№9657

[2] Albani, "Zilalul cənnət fi təhric sunən li ibn Əbu Asim", №1065

[3] Məktub 48

adlandırmışdır. Bu hədisi Bəzzar "Musnəd" (№4066)-də, Hakim "Müstədrək" (№4624, №4703)-də, ibn Əsakir "Tarix"-də, Əhməd "Fədail" (№962)-də nəql etmişdir. Rəvayyətin bütün sənədləri bu isnadla varid olmuşdur: Davud ibn Əbu Auf – Müaviyə ibn Sələbə.

Bəzzar rəvayyəti nəql etdikdən sonra qeyd etmişdir ki, hədisin bu isnaddan başqa digər isnadla nəql olunması məlum deyil. Davud haqqında ibn Adiy deyir: ***"Nəzərimə görə o mötəbər deyil və o etimad olunanlardan da deyildir."***[1]

Buxari "Tarix əl kəbir" (№1431), ibn Əbu Hatim isə "Cərh və tədil" (8/378/№1733) kitablarında Müaviyənin sadəcə adını zikr etmiş, ravi kimi haqqında bir söz deməmişlər.İbn Hibban onu "Siqat" (№5480)-da qeyd etmiş, ibn Hacər isə "İsabə" (№8589)-də onun tabeinlərdən olduğunu bildirmişdir. Onun haqqında çox az məlumat vardır ki,yekun söz deyilə bilsin.

114) Rafizi yazır: *"Ümm Sələmənin hədisində Allahın rəsulu (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Əlini təhqir edən və onu söyən məni təhqir etmişdir." Hakim "Müstədrək"in 3-cü cildinin 121-ci səhifəsinin əvvəlində onu nəql etmiş, Buxari və Muslimin şərtinə əsasən, rəvayyətin qəbulunu düzgün saymışdır. Zəhəbi də "Təlxisdə" onu zikr etmiş, onun səhihliyini bəyan etmişdir. Əhməd də "Musnəd"in 6-cı cildinin 323-cü səhifəsində Ümm Sələmədən, Nəsai "Xəsaisul Ələviyyə"nin 17-ci səhifəsində qeyd etmiş və bir qrup nəql söyləyənlər onu zikr etmişlər. Bənzər hədisə (Amr ibn Şaşın hədisinə əsasən) əsasən Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir: " Əliyə əziyyət edən, mənə əziyyət etmişdir."*[2]

— "Əlini təhqir edən, məni təhqir etmişdir" rəvayyətini şeyx Albani "Daif əl cami" (№5618)-də zəif, "Silsilə əhadis əd daifə" (№2310)-də isə münkər adlandırmışdır. Nə Hakim, nə də Zəhəbi rəvayyətin Muslimin şərtlərinə görə səhih olduğunu deməmişlər. Hakim sadəcə qeyd etmişdir ki, rəvayyətin ravi silsiləsi səhihdir. Hakim "Müstədrək"

[1] "Kamil fi duafa", 3/82/№625,"Darul fikir" nəş.Beyrut

[2] Məktub 48

(№4615)-də, Nəsai "Sunən əl kubra" (№8476), Əhməd "Musnəd" (№26791)-də rəvayyəti aşağıdakı isnadla nəql etmişlər:

Yəhya ibn Əbu Bukeyr dedi: Mənə İsrail Əbu İshaqqdan, o Əbu Abdullah əl Cədalinin belə dediyini nəql etmişdir: "Mən Ümm Sələmənin yanına daxil oldum..."

Bu ravi silsiləsində iki qüsur vardır.

1) İsrail adlı ravi: Bu İsrail ibn Yunus ibn Əbu İshaq əl Həmədanidir. Burada o babasından nəql edir. Saleh ibn Əhməd ibn Hənbəl atasından İsrailin Əbu İshaqqdan etdiyi nəqllər haqqında soruşduqda o (Əhməd) demişdir: "Onda zəiflik vardır və o babasından onun ömrünün sonunda eşitmişdir."[1] Əbu İshaq əs Sabiinin hafizəsi ömrünün sonunda zəifləmişdi.

2) Əbu İshaq əs Sabii: O, öz tədlisi ilə tanınır və o bu rəvayyəti özünün şəxsən Əbu Abdullahdan eşidib-eşitmədiyini bəlli etmədən nəql etmişdir.

"Əlini incidən məni incitmişdir" hədisinə gəlincə, bu yalnız Əliyə məxsus bir xüsusiyyət deyildir. Əbdulmutəllib ibn Rabia rəvayyət edir: *"Mən Abbas ibn Əbdulmutəllibin qəzəbli halda Peyğəmbərin (sallallahu aleyhi və səlləm) hüzuruna daxil olduğu zaman onun yanında idim. Rəsulullahın (sallallahu aleyhi və səlləm) "nə olub?" sualına cavab olaraq Abbas dedi: "Ya Rəsulullah! Haşimilərlə digər Qureyşlilər arasında nə baş verir? Onlar bir-birilərini görən zaman gülümsəyir, bizi gördükdə isə sifətləri dəyişir."*

Bunu eşidən Peyğəmbər (sallallahu aleyhi və səlləm) elə qəzəbləndi ki, üzünün rəngi qızardı. ***O,buyurdu: "Ruhum əlində olana and olsun ki, bir insan sizi Allah və peyğəmbərinə xatir sevmədikcə qəlbinə iman daxil olmaz." Sonra buyurdu: "Ey insanlar! Əmimə əziyyət edən, mənə əziyyət etmiş kimidir. Adamın əmisi onun atası mislindədir."***[2]

[1] Mizzi,"Təhzib əl kamal", 2/№402

[2] Tirmizi, "Sunən", №3758 ,həsən-səhih

115) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Əlini sevən,məni sevmişdir.Ona qəzəblənən isə mənə qəzəblənmişdir." Hakim bu hədisi nəql etmiş və qeyd etmişdir ki,bu Buxari və Muslimin şərtlərinə görə səhihdir. O,bunu "Müstədrək"in 3-cü cildinin 130-cu səhifəsində vermişdir. Zəhəbi də bu hədisi "Təlxis" kitabında nəql edərək,onun səhih olduğunu etiraf etmişdir."*[1]

— Rəvayyətin sənədində Səid ibn Aus Əbu Zeyd əl Ənsari vardır. İbn Hacər "Təğrib" (№2272)-də yazır: *"Siqadır amma, onda səhvlər mövcud olmuşdur."*

Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* nəql olunmuşdur: "Həsən və Hüseyni sevən məni sevmiş, onlara nifrət edən, mənə nifrət etmişdir."[2]

116) Rafizi yazır: *"Oxşar hədisdə Əli (radiyallahu anhu) deyir: "Toxumu yarana və insanın ruhunu yaradana and olsun ki, bu "ümmi" (yazıb-oxumaq bilməyən) Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) olan əhd və peymandır ki, mömindən başqası məni sevməz, münafiqdən başqası isə mənə düşmən olmaz."*[3]

— Bu həmçinin, yalnız Əliyə məxsus bir imtiyaz deyildir. Çünki,Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: **"İmanın əlaməti ənsarları sevməkdir. Onlara nifrət etmək isə nifaqın əlamətidir."**[4]

117) Rafizi yazır: *"Ey Əli! Sən dünya və axirətdə ağasan.Sənin dostun mənim dostum və mənim dostum Allahın dostudur.Sənin düşmənin mənim düşmənim və mənim düşmənim Allahın düşmənidir.Vay o adama ki, məndən sonra sənin düşmənçilik edə!" Hakim "Müstədrək"in 3-cü cildinin 128-ci səhifəsinin əvvəlində onu nəql etmiş və Buxari və Muslimin şərtlərinə əsasən hədisin səhih olduğunu qeyd etmişdir."*[5]

---

[1] Məktub 48
[2] Albani, "Səhih Sunən ibn Macə"117
[3] Məktub 48
[4] "Səhih əl Buxari" №17. (17)
[5] Məktub 48

— Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (4894)-də uydurma adlandırmışdır. Zəhəbi "Təlxis"də yazır: ***"Münkər və uydurma olmaqdan uzaq deyil."***

Bu rəvayyət aşağıdakı isnadla varid olmuşdur: "Əbul Əzhar – Əbdurrazzaq – Muammər – Zuhri – Ubeydullah ibn Abdullah – ibn Abbas.

Hədis elmində qaydalar vardır. Ravilərin etibarlı olub, sənədin qopuq olmaması hədisin səhih olması üçün kifayət edici səbəb deyildir. Bu Əbdulhüseyn və ona oxşar adamların heç zaman anlamadıqları bir qaydadır. Əbu Həmmad ibn əş Şəraki dedi: ***"Muammər Əbdurrazzaqın rafizi olan qohumudur ki, bu rəvayyəti onun kitabının sonuna yazmışdır."***[1]

118) Rafizi yazır: *Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurub: "Ey Əli! Xoş o adamın halına ki,səni sevir və sənin haqqında doğru danışır və vay o şəxsin halına ki, sənin düşmənin ola və sənin haqqında yalan danışa!"*[2]

— Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (4895)-də uydurma adlandırmışdır. Heysəmi "Məcməu zəvaid" (№14755)-də yazır:

"Təbərani nəql etmişdir. Sənədində mətruk ravi olan Əli ibn Həzzəvar vardır." Hakim "Müstədrək" (№4657), Əhməd "Fədail", Əbu Yəla "Musnəd" (№1602)-də rəvayyəti aşağıdakı isnadla nəql etmişlər: Səid ibn Muhəmməd əl Vərraq – Əli ibn əl Həzzəvar.

Zəhəbi "Təlxis"də yazır: ***"Əksinə,bu səhih deyil.Səid və Əli mətruk ravilərdir." Səid ibn Muhəmməd haqqında çox yazılıb. İbn Məin dedi: "Heçnədir", ibn Sad dedi: "zəifdir", Nəsai dedi: "Dürüst deyil", Dəraqutni dedi: "mətruk ravidir"***[3]

[1] "Mizanul itidal", 1/82; "Təlxis əl iləl", səh 76, №170

[2] Məktub 48

[3] "Mizanul itidal", 2/156/№3263

İbn Həzzəvar haqqında Yəhya demişdir: ***"Heç kimə ondan rəvayyət etmək caiz deyil." Əbu Hatim dedi: "Onun nəqlləri məqbul deyil",Nəsai dedi: "mətrukdur", Dəraqutni dedi: "zəifdir"*** [1]

119) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əmmara buyurdu: "Ey Əmmar! Əgər Əlinin bir yol, camaatın isə başqa bir yolla getdiyini görsən,Əli ilə get. O,səni alçaqlığa dəvət etməz və hidayət yolundan çıxartmaz."*[2]

— Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (4896)-də uydurma adlandırmışdır. İbn Əsakir kitabında nəql etmişdir ki, sənədində Muallə ibn Əbdurrahmən vardır. O, rəvayyətlər uydurmada ittiham olunmuşdur. Dəraqutni dedi: "Zəif və yalançıdır." Əbu Hatim onun rəvayyətlərinin mətruk olduğunu qeyd etmişdir."[3]

120) Rafizi yazır: *"Əbu Bəkrin hədisində deyilmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mənim ovcum və Əlinin ovcu ədalətdə bərabərdir."*[4]

— Şeyx Albani rəvayyəti "Silsilə əhadis əd daifə" (4897)-də uydurma adlandırmışdır. Xətib və ibn Əsakir rəvayyəti Əbu Bəkr Əhməd ibn Muhəmməd ibn Salih ət Təmmarın olduğu isnadla nəql etmişlər. Bu ravinin etibarlı olması baradə məlumat yoxdur."Əbul Vəfa əl Həllabi kitabında bu ravini rəvayyətlər uydurmada ittiham olunan ravilərin sırasında qeyd etmişdir."[5]

Elə orada müəllif bu rəvayyəti nəql etmişdir. Muttəqi əl Hindi də bu rəvayyətin zəifliyini qeyd etmişdir.[6]

121) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mən və bu Əli qiyamət günü ümmətimə höccətik." Xətib bu hədisi Ənəsdən nəql etmişdir."*[1]

---

[1] "Mizanul itidal", 3/118/№5803
[2] Məktub 48
[3] "Mizanul itidal", 4/148/№8672
[4] Məktub 48
[5] "Kəşful xəsais",səh 54, №82
[6] "Kənzul Ümməl", №32921

— Rəvayyət uydurmadır. İbn Əsakir bunu "Tarix"kitabının 42-ci cildinin, 308-ci səhifəsində aşağıdakı isnadla nəql etmişdir: Əbdurrahmən ibn Sirac – Ubeydullah ibn Musa – Mətar – Ənəs.

Hədisin mətni belədir: "Ey Ənəs! Mən və Əli Allahın məxluqatı üzərindəki hüccətiyik." Bu rəvayyəti nəql etdikdən sonra ibn Əsakir yazır: ***"Mətar bu Mətar əl İskafdır ki,hədisləri münkərdir."*** 309-cu səhifədə ibn Əsakir rəvayyəti Xətibin sənədi ilə nəql edir ki, orada yenə Mətar mövcuddur. Bu ravi haqqında Buxari, Nəsai və Əbu Hatim demişlər: ***"Onun rəvayyətləri məqbul deyil"***[2]

Bənzər rəvayyət digər isnadla da nəql olunmuşdur: Əhməd ibn əl Heysəm – Abdullah ibn Musa – Ata (ibn Meymun) – Ənəs.

Zəhəbi "Mizan" (3/76/№5649)-da Ata ibn Meymunun məchul ravi olduğunu qeyd etmişdir. Çox güman ki, söhbət həmin Matərdən gedir ki, ravilərdən biri onun adını səhvən vəya bilərək dəyişdirmişdir.

122) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Səmada yazılmışdır: "Allahdan başqa tanrı yoxdur, Muhəmməd onun elçisidir.Allah onu təsdiqləmiş və Əli ilə ona yardım etmişdir."*[3]

— Şəukani dedi: "Zeyl"də yazılıb: ***"Bu rəvayyət uydurmadır."***[4]

Təbərani bunu "Kəbir"də nəql etmişdir. Heysəmi "Məcməu zəvaid" (№14702)-də yazır: ***"Təbərani nəql etmişdir ki, sənədində mətruk ravi olan Amr ibn Sabit vardır."***

— Bu ravi haqqında çox məlumat vardır. İbn Məin dedi: "*O, heçnədir*", Nəsai: *"onun rəvayyətləri mətrukdur"*, İbn Hibban: "*uydurmalar nəql etmişdir*", Buxari: *"onların nəzərinə görə o mötəbər deyil"*[5]

---

[1] Məktub 48
[2] "Mizanul itidal", 4/127/№8590
[3] Məktub 48
[4] "Fəvaid əl məcmua",səh 463, №101
[5] "Mizanul itidal" 3/249/№6340

Eyni rəvayyət Amrdan ibn Əsakirin "Tarix" (42/336) kitabında da nəql olunur. İbn Əsakir bənzər rəvayyəti digər isnadla nəql etmişdir: Muhəmməd ibn Osman ibn Əbu Şeybə - Zəkəriyyə ibn Yəhya əl Kisai – Yəhya ibn Səlim – Əşəs ibn əmm Həsən ibn Salih – Muasər – Atiyyə Aufi – Cabir ibn Abdullah dedi: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: "Yer və göylərin yaranmasından 2000 il öncə behiştin qapılarında yazılmışdı: "Allahdan başqa ilah yoxdur, Muhəmməd onun elçisidir. Allah onu təsdiqləmiş və Əli ilə ona yardım etmişdir."

Bu isnad baradə 70-ci bölümdə bəhs etmişdik. Bu rəvayyəti həmçinin, Əbu Nueym "Hilyyətul əvliyya" (3/27)-da nəql etmişdir. Sənəddə Əhməd ibn Həsən əl Kufi vardır. *Dəraqutni və qeyriləri onun mətruk olduğunu qeyd etmişlər. İbn Hibban dedi: "yalançıdır"*[1]

Ondan başqa sənəddə bir neçə məchul olan ravi vardır. Hədis həmçinin, bu isnadla nəql olunur: "Hüseyn ibn İbrahim əl Babi – Humeyd ət Tavil – Ənəs. əl Babi məchuldur. Bu ifadə Əbu Hureyradan aşağıdakı isnadla nəql olunmuşdur: Abbas ibn Bəkar – Xalid ibn Əbu Amr əl Yəzdi – Kəlbi – Əbu Saleh – Əbu Hureyra.Kəlbi bu yalançı olan Muhəmməd ibn Səib əl Kəlbidir, Abbas da yalançı olmuşdur." [2]

Rəvayyətin sağlam isnadı olmamasından əlavə o Quran ayələrinə tərsdir. Uca Allah buyurur: "Əgər onlar səni aldatmaq istəsələr, (bil ki,) sənə Allah yetər. O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi." [3]

Allah elçisini təkcə Əli ilə deyil, öz yardımı və möminlərlə dəstəkləmişdir. Zəhəbi "Təlxis"də oxşar rəvayyət nəql etmişdir:

Zəhəbi bənzər rəvayyəti yazır: "Cənnətin qapılarında göy və yerin yaranmasından min il öncə yazılmışdı: "Allahdan başqa İlah yoxdur və Əli Allah elçisinin qardaşıdır."

[1] "Mizanul itidal" 1/90/№331
[2] "Mizanul itidal" 2/382/№4160
[3] Ənfal 62

Zəhəbi yazır: "Rəvayyəti yalançılıqda ittiham olunan rafizi Zəkəriyyə ibn Yəhya – Yəhya ibn Səlimdən – Əşəsdən – Muasərdən – Atiyyədən – Cabirdən nəql etmişdir."[1] Atiyyə bilindiyi kimi zəif olan şiədir.

123) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Nuhun əzmini, Adəmin elmini, İbrahimin helmini, Musanın zirəkliyini, İsanın zühdünü görmək istəyən şəxs Əli ibn Əbu Talibə nəzər yetirsin." Beyhəqi özünün "Səhih"ində və İmam Əhməd ibn Hənbəl "Musnəd"ində onu nəql etmişdir."*[2]

— Birincisi, imam Beyhəqinin "Səhih" adlı kitabı yoxdur. İkincisi isə bu hədis nə imam Əhmədin "Musnəd"ində, nə də imam Beyhəqinin "Sunən" kitablarında yoxdur. Bu rəvayyət Hakimin "Müstədrək" kitabında biraz fərqli mətnlə nəql olunur. Guya Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* demişdir: *"Kim Adəmdə olan elmi, Nuhda olan hikməti, İbrahimdə olan həlimi, Yəhyada olan təqvanı, Musada olan qüvvəti görmək istəyirsə Əli ibn Əbu Talibə baxsın."*

Hakim bunu Əbu Həmrdən mərfu şəkildə rəvayyət etmişdir. ***İbn Cəuzi qeyd etmişdir ki, bu rəvayyət uydurmadır.***[3]

"Sənəddə Əbu Amr əl Əzdi vardır ki,o mətrukdur."[4] İbn Kəsir yazır: *"Bu olduqca qeyri məqbul hədisdir.Ravilər silsiləsi səhih deyil."*[5] Şeyx Albani yazır: *"uydurmadır"*[6]

İbn Ərraq "Tənziru şəria" (1/384/№109) kitabında yazır: *"Əbu Həmrin rəvayyətlərindəndir. Sənəddə Əbu Ömər Yəzdi var ki, o mətrukdur."* İbn Teymiyyə "Minhəcus sunnə" (5/510)-də yazır: ***"Yalan və qondarmadır."***

[1] "Təlxis əl hiləl",səh 75/№167
[2] Məktub 48
[3] "Məvdua", c.1,səh 370
[4] Şəukani,"Fəvaid əl məcmua"səh 452,№61
[5] "əl bidayə vən nihayə",c.7,"Əlinin fəzilətləri" fəsli
[6] "Silsilə əd daifə", c.10,№4903

Haşiyədə rafizi ibn Battə əl Ukbərinin kitabında olan ibn Abbasın hədisinə istinad etdiyini qeyd edir. Bunun isnadı belədir: Mənə Əbu Zərr Əhməd ibn əl Bəqandi söylədi – mənə atam söylədi – Musar ibn Yəhyadan – mənə Şərik söylədi – Əbu İshaqqdan – atasından – İbn Abbasdan.

Bu ravi silsiləsi olduqca zəifdir. Zəhəbi "Mizan"kitabında Musaranın məchul olduğunu qeyd etmişdir. Həmçinin, Əbu İshaqın atasının bioqrafiyyasını tapmaq da mümkün deyil. Şərik etibarlı ravi olmaqla bərabər, olduqca zəif yaddaşa malik idi. Bu haqqda yuxarıda qeyd etmişdik. Həmçinin, rafizi haşiyədə imam ər Razinin təfsirinədə işarə edir. Biz burada onun növbəti hiylə vəyalanlarının şahidi oluruq.ər Razi bunu "Mubahilə" ayəsinin təfsirində rafizi olan Mahmud ibn Həsən əl Xumsinin dediyi sözlərə misal olaraq qeyd edir və onun bu hədisə istinad etdiyini bildirir. Anlaşıldığı kimi bu sözlər Razinin deyil, əl Xumsinindir. ər Razi isə təfsirində bu adamın rafizi olduğunu qeyd etmişdir.Güc və qüvvət yalnız Allaha aiddir!

124) Rafizi yazır: *"Allahın rəsulu (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Ey Əli! Səndə İsadan bir nişanə var. (O da budur) yəhudilər onunla o dərəcədə düşmən oldular ki, anasını ittiham etdilər. Xristianlar ona o qədər məhəbbət bəslədilər ki, malik olmadığı mənzilət və məqamı (Allah məqamını) ona nisbət verdilər."*[1]

— Bu hədisi Hakim "Müstədrək" (№4622), Abdullah ibn Əhməd "Zəvaidu musnəd" (1/160), ibn Əbu Asim "Sunən"(№1004)-də bu isnadla nəql etmişlər: əl Hakim ibn Əbdulməlik - əl Haris ibn Husirat – Əbu Sadiq – Rabiə ibn Nacət – Əli ibn Əbu Talib.

Zəhəbi "Təlxis əl ilal"(səh 78, №176)-da yazır: *"Səhih deyil, sənəddə bir qrup zəif ravilər vardır."*

Şeyx Albani "Zilalul cənnət"kitabında qeyd etdiyi kimi ravi silsiləsi zəifdir. Hakim ibn Əbdulməlik adlı ravi zəifdir. İbn Məin onu zəif hesab etmiş, Nəsai isə onun mötəbər olmadığını qeyd etmişdir. Əbu Davud dedi: "Onun hədisləri münkərdir"[2]

[1] Məktub 48

[2] "Mizanul itidal", 1/576/№2187

Digər ravi Rabiə ibn Nəcat məchuldur. əl Heysəmi "Məcməu zəvaid" (№14762)-də yazır: *"Abdullah və Bəzzar müxtəsər, Əbu Yalə isə biraz geniş şəkildə nəql etmişlər. Abdullah və Əbu Yalənin sənədində Hakim ibn Əbdulməlik vardır ki, o zəifdir. Bəzzarın sənədində Muhəmməd ibn Kəsir əl Qureyşi əl Kufi vardır ki,o da zəifdir."*

Rəvayyəti həmçinin, İsa ibn Abdullah ibn Ömər ibn Əli öz atalarından nəql etmişdir. Zəhəbi "Təlxis əl ilal"[1] da (İsa) nı *"həlak olmuş"* adlandırır. İbn Əbu Asim "Sunən" (№983)-də nəql edir ki, Əli demişdir: *"Elə bir firqə olacaqdır ki, mənə qarşı olan məhəbbətlərinə (həddi aşan) görə oda girəcəklər və elə bir firqə də olacaqdır ki, mənə qarşı olan nifrətlərinə görə oda girəcəklər."*

Şeyx Albani "Zilalul cənnət" kitabında qeyd etdiyi kimi bu rəvayyət iki şeyxin şərtlərinə görə səhihdir. Bu həqiqətdir ki,rafizilər Əliyə olan bağlılıqlarına görə onu yarı tanrı səviyyəsinə qaldırmışlar və bu əməl rafiziləri cəhənnəmə aparacaqdır. Nasibilər isə Əliyə elə nifrət edirdilər ki,bu əməl də onları oda aparmışdır.

125) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Öndə gedənlər üç nəfərdir. Musaya ilk iman gətirən Yuşə ibn Nun, İsaya ilk iman gətirən "Yasin sahibi", Muhəmmədə ilk iman gətirən Əli ibn Əbu Talib." Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Siddiqlər üç nəfərdir: Həbib Nəccar, Ali-Yasin mömini ki, dedi: "Ey camaat, Allahın elçilərinə tabe olun." Hizqil,Ali-Firon mömini ki, dedi: " Rəbbim Allahdır – deyən şəxsimi öldürürsünüz?" Və Əli ibn Əbu Talib ki, onların hamısından üstün və biliklidir."*[2]

— Hədislər səhih deyildir. Birinci rəvayyət baradə Heysəmi "Məcməu zəvaid" (№14598)-də yazır: *"Təbərani nəql etmişdir ki, ravilər silsiləsində Hüseyn ibn Həsən əl Əşkar vardır. Onu ibn Hibban etibarlı, əksər alimlər isə zəif ravi hesab etmişlər."*

[1] səh 78, №176
[2] Məktub 48

Hüseyn ibn Həsən əl Əşkar: Onu Əbu Muamər əl Xuzali yalançı adlandırmışdır. Nəsai, Dəraqutni və Əbu Hatim qeyd etmişlər ki, o mötəbər deyildir. Buxari isə onun sual altında olduğunu bildirmişdir. Əbu Zura onu "munkər əl hədis" adlandırmışdır.[1]

İkinci hədisi ibn Əsakir "Tarix" (42/43) kitabında Əbu Nueymin isnadı ilə nəql etmişdir: Amr ibn Cəmiə əl Bəsri – Muhəmməd ibn Əbu Leyla – İsa ibn Əbdurrahmən ibn Əbu Leyla – atasından – Əbu Leyladan.

Amr ibn Camiə mətruk ravidir. Muhəmməd ibn Əbu Leyla bu Muhəmməd ibn Əbdurrahmən ibn Əbu Leyladır. İbn Hacər "Təqrib" (№6081)-də qeyd edir ki, bu ravi etibarlı ravi olmaqla bərabər olduqca zəif yaddaşa sahib idi. İbn Teymiyyə "Minhəcus sunnə" (5/26)-də hədisin yalan olmasını qeyd edir. Albani "Daif əl cami" (№3550)-də hədisi uydurma adlandırır.

126) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Məndən sonra, ümmətim tezliklə sənin lə düşmən olacaqdır. Sən mənim sunnəmlə yaşayırsan və sünnə üzərinə də öləcəksən. Səni sevən məni sevmiş, sənin lə düşmənlik edən, mənimlə düşmənlik etmişdir. Tezliklə saqqal və başın qanına bulaşacaqdır."*[2]

— Hakim "Müstədrək" (№4686)-də sənədsiz olaraq nəql etmişdir. *"ümmətim sənə düşmən olacaqdır"* sözü həmçinin Sələbə ibn Yezid əl Həmanidən də rəvayyət olunmuşdur. O, ifrat şiə idi. Buxari onun rəvayyətlərinin sual altında olduğunu qeyd etmişdir.[3]

Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4905)-də zəif adlandırmışdır.

127) Rafizi yazır: *"İbn Abbasın hədisinə əsasən Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Tezliklə məndən sonra, məşəqqət və narahatlığa düçar olacaqsan. Əli etdi: "O vaxt dinim salamat olacaqmı? Buyurdu: "Bəli, dinin salamat olacaqdır."*[4]

---

[1] "Mizanul itidal", 1/531/№1986
[2] Məktub 48
[3] Buxari, "Tarixul kəbir" 2/№2103
[4] Məktub 48

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4906)-də zəif adlandırmışdır. Hakim "Müstədrək" (№4677)-də nəql etmişdir. Sənəddə Səhl ibn Mutəvəkkil vardır. Onun haqqında "cərh və tədil" kitablarında məlumat yoxdur. İbn Hibban onu "Siqat" (№13521)-də qeyd etmişdir. Əgər ravi etibarlıdırsa, onda rəvayyət səhihdir.

128) Rafizi yazır: *"Əbu Əyyub əl Ənsarinin Ömərin xilafəti zamanı söylədiyi hədis də eyni mənadadır.O,dedi: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə "nakisinilər" (əhdləri sındıranlar), "qasitinilər" (zalımlar) və "mariqinlər"lə (yoldan çıxanlar) mübarizə aparıb, onları öldürmək fərmanını (əmrini) verdi."*[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4907)-də uydurma adlandırmışdır. Hakim bu rəvayyəti "Müstədrək" (№4674)-də səhihliyi baradə bir söz demədən nəql etmişdir. Zəhəbi "Təlxis"də rəvayyətin səhih olmadığını qeyd etmişdir. Rəvayyətin isnadı belədir: Muhəmməd ibn Humeyd – Səlama ibn Fədl – Əbu Zeyd əl Əhval – Utbə ibn Sələbəh.

Utbə ibn Sələbəh haqqında mənfi vəya müsbət rəy olan heç bir məlumata rast gəlmədik. Muhəmməd ibn Humeyd və Səlama ibn Fədl zəif ravilərdir. Əbu Zura ibn Humeydi yalanda ittiham etmişdir.[2]

Sələmə ibn Fədl Əbraş - Olduqca zəif ravidir. Onun zəif olmasını Nəsai və İshaq ibn Rahaveyh qeyd etmişlər. Buxari onu tənqid etmişdir. Əbu Hatim ona etibar olunmadığını qeyd etmişdir."[3]

Hakim ikinci isnadla (№4675) nəql etmişdir. Sənəddə Əsbaq ibn Nəbatah vardır. Bu ibn Hibban və Nəsaiyə görə mətruk ravidir. Əbu Bəkr ibn Əyaş onu yalançı adlandırmışdır.[4]

Sənəddə həmçinin, Muhəmməd ibn Yunus əl Qadimi vardır ki, onu hədis uydurmada ittiham etmişlər.[5]

---

[1] Məktub 48
[2] Mizanul itidal", 3/530/№7453
[3] "Mizanul itidal", 2/192/№3410
[4] həm.yer 1/271/№1014
[5] həm.yer 4/74/№8353

Təbərani "əl Kəbir" (№10053)-də Abdullah ibn Məsuddan rəvayyət etmişdir. Heysəmi "Zəvaid" (№10442)-də yazır: *"Sənəddə mənə məlum olmayan insanlar vardır."*

İbn Əsakir "Tarix"(42/470)-də bunu ibn Məsuddan rəvayyət etmişdir. Sənəddə İsmail ibn Abbad vardır ki, Dəraqutniyə görə mətrukdur. İbn Hibban ona etibar edilmədiyini qeyd etmişdir.[1]

Təbərani həmçinin, bunu "Ausat" (№8433)-da Əlidən rəvayyət etmişdir. İsnadda Yəhya ibn Sələmə ibn Kuheyl vardır. Yəhya ibn Məin onun "heçnə" olduğunu və onun nəqllərinin yazılmadığını söyləmişdir. Nəsai dedi: "mətrukdur"[2]

Əlidən bunu Rabiə ibn Nəcat rəvayyət etmişdir. Onun haqqında yuxarıda bəhs edildi. Əbu Yalə bu rəvayyəti "Musnəd" (№519)-də bu isnadla nəql etmişdir: İsmail ibn Musa – Rabiə ibn Səhl – Səid ibn Ubeyd – Əli ibn Rabiə. Hüseyn Suleym Əsəd ravi silsiləsini zəif adlandırmışdır.İbn Məin Rabiə ibn Səhl haqqında demişdir: "o heçnədir", Dəraqutni onu "zəif" adlandırmışdır. [3]

Əbu Yalə bu rəvayyəti Əmmar ibn Yasirə istinad edərək də rəvayyət etmişdir: Cəfər ibn Süleyman - əl Xəlil ibn Süleyman - əl Xəlil ibn Marra - əl Qasim ibn Süleyman –ata – baba.

Hüseyn Suleym Əsəd ravi silsiləsini zəif adlandırmışdır.Ukeyli qeyd etmişdir ki, əl Qasim ibn Süleymanın nəqqləri doğru deyildir.[4]

Cəfər ibn Süleyman haqqında alimlərin rəyyləri müxtəlifdir. İbn Əsakir "Tarix" (42/468-470) kitabında bunu Əlidən rəvayyət etmişdir. Sənəddə Amr ibn Atiyyə vardır. Onu Dəraqutni və digərləri zəif hesab etmişlər.[5]

---

[1] həm.yer 1/234/№897
[2] həm.yer 4/381/№9527
[3] həm.yer 2/41/№2740
[4] "Mizanul itidal" 3/371/№6808
[5] Mizanul itidal", 3/281/№6411

Həmin mənbədə yenə o rəvayyəti bu isnadla nəql etmişdir: Harun ibn İshaq – Əbu Həsən – Cəfər – Əbdulcəbbar Həmədani – Ənəs ibn Amr – atası – Əlidən. Ənəs ibn Amr və atası məchul ravilərdir.[1]

Əbdulcəbbar Həmədani bu ibn Abbasdır. Əbu Nueym dedi: Kufədə ondan daha yalançı biri yox idi.[2]

Həmin mənbədə rəvayyət yenə bu isnadla nəql olunur: Əbul Abbas ibn Uqdə - Hüseyn ibn Ubeyd ibn Əbdurrahmən əl Kindi – Bəqqar ibn Bişr – Həmzətun Ziyad – Əmaş – İbrahim – Əli və Əbu Səid ət Teymi – Əli.

İbn Uqdə bu Əhməd ibn Muhəmməd ibn Səiddir. Onu zəif hesab etmişlər.[3] Hüseyn ibn Ubeyd və Bəqqar ibn Bişrin bioqrafiyaları məlum deyil.[4]

İbrahim bu imam Nəhaidir və o Əli *(radiyallahu anhu)* ilə görüşməmişdir. Ona görə də sənəd qopuqdur. Əbu Səid ət Teymi haqqında da heç bir tərif edici vəya tənqidi məlumatlar məlum deyildir. Yenə həmin mənbədə bu isnadla: "Əbu Əvənah – Əbu Cərud – Zeyd ibn Əli ibn Hüseyn ibn Əli – atalarından. Əbu Carud bu Ziyad ibn Munzirdir. *"İbn Məinin yalançılıqda ittiham etdiyi rafizidir."*[5]

İbn Əsakir isə bu isnadla nəql etmişdir: Əbu Bəkr ibn əl Muğri – İsmail ibn Abbad əl Bəsri əl Bağdadi – Abbad ibn Yaqub – Rabia ibn Səhl əl Fəzairi – Səid ibn Ubeyd – Əli ibn Rabia.

İsmail ibn Abbad Dəraqutniyə görə mətruk ravidir. "İbn Hibban "ona etibar edilməz" demişdir."[6]

İbn Məin Rabiə ibn Səhl haqqında deyir: "o heçnədir". "Dəraqutni onu zəif hesab etmişdir."[7]

---

[1] "Silsilə əhadis əd daifə", №4907
[2] "Mizanul itidal", 2/533/№4741
[3] "Mizanul itidal", 1/136/№548
[4] "Silsilə əhadis əd daifə", №4907
[5] "Təqrib", №2101
[6] "Mizanul itidal", 1/234/№897
[7] "Mizanul itidal" ,2/41/№2740

İbn Əsakir sənədi ilə nəql edir: Matər – Hakim ibn Cubeyr – İbrahim – Əlqamə.Matər bu ibn Meymun əl İskafdır ki,onun haqqında biz yuxarıda bəhs etmişdik.

Hakim ibn Cubeyr zəif ravidir.İmam Əhməd onun haqqında deyir: *"Zəifdir, onun nəqlləri məqbul deyildir."*[1]

İbn Əsakir yenə bu sənədlə nəql edir: "Yunis ibn Ərqam – Əbban – Xalid əl İsri. İbn Hiraş Yunisi mötəbər hesab etməmişdir. Əbban bu ibn Əbu Əyyaşdır. "O, Əhməd və ibn Məinə görə tərk olunmuş ravidir."[2]

129) Rafizi yazır: *"Əmmar Yasir bir hədisdə rəvayyət edir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Əli! Tezliklə üsyançılar dəstəsi sənlə mübarizə aparacaqlar. Amma, sən düz yoldasan. Sənə kömək etməyən məndən deyil."*[3]

— Rəvayyət zəifdir. İbn Əsakir nəql etmişdir ki, sənədində iki məchul ravi vardır: Əbu Yəhya Razi və Abdullah ibn Cəfər."[4]

130) Rafizi yazır: *"Həmçinin, Əbuzərr rəvayyət edir: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "And olsun canım əlində olana ki, sizin aranızda bir kişi var ki, məndən sonra Quranın təvilinə əsasən vuruşacaq, necə ki, mən müşriklərlə onun tənzilinə əsasən vuruşdum."*[5]

— "Rəvayyət uydurmadır və isnadsız nəql edilmişdir."[6]

131) Rafizi yazır: *"Muhəmməd ibn Ubeydullah bir hədisi ibn Əbu Rafidən, o da atasından, o da atasından Əbu Rafidən xəbər vermişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Məndən sonra, bir qrup Əli ilə vuruşacaq. Onlarla cihad etmək ilahi bir vəzifədir. Cihad etmək qüdrətinə malik olmayan kəs dili ilə, bundan da aciz olan qəlbi ilə onlarla cihad etməlidir."*[1]

---

[1] "Mizanul itidal", 1/583/№2215

[2] "Mizanul itidal", 1/10/№15

[3] Məktub 48

[4] "Silsilə əhadis əd daifə", №4908

[5] Məktub 48

[6] "Silsilə əhadis əd daifə", №4909

— Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafi heç nəyə yaramır. ”Bu ravinin zəifliyini və qeyri məqbul olmasını Buxari,Əbu Hatim,Yəhya ibn Məin və s.qeyd etmişlər.”[2]

132) Rafizi yazır: “*Əxzər Ənsarinin rəvayyətində Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: “Mən Quranın tənzilinə əsasən vuruşuram.Əli isə onun açıqlamasına görə vuruşacaq.”*[3]

— Haşiyədə yazır: “*O, İbn Əbu Əxzərdir. İbn Səkən onu yad etmiş və bu hədisi ondan (Haris ibn Həsirə təriqiylə) Cabir Cufidən, o da İmam Baqirdən, o da atası Zeynəlabidindən, o da Əxzərdən, o da Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) nəql etmişdir. İbn Səkən demişdir: “Bu hədis, səhabələr arasında məlum deyildir.”*

Cabir ibn Yezid əl Cufi yalançıdır.

133) Rafizi yazır: Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu:*“Ey Əli! Mənim sənə olan imtiyazım yalnız nübuvvətdədir. Məndən sonra nübuvvət və peyğəmbərlik yoxdur. Sənin camaat qarşısında yeddi imtiyazın var. Birinci şəxssən ki, Allaha iman gətirmişsən, Allahın əhdinə hamıdan artıq əməl edənsən, Allahın əmrlərində hamıdan möhkəmsən, Beytul-malın bölünməsində ədalətə daha çox riayyət edənsən, rəiyyətə qarşı hamıdan çox adilsən, mühakimədə daha gözüaçıq və məziyyətlərdə (üstünlüklərdə) Allahın yanında hamıdan daha üstünsən.”*

Haşiyədə yazır: *“Əbu Nəim bu hədisi Muazdan və ondan sonrakı hədisi Əbu Səiddən “Hilyətul-Əvliya”da nəql etmişdir. Hər iki hədis “Kənzul-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsində mövcuddur.”*

Daha sonra o yazır: *“Ey Əli! Sənin yeddi xislətin vardır ki, heç kəs bunda sənə bərabər ola bilməz. Sən, Allaha ilk iman gətirən, onun əhdinə daha vəfadar, əmrinə hamıdan artıq əməl edən, rəiyyətə qarşı daha ədalətli, mühakimədə daha xəbərdar, məziyyətlərdə isə hamıdan üstünsən...”*[4]

---

[1] Məktub 48
[2] “Mizanul itidal”, 3/634/№7904
[3] Məktub 48
[4] Məktub 48

— Hər iki hədis də doğru deyildir. Birinci hədisə gəlincə, ibn Cəuzi onu "Məvduat" kitabında, Albani isə "Silsilə əhadis əd daifə" (№4912)-də uydurma adlandırmışdır. Əbu Nueym "Hilyətul-Əvliya" (1/65)-da bunu Muaz ibn Cəbəldən aşağıdakı isnadla nəql etmişdir: Bişr ibn İbrahim əl Ənsari – Sur ibn Yezid – Xalid ibn Madən – Muaz ibn Cəbəl.

İbn Cəuzi yazır: *"Bu rəvayyət uydurmadır və bunda təqsirkar Bişr ibn İbrahimdir. İbn Adiy və ibn Hibban onun haqqında demişlər: "Etibarlı ravilərə istinad edərək, hədislər uydurardı."*[1]

Şəukani yazır: "Əbu Nueym bunu Muaz ibn Cəbəldən mərfu şəkildə nəql etmişdir. *Rəvayyət uydurmadır.* Səbəb isə Bişr ibn İbrahim əl Ənsaridədir. Əbu Nueym bunu Əbu Səiddən mərfu şəkildə nəql etmişdir." Haşiyədə isə yazır: "Əbu Səiddən olan isnadda İsmət ibn Muhəmməd vardır ki, o yalançıdır."[2] "İkinci rəvayyətə gəldikdə isə o da uydurmadır."[3]

Əbu Nueym "Hilyətul-Əvliya" (1/66)-da nəql etmişdir. Sənədində İsmət ibn Muhəmməd vardır ki, o da yalançıdır."[4]

Bununla da Əbdulhüseynin 48-ci məktubuna cavab yekunlaşır. 49-cu məktubda isə Əbdulhüseyn sünni şeyxinin adından bir neçə rəvayyət qeyd etmişdir.

134) *İmam Əbu Abdullah Əhməd Hənbəl deyir: "Peyğəmbərin (sallallahu aleyhi və səlləm) əshabələrinin heç biri haqqında Əli ibn Əbu Talib qədər Allah Rəsulu (sallallahu aleyhi və səlləm) tərəfindən fəzilət nəql olunmamışdır."*[5]

[1] "Məvduat", 1/343
[2] "Fəvaid əl məcmua", səh 442, №44
[3] "Silsilə əhadis əd daifə", №4913
[4] "Mizanul itidal", 3/68/№5631
[5] Məktub 49

— İmam Əhməd haqqlı idi. 48-ci məktub bunu təsdiq edir. Səhabələr arasında Əli ibn Əbu Talibin fəzilətləri qədər heç bir səhabə haqqında fəzilətlər nəql olunmamışdır. Fəqət, əsas məsələ bu rəvayyətlərin səhih olub-olmamasıdır. Yalanı mübah hesab edən rafizilər əsrlər boyunca Əli *(radiyallahu anhu)* haqqında rəvayyətlər uydurmuşlar.

Hafiz Şeyxulislam ibn Hacər əl Əskalani deyir: **"Əhli beytin fəzilətinə dair rafizilərin nə qədər hədis uydurduqlarını hesablamaq qeyri mümkündür."**[1]

Əmir əş Şabi deyir: **"Bu ümmətdə Əlinin** *(radiyallahu anhu)* **adından uydurulan yalanlar qədər heç kəsin adından yalanlar uydurulmayıb."**[2]

İbn Qəyyum əl Cəuziyyə deyir: **"Əlinin** *(radiyallahu anhu)* **fəzilətlərinə dair rafizilərin uydurduqlarına gəlincə isə bu baradə həddindən çox uydurulmuş rəvayyətlər vardır."**[3]

Hafiz Əbu Yalə əl Həlili "İrşad" kitabında deyir: **"Rafizilər Əli** *(radiyallahu anhu)* **və Əhli beytin fəziləti haqqında 300 000-ə qədər rəvayyət uydurmuşlar."**[4]

135) *İbn Abbas demişdir: "Heç bir kəs haqqında Əliyə aid olan qədər Quran ayəsi nazil olmamışdır." Digər bir hədisdə isə demişdir: "Əli haqqında 300 Quran ayəsi nazil olmuşdur."*[5]

— Hər iki rəvayyət də doğru deyildir. Birinci rəvayyət aşağıdakı isnadla nəql olunmuşdur: "Ömər ibn əl Həsən ibn Əli – Əhməd ibn Həsən – atası – Hasin (********) Abdullah ibn Hatif - əl Minhəl ibn Amr – Səid ibn Cubeyr."[6]

---

[1] "Lisan əl mizan",c.1,səh 13,Beyrut
[2] "Fəvaid əl məcmua",səh 148,haşiyə №187

[3] "Səhih və zəif",səh 292
[4] həm.yer
[5] Məktub 49
[6] "Silsilə əhadis əd daifə", №4929

Ömər ibn Həsən ibn Əli – bu Şənani əl Qazidir. Dəraqutni onu zəif hesab etmişdir.[1] Hasin adlı ravi isə məchuldur.

Əbdulhüseyn bu rəvayyətin haşiyəsində yazır: *"İbn Əsakir və "Sunən" müəlliflərindən bir neçəsi bunu nəql etmişlər."*

Siz bu hədisi bilinən "Sunən" kitablarının heç birində tapa bilmərsiz. Əli baradə 300 ayə nazil olmuşdu iddiasına gəlincə, bu rəvayyəti Xətib mərfu şəkildə ondan rəvayyət etmişdir. Sənəddə Salam ibn Süleyman əs Səqəfi və Cuvəybir vardır. Hər ikisinin rəvayyətləri münkərdir. Həmçinin, Dəhhaq zəifdir, ibn Cəuzi qeyd etmişdir ki, rəvayyət uydurmadır. [2]

Salam ibn Süleyman ibn Sur Əbul Abbas Səqəfi Mədəni - Əbu Hatim onun mötəbər olmadığını, ibn Adiy isə onun rəvayyətlərinin münkər olduğunu qeyd etmişdir. [3]

Cuvəybir ibn Səid Əbul Qasim Əzdi - Beyhəqi deyir: "Cuvəybir mətrukdur."[4]

Bundan başqa Dəhhaq ibn Muzəhim ibn Abbasla görüşməmişdir.

136) *Yenə demişdir: Harada Allah "Ey iman gətirənlər!" ayəsini buyurmuşdusa,Əli onun əmiri və şərəfidir." Allah Quranın çox ayələrində Muhəmmədin (sallallahu aleyhi və səlləm) əshabələrini məzəmmət etmiş, amma Əlini yaxşılıqdan savayı yad etməmişdir.*[5]

— Bu ibn Abbas adına deyilmiş yalandır.Təbərani bu rəvayyəti "əl Kəbir" (№11687)-də,Heysəmi isə "Zəvaid" (№14660)-də nəql etmiş və qeyd etmişdir: *"Ravi silsiləsində İsa ibn Rəşid vardır ki,o zəifdir."* Bu ravi məchuldur və onun nəqlləri qəbul edilmir. [1]

[1] "Mizanul itidal", 3/185/№6071
[2] Şəukani, "Fəvaid əl məcmua", səh 458, №80
[3] Zəhəbi, "Mizanul itidal",c.2,səh 178,№3346
[4] Zəhəbi ,"Mizanul itidal",c.1,səh 107
[5] Məktub 49

Fədailus səhabə" (№1114)-də bu rəvayyətin sənədində eyni ravinin iştirakı ilə bərabər Zəkəriyyə ibn Yəhya əl Kisai də mövcuddur. Dəraqutni və Nəsai onu mətruk hesab etmişlər.[2]

137) *"Abdullah ibn Əyyaş ibn Əbu Rabi deyir: "Əli haqqında elm və bilik baxımından nə istəyirsən, tam inamla söyləyə bilərsən. Onun İslamda parlaq bir keçmişi vardır.O, Allah rəsulunun kürəkənidir. Onun dini başa düşməkdə, döyüşdə qələbə çalmaqda və əliaçıqlıqda tayı-bərabəri yoxdur."*

— Bu sözün doğruluğunu və müəllifinin kim olmasını araşdırmadan belə ilk üç ifadə ilə razılaşmaq mümkündür. Möminlərin əmiri həqiqətən də İslamda adı-sanı olan ən bilikli səhabələrdən biri idi və o Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* kürəkəni idi. Lakin,bu xüsusiyyətlər "onun ilk xəlifə olmalı idi"iddialarına əsas vermir. Sonuncu ifadə isə yersizdir. İslam tarixində Həmzə, Cəfər, Təlha, Xalid ibn Vəlid kimi cəngavərlər,malını Allah yolunda xərcləyən Əbu Bəkr, Osman və fəqih olan Aişə, ibn Abbas kimi səhabələr məşhurdur.

138) 50-ci məktubda rafizi yazır: "Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* bu sözünü xatırla: *"Əlinin mənə nisbəti başın bədənə olan nisbəti kimidir."*

— Rəvayyət doğru deyildir. Məşhur şiə alimi Muhəmməd Baqir Məclisi "Biharul ənvar" (35/269) kitabında yalan olaraq qeyd etmişdir ki, guya bu hədis sünnilərin səhih kitablarında mövcuddur.

Rəvayyəti Xətib "Tarix" (7/11) kitabında bu isnadla nəql etmişdir: Əbul Qasim Əyyub ibn Yusif ibn Əyyub – Ənbas ibn İsmail – Əyyub ibn Musab əl Kufi – İsrail – Əbu İshaq - əl Bərr.

İbn Cəuzi "İləl"də yazır: "Sənəddə məchul ravilər vardır. Rəvayyəti həmçinin, Əbu Bəkr ibn Mərdaveyh bu isnadla nəql etmişdir: Hüseyn Əşkar – Qeys ibn Rabiə - Leys – Mücahid – İbn Abbas. Buxari qeyd etmişdir ki,

[1] "Mizanul itidal", 2/75/№2890
[2] "Mizanul itidal",2/75/№2890

Hüseynin məqbul olmayan rəvayyətləri vardır. Qeys ibn Rabiə haqqında isə ibn Məin demişdir: "o heçnədir." Əhməd isə onun şiə olmasını qeyd etmişdir."[1]

139) Rafizi yazır: *Əbdurrahmən ibn Aufun hədisini xatırla. Peyğəmbər (sallallahu aleyhi və səlləm) təhdidlə xitab etdi: "And olsun canım əlində olana ki,siz namaz qılıb,zəkat verməlisiniz.Yoxsa sizin yanınıza elə bir şəxsi göndərərəm ki,o məndəndir vəya mənim canımdır." Hədisin sonunda deyilir ki, Əlinin əlini tutub dedi: "O şəxs budur."*[2]

— Rəvayyəti Albani "Silsilə əhadis əd daifə" №4960-də zəif adlandırmışdır. Bu rəvayyəti Bəzzar "Musnəd" (№1050)-də, Əbu Yəla "Musnəd" (№859)-də, ibn Əbu Şeybə "Musənnəf" (№36953)-də, ibn Əsakir "Tarix" (42/343)-də nəql etmişlər. əl Heysəmi "Zəvaid" (№14960)-də yazır: *"Ravilər silsiləsində Təlha ibn Cəbr vardır ki,o zəifdir."*

140) Rafizi 52-ci məktubda yazır: *"Biz İslam yolunda (mühacir və ənsardan) can qoyanların fəzilətinə inanırıq. Belə ki, onları saymaqla qurtarmaq olmaz. Elə yalnız bu kifayətdir ki, Quranda və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsində onlar haqqında çoxlu fəzilətlər yazılmışdır."*

— Bu rafizi müəllifə təqiyyə maskası arxasında gizlənib, müsəlmanlara yalandan gülümsəyərək "ilk müsəlmanların fəzilətini qəbul edirik" deməsi heç nə vədd etmir. Çünki, biz bilirik ki, bu sapıqlara görə guya Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra 3-4 nəfərdən başqa bütün səhabələr İslamdan çıxdılar. Şiələr imam Baqirdən rəvayyət edirlər: **"İnsanlar Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra üç nəfər xaric mürtəd oldular. Bunlar Salman, Əbu Zərr və Miqdaddır."**[3]

Bu rəvayyəti Məclisi "Miratul uqul" kitabında muvəssəq hesab etmişdir. Onlar nəql edirlər ki, məsum bildikləri şəxs üç nəfərdən başqa bütün səhabələri küfrdə ittiham edir, bu rafizi Əbdulhüseyn isə ikiüzlülük edərək deyir ki,biz

[1] 1/212/№335
[2] Məktub 50
[3] "Rəvdətul Kafi",c.8,səh 245-246,hədis 341; "Biharul Ənvar", c.22,səh 333,352,440; Mufid, "İxtisas", səh 10; Tusi, "Mərifətul rical", c.1,səh 38; Kəşani, "Safi" c.1,səh 389 və s.

ilk müsəlmanların fəzilətlərini qəbul edirik. Şiələrin səhabələrə qarşı olan münasibəti haqqında daha ətraflı məlumat əldə etmək istəyənlər "Aldanmayın" kitabına müraciət edə bilərlər.

141) Rafizi 52-ci məktubda yazır: ***"Təbərani və başqaları düzgünlüyünə inandıqları sənədlə*** *Zeyd ibn Ərqəmdən nəql etmişlər ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Qədir-xumda,ağacların altında xütbə oxuyub,buyurdu: "Ey insanlar!Allahın yanına dəvət olunub və bu dəvətə müsbət cavab verməyimə az qalıb. Mən məsulam və sorğuya çəkiləcəyəm.Siz də məsulsunuz və dindiriləcəksiniz.Orada nə deyəcəksiniz? Dedilər: "Şahidlik edəcəyik ki,risaləti təbliğ etdin,cihad edib,nəsihət etdin.Allah sənə əcr versin. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: Məgər sizin şəhadətiniz bu deyilmi: «لا اِلهَ اِلاّ اللهُ وَ اِنَّ مُحَمّداً عَبْدُهُ وَ رَسُولُه» və belə deyilmi ki, behişt və cəhənnəm, ölüm və ölümdən sonra həyat haqqdır? Qiyamət,şübhəsiz olacaqdır və Allah ölənləri yenidən dirildəcəkdir?" Dedilər:" Bəli, ona şahidlik edəcəyik." Bu zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) ərz etdi: Ey Allah! Şahid ol. Sonra buyurdu: "Ey insanlar! "Allah mənim mövlamdır və mən də möminlərin mövlasıyam və mən onların özündən onlara daha yaxınam." Mən hər kəsin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Ey Pərvərdigar! Onu sevəni sev,ona düşmən olana düşmən ol! Sonra buyurdu: "Ey camaat! mən sizdən əvvəl gedirəm və siz Kövsər hovuzunun kənarında mənim yanıma daxil olacaqsınız. Onun uzunluğu Busra (Şam şəhərlərindən biri) ilə Səna arasındakı məsafədən daha çoxdur. Bu hovuzun kənarında ulduzların sayı qədər gümüş qablar mövcuddur. Mənimlə orada görüşəndə, sizdən "səqəleyn" haqqında soruşacağam ki, məndən sonra onlarla necə rəftar etmisiniz. Onlardan biri "Siqli-əkbər" – Allahın kitabıdır ki, bir ucu Allahın "əlində", birisi isə sizin ixtiyarınızdadır. Ondan yapışın ki, yolunuzu azmayasınız. O birisi isə "yaxınlarımdır" (Əhli-beytim). Allah Təala məni agah edibdir ki, bu ikisi Kövsər hovuzunun kənarında mənim yanıma daxil olana qədər bir-birindən ayrılmayacaqlar."*[1]

— Birincisi, Təbərani bu rəvayyəti Huzeyfə ibn Əsəd əl Qifaridən nəql etmişdir. İkincisi, rəvayyətin ravilər silsiləsi səhih deyildir. Orada Zeyd ibn Həsən əl Ənmati vardır.

[1] Məktub 54

əl Heysəmi "Məcməu zəvaid" (№14966)-də rəvayyəti nəql etdikdən sonra yazır: *"Təbərani nəql etmişdir. Sənədində Zeyd ibn Həsən əl Ənmati vardır. Əbu Hatim onun haqqında deyir: "munkərul hədis" ibn Hibban isə onu etibarlı hesab etmişdir."* Rəvayyəti Albani "Silsilə əhadis əd daifə" №4961-də zəif adlandırmışdır.

142) Rafizi yazır: *"Hakim "Müstədrək"də Zeyd ibn Ərqəmdən (Buxari və Muslimin şərtinə əsasən) iki düzgün təriqlə nəql etmişdir: "Allah rəsulu (sallallahu aleyhi və səlləm) "Vida həccin"dən qayıdıb Qədir-xuma yetişəndə əmr verdi ki,orada ağacların altını süpürsünlər. Sonra buyurdu: "Mən (haqqa tərəf) dəvət olunmuşam və onu qəbul etmişəm. Mən iki qiymətli şeyi sizin yanınızda qoyuram: "Allahın Kitabı və Əhli beytim. Görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz. Kövsər hovuzunun kənarında mənim yanıma gələnə qədər bu ikisi bir-birindən ayrılmayacaqdır." Sonra buyurdu: "Böyük və əzəmətli Allah mənim mövlamdır və mən hər bir möminin mövlasıyam." Sonra Əlinin əlindən tutdu və buyurdu: "Mən hər kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Ey böyük Allah" Onu sevəni sev, ona düşmən olana düşmən ol."*[1]

— Hakim rəvayyəti "Müstədrək" (№4576)-də Yəhya ibn Həmmada qədər olan üç sənədlə nəql etmişdir.

1) Əbul Hüseyn Muhəmməd ibn Əhməd ibn Təmim əl Hənzali əl Bağdadi – Əbu Qalabət Əbdulməlik ibn Muhəmməd ər Rəqqaşi – Yəhya ibn Həmmad.

2) Əbu Bəkr Muhəmməd ibn Bavlaveyh və Əbu Bəkr Əhməd ibn Cəfər əl Bəzzar – Abdullah ibn Əhməd ibn Hənbəl – Əhməd ibn Hənbəl – Yəhya ibn Həmmad.

3) Əbu Nasr Əhməd ibn Səhl əl Fəqih Buxari – Saleh ibn Muhəmməd əl Hafiz əl Bağdadi – Xəlf ibn Salim əl Muhrəmi – Yəhya ibn Həmmad.

Yəhya ibn Həmmad dedi: Mənə Əbu Əvənah Süleyman əl Əmaşdan nəql edir ki,mənə Hubeyb ibn Əbu Sabit Əbu Tufeyldən,o da Zeyd ibn Ərkamdan nəql etmişdir.

[1] Məktub 54

Zəhəbi "Təlxis" kitabında bu rəvayyət haqqında bir söz deməmişdir. Əbu Əvənah bu Vədah ibn Abdullahdır. İslam alimləri onu yekdilliklə mötəbər hesab etmişlər. Əbu Hatim dedi: "Düzgün və etibarlı ravidir. Amma, hafizəsindən etdiyi nəqllərdə adətən səhvlərə yol verərdi."[1]

Hubeyb ibn Əbu Sabit bu rəvayyəti Əbu Tufeyldən birbaşa onun özündən eşidib-eşitməməsini bəlli etmədən nəql etmişdir.

İbn Hacər yazır: *"Hubeyb ibn Əbu Sabit əl Kufi məşhur tabeindir ki, rəvayyətlərin nəqli zamanı çoxlu tədlislərə yol verərdi. Bunu ibn Huzeymə, Dəraqutni və başqaları qeyd etmişlər."*[2]

Qazi Vəliuddin Əbu Zura ibn əl İraqi "Kitabul müdəllisin"(səh 39, №7)-də,Sibt ibn əl Əcmi əş Şafi "Tibyanul əsmai əl müdəllisin" (səh 19, №10)-da, Suyuti "Kitabu əsmai müdəllisin" (səh 36, №7)-də qeyd etmişlər ki, ibn Hibban Hubeybi müdəllis hesab etmişdir. Hubeybin müdəllis olması və bu rəvayyəti birbaşa özünün eşidib-eşitməməsini bəlli etmədən rəvayyət etməsi ravi silsiləsini zəiflədən faktorlardandır.

Daha sonra rafizi yazır: *"Hakim bu rəvayyəti "Müstədrək" kitabının üçüncü cildinin 553-cü səhifəsində nəql etmişdir."*

— Rəvayyətin sənədi belədir: Muhəmməd ibn Əli əş Şeybani – Əhməd ibn Həzm əl Qifari – Əbu Nueym – Kamil Əbul Əla demişdir ki, mən Hubeyb ibn Əbu Sabitin bunu Yəhya ibn Cədaddan, onun da Zeyd ibn Ərkamdan nəql etdiyini deyərkən eşitdim. Hubeybin tədlisi baradə yuxarıda bəhs etdik. Bu isnadda ikinci qüsur Kamil Əbul Əladır. Bu Kamil ibn Əla ət Təmimi əs Sadi əl Kufidir. İbn Məin onun mötəbər hesab etmişdir.Nəsainin də onda bir problem görməməsi nəql olunmuşdur.

İbn Hibban onun haqqında deyir: *"Ravi silsiləsini təhrif edənlərdən biri idi və mürsəl rəvayyəti özü də bilmədən Peyğəmbərə (sallallahu aleyhi və səlləm) nisbət edərdi."*[3]

[1] "Mizanul itidal", 4/334/№9350
[2] "Təbəqat əl müdəllisin",səh 37, №69
[3] "Mizanul itidal", 3/400/№6929

143) Rafizi yazır: *"İmam Əhməd Hənbəl Zeyd ibn Ərqəmdən belə nəql etmişdir: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə bir vadiyə varid olduq ki,ora Qədir xum adlanırdı. Namaz əmri verildi və o bərk istidə namaz qıldı.Sonra oradakı ağacın üstünə bir parça saldılar ki,Peyğəmbər (sallallahu aleyhi və səlləm) üçün kölgə olsun.O həzrət,bizim üçün xütbə oxudu və buyurdu: Məgər şəhadət vermirsinizmi ki,mən hər bir möminin mövlasıyam? Dedilər: Bəli! Buyurdu: Elə isə,mən hər kəsin mövlasıyamsa, Əli onun mövlasıdır. Ey Pərvərdigar! Onu sevəni sev, ona düşmən olana düşmən ol."*[1]

— "Musnəd" kitabında bu rəvayyətin isnadı belədir: Abdullah – Əhməd ibn Hənbəl – Süfyan – Əbu Əvənah – Muğira – Əbu Ubeyda – Meymun Əbu Abdullah dedi ki,Zeyd ibn Ərqam dedi..."

Meymun Əbu Abdullah olduqca zəifdir. İmam Əhməd qeyd etmişdir ki, bu ravinin münkər rəvayyətləri mövcuddur. İbn Məin onun "heçnə" olduğunu demiş, Əbu Davud isə onun tənqid olunduğunu söyləmişdir."[2]

144) Rafizi yazır: *"Nəsai Zeyd ibn Ərqəmdən nəql etmişdir ki,Peyğəmbər (sallallahu aleyhi və səlləm) "Vida həcci"ndən qayıdıb Qədir-xuma daxil olanda buyurdu ki,orada ağacların altını süpürsünlər.Ondan sonra buyurdu:"Mən (haqq tərəfə) dəvət olunmuşam və dəvəti qəbul etmişəm.Mən sizin yanınızda iki qiymətli və əziz əmanət qoyuram:Allahın kitabı və Əhli-beytim.Baxın,görün məndən sonra onlarla necə rəftar edəcəksiniz!Onlar Kövsər hovuzunun yanında mənim yanıma gələnə qədər bir-birlərindən ayrılmayacaqlar.Sonra buyurdu: Allah mənim mövlamdır və mən hər bir möminin mövlasıyam.Sonra Əlinin əlindən tutub dedi: "Mən hər kəsin mövlasıyamsa,bu da onun mövlasıdır. Ey Pərvərdigar! Onu sevəni sev,ona düşmən olana düşmən ol."*[3]

— "Xəsais" kitabında bu hədis 76 nömrəli hədis altında bu isnadla nəql olunur: Süleyman əl Əmaş: mənə Hubeyb ibn Əbu Sabit Əbu Tufeyldən nəql etdi. Hubeyb ibn Əbu Sabit və onun tədlisi baradə yuxarıda bəhs edildi.

[1] Məktub 54
[2] Təhzib əl kəmal", 29/№6340
[3] Məktub 54

Rəvayyəti nəql edən Əbdulhüseyn yazır: *"Muslim bu hədisi Zeyd ibn Ərqəmdən "Səhih" kitabının ikinci cildinin 325-ci səhifəsində Əlinin fəzilətləri bölümündə nəql etmişdir. Lakin,o hədisi ixtisar edərək,onun sonunu nəql etməmişdir. Bəli,insanların əməlləri belədir."*

— Rafizi yalan danışdı. İmam Muslimin kitabında olan hədis tamam başqadır. Muslimin kitabında olan hədisin mətni belədir: "**Ey insanlar, mən də bəşər övladıyam, Rəbbimin elçisinin gəlməsinə və mənim də onu qarşılamağıma çox az qalıb. Mən sizə iki ağır yükü tərk edib gedirəm. Birincisi, Allahın kitabıdır. Hidayət və nur ondadır. Allahın kitabını əsas götürün və ondan tutunun**". Bir müddət, Allahın kitabı haqqında danışıb, insanları ona rəğbətləndirdi və sonra dedi: "***(İkincisi)* Əhli beytimdir. Allahın adı ilə əhli beytimi sizə xatırladıram. Allahın adı ilə əhli beytimi sizə xatırladıram. Allahın adı ilə əhli beytimi sizə xatırladıram.**"

145) Rafizi yazır: *"İmam Əhməd Bəra ibn Azibdən (iki təriqlə) nəql etmişdir ki,biz Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə birlikdə idik.Qədir-xumda dayandıq və Peyğəmbər camaat (sallallahu aleyhi və səlləm) namazı qılınması barədə əmr verdi.Peyğəmbər (sallallahu aleyhi və səlləm) üçün iki ağacın altında yer hazırlandı.O,namazını qıldıqdan sonra Əlinin əlindən tutub dedi:"Məgər bilmirsinizmi ki,mən möminlərə onların özlərindən daha artıq yaxınam?" Dedilər: Bəli. Buyurdu: "Bilmirsinizmi ki,mən hər bir möminin mövlasıyam?" Dedilər: Bəli.Sonra Əlinin əlini yuxarı qaldırıb buyurdu:"Mən kimin mövlasıyamsa,bu onun mövlasıdır.Ey böyük Allah! Onu sevəni sev,ona düşmən olana düşmən ol." Ondan sonra Ömər Əli ilə görüşdü və ona dedi: "Ey Əbu Talibin oğlu! Səni təbrik edirəm ki,hər bir mömin kişinin və qadının mövlası oldun."*[1]

— Əbul Fədl Mahmud Alusinin qeyd etdiyi kimi rəvayyət zəifdir."[2] "Musnəd" kitabında bu rəvayyət iki isnadla nəql olunur.

1-ci isnad: Abdullah – Əhməd – Həmmad ibn Sələmah – Əli ibn Zeyd – Adiy ibn Sabit - əl Bəra ibn Azib.

2-ci isnad: Hudbə ibn Xalid – Həmmad ibn Sələma – Əli ibn Zeyd – Adiy ibn Sabit - əl Bəra ibn Azib.

[1] Məktub 54

[2] Alusi "Ruhul məani" 6/194, Beyrut

Hər iki isnadda mətruk ravi olan Əli ibn Zeyd ibn Cadən vardır. "O, rafizi idi və onu ibn Ueyynə, Əhməd, ibn Məin, Buxari,Əbu Hatim,Əhməd əl İcli və digər alimlər zəif hesab etmişlər."[1]

146) Rafizi yazır: *"Nəsai Sədin qızı Aişədən belə nəql etmişdir: "Atamdan eşitdim ki,dedi: Cuhfə günü Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlinin əlindən tutduğu halda xütbə oxudu.O,Allaha həmd-səna edəndən sonra buyurdu: "Ey camaat! Mən sizin mövlanızammı?" Ərz etdilər ki, bəli (mövlamızsan). Sonra Əlinin əlini qaldırıb dedi: "Bu mənim vəlim və canişinimdir, mənim borcumu əda edir və mən onu sevənin dostu, sevməyənin (ona düşmən olanın) isə düşməniyəm."*[2]

— Ravi silsiləsi zəifdir. Nəsainin isnadı belədir: Muan – Musa ibn Yəqub - əl Muhacir ibn Mismar – Aişə bint Sədd və Amr ibn Sədd.

Musa ibn Yəqub, ibn Məinin onu etibarlı hesab etməsinə baxmayaraq, zəifdir. Nəsai qeyd etmişdir ki, *"o mötəbər deyil."* İbn Mədini dedi: *"Zəifdir, nəqlləri məqbul deyil."*[3]

147) Rafizi yazır: *"Həmçinin,Nəsainin kitabında Səddən belə nəql olunmuşdur: "Allah rəsulu (sallallahu aleyhi və səlləm) ilə birlikdə idik. Qədir-xuma çatanda dayandı.Ondan irəlidə gedənlər qayıtdılar,geri qalanlar isə gəlib çatdılar.Camaatın hamısı toplananda buyurdu:"Ey camaat" Sizin vəliniz kimdir? Dedilər: "Allah və rəsulu." O, Əlinin əlindən tutub, qaldırdı və buyurdu: "Allah və rəsulu hər kəsin vəlisidirsə (mövlasıdırsa),bu da onun vəlisidir.Ey böyük Allah! Onu sevəni sev,ona düşmən olana düşmən ol."*[4]

— Nəsai bu rəvayyəti "Sunən əl kubra" (№8481) və "Xəsais" kitablarında bu isnadla nəql etmişdir: Yaqub ibn Cəfər ibn Əbu Kəsir – Muhacir ibn Mishər – Aişə bint Sədd.

---

[1] "Mizanul itidal", 3/127/№5844
[2] Məktub 54
[3] "Mizanul itidal", 4/227/№8945
[4] Məktub 54

Mizzi "Təhzib əl kəmal" (32/№7085) kitabında Yaqubun bioqrafiyasını qeyd etmiş amma, onun ravi kimi nə dərəcədə olduğunu bildirməmişdir. Bu hədisin şərhini iki sitatla yekunlaşdırmaq istərdik. Şeyx Osman Xamis "Huqbə minət tarix" kitabında (səh 213) yazır:

"Xülasə, Səhih Muslimin rəvayyət etdiyi hədisdə, "**Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır",** sözləri yoxdur. Bu əlavə, Tirmizinin, Əhmədin, Nəsainin "Xəsais" əsərində, Hakim və digərlərinin kitablarında, Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* səhih sənədlərlə rəvayyət olunmuşdur. Amma, digər əlavələr, məsələn: *"**Allahım, onu dost tutanı, Sən də dost tut**"* bəzi elm adamları bu rəvayyətin səhih olduğunu vurğulamışlar, lakin daha doğru rəyə əsasən bu əlavə səhih deyildir. Digər əlavə isə, *"**Ona kömək olana, Sən də kömək ol. Onu alçaldanı, Sən də alçalt. O, harada olsa haqqı da onunla bərabər et**"* bu Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* adından uydurulmuş bir yalandır."

Bundan əlavə ibn Hacər "Səvaiq əl muhriqa" kitabında (səh 119)-da yazır: **"Qeyd etmək lazımdır ki, nə ərəb dilində, nə də şəriət terminlərində "mövla" sözü "imam" sözü mənasını vermir."**

148) Rafizi yazır: *"Qədir" hadisəsi Uca Allahın inayət yeri olmuşdur.Çünki,onu Öz peyğəmbərinə vəhy buyurmuş,Qurandan bir ayə onun haqqında nazil etmişdir ki,müsəlmanlar gecə-gündüz həm xəlvət,həm aşkar dualarında,namazlarında,minbərdə,məscid və ibadətgahlarının hündür minarələrinin üstündə,xülasə, hər bir yerdə onu tilavət etsinlər oxusunlar:"Ey Peyğəmbər!Rəbbim tərəfindən sənə nazil olunmuşları təbliğ et.Əgər bunu etməsən,Allahın risalətini yerinə yetirməmiş olarsan.Allah səni insanlardan qoruyacaqdır."*

Haşiyədə yazır: *"Şiələrin fikrincə,bu ayə şübhəsiz Əlinin vilayəti haqqında,Qədir-xum günü nazil olmuş və bu haqqda bizim xəbərimiz Əhli beyt imamları tərəfindən deyilmişdir.Amma, imam Vahidinin "Əsbabun-nuzil" kitabının 150-ci səhifəsində "Maidə" surəsinin bu ayəsinin təfsirində qeyri-itrət təriqiylə iki mötəbər təriqdən verdikləri sizə kifayət edər.O, Ətiyyə və Əbu Səid Xidridən nəql edir ki,bu ayə Qədir-xumda Əli ibn Əbu Talib haqqında nazil olmuşdur.*

Daha sonra yazır: *"O gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) imamət və xilafətin Əliyə verilməsi əhdini birbaşa risalətin tamamı yönündə təbliğ edəndən sonra Allah bu ayəni nazil etdi: "Bu gün dininizi tamamlayıb mükəmməl etdim,sizə olan nemətimi tamamladım və bir din kimi sizin üçün İslamı bəyənib seçdim."*[1]

— Bu ayənin "Qədir xum"günü nazil olduğunu deyən rafizi yalan danışır. Birincisi,Vahididə olan isnadın səhih olması sözü yalandır. Biz bu məsələni 33-cü bölümdə şərh etmişdik. O, həmçinin ikinci ayə baradə də yalan danışır. Bu ayə Qədir xum günü nazil olmamışdı. Heç bir səhih dəlil yoxdur ki, bu ayə həmin günü nazil olmuşdu. Daha ətraflı 32-ci bölümdə izah olunmuşdur.

149) Rafizi yazır: *"Karvan Xum vadisinə çatanda Cəbrail nazil olub Allah tərəfindən "təbliğ" ayəsini gətirdi ki, bu vaxt,o Həzrət dəvədən endi. Nəhayət, geridə qalanlar da gəlib çatdılar və irəlidə olanlar geri döndülər.Hamı toplaşandan sonra onlarla namaz qıldı və sonra xütbə oxuyub,Əlinin vilayət "nəss"ini elan etməyə başladı ki, ondan bir parçanı yazdım.Bundan əlavə eşitmədiklərin də düzgündür ki, eşitdiklərin sənə kifayət edər. Bu məsələni o gün Peyğəmbərlə (sallallahu aleyhi və səlləm) olan hər kəs bildi və başqalarına da çatdırdı.Dediyim kimi həmən gün 100 mindən çox adam müxtəlif yerlərdən gəlmiş idi.Bu "qədir" hadisəsinin təvatürünü tələb edir."*[2]

— 100 000 adam?!! İnsanlar həccdən dönən zaman?! Aşağıda həmin məntəqənin xəritəsi təqdim olunmuşdur.

[1] Məktub 56
[2] Məktub 56



Xəritədən də göründüyü kimi Qədir məntəqəsinə yalnız Mədinəyə geri qayıdan müsəlmanlar yetişə bilərdi. Məkkə, Taif, Yəmən müsəlmanları həmin yerə gedə bilməzdilər. Çünki, onların yurdlarına dönüşü buradan keçmirdi. Qədirdə Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* yalnız Mədinəyə geri qayıdan səhabələr müşaiət edə bilərdi! Şiələrin iddia etdiyi, İslam ümməti üçün Əlinin təyini kimi mühüm olan bir məsələ həqiqətən olmuşdusa,bu gərək Qədir xumda deyil, Məkkədə bütün müsəlmanların iştirak etdiyi Vida həcci zamanı olmalı idi. Şiələrə görə elə çıxır ki,Vida həcci zamanı Mədinə və kənarlarından 100 000 insan həccdə iştirak edirdi. Vida həcci hicrətin 10-cu ilində baş vermişdir. 8-ci ildə isə Məkkə fəth olunmuşdu.

Mubarəkfuri yazır: *"Hicrətin 8-ci ilində Ramazan ayının 10-da Peyğəmbər (sallallahu aleyhi və səlləm) Mədinədə Əbu Rahəmə əl Qifarini qoyaraq,10 000 insan ilə bərabər Məkkəyə yürüşə çıxdı."*

Məkkənin fəthi zamanı 10 000 insan və 2 il sonra təkcə Mədinə və ətraflarından 100 000 insan?!

150) Rafizi yazır: *Rəhəbə əhvalatı və sorğusu haqqında deyilmiş xəbərlərdən imam Əhmədin Əbu Tufeylidən "Musnəd"in 4-cü cildinin 370-ci səhifəsində Zeyd ibn Ərqəmin haqqında nəql etdiyini hədisi sənə kifayətdir.O, deyir: "Əli camaatı Rəhəbəyə yığdı və sonra buyurdu: "Allah xatirinə şahid tələb edirəm və "qədir" günündə olan hər bir müsəlmandan istəyirəm ki,dursun və Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) eşitdiyini desin.Otuz nəfər ayağa durdu." Mən deyirəm: "Bu imam Əlinin məşhur mənaqibindəndir ki, ibn Quteybə Dinəvəri onu zikr etmiş, "Maarif" kitabının 194-cü səhifəsində Ənəsi xəstəliyə mübtəla olmuşların sırasında vermiş və bu mətləbi imam ibn Hənbəl "Musnəd"in 1-ci cildinin 119-cu səhifəsinin axırında vermişdir. Orada yazır: "O həzrətin lənətinə giriftar olmuş üç nəfərdən başqa hamı ayağa durdu."*[1]

— Birincisi, qeyd olunan rəvayyət "Musnəd" kitabına sonradan oğlu Abdullah tərəfindən edilən əlavədir. Bu rəvayyəti o atasından nəql etməmişdir. İkincisi, şeyx Əhməd Şakir "Musnəd" kitabının şərhində bu rəvayyətin ravi silsiləsinin zəif olduğunu qeyd etmişdir. İsnadda məchul olan Vəlid ibn Uqbə vardır.[2] Həmçinin, Simaq ibn Ubeydə də məchulluq vardır.

151) Rafizi yazır: *"Sən yaxşı bilirsən ki,30 səhabənin gizli sövdələşməsi və yalan şahidliyi ağla batmayan bir ehtimaldır."*[3]

— Burada rafizi "Mən kimin mövlasıyamsa,Əli də onun mövlasıdır." kəlməsini rəvayyət edən səhabələrdən bəhs edir. Sual yaranır. Niyə görə rafizi bu 30 səhabənin yalan danışması ehtimalını inkar edir? Axı,rafizilər səhabələrin Əbu Bəkri seçməsini, Ömərə və Osmana yekdilliklə beyət etmələrini qəbul etmirlər. Hansı daha ağlabatandır? 30 nəfər bir rəvayyəti nəql edəndə,yoxsa minlərlə insan bir adama beyət edəndə!? Əbdulhüseyn 30 nəfərin sövdələşməsini qəbul etmir. Lakin, rafizilər bütün səhabələrin Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əmrinə müxalif olub, Əliyə deyil,

[1] Məktub 56
[2] "Mizanul itidal", 4/342/№9390
[3] Məktub 56

Əbu Bəkrə beyət etmələrini iddia edirlər. Onlar 30 nəfərin səhv etmə ehtimalını inkar etdiyi halda, yüzlərlə səhabənin yanıldığını iddia edirlər. Məntiq? Haradadır o?

152) Rafizi yazır: *"Əbu Tufeyl deyir: "Mən Rəhəbə yığıncağından sonra çox fikirləşirdim ki,**necə olub ki,o vaxt ümmətin əksəri buna əməl etməyib.**Ona görə də Zeyd ibn Ərqəmin yanına getdim və dedim: Mən Əlidən eşitdim ki,bu cür sözlər deyirdi.Zeyd dedi: "Bu bir həqiqətdir ki,inkar yeri yoxdur.Bunu mən də Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) eşitmişəm."*[1]

— Bu əslində ərəbcə originalda olmayan tərcümədir. İşarələnmiş hissə Əbu Tufeylin deyil, müəllif Əbdulhüseynin sözləridir.

153) Rafizi yazır: *"Bu deyilənləri imam Əhmədin "Musnəd"indəki Zeyd ibn Sabitin Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) nəql etdiyi hədis də sübut edir: "Mən sizin aranızda iki xəlifə qoyuram: "ip tək göydən yerə endirilmiş Allahın Kitabı və Əhli beytim.Onlar Kövsər hovuzunun kənarında mənim yanıma varid olana qədər bir-birindən ayrılmayacaqlar."*[2]

— Hədisi Təbərani "əl Kəbir" (№4921), Əhməd "Fədail" (№1032)-də bu isnadla nəql etmişlər: Şərik ibn Abdullah – Ruqin - əl Qasim ibn Hisan.

Şərikin hafizəsinin zəif olması baradə bəhs edilmişdi. əl Qasim ibn Hisan da zəif ravi olmuşdur. Buxari onu tanımadığını və rəvayyətlərinin məqbul hesab olunmadığını qeyd etmişdir.[3]

154) Rafizi yazır: *"Hətta,Əbu Bəkr və Ömər Peyğəmbərin (sallallahu aleyhi və səlləm) "qədir" günü Əli haqqında dediyi sözünü eşidəndə ona dedilər: "Ey Əbu Talibin oğlu! Sən hər mömin kişi və mömin qadının mövlası oldun!"*[4]

Haşiyədə yazır: *"İbn Həcərin "Səvaiq" kitabında nəqlinə əsasən Daraqutni nəql etmişdir. Onun kitabının 26-cı səhifəsinə müraciət et.Başqa hədis yazanlar da öz sənədləri və təriqləri ilə bunu nəql etmişlər.Əhməd də Ömərdən belə sözü Bəra ibn Azibin*

[1] Məktub 56
[2] Məktub 58
[3] "Mizanul itidal", 3/369/№6799
[4] Məktub 60

"Musnəd"in 4-cü cildinin 281-ci səhifəsindəki hədisinə əsasən vermişdir.Bu məsələ haqqında kitabın 54-cü məktubunda da bəhs edilmişdir."

— Bu rəvayyətin cəmi iki isnadı vardır və bunlar da çox zəifdir. İbn Kəsir "əl bidayə vən nihayə" (5/185)-də yazır: *"Sənəddə Əli ibn Zeyd ibn Cadən və Əbu Harun əl Abdi vardır ki, hər iki ravi də zəifdir. Digər isnadda olan Musa ibn Osman əl Hədrəmi də çox zəifdir."*

155) Rafizi yazır: *"Daraqutni "Səvaiq"in 36-cı səhifəsində nəql etmişdir ki, Ömərə dedilər: "Sən Əli ilə elə rəftar edirsən ki,Peyğəmbərin (sallallahu aleyhi və səlləm) səhabəsindən heç kəslə o cür rəftar etmirsən." Ömər cavab verdi: "Axı o mənim mövlamdır."*[1]

— Rəvayyət doğru deyildir. İbn Əsakir (42/235) bunu Dəraqutninin sənədi ilə nəql etmişdir. İsnad belədir: Səid ibn Muhəmməd əl Əsədi – Hüseyn əl Əşkar – Ammad əd Duhni – Səlim ibn Əbu Cad dedi ki, Ömərə dedilər..."

Hüseyn əl Əşkarın zəif şiə olduğu baradə yuxarıda bəhs edildi. Səlim ibn Əbu Cad Öməri görməmişdir. Yəni, rəvayyətin sənədində zəif ravi olmaqla bərabər, o qopuqdur.

156) Rafizi yazır: *"Başqa bir məsələ də bizim dediyimizin təsdiqidir: "İki ərəbin bir-birilə sözü düşmüşdü.Qəzavət üçün Ömərin yanına gəldilər.Ömər Əliyə dedi ki,onların arasında hökm etsin.O ikisindən biri dedi: "Bu şəxsmi bizim aramızda hökm edəcək?" Ömər yerindən sıçrayıb,onun boğazından tutdu və dedi: "Vay olsun sənə! Heç bilirsənmi bu kimdir? Bu sənin mövlan və hər bir mömin şəxsin mövlasıdır və mövlası bu şəxs olmayan mömin deyil."* [2]

— Bu rəvayyətin sənədini və ravi silsiləsini tapmaq mümkün olmadı.

157) Rafizi yazır: *"Lakin,xəlifələrə hörmət bu misallarsız da gündəmdədir.Bu baradə mən münasib yerdə bəhs edəcəyəm."*[3]

[1] Məktub 60
[2] Məktub 60
[3] Məktub 60

— Allahdan başqa güc və qüdrət sahibi yoxdur! Hörmət?! Rafizilər xəlifələrə hörmət edirlər!? Məgər onlar məsum imamdan nəql etməyiblər ki, guya Əli Əbu Bəkr və Ömər haqqında demişdi: ***"Kafirdirlər və onları sevənlər də kafirdir."***[1]

158) Əbdulhüseyn 62-ci məktubda yazır: *"Bizdə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) pak Əhli beytinin təriqi ilə səhih və mütəvatir "nass"lar vardır ki,sünnilərin onlardan xəbərləri yoxdur.İndi sizə qırx hədis nəql edirəm."*

Haşiyədə yazır: *"Bu ədədi ona görə seçdik ki,Əmirəl-möminin Əli ibn Əbu Talib,Abdullah ibn Abbas,Abdullah ibn Məsud,Abdullah ibn Ömər,Əbu Səid əl Xidri,Əbu Dərda,Əbu Hüreyrə,Ənəs ibn Malik,Muaz ibn Cəbəl çoxlu və müxtəlif təriqlərlə belə nəql etmişlər: Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurub: "Kim dinimdən 40 hədis əzbərləyib onu qorusa,Allah qiyamətdə o kəsi fəqih və alimlərin zümrəsində məhşərə gətirəcəkdir." Başqa bir rəvayyətdə isə deyilir: "Allah onu alim və fəqih kimi dirildəcək." Əbu Dərdanın rəvayyətində deyilir: "Mən qiyamətdə onun müdafiəçisi və (lehinə) şahid olacağam." İbn Məsudun rəvayyətində "...ona deyiləcək behişt qapılarının hansından istəyirsən, daxil ol." İbn Ömərin rəvayyətində belədir: "...alimlərin sırasına yazılar və şəhidlərlə birgə dirilər." Qırx hədisin və başqalarının əzbərlənməsi haqqında məktublarımızda da bir sıra hədislər qeyd etmişdik. Peyğəmbərin (sallallahu aleyhi və səlləm) bu sözü bizə kifayətdir: "Allah mənim sözümü olduğu kimi eşidib,onu əzəbərləyib və başqalarına çatdırana yardım edər."*

— İlk öncə qeyd etmək istəyirəm ki, bu yalançı iddia edir ki, nəql edəcəyi 40 hədis səhihdir. Heç şübhə yoxdur ki, bizim nəzdimizdə bu rəvayyətlər səhih deyil. Fəqət,oxucu özü də inşəAllah şahid olacaqdır ki, bu rəvayyətlər heç şiə nəzdində də səhih deyildir. İkincisi,40 hədisin toplanması baradə olan bütün rəvayyətlər zəifdir. İmam Nəvəvi deyir: "Hafizlər yekdilliklə bu hədisləri zəif hesab edirlər.Baxmayaraq ki,onların varid olma yolları çoxsaylıdır."[2]

[1] "Biharul ənvar", 69/137-138

[2] İbn Dəqiq əl İyd, "Şərhul ərbəin ən Nəvəvi", səh 33-34

İndi isə biz inşəAllah göstərəcəyik ki,bu rafizinin öz mənbələrindən nəql etdiyi heç də bütün rəvayyətlər şiə hədis elminə görə səhih deyildir. Lakin, ilk öncə şiələrə görə səhih olan rəvayyətlər baradə bir neçə kəlmə. "Mərciə təqlid" olan Lənkəraninin rəsmi ofisi tərəfindən mənə ünvanlanmış cavab məktubunun surətini təqdim edirəm:



From: Grand Ayatollah Fazel Lankarani (fazel@lankarani.com)
To: abdullah_efendi@yahoo.co.uk
Date: Wednesday, 21 November, 2007 10:23:34 AM
Subject: Answer - 39006

In the name of Allah, the Compassionate the Merciful
Salamun alaikum

1) The Saheh (authentic) tradition is that which has been narrated by a chain of transmitters who are all just and Imami (twelver) Shia.
2) The Arabic statement in your message is not a tradition which describes the conditions which a reliable hadith transmitter should bear. If you think it is a hadith, you should send us its address so that we can verify it.

Wassalam

Tərcümə belədir: *1) Səhih hədis o hədis hesab olunur ki,raviləri adil və 12 imami şiə olduğu halda ardıcıllıqla nəql olunsun."*

Müasir şiə yazıçılarından olan İlqar İsmayılzadə yazır: *"Altıncı əsrdən sonra yaşamış Əhli beyt məzhəbi alimləri aşağıdakı qaydanı təsbit etmişlər: /Səhih/ hədis o hədis hesab olunur ki,ravi silsiləsi qırılmaz tellərlə məsuma (imam vəya peyğəmbər) gedib çatsın.Həmçinin,bütün ravilər İmami şiə və adil olmalıdırlar."*[1]

Biz buradan nə başa düşürük? Şiələrə görə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabələrindən 4 nəfəri istisna olmaqla hamısı kafir olmuşdular. Bu dörd nəfərə Əli, Fatimə, Həsən, Hüseyn (Allah onlardan razı olsun) də əlavə

[1] "Quran elmləri ensiklopediyası", səh 576

edək. Bu qədər! Bu səhabələrdən başqa yerdə qalan səhabələr tərəfindən nəql olunan bütün hədislər onlara görə səhih hesab oluna bilməz. Bu qayda nəinki, səhih hədisə, eyni zamanda yaxşı (həsən) hədisə də aiddir.

Şiə alimi Səid Rəşadi "Hədis elmi" (səh 34) kitabında yazır: *"Yaxşı (həsən) hədis o rəvayyət hesab olunur ki,imama qədər gedib çatır və onu nəql edən bütün ravilər tanınmış və 12 imami şiələrdir."*

Bu məktubda o iki şiə alimi olan şeyx Səduq və Tusinin kitablarında rəvayyətlər nəql edir. Onun gətirdiyi heç bir rəvayyət müsəlmanlar əleyhinə dəlil hesab oluna bilməz. Səduq bu o şeyx Səduqdur ki, kitabında bütün İslam ümmətini küfrdə ittiham etmişdir. Məşhur "Risalətul itiqaq" kitabında yazır: ***"Bizim etiqadımıza görə, Əlinin və ondan sonra gələn imamların imamətini inkar edən, sanki bütün peyğəmbərləri inkar edib. Əmirəlmöminini qəbul edib, imamlardan birini inkar edən, sanki bütün peyğəmbərləri qəbul edib, Muhammadı*** *(sallallahu aleyhi və səlləm)* ***isə inkar edib."***[1]

Heç bir şübhə yoxdur ki, İslam ümmətinin imamət adında heç bir dini əsası yoxdur. Rafizi bu məktubda 40 rəvayyət nəql etmişdir. Biz onlardan bəzilərini şiə rical kitablarında olan məlumatlar işığında araşdıracayıq. Beləliklə, məlum olacaq ki, bu rəvayyətlər nəinki bizə görə, heç şiələrə görə də səhih deyildir.

1) ***"Ey Səmurənin oğlu! Rəylər müxtəlif və pərakəndə olanda Əli ibn Əbu Taliblə birgə ol! O, məndən sonra mənim ümmətimin imamı və xəlifəmdir."***

— Şeyx Səduq hədisi 24-cü fəsildə,səh 256-da nəql etmişdir. Sənəd belədir: Muhəmməd ibn Əli Məclaveyh – əmisi Muhəmməd ibn Əbul Qasim – Muhəmməd ibn Əli əs Seyrafi – Muhəmməd ibn Sinan - əl Mufəddəl ibn Ömər – Cabir ibn Yezid – Səid ibn Museyib – Əbdurrahmən ibn Səmura.

Bu ravi silsiləsi şiə alimlərinə görə səhih deyildir. Burada ən azı üç qüsur vardır.

[1] Şeyx Səduq, "Etiqad", səh 103-104; Mufid, "Etiqad", səh 104

Muhəmməd ibn Əli Məclaveyh adlı ravi: 20-ci əsrin görkəmli şiə alimi Əbulqasim əl Xoyi "Mucəm ər rical" (18/43/№11387) kitabında yazır: *"Səduqun Muhəmməd ibn Əli Məclaveyh səbəbi ilə ona qədər olan isnadı zəifdir. Bu ravinin mötəbərliyinə dair heç bir dəlil yoxdur."*

Şiə rical kitablarında bu ravinin konkret mötəbərliyi baradə heç bir məlumata rast gəlinmir. Bəzi şiə alimləri Səduqun hər dəfə bu ravinin adını çəkdikdən sonra "Allah ondan razı olsun" dediyinə əsaslanaraq, onu qəbul etmişlər. Onlar bilirdilər ki, bu ravini qəbul etməsələr çoxlu rəvayyətləri havada qalmış olardı.

Muhəmməd ibn Əli əs Seyrafi adlı ravi: Seyyid Mustafa ibn Hüseyn əl Hüseyni ət Tifraşi "Nuqəd ər rical" (4/№4915) kitabında Muhəmməd ibn Əli əs Seyrafi haqqında yazır: *"Olduqca zəif və sapıq əqidə sahibi idi. Ona heç nədə etimad etmək olmaz."*

əl Mufəddəl ibn Ömər adlı ravi: Şiə rical alimi Nəcaşi "Rical" (səh 416/№1112) kitabında onun haqqında yazır: *"Batil məzhəb sahibi idi və onun rəvayyətləri qarışıqdır."* Yenə orada yazır: *"deyirdilər ki, o Xəttabi şiələrdəndir."*

Qeyd: Əbdulqadir Bağdadi kitabında yazır: "Xəttabilər iddia edirdilər ki,Cəfər Sadiqin ilahi ruhu Əbul Xəttab əl Əsədiyə təcəlli etmişdir. Həsən,Hüseyn və övladlarının Allahın övladları və sevimliləri olduğunu iddia etmələrinə görə Xəttabilər kafirdirlər."[1]

Onun nəql etdiyi ikinci rəvayyət də səhih ravi silsiləsinə malik deyildir.

2) ***"Allah yer əhlinə baxıb, məni seçdi və peyğəmbəri etdi.Yenidən baxıb,Əlini seçdi və onu imam etdi.Sonra mənə buyurdu ki,onu özümə qardaş,vəli,xəlifə və vəzir edim."***

— Səduq ibn Babaveyh bu rəvayyəti eyni fəsildə nəql etmişdir. İsnad belədir: Muhəmməd ibn Musa ibn əl Mutəvvəkkil – Muhəmməd ibn Əbu Abdullah əl Kufi – Musa ibn İmran ən Nəhai - əmisi Hüseyn ibn Yezid – Həsən ibn Əli ibn Səlim – atası – Əbu Həmzə - Səid ibn Cubeyr – İbn Abbas.

Bu ravi silsiləsi şiə alimlərinə görə səhih deyildir. Burada bir neçə qüsur vardır.

[1] "Fərq beynəl firaq", səh 199

Musa ibn İmran ən Nəhai: Əbul Qasim Xoyi "Rical" (20/№12848)-da onun haqqında yazır. Bu qeyddə o bu ravinin mötəbərliyi haqqda heç bir kəlmə istifadə etməmişdir.

Muhəmməd ibn Əbu Abdullah əl Kufi: "Nuqəd ər rical" (4/№4553)-da yazılır: *"Muhəmməd ibn Cəfər ibn Muhəmməd: ibn Aun əl Əsədi, Əbul Hüseyn əl Kufi. Onu belə adlandırırdılar:* ***Muhəmməd ibn Əbu Abdullah*** *– etibarlı ravidir, nəqqləri səhihdir. Amma, o zəif ravilərdən nəqllər edərdi və "cəbr" və "təşbeh" əqidəsinə sahib idi."*

Qeyd: Təşbeh Allahı məxluqata bənzətməkdir. Cəbr isə bütün iradə və əməllərin Allaha aid edilməsidir.Cəbri əqidəsində olanlar hesab edirdilər ki,insan bütün əməlləri Allahın iradəsi ilə edir.

Hüseyn ibn Yezid: Nəcaşi "Rical" (səh 38, №77)-də yazır: *"Qum əhlindən bir dəstə dedi ki, o ömrünün sonunda qulat (ifratcıl) olmuşdu. Daha doğrusunu Allah bilir. Mən ondan bunu təsdiq edən rəvayyətlər eşitməmişəm."*

Əli ibn Səlim: Təfraşi "Nuqəd" (4/№3579)-də yazır: "Əli ibn Səlim. Mən onu Əli ibn Əbu Həmzə adı ilə qeyd etmişəm." Nəcaşi "Rical" (səh 249, №77)-də və Təfraşi "Nuqəd" (4/№3579)-də bu ravinin Vaqifi şiələrdən olduğunu qeyd etmişlər.

Həsən ibn Əli ibn Səlim (Əbu Həmzə): Təfraşi "Nuqəd" (4/№3579)-də bu ravinin Vaqifi şiələrdən olduğunu qeyd etmişdir.Təfraşi digər hədis tənqidçisi ibn Qədirinin onun haqqında belə dediyini nəql edir: *"Əbu Muhəmməd, Vəqf oğlu Vəqf. Özü zəifdir, atası isə etibarlı olmuşdur."* Eyni yerdə o Əli ibn Həsən ibn Fəzlin bu ravi haqqında belə dediyini nəql edir: *"Mənfur yalançıdır."*

Biz yuxarıda şiələrə görə səhih xəbərin şərtlərini qeyd etdik. Rəvayyətin səhih vəya həsən qəbul olunması üçün ravi imami şiə olmalıdır. Vaqifilər isə imami deyildilər. Onlar imam Rzanın imamətini qəbul etmir, imam Musa Kazımın ölməyib, onun Mehdi olduğunu iddia edirdilər.

3) ***"Cəbrayıl Allah tərəfindən mənə xəbər verdi ki,Allah buyurmuşdur: "Bilin ki, Məndən başqa məbud yoxdur, Muhəmməd Mənim bəndəm və elçimdir,Əli ibn Əbu Talib xəlifəm,onun imam olan övladları hüccətlərimdir iqrar edənləri,behiştə daxil edəcəyəm."***

— Rəvayyətin sənədi yuxarıdakı kimidir.İsnad belədir:

Muhəmməd ibn Musa ibn əl Mutəvəkkil – Muhəmməd ibn Əbu Abdullah əl Kufi – Musa ibn İmran ən Nəhai - əmisi Hüseyn ibn Yezid – Həsən ibn Əli ibn Əbu Həmzə - atası – Cəfər Sadiq – atalarından.

4) ***"Məndən sonra imam 12 nəfərdir.Onların birincisi Əli,sonuncusu Qaimdir.Onlar mənim xəlifələrim və vəsilərimdir."***

— Rəvayyətin ravi silsiləsi səhih deyil.İsnad belədir: Əli ibn Əhməd – Muhəmməd ibn Əbu Abdullah əl Kufi – Musa ibn İmran - əmisi Hüseyn ibn Yezid – Həsən ibn Əli ibn Əbu Həmzə - atası – Yəhya ibn Əbul Qasim – Cəfər Sadiq.

Biz yuxarıda Həsən ibn Əli ibn Əbu Həmzə və atası haqqında bəhs etmişdik.

5) ***"İnsanların ən yaxşısı və onların seyyidi və sərvəri,məndən sonra qardaşım Əlidir.O,məndən sonra hər bir müsəlmanın imamı və hər möminin əmiri olacaqdır."***

— Rəvayyətin ravi silsiləsi səhih deyil. Səduq rəvayyəti kitabında həmin fəsildə bu isnadla nəql etmişdir: Əli ibn Əhməd ibn Abdullah ibn Əhməd ibn Əbu Abdullah əl Burqi – atası – babası Əhməd ibn Əbu Abdullah – Muhəmməd ibn Xalid – Muhəmməd ibn Davud – Muhəmməd ibn əl Carud əl Abdi - əl Əsbah ibn Nəbat.

Əhməd ibn Əbu Abdullah: Bu Əhməd ibn Muhəmməd ibn Xalid ibn Əbdurrahmən ibn Muhəmməd ibn Əli əl Burqidir. Nəcaşi "Rical" (76/№182)-da yazır: *"O, özü etibarlı idi amma, zəiflərdən nəqllər edərdi və qopuq rəvayyətlərə istinad edərdi."*

Muhəmməd ibn Xalid ibn Əbdurrahmən ibn Muhəmməd: Nəcaşi "Rical" (335/№898)-da yazır ki,Muhəmməd nəqqlərdə zəif idi.

6) ***"Kim mənim dinimə arxalanmaq və məndən sonra nicat gəmisinə minmək istəyirsə,Əli ibn Əbu Talibə iqtida etsin.O,vəsi,ümmətimə həyatımda və vəfatımdan sonra xəlifə olacaqdır."***

— Rəvayyətin ravi silsiləsi səhih deyil. Səduq rəvayyəti həmin fəsildə səh 260-da nəql etmişdir. İsnad belədir: Muhəmməd ibn Əli Məclaveyh – Əli ibn İbrahim – atasından – Əli ibn Mabəd – Hüseyn ibn Xalid – imam Rza.

Əli ibn Mabəd: Bu ravinin etibarlığı haqqında məlumat əldə etmək olmadı. İbn Davud əl Hilli "Rical" (141/№1089)-da qısa olaraq yazır: "Əli ibn Mabədin kitabı var idi." Nəcaşi də onun etibarlığı haqqında bir söz deməmişdir.

Muhəmməd ibn Əli Məclaveyh haqqında isə yuxarıda bəhs etmişdik.

İbrahim ibn Haşim: Tifraşi "Nuqəd" (1/№158)-də yazır: *"Mən yoldaşlarımızdan onu tənqid edən vəya tərif edən heç bir söz eşitməmişəm."*

7) ***"Ey Məsudun oğlu! Əli ibn Əbu Talib məndən sonra sizin imamınız və sizin üzərinizdə mənim xəlifəmdir."***

— Rəvayyətin isnadı belədir: Muhəmməd ibn İbrahim ibn İshaq – Əhməd ibn Muhəmməd əl Həmədani – Muhəmməd ibn Haşim – Əli ibn Həsən – imam Əsqəri.

Əhməd ibn Muhəmməd əl Həmədani: əl Xoyi "Mucəm ər rical" (3/№964)-da qeyd edir ki, bu ravi Əhməd ibn Muhəmməd ibn Səiddir. Həmin kitabında Xoyi 871 nömrəli fəsildə yazır: *"O, ömrünün sonuna qədər Zeydi-carudi olmuşdur."* Şiələrə görə isə rəvayyət yalnız imami şiələrdən nəql olunduğu halda "həsən" vəya "səhih" sayıla bilər. Sənəddə Zeydi şiənin olması isə rəvayyət üçün böyük problemdir.

8) ***"Ey Fatimə! Bilmirsənmi ki,biz elə bir ailəyik ki,Allah axirəti bizim üçün seçib?Allah yer əhlinə nəzər yetirdi və onların arasından məni seçdi və ikinci dəfə baxdı,sənin ərini seçdi.Mənə vəhy etdi ki, səni onunla evləndirim,onu özümə vəli,vəzir və ümmətimin içərisində xəlifəm edim.Buna görə,atan peyğəmbərlərin,ərin isə övliyyaların ən yaxşısıdır.Sən birinci kəs olacaqsan ki,(behiştdə) mənim yanıma gələcəksən."***

— Tam isnad belədir: Muhəmməd ibn Həsən ibn Əhməd ibn əl Vəlid – Muhəmməd ibn Həsən əs Səffar – Yəqub ibn Yezid – Həmmad ibn İsa – Ömər ibn Azni – Əbban ibn Abu Əyyaş – İbrahim ibn Ömər əl Yəmani – Suleym ibn Qeys əl Hilali – Salman əl Farsi.

Əbban ibn Abu Əyyaş: İbn Davud əl Hilli "Rical" (225/№2)-da yazır: *"Zəifdir. Deyilir ki,o Suleym ibn Qeysinin kitabını uydurmuşdur."*

İbrahim ibn Ömər əl Yəmani: Bu ravi haqqında şiələrin fikirləri fərqlidir. Nəcaşi onu etibarlı, ibn Qədiri isə olduqca zəif hesab etmişdir.[1]

9) ***"Əli mənim qardaşım,vəzirim,ümmətimin içərisində varis,vəsi və xəlifəmdir.O,məndən sonra hər bir müsəlmanın vəlisidir.Bu haqqı ona aid edin."***

— İbn Babveyh bu rəvayyəti 274-cü səhifədə 25 nömrəli hədis altında nəql etmişdir.Sənəddə Əbban ibn Əbu Əyyaş vardır.

10) ***"Mən möminlərə nisbətdə nəfslərinə özlərindən daha yaxınam,sonra isə qardaşım Əli onlara özlərindən daha yaxındır."***

— İbn Babveyh bu rəvayyəti 270-cı səhifədə 15 nömrəli hədis altında nəql etmişdir. Sənəddə Əbban ibn Əbu Əyyaş vardır.

11) ***"Mən,Əli,Həsən,Hüseyn və onun doqquz övladı (hər bir günah və çirkinlikdən) pak və təmizik."***

— Səduq bu rəvayyəti "İkmal" kitabında 280-cı səhifədə 28 nömrəli hədis altında bu isnadla nəql etmişdir: Əli ibn Abdullah əl Vərraq ər Razi – Sad ibn Abdullah - əl Heysəm ibn Əbu Məsruk əl Nəhdi – Hüseyn ibn Əlun – Ömər ibn Xalid – Sədd ibn Tərif – Əsbəq ibn Nəbəta – ibn Abbas.

Əli ibn Abdullah əl Vərraq ər Razi: Şeyx Səduqun rəvayyətdəki şeyxidir. Bu ravi haqqında müsbət vəya mənfi rəy yaradan məlumat əldə etmək olmadı. əl Xoyi "Mucəm rical" (13/№8304) kitabında onun adını qeyd etmiş, amma etibarlığı haqqında heç bir kəlmə qeyd etməmişdir.

Sədd ibn Tərif: "Nəcaşi onu qeyri-məqbul hesab etmişdir."[2] İbn Qədiri isə onu zəif hesab etmişdir.

12) ***"Mən peyğəmbərlərin seyyidi,Əli isə övliyyaların seyyididir."***

[1] ibn Muttəhar əl Hilli, "Xulasət"səh 51, №15

[2] "Rical", 178/№468

— Səduq bu rəvayyəti "İkmal" kitabında 280-cı səhifədə 29 nömrəli hədis altında bu isnadla nəql etmişdir: Əhməd ibn Həsən əl Qəttan – Əhməd ibn Yəhya ibn Zəkəriyyə əl Qəttan – Bəkr ibn Abdullah ibn Hubeyb – Fəzl ibn Səkr əl Əbdi – Əbu Müaviyə - əl Əmaş – Əbat ibn Rabiə - ibn Abbas.

Əbat ibn Rabiə: Şiə rical kitablarında bu ravinin Əli ibn Əbu Talibin səhabələrindən olmasından başqa heç bir məlumat əldə etmək olmadı.

Bəkr ibn Abdullah ibn Hubeyb: "Nəcaşiyə görə zəifdir."[1]

13) ***"Uca Allah peyğəmbərlərin arasından məni seçdi və mənim tərəfimdən isə Əlini seçdi.Onu bütün övliyyalardan üstün tutdu və Əlidən Həsən və Hüseyni,Hüseyndən isə övladlarını seçdi ki,dinini bidətçilər və azğınlardan qorusun."***

— Səduq rəvayyəti "İkmal" kitabında 281-cı səhifədə 32 nömrəli hədis altında nəql etmişdir. Sənəddə Əhməd ibn Həllal vardır. İbn Muttəhar onu İsa ibn Cəfər ibn Asimin bioqrafiyyasında zəif adlandırmışdır.[2]

Əbu Cəfər ət Tusi "Rical" (384/№5647) kitabında bu ravinin ifrat şiə (ğuluv) olduğunu qeyd etmişdir.

14) ***"Məndən sonra imamlar on iki nəfərdir.Onların birincisi sən və sonuncusu isə Qaimdir ki,Allah onun əli ilə yerin şərq və qərbini fəth edəcəkdir."***

— Rəvayyət "İkmal" kitabındandır. İsnadda Əbban ibn Osman vardır ki, o Navusi şiə olmuşdur. Bunu Tifraşi "Nuqəd"(səh 45/1)-də qeyd etmişdir. Şiə alimləri ittifaq etmişlər ki, ondan səhih formada heçnə varid olmamışdır.

15) ***"Əli məndəndir, mən də Əlidənəm. O,mənim torpağımdan yaranmışdır.Odur ki,mənim sünnəmi,ixtilafları o aydınlaşdırır.O,Əmirəl-möminin,nurluların və (qiyamətdə) alnı açıqların rəhbəri və övliyyaların ən yaxşısıdır."***

[1] "Rical",109/№277

[2] "Xulasət",səh 214

— Rəvayyət Səduqun "Əməli" (№197) kitabındandır. İsnad belədir: Həsən ibn Muhəmməd ibn Səid əl Haşimi – Furat ibn İbrahim ibn Furat əl Kufi – Muhəmməd ibn Zuheyr – Abdullah ibn əl Fəzl əl Haşimi.

əl Xoyi ibn Zuheyrin təsvirini qeyd edərkən "Mucəm rical" (17/№11029) kitabında onun yalnız Cəfər Sadiqin əshabından olmasını söyləməklə kifayətlənmişdir.

16) ***"Əli möminlərin əmiridir. Onun vilayət əhdini Allah göydə bağlamış,mələklərini ona şahid tutmuşdur.O,xəlifə,Allahın höccəti və müsəlmanların imamıdır."***

— Rəvayyət Səduqun "Əməli" (№205) kitabındandır.İsnad belədir: Cəfər ibn Muhəmməd ibn Məsrur – Hüseyn ibn Muhəmməd ibn Əmmar - əmisi Abdullah ibn Əmmar – ibn Əbu Umeyr – Xəmzə ibn Himran – atası – Əbu Həmzə.

Cəfər ibn Muhəmməd ibn Məsrur: Səduqun rəvayyətdəki şeyxidir. əl Xoyi "Mucəm rical" (5/№2290) kitabında bu ravinin bioqrafiyyasında qeyd etmişdir ki,Səduq ona rəhmət oxumuşdur.Sonra Xoyi yazır: "Bu ravinin etibarlığını və yaxşı olmasını deməyə əsas vermir."

Xəmzə ibn Himran: Tifraşi "Nuqəd" (2/№4)-də qeyd etmişdir ki, bu ravi imam Baqir və Sadiqin əshabından olmuşdur. Onun haqqında mənfi vəya müsbət rəy yaradacaq heç bir məlumat əldə etmək olmadı.

17) ***"Ey Əli! Sən məndən sonra müsəlmanların imamı,əmirəl-möminin,Cənnət əhlinin rəhbəri,Allahın hüccəti və vəsilərin seyyidisən."***

— Rəvayyət Səduqun "Əməli" (№475) kitabındandır. İsnad belədir: Muhəmməd ibn Əhməd əs Sənani – Muhəmməd ibn Əbu Abdullah əl ƏSəddi Kufi – Musa ibn İmran ən Nəhai - əmisi Hüseyn ibn Yezid – Əli ibn Səlim – atasından – Sad ibn Tərif – Səid ibn Cubeyr – ibn Abbas.

İsnad zəifdir. 2 və 11-ci rəvayyətlərə baxa bilərsiz.

18) ***"Ey Əli!Sən ümmətim arasında mənim xəlifəm və mənə nisbətdə Şisin Adəmə olan nisbəti kimisən."***

— Rəvayyət Səduqun "Əməli" (№609) kitabındandır. İsnad belədir: Əhməd ibn Harun əl Qümmi – Muhəmməd ibn Abdullah ibn Cəfər ibn Cəməa – atasından – Əyyub ibn Nuh – Muhəmməd ibn Əbu Umeyr – Əbban əl Əhmar – Sədd Kinani – Əsbaq ibn Nəbəta.

Sədd Kinani bu Sədd ibn Tərifdir ki, onun haqqında yuxarıda bəhs etmişdik. Əbban əl Əhmar bu Əbban ibn Osmandır. Onun haqqında mənfi vəya müsbət rəy yaradacaq heç bir məlumat əldə etmək olmadı.

19) ***"İndi qapıdan bir şəxs daxil olacaqdır ki,o möminlərin əmiri və müsəlmanların imamıdır." Birdən Əli ibn Əbu Talib qapıda göründü.Rəsulullah*** *(sallallahu aleyhi və səlləm)* ***onu qarşıladı,sonra üzünü bizə tutub dedi: "O, məndən sonra sizin imamınız və haminizdir."***

— Rəvayyət Səduqun "Əməli" (№850) kitabındandır. İsnadda Əşas ibn Suvar vardır. Tifraşi "Nuqəd" (1/№571)-də qeyd etmişdir ki, o Sadiq və Həsənin əshabından olmuşdur. Onun haqqında mənfi vəya müsbət rəy yaradacaq heç bir məlumat əldə etmək olmadı.

20) ***"Ey camaat! Kim Allahdan daha sadiq ola bilər? Uca Allah mənə əmr etmişdir ki,Əlini sizin aranızda hidayət bayrağı,imam,xəlifə və vəsi edim.Onu özümə qardaş və vəzir seçim."***

— Rəvayyət Səduqun "Əməli" (№49) kitabındandır. İsnadda Mufəddəl ibn Ömər vardır ki,onun haqqında yuxarıda bəhs etmişdik.

21) ***"Əmim oğlu Əli qardaşım,vəzirim, xəlifəm və mənim tərəfimdən olan göstərişləri çatdırandır."***

— Rəvayyət Səduqun "Əməli" (№112) kitabındandır.İsnadda Ata ibn Səib vardır. əl Xoyi "Mucəm rical"(12/№7701)-da bu ravinin etibarlı olmadığını qeyd etmişdir.

22) ***"Ey Əli! Sən mənim vəsim,övladlarımın atası,mən öləndən sonra və sağlığımda ümmətimə xəlifəsən.Sənin əmrin mənim əmrim və səni inkar məni inkar etməkdir."***

— Rəvayyət Səduqun "Əməli" (№573) kitabındandır. İsnadda ibn Abbasın mövlası olan İkrimə vardır ki, şiələrə görə o etibarlı deyildir. İbn Muttəhar "Xulasət" (№13/383)-də yazır: "Bizim əshabımızdan deyil və bizim yolda deyil."

23) ***"Ey Ümmü-Sələmə! Eşit və şahid ol ki,Əli ibn Əbu Talib mənim vəsim və məndən sonra xəlifəm olacaqdır. Mənim vədlərimi əda edən və düşmənləri yolumun üzərindən uzaqlaşdırandır."***

— İsnadda Mufəddəl ibn Ömər və Muhəmməd ibn Əli əs Seyrəfi vardır ki, onlar haqqında yuxarıda bəhs etmişdik.

24)***"Ey mühacir və ənsar! İstəyirsinizmi sizə elə şeyi tanıdım ki,məndən sonra ona arxalanıb,heç vaxt yolunuzdan sapmayasınız? Ərz etdilər: Bəli, ey Rəsulullah. Buyurdu: Bu Əli qardaşım,vəsim, vəzirim,varisim,xəlifəm və sizin imamınızdır.Məni sevdiyiniz kimi onu sevin.Mənə ikram və ehtiram etdiyiniz kimi ona ehtiram edin.Cəbrail mənə əmr etmişdir ki,bu həqiqəti sizə deyim."***

— Rəvayyət Səduqun "Əməli" (№763) kitabındandır.İsnadda Sədd ibn Tərif vardır.

25) ***"İstəyirsinizmi sizə bir şeyi göstərim ki,əgər ona arxalansanız heç vaxt həlak və yolu azmış olmazsınız?"Onda buyurdu: "Sizin imam və vəliniz Əli ibn Əbu Talibdir.Ona arxa və ona qarşı xeyirxah olun,onu təsdiq edin ki,Cəbrail mənə bu xəbəri yaymağı (Allah tərəfindən) əmr etmişdir."***

— Rəvayyət Səduqun "Əməli" (№764) kitabındandır. İsnadda Əli ibn Qasim əl Ənsari vardır. Onun haqqında şiə rical kitablarında məlumat əldə etmək olmadı.

26) ***"Ey Əli! Sən məndən sonra ümmətimin rəhbəri və xəlifisisən."***

— Rəvayyət Səduqun "Əməli" (№787) kitabındandır. İsnadda şiə rical kitablarında təsviri olmayan ravilər vardır.

27) ***"Meraca gedəndə Allah,Əli barədə mənə bu tövsiyyələr etdi ki,o pəhrizkarların imamı, nurluların rəhbəri və möminlərin sərkərdəsidir..."***

— Rəvayyət Səduqun "Əməli" (№978) kitabındandır. İsnadda Əhməd ibn Muhəmməd ibn Xalid ibn Əbdurrahmən ibn Muhəmməd ibn Əli əl Burqi. Nəcaşi "Rical" (76/№182)-da yazır: "O,özü etibarlı ravidir,lakin zəif ravilərdən nəqllər etmiş və qopuq rəvayyətlərə istinad etmişdir."

Bu ravi rəvayyəti Cəfər ibn Abdullah ən Nənacidən nəql etmişdir.Şiə rical kitablarında bu ravi haqqında məlumat yoxdur.

28) ***"Əli məndəndir,mən də Əlidənəm.Allah Əlinin qatilini öldürsün,Əli məndən sonra ümmətin imamıdır."***

— Rəvayyət Səduqun "Əməli" (№1021) kitabındandır.İsnadda Cəfər ibn Muhəmməd ibn Məsrur vardır. Onun haqqında yuxarıda bəhs etmişdik. əl Xoyi "Mucəm rical" (6/№4640/səh 215)-da qeyd etmişdir ki, o ravi kimi məlum deyil.

29) ***"Allah səni elə zinətlə bəzəmişdir ki,heç bir bəndə Allah yanında zinətlərin ən sevimlisi olan belə bir zinətlə bəzənməmişdir.Səni dünyada "zöhd" zinəti ilə bəzəmiş və elə eləmişdir ki,nə sən dünyadan bəhrə alasan,nədə dünya səndən bir kam alsın,sənə möhtacların məhəbbətini inayət etmiş və səni elə yaratmışdır ki,onlar sənə tabe olduqlarından məmnunsan və onlar da,sən imamları olduğundan xoşhaldırlar.Xoş o kəsin halına ki,səni dost bilir və sənin barəndə sidq və doğruluqla çalışırlar.Vay o şəxsə ki,səninlə düşməndir və sənin fəzilətlərini inkar edir!"***

— Rəvayyət Tusinin "Əməli" (№303/səh 181) kitabındandır. İsnadda Əli ibn Xuzur vardır. İbn Davud əl Hilliyə görə bu ravi Muhəmməd ibn Hənəfiyyənin imamətinə etiqad edirmiş. Bu isə İmamilərə görə küfrdür. Biz 40 rəvayyətdən 29-u nəzərdən keçirdik, ona görə ki, isnadlarında olan ravilər haqqında məlumat vardı. Digər yerdə qalan 11 rəvayyətdə olan ravilər haqqında isə məlumat əldə etmək olmadı.

159) Rafizi yazır: *"Sünni alimlərin yalnız şiə mənbələrində gələn hədisləri zikr etməmələrinə gəlincə,bu Ali-Muhəmmədə kin bəsləyən və həqiqəti gizlətmək istəyən adamların xasiyyət,təbiət və ədavətini göstərir."*[1]

— Allaha həmd olsun! İslam alimlərinin kitabları Əhli beyt haqqında rəvayyətlərlə doludur. İslam alimləri rafizinin nəql etdiyi rəvayyətləri ona görə nəql etməmişlər ki, bunlar Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* atılmış iftiralardır.

[1] Məktub 64

160) Rafizi yazır: *"Əli mənim elmimin qapısı və məndən sonra risalətimdə ümmətimə boyun olduqlarımı bəyan edəndir.Onunla dostluq iman,düşmənçilik nifaqdır."*[1]

— Rəvayyətin əsli yoxdur. Deyləmi isnadsız olaraq nəql etmişdir.

161) Rafizi yazır: *"Bir gün Əlidən soruşdular: "Necə oldu ki, əmin oğlundan sənə irs çatır,amma əmindən yox? Cavab verdi: "Rəsulullah (sallallahu aleyhi və səlləm) bir gün Əbdul-Muttəlib övladları və nəvələrini bir yerə topladı.Hər kəs hazırlanmış yeməyi yeməklə məşğul idi və doyana qədər yedilər.Amma,yemək olduğu kimi qalır,sanki heç nə azalmırdı.Bu vaxt Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Əbdul-Muttəlib övladları! Mən məxsusən sizə,sonra isə xalqa peyğəmbər göndərilmişəm.Sizlərdən kim mənə beyət edib mənim qardaşım,dostum və varisim olmaq istəyir?" Heç kəs dinmədi.Mən hamıdan kiçik olsam da,durub razı olduğumu dedim.Mənə buyurdu: "Otur." Üç dəfə sözünü təkrar etdi və hər dəfə də mən ayağa durdum.Peyğəmbər (sallallahu aleyhi və səlləm) hər dəfə "otur" desə də, üçüncü dəfə əlini mənim əlimə vurdu və beləcə məni varisliyə qəbul etdi.Elə buna görə də,mənə əmim oğlundan irs çatır,amma əmimdən yox."*[2]

— Rəvayyəti Nəsai "Xəsais" (№66) və "Sunən əl kubra" (№8451)-da nəql etmişdir. Təbəri "Tarix"də bu isnadla nəql etmişdir: Əbu Sadiq – Rabiə ibn Nəcat.

Alimlərin Rabiə ibn Nəcat baradə rəyləri fərqlidir. İcli və ibn Hibban onu etibarlı hesab etmişlər. Lakin, bu məsələ yalnız iki adamın sözünü əsas almaq doğru olmazdı.

162) Rafizi yazır: *"Qusəm ibn Abbasdan soruşulur: "Necə oldu ki, Əliyə Rəsulullahdan (sallallahu aleyhi və səlləm) irs çatır,amma sizə yox?"Cavab verdi: "Çünki o,bizim aramızdan ona qoşulan birinci şəxs və bizim ona birləşən və onunla yol yoldaşı olan ən möhkəm adamımız olmuşdur."*[3]

[1] Məktub 66
[2] Məktub 66
[3] Məktub 66

— Bu rəvayyət Hakimin "Müstədrək" kitabında iki isnadla nəql olunur. Şərik ibn Abdullah – Əbu İshaq və Zuheyr ibn Müaviyə - Əbu İshaq.

Şərikin zəif yaddaşı haqqında yuxarıda bəhs etmişdik. Zuheyrə gəlincə, o bunu Əbu İshaqqdan onun ömrünün sonunda, yəni onun adətən səhv etdiyi vaxtda eşitmişdi. [1]

İkincisi, biz hətta bu rəvayyəti doğru saysaq belə, bu yalnız bir səhabənin şəxsi fikri olacaqdır. Üçüncüsü, mümkündür ki,verilən sual Əhli beyt haqqında idi.Yəni, Qasimdən soruşulur ki, digər qohumlar arasından niyə məhz Əli bu dərəcəyə çatıb? Və Qasim cavab verir: *"Çünki o,bizim aramızdan ona qoşulan birinci şəxs və bizim ona birləşən və onunla yol yoldaşı olan ən möhkəm adamımız olmuşdur."*

Bunun həqiqət olmasında isə heç bir şübhə yeri yoxdur.

163) Rafizi 68-ci məktubda yazır: *" Muhəmməd ibn Həmid Razi,Sələmə Ərəşdən, ibn İshaqqdan,o da Əbu Rabiə Yadidən,o da ibn Bureyrədən,o da atası Bureyrədən,o da Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) belə nəql etmişdir: "Hər peyğəmbərin vəsi və varisi vardır. Mənim vəsim və varisim Əli ibn Əbu Talibdir."*

— O, Zəhəbinin "Mizanul itidal"kitabında istinad etmişdir. "Hədis yalandır, doğru deyildir."[2]

Zəhəbi rəvayyəti kitabının ikinci cildində nəql etmiş və qeyd etmişdir ki, Muhəmməd ibn Humeyd ər Razi etibarlı ravi deyildir. Bu raviyə Buxari şübhə etmiş, Əbu Zura və ibn Hiraş onu yalanda ittiham etmişlər. [3]

Sələmə əl Əbraş da zəif ravidir. Onun haqqında 54-cü başlıqda bəhs etmişdik. Əbu Rabiə də zəif ravidir. Əbu Hatim deyir ki,onun nəqqləri məqbul deyildir.[4]

---

[1] "Təhzib ət təhzib", 3/303/№648
[2] İbn Cəuzi, "Məvdua", 1/376
[3] "Mizanul itidal", 3/530/№7453
[4] "Mizanul itidal", 3/196/№6106

İbn İshaq adlı ravi çox güman ki, tarixçi olan Muhəmməd ibn İshaqdır. Onun haqqında alimlərin rəyyləri fərqlidir. İbn Cəuzi rəvayyəti "Məvdua" (1/376) kitabında bu isnadla nəql etmişdir: Əbu Əbdurrahmən Əhməd ibn Abdullah əl Firyənani – Sələmə ibn Fədl – Muhəmməd ibn İshaq – Şərik – Əbu Rabiə - İbn Bureydə.

Həmin yerdə o ibn Hibbanın Firyənani haqqında fikrini yazır: *"Etibarlı ravilərə istinad edərək, onların demədiklərini nəql etmişdir."*

164) Rafizi yazır*: "Təbərani "əl-Kəbir" kitabında Salman Farsidən nəql etmiş ki, Allahın elçisi (sallallahu aleyhi və səlləm) buyurdu: "Mənim vəsim,sirdaşım,özümdən sonra vədələrimi sözsüz yerinə yetirən və borcumu ödəməyi tapşırdığım ən yaxşı adam Əli ibn Əbu Talibdir."*[1]

— Rəvayyət doğru deyildir. Hədisi Təbərani "əl Kəbir" (№6063)-də, Heysəmi "Məcməu zəvaid" (№14668)-də nəql etmiş və qeyd etmişdir: *"İsnadda tərk olunmuş Nasih ibn Abdullah adlı ravi vardır."*

Bu ravini Nəsai və qeyriləri də zəif hesab etmişlər. Buxari onun nəqllərinin məqbul olmadığını bildirmişdir. əl Fələsi də onun tərk olunduğunu qeyd etmişdir. İbn Məin onun "heçnə"olduğunu söyləmişdir.[2]

Nasihdən bu rəvayyəti Yəhya ibn Yalə nəql etmiş ki, o da zəif ravidir. Molla Əli Qari əl Hənəfi buna bənzər rəvayyəti kitabında nəql etmiş və qeyd etmişdir: Səqaninin "Durrul multəka"da dediyi kimi rəvayyət uydurmadır. [3]

Qari əl Hənəfi özü "Məvdua əl kubra"(səh 361)-də yazır: ***"Bu sözlər şiələrin çirkin yalanlarından biridir. Allah onlara layiq olduqlarını versin. Onlar niyə iftira atırlar?!..."***

İbn Qeyyum əl Cəuziyyə yazır: "Ən yalançı firqə iddia etmişdir ki, guya Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* son Həccdən geri dönən zaman, bütün səhabələrin önündə Əlinin əlini qaldırıb, ona belə demişdi: "Bu mənim vasim, qardaşım və məndən sonra xəlifədir. Ona görə də ona qulaq asın və itaət edin."

[1] Məktub 68
[2] "Mizanul itidal", 4/240/№8988
[3] "Məsnua fi mərifət əhədisəl məvdua",səh 287, №389

Bundan sonra da guya səhabələr bunu gizlətdilər, dəyişdirdilər və əleyhinə çıxdılar! Allahın lənəti yalançıların üzərinə olsun!"[1]

Şəukani deyir: *"Rəvayyəti həmçinin, ibn Nəsr Salmandan mərfu şəkildə nəql etmişdir. Əbdulqani deyir: "Əksər ravilər məchul və zəifdirlər." Cəvzəkani dedi: "Bu rəvayyət yalandır və əsli yoxdur. Əzdi rəvayyəti bu şəkildə nəql etmişdir: "Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) soruşdular: "Sənin varisin kimdir?" O, dedi: "Musanın varisi kim olub?" Dedilər: Yuşə. Buyurdu: "Mənim vəsim borcumu ödəyən, vədələrimi yerinə yetirən.Özümdən sonra tərk etdiyim ən xeyirli şəxs Əlidir."*

Sənəddə məchul və zəif ravilər vardır.İbn Hibban və Ukeyli də oxşar mətnlə nəql etmişlər. Hakim Bureydədən bunu rəvayyət etmişdir ki, isnadında hədis uyduran ravi vardır."[2]

Şəukani kitabında bənzər rəvayyəti nəql etdikdən sonra yazır: *"İbn Hibban bunu Ənəsdən mərfu şəkildə rəvayyət etmişdir. İbn Cəuzi və Zəhəbi rəvayyətin uydurma olduğunu qeyd etmişlər. Mətar ibn Meymun əl İskəfi bunun uydurulmasında ittiham etmişlər."*[3]

Buxari və Əbu Hatim Mətar ibn Meymun haqqında demişlər: "Onun nəqlləri məqbul deyildir."[4]

165) Əbdulhüseyn yazır: *"Ənəsdən nəql edirlər ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənə buyurdu: "Ey Ənəs,sənin yanına bu qapıdan birinci daxil olan kəs pəhrizkarların imamı,müsəlmanların seyyidi,dinin başçısı,vəsilərin sonuncusu və nurluların rəhbəridir." Ənəs deyir:"Bu vaxt Əli daxil oldu.Allahın elçisi (sallallahu aleyhi və səlləm) qalxıb,müjdə verirmiş kimi,onunla qucaqlaşdı və ona buyurdu: "Sən mənim dinimi ədа edən,səsimi xalqa çatdıran,məndən sonra ixtilafları onlara bəyan edənsən."*[5]

---

[1] İbn Qeyyum, "əl mənəru munif fi səhih zə zəif"səh 179
[2] "Fəvaid əl məcmua"səh 453, №65
[3] Şəukani səh 443, №48
[4] "Mizanul itidal", 4/127/№8590
[5] Məktub 68

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4886)-də uydurma adlandırmışdır. Əbu Nueym rəvayyəti "Hilliyyətul əvliyya" (1/63)-da bu isnadla nəql etmişdir: Muhəmməd ibn Osman ibn Əbu Şeybə - İbrahim ibn Muhəmməd ibn Meymun – Əli ibn Əyaş – Haris ibn Husirat – Qasim ibn Cundub – Ənəs.

Qasim ibn Cundub məchuldur, bioqrafiyyası yoxdur. Haris ibn Husirat isə şiə olub. İbn Hacər onun haqqında "Təqrib" (№1018)–də deyir: ***"Etibarlı, səhv edən, rafizilikdə ittiham olunmuşdur."***

Əli ibn Əyaş isə yekdilliklə zəif hesab olunmuşdur. İbrahim ibn Muhəmməd ibn Meymun da zəif ravi hesab olunur.[1]

166) Rafizi yazır: *"Təbərani "əl Kəbir" kitabında Əbu Əyyub Ənsaridən xəbər vermişdir ki, Allahın elçisi (sallallahu aleyhi və səlləm) buyurdu: "Ey Fatimə! Bil ki, Allah yer əhlinə nəzər salıb,onların arasından atanı seçdi və peyğəmbərlik taxtına oturtdu.Sonra yenidən nəzər salıb sənin ərini seçdi və mənə vəhy etdi ki,səni onunla evləndirim və onu özümə vəsi seçim."*[2]

— Təbərani "əl Kəbir" (№4046)-də nəql etmişdir. İbnul Ərraq əl Kinani "Tənziru şəriyyə" (1/396/№40)-də yazır: ***"İsnadda Hüseyn əl Əşkar və Qeys ibn ər Rabiə vardır. Ona etimad etmək olmaz və Əbat ibn Rabiə də ifrat şiədir."***

167) Rafizi yazır: *" İbn Abbasdan nəql edirlər ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) buyurdu: "Razı deyilsənmi? Mən səni elə bir adama verdim ki,ilk müsəlman və müsəlmanların ən biliklisidir.Sən isə ümmətimin qadınlarının seyyidəsisən, necə ki,Məryəm öz ümmətinin seyyidəsi idi. Ey Fatimə,razı deyilsənmi? Allah yer əhlinə nəzər saldı və onların içindən iki nəfəri seçdi: biri sənin atan, o biri sənin ərin oldu."*[3]

— Rəvayyəti Təbərani "əl Kəbir" (№1030)-də nəql etmişdir. İsnadda Əbdulkərim ibn Yəfur vardır. Zəhəbi onu zəif hesab etmişdir. Əbu Hatim isə onun məchul olduğunu qeyd etmişdir. İsnadda həmçinin, yalançı Cabir ibn Yezid Cufi vardır ki,onun haqqında biz yuxarıda bəhs etmişdik.

---

[1] "Lisanul mizan" 1/107/№319

[2] Məktub 68

[3] Məktub 68

168) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir dəfə Fatimənin (xəstə olarkən) görüşünə gəldi və buyurdu: Necəsən? Cavab verdi: "Allaha and olsun ki,kədər içindəyəm,çətinliyim sonsuz,xəstəliyimsə uzanmışdır.Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Sən razı deyilsənmi ki,mən səni İslamı qəbul edən ilk müsəlmana,onların ən bilicisinə,helm, təvazökarlıq və dərrakədə ən üstününə vermişəm?"*[1]

— Əhməd "Musnəd" (№20322)-də nəql etmişdir. Şeyx Şueyb Arnaut və Albani qeyd etdikləri kimi hədisin isnadı zəifdir.[2]

İsnadda Xalid ibn Təhman vardır. İbn Məin onu zəif hesab etmişdir. O,qeyd edir ki, Xalid ömrünün son 10 ilində dolaşmağa və səhvlər etməyə başlamışdı. [3]

Zəhəbi "Təlxis əl iləl"(səh 76, №173)-da buna bənzər rəvayyəti nəql etdikdən sonra yazır: "Bu rəvayyəti Mahmud ibn Qeylan İbrahim ibn əl Həccacdan – o məchuldur – Əbdurrazzaqdan.Həmçinin,Həsən ibn əl Abbas ər Razi – Əbu Salətə əl Hərvidən – o yalanda ittiham olunub.

169) Daha sonra 70-ci məktub gəlir ki, burada rafizi müəllif 34 başlıq qeyd edir ki, bunlar ona görə Əlinin *(radiyallahu anhu)* həqiqi vəsi olmasına dəlalət edir.

Rafizi yazır: "Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Əliyə olan vəsiyyətini inkar etmək qeyri mümkündür. Çünki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) ....və dəlillərini yazır. Bütün bu dəlilləri biz burada nəzərdən keçirəcəyik.

Dəlil №1 *"Əliyə (radiyallahu anhu) vəsiyyət etdi ki,ona qüsl verib,kəfənləsin və dəfn etsin."*[4]

Rafizi yazır: *"İbn Sədd "Təbəqat"da 2-ci cildin 2-ci fəslinin 61-ci səhifəsində Hz Əlidən nəql edir: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəsiyyət etdi ki,məndən başqası ona qüsl verməsin."*

[1] Məktub 68
[2] "Silsilə əhadis əd daifə", №4898
[3] "Mizanul itidal", 1/632/№2433
[4] Məktub 70

— Birincisi, rəvayyət doğru deyil. Bunu ibn Sədd və Bəzzar "Musnəd"də Keysan Əbu Ömər əl Qisri – Yezid ibn Bilal – Əli isnadı ilə nəql etmişlər. Zəhəbi "Mizan"da yazır:

"Yezid ibn Bilal – Əli. Bu silsilə doğru deyil. Buxari dedi: "Yezid ibn Bilal ibn Haris əl Fərazi – Əlidən. O, sual altındadır. Ondan da Keysan Əbu Ömər əl Hicri nəql edir. Mən deyirəm: "məchuldur"[1]

İkincisi, əgər belə vəsiyyət olmuşdusa, bu Əlinin varis olmasına dəlil sayıla bilməz. Üçüncüsü, tarixdən bilindiyi kimi əgər bu vəsiyyət olmuşdusa, Əli ona əməl etməmişdi. Mubarəkfuri "Sirə"də yazır:

***"İkinci gün Peyğəmbərin** (sallallahu aleyhi və səlləm) **libasını çıxarmadan ona qüsl verdilər. Abbas, Əli, Abbasın oğulları olan Kuseyy, Fəzl və Peyğəmbərin** (sallallahu aleyhi və səlləm) **azadlı kölələri olan Şukran,Usamə ibn Zeyd və Aus ibn Hauli qüsl verdilər. Abbas və oğlanları cənazəni çevirir, Usamə və Şukran su tökür, Əli yuyur, Aus isə yardım edirdi."*[2]

İbn Hişam "Sirə"də yazır: "Əbu Bəkrə beyət edildikdən sonra insanlar Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* dəfn etməyə hazırlaşdılar. Abdullah ibn Əbu Bəkr, Hüseyn ibn Abdullah və digər yoldaşlarımız mənə nəql etdilər ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* cənazəsini Əli ibn Əbu Talib,Abbas,Fəzl,Kusəm,Usamə ibn Zeyd və Şukran qüsl etdilər. Aus ibn Hauli Əli ibn Əbu Talibə dedi: "Allah xətrinə icazə ver məndə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına gəlim." Aus həmin səhabələrdən idi ki, Bədr döyüşündə iştirak etmişdi. Əli dedi: "Gəl" Aus daxil oldu və həmin mərasimdə iştirak etdi. Əli ibn Əbu Talib cənazəni sinəsinə sıxır, Abbas,Fəzl və Kusəm cənazəni çevirir, Usamə ibn Zeyd, Şukran suyu tökür, Əli isə qüsl verirdi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* öz köynəyində idi və Əli onun bədəninə toxunmadan qüsl verirdi. Əli deyirdi: "Ey əzizim! Sən sağlığında olduğu kimi necədə gözəlsən!"[3]

[1] "Mizanul itidal", 4/420/№9677

[2] "Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* dəfni" fəsli

[3] "Dəfn mərasiminə hazırlıq" fəsli

Rafizi yazır: *"Kənzul-Ümmal"ın 4-cü cildinin 54-cü səhifəsində olduğu kimi Hz Əlidən nəql etmişlər: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənə vəsiyyət etdi ki,mən öləndə mənə yeddi qab su ilə qüsl ver."* [1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (1237)-də zəif adlandırmışdır. Bunu ibn Nacər və ibn Macə "Sunən" (№1468)-də nəql etmişlər. İsnadda Abbad ibn Yaqub vardır. Alimlərin onun haqqında rəyləri müxtəlifdir.

İbn Hibban dedi: "Rafiziliyə dəvət edirdi və bununla yanaşı məşhur olanlardan münkər olan rəvayyətlər edərdi."[2]

Buxari Abbaddan bir hədis nəql etmişdir. Lakin, bu o demək deyil ki, o etibarlı ravi idi. Həmçinin, alimlərin isnadda olan Hüseyn ibn Zeyd ibn Əli haqqında rəyyləri də fərqlidir.

Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəfatı zamanı buyurdu: "Ey Əli! Dünyadan gedəndə mənə qüsl ver." Əli deyir: "Mən qüsl verərkən,hər üzvü ki, əlimə alırdım, özü istədiyim tərəfə çevrilirdi."*[3]

— Rəvayyət ibn Sədin "Təbəqat" kitabındandır. İsnad belədir: Muhəmməd ibn Ömər – Abdullah ibn Cəfər əz Zuhri – Əbdulvahid ibn Əbu Əvəna.

Muhəmməd ibn Ömər bu ibn Sədin şeyxi olan Vahididir. İbn Hacər "Təqrib" (№6175)-də qeyd etmişdir ki, bu tərk olunmuş ravidir. Buxari də bu rəydə olmuşdur. Nəsai və Əbu Hatim onu rəvayyətlər uydurmada ittiham etmişlər. Əhməd onu yalançı adlandırmışdır.[4]

Əli ibn Əbu Talib hicrətin 40-ci ilində vəfat etmişdi. İbn Əbu Əvəna isə 144-cü ildə vəfat edib. Ona görə onun bu sözləri Hz Əlidən eşitməsi ehtimalı yoxdur. Daha sonra rafizi müəllif daha bir neçə oxşar rəvayyətlər nəql edir. Heç

[1] Məktub 70
[2] "Mizanul itidal", 2/379/№4149
[3] Məktub 70
[4] "Mizanul itidal", 2/379/№4149

kəs inkar etmir ki, Əli *(radiyallahu anhu)* qüsldə iştirak etmirdi. Biz fəqət, bu işin yalnız ona vəsiyyət edilməsini inkar edirik. O dövrdə baş verənlər də bunun əksini göstərir.

Rafizi guya ibn Abbasın belə dediyini yazır: *"Əlinin başqalarında olmayan dörd xisləti vardır: "O, birinci adam idi ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə namaz qıldı. Hər yanda Rəsulullahın (sallallahu aleyhi və səlləm) bayraqdarı idi. O, dözümlülük göstərən və hamı qaçsa da Peyğəmbərlə birgə dayanan idi və Rəsulullaha (sallallahu aleyhi və səlləm) qüsl verib onu qəbrə qoyan odur."*[1]

— Şübhə yoxdur ki, rəvayyət həm mətn, həmdə isnad baxımından yalandır. Birincisi, Əli *(radiyallahu anhu)* Təbuk səfərində Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* müşayiət etməmişdi. Yəni, o onda bayraqdar ola bilməzdi.

İbn Cəuzi yazır: ***"Peyğəmbərin** (sallallahu aleyhi və səlləm) **ilk yürüşü Əbva olmuşdur. Bu səfərdə bayraqdar Həmzə olmuşdur. O, həmçinin Bənu Kəynuk səfərində də bayraqdar olmuşdu. Buvat səfərində isə Sad ibn Əbu Vəqqas bayraqdar olmuşdu."***[2]

İkincisi, ***"Uhud döyüşü zamanı ki, müsəlmanlar geri çəkildilər, Peyğəmbərin** (sallallahu aleyhi və səlləm) **yanında yalnız Təlha və Sədd qalmışdı."***[3]

Əbdulhüeynin qeyd etdiyi bu rəvayyəti Hakim "Müstədrək" (№4582)-də doğruluq dərəcəsi haqqında bir söz demədən nəql etmişdir.

Zəhəbi "Təlxis"də yazır: "İsnadda Zəkəriyyə ibn Yəhya əl Vəkkar vardır ki, o ittiham olunmuşdur. Bu ravini Saleh Cəzərat yalanda ittiham etmiş, ibn Adiy isə onun rəvayyətlər uydurduğunu söyləmişdir."[4]

---

[1] Məktub 70
[2] İbn Cəuzi, "əl Vəfa bi əxvəlil Mustafa"547-553
[3] Zubeydi, "Muxtəsər səhih Buxari", № 1464. 3722, 3723
[4] "Mizanul itidal", 2/77/№2892

Digər isnad "İstiab" (8/132-133)-da nəql olunur. Orada Mufəddəl ibn Saleh vardır. Bu ravi haqqında Buxari: "onun hədisləri məqbul deyil"[1], ibn Hacər: "zəifdir"[2] demişlər.

Əbdulhüseyn Muttəqi əl Hindiyə istinad edərək, bu rəvayyəti nəql edir: *"Mənə qüsl ver və dəfn et."*

Bu böyük rəvayyətin bir hissəsidir."Kənzul Ümməl"da bu 36378 nömrəli hədis altında nəql olunur. İsnadda Hüseyn (vəya Həsən) ibn Ubeydullah əl Əbzari vardır ki, o yalançıdır.[3]

İsnadda həmçinin, bir neçə Abbasi xəlifəsi vardır ki, onların etibarlığı haqqında məlumat yoxdur.

Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Allah tərəfindən mənə Əli ilə bağlı beş şey inayət olmuşdur ki, məndən əvvəl heç bir peyğəmbərə verilməmişdir: Birinci odur ki,o mənim borcumu əda edəcək,məni qəbirə qoyacaqdır..." Hədis "Kənzul-Ümmal"ın 6-cı cildinin 403-cü səhifəsinin əvvəlindədir."*[4]

— İsnadda Həlf ibn Mubarək vardır. Zəhəbi "Mizan" (1/661/№2547)-da onun məchul olduğunu və ona etibar ediləməyəciyini qeyd etmişdir. Ukeyli bu rəvayyəti "Duafə əl kəbir" (2/22/№440)-də bu isnadla nəql etmişdir: Həlf ibn Mubarək – Şərik – Əbu İshaq – Haris – Əli.

Həmin yerdə Ukeyli Həlfin məchul olduğunu qeyd etmişdir. Eləcədə, Haris bu Haris əl Avardır ki, o olduqca zəif ravidir. Əbu İshaq əs Sabii burada müdəllisdir.

Dəlil №2. *"borcunu ödəyəcək və vədini yerinə yetirəcəkdir."*

"Ey Əli! Sən mənim qardaşım və vəzirimsən.Borcumu əda edirsən,vədəmə sözsüz əməl edirsən,əhdimə vəfadarsan."[5]

---

[1] "Mizanul itidal", №8728
[2] "Tərib", №6854
[3] "Muğni fi duafa", №1425
[4] Məktub 70
[5] Məktub 70

— Hədis doğru deyildir. 77-ci başlığa müraciət edə bilərsiz. Rafizi yazır: *"Əhməd ibn Hənbəl "Musnəd"in 4-cü cildinin 164-cü səhifəsində Həbəş ibn Cənadədən nəql etmiş ki, eşitdim ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) buyurdu: "Mənim borcumu özümdən və Əlidən başqası ada edə bilməz."*[1]

111-ci başlığa müraciət edin. Rafizi yazır: *"Əbdurrəzzaq "Cameə" kitabında Muəmmərdən,o da Qatadədən nəql etmişdir ki, Əli Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sonra onun borclarını ödədi ki,hamısı onun vədələri idi. Mühasibəyə əsasən bu 500 min dirhəmə çatırdı. Əbdurrəzzaqa deyildi: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu vəsiyyəti ona etmişdir?" Dedi: "Şübhəm yoxdur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu Əliyə vəsiyyət etmişdi və elə olmasaydı,qoymazdılar ki,Əli onun borcunu ada etsin."*[2]

Qatadə səhabə olmamışdır, rəvayyət qopuqdur.

<u>Dəlil №3 və 4</u>. *"O dedi ki,Əli onun qardaşı və övladlarının atasıdır."*

Rafizi yazır: *"Hz.Əliyə buyurdu: "Sən mənim qardaşım və övladlarımın atasısan və mənim sünnəm uğrunda mübarizə aparacaqsan." Bu hədisi Əbu Yəlanın "Musnəd"ində və "Kənzul-Ümmal"ın 6-cı cildinin 404-cü səhifəsində nəql olunmuşdur."*[3]

— Rəvayyət "Fədailu səhabə" (№1118), Əbu Yəla "Musnəd" (№528)-də nəql etmişdir. Heysəmi "Zəvaid" (№14705)-də yazır: "İsnadda Zəkəriyyə Əsbəhani vardır ki, o zəifdir."

Rafizi yazır: *Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Allah hər bir peyğəmbərin nəslini onun "sülb"ündə qoymuşdur və mənim nəslimi Əlinin." Bu hədisi Təbərani "əl-kəbir"də Cabirdən və Xətib "Tarix"ində ibn Abbasdan nəql etmişlər.*[4]

[1] Məktub 70
[2] Məktub 70
[3] Məktub 70
[4] Məktub 70

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (1589)-də uydurma adlandırmışdır. Hər iki isnad doğru deyildir. Təbəranin hədisinə gəlincə isə Heysəmi "Məcməu zəvaid" (№15013)-də yazır: "İsnadda Yəhya ibn Yalə vardır ki, o mətrukdur."

Şeyx Əbdurrauf əl Munəvi "Təysir bi şərh əl camius saqir" (1/504) kitabında rəvayyəti zəif hesab etmişdir. Xətib bu rəvayyəti "Tarix" (1/316/№206)-də nəql etmişdir. İbn Cəuzi "İləl" (1/214/№338)-də yazır: "Rəvayyət doğru deyil. Əzhari dedi: "əl Mərzibani (Əbu Ubeydullah Muhəmməd ibn İmran əl Mərzibani adlı ravi) etibarlı ravi olmamışdır." Əbu Abdullah ibn əl Katib dedi: "əl Mərzibani yalançı olmuşdur. əl Mərzibanidən Mənsura qədər olan ravilər haqqında elə bir məlumat yoxdur ki, bu onların etibarlılıqlarına dəlalət etsin."

Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Qadınların övladları onların ərinə mənsub edilir,Fatimənin övladlarından başqa,onların ataları isə mənəm."*[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4104)-də zəif adlandırmışdır. Rəvayyəti Xətib "Tarix" (11/285), Ukeyli "Duafə əl kəbir", Təbərani "əl Kəbir" (11/285), Əbu Yalə "Musnəd" (№6741) kitablarında bu isnadla nəql etmişlər: Şeybə ibn Namət – Fatimə bint Hüseyn – Fatimə bint Muhəmməd *(sallallahu aleyhi və səlləm)*

Bu isnadda iki qüsur vardır. Birincisi, o qopuqdur. Fatimə bint Hüseyn Fatimə *(radiyallahu anhu)* ilə görüşməmişdir. İkincisi, Şeybə ibn Namət zəifdir. Onu ibn Məin, ibn Hibban zəif hesab etmiş, əl Heysəmi isə ona etimad edilə bilinməyəcəyini qeyd etmişdir.[2]

Bənzər rəvayyəti Hakim "Müstədrək" (№4770)-də Cabirdən nəql etmişdir. İsnadda Yəhya ibn Əla və Qasim ibn Əbu Şeybə vardır. Zəhəbi "Təlxis"də rəvayyətin doğru olmadığını qeyd etmişdir.

[1] Məktub 70

[2] "Mizanul itidal", 2/286/№3761

Rafizi yazır: *"Hakimin "Müstədrək" və Zəhəbinin "Təlxis"də nəql etdikləri Buxari və Muslimin şərtinə əsasən düzgün hesab etdikləri hədisdə deyilir: Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Amma sən ey Əli, mənim qardaşım və övladlarımın atasısan,məndənsən və mənə mənsubsan."*[1]

— Hakim rəvayyəti "Müstədrək" (№4957) və Nəsai "Sunən əl kubra"(№8523)-da nəql etmişlər. Əbdulhüseyn rəvayyət hər iki şeyxin şərtlərinə görə səhihdir deməklə yalana yol verir. Hər iki alim rəvayyət Muslimin şərtinə görə səhihdir demişlər.

İsnad belədir: Muhəmməd ibn Məsləmə - İbn İshaq – Yezid ibn Abdullah ibn Qasit – Muhəmməd ibn Usamə ibn Zeyd – atasından.

İbn İshaq, bu Muhəmməd ibn İshaq ibn Yasirdir. Məşhur tarixçidir, alimlərin onun haqqında rəyyləri fərqlidir. Nəsai dedi: "Güclü deyil". Dəraqutni dedi: "Ona etimad etmirlər." İbn Məin onun "siqa" olduğunu, amma dəlil hesab edilmədiyini qeyd etmişdir. Əhməd ibn Hənbəl deyir ki, ibn İshaq çoxlu tədlislər edərdi.[2]

Bu rəvayyəti də o Yeziddən bunu birbaşa ondan eşidib-eşitmədiyini bəlli etmədən nəql etmişdir.

<u>Dəlil №5.</u> *"Hz. Əli Nəcva ayəsinin hökmünə yeganə əməl edən şəxs idi."*

— Söhbət Mucadilə surəsində olan 12 və 13-cü ayələrdən gedir. Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Peyğəmbərlə gizli söhbət edəcəyiniz zaman bu söhbətinizdən əvvəl Sədəqə verin. Bu sizin üçün daha xeyirli və daha pakdır. Əgər bir şey tapmasanız bilin ki, Allah Bağışlayandır, Rəhmlidir.Məgər siz gizli söhbətinizdən əvvəl Sədəqə verməkdən qorxdunuzmu? Əgər siz bunu etməmisinizsə və Allah da tövbənizi qəbul edibsə, onda namaz qılıb zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır."***

Birincisi, bu ayə bütün müsəlmanlara aiddir. Çünki, Uca Allah buyurur "Ey iman gətirənlər!"

[1] Məktub 70

[2] "Mizanul itidal", 3/468/№7197

İkincisi, hətta fərz etsək ki, ondan başqa heç kəs buna əməl etməyib, bu onun xəlifə olmasına dəlalət etmir. Rəvayyətdə deyilir ki, əməl olunan 12-ci ayə 13-cü ayə ilə nəsh olunmuşdur.

Daha sonra rafizi yazır: *"74-cü məktubda Ümm Sələmə və Abdullah ibn Ömərin o Həzrətin vəfatı zamanı və "Taif" günü Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə Əlinin sirrli söhbəti haqqında hədislərləri ilə tanış olacaqsınız.Orada görəcəksiniz ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) o gün buyurdu: "Əlini Mən sirdaş seçməmişəm,əksinə Allah onu seçibdir."* [1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (3084)-də zəif adlandırmışdır. Rəvayyəti Təbərani "əl Kəbir" (№1756)-də bu isnadla nəql etmişdir: Səlim ibn Əbu Həfs – Əbu Zubeyr – Cabir.

Xətib "Tarix" (7/402)-də bu isnadla nəql edir: əl Əclah – Əbu Zubeyr – Cabir. İbn Həyyanın kitabında isə bu isnadla: Əbdulcəbbar ibn Abbas – Əmmar əd Duhəni – Əbu Zubeyr – Cabir.

Əbu Zubeyr Məkki - bu Muhəmməd ibn Muslimdir. İbn Hacər "Təqrib" (№6291)-də qeyd etmişdir ki, o etibarlı olmuşdur amma, tədlis edərdi. Hər üç isnadda Əbu Zubeyr bunu birbaşa Cabirdən eşidib-eşitmədiyini bəlli etmədən nəql etmişdir. Səlim ibn Əbu Həfs ifrat şiədir. Nəsai dedi: Etibarlı ravi deyildir. Fələsi isə onu zəif hesab etmişdir.[2]

Əclah əl Kindi. Bu ravini Nəsai və Əbu Hatim zəif, digər alimlər isə etibarlı hesab etmişlər.[3]

Əmmar ibn Müaviyə Duhani şiələrdən olan düzgün ravidir. Əbdulcəbbar isə mətruk ravidir. Əbu Nueym dedi: "Kufədə ondan daha yalançısına rast gəlmədim"[4]

Dəlil №6. Rafizi yazır: *"Əli (əleyhisalam) onun dostu idi."* Haşiyədə o hədisi yazır: *"Sən mənim bu dünya və axirətdə vəlimsən"*[5]

---

[1] Məktub 70
[2] "Mizanul itidal", 2/110/№3046
[3] həm.yer 1/78/№274
[4] həm yer. 2/533/№4741
[5] Məktub 70

Əlinin *(radiyallahu anhu)* 10 xüsusiyyəti baradə olan fəsildə biz bu baradə bəhs etdik.

Dəlil №7. Rafizi yazır: *"Əli ilə sülh edən Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə sülh edir.Onunla müharibə edən Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə müharibə edir."* Daha sonra yazır: *"İmam Əhməd "Musnəd"in 2-ci cildinin 442-ci səhifəsində Əbu Hureyrədən nəql etmişdir ki,Rəsulullah (sallallahu aleyhi və səlləm) Əli,Fatimə,Həsən və Hüseynə baxıb buyurdu: "Əli ilə müharibə,mənimlə müharibə,onunla sülh mənimlə sülhdür."*[1]

— Rəvayyəti Xətib "Tarix" (7/137) və Hakim "Müstədrək" (№4713)-də bu isnadla nəql etmişdir: Təlid ibn Süleyman – Əbu Cuhəf – Əbu Hazim – Əbu Hureyra.

"Təlid ibn Süleymanı ibn Məin yalançı, Nəsai isə zəif hesab etmişdir."[2]

Xətib ibn Məinin belə dediyini yazır: ***"Təlid yalançıdır. O, Osmanı söyərdi və hər kim ki, Osmanı, Təlhanı və səhabələrdən kimsəni söyərsə, o dəccaldır və ondan rəvayyətlər alınmaz. Allahın, mələklərin və insanların lənəti onun üzərinə olsun."***[3]

Zəhəbi onu "Kəşşaf" (№670)-da, ibn Hacər isə "Təqrib"-də zəif hesab etmişdir. Bu rəvayyəti həmçinin, Məhamili "Əməli" (№515)-də bu isnadla nəql etmişdir: Həsən ibn Hüseyn əl Aruni – Əli ibn Hişam –atasında – Əbu Cuhəf – Muslim ibn Sabih – Əbu Hureyra.

Həsən ibn Hüseyn əl Aruni - Bu Aruni Kufidir. Şiələrdən olan zəif ravidir. İbn Adiy dedi: "Onun nəqlləri etibarlı ravilərin nəqllərinə oxşamır."[4]

Əli ibn Hişam və atası isə rafizilərdəndir. Onlar haqqında yuxarıda bəhs edilib. Əbu Cuhəf - Bu Davud ibn Əbi Aufdur. Bəzən səhvlərə yol verən dürüst şiədir.[1]

---

[1] Məktub 70
[2] "Mizanul itidal", 1/358/№1339
[3] "Tarix" 7/137
[4] "Mizanul itidal", 1/483/№1829

İbn Adiy onun haqqında deyir: "Bizə görə o, etimad edilən ravilərdən deyildir." [2]

Hədisi həmçinin, Təbərani "Saqir" (№767) və Hakim "Müstədrək" (№4714)-də bu isnadla nəql etmişdir: Əsbat ibn Nəsr – İsmail ibn Əbdurrahmən Suddi – Səbih mevla Ümm Sələmə - Zeyd ibn Ərkam.

"Əsbat ibn Nəsr əl Həmədani. Onu Əbu Nueym və Nəsai zəif hesab etmişlər."[3]

İbn Hacər "Təqrib" (№321)-də bu ravinin tez-tez səhvlərə yol verdiyini qeyd etmişdir. İsmail Suddi haqqında isə fikirlər fərqlidir. Səbih mevla Ümm Sələmə isə Tirmiziyə görə məchuldur. Rəvayyəti həmçinin, Təbərani "əl Ausat" (№2854)-da bu isnadla nəql etmişdir:

İbrahim – Muhəmməd ibn Mərzuq – Hüseyn ibn Həsən əl Əşkar – Ubeydullah ibn Musa – Əbu Madə - İbrahim ibn Əbdurrahmən ibn Sabih – babası Səbihdən.

əl Heysəmi "Zəvaid" (№14989)-də qeyd etmişdir ki,ravi silsiləsində ona məlum olmayan adamlar vardır. Hüseyn ibn Həsən əl Əşkarın zəif olması baradə isə yuxarıda bəhs etmişdik.

170) Rafizi yazır: *Amma, vəsiyyəti inkar edən dörd məzhəbin davamçılarından bəziləri güman etmişlər ki, "vəsayət" üç xəlifə ilə uyğun gəlmir.Bu isə təəssübkeşliyin əlamətidir."*[4]

— Şeytanın dostu yalan dedi! İslam alimləri belə vəsiyyətin olmasını inkar etmişlər. Çünki, bu yalan, zəif və doğru olmayan rəvayyətlərə əsaslanır. Agah olanlar bilir ki, Əliyə *(radiyallahu anhu)* edilmiş xüsusi bir vəsiyyət olmamışdır.

---

[1] "Təqrib" №1805
[2] "Mizanul itidal", 2/18/№2638
[3] "Mizanul itidal", 1/175/№712
[4] Məktub 70

"Həsən atası Əli ibn Əbu Talibdən rəvayyət edir: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **vəfat etdikdə biz öz halımıza baxdıq. Biz gördük ki, Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **namazda Əbu Bəkri önə çəkdi və bizdə ondan sonra dünyəvi işlərimizi dinimizin tapşırıldığı adama təhvil verdik. Beləcə Əbu Bəkri seçdik."**[1]

Əli *(radiyallahu anhu)* xəlifə olan zaman ondan soruşdular: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **sənə xilafəti vəsiyyət etmişdimi?" O,dedi: "Xeyr,əgər belə bir şey olsaydı, mən tək qılıncla bu yolda savaşardım."**[2]

Əli ibn Əbu Talibdən soruşurlar: **"Bizə öz varisini göstər." Əli dedi: "Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **bizə heç kimi buraxmadı, mən niyə kimisə varis buraxmalıyam? "Əgər Allah Təala onlar üçün xeyir istəsə Peyğəmbərdən sonra ən xeyirli adamın ətrafında topladığı kimi onları da toplayacaqdır."**[3]

İmam Hakim bu hədisi səhih hesab etmiş və Zəhəbi "Təlxis"də bunu təsdiqləmişdir. Heysəmi də belə hədisi Şəkikə istinad edərək nəql etmiş və qeyd etmişdir: "İsnadın raviləri İsmail ibn Əbu Harisdən başqa "Səhih"in ravileridir. İsmail da etibarlı ravidir."[4]

171) Rafizi yazır: *"Sünnilər bu məsələdə bizim qarşımızda mübahisə edə bilməzlər. Amma,Buxari və başqaları Təlhə ibn Misrəfdən nəql etmişlər ki, Abdullah ibn Əbu Aufdan soruşdu: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəsiyyət etmişdimi?" Cavab verdi: "Yox." Ona dedim: "Necə oldu ki,özü vəsiyyət etməyi xalqa vacib bildi amma, özü onu tərk etdi?"Cavab verdi: "Allahın kitabını tapşırdı." Bu hədis ağ yalandır və bizim üçün heç bir etibarı yoxdur. Göründüyü kimi bu hədis o dövrün siyasətinin tələbinə uyğundur."*[5]

---

[1] İbn Cəuzi, "Sifətus səffa" səh 113

[2] İsmail ibn Yusif Nəbhani, "Şəraful muabəd li ali Muhəmməd"səh 193

[3] Hakim, "Müstədrək", №4467; "əl bidayə vən nihayə", c. 5, səh 251; Əhməd, ;"Fədail əshab, 2/№595, 622; Beyhəqi, "Sunən kubra", 8/149; Bəzzar, Musnəd №565

[4] "Məcməu zəvaid", 9/50

[5] Məktub 70

— Əbdulhüseyn bu hədis baradə danışır: "Təlha ibn Musarrif deyir: "Bir gün mən Abdullah ibn Əbu Aufdan soruşdum: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* vəsiyyət etmişdimi?" O, dedi: "Xeyr." Mən dedim: "Bəs,onda niyə insanlara vəsiyyət etmək tapşırılıb?" O,dedi: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Quranı vəsiyyət etmişdi."[1]

Allaha həmd olsun ki, hədis səhihdir. Bu hədisdə səhabələrdən biri bildiyini nəql etmişdir. Təbii,məlum olduğu kimi daha məlumatlı olan daha üstündür. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* son vəsiyyətini ümmətinə etmişdi. İbn Abbas deyir ki, **Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **vəfatı əsnasında səhabələrinə üç şeyi vəsiyyət etdi: "Müşrikləri ərəb yarımadasından çıxardın. Yanınıza gələn heyətləri mənim kimi qarşılayıb,onlara ikramlar edin."**[2]

Üçüncü tövsiyyə isə digər hədisdə keçir. İbn Macə "Sunən" (№2698)-də Əli ibn Əbu Talibdən nəql edir ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* son sözləri bu olmuşdur: "Sizə namazı və əlinizin altında olanlarla adil davranmağınızı nəsihət edirəm." Bu həmçinin, Ənəs və Ümm Sələmədən də nəql olunmuşdur.[3]

172) Rafizi 72-ci məktubda Aişənin *(radiyallahu anhu)* Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* digər zövcələrinə qısqanmasına dəlalət edən iki hədis nəql edir. Qısqanclıq hissini Allah bir çox insanlara bəxş etmişdir. Əgər bu hiss möminlərin anası olan Aişəyə *(radiyallahu anhu)* töhmətdirsə, onda gərək Fatiməyə *(radiyallahu anhu)* də şamil olunsun. İmam Buxari Misvər ibn Məhramədən rəvayyət edir:

"Bir gün Fatimə (radiyallahu anhu) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına gələrək,dedi: "Sənin qövmün deyir ki,qızlarını qəzəbləndirmisən. Amma bax,Əli Əbu Cəhlin qızı ilə evlənir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) minbərə qalxdı, Allaha həmd sənа etdikdən sonra dedi: "Həqiqətən Hişam bin Muğiranın ailəsi məndən qızlarını Əli bin Əbu Talibə vermək üçün icazə istəyirlər,mən də icazə vermirəm! Və yenə icazə vermirəm.Yalnız əgər Əli qızımı(Fatiməni) boşayıb,onların qızları ilə evlənmək

[1] "Muxtəsər səhih əl Buxari", №1138. (2740)
[2] "Muxtəsər səhih əl Buxari", №1245. (3053)
[3] İbn Macə, Sunən" №2697, №1625

istəyirsə,bu başqa məsələ.Çünki, qızım mənim bir parçamdır. Onu şübhəyə salan məni də salır.Ona əziyyət verən şey mənə də əziyyət verir."[1]

Rafizi daha sonra yazır: *"Ümmul-möminin Aişənin özünəməxsus məqamı və yeri olmaqla bərabər, deməliyəm ki,o Peyğəmbərin (sallallahu aleyhi və səlləm) zövcələrinin ən yaxşısı deyildir. Aişə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) zövcələrinin ən ağıllısı və ən yaxşısı necə ola bilər ki,özünün nəql etdiyi səhih hədisə əsasən,deyir: "Bir gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) Xədicəni xatırlayarkən mən ona eyib tutub dedim: "O ki,qoca bir qadın idi.Allah ondan da yaxşısını sənə vermişdir.Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Allah ondan yaxşısını mənə inayət etməmişdir.Çünki,xalq məni təkzib edəndə,o məni öz malına,dövlətinə şərik etdi,məni məhrum edəndə Allah başqasından deyil,ondan mənə övlad əta etdi."*[2]

— Şübhəsiz ki, o hər mömin üçün daha dəyərli bir qadındır və şübhə yoxdur ki, şiələr ona nifrət edirlər və onu küfrdə ittiham edirlər. Mən oxucuya Ayətullah Muhəmməd Şahrudinin rəsmi saytından olan sual-cavabın skan nüsxəsini təqdim edirəm.

Sual 50: Bəzi möminlərin anasını, nümunə kimi Aişə xanıma - onun Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* asi olduğuna, dövrün imamına müharibə elan etdiyinə və imam Əliyə qarşı gizli və açıq kin bəslədiyinə görə lənət etmək olarmı?

Cavab: Möminlərin əmirinə, Zəhraya və imamlara düşmənçilik edən hər kəsi lənətləmək caizdir. Bu niyə də olmasın, bir halda ki, onlar zülmə uğramışlar? Can qorxusu yoxdursa, lənət etmək caizdir. Həmçinin, imam Sadiq hər namazdan sonra onlardan səkkizinə lənət edərdi.

Digər Ayətullah Muhəmməd ət Təvsirkani "Lə ali əl əxbər" kitabında yazır: **"Bilki, onlara lənət etmənin (onlara lənət olsun) ən münasib vaxtı və yeri sənin təharətdə olduğun zamandır. Hər ifrazdan, sidiyə çıxdıqdan sonra bir neçə dəfə təkrar et: "Ey Allah! Ömərə lənət et,sonra Əbu Bəkrə, Ömərə sonra Osmana, Ömərə sonra Müaviyəyə,**

[1] "Muxtəsər səhih əl Buxari", №1467. (3729)

[2] Məktub 72

Ömər….Ey Allah! Aişəni, Həfsəni, Hindi, Ümm əl Həkəmi və Qiyamət gününə qədər onların əməli ilə razı olan hər kəsi lənətlə."[1]

Onların möminlərin anasına olan əsl səmimi münasibətləri budur və bu münafiqin *"Aişənin özünəməxsus məqamı və yeri"* sözləri sizi aldatmasın. Aişə *(radiyallahu anhu)* yalnız möminlərin yanında xüsusi hörmətə və dəyərə sahibdir. Onun fəzilətləri baradə çoxlu hədislər mövcuddur. Bu baradə ayrıca kitab mövcuddur.

Aişə *(radiyallahu anhu)* Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ən sevimli zövcələrindən idi. Buxari Aişədən *(radiyallahu anhu)* nəql edir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) zövcələri iki dəstə idilər. Dəstələrin birində Aişə, Həfsa, Səfiyyə və Sevdə idi. Digər dəstədə isə Ümmu Sələmə və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) digər zövcələri idi.* ***Müsəlmanlar, Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***Aişəyə*** *(radiyallahu anhu)* ***olan sevgisini bilirdilər. Ona görə də onlar Peyğəmbərə*** *(sallallahu aleyhi və səlləm)* ***hədiyyə təqdim etmək istədikdə Aişənin növbəsini gözləyər və Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***onun evində olduqda,hədiyyə sahibi öz hədiyyəsini Aişənin evinə göndərərdi.*** *Ümmu Sələmənin dəstəsi ona dedilər ki, sən Peyğəmbərlə (sallallahu aleyhi və səlləm) danış insanlara desin ki, kim Peyğəmbərə (sallallahu aleyhi və səlləm) hədiyyə etmək istəsə hansı zövcəsinin evində olmasına baxmadan hədiyyəni təqdim etsin.Ümmu Sələmə (radiyallahu anhu) bu haqqda Peyğəmbərlə (sallallahu aleyhi və səlləm) danışdı, amma Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona heç bir söz demədi. Digər qadınlar bu haqqda Ümmu Sələmədən soruşduqda dedi: O, mənə heç nə demədi. Qadınlar dedilər: Onunla yenə də danış. Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun yanına gələndə Ümmu Sələmə (radiyallahu anhu) yenə də onunla danışdı. Amma, Peyğəmbər (sallallahu aleyhi və səlləm) heç bir söz demədi. Digər qadınlar bu haqqda Ümmu Sələmədən soruşduqda dedi: O, mənə heç nə demədi. Qadınlar dedilər: "O, səninlə danışana qədər onunla danış." Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun yanına gələndə Ümmu Sələmə yenə də onunla danışdı.Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi:* ***"Aişə barədə danışıb mənə əziyyət vermə.Vəhy mənə yalnız Aişənin evində olanda gəlir. Ümmu Sələmə (radiyallahu anhu) dedi: "Ya Rasuləllah,sənə əziyyət verdiyim üçün tövbə edirəm."***

Daha sonra Ümmu Sələmənin dəstəsi,Peyğəmbərin (sallallahu aleyhi və səlləm) qızı Fatimə (radiyallahu anhu) -ni çağırıb, "zövcələrin Allah xətrinə Əbu Bəkrin qızı ilə münasibətdə ədalətli olmağını istəyirlər" – xəbərini çatdırmaq üçün Rasuləllahın

[1] "Lə ali əl əxbər" kitabında c.4,səh 92

(sallallahu aleyhi və səlləm) yanına göndərdilər.Fatimə (radiyallahu anhu) ona bu haqqda xəbər verdikdə Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi: ***"Ey qızım, mənim sevdiyimi sevmirsənmi? Fatimə dedi: Bəli. Peyğəmbər (sallallahu aleyhi və səlləm) - dedi: "Bunu da (Aişəni də) sev."*** *Fatimə (radiyallahu anhu) qadınların yanına qayıdıb bu haqqda onlara xəbər verdikdə qadınlar bir daha Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına qayıtmasını istədilər.Amma,Fatimə (radiyallahu anhu) geri qayıtmağa razı olmadı."*[1]

Ümm Sələməyə *(radiyallahu anhu)* Aişənin *(radiyallahu anhu)* ölüm xəbəri çatdıqda dedi: ***"Allah onu əhv etsin.Canım əlində olana and olsun ki,o Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***üçün atası istisna olmaqla ən sevimli insan idi."***[2]

Nəql olunur ki,ibn Abbas Aişəyə dedi: ***"Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***zövcələri arasında sən ona ən sevimlilisən."***[3]

Rafizinin bu sözlərinə qayıdaq: *"Aişə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) zövcələrinin ən ağıllısı və ən yaxşısı necə ola bilər ki,özünün nəql etdiyi səhih hədisə əsasən,deyir: "Bir gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) Xədicəni xatırlayarkən mən ona eyib tutub dedim: "O ki,qoca bir qadın idi.Allah ondan da yaxşısını sənə vermişdir.Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Allah ondan yaxşısını mənə inayət etməmişdir.Çünki,xalq məni təkzib edəndə,o məni öz malına,dövlətinə şərik etdi,məni məhrum edəndə Allah başqasından deyil,ondan mənə övlad ata etdi."*[4]

Haşiyədə rafizi yazır: *"Bu və bundan sonrakı hədis səhih və "müstəfiz" rəvayyətlərdəndir."İstiab"da Xədicənin şərhi-halına müraciət edin.Orada zikr etdiyim sözləri eynilə görəcəksən.Buxari və Muslim də bu hədisi bu ikisinə oxşar sözlərlə nəql etmişlər."*

[1] Səhih Muslim "Aişənin fəziləti"babı,hədis 82-83; Səhih Buxari "Kitabul Hibə" Bab, Mən ihtədə ilə sahibihi,hədis 2581

[2] İbn Hacər "Mətalibul aliyyə" c.5,№4142;Əbu Nueym "Hilyətul əvliyyə" 2/44

[3] İbn Əbu Dunya "Kitab əl muxtədərin" səh 140, №217

[4] Məktub 72

— Buxarinin nəql etdiyi hədis rafizinin nəql etdiyi hədisdən köklü olaraq fərqlənir. ”Səhih”də qeyd edilmir ki, ***“Allah ondan yaxşısını mənə inayət etməmişdir.”***[1]

Rafizinin yazdığı mətn imam Əhmədin “Musnəd” (№24908)-də, ibn Əbdulbərrin “İstiab”da nəql olunur. Bütün isnadlarda Mucəllid ibn Səid var ki,o mətruk ravidir. İbn Məin dedi: “ona etimad edilməz”, Əhməd dedi: “o heçnədir”, Nəsai dedi: “güclü deyil”, Dəraqutni dedi: “zəifdir”, Buxari Yəhya ibn Səidin onu zəif hesab etdiyini nəql etmişdir.”[2]

İkincisi, mən “Sunən”kitablarında rafizinin nəql etdiyi hədislərə rast gəlmədim. Daha sonra rafizi isnadında Mucəllid ibn Səid və daha zəif ravi olan İsmail ibn Mucəllidin rəvayyətini gətirir.

173) Rafizi yazır: *“Bəli,bəzən özü elə fikirləşirdi ki,o başqalarından üstündür.Amma, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu təsdiqləmirdi.Bunu Ümmul-möminlə Səfiyyə (Həyyin qızı) arasında baş vermiş hadisədən də başa düşmək olar.Əhvalat belədir: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir gün Səfiyyənin yanına daxil olub gördü ki, o ağlayır. Soruşdu:” Nə üçün ağlayırsan? Cavab verdi: “Mənə xəbər çatdı ki,Aişə və Həfsə məndə eyib axtarır və deyirlər: “Biz Səfiyyədən yaxşıyıq.Rəsulullah (sallallahu aleyhi və səlləm) buyurdu: “Nə üçün soruşmadın ki,sizin məndən nəyiniz yaxşısınız? Halbuki,atam Harun,əmim Musa və ərim Muhəmməddir.”*[3]

— Bu rəvayyəti Tirmizi “Sunən” (№3892) və Hakim “Müstədrək” (№6790)-də nəql etmişdir və bu hədis zəifdir. Tirmizi yazır: “Hədis qəribdir Səfiyyədən gələn Hişam Kufinin isnadından başqa isnad bilinmir və bu isnad güclü deyildir.” Albani rəvayyəti “Zəif Tirmizi”də zəif adlandırmışdır.”Hişam ibn Səid əl Kufi ibn Məinin qeyd etdiyi kimi heçnədir.”[4]

---

[1] “Muxtəsər səhih əl Buxari” №1500. (3821)
[2] “Mizanul itidal” 3/438/№7070
[3] Məktub 72
[4] “Mizanul itidal” 4/289/№9184

İbn Hacər onu "Təqrib" (№7254)-də zəif adlandırmışdır.

174) Bu fəsildə biz 74-cü məktubu və rafizinin möminlərin anası Aişəyə *(radiyallahu anhu)* etdiyi töhmətləri nəzərdən keçirəcəyik.Allahın təmizə çıxardığı Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* zövcəsinə və möminlərin anasına bəslədikləri düşmənçiliyə və kinə görə Allah rafizilərin bəlasını versin!

Rafizi şeytanı yazır: *"Bu iki döyüşdə o sinəsində gizlətdiyi bütün kini aşkara çıxardı.Bu iki nümunə onun möminlərin əmirinə qarşı tutduğu mövqeni göstərməyə kifayətdir."*[1]

— Söhbət Cəməl döyüşündən gedir. Birincisi, Uca Allah Quranda iki mömin dəstənin bir-biri ilə döyüşə biləcəyini bildirmişdir. Allah Təala buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir."**[2]

İkincisi,bizə tarixdən məlum olduğu kimi bu səhabələrdən heç biri Əlini devirməyi və ona qarşı çıxmağı qarşılarına məqsəd qoymamışdılar. Təlha və Zubeyr Əliyə əmir kimi beyət edənlərdən idilər.Onlar Məkkəyə gəldikdə Aişə ilə görüşdülər. Aişə həmin ili Həcc edirdi.Osmanın qatillərini ifşa etmək məqsədi ilə onlar insanları buna dəvət etmək üçün Bəsrəyə yollandılar. Bunu öyrənən Əli onları qarşılamaq üçün ora yollandı və Cəməl döyüşü baş verdi."[3]

Keys ibn Hazim rəvayyət edir: "Aişə Bəni Əmir quyusu ətrafında gecələməyə qalmışdı. Burada itlər ona hürməyə başladılar. O,soruşdu: "Bu nə sudur?" Dedilər: "Həvvab" O,dedi: "Nə olur, olsun mən qayıdıram. Çünki, mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə dediyini eşitdim: "Həvvabın itləri sizlərdən birinə hürəcəyi zaman

[1] Məktub 74
[2] Hucurat 9
[3] İbn Hacər "Fəth əl bari" 13/518

halınız necə olacaq?" Bunu eşidən ətrafdakılardan biri dedi: "Xeyr, sən gedəcəksən. Müsəlmanlar səni görməlidirlər və beləcə Allah onların arasını düzəldəcəkdir."[1]

Bu hədis səhihdir. İbn Hacər "Fəth əl bari"(səh 100)-də yazır: ***"Bu hədisi Əhməd, Əbu Yalə və Bəzzar nəql etmişlər.İbn Hibban və Hakim hədisin səhih olduğunu qeyd etmişlər. əl Heysəmi yazır ki, imam Əhmədin hədisinin raviləri "Səhih"-in raviləridir."***

Həmçinin, Əbu Cirvə əl Məzinidən rəvayyət olunur: "Mən Əli ilə Zubeyrin Cəməl günü görüşərkən, səmimiyyətlərinin şahidi oldum. Əli dedi: "Allah xətrinə de. Məgər sən Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* belə dediyini eşitməmisən? "Sən Əli ilə savaşacaq və ona haqqsızlıq edəcəksən" Zubeyr dedi: "Bəli, yalnız indi xatırladım." və geri çəkildi."[2]

Təlha, Zubeyr, nədə Aişə Əlinin xilafətinə etiraz etmirdilər və devirməyə çalışmırdılar. İbn Həzm deyir: "Möminlərin anası Aişə,Təlhə,Zubeyr və onlarla birgə olanlar Əlinin xilafətinə etiraz etmir, onu təhqir etmir, ittiham etmir, başqa birinin xəlifə olmalı olduğunu demir və ondan başqa birisinə beyət etmirdilər. Bunlar elə məqamlardır ki,hər bir alim bilir ki,bütün bunlar olmamışdır. Səhih yolla varid olmuşdur ki, onlar Bəsrəyə Əli ilə döyüşməyə və ona olan beyəti pozmaq üçün getməmişdilər.Əgər onlar istəsəydilər, başqa birinə beyət edərdilər. Bu elə bir həqiqətdir ki,bunu heç kəs inkar edə bilməz. Onlar Bəsrəyə Osmanın şəhid edilməsindən sonra yaranan fitnə alovunu söndürmək üçün getmişdilər.

İbn Ərəbi "Əhkəmul Quran" (3/569-570)-da yazır: **"Aişənin Cəməldə olmasına gəlincə, o oraya savaş məqsədi ilə getməmişdi. İnsanlar ona gəlir, fitnə-fəsadın artmasından şikayət edirdilər. Onlar insanları islah etmək üçün ona sığınırdılar. Onlar və Aişə özü elə güman edirdilər ki,insanlar onun iştirakından həya edib, çəkiləcəklər."**

<u>Döyüş axşamı.</u>

[1] İmam Əhməd "Musnəd" №24698)

[2] "Muxtəsər isabə ibn Hacər" səh 100

İmam Təbəri yazır: "Hər iki tərəf görüşdükdən sonra razılaşdılar ki,savaş olmayacaqdır.Kaka ibn Amr Əlinin yanına görüşdən qayıtdıqdan sonra ona dedi: "Onlar sülhə və haqqın bərpasına razıdırlar." Bəsrədə sülh razılaşmasının olması xəbəri yayıldı. Əli əsgərləri ilə birgə Bəsrəyə gəlib,Kufəlilərə müraciət etdi: "Ey Kufəlilər! Sizlərdən Osmana qarşı çıxıb,Kufədən Mədinəyə tərəf gələnlər aramızdan çıxsınlar."

Lakin, əsgərlər arasında Osmana qarşı çıxan bir çox adamlar var idi.Onlar bir araya gələrək dedilər: "Onlar barışmaq istəyirlər,bu barışıq bizim qanımız hesabına olacaq. Əgər razılaşma əldə olunsa,bu bizim sonumuz olacaq." Adiy ibn Hatim dedi: "Onlar razılığa gəlsələr, biz tələyə düşəcəyik desək doğru olardı. Beləliklə, biz ancaq savaşmalıyıq, elə döyüşəcəyik ki,onlar savaşı kimin başladığını anlamasınlar."

Gecə oldu. Bəsrəlilərdən biri Təlhə və Zubeyrin yanına gəlib, onlara belə təklif etdi: "Mənə 1000 əsgər verin. İndi bu dəqiqə Əli elə güman edir ki,o sizinlə barışacaqdır. O,arxayınlaşıb və mən ona qəfildən hücum edəcəm." Onlar dedilər: "Onlar müsəlmandırlar! Əli Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əmisi oğludur və ümmət heç vaxt bir-biri ilə döyüşməyəcəkdir və biz dində qardaşıq. Ona görə biz döyüşə layiq deyilik."

Həmin gecə Əlinin adamlarından biri ona eyni təklifi etdi və rədd cavabı aldı." [1]

Təbəri daha sonra yazır: "Sonra hər iki tərəf sülhə razı oldular.Əli ibn Abbası Təlhə və Zubeyrin yanına göndərdi.Razılaşma qəti və sübhün açılması ilə qüvvəyə minməli idi. Lakin, Osmana qarşı vaxtı ilə qiyam edənlər həmin gecəni yatmadılar."Onlar bizim qanımızı istəyirlər! Bizim indi vəzifəmiz hər iki dəstə arasında müharibə çıxarmaqdır. Amma, heç kəs bilməməlidir ki,bunu biz etmişik."[2]

"Sübhə yaxın ərəfədə Səbaililər Təlhə və Zübeyrin əsgərlərinə qəfil hücum etdilər. Onlardan bir neçəsini qətlə yetirib, geri çəkildilər.Təlhanın əsgərləri Əlinin razılaşmanı pozduğunu güman edib, hücuma keçdilər. Əlinin qoşunu isə əksinə, elə güman etdilər ki, Təlhanın əsgərləri razılaşmanı pozublar və beləcə döyüş qızışdı. Əli və Təlha döyüşü

[1] Təbəri, "Tarix" 4/25
[2] Təbəri "Tarix" 4/25

saxlamağa çalışırdılar. Aişə də bunu etməyə çalışırdı. O, Kəbb ibn Suru Quran müshəfi ilə göndərdi. Lakin, səbaililər onu oxla öldürdülər."[1]

Tarix səhabələrin bir-birilərinə olan münasibətini bizə göstərir.Onlar bir-birinə ölüm diləmir və həqiqətən İslamda qardaş idilər.Ömər ibn Xəttabın vəfatından sonra Əlinin xəlifə olmasına səs verən Zubeyr deyildimi? və onların bir-birinə olan münasibəti də bizə məlumdur. Curmuz Əlinin hüzuruna daxil olduqda, Əli ona dedi: "Səfiyyənin oğlu Zubeyri öldürənin od əhli olması müjdəsini mənə söylə."[2]

İbn Sədd səhih isnadla nəql edir ki, Cəməl günü ibn Abbas Zubeyrdən soruşdu: "Sən Əbdulmutəllib oğlu ilə savaşmağa gedirsən?" Bunu eşidən, Zubeyr geri qayıtdı.Yolda ibn Curmuzla rastlaşdı ki, o onu öldürdü. Bunu eşidən ibn Abbas Əliyə gəlib, ondan soruşdu: "Zubeyri öldürən hara gedəcək?" Əli dedi: "Cəhənnəmə"[3]

"Cəməl günü Təlha öldürüldükdə, Əli oğlu Həsənə dedi: "Ey Həsən! Mən 20 il əvvəl ölməyi arzu edərdim."[4]

Heysəmi bu rəvayyəti Təbəraniyə istinad edərək nəql etmiş və qeyd etmişdir ki, isnad yaxşıdır. Təlha ibn Musrif nəql edir: "Əli Təlhənin yanına gəldikdə, artıq o ölmüşdü. O,onun yanında oturdu və üzündən, saqqalından tozu təmizləyib, ağlayaraq deyirdi: "Kaş ki,mən bundan 20 il əvvəl öləydim!"[5]

Rafizi haşiyədə yazır: *"Ümmul-möminin, Təlhə və Zubeyr ilə Bəsrəyə həmlə etdilər.İmamın valisi o vaxt Osman ibn Huneyf Ənsari idi.Bu həmlədə Əli şiələrindən 40 nəfər məsciddə,70 nəfər isə başqa yerdə öldürüldülər.Səhabə duhalarında olan Osman ibn Huneyfi əsir aldılar.İstədilər ki,onu öldürsünlər,amma qardaşı Səhl və "ənsar"ın qan almağa qalxmalarından*

[1] "Hikbə min ət tarix" səh 122-123
[2] İbn Cəuzi "Siffətus səffa"səh 153
[3] "Muxtəsər isabə ibn Hacər"səh 101
[4] "Məcməu zəvaid" №14824
[5] Rudani,"Cəmiul fəvaid" 5/№8730; Heysəmi "Məcməu zəvaid" №14823; İbn Əsakir "Tatix" 25/115; Təbərani "Mucəm əl kəbir" №202

qorxdular.Lakin,bığını,saqqalını,qaşlarını və başının tükünü yoldular və özünü də döyüb həbs etdilər.Sonra onu Bəsrədən xaric etdilər."[1]

— Təbəri yazır ki, ibn Huneyf öldürülməmişdi. Çünki, buna Aişə yol vermədi. O,dedi: "Onu öldürməyin! Axı o,Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabəsi olmuşdur."[2]

Rafizi yazır: *"Aişə deyir: "Rəsulullah (sallallahu aleyhi və səlləm) xəstə ikən ağrısı gücləndiyindən iki nəfər qoluna girmiş halda evdən bayıra çıxırdı və ayaqlarını da çəkirdi. Bu iki nəfərin biri Abbas ibn Əbdlmutəllib,biri də başqası idi." Aişədən bu xəbəri nəql edən Ubeydullah ibn Abdullah ibn Utbə ibn Məsud deyir: "Aişənin bu sözünü Abdullah ibn Abbasa dedim. İbn Abbas dedi: "Heç bilirsən ki,Aişənin adını çəkmədiyi o başqa birisi kim idi?" Dedim: Yox. Dedi: "Əli ibn Əbu Talib idi.Sonra İbn Abbas əlavə etdi: "Aişənin Əlidən xoşu gəlmirdi və heç vaxt istəmirdi ki,Əlinin adı yaxşılıqla xatırlansın."* [3]

Haşiyədə yazır: *"Bu xüsusi cümləni yəni, ibn Abbasın "Aişənin Əlidən xoşu gəlmirdi və istəməzdi ki, ondan yaxşılıqla danışılsın" cümləsini Buxari ixtisar etmiş və onun əvvəlini vermişdir ki,adəti üzrə belə hallar onda vardır. Amma, sünnilərdən çoxu düzgün sənədlər ilə onu nəql etmişlər.O cümlədən ibn Sədd "Təbəqat"ın 2-ci cildinin 2-ci hissəsinin 29-cu səhifəsində Əhməd ibn Həccacdan,o da Abdullah ibn Mubarəkdən,o da Yunisdən və Muəmmər onu Zuhridən,o da Abdullah ibn Utbə ibn Məsud ibn Abbasdan nəql etmişlər.Sənədin ravilərinin hamısı huccət və qəbuldurlar."*

— Buxarini ittiham edən rafizi yalan danışır.Birincisi,Buxarinin hədisində olan ravi silsiləsi rafizinin yazdığı ravi silsiləsindən fərqlidir. Buxarinin "Səhih"-ində isnad belədir: İbrahim ibn Musa – Hişam ibn Yusif – Muammər – Zuhri – Ubeydullah ibn Abdullah.

Hədis elmində az da olsa məlumatı olanlar bilir ki, adətən eyni hadisə ayrı-ayrı isnadlarla fərqli mətnlərlə varid olur. Bir isnadda mövcud olan müəyyən məqamlar, digər isnadda fərqli olur və s. Ancaq səfeh olan adam hər dəfə

[1] Məktub 74
[2] "Tarix" 4/15
[3] Məktub 74

belə hallarda alimləri müəyyən ixtisarlara yol verməkdə ittiham edə bilər. Nümunə üçün bir misal çəkmək olar. Şahidi bir neçə adam olan müəyyən bir hadisə baş verir. Biz bu hadisədən sonra şahidləri dindirsək, onların bunu nəql etmələri bir-birindən fərqli olacaqdır. Onlardan kimi hadisəni olduğu kimi xatırlayacaq, kimi müəyyən detalları unudacaq, kimi bəzi xətalara yol verəcəkdir.

İkincisi, rəvayyət "Sunən" kitablarında mövcuddur deyən rafizi yalan danışır. Çünki, heç bir "Sunən" kitabında belə bir hədis yoxdur. Üçüncüsü,*"Aişənin Əlidən xoşu gəlmirdi və heç vaxt istəmirdi ki,Əlinin adı yaxşılıqla xatırlansın"* ifadəsi Buxaridə yoxdur.

Daha sonra rafizi yazır: *"İmam Əhməd "Musnəd"in 6-cı cildinin 113-cü səhifəsində Əta ibn Yəsardan Aişənin haqqında belə nəql edir: "Bir nəfər Aişənin yanına gəlib,Əli və Əmmardan qeybət etdi.Aişə dedi: "Əli barədə sənə heç nə demirəm,amma Əmmarın haqqında,mən Rəsulullahdan (sallallahu aleyhi və səlləm) eşitdim ki, deyirdi: "Əmmar iki iş qarşıya çıxdıqda,həmişə haqq tərəfi seçər.Çünki,onda böyüklük və doğruluq daha çoxdur."* [1]

Əhməd bunu bu isnadla nəql etmişdir: Hub**e**yb ibn Əbu Sabit – Əta ibn Yasir. İbn Hacər "Təbəqat əl müdəllisin"[2] də yazır: "Hubeyb ibn Əbu Sabit əl Kufi məşhur tabeindir. Rəvayyət nəql etmədə çoxlu tədlislərə yol verərdi. Bunu ibn Huzeymə, Dəraqutni və başqaları qeyd etmişlər."

Həmçinin, ibn Hibban da Hubeybi müdəllis adlandırmışdır. Bunu Suyuti "Kitabu əsmai müdəllisin" (səh 36, №7), Əbu Zura ibn əl İraqi "Kitabul müdəllisin" (səh 39,№7)-də və başqaları kitablarında qeyd etmişlər. Hubeybin müdəllis olması faktı və onun bunu şəxsən özü eşidib-eşitməməsini bəlli etmədən rəvayyət etməsi isnadı zəiflədir. Bu rəvayyəti Hubeyb Ətadan nəql edir. "Təhzib ət təhzib" (2/157/№323)-də Kəttanın belə dediyi nəql olunur: "Onun Ətadan nəqli məhfuz deyil." Ukeyli də "Hubeybin Ətadan nəqlinə etibar edilməz"demişdir. *"Əmmar iki iş qarşıya çıxdıqda həmişə haqq tərəfi seçər"* ifadəsi səhihdir. Çünki, bu digər isnadla da nəql olunmuşdur.

[1] Məktub 74

[2] səh 37, №69

Daha sonra dəccal Əbdulhüseyn yazır: *"Mən bilmirəm, onun sözünün hansı tərəfinə irad tutum. Çünki, tamamilə bu qüsurludur. Kaş bir adam mənə başa salaydı ki,Aişənin təsvir etdiyi o hadisə həzrətin vəsiyyət etmədiyinə necə dəlildir?!Ümmul-mömininnin fikri belədir ki, yalnız ölən vaxt vəsiyyət düzgündür və başqa vaxt da düzgün deyildir?Lakin, bu məsələ qətiyyən səhvdir.Həqiqətlə mübarizəyə qalxan adamın dəlili də (hər kim olsa belə) süst olar. Məgər Uca Allahın Qurani-kərimdə peyğəmbərinə xitabı bu deyilmidir: "Sizlərdən birinə ölüm gəldiyi zaman qoyub gedəcəyi var-dövlətdən müvafiq qaydada valideynlərə vəyaxın qohumlara vəsiyyət etməsi ona vacib edilmişdir. Bu, müttəqilər üçün bir borcdur." (Bəqərə 180)*

Ümmul-möminin Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Allahın kitabının fərmanına müxalif olduğunu və onun ehkamlarından üz çevirdiyinimi güman edir?"Nəuzubillah", "haşa lillah!" Əksinə, o yaxşı bilirdi ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) hər bir addımını Quranın fərmanına əsasən atır,ona itaət edir,onun əmrləri və nəhylərinə hamıdan artıq əməl edir.Belə ki,son dərəcə itaətkarlıqla hər bir işdə onun bütün göstərişlərinə əsaslanır və mən Aişənin o Həzrətdən bu hədisi eşitməsinə şübhə etmirəm: "Vəsiyyətə qabil şeyi olan müsəlman vəsiyyətsiz iki gecə qabaqdan yatmamalıdır." Şübhəsiz ki, O bu və buna oxşar hədisləri eşitmişdir.Çünki, Həzrətin vəsiyyət haqqında ciddi əmrlər verməsi şübhəsizdir və Həzrətə və Allahın peyğəmbərlərindən heç birinə caiz deyildir ki, bir şeyə əmr etsin,amma özləri ona əməl etməsinlər vəya bir şeyi qadağan etsin,özləri onun icrasından imtina etməsinlər.Allah belə bir şəxsi özünə peyğəmbər seçməz."[1]

— İlk öncə gərək bir şeyi doğru yazasan ki, sonra onu tənqid edəsən. Əbdulhüseyn Aişənin *(radiyallahu anhu)* sözlərindən yanlış məna çıxardıb, sonra bu yanlış iddiasını digər hədislərlə təsdiqləməyə çalışır. Möminlərin anası deməmişdir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* heç nəyi vəsiyyət etməmişdir. O, Əliyə nəsə vəsiyyət edilməsini və onun guya vasi təyin edilməsini inkar etmişdir ki, bu da həqiqətdir.

Rafizi yazır: *"Bütün bunlardan əlavə,Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir sıra şeylər qoymuşdu ki,onlar haqqında mütləq vəsiyyət etməli idi.Elə şeylər idi ki,bu baxımdan heç kəs onunla müqayisə oluna bilməz.O,Allahın son peyğəmbəri kimi inkişaf başlanğıcında olan sonuncu dini qoyub gedirdi.Burada vəsiyyətin əhəmiyyəti qızıl, gümüş,ev,bağ,torpaq,heyvan və sürülərdən qat-qat artıq idi.Ümmət belə belə bir vaxtda bir yetim tək onun vəsiyyətinə möhtac idi ki,mütləq o Həzrətin tərəfindən bir canişin*

[1] Məktub 74

onların din və dünya işlərinin idarəsini öhdəsinə almalıydı.Ola bilməzdi ki,Rəsulullah (sallallahu aleyhi və səlləm) inkişafın başlanğıcında olan dinini istənilən kəsin həvayi-nəfsinə tapşıra vəya şəriət və qanunların hifzində başqalarının rəy və fikirlərinə arxalana vəyaxud ümmətin din və dünya işlərini vəsi və başçısız,etimad olunmalı adam təyin etməyib gedə. Heç mümkündürmü ki,Allah ona vəhy edəndən sonra vəsiyyəti tərk etsin,amma özü ümmətindən ciddi surətdə vəsiyyəti tələb etsin?!"[1]

— Allahın peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* ümmətin idarəçiliyini şanlı səhabələrinə tapşırmışdı. Əbu Nəcih əl İrbad ibn Səriyyə *(radiyallahu anhu)* dedi:

"Bir gün Rəsulullah *(sallallahu aleyhi və səlləm)* bizə elə xütbə oxudu ki,təsirindən qəlblərimiz qorxuya düşdü, gözlərimizdən isə yaş axdı.Biz soruşduq: "Ya Rəsulullah! Bu vidalaşan adamın sözlərinə oxşayır.Elə isə bizə nəsihət et!" O,dedi: "Mənim sizə nəsihətim budur: Uca Allahdan qorxun və başınıza hətta kölə təyin olunsa belə ona itaət edin. Həqiqətən, sizlərdən çox yaşayanlar böyük fəsadlar görəcəklər. Ona görə də mənim və haqq yolla gedən raşidi xəlifələrin sünnəsinə tabe olun, onlardan ayrılmayın və bidətlərdən çəkinin. Çünki, hər bidət zəlalətdir."[2]

Alimlərin bu hədis baradə rəyləri:

Əbu Davud əs Sicistani: Bu alim bu hədisi "Sunən" (№4607)-də nəql etmiş və şərh yazmamışdır. Onun Məkkə əhlinə yazdığı məktubdan məlum olduğu kimi onun şərh yazmadığı hər hədis onun nəzərində ən azından düzgündür.

Tirmizi: İmam Əbu İsa bu hədisi "Sunən" (№2676)-də nəql etmiş və qeyd etmişdir ki, hədis "həsən-səhihdir."

İbn Əbd əl Bar əl Maliki: "Camiu bəyan əl ilm vəl fədlihi" (2/1164)-də qeyd edir ki, hədis səhihdir.

İmam Bəğəvi: "Şərhus sunnə" (1/181)-də qeyd edir ki,hədis həsəndir.

Curqani: "Ərbətil vəl mənakir" (1/472)-də qeyd edir ki,hədis məlum,sabit və səhihdir.

[1] Məktub 74

[2] Beyhəqi "Sunən əl kubra" №20125; Malik "Muvatta" 1/355

Munziri: “Tərqib və tərxib” (1/60)-də qeyd edir ki,hədis hər iki şeyxin şərtlərinə, ən azından birinin şərtlərinə cavab verir.

Şeyxul İslam “İqtida siratəl mustəqim” (2/83)-da qeyd edir ki,hədis səhihdir.

İbn Mulaqun: “əl Bədrul munir” (9/582)-də qeyd edir ki,hədis səhihdir.

İbn Qeyyum: “İlamul muvəffiqin” (4/119)-də qeyd edir ki,hədis həsəndir.

Şəukani: “İrşad əl fusul” (1/160, 293)-da qeyd edir ki, hədis səhihdir.

Hakim: “Müstədrək”-də hədisin səhih olduğunu qeyd edir. Zəhəbi də “Təlxis”-də bunu təsdiqləmişdir.

Albani: “Səhih Tirmizi”, Mişqat əl məsabih”, ”Səhih əl Cami” kitablarında qeyd etmişdir ki, hədis səhihdir.

Səhih hədisdə Aişə *(radiyallahu anhu)* deyir: “Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* xəstələndiyi zaman mənə dedi: "**Əbu Bəkri və qardaşını mənim yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə iştahalı biri desin ki, mən daha layiqəm. Lakin, Allah və möminlər Əbu Bəkrdən qeyrisinə razı olmazlar.**"[1]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: **“Mən bilmirəm, bundan sonra sizin aranızda nə qədər qalacam. Məndən sonra gələnlərə itaət edin deyərək Əbu Bəkr və Ömərə işarə etdi.”**[2]

Hədisi Tirmizi “Sunən” kitabında Huzeyfa ibn əl Yəmən (radiyallahu anhu) -dən rəvayyət etmişdir. Şeyx Albani “Səhih ibn Macə” -də (№80) yazır: “Hədis səhihdir.”

175) Rafizi yazır: *“Birinci məsələnin cavabında xatırlatdınız ki,Ümmul-mömininin həyatının seyri və tarixindən məlum olur ki,o hisslərə təslim olmazmış və hədisin nəqlində şəxsi qərəzlərdən uzaqmış.Mən sizdən xahiş edirəm ki,özünüzdən təqlid qeydini və təəsübkeşi kənar edib, bir daha onun həyat tarixinə bir nəzər salın. Onun sevdiklərinə və müxaliflərinə münasibətini*

[1] Səhih Muslim “Kitab Fədailus Səhabə”, № 2387; Səhih Buxari “Kitabul Marad”, № 5666

[2] Tirmizi “Sunən” №3663

götür-qoy etməklə diqqət yetirin.Onda görəcəksən ki, onun həyatında hisslərə qapılmaq olduqca barizdir. Xüsusilə,onun Osman baradə sözlərini və rəftarını unutmayın."[1]

Haşiyədə yazır: *"İbn Əbil Hədidin "Nəhcul-bəlağənin şərhi"nin 2-ci cildinin 77-ci səhifəsi və həmçinin, 457-ci, 497-ci səhifələrinə baxın.Orada onun Osman,Əli və Fatimə ilə rəftarı aydın göstərilir ki,onun hissə qapılma halları barizdir."*

— Az öncə bu rafizi qeyd edirdi ki, biz öz kitablarımızdan onların əleyhinə dəlil gətirə bilmərik. Burada isə o mötəzili, bidətçi şiə fikirli olan birinin Əlinin adından yazılan bir kitaba yazdığı şərhi dəlil kimi gətirir. Məgər biz bu iftiranı qəbul etməliyik? Allaha and olsun ki,biz səhih hədislərdə Aişənin Fatiməni tərifləyini bilirik.

İbn Hacər əl Əsqalani "Mətalibu aliyyə" (c.4,səh 453,№3986)-də Amr ibn Dinardan nəql edir ki, Aişə *(radiyallahu anhu)* dedi: **"Atası istisna olmaqla Fatimədən başqa birini sözlərində bu qədər sadiq görmədim."** Heysəmi yazır: "Hədisi Əbu Yalə və Təbərani nəql etmiş, hər iki isnadın raviləri "Səhih"-in raviləridir." İmam Busiri dedi: "Hakim hədisi nəql etmiş və qeyd etmişdir ki, bu Əbu Yalə və Muslimin şərtlərinə görə səhihdir."[2]

Aişə *(radiyallahu anhu)* **rəvayyət edir ki,"Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **üzərində qara naxışlı bir parça olduğu halda mənim yanıma gəldi. Bu zaman Həsən də gəldi. Onu örtüyün altına saldı, sonra Hüseyn gəldi,onu da saldı, sonra Fatimə gəldi, onu da saldı.Sonra Əli gəldi,onu da saldı.Sonra dedi: "Siz ey ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər"**[3]

Əgər o Əlinin ailəsi ilə düşmənçilik etsəydi,onların fəzilətləri baradə hədislər danışardımı?

[1] Məktub 76
[2] "Məcməu zəvaid" 9/102
[3] Muslim, Fadailus-səhabə, 61/2424

176) Əbdulhüseyn yazır: *"Nümunə üçün kifayətdir ki,yalançıların Mariya və övladı İbrahim haqqındakı böhtan və töhmətini Aişənin necə təsdiq etdiyini nəzərə alasınız.Nəhayət,Allah ona və onun övladına Əmirəl-möminin böyük zəkası ilə bəraət qazandırdı.*[1]

Haşiyədə yazır: *"Bu müsibətin təfsilatını bilmək istəyən Hakimin "Müstədrək"inin 4-cü cildinin 39-cu səhifəsində Mariyanın şərhi-halına, vəya onun (Zəhəbinin yazdığı) "Təlxis"inə baxın.*

— Rafizinin istinad etdiyi rəvayyət olduqca zəifdir. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4964)-də olduqca zəif adlandırmışdır. Hakim bunu "Müstədrək" (6821)-də nəql etmişdir. Nə Hakim, nə də Zəhəbi rəvayyətin doğruluğu baradə bir söz deməmişlər. "İsnadda Süleyman ibn Ərqam, Əbu Muaz vardır. İbn Məin onun "heçnə"olduğunu, Dəraqutni və Əbu Davud isə onun mətruk olduğunu qeyd etmişlər."[2]

Daha sonra rafizi yazır: *Quranda buyrulur: "Allah kafir olanları rədd etdi. Onlar hirsindən yandılar və heç bir xeyrə nail olmadılar." Siz bu əhvalatda Aişənin hissə qapılma halını aydın görəcəksiniz."*

— Allahu Əkbər! Allahın lənəti yalançıların üzərinə olsun! Bu ayə guya Mariya vəya onu ittiham edən Aişə haqqında nazil olmuşdu! Bu ayənin təfsirində şeyx Saadi yazır:

"Müttəfiqlər qəzəbli və qəti idilər.Onlar müsəlmanları məhv etməyə hazırlaşırdılar və bunun üçün güc toplamışdılar. Bundan əlavə,onlar çoxlu sayda olmaları ilə öyünür və qələbə qazanacaqlarına əmin idilər. Onlar böyük ordu sahibi olmaları ilə fəxr edirdilər. Lakin, Uca Allah onların planlarını pozdu və onları geri çəkilməyə vadar etdi.Allah onların üzərinə tufan göndərdi. Onların çadırlarını,azuqələrini göyə sovurdu və qəlblərinə qorxu saldı. Müşriklər geri çəkildilər amma,qəzəblərini və təəsüflərini gizlətmədilər. Xəndək döyüşü Allahın mömin bəndələrinə yardım edəcəyinin bariz göstəricisi idi...."

[1] Məktub 76

[2] "Mizanul itidal" 2/196/№3427

Allaha həmd olsun! Bu ayəni Əbdulhüseynin özünə də şamil etmək olar. Bu bidətçi şanlı səhabələrə və müsəlmanlara nə qədər kölgə salmağa çalışsada, Allah onu bu rəddiyyəni yazan bəndələri vasitəsi ilə "geriyə çevirdi".

177) Dəccal Musəvi yazır: *"Əgər onun bundan da artıq hissə qapılma hallarını bilmək istəyirsənsə,bax gör Rəsulullahə (sallallahu aleyhi və səlləm) nə deyir: "Səndən "məğafir" iyi gəlir."Nəhayət,bu yolla o,Peyğəmbəri (sallallahu aleyhi və səlləm) "Ümmul-möminin Zeynəbin mənzilində bal yeməkdən çəkindirir.O,əgər çox adi şeyə görə belə bir mətləbi özündən düzüb-qoşaraq Peyğəmbərə aid edirsə,Əliyə "vəsayət"i inkar edən hədisi ondan necə qəbul edə bilərik?"*[1]

— Söhbət bu hədisdən gedir. Nəql olunur ki,Aişə dedi: ***"Peyğəmbər** (sallallahu aleyhi və səlləm) **adətən Zeynəb bint Cəhşin evində bal yeyirdi və ona görə də bəzən yubanırdı. Mən Həfsə ilə razılaşdım ki, bizlərdən kimə O gələrsə,ona belə deyək: "Sən kitrə yemisən? Səndən onun iyi gəlir!" Peyğəmbər** (sallallahu aleyhi və səlləm) **isə dedi: "Xeyr,mən yalnız Zeynəbin evində bal yemişəm amma, artıq and olsun ki, heç vaxt bunu etməyəcəyəm, sən isə bunu heç kimə demə."***[2]

172-ci fəsildə qadın qısqanclığı baradə bəhs olundu.Bu hadisədən nə nəticə çıxır?Aişə yalan danışdı? Xeyr.O, Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* qısqandı və onun Zeynəbi tez-tez ziyarət etməsinə mane olacaq bəhanə tapdı.Hansı ağıllı insan bu hadisəyə əsasən,bir qadının digər bütün sözlərini rədd edə bilər? Heç kəs.Əgər bu sadə qadın deyil,möminlərin anası Aişədirsə onda necə? Yalnız azmış biri bu hadisə ilə möminlərin anasının digər sözlərini rədd etməyə çalışar. Rafizilər isə özlərinə sual verməlidirlər ki,əgər bu hadisə Aişənin bütün sözlərini rədd etməyə əsas verirsə, onda onlar necə imamlarının sözlərini qəbul edirlər? Axı onlar imamlarına təqiyyə isnad edirlər: "**Təqiyyə mənim və ata-babamın dinindəndir, təqiyyəsi olmayanın imanı yoxdur**"[3]

[1] Məktub 76

[2] "Muxtəsər səhih Buxari" №1709. (4912)

[3] "Kafi", "Təqiyyə" fəsli, səh.219, 2-ci cild, Iran çapı; səh.484, 1-ci cild, Hindistan çapı

Eyni yerdə: **“Dinin onda doqquzu təqiyyədədir, təqiyyəsi olmayanın dini yoxdur" Yenə eyni yerdə: “Mən üç şeydə heç kəsə qarşı təqiyyə işlədə bilmərəm: spirtli içki məsələsində, ayaqların altına məsh çəkilməsində, ləzzət almaqdan ötrü həcc ziyarəti edilməsində”**

Halbuki, təqiyyə Əhli Sünnətə görə belədir: İbn Abbas *(radiyallahu anhu)* dedi: **“Təqiyyə elə bir haldır ki, adam qəlbində iman daşıdığı halda günah qazanmadan öldürülməməsi üçün dininə əks olan söz söyləyir.”**[1]

Siz necə əmin ola bilərsiniz ki,konkret müəyyən məsələlərdə sizin imamlar həqiqəti söyləyirlər vəya əqidələrini gizlədərək, doğru demirlər? Axı, özlərinin dedikləri kimi onlar dörd məsələdən başqa bütün məsələlərdə əqidələrini gizlədib, bunun əksini deyə bilərdilər.

178) Rafizi yazır: *“Onun Numanın qızı Əsmanın toyunda qərəzli rəftarını unutma ki,Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə toy gecəsi ona dedi:“Peyğəmbərin o qadından xoşu gəlir ki,daxil olanda ona (Peyğəmbərə) desin: “Mən Allaha səndən pənah aparıram.”*[2]

— Haşiyədə Hakimin kitabına istinad edilir. Hakim bunu “Müstədrək” (№6816) və ibn Sədd “Təbəqat”-da Hişam ibn Muhəmməd əl Kəlbinin olduğu isnadla nəql etmişdir. Dəraqutni bu ravinin mətruk olduğunu qeyd etmişdir. İbn Əsakir onun rafizi və etimad olunmayan biri olduğunu deyir.”[3]

Zəhəbi “Təlxis”-də qeyd edir ki, Hakimin isnadı heç nəyə yaramır. Zəhəbinin fikirlərini qeyd edən rafizi görəsən niyə görə onun bu sözlərinə göz yumur?

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* bu qadın ilə evliliyinə gəlincə, ibn Hişam bu haqqda yazır: “Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* vəfat edəndə 9 zövcəsi vardı, iki zövcəsi ilə o yaşamamışdı. Bunlar Əsma və Numən əl Kindinin qızı idi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onunla evləndi və onun bədənində ağ ləkələr görəndən sonra onu ailəsinə

[1] Qurtubi “Cəmiul əhkam” 4/164
[2] Məktub 76
[3] “Mizanul itidal” 4/304/№9237

geri qaytardı. Eləcədə, Yezid əl Kilabinin qızı ilə. O,buna qədər müsəlman deyildi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona yaxınlaşmaq istədikdə, o "Səndən Allaha sığınıram!"deyə söyləməyə başladı. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Kim Allaha üz tutarsa, o xilas olar." və onu ailəsinə geri qaytardı. Həmçinin, nəql olunur ki,Peyğəmbər əleyhinə dua edən digər qadın Kind qəbiləsindən olan Əsmanın yaxın qohumu olan Numanın qızı olmuşdur. Deyilir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onu yanına çağırdıqda,o dedi: "Biz elə qövmük ki, biz getmir,bizim yanımıza gəlirlər." Onu da qaytardılar."[1]

179) Rafizi yazır: "*Həmçinin, Allahın rəsulu (sallallahu aleyhi və səlləm) bir dəfə onu məmur etdi ki,bir qadını izləsin və qadının vəziyyətindən onu xəbərdar etsin.Amma,Aişə yenə müəyyən qərəzi üzündən gördüklərindən başqa şeyi danışdı."*[2]

Haşiyədə yazır: *"Bu hadisənin təfsili "sunən" və "əxbar" kitablarında verilmişdir. "Kənzul-Ümmal"ın 6-cı cildinin 294-cü səhifəsinə,ya ibn Sədin "Təbəqat"ın 8-ci cildinin 115-ci səhifəsinə Şəraf bint Xəlifənin şərhi-halını yazdığı yerə bax."*

— İbn Sədd bunu bu isnadla nəql etmişdir: Muhəmməd ibn Ömər Vahidi – Sauri – Cabir ibn Yezid – Əbdurrahmən ibn Səbt.

İsnad qüsurludur və orada üç problem var.

1) Vahidi – Əhməd onu yalançı adlandırmışdır."Əbu Hatim və Nəsai onun rəvayyətlər uydurduğunu qeyd etmişlər."[3]

2) Cabir ibn Yezid Cufi yalançıdır.

3) Əbdurrahmən ibn Səbt tabeindir.Yəni, onun isnadı qopuqdur.

[1] "Sirə" Zövcələr fəsli
[2] Məktub 76
[3] "Mizanul itidal" 3/662/№7993

180) Musəvi yazır: *"Həmçinin,bir gün Rəsulullah (sallallahu aleyhi və səlləm) ondan atasına şikayət edərkən özünü saxlaya bilməyib Peyğəmbərə (sallallahu aleyhi və səlləm) "ədalətli ol" dedi. Bu zaman atası ona elə bir sillə vurdu ki,qanı paltarının üstünə töküldü."*[1]

Haşiyədə yazır: *"Bu qissəni "sunən" və "musnəd" sahibləri nəql etmişlər."Kənzul-Ümmal"ın 7-ci cildinin 116-cı səhifəsindəki 1020-ci hədisə baxın.Qəzali onu "İhyaul-Ulum"un 2-ci cildində "adabun-nikah" bölməsinin 3-cü babının 35-ci səhifəsi və "mukaşifətul-qulub" bölməsinin 94-cü babının 238-ci səhifənin axırında vermişdir."*

— Bu yalançının cəsarəti çatmadı ki, rəvayyətin hansı "Sunən" və "Musnəd"kitabında olduğunu qeyd etsin. Muttəqi Hindi rəvayyəti "Kənzul Ümmal" (№37785)-da Deyləmiyə istinad edərək, nəql etmişdir. Muttəqi kitabının müqəddiməsində özü qeyd edir ki, Deyləmiyə istinad edərək, nəql etdiyi hər rəvayyət zəifdir. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4966)-də zəif adlandırmışdır. "İhya" kitabına gəlincə, Hafiz İraqi kitabın haşiyəsində yazır: "Rəvayyəti Təbərani "Ausat"da nəql etmiş, isnad zəifdir."

181) Musəvi yazır: *"Bir dəfə də Rəsulullahın (sallallahu aleyhi və səlləm) yanında hirslənərkən,ona dedi: "Sən Allahın rəsulu olduğunumu güman edirsən?"*[2]

— Haşiyədə Qəzalinin kitabına istinad edilir. Oxucu bilməlidir ki, Qəzali qəlb və nəfsi islah etmədə alim olsa da, hədis sahəsində mütəxəssis deyildi."İhya" kitabını Hafiz İraqinin şərhi ilə oxuyanlar onun kitabında çoxlu zəif, uydurma rəvayyətlərin olduğunu bilirlər. Bu rəvayyət də bir misaldır. İsnadda ibn İshaq vardır və o bunu şəxsən özü eşidib-eşitmədiyini bəlli etmədən rəvayyət etmişdir. Həmçinin, isnadda Səlamat ibn Fəzl Əbraş da vardır ki, onun haqqında yuxarıda bəhs edilib."İhya" kitabının redaktoru isnadın zəif olduğunu qeyd etmişdir.

182) Rafizi yazır: *"Amma,Ümmul-möminin "Peyğəmbər onun sinəsinə söykənmiş halda dünyadan getdi" – iddiası pak Əhli beyttəriqi ilə çatmış səhih və mutəvatir xəbərlərlə ziddir.Sünnilərdən ibn Səd Əlidən rəvayyət edir ki,Peyğəmbər (sallallahu*

[1] Məktub 76
[2] Məktub 76

aleyhi və səlləm) xəstə olarkən buyurdu: "Qardaşımı çağırın. Mən onun yanına gəldim.Mənə buyurdu: "Yaxın gəl." Yaxınlaşdım. O,özünü mənə söykəyərək danışmağa başladı.Hətta, ağzının suyundan bir qədər də mənim üstümə axdı.Sonra isə vəfat etdi."[1]

— İbn Səddən olan rəvayyət yalandır. Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4945)-də zəif adlandırmışdır. İbn Sədd "Təbəqat"-da bu isnadla nəql etmişdir: Muhəmməd ibn Ömər Vahidi – Abdullah ibn Muhəmməd ibn Ömər ibn Əli ibn Əbu Talib – atasından – babasından.

İbn Hacər əl Əsqalani "Fəth əl bari" (8/139)-də yazır: "İsnad qopuqdur. Eyni zamanda Vahidi ilə yanaşı,isnadda yüngüllük olan Abdullah da vardır, Vahidi isə yalançıdır."

183) Rafizi yazır:*"Həmçinin,Əbu Nueym "Hilyətul-Əvliya"da,Əbu Əhməd Fərzi öz nüsxəsində və "sunən" sahiblərindən bir qrupu Əlidən belə nəql etmişlər: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) ölən zaman mənə elmin min babını (qapısını) təlim etdi ki,hər qapıdan min qapı açılır."*

Daha sonra yazır: *"Abdullah ibn Ömərdən varid olmuşdur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) xəstə olanda buyurdu: "Qardaşımı yanıma çağırın." Əbu Bəkr gəldi.O,üzünü yana çevirib buyurdu: "Qardaşımı çağırın." Osman gəldi. Həzrət yenə üzünü çevirdi.Əlini çağırdılar.Ona yanında olan parçanın altına girməsini əmr etdi və bu vaxt (onu) qucaqladı.Əli çıxandan sonra ondan soruşdular: "Peyğəmbər sənə nə buyurdu? Dedi: "Mənə min qapı (elm) təlim etdi ki,hər qapıdan min qapı açılır."*[2]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (6627)-də uydurma adlandırmışdır. Zəhəbi "Siyər ələmun nubəla" (8/24)-da qeyd edir ki,rəvayyət uydurma və münkərdir. "İbn Adiy dedi: "Rəvayyət münkərdir və bunda səbəb ibn Luheyatdır.O,ifrat şiədir və alimlər onu tənqid etmişlər." İbn Məin dedi: "Zəifdir və ona etimad edilməz."Nəsai dedi: "zəifdir"[3]

[1] Məktub 76
[2] Məktub 76
[3] "Mizanul itidal" 2/475/№4530

İbn Luheya rəvayyəti Həyy ibn Abdullahdan nəql edir. Buxari bu ravinin sual altında olduğunu qeyd etmişdir.”Nəsai onun güclü olmadığını, Əhməd isə “onun nəqlləri məqbul deyildir demişdir.”[1]

Mən bu rəvayyəti heç bir “Sunən”kitabında tapa bilmədim.

184) Rafizi yazır: *“Cabir ibn Abdullah deyir ki,Kəbul Əhbar Ömərdən soruşdu: “Peyğəmbərin (sallallahu aleyhi və səlləm) dediyi axırıncı söz nə idi?” Ömər cavab verdi: “Əlidən soruşun.Kəbb Əlidən soruşdu və o cavab verdi: “Peyğəmbəri (sallallahu aleyhi və səlləm) sinəmə söykədim.Başını çiynimə qoydu və buyurdu: “Namaz,namaz! Kəbb dedi: Düzdür.Peyğəmbərin (sallallahu aleyhi və səlləm) son sifarişi budur və onlar buna görə məmur olublar.Kəb soruşdu: “Kim ona qüsl verdi?” Ömər dedi: “Əlidən soruşun.” Kəbb soruşdu və Əli cavab verdi: “Mən ona qüsl verdim.”*[2]

— Şeyx Albani bu rəvayyəti “Silsilə əhadis əd daifə” (4969)-də uydurma adlandırmışdır. İbn Sədd “Təbəqat” (2/262-263)-da bu isnadla nəql etmişdir: Muhəmməd ibn Ömər Vahidi – Əbduləziz ibn Muhəmməd – Haram ibn Osman.Vahidi yalançıdır. Haram da mətruk ravidir. Yəhya dedi: “Etimad əhli deyildir.” Şafi dedi: “Haramdan nəql etmək haramdır.” İbn Hibban dedi: “İfrat şiədir, rəvayyət uydurardı və qopuq nəqlləri qaldırardı.”[3]

Bu rəvayyətin haşiyəsində rafizi yazır: *“İbn Sədd yuxarıda zikr olunmuş “Təbəqat”ın 2-ci cildinin 51-ci səhifəsində onu vermiş və bu hədis “Kənzul-Ümmal”ın 4-cü cildinin 55-ci səhifəsindəki həmin 1106-cı hədisdir.”* “Kənzul Ümmal”-da qeyd edilir ki, isnad zəifdir. Lakin,Əbdulhüseyn bunu görməzdən gəlmişdir.

185) Musəvi yazır: *“İbn Abbasdan soruşuldu: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) öləndə başının kimin dizinin üstündə olduğunu gördünüzmü?” Cavab verdi: Əlinin sinəsinə söykəmişdi.Ona deyildi: Urvə Aişədən nəql etmiş ki,Peyğəmbər (sallallahu*

[1] həm yer 1/623/№2392
[2] Məktub 76
[3] “Mizanul itidal” 1/468/№1766

aleyhi və səlləm) onun qucağında vəfat etdi. İbn Abbas onu inkar edib dedi: "Sən də buna inanırsanmı?Allaha and olsun ki,Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə söykənən halda vəfat etdi və ona qüsl verən də o idi."[1]

— Şeyx Albani bu rəvayyəti "Silsilə əhadis əd daifə" (4969)-də uydurma adlandırmışdır. Muttəqi Hindi bunu "Kənzul Ümmal" (№18791)-da ibn Sada istinad edərək nəql etmiş və qeyd etmişdir ki, isnad zəifdir. İbn Sədd "Təbəqat" (2/263)-da bu isnadla nəql etmişdir: Vahidi – Süleyman ibn Davud ibn Hasin – atasından – Əbu Qətafan. Vahidi yalançıdır, ibn Hacər "Fəth əl bari" (8/139)-də Süleymanın ravi kimi halından xəbərsiz olduğunu qeyd etmişdir.

186) Rafizi yazır: *Həmçinin, ibn Sədd imam Zeynəlabidindən nəql etmiş ki,Allah rəsulu (sallallahu aleyhi və səlləm) başını Əlinin qucağında saxlayaraq dünyadan köçdü."*[2]

Daha sonra yazır: *"Hətta, ibn Sədd Şabiidən nəql etmişdir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) başı Əlinin dizi üstündə vəfat etdi və Əli ona qüsl verdi."*[3]

— Hər iki rəvayyət dəlil hesab edilə bilməz. Çünki, isnadları qopuqdur. Nə Əli ibn Hüseyn, nə də Şabii Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatının şahidi olmamışlar. Bu iki isnadın digər ravilərinin zəif olmasından hələ bəhs etmirəm. Zeynəlabiddindən və Şabiidən olan rəəvayyəti ibn Sədd "Təbəqat" (2/263)-da Vahididən nəql etmişdir. Şabiidən olan isnadda Vahididən başqa Əbu Cuveybir (Əbu Huveyris) adlı ravi də var. İbn Hacər "Fəth" (8/139)-də qeyd edir ki,isnadda Vahidi vardır vəyazır: "Əbu Huveyris – onun adı Əbdurrahmən ibn Müaviyə ibn əl Haris əl Mədənidir. Malik onun etibarlı olmadığını qeyd etmişdir." Bu rəvayyəti o atasından, o isə Şabiidən nəql etmişdir.

187) Rafizi yazır: "*Səhih hədisə əsasən Ümm-Sələmə deyir: "İnandığım o kəsə (Allaha) and olsun ki, Peyğəmbərə (sallallahu aleyhi və səlləm) hamıdan yaxın Əli idi.Bir gün səhər Əli gəlməmişdən əvvəl,həzrəti gördük ki,fasiləsiz*

[1] Məktub 76
[2] Məktub 76
[3] Məktub 76

olaraq,soruşurdu: "Əli gəldi? Əli gəldi?" Fatimə dedi: "Deyəsən siz onu bir işin dalınca göndərmisiniz.Sonra Əli gəldi.Biz fikirləşdik ki,yəqin onunla xüsusi bir işi var,ona görə də evdən çıxdıq.Mən qapıya hamıdan yaxın idim.Eşidirdim ki,onunla ardı kəsilmədən pıçıltıyla nə isə danışır.Peyğəmbər (sallallahu aleyhi və səlləm) elə həmin gün ruhunu tapşırdı."[1]

— Rəvayyət zəifdir. Bunu Hakim "Müstədrək" (№4671), ibn Əsakir "Tarix" (42/394), ibn Əbu Şeybə "Musənnəf" (№32066), Əbu Yalə "Musnəd" (№6934), Nəsai "Sunən əl kubra" (№7108), Əhməd "Musnəd" (№26607)-də nəql etmişlər. Onların hamısı rəvayyəti bu isnadla nəql etmişlər: Muğira – Ümm Musa – Ümm Sələmə. İsnadda qüsur Ümm Musadadır. "Mizan" (4/614/№11036)-da məchul qadın ravilərə aid həsr olunmuş fəsildə qeyd olunur ki, onun sözlərini yalnız Muğira ibn Muksim nəql etmişdir. İbn Hacər "Təqrib" (№8777)-də onu "məqbul" adlandırmışdır. Onun ravi kimi dərəcəsindən heç nə məlum deyil. İcli və Heysəminin rəyləri məqbul qəbul edilə bilməz. Çünki, onlar raviləri qəbul etmədə çox yumşaq idilər. Həmçinin, Muğirada da qüsur vardır. O, etibarlı ravi idi amma, tədlislərə yol verərdi və bu rəvayyəti o özünün şəxsən eşidib-eşitməməsini bəlli etmədən rəvayyət etmişdir. Daha doğrusunu Allah bilir.

188) Rafizi yazır: *"Təbərani "Kəbir" kitabında yazmışdır: "Taif müharibəsində Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Əli ilə gizli uzun söhbəti oldu.Əbu Bəkr bunun uzanmasının səbəbini soruşdu. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Mən onunla gizli söz danışmırdım. Allahın onunla gizli söhbəti var idi." Bu "Kənzul-Ümmal"ın 6-cı cildinin 399-cu səhifəsindəki 6075-ci hədisdir.*[2]

— Rəvayyət zəifdir, 169 fəsilə, №5-ci dəlilə baxın.

[1] Məktub 76
[2] Məktub 76

189) Rafizi yazır: *"Allah Ümmul-möminini bağışlasın. Kaş bu fəziləti Əlidən götürmək istəyəndə heç olmasa onu atasına aid edəydi. Amma yox,çünki atası o gün o adamların sırasında idi ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) özü onları Usamənin ordusuna göndərmişdi və o vaxt "Curuf"də yerləşmişdilər."*[1]

— Biz isə dua edirik ki, Allah rafizilərin bəlasını versin! Ya Allah! Möminlərin anasına nifrət edənlərə lənət et! Ya Allah! Münafiqcəsinə onu möminlərin anası adlandırıb, qəlbində ona lənət edənlərə lənət et! Birincisi, Aişə *(radiyallahu anhu)* həqiqətən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Əbu Bəkrə yazılı vəsiyyət etməyə hazırlaşdığını nəql etmişdir.

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* xəstələndiyi zaman mənə dedi: ***"Əbu Bəkri və qardaşını mənim yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə iştahalı biri desin ki, mən daha layiqəm. Lakin, Allah və möminlər Əbu Bəkrdən qeyrisinə razı olmazlar."***[2]

İkincisi, dəccal Əbu Bəkrin Usamənin ordusunda olmasını deməklə yalan danışdı. Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Əbu Bəkri namazda imam təyin etməsi mutəvatirdir. Muhəmməd ibn Cəfər əl Qəttani kitabında yazır: *"Əbulhəsən əl Əşari dedi ki, bu hadisə çoxlu sayda səhabələr tərəfindən rəvayyət olunmuşdur. Heç kəs buna etiraz etməmişdir. Suyuti "Tarixul xulafə" kitabında yazır: "Bu hədis Buxari və Muslim tərəfindən Əbu Musa əl Əşaridən rəvayyət olunmuşdur. Hədis mütəvatirdir və bu Aişə, ibn Məsud, ibn Abbas, ibn Ömər, Abdullah ibn Zəməa, Əbu Səid əl Xudri, Əli, Həfsə və s.səhabələrdən rəvayyət olunmuşdur."*[3]

190) 78-ci məktubda Aişəyə *(radiyallahu anhu)* hücum edən Hüseynin qulu yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) heç vaxt çıxışlarında onun (Ümm Sələmə) barəsində Aişənin evinə işarə edərək "Burada fitnə var, burada fitnə var, buradan şeytanın buynuzu görünür"deməmişdir."*

[1] Məktub 76
[2] Səhih Muslim "Kitab Fədailus Səhabə", № 2387; Səhih Buxari "Kitabul Marad", № 5666
[3] "Nəzmul mutənasira minəl hədisəl mutəvatira" №228

— Hədisdə bir gün Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əli ilə Aişənin evinə tərəf göstərərək, "fitnə oradan gələcəkdir" dediyindən bəhs olunur. Yalnız möminlərin anasına olan kini ilə yoluxmuş, xəstə təfəkkürlü biri bu hədisdə Aişənin evindən fitnənin gələcəyini güman edə bilər. Allahın Quranda ağcaqanaqı misal çəkməsini imama nisbət edən təfəkkürdən nə gözləmək olar? "Səhih"də imam Muslimin (№7476) hədisi belədir: ***İbn Ömərdən: "Mən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) şərqə tərəf dönərək, belə dediyini eşitdim: "Baxın! Fitnə şeytanın buynuzu çıxan bu tərəfdən gələcəkdir."***

Yenə orada: Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Həfsənin evinin qapısında dayanmışdı. **Əli ilə şərqə tərəf göstərərək**, buyurdu: "Fitnə o tərəfdən, şeytanın buynuzu çıxan tərəfdən gələcəkdir" və o bu sözləri iki vəya üç dəfə təkrar etdi."

Ubeydullah ibn Səid rəvayyət edir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Aişənin evinin yanında dayanmışdı."[1]

Buxari Abdullah ibn Ömərdən rəvayyət edir: "Mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əli ilə **şərqə tərəf göstərərək,**"fitnə şeytanın buynuzu çıxacağı bu tərəfdən gələcəkdir" dediyini eşitdim."[2]

Uqbə ibn Amr Əbu Məsud deyir: "Bir gün Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Yəmən tərəfə əli ilə işarə edərək, dedi: "İman Yəməndədir. Sərtlik, qatı qəlbliliyə gəlincə bunlar öz dəvələri ilə məşğul olan bədəvilərə məxsusdur. Bundan sonra o əli ilə şərqə tərəf göstərərək buyurdu: "Bu xüsusiyyətləri şeytanın iki buynuzu çıxdığı tərəf yəni, Rabi və Mudar qəbilələrində axtarın."[3]

Yəni, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* fitnə və şeytanın buynuzunun Aişənin evindən deyil, şərq tərəfdən gələcəyini bildirmişdir. Bu elə bir sadə məsələdir ki, izahı üçün misal çəkməyə belə ehtiyyac duyulmur. Yalnız rafizilər bunu xəstə təxəyülləri ilə təhrif olunmuş şəkildə anlamışlar.

---

[1] Muslim "Səhih" №7477

[2] "Muxtəsər səhih Buxari" №1323. (3279)

[3] "Muxtəsər səhih Buxari" №1331. (3302)

191) Rafizi yazır: *"Quranda həmçinin,onun (Ümm Sələmə) Peyğəmbərə olan nifaqı, etirazı, ondan sonra isə imama qarşı olan nifaqından danışılmır."*[1]

— Burada rafizi Aişəni Ümm Sələmə ilə müqayisə edərək, Quranda onun nifaqı baradə ayə olduğuna ehyam vurur. Allahın lənəti yalançıların üzərinə olsun! Quranda, harada belə bir ayə var?!

192) Rafizi yazır: *O, (Ümm Sələmə) elə bir iş görməmişdir ki, Allah ona görə özü başda olmaqla,Cəbrailı,"möminlərin salehi"ni və mələklərini Peyğəmbərin köməyinə göndərsin.Həmçinin, Allah onu təlaqla və ondan da yaxşısını Peyğəmbərə (sallallahu aleyhi və səlləm) verməklə hədələməmiş tənbih üçün Nuhun və Lutun arvadının aqibətini ona misal çəkməmişdir."*[2]

— Haşiyədə şeytan bəzi Quran ayələrinə işarə edir. Onlar aşağıda şərhləri ilə birgə yazılacaqdır:

"Əgər ikiniz də Allaha tövbə etsəniz, yaxşı olar. Çünki, hər ikinizin qəlbi günaha meyl etmişdir. Əgər ona qarşı bir-birinizə dəstək versəniz, bilin ki, Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu vəyardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır."[3]

Təfsir:

"Uca Allahın bu sözləri iki şərəfli xanıma Aişə və Həfsəyə ünvanlanmışdı. Çünki, məhz onlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ona sevimli olan bir şeyi tərk etməsi üçün and içməsinə səbəb olmuşdular. Allah onlara tövbə etməyi nəsihət etmiş və onları etdiklərinə görə qınamışdı. Allah buyurdu ki, onların qəlbləri günaha meyl etmişdi. Peyğəmbər zövcələri onunla hörmətlə davranmalı, istəklərini yerinə yetirməli və şıltaqlılıqları ilə onu bezdirməməli idilər.

"Əgər ona qarşı bir-birinizə dəstək versəniz, bilin ki, Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu vəyardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır."

[1] Məktub 78
[2] Məktub 78
[3] Təhrim 4

Hətta, mələklər belə ona xidmət vəyardım edirlər. Həqiqətən, belə yardımı olan insan mütləq öz düşmənlərinə qalib gələr və ona zərər vermək istəyən isə məğlub olar. Bundan əlavə ayədə iki şərəfli xanıma ünvanlanmış açıq xəbərdarlıq öz əksini tapır. Ona görə də Allah hər qadının həyatında xoş olmayan boşanma addımı ilə onları təhdid edir."

"Bu, Allahın sizə nazil etdiyi əmridir. Kim Allahdan qorxarsa, Allah onun günahlarından keçər və onun mükafatını artırar."

Təfsir:

"Ey Peyğəmbər zövcələri! Öyünməyin və bilin ki, əgər o sizinlə boşansa, qınanmayacaq və sizə ehtiyyac duymayacaqdır. O,sizin yerinizə Allahın ona göndərdiyi yeni qadınlar tapacaqdır ki, təqva və gözəllik baxımından sizdən yaxşı olacaqlar. Bu icrası yerinə yetirilməyə zəruri olmayan xəbərdarlıq idi. Ona görə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zövcələri ilə boşanmadı. Əgər boşansaydı belə Allahın vəd etdikləri həyata keçəcəkdi və o daha dəyərli qadınlar ilə evlənəcəkdi. Onlar həyatda İslamın ehkamlarına, imanın əsaslarına əməl edən mömin qadınlar olacaqdılar. Onlar itaətkar, Allaha ibadətdə əzmli, ona xoş olmayan işlərdə isə tövbəkar olacaqdılar. Uca Allah bildirir ki, Peyğəmbər zövcələri Allahın əmr etdiklərini yerinə yetirməli və onun bəyənmədiyi bütün işlərdən çəkinməlidirlər. Onların arasında ərdə olmuş qadınlar və bakirə qızlar da ola bilərdi. Bu xəbərdarlığı eşidən Peyğəmbər zövcələri həmin an onun razılığını qazanmağa başladılar.Onlar ayədə keçən bütün müsbət xüsusiyyətlərə sahib oldular və mömin qadınlar arasında ən xeyirliləri oldular."[1]

Bu ayələrə müsəlmanın münasibəti necə olmalıdır?! Möminlərin analarına istehza etmək və onlara zəlalətdə olan bidətçilər kimi tənə vurmaq?! Əlbəttə xeyr. Bu müsəlmanın Allahın xəlq etdiyi ilk insan Adəm (ə) haqqında nazil etdiyi ayələrə bəslədiyi münasibət kimi olmalıdır.

Ta Ha surəsində Uca Allah buyurur:

[1] "Sadi" Sitatın sonu

121. *"İkisi də ondan yedilər və ayıb yerləri özlərinə göründü. Onlar üstlərinə Cənnət ağaclarının yarpaqlarından örtməyə başladılar. Beləliklə, Adəm Rəbbinə asi olub səhv yol tutdu."*

Təfsir:

Onlar İblisə qulaq asdılar və haram olan ağacın meyvəsindən yedikdə ayıb yerləri görsəndi. Onlar günah etdiklərini dərk etdilər. Bədənləri paltarla örtülü olsa da artıq hər şey əvvəlki kimi deyildi. Bundan sonra onlar ağacların yarpaqları ilə ayıb yerlərini örtməyə və böyük xəcalət keçirməyə başladılar.

Müsəlman bu ayələri özündə sınayacaq və anlayacaqdır ki, heç kəs mükəmməl deyil. O, dərk edəcək ki, kamillik yalnız Allaha məxsusdur.

193) Rafizi yazır: *"Tərbiyyə və ədəb baxımından (Aişə kimi) o yerə çatmayıb ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) namaz qılarkən ayaqlarını onun qabağına uzatsın və səcdə yerindən Peyğəmbər onu zorla uzaqlaşdırandan sonra kənara çəkib, səcdədən qalxanda yenidən belə etsin."*[1]

— Allaha həmd olsun ki, bu məktubda rafizilərin möminlərin anasına qarşı olan bütün kin-küdurətləri çılpaqlılıqları ilə ortaya çıxmışdır. Bu nifrət onlara adi həyat hekayələrində belə nəsə pis bir şey görməyə vadar edir. Buxarinin "Səhih" kitabında olan hadisə belədir.

Aişə *(radiyallahu anhu)* deyir: *"Adətən mən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) önündə ayaqları qibləyə doğru yatardım. Səcdə zamanı o əli ilə mənə toxunardı və mən ayaqlarımı qaldırardım. Qalxdıqda isə yenidən uzadardım." Aişə (radiyallahu anhu) əlavə edir: "O zaman evlərdə lampa yox idi."*[2]

Mədinədə olan hər kəs Aişənin evini görmüşdür. Axı, məhz onun evində Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dəfn olunub. Bu kiçik otaqdır, heç də təəcüblü deyil ki, orada elə sıxlıq idi ki, ibadət edən şəxs digər insana toxuna bilərdi. Yalnız xəstə rafizi təfəkkürü bu hadisədə Aişənin əleyhinə dəlil görə bilər. Artıq nifrət onların dillərindədir. Lakin,

[1] Məktub 78

[2] Zubəydi ,"Muxtəsər Səhih Buxari" №243. (382)

qəlblərində olan kin daha çoxdur! Heç şübhə yoxdur ki, Aişə ümm Sələmədən daha əfzəldir və bunun çoxlu dəlilləri vardır. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* üçün ən dəyərli insanın Aişə olması baradə Ümm Sələmənin öz şəxsi sözü kifayət edici dəlildir. "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* xəstələnəndə məhz Aişənin evinə getməyi arzu etmişdi."[1]

"Məhz ona görə təyəmmüm baradə ayə nazil olmuşdu."[2]

"Məhz onu Allah Təala özü yeddi səmadan təmizə çıxartdı."[3]

"Məhz onu Cəbrayıl şəxsən özü salamlamışdır."[4]

194) Rafizi yazır: *"Buna görə də Aişənin "Peyğəmbər (sallallahu aleyhi və səlləm) sinəmə söykəndiyi halda dünyadan getdi" sözü onun "Sudanlılar məsciddə döyüş vəsaitləri ilə xəncər-qalxanla oyun nümayiş etdirirdilər. Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənə dedi: "Baxmaq istəyirsənmi? Dedim: "Bəli." O,məni çiyninə aldı və mənim üzüm onun üzünə toxunurdu.Peyğəmbər (sallallahu aleyhi və səlləm) onları oyunu daha qızğın surətdə icra etməyə təhrik edirdi ki,mən ləzzət alım. Axırda mən yoruldum. Dedi: "Bəsdirmi?"Dedim: "Bəli." Buyurdu: "Get daha" sözləri kimi həqiqətdir. Vəya "Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənim yanıma daxil olduqda iki kəniz yanımda mahnı oxuyurdu.O, getdi ki, istirahət etsin.Bu vaxt Əbu Bəkr daxil oldu və məni incidərək bu əməldən çəkindirmək üçün dedi: "Bu şeytan neyidir! Özü də Rəsulullahın hüzurunda?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrə buyurdu: "Onlarla işin olmasın." vəyaxud "Mən Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə qaçış müsabiqəsi keçirirdim ki,müsabiqəni uddum. Bir müddətdən sonra mən arıqlayanda yenə müsabiqə keçirdik. Bu dəfə o məni uddu və dedi: "Bu dəfəki,o dəfənin əvəzidir." və yaxud da "Mən qızlarla oynayırdım və rəfiqələrim də bir-bir gəldikcə, bizə qoşulurdu. Peyğəmbər (sallallahu aleyhi və səlləm) özü də onları mənim evimə gətirərdi ki,birlikdə oynayaq."*[5]

---

[1] Zubəydi, "Muxtəsər Səhih Buxari" №146. (198)

[2] həm.yer №216. (334)

[3] həm.yer №1121. (2661)

[4] həm.yer №1299. (3217

[5] Məktub 78

— Aişə *(radiyallahu anhu)* nəql edir: *"Bir dəfə Həbəşilər məsciddə oyun göstərərkən, mən gördüm ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) evimin qapısında dayanmışdır və o libası ilə məni elə örtdü ki, onlara məndə baxa bilim." Hədisin digər versiyasında isə "öz nizələri ilə oynayırdılar."*[1]

Aişə *(radiyallahu anhu)* deyir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) həbəşilərin nizə ilə oyunlarına baxan zaman məni libası ilə örtərdi ki, məndə baxa bilim. Ömər onları oradan uzaqlaşdırmaq istədikdə Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona dedi: "Onları burax. Çünki, Arfid oğulları mənim himayəmdədir."*[2]

Aişə *(radiyallahu anhu)* dedi: *"Bir dəfə Minada otağımda iki qız (qız uşağı) olan zaman Əbu Bəkr yanıma gəldi. Qızlar dəfdə ifa edirdilər. Bu zaman Peyğəmbərdə (sallallahu aleyhi və səlləm) yanımızda idi. Əbu Bəkr onlar ilə kəskin və qəzəbli danışdı. Rəsulullah (sallallahu aleyhi və səlləm) üzünü açaraq dedi: "Onlarla işin olmasın ey Əbu Bəkr! Axı bu günlər Minada bayram günləridir."*[3]

Hüseyn qulu möminlərin anasını təhqir etmək üçün o qədər əzmlidir ki, bütün yollara əl atır! Bu çirkin rafizinin möminlərin anasına tən etmək üçün bizim mənbələrdən gətirdiyi bütün hədislərdə qəbahətli heç bir şey yoxdur.

195) Rafizi yazır: *"Həmçinin, Ümm Sələmə onun kimi (Aişə) Osmana qarşı hay-küy qaldırıb,onu hədələməsi,ona "nəsəl" (qoca köpək) adı qoymadı və "Nəsəli öldürün,o kafir olub" deməmişdi."*[4]

— Bu yalandır! Bu sözləri Aişə deməmişdi və Osmanı öldürməyə çağırmamışdı. O, Osmanın qatillərini lənətləmişdir. İmam Əhməd Muhəmməd ibnul Hənəfiyyədən nəql edir ki, Əliyə dedilər: *"Aişə Osmanın qatillərini*

[1] Zubəydi, "Muxtəsər Səhih Buxari" №278. (454)
[2] həm.yer №(988)
[3] həm.yer №509. (987)
[4] Məktub 78

lənətləyir." Əli əllərini üzünə qədər yuxarı qaldırdı və dedi: "Mən də Osmanın qatillərini lənətləyirəm. Onlara çöllərdə və dağlarda Allahın lənəti olsun." və bu sözləri iki vəya üç dəfə təkrar etdi."[1]

Nueym ibn Həmmad "Fitən" (№448)-də bu sözləri ibn Hənəfiyyədən və ibn Abbasdan nəql edir. "Nəsəli öldürün" sözünə gəlincə, bu sözləri şiə fikirli bidətçi mötəzili olan ibn Əbil Hədid nəql etmişdir. Bu sözlər həmçinin,"Lisanul ərəb", ibn Əbdurabihin "İqd əl fərid" kitabında da nəql olunmuşdur. Bu sözlərin isnadı ilə nəql edildiyi yeganə mənbə Təbərinin tarix kitabıdır. Ondan sonra gələnlər bu sözləri sadəcə bu kitabdan əxz etmişlər. Təbəridə olan xəbərin isnadı belədir: Hüseyn ibn Nəsr – Nəsr ibn Muzahim – Seyf ibn Ömər – Muhəmməd ibn Nuveyrat,Təlha ibn Ələm Hənəfi – Amr ibn Sədd – ƏSədd ibn Abdullah.

Ravi silsiləsi bərbaddır. Hüseyn ibn Nəsr haqqında rical kitablarında məlumat yoxdur. Nəsr ibn Muzahim məşhur yalançıdır. Ukeyli onun haqqında dedi: "Şiədir və onun nəqllərində çoxlu dolaşıq və səhvlər vardır." Əbu Heysəmə onu yalançı adlandırmışdır. Əbu Hatim onu mətruk adlandırmışdır. Dəraqutni dedi: "zəifdir."[2]

Seyf ibn Ömər də olduqca zəif ravidir. Əbu Davud dedi: "heçnədir", Əbu Hatim: "mətrukdur"[3]

Nuhun və Lutun zövcələri misalına gəlincə, uca Allah Təhrim surəsində buyurur: *"Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bunlar onları Allahdan heç cür xilas edə bilmədilər. Onlara: "Girənlərlə birgə ikiniz də oda girin!"– deyildi."*

Əbdurrahmən Saadi təfsirində yazır: "Ayədə keçən xəyanət kəlməsi ərlərinə deyil, imandan üz döndərmək mənasında itifadə olunmuşdur. Allah elçilərinin zövcələri ərlərinə heç vaxt xəyanət etməmişlər. Çünki, Allah belə əməldən onları hifz etmişdir. Bununla belə nə Nuh, nədə Lut zövcələrini Allahın əzabından xilas edə bilmədilər. Uca

[1] "Fədailus səhabə" 1/№733
[2] "Mizanul itidal", 4/253/№9046)
[3] həm.yer 2/255/№3637

Allah həmçinin buyurur: “Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!"– demişdi.”

Əbdurrahmən Saadi təfsirində yazır: “Söhbət Muzahimin qızı olan Asiyadan gedir. Allah onu səbirli və mömin qadın kimi vəsf etmişdir. O,hər bir möminin arzu edəcəyi məqamı Allahdan diləyirdi. O,cənnət bağlarında Rəbbinə qovuşmağı arzulayırdı. Həmçinin, Fironun zülmündən və günahkar insanların əməllərindən Allaha sığınırdı. Allah Təala onun dualarına icabət etdi. Beləcə o ömrünün sonuna qədər möhkəm imana sahib oldu, çətinliklərə tab gətirdi və ağır imtahanlardan uğurla keçdi. Ona görə də Muhəmməd *(sallallahu aleyhi və səlləm)* buyurdu: “Bir çox kişilər kamilliyə yetişmişlər. Amma, qadınlarda isə bu dörd nəfərə müyəssər olmuşdur: İmran qızı Məryəm, Muzəhim qızı Asiya, Huveylid qızı Xədicə. Aişənin isə digər qadınlara olan üstünlüyü səridin digər təamlara üstünlüyü kimidir.”

196) Rafizi yazır: *“Aişə deyir: “Məndə yeddi xislət var ki, İmranın qızı Məryəmdən başqa heç kimdə yoxdur.O yeddi xislət bunlardır: “Mələk mənim şəklimdə nazil olub; Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənimlə bakirəliyimdə evlənib və onun məndən başqa ər görməmiş arvadı olmayıb; Rəsulullaha vəhy nazil olanda biz yorğan altında idik; mən zövcələrinin ən sevimlisi idim; Cəbrayılı görmüşəm ki, onu məndən başqa Peyğəmbərin (sallallahu aleyhi və səlləm) zövcələrindən heç biri görməyib; mənim evimdə ruhunu tapşırıb; məndən və mələkdən başqa heç kəs ona xəstəliyində qulluq etməyib.”*[1]

— Rəvayyəti Təbərani “əl Kəbir”(c.23, №77) və ibn Əbu Şeybə “Musənnəf” (№32278)-də nəql etmişdir. Əvvəla, rafizi burada bəzi ixtisarlar etmişdir. *“İmranın qızı Məryəmdən başqa”* və *“Allaha and olsun ki, mən bununla öyünmürəm.”*

Şeyx Əbu Məryəm qeyd etdiyi kimi rəvayyətin sənədi zəifdir. İsnadda Əbdurrahmən ibn Əbu Dəhhaq mövcuddur ki, o məchuldur. Onun ravi kimi nə dərəcədə mötəbər olması baradə məlumat yoxdur. Lakin, hədisdə nəql olunan fəzilətlər doğrudur. O, həqiqətən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ən sevimli zövcəsi idi. O,həqiqətən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* zövcələri arasında yeganə bakirə olan qız idi. Bütün digər qadınlar isə dul vəya

[1] Məktub 78

boşanmış qadınlar idi. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* həqiqətən onun evində vəfat etmişdi və onların yatağında ayələr nazil olmuşdu.

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: *"Məni Aşiə baradə olan sözlərinizlə yormayın, incitməyin. Həqiqətən, onun yatağından başqa heç bir zövcənin yatağında mənə ayələr nazil olmamışdı."*[1]

197) Rafizi yazır: *"Ümm Sələmə Allahın evdə oturmağı əmr etdiyi evdən çıxıb, Əsqər adlı dəvəyə minməmişdi ki,çölləri gəzsin."*[2]

— Bu sözlərlə şeytan Aişənin Bəsrəyə gedişinə işarət edir. O, müharibə üçün deyil, müsəlmanlar arasında barışıq yaratmaq üçün ora yollanmışdı. Evdə oturmaq əmri isə həcc, ümrə və müsəlmanların arasını düzəltmək kimi faydalı işləri icra etməyə zidd deyildir. Səfəri zamanı onu məhrəmi olan Abdullah ibn Zubeyr müşayiət edirdi. Bu mövzu baradə yuxarıda bəhs edilmişdi. Lakin, bəzi əlavə məlumatlar vermək də faydalı olardı.

Aydın Əlizadə "Müsəlman dövlətlərinin tarixi" kitabında yazır: "Bənzər hadisə Məkkədə də mövcud idi. Həcc edən Mədinəlilər Osmanın qətli xəbərini eşitdikdə paytaxta qayıtmağı deyil, Bəsrəyə yollanmağı qərara aldılar. Onlara bir çox Məkkəlilər və Aişə də qoşuldu. 700 nəfərdən ibarət olan karvan Məkkədən Bəsrəyə doğru yola çıxdı. Yolda onlara bir sıra qəbilələrdən də qoşulanlar oldu və onların sayı 3000-ə çatdı. Bu arada, Hz.Əli Suriyanı güc hesabına özünə tabe etməyi qərara aldı. Bunun üçün o xalqa könüllü olaraq, orduya qatılması üçün müraciət etdi. Fəqət, bu çağırış özünü çox da doğrultmadı və xəlifə xalqı buna məcbur etmədi.Eyni zamanda xəlifə Misir, Kufə və Bəsrə valilərinə yürüşdə ona dəstək vermələrini əmr etdi. O, Osmanı şəhid edən üsyançılardan dəstək istəmədi. Halbuki, onlar güclü və ona yardım edəcək imkanda idilər. Bu ondan xəbər verir ki,Əli üsyançılar ilə əlaqə saxlamır və onlarla heç nədə şərik olmaq istəmirdi. Məhz, bu ərəfədə o Məkkədən karvanın yola çıxdığı xəbərini eşitdi. O, təcili olaraq ordusu ilə birgə Bəsrəyə yollandı ki, Məkkəliləri və onlara qatılan qəbilələri qabaqlasın amma, gecikdi. Bu ərəfədə

[1] "Muxtəsər səhih Buxari" ,№1102. (2581)

[2] Məktub 78

Bəsrədə çətin vəziyyət yaranmışdı. Abdullah ibn Əmirin çıxardılıb, yerinə Osman ibn Huneyfin təyin edilməsinə baxmayaraq, heç də bütün qüvvələr yeni hökuməti qəbul etmirdi. Bir qisim Osmanın qatillərinin cəzalandırılmasını tələb edərkən,digər qisim insanlar isə təhlükəsizlikləri üçün xəlifəyə etiraz etməməyi qərara aldılar.Vəziyyət Məkkə karvanı Bəsrəyə yaxınlaşdıqda və keçmiş vali Abdullahın onlara qoşulmasından sonra daha da gərginləşdi. Bunu görən yeni vali Osman ibn Huneyf Məkkə karvanının şəhərə daxil olmasına mane olmağa çalışdı. Tərəflər Mirbəd məntəqəsində mövqe tutdular. Osman ibn Huneyf tədricən tərəfdarlarını itirirdi. O, Osmanın qətlində əlbir olanlar tərəfindən əsir edildi və şəhərdən qovuldu. Qisas alınacağından ehtiyyat edən üsyançılar şəhərdə stabil vəziyyətin yaranmasında maraqlı deyildilər və nəticədə Məkkədən gələnlər Aişə, Təlhə, Zubeyr deyil, yolda onlara qoşulan bədəvilər Bəsrədə vəziyyətə hakim oldular. Onlar təcili olaraq, Osmana qiyam edənləri cəzalandırmağa başladılar və onların əksəriyyətini öldürdülər. Bundan əlavə xilafətin bütün digər bölgələrinə də bu nümunəyə qoşulub, Osmana qiyam edənləri cəzalandırmaq çağrışları edildi. Belə hal təbii ki,mövcud vəziyyəti daha da gərginləşdirirdi. Öldürülənlərin böyük ərəb ailələrinə mənsub olan nümayəndələri elə güman etdilər ki,bu işləri xəlifə Əli təşkil etmişdir və ona qarşı çıxdılar. Halbuki, xəlifə ilk başdan hadisələrin belə gedişatından ehtiyyat edirdi. Bundan sonra Əli Aişə,Təlhə və Zubeyrə öz elçisini göndərdi. O, onlardan xalqı özbaşınalığa son qoymağı tələb etməyə çağırdı və xilafətin sabitliyi və əmin-amanlıq üçün birliyin zəruri olmasını bildirdi. Yalnız bundan sonra Osmanın qatillərinin hüquqi hökmünü çıxartmaq olardı. Aişə,Təlhə və Zubeyr Bəsrəyə yaxınlaşan və Zi-kar məntəqəsində mövqe tutan Əlinin bütün şərtləri ilə razılaşdılar. Əlinin yanına yerli əhalinin nümayəndələri sülh dəvəti ilə gəlməyə başladılar. Xəlifə onlara bəyan etdi ki,onun ordusunda üsyançılardan heç kəs yoxdur. Onda Bəsrəlilər şəxsən onu şəhərə dəvət etdilər. Osmana qarşı üsyanda iştirak edənlər başa düşdülər ki,əgər Əli ilə Aişə,Təlhə,Zubeyr razılığa gəlsələr onları tezliklə mühakimə edəcəklər. Ona görə də onlar buna mane olmağa və hər iki dəstənin arasını vurmağa çalışdılar və buna nail oldular. Hər şey ondan başladı ki, onlar adi kiçik məişət konflikti yaratdılar. Tədricən münaqişəyə əlavə adamlar qoşulmağa başladı və dava qızışdı. Xəlifə Əli qanlı toqquşmanın qarşısını almaq üçün hər şey etdi. Lakin,artıq vəziyyəti nəzarətdə saxlamaq mümkün deyildi. Bu gərgin anlarda Əli Təlhə və Zubeyrlə görüşməyə imkan tapdı. Sonuncular vəziyyətin çıxılmazlığını anlayıb, oranı tərk etməyə çalışdılar. Zubeyr yolda ibn Cürmuz

tərəfindən xaincəsinə qətlə yetirildi. Təlhə isə ağır yaralanmışdı və tezliklə vəfat etdi. Aişə də təhlükədə idi. Lakin, onu müdafiə etdilər və Əli sonra onu təhlükəsiz yerə, yurduna yola saldı." (sitatın sonu)

198) Rafizi yazır: *"Cavab veririk ki,dediyiniz Allah Peyğəmbərin (sallallahu aleyhi və səlləm) "Mənim ümmətim xəta üzərinə bir yerə toplaşmaz;zəlalət və nahaqqdan toplanmazlar" – kəlamlarından yalnız bu məna çıxır ki,hər bir iş ümmətim məşvərət ilə ediləndə,nəhayət hamı onu təsdiq edəndə xəta etməzlər və haqqı tapdamazlar.Bu məna Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsindən də başa düşülür.Amma, ümmətin neçə nəfərinin şəxsi fikrinə əsasən, bir işin həyata keçməsi üçün ümmətin nüfuzlu,başa düşən və iş bilən adamlarını o işə məcbur etmələri,heç də onun düzgün və qanuni olduğuna dəlalət etməyəcəkdir."*[1]

— Onu ümmətin bir neçə fərdi seçmişdir iddiası yalandır. Ayətullah Muhəmməd Hüseyn Təbətabai yazır: ***"Birinci Xəlifə <u>əksəriyyət səhabələrin</u> rəyi ilə xəlifə seçilmişdi.***[2]

Xatib Bağdadi yazır: ***"Mühacir və ənsarlar yekdilliklə Əbu Bəkri xəlifə seçdilər. Onlar ona "Rəsulullahın Xəlifəsi" deyirdilər. Peyğəmbər** (sallallahu aleyhi və səlləm) **vəfat etdikdə 30 000 müsəlman var idi və onları hər biri Əbu Bəkrə Ey "Rəsulullahın Xəlifəsi" deyirdilər."***[3]

Əbdul Məlik əl Cuvəyni yazır: ***"Əbu Bəkrin** (radiyallahu anhu) **xəlifəliyi səhabələrin icması ilə sabitdir və onlardan hər biri onun rəhbərliyinə tabe olub,göstərişlərini yerinə yetirirdi...Rafizilərin iradına gəldikdə isə guya Əli beyət etməyə razı olmayıb və s.bunlar hamısı yalandır."***[4]

İmam Şafi dedi: ***"Ümmət Əbu Bəkrin xilafətində həmrəy idi."*** [5]

---

[1] Məktub 80
[2] "İslam və Şiəlik"səh 66,2005-ci il,Xuda nəş
[3] "Tarix Bağdadi" c.10,səh 130-131
[4] "İrşad" səh 361
[5] "Səvaiq əl muhriqa"səh 54

Həmçinin, Sədd ibn Ubadənin Əbu Bəkrə beyət etməyi rədd etməsini söyləmək də yanlış olardı. İmam Əhməd öz musnədində Humeyd ibn Əbdurrahmandan rəvayyət etmişdir:

"Əbu Bəkr orada çıxış etdi və ənsarlar haqqda deyilən bütün özəllikləri və üstünlükləri qeyd edərək buyurdu: "Siz hamınız bilirsiniz ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: "İnsanlar bir yolla, ənsarlar isə digər yolla getsələr, mən ənsarların getdikləri yolla gedərəm!" Ey Sədd! Sən də bilirsən ki,sən oturarkən Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdu: "Qureyşilər bu işin rəhbərləridirlər. İnsanların ən yaxşıları onların *(Qureyşilərin)* yaxşılarına, pisləri də onların pislərinə tabedir" Bu vaxt Sədd dedi: "Sən doğru buyurursan! Siz rəhbərlər biz isə vəzirlərik"[1]

Şeyx Osman Xəmis yazır: "Bu rəvayyəti imam Əhməd "Musnəd" kitabında Humeyd ibn Əbdurrəhman ibn Aufun rəvayyətindən səhih mürsəl isnadla rəvayyət etmişdir. Bu rəvayyət mürsəl olsa da, Əbu Mixnəf kimi yalançıların rəvayyətindən daha yaxşıdır."[2]

İbn Hacər əl Heytəmi yazır: ***"Bizim qeyd etdiyimiz açıqlamalardan da göründüyü kimi səhabələr yekdilliklə Əbu Bəkrin xilafətinə razı idilər. Sədd ibn Ubadənin beyəti rədd etməsi iddiası batildir."*** [3]

Şiə alimi Seyyid Cəfər Şəhidinin Arif Əliyev tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş "İslam tarixi və təhlillər" kitabında (səh 85) yazır: ***"Bəzi tarixçilərin yazdığına görə Əli*** *(radiyallahu anhu)* ***Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***vəfatından 6 ay sonra yəni, Fatimənin*** *(radiyallahu anhu)* ***vəfatına qədər Əbu Bəkrə beyət etmədi. Lakin, bu deyilənlər heç də həqiqətə yaxın deyil. Birincisi, Fatimə 6 aydan tez bir müddətdə vəfat etmiş, ikincisi Əli ümmət arasına düşə biləcək təfriqədən ehtiyyat edərək beyəti gecikdirməmişdir."***

[1] "Musnəd"c.1, 18
[2] "Tarixdən" səh 31
[3] "Səvaiq əl muhriqa"səh 53

Aişənin "Əli Əbu Bəkrə 6 ay ərzində beyət etmədi"sözünə gəlincə, o bildiyi məqamları söyləmişdir. O, Əlinin Əbu Bəkrə ilk günlərdə beyət etdiyindən xəbərsiz olmuşdur. Bunu nəql edən səhabələr Aişənin xəbərsiz olduğu məsələdən xəbərdar olmuşlar.

Əbu Səid əl Xudri deyir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ***vəfat etdikdən sonra camaat Sədd ibn Ubadənin evində toplaşdı. Onların arasında Əbu Bəkr və Ömər də var idi. Ənsarlardan bir nəfər dedi: "Bildiyiniz kimi biz Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***ənsarları (köməkçiləri) olmuşuq. İndi isə onun xəlifəsinin ənsarları olacayıq. Rəvayyətçi deyir ki, bu zaman Ömər ibn Xəttab qalxıb dedi: "Sizin adamınız doğru danışır. Əgər siz bundan başqa bir söz desəydiniz biz sizinlə beyət etməzdik." Sonra Ömər, Əbu Bəkrin əlini tutub dedi: "Sizin adamınız budur, ona beyət edin", deyib özü beyət etdi, ardınca isə mühacir və ənsarlar beyət etdilər. Rəvayyətçi deyir: "Əbu Bəkr minbərə çıxıb camaata nəzər yetirdi və onların arasında Zubeyrin olmadığını görüb, onu çağırtdırdı və dedi: "Ey Peyğəmbərin bibisi oğlu, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?" Zubeyr: "Ey Peyğəmbərin xəlifəsi, heç şübhən olmasın," deyib, beyət etdi. Sonra yenə də camaata nəzər yetirdi və Əlinin orada olmadığını görüb, onu da çağırtdırdı və dedi: "Ey Peyğəmbərin əmisi oğlu və kürəkəni, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?" Əli: "Ey Peyğəmbərin xəlifəsi, heç şübhən olmasın, deyib, beyət etdi"**[1]

İmam Hakim qeyd edir ki, hədis hər iki şeyxin (Buxari,Muslim) şərtlərinə görə səhihdir. Hədisi həmçinin, Hafiz ibn Kəsir "əl Bidayə vən Nihayə" adlı kitabında (c.6,səh 306) nəql etmiş və isnadın səhih olduğunu qeyd etmişdir. İbn Hacər əl Heytəmi yazır: ***"Əli və Abbas xilafət məsələsində Əbu Bəkrə mübahisə etmədən beyət etdilər."***[2]

Musa ibn Uqbə deyir: ***"Əli və Zubeyrin yeganə iradları o idi ki, onlar Səqifə şurasında iştirak etməmişdilər. Onların hər ikisi də Əbu Bəkrin bu işə daha layiqli namizəd olduğunu qəbul edirdilər."***[3]

[1] Beyhəqi, "Sunən əl kubra" №16979; Hakim "Müstədrək" №4457

[2] "Səvaiq əl muhriqa",səh 54

[3] Əbul Alə Məvdui ,"Rəsail və məsail" 1/73

İbn Əbdulbərr nəql edir ki, Əli demişdir: ***"Biz Əbu Bəkrin bu işə daha layiq olduğunu hesab edirik."***[1]

İbn Cərir Təbəri öz sənədi ilə Səid ibn Zeyddən nəql edir: ***"Əli evində idi. Ona dedilər ki, Əbu Bəkr insanlardan beyət qəbul edir. O,bunu eşidən kimi əynində olan uzun köynək ilə tələsik bayıra çıxdı və beyətə gecikməmək üçün hətta paltarını belə tam geyinmədi. Beyət etdikdən sonra isə o paltarının evdən gətirilməsini istədi və məclisdə qalıb, iştirak etdi."***[2]

200) Rafizi yazır: *"Hədis ona dəlalət edir ki,xəlifə yalnız müsəlmanların yekdil rəyinə görə seçilə bilər."*[3]

— Əgər belə olarsa biz onda gərək Əli ibn Əbu Talibin xilafətini rədd edək. Çünki, şiənin dediyi kimi əgər Əbu Bəkrə beyət yekdil deyildisə, Əliyə də beyət yekdil deyildi. Əli özü etiraf etmişdir ki, ona beyət edənlər Əbu Bəkrə və Ömərə beyət edənlər olmuşlar. Nəql edildiyinə görə o demişdir: "Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. **Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı.** Əgər bir nəfər tənə edərək vəya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi."[4]

Möminlərin əmirinin bu sözləri şiələrin ən doğru hesab etdiyi mənbədəndir. Burada ona edilən beyətin ilk xəlifələrə edilən beyət kimi olduğu bildirilir və burada onun rəhbər seçimində Allahın və ümmətin böyüklərinin rizasını nəzərə almasında dəlil vardır. Həmçinin, burada şiələrin "imam Allah tərəfindən təyin olunmalıdır"

[1] həm.yer.1/74
[2] Məvdudi, "Rəsail və məsail" 1/72
[3] Məktub 80
[4] "Nəhcul bəlağə", səh 366-367 ,tərcümədə səh 298, Tehran çapı, 1995, 6-cı xütbə

iddialarının əsassız olduğuna dəlil vardır. Səhabələrdən heç kəs Əbu Bəkrə qarşı müharibə etməmişdir və tarixdən məlum olduğu kimi Əliyə qarşı yalnız bir qisim səhabə müharibə etmişdir.

Hakim nəql edir ki, Əbu Bəkr xəlifə seçildikdən sonra xütbə oxuyaraq dedi: ***"Allaha and olsun ki, mən nə gecə, nə də gündüz əmir olmaq istəməmişəm. Allahdan bu dərəcəyi mənə verməsini nə aşkarda, nə də gizlində istəməmişəm." Mühacirlər ondan bu sözləri qəbul etdilər. Əli və Zubeyr dedilər: "Biz digərlərindən daha sonra beyət etdik. Çünki, şurada bizi iştiraka çağırmamışdılar. Amma, biz Əbu Bəkri hamıdan daha çox bu işə layiq hesab edirik. Çünki, O Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***mağara yoldaşıdır və biz onu yaxşı tanıyırıq. Hələ Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***sağlığında ona müsəlmanlara imam təyin etmişdi."***[1]

Hakim haşiyədə qeyd edir ki, hədis Buxari və Muslimin şərtlərinə görə səhihdir. Zəhəbi də bu rəydə olmuşdur. Şiələr əsrlər boyu səhabələri hakimiyyəti ələ keçirməyə çalışan zalımlar kimi təqdim etməyə çalışmışlar. Şoruşulur: Hansı hakimiyyət? Məgər bu hakimiyyət milyonlarla pul və güclü dövlətə yiyələnmək məqsədi güdürdü? Xeyr! O dövrdə İslam dövləti kiçik, zəif və düşmənlər tərəfindən təzyiq altında idi. Əbu Bəkri xəlifə seçən müsəlmanlar zəif bədən olan İslam dövləti üçün yalnız layiqli bir başçı seçmək istəmişdilər. Bəzi şiələr bu həqiqəti qəbul etmişlər.

Ayətullah Təbatəbai yazır: ***"Təşəbbüs göstərən dəstə ümmətin rifahını təmin etmək və problemləri həll etmək üçün xəlifə seçimində çevik davrandılar."***[2]

201) Rafizi yazır: *"Bu haqqda Aişənin hədisi mövcuddur ki,orada deyilir ki,Zəhra Əbu Bəkrdən küsmüşdü və ölənə qədər onunla danışmadı.Sonra onunla sülh bağlayan Əli bildirdi ki,o xilafəti zorla və haqqsız olaraq ələ keçirmişdir."*[3]

[1] "Müstədrək" №4422
[2] "İslam və şiə tarixi" səh 56
[3] Məktub 80

— Bu yalandır! Aişənin hədisində qeyd edilmir ki, guya Əli "xilafət zorla və haqqsız olaraq ələ keçirmişdir" demişdir. 80-cı məktubun sonunda rafizi "İmamət və siyasət" və ibn Əbil Hədidin kitabından sitatlar gətiririr. Hər iki mənbə bizim üçün dəlil hesab oluna bilməz.

202) Rafizi yazır: *"Əbu Bəkrin özü demişdir ki, ona beyət məşvərət və yekdil fikirlə baş tutmayıb.O,bu həqiqəti xilafətinin əvvəllərində camaatdan üzrxahlıq edərək etiraf edib: "Mənə beyət qəfildən və özü də yekdil fikirsiz baş tutub.Mən fitnədən qorxurdum,amma Allah onun şərini aradan götürdü."*[1]

— Haşiyədə iki kitaba, ibn Əbul Hədidin və Cəuharinin "Səqifə" kitablarına istinad edilir. Birinci haqqda bəhs etdik, ikinci müəllif haqqında isə şiə şeyxi Tusi "Fihrist" (№110 (48) səh 83)-də qeyd etmişdir.

203) Rafizi yazır: *"Xəbərlər, hədislər və tarixdən aydın olur ki,hətta nübüvvətə mənsub Əhli beyt və risalət sülaləsindən bir nəfər belə bu beyətdə iştirak etməmiş,əksinə onların hamısı Əlinin evinə yığışmışdılar. Bu toplanışda Salman,Əbuzər,Miqdad,Əmmar,Zübeyr,Xüzeymə ibn Sabit,Səid ibn As Əməvi və bir çox başqaları da var idi."*[2]

— Əgər bu sözlərlə onların "Səqifə"də iştirak etməmələri nəzərdə tutulursa, bu doğrudur.Yox, əgər onların Əbu Bəkrə beyət etməmələri nəzərdə tutulursa, onda bu aşkar bir yalandır.

204) Rafizi yazır: *"Bu haqqda bir hədis də Aişədəndir.Orada aydın deyilib ki,Zəhra Əbu Bəkrdən küsdü və Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sonra onunla danışmadı.Əli onlarla sülh etməyə gələndə onlara dedi ki,haqqımı – xilafəti zor və istibdadla qəsb etdiniz.Bu hədisdən əsla məlum deyildir ki,onun barışığı onlarla sülh vaxtına təsadüf etmişdir."*[3]

— Birincisi, yuxarıda qeyd olundu ki, (Əbu Səiddən) Əli Əbu Bəkrə ilk günlərdə beyət etmişdi. Aişənin hədisi buna zidd deyil. Çünki, Aişə ona məlum olanı, Əbu Səid isə özünə məlum olanı nəql etmişdir. İkincisi, Muslimin "Səhih" (№1759) kitabında Aişədən nəql olunur ki, Əli Əbu Bəkrə beyət etmişdir. İmam Abdullah "Sunən" (№1292,

[1] Məktub 80
[2] Məktub 80
[3] Məktub 80

səh 554)-də səhih ravi silsiləsi ilə Əbu Nadrdan nəql etmişdir ki, "İnsanlar Əbu Bəkrin ətrafında cəm olduqdan sonra o dedi: "Mən nəsə Əlini görmürəm." Ənsardan bir nəfər getdi və Əli ilə birgə gəldi. Əbu Bəkr ona dedi: "Ey Əli! Sən indi deyəcəksən ki,mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əmisi oğluyam?" Əli dedi: "Bunda heç bir fayda yoxdur ey Peyğəmbər xəlifəsi!,əlini uzat." O, əlini uzatdı və Əli beyət etdi."

205) Rafizi yazır: *Abbas da Əbu Bəkrə eynilə belə cavab vermişdi. İbn Abbas ona demişdi: "Əgər Allahın rəsulu ilə yaxınlığına görə xilafəti mənimsəmisənsə,bizim haqqımızı qəsb etmisən və əgər onun möminlərinin vasitəsi ilə ələ gətirmisənsə,biz ki,möminlərin içərisində hamıdan irəli idik və əgər inanırsan ki,möminlərin istək və beyətinə görə xilafəti qəbul etməyi vacib bilibsən,bu da düz deyildir. Çünki,biz razı deyildik və imtina edirdik."*[1]

— Bu yalandır. Əbu Bəkr Səqifədə insanları özünə beyətə heç bir halda çağırmamışdır. Əksinə, o müsəlmanlara Ömərə vəya Əbu Ubeydəyə beyət etməyə çağırmışdı. Bu "Səhih Buxari" (№3467)-də təsbit olunmuşdur. İkincisi, rafizi Abbasın bu sözünü "İmamət və siyasət" kitabına isnad etmişdir ki, bu kitab haqqında yuxarıda bəhs etmişdik. Üçüncüsü, rafizinin bu sözü dəlil olaraq gətirməsi, onun əqlinin zəif olmasına dəlalət edir. Çünki, əgər bu doğrudursa, bununla Abbas Əlini də rədd edə bilərdi. Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* nəql olunur: "Adamın əmisi onun atası mislindədir."[2]

Şübhə yoxdur ki, ata insana onun əmisi oğlundan daha yaxındır.

206) Daha sonra 82-ci məktub gəlir. Əbdulhüseyn bu məktubun əvvəlində xilafət baradə çoxlu mülahizələr irəli sürür. Əmirə tabe olmağın və camaat olmağın zərurətindən danışır. Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurmuşdur: "Məndən sonra bəzi əlamət və hadisələrin şahidi olacaqsınız ki,onları inkar edəcəksiniz.Dedilər: Ey Allahın rəsulu! Bu bizim vaxtımızda baş versə,nə edək? Buyurdu: "Öhdənizdə olan haqqı əda edin və Allahdan arzulayın ki,haqqınızı sizə qaytarsın." Yenə Muslimdə nəql olunur: "Sələmə Cufi ərz etdi: "Ey Allahın peyğəmbəri! Əgər bizə öz haqqını tələb edən,bizim*

[1] Məktub 80

[2] Tirmizi "Sunən" №3758

haqqımızı isə verməyən əmirlər hakim olsalar, bizə nə etməyi əmr edirsən? Buyurdu: "Eşidin və itaət edin. Çünki, onlar çiyinlərində öz yüklərini çəkirlər, siz də öz yükünüzü."[1]

— Əslində bu hədislər öz-özlüyündə şiələrin əleyhinə olan dəlillərdir. İslam tarixi ilə az da olsa tanış olan şəxs bilir ki, şiələr dəfələrlə hakimlərə qarşı qiyam qaldırmışlar. Şiələr hər zaman İslam cəmiyyətində fitnə mərkəzi rolunu oynamışlar. Onlar təkcə qiyam etmirdilər, onları uydurma hədislərlə də buna sövq edirdilər. Kuleyni Ömər ibn Hənzaladan, o da Əbu Abdullahdan rəvayyət edir ki, imamdan soruşdum: "Bizim əshamızdan iki nəfər bir borc vəya miras üstündə ixtilaf etsələr və nəticədə sultana vəya qaziyə hökm üçün getsələr, bu onlar üçün halal olarmı?

İmam buyurdu: "Kim haqq vəya batil üçün onların hökmünə üz tutarsa, heç şübhəsiz **tağutun** hüzuruna getmiş sayılır. Onların verdiyi hökmə görə bir şeyi əldə etmək həmin adamın haqqı olsada,haramı almaq kimidir.Çünki, adam onu tağutun hökmü nəticəsində almış olur."[2]

Yəni, şiələrə nəinki tabe olmaq, hətta hökm üçün hakimə müraciət etmək də yasaqdır.

Rafizi yazır: "B*u imkan olmazsa, yəni başqası hökuməti ələ keçirərsə,amma dini vəzifələrinə, əməl və qanunlara tabe olarsa, bununla belə, hökuməti qəsb edib heç cür onu əsl sahibinə qaytarmağa hazır olmadığı surətdə belə,əgər ona qarşı qiyam cəmiyyətin parçalanması,müsəlmanların vəhdətinin pozulması,əcnəbilərin dövləti ələ alması və İslamın məhvinə gətirib çıxarırsa, onda İslam ümmətinə vacibdir ki, İslamın izzət və başını ucaltmaq üçün onunla həmkarlıq etsin,onun müdafiəsinə qalxsın,həmçinin İslamın əsaslarının və sərhədlərinin qorunmasında ona dayaq olsunlar.*

Daha sonra yazır: "O,həzrətin üç xəlifənin hakimiyyəti dövründəki rəftarını tədqiq edən şəxs görər ki,onun xilafət işində Allahın rəsulu (sallallahu aleyhi və səlləm) tərəfindən birbaşa verilmiş hüququndan əli üzüləndən sonra o,hakim xəlifələrlə düz və əmin rəftar etmə yolunu seçmiş və Peyğəmbər (sallallahu aleyhi və səlləm) tərəfindən verilmiş vilayət kürsüsünü onların ixtiyarında görsə də,mübarizə və müharibəyə əl atmamışdır."

[1] Məktub 82
[2] "Kafi" 1/67/№10

— Bu sözləri ilə rafizi Əlinin Əbu Bəkr ilə xilafət məsələsində niyə mübarizə etmədiyini izah etməyə çalışır. Biz bu sözlərə bir neçə səbəbə görə dəyər vermirik.

1) Əlinin lehinə heç bir vəsiyyət olmamışdır. Bunun isbatı yuxarıda nəql edilən"Səhih Buxari"də olan hədisdir. Bu hədisi bir daha qeyd edək. ***"İbn Abbas*** *(radiyallahu anhu)* ***dedi: "Əli*** *(radiyallahu anhu)* ***Peyğəmbərin*** *(sallallahu aleyhi və səlləm)* ***sonuncu xəstəliyi zamanı yanından çıxdıqdan sonra insanlar soruşdular: "Ey Əbul Həsən! Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***bu səhər özünü necə hiss edir?" O dedi: "Allaha həmd olsun bu səhər özünü yaxşı hiss edir." Bu zaman Abbas ibn Əbdulmutəllib onun əlindən tutaraq dedi: "Allaha and olsun ki,üç gündən sonra sən artıq başqasına tabe olmuş olacaqsan və and olsun ki,mən düşünürəm ki, Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***bu xəstəliyindən vəfat edəcəkdir. Çünki, mən Əbdulmutəllib övladlarının ölüm qabağı necə simada olduqlarını bilirəm. Gəl, onun yanına gedək və ondan sonra xilafətin kimə qalacağını soruşaq. Əgər bu iş bizə qalacaqsa bunu öyrənmiş olarıq. Yox,əgər başqalarına həvalə olunacaqsa bunu da bilmiş olarıq və Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizə tövsiyyələrini verər." Əli*** *(radiyallahu anhu)* ***dedi: "Vallahi, əgər biz xəlifəti istəsək və Peyğəmbər*** *(sallallahu aleyhi və səlləm)* ***onu bizə verməsə, ondan sonra insanlar bir daha bizə xilafəti həvalə etməzlər! Allaha and olsun ki,mən Peyğəmbərdən*** *(sallallahu aleyhi və səlləm)* ***bunu istəməyəcəyəm."***[1]

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* son günləri baradə bəhs edilən bu hədisdə Əlinin özünü Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* varisi hesab etməməsinə dair böyük dəlil vardır.

2) Əgər biz rafizinin sözünü qəbul etsək, onda belə sual yaranacaq:

Əli ilə Müaviyə arasında olan mübahisədə birinciyə nə mane oldu ki, xilafətdən əl çəkməsin?! Axı, onların münaqişəsi ümmətin bölünməsinə və xeyli sayda müsəlmanların ölümünə səbəb oldu. Rafizilər iddia etdiyi kimi əgər Əli ümmətin ümumi maraqları və təhlükəsizliyi üçün Əbu Bəkrə xilafət məsələsində güzəştə getmişdisə, onda

[1] "Muxtəsər Səhih Buxari" № 1625,4447

Müaviyə ilə olan münaqişədə də güzəştə getməli idi. Vəya digər sual: Əgər Əli üç xəlifəyə itaət edib, səbr etmişdisə, onda niyə Hz Hüseyn Yezidə qarşı qiyam qaldırdı və səbr etmədi?

Rafizilərdən fərqli olaraq bizim daha doğru və məntiqli izahımız vardır. Əli, Əbu Bəkrə qarşı ona görə etiraz etmədi ona görə ki, nəql edildiyi kimi o onu xilafət məqamına daha layiqli namizəd hesab edirdi. Həmçinin, o Əbu Bəkri Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra bu ümmətin ən fəzilətli nümayəndəsi hesab edirdi. Əli Müaviyə ilə ona görə müharibə edirdi ki, o özünü xilafətə daha layiq hesab edirdi.

3) Əgər İslam dövlətinin zəifliyi, bir çox qəbilələrin irtidad etməsi, əcnəbi düşmənlərin mövcudluğu, Əlinin Əbu Bəkrdən haqqını istəməsinə mane olmuşdusa, onda niyə görə o Əbu Bəkr vəfat edəndən sonra bu haqqı tələb etmədi?! Niyə görə o digərləri kimi Ömərə və Osmana beyət etdi? Axı, o dövrdə bütün təhlükələr aradan getmiş və İslam dövləti güclənməkdə idi. Niyə görə onda Əli "zalım xəlifələr"ə qarşı çıxıb, öz haqqını tələb etmədi?! Niyə o Əbdurrahmən ibn Aufun özü ilə Osman arasında seçim etməyinə razılıq verdi?! Axı, məhz ibn Auf mühacir və ənsarlarla məsləhətləşdikdən sonra kimin xəlifə olmasına qərar verdi. Osman və Əli də bu ixtiyarı ona vermişdilər və onun hökmü ilə razılaşırdılar. Əlinin xilafət baradə qəti etiqadı olsaydı, məgər o bunlara razı olardımı?!

4) Əgər Əli xilafətə təyin olunmuşdusa, niyə görə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra heç bir səhabə bu haqqı xəlifələrə xatırlatmadı? Biz rafizilərin uydurmalarından bəhs etmirik. Sadəcə bir səhih hədis olsun ki, orada hər hansı səhabənin buna etirazı bildirilsin! Bəlkə, ona görə şiələr 3-4 səhabədən başqa digərlərini küfrdə ittiham etmişlər?!

5) Biz Sədd ibn Ubadənin Əbu Bəkrə beyət etməməsini, Əbdulhüseyn iddia etdiyi kimi 3-4 səhabənin yenə beyət etməməsi fikrini qəbul etsək belə bu Əbu Bəkrin xəlifəliyini şübhə altına almayacaqdır. Çünki,əksər səhabələr ona beyət etmiş və onun rəhbərliyi altında irtidad edənlərə və müşriklərə qarşı savaşmışlar. Əgər 3-4 səhabənin beyətdən imtina etməsi Əbu Bəkrin xilafətinə kölgə salırsa,onda Əliyə qarşı çıxan və onunla müharibə edən bir çox səhabənin olması faktı da onun xilafətinə kölgə salmış olur.

İmam Hakim "Müstədrək" kitabında yazır: "Əlidən "Vəsiyyət etmirsən?" - deyə soruşduqda, o demişdir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* kimi vəsiyyət edirəm amma, Allah insanlar üçün xeyir istəsə, Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra səhabələri xeyir üzərində cəm etdiyi kimi onları da xeyir üzərində cəm edəcəkdir."[1]

Həmçinin, bunu imam Əhməd "Səhabələrin fəziləti" (2/№595,622); Beyhəqi "Sunən Kubra" (8/149); Bəzzar "Musnəd" (№565) kitablarında öz sənədləri ilə nəql etmişlər. Hakim bu hədisi səhih adlandırmış və imam Zəhəbi də "Təlxis" kitabında bununla razılaşmışdır. Heysəmi də buna bənzər hədisi Şaqiqə istinadən nəql etmişdir vəyazır: "Ravilər silsiləsi İsmayıl ibn Əbu Haris istisna olmaqla "Səhih" kitab müəlliflərinin raviləridir. O, özü də etibarlı ravidir."[2]

Bu hədisdə səhabələrin Əbu Bəkrin ətrafında birləşməsinə dair böyük dəlil vardır. Halbuki, belə birlik Əlinin zamanında mövcud deyildi.

6) Əgər üç xəlifəyə edilən beyət qeyri-qanuni idisə onda Əliyə edilən beyət də düzgün deyildi. Çünki, şiələrin doğru mənbəyinin dediyinə görə (Nəhcul Bəlağa) Əli demişdir: **"Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər.** Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı..."[3]

207) Rafizi yazır: *Çünki, Qüreyş və ərəb qəbilələri Əlini Allah düşmənləri, onun haramlarını pozanlarla sərt rəftarı və qanunlarına qarşı çıxanlara tutduğu divanları unutmamışdı.Onun əmr-be məruf və nəhy-əl münkərə ciddi əməli,rəiyyət arasında ədaləti və ona bütün işlərdə hüdud və hüquqları qoruması hamını vəhşətə gətirirdi.Nə bir kəs onu tamaha sala bilər,nədə birinin*

[1] Hakim "Müstədrək" №4467

[2] "Məcmau Zəvaid" 9/50

[3] "Nəhcul bəlağə", səh 366-367,tərcümədə səh 298, Tehran çapı, 1995, 6-cı xütbə

xeyirxahlığı (haqqı pozmaqda) ona təsir edərdi. Onun yanında qoluzorlu və zalım zəlil,zəif isə haqqının geri qaytarıldığı üçün güclü və əziz olurdu. Buna görə də haqqa ürəkdən bağlanmayanlar necə rəğbət və maraq üzündən ona itaət edə bilərdilər?! Bir halda ki, Quran onların barəsində buyurmuşdur: "Bədəvilər küfr və nifaq baxımından daha pis və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri bilməməyə (başa düşməməyə) daha layiqdirlər."[1]

— Allahın düşməni Əliyə aid etdiyi keyfiyyətlərin digər xəlifələrdə olmadığına ehyam vurmaqla yalan danışdı. İslam tarixindən az da olsa məlumatı olan şəxs bilir ki, ilk xəlifələr adillikləri ilə seçiliblər. Ömərin öz valilərini necə yoxladığına və sınağa çəkdiyinə tarix şahiddir. "Nəhcul bəlağa"da nəql olunan Əlinin sözləri bizə kifayətdir. *"Filankəsin (Ömərin) ölkəsi nə əzəmətlidir.O, əyriləri düzəltdi, bidətləri aradan qaldırdı və Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) sünnəsini bərpa etdi, fitnəni arxada qoydu.O,dünyadan günaha bulaşmadan, eyibsiz halda getdi,bu dünyanın xeyrini götürdü,şərrini isə atdı,Allahın itaət borcunu ödədi və ondan lazım olduğu qədər ehtiyyat etdi.(təqvalı oldu)* [2]

İbn Əbil Hədid "Şərhul Nəhcul Bəlağa" (14/3-4)-da və Feyzul İslam (c.2,səh 56, №219) bu kitabın şərhində qeyd etmişlər ki, burada qəsd olunan Ömərdir.

208) Rafizi yazır: "*Səhabələrin əksəriyyətinin tərcümeyyi-halı və tarixi göstərir ki,onlar sünnətə tabe olmuşlar. Onların bir qismi,sırf ibadətə və axirətə məxsus məsələləri əhatə edir.Məsələn: Ramazan ayının orucu, namazda üzün qibləyə olması,gündəlik vacib namazların və hər birinin rukətlərinin sayı,onların yerinə yetirilmə qaydaları,Allahın evi ətrafında təvaf və s.Amma, siyasətə aid olan məsələlərdə isə məsələn: hökumət və əmirliyi müəyyən bir şəxsə tapşırmaq, dövlət işlərinin tədbiri, məmləkətin idarəsi və ordunun təchizi kimi məsələlərdə sünnəyə tabe olmağın lazımlığını bütün hallarda vacib bilmirdilər."*[3]

— Allah və elçisinin *(sallallahu aleyhi və səlləm)* səhabələr haqqında buyurduqları bizə kifayətdir.

[1] Məktub 84
[2] "Nəhcul bəlağa" Subki Saleh tədqiqi ilə səh 350; Muhəmməd Abduhun nüsxəsində c.2,səh 322
[3] Məktub 84

Uca Allah Quranda buyurur: **"Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir."** (Ali İmran 110)

Şübhə yoxdur ki, bu ayədə müraciət Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabələrinədir. Onlar bizə görə bu ümmətin ən xeyirliləri, şiələrə görə isə ən şərliləri olmuşlar.

Uca Allah Fəth surəsində buyurur: **"Möminlər Hüdeybiyyədə ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində olanı bildi, onlara mənəvi rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı."** (Fəth 18)

Yenə, eyni surədə buyurur: **"Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir. Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir."** (Fəth 29)

Necə ola bilər ki, Allah öz elçisinə tabe olmayanlardan razı olsun?! Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözlərinə gəlincə isə o mütəvatir hədisdə buyurmuşdur. **"İnsanlarin ən xeyirliləri mənim əsrimdə yaşayanlardir.Sonra onların ardınca gələnlər və yenə onların ardınca gələnlərdir. Onlardan sonra isə şəhadətləri andlarını üstələyən,andları da şəhadətlərini üstələyən insanlar gələcəkdir."**[1]

[1] "Səhih Buxari" № 1118. (2652),Muslim,Tirmizi,Əbu Davud,Nəsai

Bu hədis mütəvatirdir və bunu Muslim,Tirmizi,Nəsai,Əbu Davud və digərləri öz sənədləri ilə nəql etmişlər. Əli öz xilafəti dövründə öz səhabələrinə üz tutaraq demişdir: ***"Mən Muhəmməd (sallallahu aleyhi və səlləm) əshabını gördüm. İçinizdə onlara bənzər bir adam belə görmürəm. Onlar saçları dağılmış, toz-torpağa bulanmış bir halda sabahı açar, gecələrini namazla keçirərdilər. Kimi alnını torpağa sürtərdi, kimi üzünü, qiyaməti xatırlayanda köz kimi yanardılar. Alınları səcdə etməkdən keçinin dizlərine dönmüş, qabıq bağlamışdı.Allahı yada salanda əzab qorxusundan, savab ümidindən göz yaşı tökərdilər.Hətta,elə ağlayardılar ki,yaxaları islanar və yelin əsdirdiyi ağac kimi titrəyərdilər."***[1]

Bu məktubda rafizi bir neçə səbəbləri qeyd edir ki, onlara görə guya ərəblər Əliyə beyət edib, ona itaət etməyə razılıq verməzdilər. O, iddia edir ki, ərəblər Əliyə öldürülmüş qohumlarının qisası naminə itaət etməzdilər. Bu iddianın əsası yoxdur. Çünki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra İslam düşmənləri müsəlmanların əleyhinə qalxdılar və onlar Əhli beyti deyil, bütün səhabələri düşmən olaraq hədəf aldılar. Məhz, onlarla Əbu Bəkr xilafəti dövründə mübarizə aparmışdır. Axı, təkcə Əli İslam düşmənləri ilə vuruşmamışdır. Uca Allah buyurur: **"O, səni həm Öz köməyi ilə, həm də <u>möminlərlə</u> qüvvətləndirdi."** (Ənfal 62)

209) Rafizi yazır: *"Hamı,Qüreyş və ərəbin adlı-sanlıları Əliyə həsəd aparırdılar.O,Allah yolunda o qədər fəzilət qazanmışdı ki,onun dərgahında (elm və əməli sayəsində) peyğəmbərlərin məqamına ucalmışdı.Səhabələrdən heç kim onunla müqayisə edilə bilməzdi."*[2]

— Bu ifadə əsl küfrdür. Heç kim heç vaxt peyğəmbərlərin səviyyəsinə qalxmamışdır. Əli də iddia etməmişdir ki, guya o xüsusi elmlərə sahibdir. "Nəhcul bəlağə"da Əli Osmana üz tutaraq dedi:

"Arxamdakı adamlar məni sənlə özləri arasında səfir etmişlər. <u>Allaha and olsun ki, bilmirəm sənə nə deyim. Elə bir iş yoxdur ki, mən bilim, sən yox. Biz nəyi bilirik, sən də bilirsən.</u> Bir şeydə səndən irəlidə deyilik ki, sənə onun

[1] "Nəhcul bəlağə", səh 143,№97 (tərcümədə səh 257, Tehran çapı, 1995; "Kafi"c.2,səh 236; "Biharul Ənvar" c.66,səh 307

[2] Məktub 84

haqqında məlumat verək. Səndən bir şey də gizlətməmişik ki,indi onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi də eşitmisən, sən də Allahın elçisinin (s.a.s.) səhabələrindən olmusan.“[1]

210) Əbdulhüseyn yazır: *“Çünki, Qüreyş və ərəb (ümumi olaraq) Əlini Allah düşmənləri,onun haramlarını pozanlarla sərt rəftarını və qanunlarına qarşı çıxanlara tutduğu divanları unutmamışdı.Onun əmr-be məruf və nəhy-əl münkərə ciddi əməli,rəiyyət arasında ədaləti və ona bütün işlərdə hüdud və hüquqları qoruması hamını dəhşətə gətirirdi.Nə bir kəs onu tamaha sala bilər nədə birinin xeyirxahlığı (haqqı pozmaqda) ona təsir edərdi.Onun yanında qoluzorlu və zalım zəlil,zəif isə haqqının geri qaytarıldığı üçün güclü və əziz olurdu. Buna görə də haqqa ürəkdən bağlanmayanlar necə rəğbət və maraq üzündən ona itaət edə bilərdilər?!Bir halda ki,Quran onların barəsində buyurmuşdur: “Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri bilməməyə (başa düşməməyə) daha layiqdirlər.”*[2]

— Bu keyfiyyətlər təkcə Əliyə məxsus deyildi. Bütün raşidi xəlifələr ədalətli olmuş və dünya malına tamah salmamışlar. Birinci xütbəsində Əbu Bəkr demişdi: “Aranızda zəif olanlar mənim yanımda onlara haqqı geri qaytarılmadığı müddətcə güclü olacaqlar. Aranızda güclü olanlardan haqqı olmadıqlarını geri almadıqca isə onlar mənim yanımda zəif olacaqlar.”[3]

Məhz, Əbu Bəkr dindən çıxanlarla onlar zəkatı vermədiyi zaman savaşmışdır. Bu ərəblərə və səhabələrə onun başçılığı altında vuruşmağa mane olmamışdı.

211) Rafizi yazır: *“Ömər ibn Xəttab ibn Abbasla danışığında bu məsələyə işarə edərək demişdi: “Qureyş razı deyildi ki,nübüvvət və xilafətin hər ikisi sizin aranızda olsun və beləcə siz camaatı ötəsiniz.”*[4]

---

[1] “Nəhcul bəlağə”, səh 234, tərcümədə səh 169, Tehran çapı, 1995

[2] Məktub 84

[3] Sələbi, “Siratul Əbu Bəkr” səh 246; İbn Kəsir “əl Bidayə vən nihayə” 6/305

[4] Məktub 84

— Haşiyədə iki kitaba istinad edilir. İbn Əbil Hədidin ”Nəhcul Bəlağa”nın şərhi kitabına və “ibn Əsirin “Kamil” kitabına. Birinci kitabın heç bir dəyəri yoxdur. Şeyx Əbu Məryəm qeyd edir ki, ibn Əsirin kitabında olan bu rəvayyət isnadsız nəql olumuşdur.Oxşar rəvayyəti Təbəri “Tarix” kitabında isnadı ilə nəql etmişdir. Lakin,isnadda məchul ravi vardır.

212) Rafizi yazır: *“Amma,üç xəlifə və tərəfdarları xilafətə dair “nass”ları əvvəldə dediyimiz kimi dünya xatirinə,öz mənafelərinə uyğun təfsir və izah etdilər ki,artıq indiki zamanda onlara təəccüb etməyin yeri yoxdur.Çünki,sizə aydınlaşdırdıq ki,onlar siyasi işlərdə,əmir və hakimlərin təyinində,dövlət işlərinin tədbiri və məmləkətin idarəsində hər bir “nass”ı öz ictihadları ilə ölçür,təfsir və izah edirdilər və bu məsələlərə fərdi,dini ehkamlar qədər diqqət yetirmirdilər. Elə buna görə də bu “nass”larla müxalifət etmək onlar üçün asan idi. İşləri başa çatandan və xilafəti ələ alandan sonra çox ciddi surətdə onları unutdurmağa çalışdılar və o “nass”ı yada salan vəya onlara işarə edənlərlə çox pis davrandılar.Nizam-intizam bərpa olduqda,İslam dini yayılıb ölkələri fəth etdikdə,dövlət sərvət və qüvvətə çatdıqda,özlərini şəhvətə bulamayıb işləri yüksəldikdə isə,camaat onlara hüsni-zənn etməyə başladı və əksəriyyət də o “nass”ı unutmaqda onların yolunu davam etdirdi.”*[1]

— Allah yalançıya lənət etsin! Var-dövlət əldə etdilər?!!! Kim? Əbu Bəkr? Ömər? İmam Hakim ibn Həzm Aişədən *(radiyallahu anhu)* rəvayyət edir: “Allaha and olsun ki,Əbu Bəkr özündən sonra nə bir dinar,nə də bir dirhəm miras qoymadı.”[2]

Digər mətndə isə deyilir: “Əbu Bəkr ölüm qabağı bütün malını alıb, beytul mala keçirdi.”[3]

Qatadə rəvayyət edir ki, bir gün Ömər ibn Xəttab *(radiyallahu anhu)* cümə namazına gecikdi. İnsanlardan üzr istəyərək o dedi: “Mən yalnız öz paltarımı yuduğuma görə gecikdim. Onu yuyurdular və mənim başqa paltarım yoxdur.”[1]

---

[1] Məktub 84
[2] İmam Əhməd “Zühd kitabı”c.1,səh,səh 163, №563
[3] İmam Əhməd “Zühd kitabı”c.1,səh,səh 166, №574

Şurahbil ibn Muslim dedi: "Xilafəti zamanında Osman insanları öz maaşı ilə yedizdirirdi. Sonra O evə gedib, zeytun yağı ilə çörək yeyirdi."[2]

Həsən əl Bəsri deyir ki, Osman *(radiyallahu anhu)* xəlifə olduğu vaxt məsciddə yatırdı. Oyandıqda isə onun yanağında daşların izi görünərdi. Biz isə deyərdik: "Bu möminlərin əmiridir, bu möminlərin əmiridir!"[3]

Zuheyya deyir: "Osman gecələri namazda,gündüzləri isə orucla keçirərdi."[4]

Allaha həmd olsun ki, heç bir raşidi xəlifəsi dünya malına görə çalışmamış və sərvət toplamamışdır.

213) Rafizi yazır: "*Beləliklə,Əli evdə oturdu və onu zorla beyətə aparana qədər beyət etmədi ki,öz hüququnu qorusun və ondan üz çevirənlərin qarşısında hüccət olsun.Əgər o könüllü və tez beyət etsəydi,hüccət tamam olmazdı və parlaq dəlili yox olardı.Amma, bu əməllə həm dini həm də öz hüququnu qorudu,yəni xilafətdə möminlərin iqtidarını birləşdirdi.*"[5]

— Bidətçilərin dəlillərini elə öz sözləri ilə batil edən Allaha həmd olsun. Biz yuxarıda, imam Abdullahın "Sunən"kitabından səhih hədis və şiə tarixçisi Cəfər Şəhidinin sözlərini gətirdik və göstərdik ki, Əli elə ilk günlərdə Əbu Bəkrə beyət etmişdi. Əbdulhüseyn isə yazır: "*Əgər o könüllü və tez beyət etsəydi,hüccət tamam olmazdı və parlaq dəlili yox olardı.*" Tarixi faktları və Əbdulhüseynin ifadələrini cəm edərək, biz bu nəticəyə gəlirik ki, Əlinin təyini barədə heç bir dəlil olmamışdır. Məhz, buna görə Əli tərəddüd etmədən Əbu Bəkrə beyət etmişdi.

Mötəbər şiə mənbələrinə görə Əli özü xəlifə olmağa meyl etməmiş və Osmandan sonra bu işi ona təklif edəndə ondan imtina etmişdi. "Nəhcul bəlağa"da yazılır: Əli dedi: "**Məndən əl çəkin, başqasını axtarıb tapın.** Çünki, elə bir işə yönəlmişik ki, cürbəcur yolları var, növbənöv rəngləri var. Könüllər bu işdə qərar tuta bilməz, ağıllar bu işin

---

[1] İbn Hənbəl "Kitabuz zuhd" c.1,səh 182,№653
[2] İbn Cəuzi "Siffətus saffə" səh 134
[3] İmam Əhməd "Zühd" c.1,səh 186,№673; İbn Cəuzi "Siffətus saffə" səh 133
[4] İmam Əhməd "Zühd" c.1,səh 189,№687
[5] Məktub 84

ağırlığına davam gətirə bilməz. Dan yerini başdan-başa məcazi qara bulud tutmuş, açıq-aydın yol görünməz olmuşdur.Bilin ki, istədiyinizi qəbul etsəm, daha yaxşı bildiyimə uyub gedərəm, nə söyləyənin sözünə fikir verərəm, nə eyib tutanın sözünə qulaq asaram. **Amma, məndən əl çəksəniz, sizlərdən biriniz kimi olaram. Kimi iş başına gətirsəniz, kimi özünüzə qulluq sahibi etsəniz, o buyruğu sizdən daha artıq dinlərəm, əmrinə sizdən artıq uyaram. "Mənim sizə vəzir olmağım, əmir olmağımdan daha xeyirlidir."**[1]

Cəfər Sübhani Azərbaycan dilində, "Əl huda" tərəfindən, 2005 ildə nəşr olunan "İslam tarixı" kitabının, 332-333 səhifələrdə yazır: "Osmanı öldürdükdən sonra Həzrət Əli (ə) muhacir və ənsarın əksəryətinin israrı ilə xilafətə seçildi. O, əvvəlcə bu vəzifəni qəbul etmək istəmədi, lakin mühacir və ənsarların israrından sonra bu vəzifəni ələ aldı."

214) 86-cı məktubda rafizi gec vəya tez hər bir rafizinin gətirdiyi böyük şübhəni gətirir.O,yazır:*"Səhih" müəllifləri və başqa "sunən" yazıçılarının hamısı bu hadisəni nəql etmiş və tarix,sirə və hədis yazanların hamısı ondan xəbər vermişlər.O cümlədən Buxari öz sənədi ilə Ubeydullah ibn Abdullah ibn Utbə ibn Məsuddan,o da ibn Abbasdan nəql etmişdir: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) can verəndə bir qrup adam,o cümlədən Ömər ibn Xəttab o Həzrətin evində idilər.Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Kağız-qələm gətirin ki,sizə (son vəsiyyətimi) yazım.Yazım ki,məndən sonra heç vaxt yolunuzu azmayasınız. Bu vaxt Ömər dedi: "Dərdi ona üstün gəlib. Mən deyirəm Quran sizin aranızdadır. Allahın kitabı bizə kifayət edər." Belkəcə ora toplaşanlar arasında ixtilaf düşdü və iş çəkişmə və düşmənçiliyə gəlib çıxdı.Bəziləri deyirdi: "Yaxınlaşın (və kağız-qələm hazırlayın ki,) Peyğəmbər (sallallahu aleyhi və səlləm) sizə yazsın ki,ondan sonra yolunuzu azmayasınız.Bəziləri isə Ömərin sözünü təkrarlayırdı.Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanında hay-küy və ixtilaf artanda onlara buyurdu: "Gedin buradan." İbn Abbas həmişə bu sözü deyərdi: "Bütün müsibətlər o vaxt baş verdi ki,Peyğəmbərə (sallallahu aleyhi və səlləm) mane oldular və hay-küy salaraq qoymadılar ki,lazım olan mətləbləri onlar üçün yazsın (açıqlasın)."*

Daha sonra bu dəccal yazır: *"Amma,onlar hədisi nəql edəndə (yalnız əhvalatı söyləyərək) dəyişdirmişlər. Çünki, Ömərin öz əsl sözü belə olub: "Peyğəmbər sayıqlayır, ağlı başında deyil." Amma onlar belə vermişlər: "Ağrısı Peyğəmbərə üstün*

[1] "Nəhcul bəlağa", "Xilafət dövrü, Cəməl döyüşü və Cəməldən sonra" başlığı altında, "Osmandan sonra Ona beyət etmək istəyənlərə buyurdu" xütbəsinə səh 136

gəlmişdir." Bu təhrif, ifadəni düzəltmək və qəbahəti azaltmağa xatir olmuşdur. Bunun sübutu Əbu Bəkr Əhməd ibn Əbduləziz Cövhərinin "Səqifə" kitabında İbn Abbasdan gətirdiyi hədisdir."

— Allahın lənəti yalançıların üzərinə olsun! Heç kim mətndə heç nəyi dəyişdirməmişdir! Yalançı rafizi öz mühəddislərini müsəlmanların imamları ilə səhv salmışdır.Əcəba, bu sapıq elə güman edir ki,müsəlmanlar imamlarının kitablarını tərk edib,tanınmayan bəlkə də şiə olan birinin kitabına inanacaqlar?! Hər kəs belə iddiada olarsa,öz ittihamlarını dəlillərlə dəstəkləməlidir.Allaha həmd olsun ki,şiələrdə bunun təsdiqi yoxdur. Birincisi,bu hadisəyə qədər artıq ayə nazil olmuşdu: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim." (Maidə 3)

Din artıq kamil olduğuna görə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* yazı yazmaqda israr etmədi. Çünki, bu dini fərziyyət daşımayacaqdı. Əgər bu vacib məsələ olsaydı,mütləq ona qayıdar və onu yazdırardı. Bu hadisə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından 4 gün öncə cümə axşamı olmuşdu. Vəfatından öncə elə oldu ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* yaxşılaşdı və insanlar onun sağaldığını güman etdilər. Lakin, o bu yazıya bir daha qayıtmadı. İkincisi,şiələr iddia edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Qədir-xumda minlərlə insanın qarşısında Əlini varis təyin etmişdi. Elə isə az bir insanın toplaşdığı kiçik otaqda onun yenidən təyin olunmasının nə əhəmiyyəti var idi?!

Şiələr iddia edir ki, "Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz" ayəsi nazil olduqdan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* minlərlə insanın qarşısında Əlini varis təyin etdi. Sonra da iddia edirlər ki, Əlini varis təyin etməyə Ömər mane oldu. Sual yaranır. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Qədir-xumda risaləti tamamladımı? Əgər bu təyin işi orada tamamlanmışdısa, yenidən yazıya nə ehtiyyac var?!

Üçüncüsü, Aişədən *(radiyallahu anhu)* varid olan hədisdə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından öncə nəyi vəsiyyət etməsi bildirilir. *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) xəstələndiyi zaman mənə dedi: "Əbu Bəkri və qardaşını mənim*

yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə iştahalı biri desin ki, mən daha layiqəm. Lakin, Allah və möminlər Əbu Bəkrdən qeyrisinə razı olmazlar."[1]

Ömər ibn Xəttabın "o sayıqlayır" deməsinin səhih və isbat olunmuş isnadı yoxdur. Əbdulhüseyn əsrlərlə İslamı çatdıran insanları ləkələməyə çalışan sələfləri kimi şərəfli səhabəni ləkələmək istəmişdir. Səhih olaraq bu sözlər varid olubdur: "Bizə Allahın kitabı kifayətdir" və onun sözləri bu ayəyə söykənir: "Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq." (Ənam 38)

Ömər can ayağında olan Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* əlavə əziyyət vermək istəmirdi. Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* istəyində israrlı olmaması və bu istəyinə sonradan geri qayıtmaması Ömərin haqqlı olduğunu göstərir. Bu sözü deyən səhabəyə gəlincə isə alimlər bunu belə izah etmişlər: "İnsanlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* istəyi üzərinə mübahisə edən zaman bu adam sanki dedi: "Siz kağızın gətirilib-gətirilməməsi baradə necə mübahisə edə bilərsiniz? Siz elə güman edirsiz ki,o digər can ayağında olan insanlar kimi sayıqlayır?"[2]

Şiələr Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hər sözünün və istəyinin vəhy olduğunu və bu istəyinin də səmadan göstəriş olduğunu iddia etdiklərinə görə səhabələrin Allahın əmrinə müxalif etdiklərini iddia edirlər. Birincisi, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hər sözünün vəhy olmasını demək yanlışdır. Axı, o hər hansı bir istəyi (məs: su gətirmək və s.) ilə ətrafdakı səhabələrinə müraciət edirdi və bu vəhy deyildi. İkincisi, əgər bu yazı yazmaq istəyi vəhy idisə və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* də, bu işi icra etmədisə, onda elə çıxır ki, O Allah Təalanın əmrinə müxalif olmuşdur?! Allah bizi belə iddiada olmaqdan qorusun! Üçüncüsü, şiələr iddia edir ki, Əli demək olar ki, hər zaman Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanında olmuşdur. Biz artıq Əbdulhüseynin "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlinin qucağında vəfat etmişdir" dediyini nəql etmişdik. Niyə görə onda Əli kağız-qələm gətirmədi? Yoxsa, bu ağır anlarda o Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanında yox idi?! Dördüncüsü, tarixdə Əlinin Peyğəmbərə *(sallallahu aleyhi*

[1] Səhih Muslim "Kitab Fədailus Səhabə", № 2387; Səhih Buxari "Kitabul Marad", № 5666

[2] "Fətl əl bari" 8/477

və səlləm) müxalif olma nümunələri vardır. Əgər kağız-qələmi gətirməmək addımı səhabələrin əleyhinə dəlil hesab olunacaqsa,onda aşağıda gətiriləcək nümunələr Əlinin əleyhinə dəlillər hesab olunmaldır.

Misal №1.

Hudeybiyyə sülhü. əl Mubarəkfuri "Peyğəmbərin həyatı" kitabında yazır:

"Qüreyşlilər müsəlmanların beyətini eşitdiyi zaman qorxuya düşdülər və Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* Suheyl ibn Amrı sülh bağlamaq məqsədi ilə göndərdilər. Suheyl Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə uzun söhbət etdi və bu danışıqların nəticəsində aşağıdakı şərtlər əsasında barışıq müqaviləsi imzalanmağa qərar verildi:

1. Bu il Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Məkkəyə daxil olmadan geri qayıdacaq. Lakin, o gələn il rahat şəkldə Məkkəyə daxil ola biləcək.

2. Tərəflər arasında münaqişə 10 il müddətinə dayandırılır.

3. Hər kəs istəsə müsəlmanlar vəya Qüreyş ilə saziş bağlaya bilər.

4. Qüreyşdən hər kim öz valisinin icazəsi olmadan müsəlmanların yanına gələrsə,müsəlmanlar onu Qüreyşə geri qaytarmağa borcludurlar.Amma,müsəlmanlardan hər kim Qüreyşin yanına gələrsə,onu geri qaytarmaya bilərlər.

Bundan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini çağırdı və ona müqaviləni tərtib edərək, başlanğıca "Rəhman və Rəhim olan Allahın adı ilə" yazmağı buyurdu. Lakin, Suheyl dedi: "Biz Allahı bilirik. Rəhman və Rəhimi tanımırıq. Belə yaz: "Allahın adı ilə." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* razılaşdı və ona belə yazmağı buyurdu: "Bu şərtlərlə Allahın elçisi Muhəmməd sülh bağlayır." Lakin, Suheyl yenidən etiraz etdi: "Əgər biz sənin həqiqi Allah elçisi olduğuna inansaydıq,Kəbəyə gedən yolunu kəsməzdik və sənlə müharibə etməzdik. Ona görə belə yaz: "Muhəmməd ibn Abdullah**." Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Həqiqətən siz buna inanmasazda, mən Allahın elçisiyəm!" O, Əliyə öncə yazılanları pozmağı və "Muhəmməd ibn Abdullah"yazmağı buyurdu. Əli bunu pozmağa razı olmadığı üçün O öz əli ilə yazılanları pozdu.** Bundan sonra saziş iki nüsxə şəklində yazıldı və biri müsəlmanlarda, biri isə Qüreyşdə saxlanıldı."

Şiə alimi müfti Cəfər Hüseyn belə yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlidən "Allah elçisi" sözünü pozmağı istədi və yerinə "Muhəmməd ibn Abdullah"yazmağı istədi.Lakin,Əli qəzəbli şəkildə qələmi kənara qoyaraq dedi: "Allaha and olsun ki,mən "Allah elçisi" sözünü silməyəcəyəm."*[1]

Əli Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* əmrinə qarşı çıxdı vəyazını pozmadı. Əgər Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hər sözü vəhy idisə onda Əli vəhyə qarşı çıxmışdır.

Misal №2.

əl Mubarəkfuri "Peyğəmbərin həyatı" kitabında "Təbuk səfəri" fəslində yazır: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* öz yerinə Mədinədə Muhəmməd ibn Məsləməni təyin etmişdi. **Mədinədə həmçinin, Əhli beytə göz-qulaq olmaq üçün Əli** *(radiyallahu anhu)* **də qalmışdı.** Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* əsas bayrağı Əbu Bəkrə, mühacirlərin bayrağını Zubeyrə, ənsardan olan Aus qəbiləsinin bayrağını Useyd ibn Xudeyrə, Xəzrəc qəbiləsinin bayrağını isə Həbbab ibn əl Munzirə vermişdi. Otuz minlik ordu hicrətin 9-cu ili, rəcəb ayının 1-i Mədinədən Təbukə yola çıxdı. Səfərdə hər on səkkiz nəfər əsgərdən birinə bir dəvə düşürdü. Yol boyu insanlar aclıq çəkirdi və kol-kos, bitkilərin yarpaqlarını yedikləri üçün dodaqları şişmişdi. **Ordu yolda ikən Əli ibn Əbu Talib münafiqlərin atmacalarından bezərək, miniyinə minərək orduya gəlib çatdı.** Lakin, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* onu Mədinəyə geri qaytararaq buyurdu: "Məgər sən mənim üçün Harunun Musa nisbətində olmaq istəmirsən? Amma məndən sonra peyğəmbər olmayacaqdır?!"

Şiə alimi müfti Cəfər Hüseyn "Sirətul əmirəl möminin" kitabında (səh 293)-də yazır: "Əli münafiqlərin çirkin sözlərini eşitdiyi zaman özünü ələ ala bilmədi və silahına sarılaraq,ordunun arxası ilə getməyə başladı."

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini şəhərdə qoymuşdu. Lakin, o münafiqlərin sözlərinə görə bu əmrə müxalif olub, Mədinədən çıxmışdı. Bu iki hadisəni xatırlayaraq, yenidən rafizinin sözlərinə qayıdaq: *"Eh kaş ki, bunların hamısı ilə kifayətlənəydilər və "Rəsulullah (sallallahu aleyhi və səlləm) sayıqlayır!" – sözləri ilə onu narahat etməyəydilər. Can verən zaman*

[1] "Biography of imam Ali ibn Ai Talib" səh 240, tərcümə.Səid Tahir Bilqirami

onların arasında nələr oldu və həyatının sonunda Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə vida zamanı, ah, nə sözlər dedilər! Guya, bu "nass"a əməl etməyib Allahın kitabını kafi saymaqla eşitməmişdilər ki, Quran gecə-gündüz fəryad edib nə deyir: "Peyğəmbərin sizə nə verirsə alın (əmrinə əməl edin) və qadağan etdiklərindən çəkinin."

Bu dəccala sual vermək istərdik. Görəsən, Əli də asi olarkən bu ayədən xəbərdar deyildi?!! Əgər rafizilər bu ayədə səhabələrə tən etmək üçün əsas görürlərsə onda niyə görə tarix oxuyarkən yuxarıda verilən misallara arxa çevirirlər?!! Bu ikili, haqqsız standartlar nəyə lazım?! Allaha həmd olsun ki,biz nə rafizi,nə də xəvaricik. Biz bilirik ki,müsəlmanlardan heç kəs fəzilətdə bu səhabə kimi ola bilməz. Lakin,biz ikili standartlara qarşıyıq.

215) Rafizi yazır: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəfat edəndə üç şeyi vəsiyyət etdi: "Müşrikləri ərəb yarımadasından xaric edin,Mədinəyə gələn nümayəndələri mən mükafat verdiyim kimi mükafatlandırın, üçüncünü isə unutmuşam."*

Haşiyədə yazır: *"Unudulmuş olan şey,Peyğəmbərin ümmətini zəlalətdən xilas etmək üçün yazmaq istədiyi vəsiyyətdən başqa bir şey deyildir. Dövrün siyasəti hədisçiləri onu unutmağa vadar etmişdir. Müfti Hənəfi (Hacı Davud Əd-dəda) "Suvər"də bu həqiqətə işarə etmişdir."*[1]

— Allahın düşməni yalan danışdı! Birincisi,"müfti Hənəfi" kimdir? Şiə kitablarında adətən belə haşiyələrə tez-tez rast gəlinir. Müfti Hənəfi, məşhur alim Abdullah Maliki və s.

İkincisi, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* üçüncü vəsiyyəti bizə digər rəvayyətlərlə varid olmuşdur. Qazi İyad Maliki dedi: *"Üçüncü vəsiyyətə gəlincə, çox güman ki,bu onun məzarının büt halına gətirilməməsi tövsiyyəsi olmuşdur. Çünki, bu göstəriş yəhudilərin qovulması ilə yanaşı "Muvatta"-da varid olmuşdur."*[2]

İmam Əhmədin "Musnəd" (№693) kitabında Əlidən rəvayyət olunur: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* mənə kağız gətirməmi əmr etdi ki, gələcəkdə ümmətin azmaması üçün bəzi yazılar yazsın. Mən ehtiyyat etdim ki, bunu yazmağa vaxt çatmaz və dedim: "Mən yaxşı dərk edirəm vəyaxşı yadda saxlaya bilirəm." O,buyurdu: "Mən sizə

[1] Məktub 86
[2] "Fəth əl bari" 8/478-479

namazı, zəkatı və əlinizin altında olanları vəsiyyət edirəm.” Bu hədisin bütün raviləri “siqa”dır. Lakin, bircə Nueym ibn Yezid adlrı ravi məchuldur.

216) Rafizi yazır: *“Təbəraninin “Ausət” kitabında Ömərdən nəql etdiyi rəvayyətdə deyilir: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) xəstələnəndə buyurdu: “Kağız və mürəkkəb qabı gətirin sizə bir mətləb yazım ki, ondan sonra heç vaxt yolunuzu azmayasınız. Qadınlar pərdə arxasından dedilər: “Məgər eşitmirsinizmi Peyğəmbər nə deyir? Ömər deyir ki,dedim: “Siz Yusifin (peyğəmbər) ətrafındakı qadınlar kimisiniz. Peyğəmbər (sallallahu aleyhi və səlləm) xəstələnəndə gözünüzün yaşını sıxır, yaxşılaşanda isə boynuna minirsiniz. Ömər deyir: “Peyğəmbər buyurdu: “Onlarla işin olmasın. Çünki, sizdən yaxşıdırlar.”*[1]

— Rəvayyət zəifdir. əl Heysəmi “Məcməu zəvaid” (№14257)-də yazır: “Təbərani “əl Ausət”da nəql etmişdir. İsnadda Muhəmməd ibn İbrahim ibn Cəfər əl Cəfri vardır. Ukeyli onun haqqında dedi: “Onun rəvayyətləri sual altındadır.”

Şeyx Albani bu rəvayyəti “Silsilə əhadis əd daifə” (№4971) -də münkər adlandırmışdır. “İsnadda olan Muhəmməd ibn Əli ibn Həlf əl Əttar ibn Adiy tərəfindən ittiham olunmuşdur.”[2]

“Digər ravi Hişam ibn Sadd isə zəifdir. Onun zəif olmasını Nəsai, ibn Məin, ibn Adiy qeyd etmişlər.”[3]

217) Rafizi yazır: *“İbn Abbas demişdir: “Evdə olanlar çəkişməyə və deyişməyə başladılar.Bəziləri dedilər: “Yaxınlaşın və kağız gətirin ki,Peyğəmbər (sallallahu aleyhi və səlləm) sizin üçün bir şey yazsın ki,ondan sonra heç vaxt yolunuzu azmayasınız.Bəziləri də Ömərin dediyini təkrarlayırdılar.Yəni, demişdir: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) sayıqlayır.”*[4]

— Allahın düşməni yalan danışır! Axı, rəvayyətdə *“Bəziləri də Ömərin dediyini təkrarlayırdılar.Yəni, demişdir: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) sayıqlayır.”* ifadəsi yoxdur. Buxari və Muslimdə keçən hədisdə ibn Abbas deyir:

[1] Məktub 86
[2] “Mizanul itidal” 3/651/№7962
[3] “Mizanul itidal” 4/298/№9224
[4] Məktub 86

“Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ölüm ayağında olarkən evdə bir çox insanlar var idi. Ömər də onların arasında idi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: “Gəlin sizin üçün bir yazı yazım ki, ondan sonra yolunuzu azmayasınız. Ömər dedi: “Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ağrıları çoxalıb. Quran mövcuddur, Allahın kitabı bizə yetərlidir. Evdə olanlar bu məsələdə fikir ayrılığına düşdülər və mübahisə etdilər. Bəziləri dedi ki, gətirin qoy Allahın elçisi sizin üçün bir yazı yazsın ki,bundan sonra yolunuzu azmayasınız. Bəziləri isə Ömərin dediyini deyirdilər. Onlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hüzurunda çox ixtilaf və səs-küy etdikdə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Çıxın bayıra"[1]

218) Rafizi yazır: *“Bu hədisi (xüsusilə də “Peyğəmbər sayıqlayır” cümləsini) diqqətlə nəzərdən keçirən şəxs onların Peyğəmbərin (sallallahu aleyhi və səlləm) elə bir mətləb yazmaq istədiyindən xəbərdar olub,onların da bu işdən xoşlanmadıqlarını və elə buna görə də o nalayiq sözləri həzrətə rəva bilib hüzurunda səs-küy qaldıraraq ixtilaf salmağa başladıqlarını, yəqin başa düşüb dərk edəcəkdir.Bu hadisəni böyük müsibət hesab etdiyindən ötrü ibn Abbasın ağlamağı onların cavablarının batilliyinə tutarlı sübutdur.”*[2]

— Bu ifadədə əsassız iddiadan başqa heç nə yoxdur. İbn Abbasın ağlamağına gəlincə, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatı müsəlmanlar üçün böyük itki idi və onların da bu hadisəni xatırladıqda ağlamalarında qəribə heç nə yoxdur.

219) Rafizi yazır: *“Tarixçilər ittifaq ediblər ki,Əbu Bəkr və Ömər Usamənin ordusunda idilər.Bu məsələdə heç bir fikir ayrılığı yoxdur.”*[3]

— Şeytanın qulu, Allahın düşməni yalan danışır! Əbu Bəkr Usamənin ordusunda deyildi. Çünki, mütəvatir xəbərlərə görə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* xəstələyi sırasında o namazda müsəlmanlara imam təyin olunmuşdu. Bu yalançının iddialarına baxamyaraq, mən Təbərinin tarixində Əbu Bəkrin Usamənin ordusunda olması

[1] Səhih əl-Buxari. “Kitabətul Elm” Bab, Kitabul Elm, 114; Səhihi Muslim. ”Kitabul Vəsiyyət”, 1627
[2] Məktub 88
[3] Məktub 90

fikrinə rast gəlmədim. Digər mənbələrdən fərqli olaraq yalnız ibn Sədin "Təbəqat" kitabından rəvayyətin doğruluğunu yoxlamaq olar. Çünki, bu kitabda rəvayyətin isnadları təqdim olunur. Bu haqqda ilk məlumat "Təbəqat" kitabının ikinci cildinin 189-190-cu səhifələrində keçir. Lakin,təəsüf ki, bu məlumat isnadsızdır. İkinci xatırlatma 249-cu səhifədə bu isnadla nəql olunur: Əbdulvəhhab ibn Ata əl İcli - əl Muamməri - ən Nafi – ibn Ömər.

İsnad əl Muamməri səbəbi ilə zəifdir. Bu Abdullah ibn Ömər ibn Həfs ibn Asim ibn Ömər əl Xəttabdır. O,"Təqrib"də qeyd edildiyi kimi zəifdir. Onu qardaşı Ubeydullah ibn Ömərlə səhv salmamaq lazımdır. "Təhzib"də qeyd edildiyi kimi Əbdulvəhhabın Ubeydullahdan nəql etməsi görülməmişdir. İstənilən halda bu rəvayyət Əbu Bəkrin son günlərdə namazda imam təyin olunması haqqda olan mütəvatir hədislərə ziddir. Muhəmməd ibn Cəfər əl Qəttani "Əbu Bəkrin *(radiyallahu anhu)* Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəfindən imam təyin olunması" fəslində yazır:

Əbulhəsən əl Əşari dedi ki, bu hadisə çoxlu sayda səhabələr tərəfindən rəvayyət olunmuşdur. Heç kəs buna etiraz etməmişdir. Suyuti "Tarixul xulafə" kitabında yazır: "Bu hədis Buxari və Muslim tərəfindən Əbu Musa əl Əşaridən rəvayyət olunmuşdur. Hədis mütəvatirdir və bu Aişə, ibn Məsud, ibn Abbas, ibn Ömər, Abdullah ibn Zəməa, Əbu Səid əl Xudri, Əli, Həfsə və s.səhabələrdən rəvayyət olunmuşdur."[1]

220) Rafizi 92-ci məktubda guya Əzhar şeyxinin onunla razılaşması haqqda nümunələr təqdim edir. Şübhə yoxdur ki,91-ci məktub digər məktublar kimi şeyxin adından bu yalançı tərəfindən uydurulmuşdur. Onun Cəvahirinin kitabından, ibn Əbil Hədidin nəql etdiyi hədisə gəlincə, mötəbərliyi bilinməyən bir müəllifin yazdığı kitabdan nəql olunan rəvayyət müsəlmanların əleyhinə dəlil hesab oluna bilməz.

221) Rafizi yazır: *"Usamə bağlanmış bayrağı Burudiyə verərək Mədinəni tərk etdi və Cərafədə düşərgə saldı.Oradan ordu daha irəli getmədi."*[2]

[1] "Nəzmul mutənasira minəl hədisəl mutəvatira" №228

[2] Məktub 90

— Rafizinin bu sözü yalandır. Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəziyyətinin bilinməsini gözləmək istəyi Usamənin istəyi ilə olmuşdur. Mubarəkfuri "Peyğəmbərin həyatı" kitabında yazır:

"Beləcə,Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinəyə geri döndü və 23 il əməyinin nəticəsində insanların dəstə-dəstə İslama girmələri və uğurlu dəvəti üçün Allaha həmd sənalar etdi. Bu müddət ərzində Mədinəni bir neçə qafilələr ziyarət etdi. Usaməyə isə 700 əsgərlə Fələstin ərazisində yerləşən Bəlk və Darum məntəqələrinə yürüş etməyə hazırlıq görməsi tapşırıldı. Hazırlıqlar tamamlandıqdan sonra ordu yola çıxdı və Mədinədən 3 mil məsafədə olan Cuhfə məntəqəsində düşərgə saldı. **Buna səbəb Usamənin Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **şiddətli xəstəliyi baradə xəbərlər alması olmuşdu. Usamə orada dəqiq xəbərlər alana qədər gözlədi.** Lakin, Uca Allah öz elçisini dərgahına apardı. Bu ordu isə Əbu Bəkrin başçılığı altında səfər edən ilk ordu oldu."[1]

222) Rafizi yazır: *Əbu Səid Xidri belə nəql edir: "Əbu Bəkr Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına gələrək dedi: "Ey Allahın Peyğəmbəri! Mən filan yerdən keçirdim ki,çox gözəl üzlü bir kişinin ixlasla namaz qıldığını gördüm. Bu zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona belə buyurdu: "Get, onu öldür!" Əbu Bəkr getdi amma, xeymədə onu o vəziyyətdə görüncə öldürmək fikrindən vaz keçib Peyğəmbərin yanına qayıtdı. Bu dəfə Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ömərə o şəxsi öldürməyi əmr etdi. Ömər də gedib, o kişini Əbu Bəkrin gördüyü kimi gördükdə onu öldürmək istəmədi.Buna görə də Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına qayıdıb dedi ki,mən onu ağlar (Allahdan qorxan) gördüyüm üçün öldürmədim. Bu dəfə Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əliyə buyurdu: "Get,onu öldür." Əli getdi,amma daha o şəxsi həmin yerdə tapmadı. Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına qayıdaraq ərz etdi ki,ey Allahın rəsulu! Onu görmədim. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "O şəxs və onun tərəfdarlarının Quran oxumalarına baxmayaraq, Quran elə dillərinin ucunda dolaşır.Onlar oxun kamandan çıxdığı sürətlə dindən çıxacaq və bir daha qayıtmayacaqlar.Onları öldürün.Çünki,onlar yer üzündə olan ən pis məxluqlardır."*[2]

— Şeyx Şueyb Arnaut deyir: "İsnad zəifdir.Əbu Rubat Şəddad ibn Ömər adlı ravi məchuldur."

[1] "Usamənin ordusu" fəsli

[2] Məktub 94

223) Rafizi yazır: *"Əbu Yəla bu hadisəni "Musnəd"ində Ənəsdən nəql etmişdir: "Peyğəmbər (sallallahu aleyhi və səlləm) zamanında bir şəxs ibadətdə dillər əzbəri olmuşdu.Biz bu mətləbi Peyğəmbərə (sallallahu aleyhi və səlləm) ərz etdikdə həmin adamın adını da ona söylədik. Lakin, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onu tanımadı.Onun xüsusiyyətlərini bir-bir saydıqda yenə də tanımadı. Bu zaman o şəxsin özü gəlib çıxdıqda,Allahın rəsulu (sallallahu aleyhi və səlləm) buyurdu: "Mənə elə bir şəxsdən xəbər verirsiniz ki,şeytanın əlamətləri onun üzündə aşkar görünür.O şəxs yaxınlaşaraq,əshabın yanına yetişdikdə dayanıb salamsız durdu.Peyğəmbər (sallallahu aleyhi və səlləm) üzünü ona tutub dedi: "Səni Allaha and verirəm de görüm, bura yetişdikdə zehnindən bu keçmədimi ki,bu məclisdə səndən yaxşısı yoxdur? "Cavab verdi ki, bəli,elədir!" Daha sonra keçib namaz qılmağa başladı. Bu zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Onu kim öldürə bilər? Əbu Bəkr dedi: "Mən." Ayağa qalxaraq onun yanına getdi. Lakin,onu namaz qılan halda görüb,öz-özünə dedi: "Subhanəllah! Namaz qılan adamı necə öldürə bilərəm?" Buna görə də onu öldürməyib geri qayıtdı. Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrdən –öldürmədinmi?– deyə soruşduqda, belə cavab verdi: "Namaz qıldığına görə onu öldürmədim." Axı siz bizi namaz qılanları öldürməkdən çəkindirmişsiniz. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Kim onu öldürə bilər?" Bu zaman Ömər dedi: "Mən." Amma, onu səcdəyə gedən halda görüb,öz-özünə dedi: "Məndən üstün olan Əbu Bəkr onu öldürmədi,mən necə öldürə bilərəm?" Ona görə də qayıtdı və dedi ki,onu səcdəyə gedən halda görüb Allaha xatir öldürmək istəmədim.Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Daha kim onu öldürə bilər?" Bu vaxt Əli cavab verdi ki,mən. Peyğəmbər (sallallahu aleyhi və səlləm) də buyurdu ki,əgər onu (bir daha) tapa bilsən. Əli gedib, onu nə qədər axtardısa,tapa bilmədi. Qayıtdıqdan sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) soruşdu: "Nə oldu?" Əli cavab verdi ki,o adam oradan getmişdi. Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "Əgər bu şəxs öldürülsəydi, ümmətim arasında (bundan sonra) heç bir ixtilaf düşməzdi."*[1]

— Rəvayyət doğru deyil, əl Heysəmi "Məcməu zəvaid" (№10402)-də yazır: "Əbu Yalə nəql etmişdir, isnadda mətruk ravi olan Musa ibn Ubeydə vardır. "Musnəd"in şərhçisi şeyx Hüseyn Suleym Əsəd də isnadın zəif olmasını qeyd etmişdir. İbn Cəuzi "İləl" (2/813/№1360)-də yazır: "Rəvayyət doğru deyil. Əhməd dedi: "Zənnimə görə Musadan

[1] Məktub 94

nəql etmək caiz deyil.” Yəhya da bu ravinin heçnə olduğunu demişdir. Həmin bu rəvayyət eyni ravidən Dəraqutninin “Sunən”kitabında nəql olunur.Burada isnadda olan Musanın şeyxi Hud ibn Ata adlı ravi də zəifdir.

224) Rafizi yazır: *“O, bu hadisənin sonunda belə yazır: “Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: “O, ümmətim arasında çıxacaq ilk tüğyan edəcək şəxsdir ki, əgər onu öldürsəydiniz, hətta iki nəfər də olsun belə ixtilaf etməyəcəkdi. Bəni-İsrail 72 firqə oldular, bu ümmət isə 73 firqə olacaqdır ki, bir firqədən başqa onların hamısı atəşdədir.”*[1]

— Bu yalançı adəti üzrə rəvayyətin sonunu ixtisar etmiş və mətni təhrif etmişdir. Halbuki, sonda deyilir: “Biz soruşduq: “Ya Rəsulullah! Onlar kimlərdir?” O dedi: “Camaat.” Yəzid Rəqqaşi (ravilərdən biri) dedi: “Mən Ənəsdən soruşdum: “Ey Əbu Həmzə! Bu camaat hardadır?” O dedi: “Əmirlərinin yanında, əmirlərinin yanında.”

Bu hədisi Əbu Yəla “Musnəd” (№4127)-də nəql etmişdir. Şeyx Hüseyn Suleym Əsəd qeyd etdiyi kimi hədisin isnadı zəifdir. Lakin, məsələ bunda deyil. Problem ondadır ki, Əbdulhüseyn kimilər şəriət mətnlərini nəfslərinə görə təhrif edirlər. Bu rəvayyətin digər isnadı “Musnəd” (№3668)-də Ənəsdən nəql olunur. İsnadda Əbu Muaşər – Naci ibn Əbdurrahmən əs Sindi adlı ravi vardır. O, ibn Hacərin “Təqrib” (№7100)-də qeyd etdiyi kimi zəifdir.

225) Rafizi yazır: *“Buna oxşar bir əhvalatı “sunən” müəllifləri Əlidən nəql etmişlər: “Qüreyşlilərdən bir qrup Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına gələrək ərz etdilər ki,ey Muhəmməd! Biz sənin qonşuların və əhdə vəfadarlarınıq. Bizim qullarımızdan bəziləri sənin dininə, elminə və mərifətinə rəğbətləri olmayaraq sənin yanına gəlmişlər. Onlar, yalnız bizim bağlarda və s. işləməkdən boyun qaçıraraq sənə pənah gətirmişlər.Xahiş edirik ki, onları bizə qaytarasan. Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əbu Bəkrə buyurdu: “Nə deyirsən?” Əbu Bəkr cavab verdi ki, onlar düz deyirlər və hər halda sənin qonşularındırlar. Peyğəmbərin (sallallahu aleyhi və səlləm) mübarək üzünün rəngi dəyişdi. Üzünü Ömərə tutub buyurdu: “Sən nə deyirsən?” Ömər də Əbu Bəkrin söylədiklərini təsdiqlədikdə, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) çöhrəsi tutuldu. O,buyurdu: “Allaha and olsun ki, Allah elə bir şəxsi sizinlə (qüreyşlilərlə) döyüşə göndərəcəkdir ki, onun qəlbi imanla doludur.O, din uğrunda sizinlə döyüşəcəkdir.*

[1] Məktub 94

Əbu Bəkr dedi: "Ey Allahın rəsulu! "O şəxs mənəmmi? Buyurdu ki, yox. Ömər soruşdu ki, mənəmmi? Buyurdu: "Yox." O, başmaq yamayan şəxsdir.O zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) öz başmaqlarını yamaq vurmaq üçün Əliyə vermişdi."[1]

— Bu rəvayyət Əhmədin "Musnəd" (№1335), Nəsainin "Xəsais" (№31) və "Sunən əl Kubra" (№8416) kitablarında qısa şəkildə nəql olunur. Hər üç kitabda mətn belədir: əl Əsvad ibn Əmmar – Şərik – Mənsur – Rabiə - Əli.

Şərik ibn Abdullah haqqında öncə bəhs etmişdik. Şeyx Şueyb Arnaut qeyd etdiyi kimi isnad zəifdir."Kənzul Ümməl" (№36402)-da deyildiyi kimi ibn Cərir bu rəvayyəti səhih hesab etmişdir.

226) Rafizi yazır: *"Vacib hökm həmişə əmrin həqiqətində qorunur və əmr olan yerdə vacibatdan başqa bir şey zehnə gəlmir. Beləliklə, əmri müstəhəbə yozmaq səhih deyildir.Peyğəmbərin (sallallahu aleyhi və səlləm) əmri yalnız vacib hökmündədir.*[2]

— Öncə də yuxarıda qeyd edildiyi kimi Əli də bənzər məsələlərdə Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* (Hudeybiyyə və Təbuk hadisələri) asi olmuşdur. Bu iki hadisə elə məsələlərdəndir ki, bunların olmasında şiələrlə bizlər arasında fikir ayrılığı yoxdur. Həmçinin, bu hədisi də əlavə etmək olar. Buxarinin "Səhih" kitabında Əli ibn Əbu Talibdən rəvayyət olunur. "O dedi: "Bir gecə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* mənim və Fatimənin otağının qapısını döydü. "Namaz qılmırsınız?" deyə soruşdu. Mən də dedim: "Ya Peyğəmbər! Canımız Allahın əlindədir. Əgər bizi diriltsə (yəni yuxudan dursaq),namaza qalxarıq." Bunu eşidən Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* mənə bir söz demədən qayıtdı. Sonra eşitdim ki, o "vay-vay" deyərək, əlini dizinə vurur və deyir. "Va kənəl insanu aksara şeyən qadalə." [3]

[1] Məktub 94
[2] Məktub 96
[3] Zubəydi "Muxtəsər Səhih Buxari" № 561,1127

Əgər belə bir hədis Əbu Bəkr və Ömər baradə varid olsaydı,şiələr hay-küy salaraq deyərdilər ki, baxın onlar Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* asi olurlar.

227) 98-ci məktubda rafizi guya Əzhar şeyxinin xahişini nəzər alaraq, səhabələrin Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* qarşı etdikləri asiliklərindən nümunələr gətirir. İlk olaraq, Hudeybiyyə sazişindən bəhs olunur. Yuxarıda qeyd edildiyi kimi bu hadisələrdə, konkret olaraq, saziş bağlanan zaman Əli Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* itaət etməmişdir. əl Mubarəkfuri "Peyğəmbərin həyatı" kitabında yazır: "Qüreyşlilər müsəlmanların beyətini eşitdiyi zaman, qorxuya düşdülər və Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* Suheyl ibn Amrı sülh bağlamaq məqsədi ilə göndərdilər. Suheyl Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə uzun söhbət etdi və bu danışıqların nəticəsində aşağıdakı şərtlər əsasında barışıq müqaviləsi imzalanmağa qərar verildi:

1. Bu il Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Məkkəyə daxil olmadan geri qayıdacaq. Lakin, o gələn il rahat şəkldə Məkkəyə daxil ola biləcək.

2. Tərəflər arasında münaqişə 10 il müddətinə dayandırılır.

3. Hər kəs istəsə,müsəlmanlar vəya Qüreyş ilə saziş bağlaya bilər.

4. Qüreyşdən hər kim öz valisinin icazəsi olmadan müsəlmanların yanına gələrsə,müsəlmanlar onu Qüreyşə geri qaytarmağa borcludurlar. Amma, müsəlmanlardan hər kim Qüreyşin yanına gələrsə,onu geri qaytarmaya bilərlər. Bundan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Əlini çağırdı və ona müqaviləni tərtib edərək, başlanğıca "Rəhman və Rəhim olan Allahın adı ilə" yazmağı buyurdu. Lakin, Suheyl dedi: "Biz Allahı bilirik, Rəhman və Rəhimi tanımırıq.Belə yaz: "Allahın adı ilə". Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* razılaşdı və ona belə yazmağı buyurdu: "Bu şərtlərlə Allahın elçisi Muhəmməd sülh bağlayır." Lakin, Suheyl yenidən etiraz etdi: "Əgər biz sənin həqiqi Allah elçisi olduğuna inansaydıq, Kəbəyə gedən yolunu kəsməzdik və sənlə müharibə etməzdik. Ona görə belə yaz: "Muhəmməd ibn Abdullah." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Həqiqətən siz buna inanmasazda, mən Allahın elçisiyəm!" O, Əliyə öncə yazılanları pozmağı və "Muhəmməd ibn Abdullah"yazmağı buyurdu. Əli bunu pozmağa

razı olmadığı üçün o öz əli ilə yazılanları pozdu. Bundan sonra saziş iki nüsxə şəklində yazıldı və biri müsəlmanlarda,biri isə Qüreyşdə saxlanıldı."

Saziş bağlanmasının əleyhinə olan müsəlmanlar ümrə edirlər.

Müşriklərlə müqavilə bağlandıqdan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* müsəlmanlara dedi: "Qalxın və qurbanlarınızı kəsin!" Lakin, O bunu üç dəfə təkrar etməsinə baxmayaraq heç kəs yerindən qalxmadı. Onda Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Ümm Sələmənin yanına getdi və olanları ona danışdı. O, isə öz növbəsində tövsiyyə etdi ki, Rəsulullah *(sallallahu aleyhi və səlləm)* heç kimə heçnə demədən qurbanlıq dəvəsini və həcc ziyarətində olduğu kimi saçını kəssin. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə də etdi. O, Bədrdə ələ keçirilən Əbu Cəhlin dəvəsini qurbanlıq olaraq kəsdi. Bunu görən müsəlmanlar yerindən qalxdılar və qurbanlıq heyvanlarını kəsməyə və saçlarını qırxmağa başladılar. Onlar bunu o qədər tələsik etməyə başladılar ki, az qala izdiham yaşanacaqdı. Qafilədə hər yeddi nəfərdən birinə bir dəvə düşürdü.

Müsəlmanların bu sazişlə bağlı narazılıqları iki səbəbə görəydi. Birincisi, onlar ümrə etmədən Mədinəyə geri dönməli idilər. İkincisi, bu saziş bərabər hüquqlu deyildi. Çünki, müsəlmanlar onlara pənah gətirən Qüreyşliləri geri qaytarmalı,Məkkəlilər isə onlara pənah gətirəcək olanları geri qaytarmamalı idilər. Amma, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* insanları arxayın edərək dedi ki,onlar mütləq gələn il ümrə edəcəklər. Mədinəyə geri qayıtmaq isə hər iki tərəfin götürdükləri öhdəliklərə görəydi. O,müsəlmanlara izah etdi ki,əgər müsəlmanlardan hər hansı biri müşriklərin yanına gedərsə bu onun Allah tərəfindən rəhmətdən uzaqlaşdırılmasına dəlildir və əgər Qüreyşdən hər hansı biri müsəlmanların yanına gələrsə və onu geri qaytardıqda Allah ona rahatlıq verər və ona çıxış yolu göstərər. Bununla yanaşı Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Həbəşistanda mühacirətdə olan müsəlmanları da nəzərə almışdı.Beləki, bu saziş onları əhatə etmirdi..." [1]

[1] "Peyğəmbərin həyatı", "Sülh sazişi" fəsli

Səhabələrin bu hadisələrdə niyə məhz belə davrandıqlarını izah etməyə ehtiyyac yoxdur.Sadəcə onu qeyd etmək lazımdır ki,bu hadisələrdə səhabələrlə yanaşı Əlinin necə davrandığı haqqda məlumat yoxdur.

Mubarəkfuri yazır: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **Mədinəyə gəldikdə Bədr döyüşündə əsir alınan müşriklərin aqibəti haqqında şura çağırdı. Əbu Bəkr** *(radiyallahu anhu)* **onların əvəzinə fidyə alınmasını, Ömər** ***(radiyallahu anhu)*** **isə onların edam olunması təkliflərini etdilər. Təklifləri dinlədikdən sonra Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **əsirlərin azad olunması müqabilində min dirhəmdən dörd min dirhəmə qədər fidyə alınmasını qəbul etdi. Yazıb-oxumağı bacaranlar isə on nəfəri öyrətdikləri təqdirdə azad olunacaqdılar. Bununla yanaşı elə əsirlər oldu ki, onları Peyğəmbər heç bir əvəz olmadan azad etdi. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **qızı Zeynəb əri Əbu əl Asın azad olunması üçün öncələri Xədicəyə** *(radiyallahu anhu)* **məxsus olan bilərziklər göndərmişdi. Bunu görən Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **hüzünlədi və səhabələrə Əbul Asi fidyəsiz azad etməyi təklif etdi və onlarda bununla razılaşdılar. Bundan sonra Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **onu Zeynəbi azad edəcəyi şərti ilə azad etdi ki, Zeynəb Mədinəyə gəlsin."**[1]

Məhz bu hadisələrdən sonra Ənfal surəsinin ayələri nazil oldu: ***"Peyğəmbərə yer üzündə çoxlu kafir qırmayınca əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axirəti qazanmağınızı istəyir. Allah Qüdrətlidir, Müdrikdir. 68. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı aldığınız fidyə müqabilində sizə böyük bir əzab toxunardı."***

Bu ayələr Ömər ibn Xəttabın ictihadının doğru olduğunu üzə çıxardı. Mən sanki,rafizilərin təəcüblə "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* səhv etdi, Ömər isə haqqlı çıxdı?" dediklərini eşidirəm. Müasir rafizilər nəinki İslamdan hətta, sələflərinin yolundan belə uzaqlaşmışlar.

Şeyx Səduq adı tanınan məşhur şiə alimi ibn Babveyh əl Qümmi "Mən lə yəhduruhul fəqih" (1/360) kitabında yazır: **"Bizim şeyx Muhəmməd ibn əl Həsən ibn Əhməd ibn əl Vəlid dedi: "Qulatın ilk addımı Peyğəmbərin**

[1] "Əsirlərin aqibəti" fəsli

(sallallahu aleyhi və səlləm) **səhvinin olmamasını iddia etmələri olub. Əgər bu baradə olan xəbərlər inkar edilsə onda digər xəbərləri də inkar etmək mümkün olacaq. Bununla da şəriət və din əldən getmiş olacaq."**

Eyni səhifədə Şeyx Səduq yazır: **"və mən Allahın izni ilə onun əcrini qazanmaq niyyəti ilə Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **səhv edə biləcəyini isabt etmək və bunu inkar edənləri rədd etmək üçün bu kitabı yazıram."**

Səduq kitabında (səh 359-da) yazır: **"Qulat və əl mufavida -Allahın onlara lənəti olsun. Peyğəmbərin** ***(sallallahu aleyhi və səlləm)*** **səhv edə biləcəyini inkar edir və deyirlər: "Əgər səhv etmək Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **caizdirsə, onda risaləti çatdırmaqda da səhv etmək caiz olacaqdır."**

Məclisi yazır: **"İmam Rzaya Kufədə olan şiələrin Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **səhv edə biləcəyini inkar etdiklərini çatdırdıqda o dedi: "Onlar yalan dedilər. Allahın onlara lənəti olsun, səhv etməyən yalnız Allahdır, Ondan başqa ilah yoxdur."**[1]

Rafizinin, münafiqlərin arxasında qılınan namaza ehyam vurmasına gəlincə, burada söhbət Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Mədinənin məşhur münafiqi olan Abdullah ibn Ubey ibn Səlulun arxasında qıldığı cənazə namazından gedir. "Səhih" Buxaridə nəql olunur: "İbn Ömərdən rəvayyət olunur ki, Abdullah ibn Ubey öldükdə oğlu Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına gələrək dedi: "Ya Rəsulullah! İzarını mənə ver ki,cənazəni ora büküm. Sonra ona cənazə namazı qıl və Allahdan ona bağışlanma dilə." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* izarını ona verərək dedi: "Cənazə namazı qılmam üçün mənə xəbər edərsən."

Bir müddətdən sonra o Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* xəbər göndərdi. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* namaza başlamaq istəyən zaman Ömər onun paltarından tutaraq dedi: "Məgər Allah sənə münafiqlərin arxasında namaz qılmağı yasaq etməyibmi?" Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* cavabında buyurdu: "Mənim seçim haqqım vardır çünki, Allah buyurub: "Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə

[1] Məclisi, "Biharul Ənvar" c.25,səh 350

bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır.Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz."[1]

Beləcə, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* cənazə namazını qıldı. Bundan sonra ayə nazil oldu: **"Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər."**[2]

Allah Ömərin *(radiyallahu anhu)* haqqlı olduğunu aşkar edən ayələr endirdi. Huneyndə ələ keçirilən qənimətlərin bölünməsi haqqında isə Buxari yazır: "Abdullah ibn Məsud rəvayyət edir: "Hunenydə ələ keçirilən qənimətləri bölüşdürən zaman Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* bəzi insanlara üstünlük verdi. Beləki, o Əkra ibn Xəbisə və Ueyynə ibn Xisnə 100 dəvə və bəzi ərəb zadəganlarına çoxlu bəxşişlər verdi. Bunu görən **bir adam dedi:** "Allaha and olsun ki,bu bölgüdə ədalət yoxdur və bu Allah xətrinə edilməyib." Mən dedim: "Allaha and olsun ki,mən bunu Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* xəbər verəcəm. Bundan sonra mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hüzuruna yollandım və olanları ona danışdım. Məni eşidəndən sonra buyurdu: "Allah və elçisi adil olmayıbda, kim adil ola bilər?! Allah Musaya rəhm etsin. O, bundan da böyük sıxıntılar gördü amma, səbr etdi!" [3]

İbn Hişamın "Tarix"ində bu adamın xəvariclərin sələfi olduğuna dair işarə vardır. O yazır: "Mənə Əbu Ubeydə ibn Muhəmməd ibn Əmmar ibn Yasir, Miqsam Əbul Qasimdən belə nəql etdi: "Mən və Təlid ibn Kilb əl Leysi, Kəbəni təvaf edən Abdullah ibn Amr ibn əl Asın yanına gəldik.Biz ondan soruşduq: "Təmim qəbiləsindən olan adam Huneyndə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə danışarkən, sən ordamı idin?" O, dedi: "Bəli, bəni Təmim qəbiləsindən Zu əl Xuveysira adlı adam gəldi və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* qənimətləri paylayarkən yanında dayandı.Sonra dedi: "Ya Muhəmməd! Mən sənin bu gün nə etdiyini gördüm." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Necə dəyərləndirirsən?" O,dedi: "Mən sənin adil olduğunu görmədim." Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* hirsləndi və

[1] Tövbə 80
[2] Tövbə 84
[3] Zubəydi "Muxtəsər Səhih Buxari" №1274. (3149)

buyurdu: “Vay sənə! Əgər mən adil deyiləmsə, onda kim adil olacaq?” Ömər ibn Xəttab dedi: “Ya Rəsulullah! Bəlkə onu öldürüm?” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buna icazə vermədi və buyurdu: “Xeyr, onu tərk et, onun öz əshabı və firqəsi olacaqdır. Onlar dində o qədər dərinə gedəcəklər ki, dindən oxun kamandan çıxdığı kimi çıxacaqlar.”[1]

Rafizinin digər iradına gəlincə,Allaha şükür olsun ki,burada söhbər münafiqlərdən gedir.

Allah Təala buyurur: “Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.”[2]

Səddi təfsirində yazır: “Münafiqlər çoxlu sədəqə verən müsəlmanları riya və lovğalıqla ittiham edir və sədəqə verməyə imkanı olmayan kasıb müsəlmanları incidirdilər. Onlar müsəlmanlara lağ edir və gülürlər ki, bunun cəzasını mütləq alacaqlar. Allah onları ələ salacaq və cəzalandıracaqdır. Onların sözləri elə ağırdır ki, özündə bir neçə günahı ehtiva edir. Birincisi, onlar möminlərin əməllərini izləyir və onlara tən etmək üçün fürsət axtarırdılar. Halbuki, Allah Təala buyurub: “Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz.”[3]

İkincisi, onlar möminləri iman gətirdikləri üçün pisləyirdilər. Çünki, özləri Allaha iman gətirməyib,onun dininə nifrət edirdilər.

Üçüncüsü, mömini söymək hətta, dünyəvi məsələlərdə olsa belə böyük günahlardandır.Mömini dininə bağlı olduğuna görə söymək və ayıblamaq isə daha böyük günahlardandır.

Dördüncüsü,əgər mömin Allahın əmrini yerinə yetirib, əlavə olaraq saleh əməlləri yerinə yetirirsə, ətrafdakı insanlar ona bu işdə yardım etməli və onu həvəsləndirməlidirlər. Amma, münafiqlər isə öz pis sözləri və təhqirləri ilə möminləri bu işlərdən çəkindirmək istəyirdilər.

---

[1] “Xəvazinilərin qənimətləri” fəsli

[2] Tövbə 79

[3] Nur 19

Beşincisi, möminlərin verdiyi sədəqələrin guya şöhrət və riya məqsədi ilə verilməsi haqqında münafiqlərin dediyi sözlər yalan və böhtan idi.Onlar qəlblərdə olanları zənnlərinə görə mühakimə edirdilər, bu isə sui-zənndir.

Altıncısı, Allahın kiçik sədəqələrə ehtiyyacının olmamasını demək yanlışdır. Şübhəsiz, Uca Allah sədəqənin böyük və kiçikliyindən asılı olmayaraq,onlara ehtiyyac duymur. Allah Təala heç bir məxluqatına möhtac deyil. Lakin, Uca Allah qullarına bəzi öhdəliklər buyurmuşdur ki, bunların icrası onların özlərinə lazımdır. Allah qullarına deyil, qullar Allaha möhtacdırlar.Uca Allah buyurur: "Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır." [1]

Bəllidir ki, münafiqlər öz sözləri ilə möminləri saleh əməllər etməkdən çəkindirmək istəyirdilər. Ona görə də Allah onlara Qiyamətdə şiddətli cəza verəcəkdir." [2]

Allah Təala Tövbə surəsi 58-ci ayədə buyurur: ***"Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər."***

Yəni, ey Muhəmməd! Münafiqlər arasında sədəqələri paylamağına görə səni qınayanlar vardır.Fəqət,onlar səni saf niyyətlə və məntiqi izahla tənqid etmirlər.Onlar sadəcə özlərinə çoxlu dünya malının verilməsini istəyirlər. Əgər sən onlara səxavət göstərsən, səndən razı qalar,az mal versən, səndən narazı qalarlar. Axı Allahın qullarına dünya mənfəətlərinə və tamahlarına görə sevinib,kədərlənmək yaraşmaz.Əksinə,insan hər zaman Allahın razılığını qazanmağa çalışmalıdır. Məhz ona görə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurur: "Sizlərdən hər kimin arzusu mənim gətirdiyimlə üst-üstə düşmədikcə iman gətirmiş olmaz."[3]

Rafizi Təbuk səfəri zamanı bir neçə dəvələrin kəsilməsi haqqında Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* göstərişinə ehyam vurur. O, burada Ömər ibn Xəttabın istəyini nəzərdə tutur. İmam Muslim "Səhih" (№27 (45)-də Əbu Hureyradan rəvayyət edir: "Təbuk səfəri zamanı aclıqdan əziyyət çəkən insanlar Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)*

[1] Zəlzələ 7
[2] "Saadi" sitatın sonu
[3] Təfsir əs Saadi

belə müraciət etdilər: “Ya Rəsulullah! Əgər sən dəvələrimizi kəsməyi icazə versəydin biz onların ətlərindən və piylərindən faydalana bilərdik.” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: “Belə də edin” Bu zaman Ömər ibn Xəttab yaxınlaşaraq, dedi: “Ya Rəsulullah! Əgər sən buna razı olsan,bizim az sayda miniklərimiz qalmış olacaq! Onlara hələ ehtiyyat ərzaqlarından istifadə etməyi tapşır. Sonra dua et ki,Allah bu qidalarına bərəkət versin.” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: “Yaxşı” sonra dəridən olan ədyalı gətirməyi və onu sərməyi buyurdu. Daha sonra o bura yerdə qalan qida,xurma,çörək və s. ərzaqların toplanmasını əmr etdi. Nəhayət yerdə bir qədər ərzaq toplandı. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* bu qidalara bərəkət duası etdi və buyurdu: “Bunları öz xurcunlarınıza qoyun.” və insanlar bu ərzaqları öz xurcunlarına doldurmağa başladılar. Bu o vaxta qədər davam etdi ki, düşərgədə olan bütün xurcunlar və qablar doldu. Bundan başqa insanlar doyana qədər yedilər və yerdə hələ də ərzaq qalmaqda idi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* isə öz növbəsində buyurdu: “Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və şəhadət edirəm ki, mən onun elçisiyəm. Əgər Allahın qullardan hər hansı biri Rəbbini şəkk etmədən bu kəlmələrlə qarşılarsa,Cənnət onun üçün əlçatmaz olmaz.”

Bu hadisədə rafizi Ömərə tən etmək üçün əsas görür! Allahu Əkbər! Həqiqətən, səhabələrə olan nifrət bu insanların gözlərini və qəlblərini kor etmişdir. Rafizi daha sonra Əbu Hureyra günü haqqında bəhs edir. Söhbət Əbu Hureyranın hədisindən gedir.

O, deyir: “Bir dəfə biz aralarında Əbu Bəkr, Ömərin də olduğu bir neçə adamla Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanında idik. Birdən o qalxdı və harasa getdi. Onun xeyli müddət gəlmədiyini və gecikdiyini gördükdə biz narahat olmağa başladıq. İlk olaraq, mən Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* axtarmağa getdim və Bəni Nəccardan olan bir ənsarının bağının divarlarına gəlib, çatdım. Mən qapını tapmaq məqsədi ilə hasarı gəzməyə başladım, amma onu tapmadım. Lakin, bağın çölündən axan və divarın içərilərinə gedən bir arxa rast gəldim. Onda mən əyilərək, zorla divardan içəri girdim. Bağda Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* gördükdə, o mənə dedi: “Əbu Hureyra?” Dedim: “Bəli, ya Rəsulullah!” Buyurdu: “Nəsə olub?” Dedim: “Sən bizim aramızda idin, sonra getdin və xeyli müddət gəlmədin. Ona görə biz narahat olduq və ilk olaraq, mən səni axtarmağa getdim.” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* başmaqlarını

mənə verərək buyurdu: “Ey Əbu Hureyra! Mənim bu başmaqlarımla get və bu divarın arxasında gördüyün hər kəsi şəhadət kəlməsini qəlbən dediyi təqdirdə Cənnətlə müjdələ.”[1]

Əbu Hureyra davam edir: “Mən getdim və ilk olaraq, Ömərə rast gəldim. O,soruşdu: “Bu nə başmaqlardır?” Dedim: “Bu Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* başmaqlarıdır. O,mənə şəhadət kəlməsini səmimi qəlblə dediyi təqdirdə rast gəldiyim hər kəsi Cənnətlə müjdələməmi tapşırdı.” Bunu eşidən Ömər əli ilə sinəmə vurdu və mən yerə yıxıldım.Sonra o dedi: “Geri qayıt Əbu Hureyra!” Mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına az qala ağlayaraq qayıtdım. Ömər də arxam ilə gəlirdi. Mən olanları Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* danışdım. O, Ömərdən soruşdu: “Səni belə addım atmağa nə vadar etdi?” Ömər dedi: “Atam, anam sənə fəda olsun ya Rəsulullah! Əbu Hureyranı şəhadət kəlməsini səmimi qəlblə dediyi təqdirdə insanları Cənnətlə müjdələmək məqsədi ilə sənmi göndərmisən?” Buyurdu: “Bəli” Ömər dedi: “Xahiş edirəm bunu etmə. Çünki, mən qorxuram ki, insanlar yalnız buna güvənər və əməlləri tərk edərlər.” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: “Qoy davam etsinlər.”[2]

Biz görürük ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Ömərin fikri ilə razılaşır. Səhabə üçün bundan böyük şərəf ola bilər?! Qeyd etmək lazımdır ki, bu məsələdə Ömər Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* qarşısını almamış,ona mane olmamışdır. Biz Ömərin Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* bu tapşırığı verib-vermədiyini soruşduğunu görürük. Burada dəlil və fayda vardır ki, o Əbu Hureyranın Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* doğru başa düşdüyündən əmin olmamışdır. Ona görə onu bu tapşırığı icra etməkdən məsələni aydınlaşdırana qədər çəkindirmişdir.

Buxari və Muslim Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Ömərin fikrinə oxşar sözlərini digər hədisdə nəql edirlər. Muaz ibn Cəbəl rəvayyət edir ki, mən Peyğəmbər ilə birgə *(sallallahu aleyhi və səlləm)* onun uzunqulağının tərkibində olarkən o mənə dedi:

[1] “Riyadus salihin” №710

[2] “Səhih Muslim” № 31 (52)

“Ey Muaz! Bilirsənmi Allahın bəndələr üzərində və bəndələrin də Allah üzərində olan haqqı nədir?” Mən dedim: “Allah və rəsulu daha yaxşı bilir!” O dedi: “Allahın bəndələr üzərində olan haqqı Ona ibadət edib heç bir şeyi Ona şərik qoşmamaları, bəndələrin Allah üzərində olan haqqı isə Ona şərik qoşmayana əzab verməməsidir!” Mən dedim: “Ey Allahın elçisi, insanları bu şad xəbərlə müjdələyimmi?” O dedi: **“Xəbər vermə ki, arxayınlaşmasınlar!”** [1]

Rafizinin Xətibin hadisəsinə ehyam vurmasına gəlincə,Buxari Əli ibn Əbu Talibdən rəvayyət edir: “Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* məni Zubeyr və Miqdadı bir tapşırıqla göndərərək dedi: “Rəvda Hax” məntəqəsinə gedin, orada örtülü bir qadın görəcəksiniz ki,onda məktub vardır. Ondan məktubu alarsız.” Bundan sonra biz sürətlə yola çıxdıq və deyilən yerə gəlib, çatdıq. Həmin yerdə həqiqətən o qadına rast gəldik.Ona dedik: “Məktubu bizə ver.” O,dedi: “Məndə heç bir məktub yoxdur.” Onda biz dedik: “Məktubu ver, əks təqdidə biz səni axtaracağıq.” Qadın məktubu saçlarının arasından çıxartdı və bizə verdi. Biz nəhayət məktubu Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* çatdırdıq. Nəhayət aydın oldu ki, məktubda bunlar yazılmışdı: “Xətib ibn Bəltadan....” məktubda Xətib Məkkəli müşrikləri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* bəzi addımları haqqında məlumatlandırırdı. Məktubu oxuduqdan sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: “Bu nədir ey Xətib?” Xətib dedi: “Məni qınamağa tələsmə ey Allahın elçisi! Mən Qüreyşdən biri olsam da onlara məxsus deyiləm. Sənlə birgə olan mühacirlərin Məkkədə qohumları vardır ki, onlar mühacirlərin ailəsinə və mallarına göz-qulaq olurlar. Qüreyş arasında qohumlarım olmadığına görə mən orada olan yaxınlarımı qorumaq istədim və mən bunu dinimdən döndüyümə görə də etməmişəm.” Bunları dinlədikdən sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurdu: “O, həqiqətən sizə doğrunu söylədi.” Ömər isə dedi: “Ya Rəsulullah! İcazə ver, mən bu adamın boynunu vurum.” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* cavabında dedi: “O, Bədrdə iştirak etmişdir, sən nə bilirsən, bəlkə Allah orada savaşanlara baxıb buyurmuşdur: “Nə istəyirsiz edin, siz artıq bağışlanmısınız?” Hədisin ravisi deyir: “Nazil olan ayədə onun haqqında deyilir: “Ey iman gətirənlər! Mənim və sizin düşmənizi özünüzə dost tutmayın.”[2]

[1] “Səhih Buxari”, 128; “Səhih Muslim”, 30

[2] Zubəydi “Müxtəsər səhih Buxari” №1704. (4890)

Daha sonra rafizi insanları izləmək üçün gecə növbəsindən bəhs edir. Xilafəti dövründə Ömər ibn Xəttab gecə vaxtı şəhərə çıxardı ki, vəziyyətlə tanış olsun. Hətta, bu hadisədə belə azmış rafizi qəbahət görür. Subhənallah! Onun azanda sözlərin dəyişdirilməsi baradə dediklərinə gəlincə şeytanın qulu böhtan atır. Altı məşhur hədis kitabında "Hayyə əla xeyril əməl" ifadəsinin Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zamanında deyilməsini təsdiq edən bir dənə də səhih hədis yoxdur.

228)100-cü məktubda rafizi yazır: *"Səhabələrdən bir çoxunun Əliyə kin bəsləyərək onunla düşmən olmasını yaxşı bilirsiniz.Ondan ayrılmaları, ona əziyyət etmələri, nalayiq söyüşlərlə təhqir etmələri, haqqında zülmləri, onu pisləməyi özlərinə vacib bilmələri, onunla döyüşləri, onun Əhli-beytinin və dostlarının müqabilində qılıncla dayanmaları tarixin acı həqiqətlərindəndir. Tarix dediklərimizə aşkar dəlildir."* [1]

— Şeytanın qulu yalan deyir!Məhz, ona görə də o öz yalan iddiasını təsdiq etmək üçün heç nəyə istinad etməmişdir. Cəməl döyüşünə gətirib, çıxaran səbəbləri araşdırarkən aydın olur ki, səhabələrin Əliyə düşmənçiliyi və nifrəti olmamışdır.

229) Rafizi yazır: *"Hamı bilir ki, imam və dostları beyət zamanı "səqifə"də deyildilər.Onlar "səqifə"dən və oradakılardan ayrı olub, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) vəfatı ilə əlaqədar bir sıra vəzifələrə –qüsl, kəfənləmə, dəfn və s. işlərlə məşğul idilər və ondan başqa bir şey haqqında fikirləşmirdilər. Onlar hələ Peyğəmbəri (sallallahu aleyhi və səlləm) dəfn etməmiş "səqifə"dəkilər artıq işlərini başa çatdırmış,beyəti möhkəmləndirmişdilər.Çox böyük uzaqgörənliklə qərar qoymuşdular ki, kim beyət işinə xələl yetirmək istəsə, onun qarşısını alsınlar."*[2]

— Bu da açıq-aydın yalanlardandır. Səhabələrdən heç biri şurada iştirak etməyi dəfndə iştirak etməyə tərcih etməmişdir.

[1] Məktub 100
[2] Məktub 102

“Mubarəkfuri “Sirə”də yazır: “İkinci gün Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* libasını çıxarmadan ona qüsl verdilər. Abbas, Əli, Abbasın oğulları olan Kuseyy, Fəzl və Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* azadlı kölələri olan Şükran, Usamə ibn Zeyd və Əvs ibn Həvli qüsl verdilər. Abbas və oğlanları cənazəni çevirir, Usamə və Şükran su tökür, Əli yuyur,Aus isə yardım edirdi.”

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* bədəni üç dəfə Qubada yerləşən Sədd ibn Heysəmin quyusundan götürülmüş su ilə yuyuldu. Üç bəyaz paltar kəfən olaraq,seçilmişdi, bütün hazırlıqlardan sonra Əbu Təlha Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfat etdiyi yerdə qəbir qazdı. Daha sonra insanlar 10 nəfərlik qruplar halında Aişənin otağına girərək, imamsız cənazə namazı qılmağa başladılar.İlk öncə qohumlar, mühacirlər, ənsarlar, gənclər, yeniyetmələr və qadınlar sırası ilə namaz qıldılar. Bütün bunlar çərşənbə axşamından, çərşənbənin gecəsinə qədər davam etdi. Gecə yarısında Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* cənazəsini qəbrə endirdilər və torpaqla basdırdılar.”

İbn Hişam “Sirə”də yazır: “Əbu Bəkrə beyət edildikdən sonra insanlar Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* dəfn etməyə hazırlaşdılar. Abdullah ibn Əbu Bəkr, Hüseyn ibn Abdullah və digər yoldaşlarımız mənə nəql etdilər ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* cənazəsini Əli ibn Əbu Talib, Abbas, Fəzl, Kusəm, Usamə ibn Zeyd və Şukran qüsl etdilər. Aus ibn Hauli Əli ibn Əbu Talibə dedi: “Allah xətrinə icazə ver məndə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına gəlim.” Əvs həmin səhabələrdən idi ki, Bədr döyüşündə iştirak etmişdi. Əli dedi: “Gəl” Aus daxil oldu və həmin mərasimdə iştirak etdi. Əli ibn Əbu Talib cənazəni sinəsinə sıxır, Abbas, Fəzl və Kusəm cənazəni çevirir, Usamə ibn Zeyd, Şükran suyu tökür, Əli isə qüsl verirdi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* öz köynəyində idi və Əli onun bədəninə toxunmadan qüsl verirdi.Əli deyirdi: “Ey əzizim! Sən sağlığında olduğu kimi necədə gözəlsən!”

Yəhya ibn Abbad ibn Abdullah ibn Zubeyr atası Abbaddan Aişənin belə dediyini nəql edir: “Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* cənazəsini yumaq ərəfəsində insanlar dedilər: “Biz bilmirik ki,necə edək: “Digər cəsədlərdə olduğu kimi onun paltarını çıxaraqmı,yoxsa onu paltarda yuyaq?” Onlar bu tərəddüdə ikən Allah onları yatızdırdı və aralarında elə biri olmadı ki, çənəsi sinəsinə toxunmasın. Sonra onlara evin kənarında olan tanımadıqları bir adam belə dedi: “Ona paltarda qüsl verin.” Nəhayət onlar cənazəyə yaxınlaşaraq, onu paltarda ikən yuxarıdan su tökərək,

qüsl verməyə başladılar. Qüsl verdikdən sonra cəsədi üç kəfənə bükdülər. Bunu mənə Cəfər ibn Muhəmməd atasından, o da babası Əli ibn Hüseyndən, Zuhri də Əli ibn Hüseyndən nəql etmişdir.

Hüseyn ibn Abdullah İkrimədən, ibn Abbasdan rəvayyət edir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* üçün qəbir qazıldıqda, Məkkəlilərdən bunu Əbu Ubeydə ibn Cərrah – o qəbir daşı hazırlayırdı. Mədinəlilərdən isə Əbu Təlha Zeyd ibn Səhl qəbir qazırdı. Abbas iki nəfər çağırdı, onlardan birinə Əbu Ubeydənin,digərinə isə Əbu Təlhanın yanına gedərək "Ya Rəbb! Peyğəmbərini özünə yaxınlaşdır" yazısını daşa yazmalarını istədi. Dəfn işləri tamamlandıqdan sonra cənazəni otaqda yatağa qoydular. Müsəlmanlar onun dəfni məsələsində fikir ayrılığına düşdülər. Biri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* məsciddə, digəri isə səhabələrin yanında dəfn olunmasını tövsiyyə edirdi. Əbu Bəkr dedi: "Mən Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə dediyini eşitmişəm: "Bütün peyğəmbərlər vəfat etdiyi yerdə dəfn olunublar." O, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ədyalını qaldırdı və o yerdə qəbir qazdılar. Sonra insanlar dəstə-dəstə gəlib, cənazə namazı qılmağa başladılar. Birinci kişilər, sonra isə qadınlar daxil olub, namaz qılırdılar. Qadınlardan sonra uşaqları buraxdılar və namazda heç kəs imamlıq etmədi. Beləliklə, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* çərşənbə günü gecə yarısında dəfn edildi."[1]

230) Rafizi yazır: *"Məgər indiki zamanda bir şəxs asudəliklə hökumət və səltənəti aradan aparmaq üçün qiyam edə bilərmi? Bu yolda açıq-aşkar mübarizəyə qalxa bilərmi? Əgər belə bir iş görərsə, onu başlı-başına,rahat buraxarlarmı? Əsla! Keçmişi indiki zamanla müqayisə et."*[2]

— Bu rafizinin yalan danışmaqla bərabər, tarixdən də qafil olduğunu zənn etmirdim. Məgər Abbasilər Əməviləri devirmədilərmi? Məgər ingilis qiyamçılar vaxtı ilə kralları olan birinci Karlı həbs edib,sonra edam etmədilərmi? Həmçinin, Fransada da 16-cı Lüdoviq edam edilmişdi. Komunistlər də 1917-ci ildə inqilabla hakimiyyətə gəlmişlər. Onlarla belə nümunələr qeyd etmək olar.

[1] ibn Hişamın sitatının sonu

[2] Məktub 102

Daha sonra 104-cü məktubda "Nəhcul Bəlağa" kitabından və Əbu Bəkr əl Cəvahirinin sözlərindən çox saylı sitatlar gətirilir. Yuxarıda dəfələrlə qeyd olunub ki, adı çəkilən kitablar bizim əleyhimizə dəlil hesab oluna bilməz. Çünki, bizə görə onlar mötəbər deyil. Həmçinin, rafizinin "Nəhcul Bəlağa"kitabının Şişqiyyə xütbəsindən sitatlar gətirməsi təəcüblüdür. Bu xütbə Əlinin adından uydurulmuşdur. Hətta, şiə mənbələrində bu xütbənin öz standartlarına görə mötəbər ravi silsiləsi yoxdur. Bütün bunlardan sonra onlar bu xütbəni dəlil hesab edirlər?!

106-cı məktubun əvvəlində rafizi Ömərlə ibn Abbasın söhbətini qeyd edir. Bu yalan rəvayyət haqqında 84-cü məktuba cavab verilərkən, bəhs olunmuşdur. Təbəri bu hekayəni aşağıdakı isnadla nəql edir: İbn Humeyd – Sələmah – Muhəmməd ibn İshaq – bir nəfərdən – İkrimə - İbn Abbas.Bu rəvayyət ibn İshaq və onun məchul şeyxi səbəbiylə olduqca zəifdir.

231) Rafizi yazır: *"Yenə bir gün o ikisinin arasında söhbət düşdükdə Ömər ibn Abbasdan soruşdu: "Əmin oğlu necədir? İbn Abbas deyir ki, elə bildim məqsədi Abdullah Cəfərdir. Dedim ki, o öz yoldaşları ilə gününü keçirdir. Dedi: "Məqsədim o deyil." Məqsədim siz Əhli beytin böyüyüdür." Dedim: "Su quyusu qazır, arx salır və Quran oxumaqla məşğuldur." Dedi: "Əgər soruşacağım şeyi məndən gizlətsən, bütün qurban kəsilmiş dəvələrin qanı sənin boynunda qalsın." De görüm, onun qəlbində yenə də xilafət arzusu vardırmı? Dedim: "Bəli." Dedi: "Yəni, belə güman edir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun xəlifəliyinə aşkar surətdə işarə etmişdir?" İbn Abbas deyir: "Mən atamdan bu barədə soruşarkən, atam belə demişdi: "Əli düz deyir. Yəni, Peyğəmbər (sallallahu aleyhi və səlləm) aşkar surətdə buyurub ki, Əli xəlifədir. Ömər dedi: "Doğrudur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) söhbətlərində onun (Əli) fəzilətini qeyd edirdi. Amma, bu söhbətlər heç bir şeyi sabit etmir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) hərdən istəyirdi ki, ümməti onunla (Əli) və xilafəti ona tapşırmaqla imtahana çəksin.Hətta, xəstələndiyi zaman onun adını aşkar surətdə çəkmək də istəyirdi ki,mən qoymadım."*[1]

— Haşiyədə ibn Əbil Hədidin sitat gətirdiyi Əbulfəzl Əhməd ibn Əbu Tahirə istinad edilir. Bidətçinin məchul mənbədən gətirdiyi sitat dəlil hesab oluna bilməz. Bu rafizinin yenə ibn Əbil Hədiddən nəql etdiyi, Ömərlə ibn Abbasın üçüncü söhbətinə də şamildir. Buxarinin ibn Abbasdan nəql etdiyi bizə kifayətdir. İbn Abbas deyir:

[1] Məktub 106

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* son xəstələyi ərəfəsində səhabələrə xitab edib dedi: "Həqiqətən, mənə ən yaxın yoldaş və mal-dövləti ilə ən çox qayğı göstərən Əbu Bəkrdir. Rəbbimdən qeyrisini sevmiş olsaydım, (ifrata varmaqla) Əbu Bəkri sevərdim. Lakin, o mənim müsəlman qardaşımdır. Elə isə, məscidə açılan Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!"[1]

232) Rafizi yazır: *"Hətta, bir dəfə Həsən ibn Əli Əbu Bəkri Peyğəmbərin (sallallahu aleyhi və səlləm) minbərində otururkən gördükdə, irəli gəlib dedi: "Atamın yerindən qalx, düş aşağı." Ömər də (xəlifə olduğu vaxt) minbərdə olarkən Hüseyn onunla bu cür rəftar etmişdi."*[2]

— Haşiyədə o "Səvaiq əl muhriqa"kitabını qeyd edir. Bu kitabda rəvayyətin isnadı mövcud deyil ki,onu yoxlamaq mümkün olsun. Kitabın müəllifi ibn Hacər əl Heytəmi tələbkar mühəddis deyildi və o kitabını zəif və mötəbər olmayan rəvayyətlərlə doldurmuşdur. Bundan başqa rafizi mətni ixtisar etmişdir. Orada Əbu Bəkr deyir: *"Sən haqqlısan! Bu məclis sənin atanındır və onu dizinə qoyaraq,ağladı."*

Bu rəvayyətdən aydın olur ki, Həsən o zaman uşaq idi və onun məqsədi Əlini deyil, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* minbərini qeyd etmək olmuşdur. Bənzər rəvayyət isnadı ilə birgə ibn əl Ərabininin "Mucəm" kitabında mövcuddur. İsnad belədir: Əhməd ibn Həzm – Cəfər ibn Aun – Usamə ibn Zeyd – Əbdurrahmən əl İsfəhani. Usamə bu ibn Zeyd əl Leysi Əbu Zeyd Mədənidir ki,o zəifdir. Onu Əhməd, Nəsai və Yəhya ibn Səid tənqid etmişlər. Həmçinin, Əbdurrahmənin kim olması da məlum deyil. "Tarix mədinətul dəməşq" kitabında o əl İsfəhani kimi qeyd olunur, amma bu məsələyə aydınlıq gətirmir.

233) Rafizi yazır: *"Səid ibn As Əbu Bəkrin xilafətini qəbul etməyib, ona üç aya kimi beyət etməyən şəxslərdən idi. Bu mətləbi Əhli-sünnənin böyüklərindən bəziləri qeyd etmişlər.Məsələn: İbn Sədd "Təbəqat" kitabının 70-ci səhifəsində olduğu kimi."*[1]

---

[1] "Səhih Buxari", c.7,səh 15, 3654-cü hədis

[2] Məktub 106

— İbn Sədd bu rəvayyəti şeyxi Muhəmməd ibn Ömərdən, o da Cəfər ibn Muhəmməd ibn Xalid ibn Zubeyrdən nəql etmişdir. Muhəmməd ibn Ömər bu Vahididir ki, müsəlmanların imamları onu dəfələrlə yalanda ittiham etmişlər. Buxarinin qeyd etdiyi kimi Cəfər ibn Muhəmməd ibn Xalidin hədislərinə etimad edilməz."əl Yəzdi onun rəvayyətlərinin məqbul olmadığını söyləmişdir." [2]

234) Rafizi yazır: *"Bunlardan əlavə, behişt cavanlarının ağası olan imam Həsən Müctəba Əmirəl-möminininin şəhadətindən sonra özünün çox dəyərli söhbətində bu həqiqətə işarə edərək buyurmuşdur: "Mən Peyğəmbərin övladı olmaqla yanaşı, onun vəsisinin də övladıyam."* (Məktub 108)

— Zəhəbi "Təlxis"də qeyd etdiyi kimi rəvayyət səhih deyil. Hakim "Müstədrək" (№4802)-də bunu şeyxi Həsən ibn Muhəmməd ibn Yəhya Ələvidən nəql etmişdir. "Bu ravi ittiham altındadır."[3]

Həmçinin, isnadda Əli ibn Cəfər vardır ki, onun ravi kimi halı məchuldur. Rafizinin belə rəvayyətləri kitabında qeyd etməsi onların yalançı və məchul ravilərə istinad etmədə həya etməmələrinə dəlildir. Daha sonra o "Nəhcul Bəlağa"dan Cəfər Sadiqin sözlərini sitat gətirir ki, bu dəlil hesab oluna bilməz. Sonra o Salman əl Farsi və Əbu Əyyubun rəvayyətini nəql edir ki,buna 68-ci məktubda cavab verilmişdir.

Daha sonra o bir neçə beytlər yazır ki, orada "Nəhcul bəlağa" və Nəsr ibn Muzahimin kitabına istinad edir. Nəsr ibn Muzahim etimadlı şəxs olmamışdır. Ukeyli onun haqqında demişdir: *"Rəvayyətlərində çoxlu dolaşıq və səhvlər olan şiədir." Əbu Heysəmə onu yalanda ittiham etmişdir. "Əbu Hatim onun mətruk, Dəraqutni isə zəif olduğunu qeyd etmişdir."*[4]

---

[1] Məktub 106
[2] "Mizanul itidal" 1/416/№1529
[3] "Mizanul itidal" 1/521/№1943
[4] "Mizanul itidal" 4/253/№9046

Həmçinin, haşiyədə Əbu Mixnəfə istinad edilir ki, bu məşhur şiə tarixçisi Lut ibn Yəhyadır ki,onun sözləri bizə qarşı dəlil hesab oluna bilməz. Şübhə yoxdur ki, bütün bu beytlər səhabələr adına uydurulmuş sözlərdir.

235) Rafizi yazır: "*Agah olanlar şübhəsiz bilirlər ki, imamiyyə şiəsi həmişə üsuli din və firui-dində Peyğəmbərin (sallallahu aleyhi və səlləm) pak Əhli beytinə tabe olmuş və bir zərrə belə olsun, onlardan ayrılmamışlar. Deməli, şiənin rəyy və nəzəriyyəsi həm üsuli-din, həm firui-din, həm Quran və həm də sünnətdən götürülən digər elmlərdə Əhli beytimamlarının rəyinə əsaslanır. Bu sahələrin heç birində Əhli beyt imamlarından başqasına etimad və müraciət etmirlər.*"[1]

— Bu iddianın yalan olmasında şübhə yoxdur. Şiələr hamıdan daha çox əhli beytin yolundan uzaq düşmüşlər. Biz şiə mənbələrində əhli beyt imamları tərəfindən elə şiələrin özləri haqqında dedikləri sözlərdən bəzilərini burada nəql etmək istərdik.

"Nəhcul Bəlağa"da Əli onlara deyir: **"Ey adamlar, ey cismən bir yerdə olub fikrən bir-birinə zidd olanlar, səsiniz karın qulağını açar, işiniz düşmən sevindirir!** Məclislərdə deyirsiniz ki, belə etmək lazımdır, elə etmək lazımdır, döyüş vaxtı gələndə deyirsiniz: Mənə nə, mənə nə! Kim sizi dəvət etsə, dəvəti cavabsız qalar, sizinlə yoldaşlıq etməli olanın qəlbi rahat olmaz. Ey yalandan özlərini xəstəliyə vuranlar, siz məndən xahiş etdiniz ki, vaxtı uzadım. Borcunuzu verəndə canınız çıxır. Zəlil adam özünə qarşı edilən ədalətsizliyə mane ola bilməz! Haqq yalnız çalışıb-vuruşmaqla əldə edilə bilər. Öz evinizi itirəndən sonra hansı evi qoruyacaqsınız? Məndən sonra hansı sərkərdə ilə birlikdə vuruşacaqsınız? Allaha and olsun ki, sizə aldanan adam kordur. Kim sizin köməyinizlə qələbə çalıb, Allaha and olsun ki, bu qələbə təsadüfən olub. **Sizinlə birgə vuruşmaq küt qılıncla zərbə endirmək kimidir. Allaha and olsun ki, daha mən sizin sözünüzə inanmıram, köməyinizi istəmirəm, düşmənə sizinlə hədə gəlmirəm.** Sizə nə olub? Dərdiniz nədir? Əlacınız nədir? Onlar da sizin kimi adamlardır. Ey boş danışanlar! Düşüncəsiz qafillər! Haqları olmayan şeyi istəyən tamahkarlar!"[2]

[1] Məktub 110

[2] "Nəhcul bəlağə",xütbə 29, səh 72,73

Əli *(radiyallahu anhu)* deyir: **"Allaha and olsun ki, Müaviyə sizi onlarla dinarı dirhəmlə xırdalayan kimi dəyişməyə razı olsaydı, sizin onunuzu verib onlardan birini alardım**. Ey Kufə əhli! mən sizdə bir üç şey görmüşəm, **bir də iki şey: qulaqlarınız var karsınız, diliniz var lalsınız, gözləriniz var korsunuz; üz-üzə gələndə doğru danışmazsınız, dara düşəndə bir-birinizə qardaş köməyi göstərməzsiniz. Sizi görüm başınız batsın! Ey çobanları itmiş dəvə sürüsünə bənzəyənlər! Bir tərəfdən bir yerə toplayanda o biri tərəfdən dağılışırsınız.** Allaha and olsun ki, mən indi sizinlə birlikdəyəm, ancaq təsəvvür edirəm ki, vuruş başlasa, döyüş qızışsa, siz Ibn Əbu Talibdən aralanıb qabaqdan qıçlarını aralamış qadının qıçları kimi hərəniz bir yana gedərsiniz". ("Nəhcul bəlağə",xütbə 97, səh 141,142)

Əli *(radiyallahu anhu)* deyir: **"Ey kişiyə oxşayıb kişi olmayanlar! Uşaq düşüncəli və qadın ağıllılar! Nə yaxşı olardı, mən sizi heç görməyəydim və tanımayaydım. Allaha and olsun ki, peşmançılıqdan, kədərdən yaxa qurtara bilmirəm. Allah sizi öldürsün!** Qəlbimi irinlə doldurmusunuz, köksümü qeyzlə yükləmisiniz. Mənə sinə dolusu töhməti qurtum-qurtum uddurmusunuz. Mənim rəyimə mənə qarşı üsyan etməklə və məni arada qoyub qaçmaqla zay etmisiniz..."[1]

Əli *(radiyallahu anhu)* öz şiələrini və yoldaşlarını qınayır, onları qarğayır. O deyir: "Allaha and olsun ki, mən belə zənn edirəm ki, bu tayfa öz batil işlərində yekdil olduqlarından və sizin öz haqq işinizdə yekdil olmadığınızdan, sizin bu haqq işdə öz imamınıza asi olduğunuzdan, onların öz batillərində öz imamlarına itaət etdiklərindən, onların öz hökmdarına sədaqətli, sizin öz hökmdarınıza xain olduğunuzdan, onların öz diyarlarında yararlı işlər gördüklərindən, sizin öz diyarınızda yaramaz işlər gördüyünüzdən sizə qalib gələcək. Qorxuram ki, sizin birinizə bir çarıq etibar etsəm, bağı ilə birlikdə gedər. (Sizə etibar etmək olmaz: dəvəni palanı ilə birlikdə udarsınız). **Ey Allah, mən onlardan cana doymuşam, onlar məndən; mən onlardan bezmişəm, onlar məndən. Mənə onların əvəzində onlardan yaxşılarını ver, onlara mənim əvəzimdə məndən pisini. Ey Allah, onların qəlblərini duz suda əriyən kimi ərit"**[2]

[1] "Nəhcul bəlağə"xütbə 27, səh.70-71 Beyrut çapı

[2] "Nəhcul bəlağə",xütbə 34

Əli *(radiyallahu anhu)* deyir: "**Mən sizlərdən bezmişəm və narahatam. Sizi danlamaqdan əziyyət çəkirəm.** Əbədi həyatın əvəzinə dünyanın müvəqqəti həyatından şadsınız? İzzət və başıucalığın yerinə rəzalət və alçaqlığa boyun əymisiniz? Sizləri düşmənlə müharibəyə çağıranda gözlərinizi döyürsünüz.Çətinliklə can verirmiş, huşsuzluqdan əziyyət çəkirmiş kimi mənimlə danışmaq üçün diliniz tutulur, qulaqlarınız bağlanır, sözlərimin müqabilində mat-məəttəl qalırsınız, elə bil ağlınızı itirib dəli olmusunuz və başa düşmürsünüz. **Heç vaxt sizlərdən əmin olmadım və sizləri düz əməl sahibləri saymadım. Nə meyl salınası ordu, nə də ehtiyac duyulası güclü dostlarsınız.** Siz, bir tərəfdən yığdıqda, digər tərəfdən dağılan sarvansız dəvələr kimisiniz."[1]

Əli *(radiyallahu anhu)* deyir: **"Elələrinə düçar olmuşam ki, əmr etdikdə boyun əymir, çağırdıqda cavab vermirlər. Ey atasızlar, öz Allahınıza kömək vəyardım üçün nəyi gözləyirsiniz? Sizi bir yerə toplayacaq din, sizi tərpədəcək bir qeyrət yoxdurmu? Sizin aranızda dayanıb fəryad çəkə-çəkə yar və yoldaş istəyirəm. Mənim sözümə qulaq asmır, pis hadisələr aşkar görünənə qədər əmrimə itaət etmirsiniz, sizlərlə intiqam almaq olmaz, sizlərlə məqsədə çatmaq olmaz.** Sizi qardaşınıza kömək etməyə çağırdım göbəyi ağrıyan dəvə kimi nalə çəkdiniz,arxası yaralı xəstə dəvə kimi süstlük etdiniz. Sizlərdən mənə tərəf gələn azsaylı qoşun da narahat və acizdirlər. Sanki ölümə göndərilir və ölümü öz qarşılarında görür."[2]

Əli *(radiyallahu anhu)* deyir: "**Ey ruhları fərqli, qəlbləri dağınıq, ağıllarını itirmiş insanlar, mən sizi (şiələri) haqqa yönəldirəm, siz isə keçi kimi qaçırsınız."**[3]

Həmçinin, deyir: **"Əgər mən düşmənlə qarşılaşanda bu qarşılaşma mənim üçün qara gün olsa belə şəhid olmaq arzusunda olmasaydım, hazırlığımı görüb sizdən uzaqlaşar, sağa-sola baxmadan başımı götürüb gedərdim; siz tənə etməkdən, başqalarına irad tutmaqdan başqa bir şey bilmirsiniz, özünüzü kənara çəkib yalan danışmaq,**

[1] "Nəhcul bəlağə",xütbə 34
[2] "Nəhcul bəlağə",xütbə 39
[3] "Nəhcul bəlağə", səh 138, 131 -ci xütbə. Mubahilə çapı, Bakı 2006

ara vurmaqla məşğulsunuz. Qəlbləriniz bir-birindən o qədər uzaqdır ki, sayınızın çoxluğunun heç bir faydası yoxdur"[1]

O demişdir: **"Sizin nə elə etibarınız var ki, adam sizə etibar etsin, nə də hörmətə layiqsiniz ki, qeyrətiniz çəkilsin. Siz nə yaman ara qızışdıransınız! Aman sizin əlinizdən! Sizə aşkar bir söz deyəndə də, sirr açanda da sizdən əziyyən gördüm. Siz nə adamın səsinə səs verən səmimi dost deyilsiniz, nə də sirr açanda etibarlı qardaş"**[2]

İmam Cəfər Sadiqdən rəvayyət olunur: **"İmam əlini sinəsinə qoyaraq dedi: "Əclaflardan başqa heç kəs bizim köməyimizə gəlmədi."** [3]

Kuleyni "Kafi"də Musa ibn Cəfərdən rəvayyət edir: **"Uca Allahın şiələrə qəzəbi tutdu. Özümü vəya onları fəda etmək üçün sərbəst buraxdı. And olsun Allaha, mən özümü fəda edərək onları qorudum"**[4]

Cəfər Sadiq deyib: **"Əqər insanların hamısı bizim şiələrimiz olsaydı, onların ¾ bizə şübhə ilə yanaşardılar, ¼ isə axmaq olardı"**[5]

İmam Zeynəlabiddindən rəvayyət olunur: **"Bizim şiələrdən bir dəstə bizi o qədər sevəcəklər ki, yəhudilərin Uzeyr haqqında, xristianların da İsa (ə) haqqında dedikləri kimi deyəcəklər. Onlar bizdən deyil,biz də onlardan deyilik."**[6]

---

[1] "Nəhcul bəlağə",xütbə 118, səh 176

[2] "Nəhcul bəlağə"xütbə 125, səh 183

[3] Numan ibn Muhəmməd ət Təmimi "Şərhul əxbər"c.3,səh 8; Əli ət Təbərsi "Mişkətul ənvər" səh 455;Məclisi "Biharul Ənvar"c.13,səh 137;Əyyaşi "Təfsir Əyyaşi" c.2,səh 24;Kəşani "Təfsir Səfi"c.2,səh 225;Huvəyzi "Təfsir nur əs Saqaleyn"c.2,səh 55

[4] c.1, səh 260,Müqayisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 429 səhifəsinə baxın

[5] "Riçal Kəşşi" səh. 179

[6] "Rical Kəşşi"səh 111

Muhəmməd Baqir Məclisi "Məcalis əl-möminin"də qeyd edir ki, imam Musa Kazımın belə dediyi rəvayyət olunmuşdur: **"Abdullah ibn Yəfurdan başqa vəsiyyətimi qəbul edib əmrimə itaət edən bir nəfər görmədim"**[1]

Musa ibn Cəfər öz şiələri barədə demişdir: **"Mən öz şiələrimi başqaları ilə müqayisə edəndə onları ancaq boşboğaz gördüm, onları imtahan etdim, amma mürtəd gördüm."**[2]

Bu azmışlar nədə əhli beyt imamlarına tabe olurlar. Əgər müasir şiələrin halına nəzər yetirsək, görərik ki, onlar nəinki imamlara hətta, qədim məşhur şiə alimlərinə də müxalifət edirlər. Siffin döyüşü ərəfəsində Şamlıları söyən ordusunun əsgərlərinə Əli (*radiyallahu anhu*) deyir: **"Mən sizin söyüşcül adamlar olmağınızdan xoşlanmıram. Lakin,siz onların əməllərini vəsf etsəniz və hallarını zikr etsəniz bu söz cəhətindən daha haqqlı və üzr cəhətindən daha yaxşı olardı. Onları söymək yerinə onlar haqqında belə deyin: "Allahım! Onların da bizim də qanlarımızı qoru. Onlarla bizim aramızı islah et. Onları əyri yoldan döndər və onları hidayətə yönəlt ki, bilməyən haqqı tapsın və düşmənçilik edəndə yolundan dönsün."**[3]

Müasir şiə və rafizilərin əməllərini möminlərin əmiri Əli ibn Əbu Talibin (*radiyallahu anhu*) sözləri ilə müqayisə edin!

236) Əbdulhüseyn yazır: *"Keçmişdəki saleh şiələr bu minvalla ömür sürmüş,Əmirəl-möminin,Həsən, Hüseyn və o biri imamların zamanından indiyə kimi belə olmuşlar. Çoxlu etibarlı (sadiq) və hafiz (Quranı hafizi) şiələr imamların hər birindən öz məzhəblərinin üsul və füruunu öyrənmiş, yadda saxlamışlar. Onlardan çoxları ki, təqva və imanda yüksək dərəcələrə nail olmuş, bu mətləbləri nəql etmiş, onlardan sonra gələn nəsillər də o biri nəslə ötürmüş və bu beləcə indi bizədək dəyişilməmiş şəkildə gəlib çatmışdır."*[4]

[1] Məcalis əl-möminin", Beşinci məclis, səh.144, Tehran çapı
[2] Kuleyni "Kitabur-ravda" səh 107 Hindistan çapı vəya 8/228
[3] Nəhcul Bəlağa 206-cı xütbə (suffuh salih nüsxəsi,Muhəmməd Abduhun nüsxəsində isə 204-cü xütbə)
[4] Məktub 110

— Şiə mənbələrində rafizinin dediklərinə əks olan dəlil vardır. Kuleyni "Kafi" (2/20)-də Əbu Abdullahın belə dediyini nəql edir: **"Şiələr Əbu Cəfərə qədər nə həcc, nə halal-haram qaydalarını bilmirdilər. Əbu Cəfər gəldikdə isə onlara həcc qaydaları və halal-haramları öyrətdi."**

Məclisi "Miratul uqul"da qeyd edir ki,isnad səhihdir. Əbu Cəfər imam Muhəmməd Baqirdir ki,12 imamdan beşincisidir. Şiələrə görə səhih olan bu xəbərə görə ilk imamların zamanında şiələr dinlərindən agah olmamışlar.

237) Dəccal Musəvi yazır: *"Əhli Sünnənin dörd məzhəb imamlarına təqlid edənlərdən bir nəfər də belə tanımırıq ki, imamlarının zamanlarında məzhəbləri haqqında kitab yazmış olsunlar."*[1]

— Nə zamandan bəri azmış cahilin sözü müsəlmanların əleyhinə dəlil hesab olunur?! Görəsən, "Muvatta" kitabının müəllifi imam Malik deyildə, bəs kimdir?! "Musnəd" kitabının müəllifi imam Əhməd deyildə, bəs kimdir?! "əl Umm" kitabıbı imam Şafinin deyildə,bəs kimindir?!

238) Musəvi yazır: *"Yoxsa, elə bu dörd nəfərin özləri də öz müasirlərindən olan fəqihlər, mühəddislər (hədis söyləyənlər) kimi olub, onlardan artıq bir üstünlüyə sahib deyildilər. Elə buna görə də öz əsrlərində onların sözlərini toplamağa əhəmiyyət verən bir adam yox idi."*[2]

— Bilmirsən bu yalan, əsassız iddiaya güləsən, yoxsa ağlayasan? Önümdə Muhəmməd ibn Həsən Şeybaninin nəql etdiyi Əbu Hənifənin kitabı olan "Kitab əl əsər" və imam Malikin "Muvatta" kitabı vardır. Hər iki kitabda bu imamların xeyli sayda fətvaları vardır. Həmçinin, imam Əhmədin oğlu Abdullah ibn Əhməd ibn Hənbəlin qələmə aldığı "Məsail" kitabında sual-cavab şəklində imamın çoxlu sayda fətvaları vardır.

239) Rafizi yazır: *"Amma Əhli Sünnədən olan dörd imamın heç birinin yanında əhli beyt imamlarının şiənin yanında olan məqamı qədər ehtiramı yox idi. Hətta, öləndən sonra onlar üçün seçilən bu məqam heç onların sağlığında belə yox idi."* [3]

[1] Məktub 110
[2] Məktub 110
[3] Məktub 110

— Biz rafizinin bu iddiası ilə razıyıq ki, dörd imamdan heç birini tərəfdarları şiələrin imamlarını ucaltdıqları kimi ucaltmamışlardı. Şiələrin imamlarını hansı dərəcəyə qaldırdıqlarını bilmək üçün onların ən mötəbər kitabı olan "Kafi" əsərinin fəsil başlıqlarına baxmaq kifayətdir.

Fəsil 13. "İmamlar Allahın nurudur."

Fəsil 14. "İmamlar yerin dirəyidir."

Fəsil 29. "Əməllərin Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* və imamlara ərz edilməsi"

Fəsil 44. "İmamların Peyğəmbərin, *(sallallahu aleyhi və səlləm)* bütün əvvəlki peyğəmbərlərin və öncəki vasilərin elminə miras olmaları"

Fəsil 47. "İmamların nə zaman öləcəklərini bilməsi vəyalnız öz istəkləri ilə öləcəyi"

Fəsil 48. "İmamlar keçmişdə olanları və gələcəkdə olacaqları bilir və heç bir şey onlardan gizli qalmaz"

Sonuncu fəsil ona inanan hər kəsi küfrdə ittiham etməyə kifayətdir. Şiələr imamlarını o dərəcəyə qaldırmışlar ki,Muhəmməddən *(sallallahu aleyhi və səlləm)* başqa hər bir peyğəmbərdən onları üstün hesab edirlər. Seyyid Şübbar kitabında yazır: **"Məsum imamlar İslam peyğəmbərindən başqa bütün peyğəmbərlərdən üstündür."**[1]

Həmçinin, yazır: **"İmamlar Allah qatında elə böyük məqama sahibdirlər ki,o məqama İslam Peyğəmbərindən başqa nə bir yaxın mələk,nədə Peyğəmbər çata bilməz."** [2]

Seyyid Əmir Muhəmməd əl Kazimi əl Qəzvini "Şiə fi aqaidihim və ahkamihim" kitabında 73-cü səhifədə yazır: **"Əhli Beytdən olan İmamlar Peyğəmbərlərdən üstündürlər."**

Şiə alimi şeyx Seyyid Nemətullah Cəzairi öz kitabında yazır: "**Bil ki, əshabələrimiz arasında Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **səma xəbərlərini ardıcıl olaraq yerə çatdırmış sair peyğəmbərlərdən daha şərəfli olması**

[1] "Şərhul ziyarətul camiə" səh 39
[2] "Şərhul ziyarətul camiə" səh 88

məsələsində ixtilaflar yoxdur. Onların arasındakı ixtilaf Əmirəlmöminin (Əlinin) və pak imamların öz babalarından başqa bütün peyğəmbərlərdən üstün olub-olmaması məsələsindədir. Onlardan bir dəstə adam bu fikirdədir ki, imamlar ululəzm (böyük peyğəmbərlər: Nuh, Ibrahim, Musa, Isa və Məhəmməd əleyhissəlamlar) peyğəmbərlərdən başqa, qalan peyğəmbərlərdən üstündürlər, bu peyğəmbərlər isə imamlardan üstündürlər. Bəziləri onların bir-birinə bərabər olduğunu deyirlər. Qalan əksəriyyət isə İmamların ululəzm və digər peyğəmbərlərin hamısından üstün olduğu fikrini irəli sürürlər ki, doğrusu da budur"[1]

Muhəmməd Baqir Məclisi "Miratul uqul" əsərində "Elçi,peyğəmbər və mühəddis arasında fərq" fəslində yazır: ***"İmamlar bizim Peyğəmbərdən*** *(sallallahu aleyhi və səlləm)* ***başqa bütün peyğəmbərlərdən üstündürlər."***[2]

Xomeyni "Hukumətul İslamiyyə" adında məşhur kitabında yazır: **"İmam üçün tərifəlayiq elə bir məqam vardır ki,aləmin hökmranlığı,kainatın bütün zərrələri ilə imamların vilayətinə və hökmünə boyun əyir.Məzhəbimizin əqidə əsaslarından biri də budur ki,imamlarımız bir məqama sahibdir ki,o məqama nə yaxınlaşdırılmış mələklər,nə Rəsullar,nə də Peyğəmbərlər sahib olmamışdır. Əlimizdəki rəvayyət və hədislərdən çıxan nəticəyə görə ən böyük Peyğəmbər (sallallahu aleyhi və səlləm) və imamlar bu aləmin yaradılmasından öncə xəlq olunmuş bir nurdular və Allah onları özündən başqa heç kimin bilmədiyi bir məqama ucaltdı.İmamlarımızdan rəvayyət olunur ki, "Bizim Allah ilə aramızda bəzi xüsusi hallarımız vardır.Ona nə yaxınlaşdırılmış mələklər,nə Rəsullar,nə də Peyğəmbərlər sahib olmamışdır.Həmçinin,Fatimə Zəhra da belə bir məqama sahibdir... "**[3]

Xomeyninin sirdaşlarından olan Ayətullah Dəstaqeyb yazır: **"Əli hər şeydir və o bütün dünyanı əhatə edə bilər."**[4]

---

[1] "əl Ənvar ən-Numaniyyə", Seyyid Nemətullah Cəzairi c.1,səh 20-21

[2] Miratul uqul c.2,səh 290

[3] "Hukumətul İslamiyyə" səh 52

[4] "Quranın mənəvi dəyəri" səh 256

Müsəlmana görə isə şübhəsiz ki, Allahın ən sevimli məxluqu Muhəmməddir *(sallallahu aleyhi və səlləm)*

240) Rafizi yazır: *"Mühəqqiqlər şiələrin İslami elmlərin tədvinində (yazılmasında, yaradılmasında) başqalarından irəlidə olduğunu çox gözəl bilirlər. Çünki, birinci əsrdə Əlidən və alim şiələrdən savayı heç kim bu işi öz öhdəsinə götürməmişdir.Bəlkə də bunun səbəbi səhabənin elmlərin yazılıb-yazılmamasınındakı ixtilafları idi."*[1]

— Biz rafizinin bu iddiasını hədis elminin tarixi əsasında nəzərdən keçirəcəyik. İslam alimləri hələ tabeinlərin dövründə müəyyən bir hədisin ravilərini araşdırmağa başlamışdılar. İmam Tirmizi "Sunən" (3/327) kitabında Muhəmməd ibn Sirinin belə dediyini yazır: **"İlk zamanlarda hədisin isnadını soruşmazdılar, fitnə çoxaldıqda isə sünnə ilə gedənləri bidət əhlindən fərqləndirmək üçün isnadı soruşmağa başladılar."**

Yenə eyni yerdə Tirmizi yazır: "Yəhya ibn Səid əl Qəttan nəql edir ki,o Süfyan əs Səvri,Şubə,Malik ibn Ənəs və Süfyan ibn Ueynədən soruşmuşdur: "Əgər mən bir adamın qəbahətini və dində zəifliyini bilsəm, onu insanlara danışım,yoxsa susum?" Onlar dedilər: "Danış."

Əhli Sünnədən ilk olaraq, ravilərin halını dəqiqliklə və diqqətlə təhqiq edən ilk alim Şubə ibn əl Həllac (öl.160) olmuşdur. Abdullah ibn Mubarək (öl.181) deyir: **"Zənnimcə isnad dinin bir hissəsidir. Əgər isnad olmasaydı hər kəs istədiyini danışardı..."**[2]

Hədis elmi baradə yazılan ilk kitablar Ramaxurmuzi (öl.360) və Hakim (öl.405)-in "Mərif ulm əl hədis" əsərləridir. Bu iki alimə qədər hədis elminin müəyyən qaydaları haqqında imam Şafi (öl.204) "Risalə", Muslim (öl.261) "Səhih" və Tirmizi (öl.279) "Sunən" kitablarında yazılar yazmışlar.

Şiələrə gəldikdə isə məşhur alimləri əl Hairiri "Muqtəbəs əl əsər" (c.3,səh 73) əsərində yazır: "Doğruluğunda şübhə olmayan xəbərə görə alimlərimizdən hədis elmi baradə şəhid əs Sanidən öncə kitab yazan olmamışdır."

[1] Məktub 110

[2] Tirmizi "Sunən" №4341

Şəhid əs Sani bu Həsən ibn Zeynəlabiddin əl Cəbi əl Amilidir ki,hicrətin 965-ci ilində ölmüşdür. Şiə alimi Hurr Amili yazır: **"Səhid Sani imamilərdən ilk şəxs olmuşdur ki,hədis elmi haqqında kitab yazmışdır.Lakin,o oğlu və digərlərinin qeyd etdiyi kimi bu qaydaları "əmma"(sünnilər) dan əxz eləmişdi."** [1]

Digər rəyə görə isə hədis elmi baradə kitab yazan ilk şəxs ibn Muttəhar əl Hilli (öl.726) olmuşdur. Dolayısı ilə şiələrin hədis elmi haqqında yazdıqları ilk kitab İslam alimləri tərəfindən yazıldıqdan min.300, bəlkə də 500 il sonra qələmə alınmışdır. Şiələrin ən mötəbər rical kitablarından biri Nəcaşinin əsəridir.Şiə alimi Baqir əl İrəvani "Durus təmhidiyyə fi ulumul ər ricaliyyə" (səh 86)-də yazır: "**Nəcaşinin bu kitabı yazmasına səbəb müxaliflərin bu töhməti idi ki,şiələrin sələfi və kitabları yoxdur."**

241) Rafizi yazır: *"Əsqəlani "Fəthul-Bari" kitabının müqəddiməsində qeyd edir ki, Ömər ibn Xəttab və bir neçə nəfər (sünnə və hədisləri) yazmaq istəsələr də, qorxmuşlar ki,bu Quranla qarışıq düşər."* [2]

— Səhabələrdən əgər kimsə Qurandan başqa bir kitab tərtib olunmasına qarşı olmuşsa,bu Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözləri əsasında olmuşdur.Əbu Səid əl Xudri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə buyurduğunu rəvayyət edir: **"Qurandan başqa məndən heç nə yazmayın. Əgər kimsə mənim öz sözlərimi yazmışsa,onu pozsun..."** [3]

Həmçinin,Yəməndən olan bir nəfərə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* öz sözlərini yazmağa izn vermişdi.[4]

İbn Hacər bu məsələni "Fəth əl bari" (1/277)-də belə izah edir**:**

"Hədis yazmağa qadağa Quranın nüzulu zamanı idi ki, vəhylə digər yazılar arasında qarışıqlıq düşməsindən ehtiyyat edilirdi. Quran ayələri və hədislərin eyni yerlərə yazılmasına yasaq vardı. Ayrı-ayrı yerlərə

[1] "Əmal əl amil" 1/86
[2] Məktub 110
[3] Muslim "Səhih" № 72 - (3004)
[4] "Muxtəsər Səhih Buxari" № 92. (112)

yazılmasına isə icazə verilirdi, yasaq ilk zamanlarda qüvvədə idi. Hədislərin Quranla qarışıq düşməyəcəyi məlum olduqdan (hafizlər çoxaldıqdan) sonra yasaq aradan qalxdı."

Əgər səhabələrdən kimsə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ikinci göstərişi ilə tanış deyildisə, biz onu tənqid edə bilmərik. Onlar birinci göstərişi əsas alırdı. Qeyd etmək lazımdır ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözlərini sağlığında yazan səhabələr vardı. Əbu Hureyra deyir: **"Səhabələrdən Abdullah ibn Amr ibn əl Asdan başqa heç kəs məndən daha çox hədis nəql etməyib.Çünki,o yazır,mən isə yazmırdım."**[1]

242) Əbdulhüseyn yazır: *"Əmirəl-möminin qələmə aldığı ilk kitab Quran olmuşdur."* [2]

— Nəfsinin əsiri və şeytanın qulu yalan danışır. İmam Suyuti "İtqan fi ulumil Quran" (1/138)-da yazır: **"İbn Əbu Davud "Məsahif" də <u>yaxşı isnadla</u> Əbdulxeyrdən Əlinin belə dediyini nəql edir: "Qurana etdiyi xidmətə görə ən üstün mükafat Əbu Bəkrə məxsusdur. Allah Əbu Bəkrdən razı olsun, o i<u>lk olaraq Quranı toplamışdır."</u> Əmirəl-möminin sözləri bizə kifayətdir!"**

Daha sonra Suyuti yazır: **"Əbu Davud Muhəmməd ibn Sirindən Əli ibn Əbu Talibin belə dediyini nəql edir: "Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **vəfat etdikdə mən Quranı toplamayınca, cümə namazından savayı evdən çıxmamağa and içdim. Beləcə mən Quranı topladım."**

İbn Hacər deyir: **"Bu rəvayyət isnadın qopuq olmasına görə zəifdir. Əgər bunu səhih qəbul etsək belə Quran toplamada məqsəd onun əzbər hifz olunmasıdır. Əbdulxeyrdən nəql olunan rəvayyət daha səhihdir."**[3]

Qeyd etmək lazımdır ki, Əhli Sünnə bu məsələdə ayrı seçkiliyə yol vermir. Bizim üçün fərqi yoxdur bu işi Əbu Bəkr,yoxsa Əli vəya digər səhabə ilk olaraq görmüşdür. Onların hər biri bizim üçün sələfdir. Şiə mənbələrinə görə Əli ibn Əbu Talibin Quranı haqqında bəhs edək.

---

[1] Buxari "Səhih" №113

[2] Məktub 110

[3] "İtqan fi ulumil Quran" 1/138

Nemətullah Cəzairi yazır: **“Xəbərlərdə deyilir ki, onlar (yəni imamlar) öz şiələrinə əmr etmişlər ki, mövlamız Sahibəzzaman zühur edənədək bu mövcud olan Quranı namaz qılarkən və başqa hallarda oxusunlar və onun ehkamlarına əməl etsinlər. Bir zaman bu Quran adamların əllərindən çıxıb səmaya qalxacaq və Əmirəlmöminin tərtib etdiyi Quran üzə çıxacaq. Onda onlar onu oxuyar və onun ehkamlarına əməl edərlər"** [1]

Əgər ilk olaraq Quranın Əli (r.a) tərəfindən yazılması şiələrin İslami elmləri ilk olaraq yazmalarına dəlildirsə, onda bizim əlimizdə olan Quran Zeyd ibn Sabit tərəfindən toplanmışdır. Məhz, bu Quran indi müsəlmanların əlindədir. Elə çıxır ki, söhbət iki Qurandan gedir. Biri səhabələrin iştirakı ilə Zeyd ibn Sabit, digəri isə Əli tərəfindən toplanmışdır. Burada “Kafi” kitabından sitat gətirmək yerinə düşərdi.

"Mən imam Əbu Cəfərin belə dediyini eşitmişəm: **"Yalnız yalançı bütün Quranı nazil olduğu kimi topladığını iddia edə bilər.Onu nazil olduğu kimi Əli ibn Əbu Talib və ondan sonrakı İmamlardan başqa heç kəs toplamamış və hifz etməmişdir"** [2]

Bunları Əbdulhüseyn də yazısında 110-cu məktubda təsdiq etmişdir. O,yazır: ***“Əlbəttə,Quranı digər səhabələr də yazmağa təşəbbüs etmişlər.Lakin,onlara nazil olduğu kimi Quranı toplamaq müəyyəsər olmamışdır.”***

Sual yaranır, misal üçün, Abdullah və İbrahimdə şeyx Əbdurraufun kitabı vardır. Abdullahın əlində olan kitabda fəsil və bu fəsildə olan sözlərin hamısı müəllifin istədiyi şəkildə yazılmışdır. İbrahimin əlində olan nüsxədə isə fəsil və fəsildə olan sözlərin ardıcıllığı original nüsxədən fərqlidir. İbrahimin nüsxəsi nə adlanacaq?! Təhrif. Eləcədə Quranla bağlı surələrin nazil olduğu kimi Quranda yerləşdirilmədiyini deməklə şiələr nəyi nəzərdə tuturlar?! Bu tərtib Allahın istədiyi şəkildə olmamışdır?!

Məclisi bu məsələni belə izah edir.O, yazır: **“....Bizə şiələrdən və sünnilərdən varid olan xəbərlərə görə Quranda nöqsan və təhrif olması hədisləri mütəvatirdir.Məntiq bizə deyir ki,əgər Quran Əhli beytdən**

[1] "Ənvar ən Numaniyə’" c.2,səh 306-363

[2] "Kafi” "Kitab əl-hüccə", "İmamlardan başqa heç kəs bütün Quranı toplamamışdır" fəsli, səh 228, 1-ci cild, Tehran çapı

ayrılıb,insanlar arasında yayılıb və adi insanlar onu toplamağa cəhd ediblərsə,onun tam və həqiqətə uyğun şəkildə toplanması ehtimalı azdır. Nə olursa olsun Mehdi gələnə qədər insanlara vacibdir ki,müşhəflərdə olanlarla işləsinlər və onları oxusunlar.Bu məsələ çox saylı xəbərlərlə sabitdir və mütavatirdir və Quranda naqisliyin olmasını təsdiq edir....” [1]

Əbul Həsən əl Amili əl Fəttuni yazır: **“Dediklərimizdən aydın olur ki,Allahın nazil etdiyi Quran o Qurandır ki,onu Əli ibn Əbu Talib toplamışdır. Sonra onu Həsən, sonra isə digər imamlara, nəhayət Qaim Mehdiyə ötürmüşlər. Bu gün Quran onun yanındadır.”**[2]

Şiələr etiqad edirlər ki,əsl Quran Mehdinin yanındadır və o zühur edəndə onu gətirəcəkdir. Təbərsinin bütün şiələrin əsaslandıqları "əl-İhticac" kitabında yazır:

”Əbuzərr rəvayyət edir ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) öləndən sonra Əli Quranı topladı və mühacirlərin və ənsarların yanına gəlib topladığı Quranı, Rəsulullahin (sallallahu aleyhi və səlləm) vəsiyyət etdiyi kimi, onlara göstərdi. Əbu Bəkr onu açanda birinci səhifədə özlərinin biabırçılıqlarının yazıldığını gördü. Ömər sıçrayıb ayağa qalxdı və dedi: ”Əli, onu buradan rədd elə, bizim ona ehtiyacımız yoxdur”. Əli ibn Əbu Talib onu götürüb getdi, sonra Zeyd ibn Sabiti çağırıb gətirdilər. O, Quran oxuyan bir şəxs idi. Ömər ona dedi: ”Əli bir Quran gətirmişdi, orada mühacirlərin və ənsarların pis əməlləri yazılmışdı. Biz belə qərara gəldik ki, özümüz Quran yazıb ondan mühacir-ləri və ənsarları biabır edib hörmətdən salan yerləri çıxaraq. Zeyd yazdığı Quranı onun yanına gətirdi və dedi: ”Mən sizin dediklərinizi Qurandan çıxarandan sonra o öz yazdığı Quranı mənə göstərsə, sizin bütün etdikləriniz batil olmazmı?”. Ömər dedi: ”Onda nə edək?”. Zeyd dedi: ”Tədbir işlətməkdə siz məndən yaxşısınız”. Ömər dedi: ”Onu öldürüb canımızı qurtarmaqdan başqa çarəmiz qalmır”. O, Əlini Xalid ibn Vəlidin əli ilə öldürmək tədbirini tökdü. Xalid isə bunu bacarmadı. Elə ki Ömər xəlifə oldu, onlar Əlidan xahiş etdilər ki, o Quranı gətirsin. Məqsədləri də o idi ki, onu öz aralarında təhrif etsinlər. Ömər dedi: ”Ya Əbülhəsən! (Imam Əli nəzərdə tutulur) Gəlsənə Əbu Bəkrə göstərdiyin Quranı gətirəsən, onun hökmləri əsasında birləşək”. Əli dedi: ”Artıq buna ehtiyyac yoxdur, mən onu Əbu Bəkrə gətirmişdim ki, sizin

[1] “Miratul uqul” kitabında c.3,səh 31

[2] "Təfsiru mirətul-ənvər və mişkətul-əsrar" “Mətbəatul əftab”nəş.Tehran,səh 36

əleyhinizə sübut olsun və Qiyamət günü deməyəsiniz ki, bizim bundan xəbərimiz olmayıb, yaxud deməyəsiniz ki, onu bizə göstərməmisən. Məndəki Quran elə bir Qurandır ki, ona mənim övladımdan olan pak adamlardan və vəliəhdlərdən başqa heç kəs toxunmamalıdır". Ömər dedi: "Onun zühuru vaxtı məlumdurmu?". Əleyhissəlam dedi: "Bəli, o vaxt ki mənim övladlarımdan bir nəfər müdafiəçi ayağa qalxacaq və onu üzə çıxarıb adamları onunla ayağa qaldıracaq"[1]

Daha sonra rafizi ibn Sirinin belə dediyini nəql edir: *"Əgər əlimizdə bu Quran olsaydı biz əsl biliklərə yiyələnərdik."*

Haşiyədə "Səvaiq" kitabına istinad edilir. Lakin, isnadın olmaması bunu yoxlamağı mümkünsüz edir.

243) Rafizi yazır: *"Quranı cəm etdikdən sonra Fatimeyi-Zəhra üçün kitab təlif etməyə başladı ki, bu əzəmətli xanımın pak övladlarının yanında "Fatimə müshəfi" adı ilə məşhurdur. Hikmətli sözlər, zərbi-məsəllər, moizələr, ibrətamiz nəsihətlər və bəzi xəbərlərlə zəngin olan bu kitab atasının vəfatından sonra o xanıma yeganə təsəlli verən mənbə idi."*[2]

— Güman etmirəm ki, bu rafizi öz mənbələrindən o qədər qafil ola bilər ki, Fatimə müshəfinin nə olduğunu bilməsin. Adətinə görə o yenə yalan danışır. Çünki, şiə mənbələrinə görə Fatimə müshəfi Qurandan sonra nazil olan vəhylərdir.

Fatimə müshəfi nədir?

Kuleyni imam Cəfərdən rəvayyət edir ki, Əbu Bəsir ondan soruşmuşdur: "...Yaxşı, Fatimə Müshəfi nə olan şeydir? O dedi: Bu elə bir müshəfdir ki, sizin bu Quranınızın üç mislinə bərabədir, Allaha and olsun ki, onda Qurandan bir hərf də yoxdur"[3]

[1] Təbərsi "əl Ihticac" səh.76, 77, Iran çapı, 1302 h

[2] Məktub 110

[3] "Kafi"c.1, səh.239

Bu kitab nə zaman yazılıb?

Kuleyni yazır: ”Həmmad ibn Osman dedi ki, Əbu Abdullah buyurdu: ”Şübhəsiz ki, mən Fatimənin Quranına baxtım və gördüm ki, yüz iyirmi səkkiz illərində zındıqlar peyda olacaqlar. Mən soruşdum: ”Fatimənin Quranı nə olan kitabdır?”O,dedi: ”Şübhəsiz Allah Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ruhunu aldıqdan sonra Fatiməni Allahdan başqasının bilmədiyi bir hüzn bürüdü. Allah Fatiməni təsəlli etmək və onunla danışması üçün bir mələk göndərdi. Sonra Fatimə bu hadisəni Möminlərin əmiri Əliyə danışdı. Əli dedi: ”Əgər bunu hiss etsən və bir şeylər eşitsən bunu mənə xəbər et.” Sonra Fatimə bunu Əliyə xəbər verdi və bütün eşitdiklərini Əliyə çatdırdı. Bu qayda ilə bir Quran əmələ gəldi. O Quranda halallardan və haramlardan bir şeylər yoxdur.Lakin,içərisində gələcəkdə olacaq hadisələrdən bəhs olunan bir elm vardır. ”[1]

əl Kafidə yazılan başqa bir hədisdə Əbu Ubeydədən rəvayyət olunur: ”Bəzi dostlarımız Əbu Abdullaha Fatimə Quranı haqqında sual etdilər.O,uzun bir müddət susdu,sonra dedi: ”Sizlər istədiklərinizi və istəmədiklərinizi axtarırsınız. Fatimə Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra yetmiş beş gün yaşadı. Atasının vəfatı ilə əlaqədar olaraq o çox hüznlü idi. O, vaxtlar Cəbrayıl ona gəlirdi və kədərini azaldırdı, ona təskinlik verirdi. Ona atasından və onun məkanından xəbər verirdi.Özündən sonra zürriyyətinə nələr olacağını xəbər verirdi. Bütün bunları da Əli bir yerə yazırdı. Fatimənin Quranı məhz budur.”[2]

Məclisi bu hədisi səhih hesab etmişdir. Digər rəvayyətdə isə imam demişdir: “Bu dünyada hökm sürəcək elə bir hakim yoxdur ki,onun və atalarının adı bu müshəfdə yazılmasın.”[3]

İndi isə şiə imamının sözlərini yalançı Musəvinin sözləri ilə müqayisə edin! Şiə rəvayyətlərində görüldüyü kimi Fatimə müshəfi Quran kimi mələk tərəfindən gətirilmiş xəbərlər əsasında yazılmışdır.

[1] “Kafi” c.1 səh 240
[2] “Kafi” c.1,səh 241
[3] “Kafi” c.1,səh 242

244) Rafizi yazır: *"Sonra isə o həzrət "diyələr" (cəza və qanbahası hökmləri) barəsində kitab yazaraq, onu da "Səhifə" adlandırdı."*[1]

— Səhih Buxaridən olan hədis bizə kifayətdir ki, söhbətin nədən getdiyini anlayaq.

"Bizim yanımızda Allahın kitabından və Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* miras qalmış bu vərəqdən başqa heç nə yoxdur. Orada bunlar yazılıb: "Mədinə Ahir dağından filan yerə qədər haram bölgədir.Kim burada günah etsə vəya fasiqə himayədarlıq etsə Allah,mələklər və bütün insanlar tərəfindən lənətə düçar olacaqdır və onlardan nə vacib,nədə müstəhəb əməllər qəbul olunmayacaqdır. Müsəlmanların himayəsi vahiddir və hər kim onlara bu işdə zərər vurarsa, Allah,mələklər və bütün insanlar tərəfindən lənətə düçar olacaqdır və onlardan nə vacib,nədə müstəhəb əməllər qəbul olunmayacaqdır."[2]

245) Rafizi yazır: *"Əsbəğ ibn Nubatədən də söhbət açmaq yerinə düşərdi. Bu həmin şəxsdir ki, Malik Əştər və Əlinin oğlu Muhəmmədə etdiyi vəsiyyəti nəql etmişdir.Bizim alimlər bunu ona mötəbər isnadlarla şamil edirlər."*[3]

— Əbu Bəkr ibn Əyaş qeyd etdiyi kimi Əsbəğ yalançı olmuşdur. İbn Məin deyir: "dürüst deyil." Nəsai və ibn Hibban onu mətruk adlandırmışlar." [4]

246) Rafizi yazır: *"O adamlardan biri də Əmirəl mömininin dostu Səlim ibn Qeys Hilalidir.Səlim, İmamdan və Salman Farsidən hədis nəql etmişdir.Onun "imamət" barəsində bir kitabı da var ki,Muhəmməd ibn İbrahim Numani "Qeybət" kitabında onun adını çəkmiş və demişdir: "Bütün şiə alimləri və hədis söyləyənlər arasında şəkk-şübhə yoxdur ki,Səlim ibn Qeysin kitabı o*

[1] Məktub 110
[2] "Müxtəsər səhih Buxari" № 856. (1870)
[3] Məktub 110
[4] "Mizanul itidal" 1/271/№1014

kitablardandır ki, Əhli beytin hədislərini nəql edənlər qədimdən bəri ona istinad edərək, hədis nəql etmişlər." Bu kitab şiənin mötəbər sandığı "əsl" (birinci dərəcəli) kitablardan biridir." [1]

— Allaha həmd olsun ki, bidətçilərin zəlalətlərini öz dilləri ilə açığa çıxarır! Şiə mənbələrinin bu mötəbər mənbə haqqında dediklərinə nəzər salaq.

1) İbn Davud əl Hilli "Rical" (səh 106, №732) kitabında yazır: "Bu kitab uydurmadır və orada yazılıb ki,imamlar 13 nəfər olacaqdır və bu kitabın isnadları fərqli və dolaşıqdır."

2) İbn Qədiri deyir: "Bizim əshabımız deyir ki,Suleym məchuldur və onu heç bir rəvayyətdə zikr etmirlər."[2]

3) İbn Uqdə dedi: "Şübhə yoxdur ki,bu kitab uydurmadır." (həm.yer)

4) Əllamə Hilli həmçinin yazır: "Bu kitabın ravi silsilələri sökülmüş haldadır.Yəni,bəzən Ömər ibn Uzeynə - İbrahim ibn Ömər əs Sənani – Əbban ibn Əbu Əyaş – Suleymdən.Bəzən də Ömər – Əbban və isnadsız sənədlə qeyd olunur."[3]

Əbban ibn Əbu Əyaşın təsvirində Hilli yazır: "Bizim yoldaşlarımız hesab edirdilər ki, o Suleym ibn Qeysin kitabını uydurmuşdur."[4]

İndi bizə aydın oldu ki, "ən mötəbər kitablardan biri" olan bu kitab şiə alimlərinə görə uydurulmuşdur. Əbdulhüseyn nəinki bizim kitablardan, hətta şiə mənbələri haqqında da cahil olmuşdur.

247) Rafizi yazır: *"İndi isə bizim ikinci dövr qədim alimlərimizə (tabein) baxaq....Müsəlmanlar İmam Əli ibn Hüseyn Zeynəlabidinin rəhbərliyini qəbul edərək dinin üsul və firuundan xəbərdar olmaq üçün o həzrətə qoşuldular.Quran və sünnə məsələlərində, bütün islami və qeyri-islami elmlərdə o həzrətə müraciət etdilər. Ondan sonra isə oğlu İmam Baqirə üz tutdular."*[1]

---

[1] Məktub 110
[2] ibn Muttəhar əl Hilli "Xulasət" səh 162
[3] "Xulasət" səh 162
[4] "Xulasət" səh 325

— Əli ibn Hüseyn Zeynəlabiddin müsəlmanların imamlarından idi. O, təqvası və zahidliyi ilə seçilirdi. Fəqət, şübhəsiz ki, o tebeinlərdən yeganə şəxs deyildi ki, dini məsələlərdə ona müraciət edirdilər. Tabeinlər arasında Mücahid, Ata, Muhəmməd ibn Sirin, Urvə ibn Zubeyr və s. böyük alimlər vardı.

248) Rafizi yazır: *Əgər Buxari Əbbandan bir şey nəql etməyibsə bunun heç bir zərəri yoxdur.Çünki o (Əban), Əhli beyt imamlarına yəni, imam Sadiq,imam Kazım,imam Rza,imam Cavad,imam Həsən Əskəriyə təqlid etmişdir.Buxari isə bu böyük şəxsiyyətlərdən rəvayyət etməmiş,əksinə Mərvan ibn Həkəm,İmran ibn Hətan, Əkrəmə Bərbəri və s. kimilərə etimad etmişdir."*[2]

— Bu əsassız və səfeh irada cavab belədir.

1) İmam Buxarinin əhli beyt imamlarından rəvayyət etməməsi, onun onlara etimad etməyib, onlara düşmən olması mənasına gəlməz. Buxari hic.194-cu ildə anadan olmuş,254-cü ildə vəfat etmişdir. Əli ibn Musa ər Rza vəfat edəndə onun 7 yaşı vardı. İmam Sadiq, Kazım, Rzadan rəvayyət edən ravilərin əksəriyyəti şiələr idi. Buxarinin onlardan nəql etməməsinin səbəbini bu imamlara etimad etməmədə deyil,ravilərə etimad etməməsində axtarmaq lazımdır. Onun müasiri olduğu imamlara gəlincə, qeyd etmək lazımdır ki, Buxari Əbu Hənifədən də rəvayyət etməmişdir. Halbuki, bu ona etimad etməmək mənasına gəlmir.

Buxari yazır: *"Mən "Cami" kitabına yalnız səhih hədisləri yazmışam. Lakin, kitabın çox böyük həcmdə olmaması üçün bir hissəsini bura daxul etməmişəm."* Yəni, digər hədislər vəya digər ravilərin nəql etdiyi hədisləri onun səhih hesab etməməsindən söhbət belə getmir. Onun Həsən ibn Əlidən heç nə nəql etməməsi də belədir."Səhih" də Həsənin fəziləti baradə olan hədis ona bu məsələ irad tutana yetərli cavabdır.

2) Buxarinin İkrimədən nəql etdiyinə gəlincə ibn Hacər "Təqrib"də onun haqqında demişdir: "Dürüst,mətin və təfsiri biləndir.İbn Ömərin onu yalanda ittiham etməsinə və onun bidətə yol verməsinə dair dəlil yoxdur."

---

[1] Məktub 110

[2] Məktub 110

Həmçinin, qeyd etmək lazımdır ki, şiə müəllifləri də İkrimədən nəqllər etmişlər. Misal üçün məşhur "Şişqiyyə" xütbəsi onun nəqli ilə varid olmuşdur. Buna baxmayaraq, şiələr bu xütbəni bütün dövrlərdə mötəbər qəbul etmişlər.Şiə hədis kitabları vaqifi şiələrdən olan ravilərlə doludur. Onlar imam Rzanın imamətini qəbul etmir, imam Musa Kazımın ölməyib,onun Mehdi olduğunu iddia edirdilər.

Belə ravilərdən İshaq ibn Cəriri nümunə çəkmək olar.Əllamə Hilli "Xulasət" (səh 318)-də bu ravinin doğru danışan vaqifi olduğunu bildirmişdir.İbrahim ibn Əbu Bəkr. Bu ravini də Nəcaşi "Rical" (səh 21)-də dürüst vaqifi adlandırmışdır. Əbu Abdullah Hüseyn ibn Əbu Səid, Əbu Muhəmməd Həsən ibn Muhəmməd ibn Səmah,İdris ibn Fəzl ibn Süleyman,Cəfər ibn Muhəmməd ibn Səmah ibn Musa,Əbul Qasim Humeyd ibn Ziyad ibn Həmmad,Abdullah ibn Cəbəl ibn Həyyan əl Kinani,Əbu Abdullah Muhəmməd ibn Abdullah ibn Qalib əl Ənsari və s. Şiə alimləri heç bir problemsiz onların rəvayyətlərini nəql etmiş və onları dürüst ravi hesab etmişlər. İndi isə şiə alimlərinin bu firqə haqqında nə dediklərinə baxaq.

Hurr Amili "Vəsailuş şia" (28/351-352/№34943)-da,Məclisi isə "Bihar" (50/274-275)-da belə nəql edirlər:

"....Əhməd ibn Muhəmməd ibn Muttəhardan rəvayyət olunur ki,o demişdir: "Bizim əshabımızdan biri imam Əbu Muhəmməd (ə)-ə imamətin Əbul Həsən Musa (ə)-da dayandığı haqqında sual yazdı.Cavabında imam yazdı: "Öz əmin üçün bağışlanma diləmə və ondan uzaq ol.Mən ondan Allaha sığınıram. Onlara (Vaqifilərə) dost olma, onların xəstələrini ziyarət etmə,onların cənazə hazırlıqlarında iştirak etmə və onlardan heç kimin, heç zaman cənazə namazını qılma. Hər kəs Allahdan olan imamı inkar etsə vəya Allahdan olmayan imamı qəbul etsə,o "Allah üçüncüdən üçüncüsüdür" deyənlər kimidir. Həqiqətən,bizlərdən sonuncunu inkar edən,birincimizi inkar etmiş kimidir."

Şiə alimi Muhəmməd Həsən Cəvahiri "Cəvahirul kəlam" (6/67)-da belə nəql edir: **"Zeydilər,vaqifilər və nasibilər eyni səviyyədədirlər."**

Əbu Cəfər ət Tusi "İxtiyar mərifətul rical" (2/756) və Hurr Amili "Vəsailuş şia" (9/229)-da belə nəql edirlər: **"....Yunis ibn Yəqubdan: "Mən Əbul Həsən ər Rza (ə)-a dedim: "Mən sizin atanızın guya sağ olduğunu iddia edənlərə zəkatdan bir pay verməliyəmmi?" O, buyurdu: "Onlara heçnə vermə.Həqiqətən onlar kafir,müşrik və bidətçilərdir."**

Yəni, əhli beyt imamlarına görə vaqifilər – müşrik, bidətçi, kafir və nasibidirlər. Lakin, bu şiə alimlərinə onlardan rəvayyət etməyə və onların nəqllərini səhih hesab etməyə mane olmamışdır.

3) Bilindiyi kimi Buxari Əli və Hüseyndən hədislər nəql etmişdir. Əhli Sünnə kitablarında Əlidən nəql olunan hədislərin sayı Əbu Bəkr və Osmanın bir yerdə nəql etdiyi hədislərdən çoxdur, Əlidən 536, Osmandan 146, Əbu Bəkrdən isə 142 hədis nəql olunmuşdur.

249) Rafizi yazır: *"Bəziləri imam Səccadın hüzuruna nail olmasalar da, imam Baqir (ə) və imam Sadiqin (ə) dövrünü yaşamışlar.Bunlardan Əbul-Qasim (Bureyd ibn Müaviyə Bəcəli), Əbu Bəsir (oğul – yəni, Leys ibn Murad Bəxtəri Muradi) Əbul Həsən Zürarə ibn Əyun, Əbu Cəfər Muhəmməd (Muslim ibn Ribah Kufi) və bir çox başqalarının adını çəkmək olar. Bu dörd nəfər elə yüksək məqama nail olmuşlar ki, bunu təsvir etmək çətindir."*[1]

— İndi gəlin şiə kitablarından imamlarının bu şəxslər haqında nə dediyinə baxaq: Tusi "İxtiyar mərifətul rical" (səh 364/№237)-də Əbu Abdullahın belə dediyini nəql edir: **"Allah Bureydəyə və Zürarəyə lənət etsin."**

Əbu Bəsir haqqında isə bunlar nəql olunur: **"İmam Musa Kazımdan bir qadınınla onun əri olduğunu bimədiyi halda evlənən kişi haqqında soruşdular.İmam dedi: "Qadını rəcm etmək lazımdır. Kişini isə bilməyibsə**

[1] Məktub 110

cəzalandırmaq lazım deyil.” Əbu Bəsir öz sinəsinə əl gəzdirib,qaşıyaraq dedi: “Mən elə görürəm ki,bizim dostumuzun elmi kamil deyil.”[1]

Bir dəfə ibn Əbul Yəfur Əbu Bəsirlə bu dünya haqqında danışırdılar və Əbu Bəsir dedi: **“Sizin dostunuz əgər ona bu dünya çatsaydı onu mənimsəyərdi.” Bir müddətdən sonra Əbu Bəsir samanlıqda yatdı. Bir it ona yaxınlaşıb,üzərini bulaqmaq istədikdə Həmmad ibn Osman onu qovmaq istədi.Lakin,Əbu Yəfur ona dedi: “İtə mane olma.”**[2]

Həmmad ən Nab nəql edir ki, Əbu Bəsir imam Əbu Abdullahın evinin qabağında içəriyə girmək məqsədi ilə oturmuşdu. İmam ona icazə vermədikdə o dedi: “Əgər bizimlə kasa,qab olsa idi bizə icazə verərdi.” Bu an bir it gəlib,onun üzərini buladı.”[3]

Əbu Bəsir deyir: **“Mən bir qadına Quran öyrədərək,onunla bərabər oxuyurdum və onunla zarafat etdim.Qadın gedib,bunu imam Baqirə xəbər verdi. Sonra İmam mənə dedi: “Ey Əbu Bəsir! Sən qadına nə dedin?” Mən əlimlə işarə edib,gözümü bağladım.” İmam mənə dedi: “Onunla bir daha belə etmə.”**[4]

Muhəmməd ibn Məsud deyir: **“Mən imam Əli ibn Həsəndən Əbu Bəsir haqqında soruşdum. İmam dedi: “Onun Əbu Muhəmməd künyəsi var idi. O, Bəni Əsəddən idi və kor olmuşdu.” Mən imamdan soruşdum: “Onu qulat fikirlərdə ittiham etmək olarmı?”**

İmam dedi: “Qulat fikirlərdə onu günahlandıran olmamışdı. Amma, o ara-bir sayıqlayırdı.”

Zürarə ibn Əyun haqqında isə Zürarə özü deyir: "**Mən Əbu Abdulladan təşəhhüd barəsində soruşdum və o, belə dedi: "Əttəhiyyətu vas-sələvatu...." Mən yenə təşəhüd haqqında soruşdum və o, yenə belə dedi: "Əttəhiyyətu**

[1] “İxtiyar mərifətul rical” 1/402/№293; “Ricalul-Kəşşi” səh 154
[2] “İxtiyar mərifətul rical” 1/403; “Ricalul-Kəşşi” səh 154
[3] “İxtiyar mərifətul rical” 1/407/№297; “Ricalul-Kəşşi” səh 155
[4] “İxtiyar mərifətul rical” 1/404/№295; “Ricalul-Kəşşi” səh 154

vas-sələvatu...." Mən oranı tərk edən zaman onun saqqalına yel (qaz havası) buraxdım və: " O, heç vaxt müvəffəq etməz" dedim "[1]

İbn Miskan rəvayyət edir ki, **mən Zürarənin belə dediyini eşitdim: "Allah İmam Baqiri əhv etsin. Mənim qəlbimdə ondan inciklik və ona kin var.Mən ondan soruşdum."Bunu onu deməyə nə vadar etdi? Ravi dedi: "Zürarəni bunu deməyə vadar edən Əbu Abdullahın onun pis əməllərini üzə çıxarması olub."**[2]

Əbu Abdullah dedi: **"Zürarə azğın olaraq öləcək və onda Allahın lənəti vardır."**[3]

İmam deyir: **"Bu Zürarə ibn Əyundur.Allaha and olsun ki,o uca Allahın "biz onların əmələrini puç edəcəyik" dediyi kimsələrdəndir."** [4]

Yenə deyir: **"Həqiqətən,bəzi insanlara iman əmanət olaraq verilir,sonra onlardan alınır.Qiyamət günü isə onları "borc götürənlər" adlandırırlar, Zürarə də onlardan biridir."** [5]

İmam Cəfər dostlarının birindən soruşur: **"Zürarə ilə nə vaxt görüşmüsən?" O da, neçə gündür onu görmədiyini deyir. Sonra imam ona deyir: "İşin olmasın, xəstələnibsə, yanına getmə və ölübsə, cənazəsində iştirak etmə!" O, imamın sözündən təəccüblənərək soruşur: "Zürarənin?" İmam isə cavabında belə deyir: "Bəli, Zürarə yəhudilərdən, xristianlardan və "Allah, üç nəfərdən üçüncüsüdür" deyənlərdən də pis adamdır."**[6]

---

[1] "İxtiyar mərifətul rical" 1/379/№265; 380/№267; "Rical əl-Kəşşi", səh 160, Hədis № 265
[2] Rical əl-Kəşşi"səh 131,№228
[3] "İxtiyar mərifətul rical" 1/365/№240; "Rical əl-Kəşşi"səh 134,№265
[4] "Rical əl-Kəşşi"səh 134,№245
[5] "Rical əl-Kəşşi"səh 134,№263
[6] "Ricalul-Kəşşi səh142, №267

Həmçinin, onun haqqında ibn Əbu Mənsur Vasitidən rəvayyət olunmuşdur: **"Mən imam Əbulhəsənin belə dediyini eşitmişəm: "Zürarə mənim imamlığıma şəkk edirdi, mən də Allah-Təaladan onu mənə hədiyyə etməsini dilədim"** [1]

250) Rafizi yazır: *"Bununla belə, Əhli beyt düşmənləri onlara açıq-aşkar töhmətlər vurmuşlar."* [2]

— Gördüyünüz kimi bu töhmətləri şiə imamları şiə kitablarında şiə ravilərinin nəqlləri ilə etmişlər.

251) Əbdulhüseyn yazır: *"Sünnə və rəvayyətləri özündə əhatə edən ən mötəbər mənbə "Kütubi-ərbəə"dir ki, indiyə kimi 12 imami şiələrin üsulid-din və firuid-dində dəlil və mənbələri sayılır. "Kütubi-ərbəə" mərhum Kuleyninin "Kafi", Şeyx Tusinin "Təhzib" və "İstibsar", mərhum Səduqun "Mən la yəhzuruhul-fəqih" kitablarından ibarətdir. Bu kitabların mötəbərliyində heç bir şəkk-şübhə yoxdur. Onların içərisində "Kafi" o birilərindən daha qədim və əzəmətlidir."* [3]

— Əbdulhüseyn bu kitabı mötəbər hesab edən yeganə şəxs olmamışdır. Birincisi, şiə alimlərinə görə Küleyni özü "Kafi" kitabını səhih hesab etmişdir.

Muhəmməd Mehdi əl Asifi "Tarix fiqh əhləl beyt" adlı məktubunda Küleyni haqqında belə yazır: *"O,(Allah ona rəhmət etsin) kitabına imamlardan səhih hesab etdiyi hədisləri yazmışdır."*[4]

Əbu Talib Təcli ət Təbrizi "Mucəm əl məhasin və əl məsami"(səh 17)-də yazır: **"O, (Küleyni) kitabının müqəddiməsində hədislərin səhih olmasına işarə edərək,yazır: "Deyirəm ki,sən, (öz) nəzdində bütün dini elmlərinin fənnlərini özündə cəm edən,onunla öyrənənin və bilənin ona müraciət edərək, onunla kifayətlənməsini təşkil edən, ordan (istifadə edərək), <u>sadiqlərdən rəvayyət edilən səhih rəvayyətlər ilə</u>, dini elmləri və əməlləri**

[1] "Rical əl-Kəşşi", səh 138,№253
[2] Məktub 110
[3] Məktub 110
[4] Əli ət Təbətəbai (öl.1231) "Riyad əl məsail"c.1,səh 31

götürməsi üçün, kifayət edici bir kitabın olmasını istəmisən. Mən ümid edirəm ki,bu kitab sənin istəklərinə cavab verəcəkdir."

Feyz əl Kəşani "Vafi" (1/24)-də yazır: "**Bu dörd əsas kitab günümüzdə şəriət ehkamları üçün dirəkdir və onların müəllifləri kitablarının səhihliyinə şəhadət vermişlər.**"

Muhəmməd Baqir İrəvani "Durus təmhidiyyə fi əl qəvaid ər ricaliyyə" (səh 49)-da yazır: **"Hurr Amili "Vəsail" kitabında dörd kitabda varid olan hədislərin səhihliyini isbat edən dəlillər toplamışdır.Onlar bir yerdə cəmi 22 dəlildir."**

Eyni kitabın 100-cü səhifəsində İrəvani yazır: **"Bu etiqad (dörd kitabın səhih olması) əxbarilər arasında məşhurdur. Lakin,bəzən olur ki,bu fikri bəzi üsulilər də dəstəkləyirlər."**

Muhəmməd Sadiq əs Sadr demişdir: "**Oxuyan kəs bilər ki,şiələr hamılıqla dörd kitaba etibar etsələr də və orada, olan bütün rəvayyətlərin səhih olmasını desələr də,Əhli Sünnədən olan qardaşların etdikləri kimi, (bu kitablara) səhih adını verməmişlər."**[1]

Ayətullah Əbul Qasim əl Xoyi "Mucəm ər rical" (1/81)-də deyir: **"Bir çox hörmətli alimlər demişlər ki,"Kafi"də olan bütün hədislər səhihdir və ravi isnadı zəif olduğuna görə hər hansı bir hədisi kənara atmaq da yaramaz.Mən bizim ağamız və şeyximiz Muhəmməd Hüseyn əl Nəinin belə dediyini eşitmişəm: "Kafi" kitabında olan hədislərin isnadı və sənədləri haqqında mübahisə etmək cahillərin işidir."**

İndi isə rafizinin səhih hesab etdiyi "Kafi" kitabından nümunələr gətirmək zamanıdır.

[1] "Kitabuş-şiə" səh 127

“Kafi” kitabına görə Qurana etiqad

Nümunə olaraq, bir neçə şiə versiyası olan ayələr haqqında bəhs edən hədislər nəql ediləcək, haşiyədə isə əsl ayələr qeyd olunacaqdır.

(1/417): **Cəbrayıl Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu ayə ilə nazil olmuşdu: “Əgər bəndəmizə Əli haqqında nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və doğru danışanlarsınızsa Allahdan savayı bütün şahidlərinizi gətirin.”**

Əsl ayə belədir : “Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı bütün şahidlərinizi köməyə çağırın!” (Baqara 23)

(1/414): Əbu Bəsir Əbu Abdullahdan rəvayyət edir: **“(O) dedi: Ayə belə enib: “Hər kəs Allaha və Peyğəmbərinə Əli və imaların vilayət məsələsində itaət etsə, böyük bir səadətə nail olar.”**

Əsl ayə belədir: “O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar.” (Əhzab 71)

(1/416) Abdullah ibn Sinan Əbu Abdullahdan rəvayyət edir: **”Bu ayə belə nazil olmuşdu. “Biz bundan əvvəl Adəmlə Muhəmmədi, Əlini, Fatiməni, Həsəni, Hüseyni və onların nəslini (unutmamağı) tövsiyyə etmişdik.Lakin ,o əhdi unutdu və Biz onda əzm görmədik.” Sonra imam dedi: “Allaha and olsun ki, Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **ayə belə nazil olmuşdur.”**

Əsl ayə belədir: “Biz bundan əvvəl Adəmlə də əhd bağlamışdıq. Lakin o, əhdi unutdu və Biz onda əzm görmədik.” (Taha 115)

(1/417) Əbu Cəfərdən: **“Cəbrayil Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu ayəni belə nazil etmişdi: Öz lütfündən bəxş etməsinə həsəd aparmaq və Onun Əli haqqında nazil etdiyini inkar etməklə nəfslərini satıb əvəzində aldıqları şey necə də pisdir!”**

Əsl ayə belədir: “Allahın Öz qullarından istədiyi kimsəyə Öz lütfündən bəxş etməsinə həsəd aparmaq və Onun nazil etdiyini inkar etməklə nəfslərini satıb əvəzində aldıqları şey necə də pisdir! Onlar Allahın onlara bəslədiyi qəzəbi daha da şiddətləndirdilər kafirlərə alçaldıcı bir əzab vardır.” (Bəqara 90)

(1/417) Əbu Abdullah dedi: **“Cəbrayıl Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu ayələri nazil etdi: “Ey Kitab verilmişlər! Bizim Əli barasində nazil etdiyimizə iman gətirin.”**

Əsl ayə belədir: “Ey Kitab verilmişlər! Üzləri sıyırıb dümdüz edərək arxalarına çevirməmişdən, yaxud şənbə əhlini lənətlədiyimiz kimi onları da lənətləməmişdən öncə yanınızda olanı təsdiqləyici kimi nazil etdiyimizə (Qurana) iman gətirin! Allahın əmri mütləq yerinə yetəcəkdir.” (Nisa 47)

(1/420-421) İmam dedi: **“Allaha and olsun ki, bu ayə onlar ikisi və onların davamçıları haqqında nazil olmuşdu. Cəbrayılın gətirdiyi bu ayə belə idi: “Bu ona görədir ki, onlar Allahın Əli barasində nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!"– dedilər. Allah onların sirlərini bilir.”**

Əsl ayə belədir: “Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!"– dedilər. Allah onların sirlərini bilir.” (Muhəmməd 26)

(1/424) Əbu Cəfər dedi: **“Bu ayə belə nazil olmuşdu: “Əgər onlar özlərinə verilən Əli haqqında öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı.”**

Əsl ayə belədir: “Əgər Biz onlara: "Özünüzü (aranızdakı günahkarları) öldürün vəyaxud yurdlarınızdan çıxın!"– deyə buyurmuş olsaydıq, içərilərindən çox azı bunu yerinə yetirərdi. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı.” (Nisa 66)

Kuleyni “Kafi”də imamın “Cəbrayıl Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* gətirdiyi Quran 17 000 ayədən ibarət olmuşdur.” rəvayyətini nəql etmişdir.

Bu hədisi "Miratul uqul"[1] də şərh edən Məclisi yazır: "**Sarih, səhih olaraq gələn xəbərlərin çoxundan gizli deyildir ki, Quranda naqislik və dəyişiklik vardır. Mənim nəzdimdə bu babda (fəsildə) olan xəbərlər mənaca mütəvatir səviyyəsindədir və onların hamısı, başdan (əvvəldən), ona (Qur`ana) etimadın qaldırılmasını vacib edir. Belə ki, mənim zənnimə görə bu babda (fəsildə) olan xəbərlər, heç də imamət barədə gələn xəbərlərdən az deyildir. Bəs, elə isə, xəbərin sabit olması necə təsbit edilir?**"

Şiələrin böyük alimləri Quranın təhrif olunduğuna etiqad etmişlər. Adnan Ələvi Musəvi əl Bəhrani yazır:

"Xülasə olaraq deyirik, əhli beyt yolu gələn, əgər mütəvatir sayılmasa da çox sayda olan xəbərlərə görə əlimizdə ki, bu Quran Muhammədə *(sallallahu aleyhi və səlləm)* **nazil olmuş Quranın tamamı deyildir. Əksinə, burda Allahın endirdiyinə müxalif olan və təhrif edilmiş, dəyişdirilmiş şeylər vardır və ordan çoxlu şeylər də çıxarılmışdır. Məsələn, Əlinin adı bir çox yerdən çıxarılmışdır və Muhammədin ailəsi sözü çıxarılmışdır və eləcədə münafiqlərin adları və bundan başqa şeylər də çıxarılmışdır. Əli ibn İbrahimin təfsirində deyildiyi kimi bu Quran həm də Allahın və Onun Elçisinin razı olduğu şəkildə tərtib edilməmişdir". Allahın nazil etdiyinə bu da tərsdir."Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz." Əbu Abdullah bu ayəni oxuyana dedi:** "Ən xeyirli ümmət" **möminlərin əmirini və Hüseyn bin Əlini,öldürüblər?!"Ondan soruşdular:** "O zaman bu ayə necə nazil olmuşdur, ey Peyğəmbər övladı?" **Dedi:** "Belə nazil olmuşdur: "Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli imamlarsız..." **Görmürsənmi ki, ayənin sonunda Allah onları mədh edir:** "Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiz."[2]

Məclisi yazır: **"....Bizə şiələrdən və sünnilərdən varid olan xəbərlərə görə Quranda nöqsan və təhrif olması hədisləri mütəvatirdir. Məntiq bizə deyir ki,əgər Quran əhli beytdən ayrılıb, insanlar arasında yayılıb və adi insanlar onu toplamağa cəhd ediblərsə,onun tam və həqiqətə uyğun şəkildə toplanması ehtimalı azdır. Nə olursa**

[1] c.12,məsələ 525

[2] "Məşariquş-şumusud-durriyyə" səh 127

olsun Mehdi gələnə qədər insanlara vacibdir ki,müshəflərdə olanlarla işləsinlər və onları oxusunlar.Bu məsələ çox saylı xəbərlərlə sabitdir və mütavatirdir və Quranda naqisliyin olmasını təsdiq edir....” [1]

Şiə şeyxi Taib Musəvi əl Cəzairi Qümminin şərhində yazır: "**Lakin digər keçmiş və sonrakı alimlərin və mühəddislərin sözlərindən görünür ki, onlar Quranda naqislik olduğunu söyləyirlər. Belələrinə Küleyni, Bərqi, Əyyaşi, Nümani, Fürat ibn Ibrahim, Əhməd ibn Əbu Talib Təbərsi, Məclisi, Seyyid Cəzairi, Hürr Amili, Fütuni, Seyyid Bəhrani kimilərini misal göstərmək olar. Onlar öz məzhəblərini elə ayələr və rəvayətlərlə sübut etməyə çalışmışlar ki, onlara göz yümmaq mümkün deyil.**" [2]

“Kafi” kitabında digər insanlara münasibət

Kuleyni Əbu Abdullahdan rəvayyət edir: **“İnsanlar üç qismə bölünür: Alimlər,öyrənən tələbələr və artıqlar.Biz Əhli beyt imamları alimlərik,bizim şiələr tələbələr,digər artıq insanlar isə zibildirlər.”** [3]

İmam Əbu Cəfərdən: **“Ey Əbu Həmzə! And olsun Allaha ki, bizim şiələrimizdən başqa bütün insanlar fahişələrin övladrarıdır.”**[4]

İmam Rzadan gələn bir hədisdə: **”Şübhəsiz ki,bizim şiələrin adları atalarının və özlərinin adları ilə bir yerdə yazılıdır. Allah bizdən və onlardan söz almışdır. Onlar ki,bizim gəldiyimiz yoldan gəlirlər və getdiyimiz yola**

[1] “Miratul uqul” c.3,səh 31
[2] "Təfsir əl-Qümmi"nin müqəddiməsi, səh.23,24
[3] Kafi c.1,səh 51-52,hədis 4 (56)
[4] “Kafi” c.8, səh. 239

gedərlər.Biz və bizə tabe olanlardan başqa heç kəs İslamda deyil. Bizlər qurtuluşun dostlarıyıq, bizlər vəsiyyət edilmişlərin övladlarıyıq. "[1]

"Kafi"də coğrafiya dərsləri

İmam Əbu Abdullahdan soruşdular: "Yer nəyin üzərində qurulub? İmam buyurdu: "Yer **balinanın** üzərindədir." Ravi soruşdu: "Bəs, balina nəyin üzərindədir?" İmam: "Suyun içində" Ravi soruşdu: "Bəs,su nəyin üzərindədir?" İmam: "Qayanın üzərindədir." Ravi soruşdu: "Qaya nəyin üzərindədir?" İmam: "**Qaya öküzün buynuzları üzərindədir**." Ravi soruşdu: "Öküz nəyin üzərindədir?" İmam: "**Öküz yerin üzərində dayanıb**..."[2]

Məclisi bu hədisi səhih adlandırıb.[3]

Əbu Abdullahdan: "Yeri daşıyan balığa elə gəlmişdir ki, o yeri öz qüvvəsi ilə daşıyır və ona görə **Allah ölcüsü 22.5 sm** balaca, **18 sm** böyük bir balığ göndərdi və o balığ böyük balığın burnuna girdi. (Yeri daşıyan balığ) özünü ititirib, 40 gün belə qaldı. Allah ona rəhm edib, burnundan balaca balığı çixartdı. Allah yerə zəlzələ göndərmək istəyəndə, həmən balaca balığı yeri daşıyan böyük balığa göndərir, o diksinəndə isə, yer də titrəyir" [4]

"Kafi"də üç səhabədən başqa hamının küfrdə ittiham edilməsi.

[1] "Kafi"c.1, səh 223
[2] "Kafi" c.8,səh 89
[3] "Miratul uqul" hədis 55
[4] "Kafi" c.8, səh 212

Kuleyni imam Baqirdən rəvayyət edir: "İnsanlar Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra üç nəfər xaric mürtəd oldular."Bunlar Salman,Əbu Zərr və Miqdaddır." [1]

"Kafi"də imamların xüsusiyyətləri.

"Üsul Kafi"də (səh 678) Kuleyni imam Baqirdən rəvayyət edir: "İmamın 10 xüsusiyyəti vardır.....7) "Onun artıqları müşk ətiri verir."

Kuleyni Cəfər Sadiqdən rəvayyət edir**: "Mən göylərdə və yerdə olanları bilirəm. Cənnət də olanları bilirəm. Cəhənnəmdə olanları bilirəm. Bu günə qədər olub keçənləri və olacaqlarıda."** [2]

Kuleyni imam Cəfərdən rəvayyət edir: " Kəbənin Rəbbinə and olsun. Üç dəfə belə deyib davam etdi: "Musa və Xızrın yanında olsaydım, onlara deyərdim ki, mən onların hər ikisindən çox bilirəm və onlara bildiklərini xəbər verərdim; Çünki,Musa və Xızra olub keçmiş şeyləri bilmək bacarığı verilib, onlara gələcəkdə olacaq və Qiyamət gününədək olan hadisələri bilmək bacarığı verilməyib"[3]

(1/407-408) Kuleyni imam Əlinin belə dediyini rəvayyət edir: "Bütün dünya bizə məxsusdur." Məclisi hədisi yaxşı hesab etmişdir.

(1/408) Əbu Abdullahdan: "Bütün yer bizə məxsusdur. Beləliklə,Allahın oradan çıxartdığı hər şey bizə məxsusdur."

(1/409) "Yeri əhatə edən okean imama məxsusdur."

[1] "Kafi"c.8,səh 245-246; hədis 341
[2] "Kafi" c.1, səh 431, hədis № 674
[3] "Kafi" c.1, səh 261

1/462) İmam Həsəndən: “Allahın iki şəhəri vardır. Biri şərqdə biri qərbdə. Onları dəmir divarlar əhatə edir. Hər birinin 1000 1000 (yəni 1000 000) qapısı var. Həqiqətən, orada 70 min min (yəni 70 000 000) dil var. Hər dildə danışanlar var. Mən isə bütün dilləri və onlarda (şəhərlərdə) olanları bilirəm. Onlara mən və qardaşım Hüseyndən başqa hüccət yoxdur” Məclisi “Mirat”da hədisi səhih hesab etmişdir.

(1/470) Əbu Cəfərdən soruşdular: “Siz ölüləri dirildib,kor olanları sağalda bilərsiz?” İmam dedi: “Allahın izni ilə bəli.” Məclisi “Mirat”da hədisi yaxşı hesab etmişdir.

“Kafi”də Quranın təfsiri

Allah Təala İnşiqaq surəsində buyurur:

15. Xeyr! Sözsüz ki, Rəbbi onu görürdü.
16. And içirəm şəfəqə,
17. gecəyə və onun ağuşuna aldıqlarına,
18. bədirlənmiş on dörd gecəlik aya!
19. **Siz mütləq haldan-hala keçib dəyişəcəksiniz.**
20. Onlara nə olub ki, iman gətirmirlər

(1/413) İmam Cəfər dedi: “Ey Zürarə! Məgər bu ümmət Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra filan və filan mərhələləri keçmədimi?” O,bu sözləri Allahın bu ayəsi haqqında dedi: “Siz mütləq haldan-hala keçib dəyişəcəksiniz.” Məclisi və Behbudi hədisi səhih hesab etmişlər.

Allah Təala Qasəs surəsində buyurur:

51. **Biz Sözü onlara çatdırdıq ki, düşünüb ibrət alsınlar.**

52. Qurandan əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər.

53. Onlara Quran oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər.

(1/415) Kuleyni "Biz Sözü onlara çatdırdıq ki, düşünüb ibrət alsınlar." ayəsi haqqında imamın belə buyurduğunu nəql edir: "imam ardınca imam."

Allah Təala Bələd surəsində buyurur:

1. And içirəm bu şəhərə (Məkkəyə)!

2. Sən də o şəhərin sakinisən.

3. And olsun valideynə və onun törəməsinə!

(1/414) Kuleyni bu ayələr haqqında imamın belə buyurduğunu nəql edir: "Burada möminlərin əmiri və onun övladları olan imamlar nəzərdə tutulur."

Allah Təala Bəqara surəsində buyurur:

40.Ey İsrail oğulları! Sizə bağışladığım nemətimi yadınıza salın və Mənə verdiyiniz əhdə sadiq olun ki, Mən də sizə verdiyim əhdi yerinə yetirim Təkcə Məndən qorxun!

41. Sizdə olanı təsdiqləyici kimi nazil etdiyimə (Qurana) iman gətirin və onu inkar edənlərin ən birincisi olmayın! Mənim ayələrimi ucuz qiymətə satmayın vəyalnız Məndən qorxun.

42. Özünüz də bilə-bilə haqqa batil donu geyindirməyin və haqqı gizlətməyin.

(1/431) Kuleyni "Mənə verdiyiniz əhdə sadiq olun" ayəsi haqqında imamın,yəni "Əlinin vilayəti" dediyini nəql etmişdir.

Allah Təala Bəqara 245-də buyurur: "Kim Allaha gözəl bir borc versə (malından Allah yolunda xərcləsə), O da onun üçün bunu qat-qat artırar? Allah kimisinin ruzisini azaldar, kimisinin ruzisini də artırar. Siz Ona qaytarılacaqsınız."

(1/537) Kuleyni rəvayyət edir ki,bu ayədə yəni,malın imama verilməsi nəzərdə tutulur.

Oxucunu belə nümunələrlə yormaq istəməzdik.Sadəcə qeyd etmək lazımdır ki, şiə müəllifləri Quranda mümkün olan və olmayan məsələlərin hamısını imamlarına aid etməyə çalışmışlar. İbn Quteybə Dinəvari "Təvil muxtəliful hədis" (səh 152) kitabında yazır: "Rafizilərin təfsirinə gəldikdə isə, "Süleyman Davuddan miras apardı" ayəsini onlar belə izah etmişlər ki,Süleyman onların imamıdır və o Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* elm mirası alıb.

"Allah sizə inəyi kəsməyi əmr edir" ayəsi haqqında onlar deyirlər ki,inəkdən məqsəd Aişədir.

"Ona ölmüş inəyin ətini sürtün" ayəsi haqqında onlar deyirlər ki,vuran və vurulandan məqsəd Təlha və Zübeyrdir.

Onlar deyirlər ki,içki və qumar oyunlarından məqsəd Əbu Bəkr və Ömərdir. Cibt və tağut ayələrini isə onlar Müaviyə və Amr ibn əl Asa aid edirlər." (ibn Quteybənin sitatının sonu)

"Kafi"də 13 imam

(1/153) Kuleyni Əbu Cəfərdən rəvayyət edir: "Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* əhlindən 12 imam olacaqdır və onların hamısı ilə mələklər danışacaqdır. Onlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* və Əli ibn Əbu Talibin nəslindən olacaqlar və Allah rəsulu və Əli onların əcdadlarıdır."

Şərh : Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* soyundan olan 12 imam? Əli onun soyundan deyildi. Yəni,elə çıxır ki,Əli ilə birgə 13 imam. Əgər Əlinin soyundansa yenə 13 imam alınır. Şiələrdə 12 imamdan çox imamın olmasını başqa rəvayyətlərdə təsdiq edir. İmamların sayını dolaşıq salan rəvayyətlər də mövcuddur.

Şeyx Səduq "Xisal" (səh 477-478)-də Əbu Cəfərin Cabir ibn Abdullahdan belə rəvayyət etdiyini nəql edir: "Bir gün mən Fatiməni ziyarət etməyə getmişdim və onun əlində vəsiyyət sahibi olanların adları yazılmış olan lövhəni gördüm. Mən saydım, onların sayı oniki idi. Onlardan biri Qaim (Mehdi) idi. Üçünün adı Muhəmməd,digər üçünün adı isə Əli idi."

Şiələrin 12 imamından dördünün adı Əli idi. 1) Əli ibn Əbu Talib 2) Əli ibn Hüseyn 3) Əli ər Rza 4) Əli əl Hadi. Deməli biri artıq çıxır?

Kuleyni "Kafi" (1/534)-də Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* belə dediyini rəvayyət edir: *"Mən və mənim nəslimdən olan 12 nəfər və sən Əli yerin dayaqlarıyıq...."*

Yenə eyni yerdə Kuleyni Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* rəvayyət edir: *"Mənim nəslimdən 12 nəzarətçi olacaqdır."*

Beləliklə,Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* nəslindən 12 nəfər plyus Əli və bu 13 nəfər edir.

"Kafi" kitabından əsas sünnənin təsdiqi.

Kuleyni (6/528) Əlidən nəql edir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* məni qəbirləri yerlə-bir etmək və surətləri məhv etmək məqsədi ilə yollamışdı."

Hurr Amili "Vəsailuş şia" (3/209)-da bunu bu şəkildə nəql edir: "Peyğəmbər məni *(sallallahu aleyhi və səlləm)* göndərdi və surət (heykəl,obraz) məhv etmədən, yüksək qəbiri yerlə-bir etmədən və itləri öldürmədən geri qayıtmamağı tapşırdı."

İndi isə bu hədisləri müasir şiələrin əməlləri ilə müqyisə edin.

Şiələrin imamlarını vəsf etmələri

Heç kəs deyə bilməz ki,bunlar cahillərin əməlləridir.Bu əməlləri onlara alimləri icazə vermişlər.

"Kafi" kitabında zinaya yaşıl işıq.

Kuleyni Əli ibn Suveydin imam Əbul Həsəndən belə soruşduğunu nəql edir: *"Məndə gözəl qadınlara baxmaq barədə problem vardır.Onları görəndə onlara baxmaqdan çəkinə bilmirəm.İmam dedi: "Allah niyyətini bildiyinə görə bunda problem yoxdur.Amma,zinadan çəkin.Çünki,o həyanın və imanın itməsinə səbəb olur."*[1]

Məclisi "Mirat"da rəvayyətin səhih olduğunu qeyd etmişdir. Bu hədis müasir məşhur şiə aliminin fətvasında təzahür etmişdir. Ayətullah Sistanidən soruşdular:

Sual 524. Yayda, yarı çilpaq gəzən,müsəlman olmayan qadınlara baxmağın hökmü nədir?

Cavab: Baxmaq fəsada gətirməsə və şəhvət istəyi daşımırsa, problem yoxdur. http://www.sistani.org/html/eng/menu/2/books/2/inside/52.htm

SubhənAllah! Yarı çılpaq qadınlara şəhvət oyatmadan necə baxmaq olar?! İndi isə bunu uca Allah və Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sözləri ilə müqyisə edin.

Allah Təlala buyurur: "**Mömin kişilərə de ki, harama baxmayıb gözlərini aşağı diksinlər** və cinsiyyət üzvlərini zinadan qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır." (Nur 30)

İbn Abbas deyir: "Kiçik günahlara gəlincə,mən Əbu Hureyranın Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* nəql etdiyindən daha yaxşı izah bilmirəm. Rəsulullah *(sallallahu aleyhi və səlləm)* buyurur: "Adəm oğlunun zinadan bir nəsibi vardır. Heç şübhəsiz ki, o buna mütləq düşəcəkdir. Gözlərin zinası baxmaqdır, qulaqların zinası dinləməkdir, dilin zinası danışmaqdır, əlin zinası tutmaqdır, ayağın zinası addımlamaqdır. O, ki qaldı qəlbə o arzu və təmənna edir. Övrət yeri ya bunu təsdiq edəcəkdir, ya da inkar."[2]

Cərir rəvayyət edir ki, bir gün o Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* təsadüfü baxış haqqında soruşmuşdu. Cavab belə oldu: **"Gözlərini çək."**[3]

---

[1] "Kafi" c.5,səh 542

[2] Buxari 6343, Muslim 2657

[3] Muslimə istinadən "Riyadus salihin" № 1625

“Kafi”də əqidənin gizli saxlanılması

Bu baradə “Aldanmayalım” (“Не обманитесь”) adlı kitabda ətraflı yazılmışdır. Burada yalnız qısa mətnlərlə kifayətlənəcəyəm.

Kuleyni Əbu Ömər Əcəminin belə dediyini rəvayət etmişdir: "**Bir dəfə Əbu Abdullah mənə dedi: "Ey Əbu Ömər! Dinin onda doqquzu təqiyyədədir, təqiyyəsi olmayanın dini yoxdur, içki və xüffə məsh etmədən başqa.”**[1]

Bu hədisi Murtəza Ənsari “əl Təhara” kitabında (2/279-280) səhih hesab etmişdir.“Təqiyyə fi fikr əl İslami” kitabı səh 75-də isə yazılır: **“Bu hədisə heç bir şübhə ola bilməz.”**

“Kafi” də sünnilərə münasibət.

Kuleyni imam Əbu Abdullahdan qəvayyət edir: **“Əgər sizlərdən birinizin qardaşı ilə münaqişəsi olsa, şiə qardaşlarınızdan birini bu məsələni həll etmək üçün hakim təyin etsin.Bu məsələni onların (sünnilər) hüzuruna aparmasın.Yoxsa,o Allahın haqqında belə buyurduğu kimsələr kimi olar: “Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur.“**[2]

Məclisi və Behbudi rəvayyətin səhih olduğunu qeyd etmişlər.

[1] “Kafi”c.2,səh 217

[2] “Kafi”c.7,səh 411

“Kafi”də Allah elçisi *(sallallahu aleyhi və səlləm)* **və onun əhlinə hörmətsizlik.**

Kuleyni Əbu Abdullahdan rəvayyət edir: **”Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **doğulanda bir neçə gün südsüz qalmışdı. Əbu Talib ona öz döşünü verdi, Allah ona (döşə) süd verdi. Həlimə Səddiyyəni tapana qədər (Əbu Talib onu) bir neçə gün əmizdirdi”**[1] Allahu Əkbər!

Kuleyni nəql edir: “Əbu Abdullahdan dedi: **“Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **yanına bir kişi gəlib dedi: “Ey Allahın elçisi! Məndə kişilərdə olanın çox böyüyü var məndə olan dişi eşşək vəya dəvə ilə yaxınlıq edim? Məndə olana qadınlar dözə bilmirlər”. Allahın elçisi** *(sallallahu aleyhi və səlləm)* **dedi: “Allah Təbərəkə və Taalə sənə dözə bilən məxluq yaratmadan (səni) yaratmazdı”. Kişi getdi, bir müddət keçmədi ki, Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **yanına qayıtdı. Ona əvvəlki sözləri dedi. Elçi ona** *(sallallahu aleyhi və səlləm)* **dedi: “Sən anatnata qarasına niyə baxmırsan?” Kişi getdi, bir müddət keçmədi ki yenə qayıdıb dedi: “Şəhadət verirəm ki, sən Allahın doğrudanda elçisisən, sən dediyini mən etdim. Məndə olana dözəni tapdım...”**[2]

Bu rəvayyətdə problem ondadır ki, ondan soruşan adama Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* zoofilliyin haram olmasını deməmişdir. Şəkk yoxdur ki, bu rəvayyət uydurmadır! Onlar Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* nəvəsi haqqında olan çirkin sözləri imam Cəfərə nisbət vermişlər. Tarixdən məlumdur ki, Əli ibn Əbu Talib Fatimədən *(radiyallahu anhu)* olan öz qızı Ümm Gülsümü möminlərin əmiri Ömər ibn Xəttab (t.a)-a ərə vermişdi. Təkcə bu fakt

[1] “Kafi” c.1,səh 791
[2] “Kafi” c.5,səh 336

kifayətdir ki,aqil insan Əlini beyətə məcbur etmə vəya Fatiməni incitmə kimi yalan iddiaları çöpə atsın. Düşünüb,dərk etmək istəyənlər varmı?!

Bu faktı Əbul Qasim əl Xoyi və Ayətullah Fədlullah kimi müasir şiə alimlərindən bir neçəsi təsdiq etmişlər. Əli həqiqətən öz qızını Ömər ibn Xəttaba ərə vermişdir sualına əl Xoyi belə cavab verir: ***"Bu tarix və hədislərdə varid olmuşdur."***

...مؤسسة الإمام الخوئي الخيرية - مركز الإمام الخوئي في نيويورك / الإستفتاءات / هل صحيح أن الخ
Fichier Edition Affichage Favoris Outils ?
Précédente
Rechercher
Favoris
Adresse
http://www.al-khoei.us/fatawa2/index.php?id=9
OK
إنما يخشى الله من عباده العلماء
خيرية
مؤسسة الإمام الخوئي الخيرية
مركز الإمام الخوئي في نيويورك
هنا عنوان
هل صحيح أن الخليفة الثاني قد تزوج من بنت الامام علي عليه السلام ؟
(القسم : مسائل متنوعة)
السؤال : هل صحيح أن الخليفة الثاني قد تزوج من بنت الامام علي عليه السلام ؟
II Nordine II
الجواب : هكذا ورد في التاريخ والروايات .
التقليد والفتوى :
التقليد والفتوى
الطهارة :
أحكام النفاس
أحكام الحيض
أحكام الاستحاضة
أحكام الأموات
أحكام التخلي

Şiə kitablarında keçən rəvayyətdə Əbu Cəfərdən, o da atalarından belə nəql edir: "Ümm Gülsüm bint Əli və oğlu Zeyd ibn Ömər ibn Xəttab eyni saatda vəfat etdilər. Onlardan kimin birinci ölməsi məlum deyil və onların cənazə namazı eyni vaxtda qılındı."[1]

Əli həqiqətən öz qızını Ömər ibn Xəttaba ərə vermişdir sualına Ayətullah Fədlullah belə cavab vermişdir: "Bu səhih hədislərdə varid olmuşdur."

[1]Tusi "Təhzib əl əhkam" 9/362-363

بسم الله الرحمن الرحيم

From: istif@bayynat.org.lb
To: [redacted]
No:

سماحة العلامة المرجع آية الله العظمى السيد محمد حسين فضل الله

السلام عليكم ورحمة الله وبركاته

س) هل هو صحيح زواج السيدة أم كلثوم عليها السلام من عمر بن الخطاب أم أنها ادعاءات ؟

باسمه تعالى:

ج) ورد ذلك في الرواية الصحيحة.

والسلام عليكم ورحمة الله وبركاته

Kuleyni Ümm Gülsümün Ömərə ərə verilməsi haqqında guya imam Cəfərin belə çirkin sözlər dediyini nəql etmişdir: "Həqiqətən, bu bizim namusumuz (ərəbcədə فَرْجٌ -fərcimiz (qadın cinsi orqanı) idi ki,əlimizdən zorla aldılar."[1]

[1] "Kafi" c.5, səh 346

Məclisi "Mirat"da rəvayyətin yaxşı olduğunu qeyd etmişdir. Allahu Əkbər! Məgər imam Cəfər Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* nəvəsi haqqında belə çirkin sözlər söyləyə bilərmi!!?

"Kafi"də 12-ci imamın qeybətinin müddəti.

Kuleyni "Kafi" (səh 578)-də imam Əlidən belə rəvayyət edir: *"Onun (Mehdi) qeybi 6 gün,6 ay vəya 6 il olacaqdır."*

Şiələr deyirlər ki,12-ci imam qeybə hicri 260-ci ildə çəkilmişdir.İndi isə 1431-ci ildir.

"Kafi"də xalq təbabəti.

Kuleyni yazır: "Əbu Abdullah dostunun qara ayaqqabı geydiyini gördü və dedi: "Sən niyə qara ayaqqabı geymisən? Sən bilmirsənmi ki o, gözə ziyan verir, cinsi orqanı zəiflədir, özüdə o başqalarından daha bahadır, onu yalnız ədalanan şəxs geyinər"[1]

"Kafi" kitabından Misirlilərə hədiyyə.

Kuleyni imam Əbu Həsən Rzadan belə nəql edir: "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: "Başınızı misir (gil) ili ilə yumayın, o namusu aparır və dəyyusluq gətirir"[2]

Məclisi rəvayyəti yaxşı vəya müvəssaq hesab etmişdir. Siyahını çox uzatmaq olar. Lakin, bu kitabda olan əcaib və qəribəliklərlə oxucunu yormaq istəməzdik. "Kafi" kitabı belə boş vəyalan rəvayyətlərlə doludur, amma gördüyünüz kimi bu kitab Əbdulhüseyn və digərlərinə görə səhihdir.

252) Əbdulhüseyn yazır: *"Hişam ibn Həkəmin kitabları çox faydalı,aydın,istidlallarının parlaqlığı ilə seçilir.Bu kitablarda üsuli-din və firui-din,tövhidlə yanaşı,əqli fəlsəfəni,bütün dualizmi,mülhidləri (dinsizləri),maddi məsləkləri,fatalistləri,Əli (ə) və Əhli beyt haqqında mübaliğəli fikir yürüdənləri, xəvaric və nasibiləri,Əlinin (və o həzrətdən sonrakı imamların) vəsiliyini qəbul etməyənləri,o həzrətlə mübarizə aparanları və s. rədd etmə barəsində elmi və qiymətli bəhsləri mövcuddur.Hişam ikinci əsrin*

[1] "Kafi" c.6,səh 465

[2] "Kafi" c.6, səh 386

şəxsiyyətləri içərisində "kəlam", "əqaid", ilahiyyat və s. elmlərdə qabaqcıl olmuşdur. O, "kəlam" elmində "imamət" sahəsi üzrə "bir çox" həqiqətləri sübuta yetirməklə şiə məzhəbini diqqət mərkəzinə çevirmiş və onu əqli təfəkkürlə daha da zinətləndirmişdir."[1]

— Şəhristani öz məşhur əsərində yazır: "Hişamilər iki Hişamın davamçılarıdır: Hişam ibn Həkəm "antromoporfizm" fikrini yayan olub. Hişam ibn Səlim əl Cəvaliki isə bunda ona təqlid edirdi. Hişam ibn Həkəm şiə teoloqlarından biri olub. Onunla Əbu Huzeyl arasında bu mövzularda yəni, Allahın elmi, zatı baradə müzakirələr olurdu. Hişam ibn Səlim deyirdi ki, Allah insan kimidir,Onun yuxarı hissəsi dolu,aşağı hissəsi isə qalın və sıxdır.Bu gözləri bərq edən nurdur.Onun 5 hissi orqanları vardır: "Əl,ayaq,burun,qulaq və ağız. Bununla belə O övlad doğmaz və onun qanı yoxdur."[2]

"İbn Rəvəndi Hişamdan nəql edir ki, Allahla bədənlər, cisimlər arasında müəyyən bənzərlik və uyğunluq vardır. Əgər belə olmasa idi bu Allahı tanıdan bir işarə olmazdı."[3]

əl Kəbi Hişamdan nəql edir ki, Allah cisim olub, ölçüsü olan hissələrdən ibarətdir. Amma, O yaratdığı heç bir məxluqa bənzəmir və heç bir məxluq da ona bənzəmir. Allah xüsusi yerdədir, xüsusi tərəfdədir və O hərəkətdədir. Onun hərəkəti onun icraatıdır. O,zatı ilə əhatəlidir, qüdrəti ilə isə hər şeyi əhatə edib."[4]

Hişam ibn Həkəm deyərdi: "Allah cismi və sərhədləri olan bir varlıqdır. Onun uzunluğu,eni və dərinliyi vardır, Onun uzunluğu onun enindən böyük deyildir."[5]

Əbu İsa əl Vərraq Hişamdan nəql edir ki,Allah Təala ərşi ilə elə yaxındır ki,ərşindən heçnə kənarda və ondan da heç nə ərşindən kənarda qalmaz."[1]

---

[1] Məktub 110
[2] Şəhristani "Dinlər və firqələr" səh 145-146
[3] Əbdulhaqir əl Bağdadi "Fərq beynə firəq" səh 49
[4] İbn Cəuzi "Təlbisul İblis" səh 127; Əbdulhaqir əl Bağdadi "Fərq beynə firəq" səh 49
[5] Əbdulhaqir əl Bağdadi "Fərq beynə firəq" səh 49

Hişama görə Allah Təala öz-özlüyündə heç vaxt elmindən uzaqlaşmayacaqdır. O,hadisələri onlar baş verəndən sonra məxluq olan vəya əbədi elmi ilə bilir. Beləki,bu sifətdir (xüsusiyyət),bu isə vəsf edilməz. Onun elmi baradə bu odur vəya bu o deyil və bu onun bir hissəsidir deyilməz. Hişam deyirdi ki, Allah bir şeylər istər, bu istək hərəkətdir hansıki,nə Allahın nədə başqasının deyildir. Allahın kəlamı haqqında o deyirdi ki, bu Allahın sifətidir. Onun məxluq vəya məxluq olmadığını demək olmaz.

İmam Əşari kitabında yazır: *"Rafizilər, imamilər təcsim baradə 6 firqəyə bölündülər.Birinci firqə Hişamiyyə idi ki,bunlar Hişam ibn Həkəm ər Rafizinin tərəfdarları idilər.Onlar hesab edirdilər ki,cismi olan sonu, sərhədi,uzunluğu,eni və dərinliyi olan Allaha ibadət edirlər.Həmçinin, onlar hesab edirdilər ki, Onun uzunluğu onun enindən böyük deyildir."*[2]

Daha sonra Əbdulhüseyn yazır: *"Amma, təəssüflər olsun ki,Allahın nurunu söndürmək istəyənlər onu dünya və qiyamətdə Allahı cisim bilənlərdən hesab etmiş və ona digər başqa töhmətlər də vurmuşlar. Onların ürəklərində Əhli beytə qarşı olan həsəd və düşmənçilik alovuna baxmayaraq,onun məzhəbinə hamıdan daha yaxşı bələdik və onun tərcümeyi-halı və sözləri bizim ixtiyarımızdadır. Onun, məzhəbimizi işıqlandıran bir çox kitabları əldə olduğu halda necə ola bilər ki, əqidəsi bizim özümüzə gizli, başqalarına isə əyan olsun?!"*

— Bu azmışın növbəti yalanı. Kitabını mütəvatir adlandırdığı Kuleyni əsərində Hişam ibn Həkəmin mücəssimə olduğunu təsdiq edən bir neçə rəvayyət nəql etmişdir. Bu rəvayyətlərin birində imam Museyyi Kazım Hişamın fikirlərini eşitdikdə dedi: "Allah onu öldürsün."[3]

Muhəmməd ibn əl Fərəc ər Ruhci rəvayyət edir ki,o imam Musa Kazıma Hişam ibn Həkəmin Allah baradə dedikləri baradə məktub yazdım. O,yazdı: "Şeytandan Allaha sığın və özündən şübhələri təmizlə. Bu heç də iki Hişamın dediyi kimi deyildir."[1]

---

[1] Əbdulhaqir əl Bağdadi "Fərq beynə firəq" səh 49
[2] "Məqalətul İslamiyyun" səh 61
[3] "Kafi" c.7,səh 171

Kuleyni "Kafi" kitabında "Nəhy ən cism və surəh" (səh 168) fəslində Hişamın "Allahın cismi (bədəni) vardır" dediyini təsdiq edən bir neçə rəvayyət nəql etmişdir. Daha sonra yazır: *"Əgər yuxarıdakı nəqlə əsasən onun Allaha cisim mənsub etdiyini fərz etsək, onun bu sözləri hələ şiə olmamışdan qabaq deməsi də mümkündür.Çünki, onun əvvəl "Cəhmiyyə" əqidəsində olduğu və sonradan hidayət taparaq Əhli beytimamlarının şiəsi olduğunu demişdik."*

Allaha həmd olsun ki,növbəti dəfə İslam düşmənlərinin cahilliyini bizə göstərdi. Hişam mücəssimə idi və bu guya onun cəhmi olduğu zamanlar ola bilməzdi. Axı cəhmi əqidəsinin əsli təcsim fikrinə tam ziddir. İslam firqələrindən az da olsa məlumatı olan şəxs bilir ki,cəhmilərin Allahı məxluqata bənzətmək qorxuları onları Allahın bir çox sifətlərini inkar etməyə sövq etmişdi.

Cəhmiyyə– "Bu kəlamın sahələrindən biridir ki,bu əqidə sahibləri özlərini müsəlman adlandırırlar. Lakin,onlar iman və Allahın isim-sifətləri mövzusunda bidət fikirlərə sahibdirlər.Bu firqə və fikirlərin banisi Əbu Muhriz adı ilə tanınan Cəhm ibn Səfvan olmuşdur.Onun fikirləri hicri 102-ci ilində alimləri özünə cəlb etdi.O,tamamilə insanın iradəsini inkar edir,Quranın xəlq olunması baradə fikirlər yayır və bütünlüklə Allahın isim-sifətlərini inkar edirdi.İbn Səfvan Xorasan,Tirmiz və Mərvdə murciyə,mötəzilə və digər qruplarla gərgin mübahisələr aparırdı.Tarixçilərin əksəriyyətinin rəyinə əsasən o hicri 128-ci ildə Mərvdə bidət fikirlərinə görə edam edilmişdir.Cəhmiyyənin ən təhlükəli bidətlərindən biri Allahın bütün isim-sifətlərinin inkar edilməsidir. Faktiki olaraq onlar Allahın əsma sifətlərini də inkar edirlər. Çünki,onlar bunu məcazi mənada anlayırlar. İbn Teymiyyə "əl Fətava əl Həmaviyyə əl kubra" kitabında yazır: "İlk dəfə belə fikirləri Cudd ibn Dirhəm ortaya atdı. Ondan sonra bunu Cəhm ibn Səfvan davam etdirdi.O,bu fikirləri yaymağa başladı.Ona görə Cəhmilər məhz ona istinad edirlər.Nəql edirlər ki,Cudd bu fikirləri Əban ibn Səmandan,o Talutdan,o da öz növbəsində dayısı Lubeyd ibn əl Əsamdan əxz etmişdi. Bu şəxs isə Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* cadu edən yəhudi cadugər idi."

Cəhmilər həmçinin, hesab edirlər ki,insan əməl etmədə,iradədə və istəklərində müstəqil deyildir.Onlar imanı etiqad,söz və əmələ ayırmaya etiraz edir,imanın Allahı tanımaq,küfrü isə Allahı tanımamaq olduğunu iddia edirdilər.

[1] "Kafi" c.1,səh 105

Bununla yanaşı onlar deyirdilər ki, əgər insan Allahı tanısa, sonra sözləri ilə ondan uzaqlaşsa,o iman əhli olaraq qalır.Həmçinin,onlar hesab edirdilər ki,peyğəmbər və insanlar daxil olmaqla,bütün insanların imanı eynidir.Cəhmilər həmçinin, məhşərdə olacaq bir çox hadisələri də inkar edirlər. Onlar siratı (körpü),mizanı (əməl tərəzisi),axirətdə Allahı görməyi,qəbir əzabını inkar edir, cənnət və cəhənnəmin daha sonra yox olacağına etiqad edirlər.Onlar Allahın kəlamını qəbul etmir və Quranın məxluq (xəlq olunduğunu) hesab edirlər.Cəhmilər həmçinin,Allahın zatı ilə məxluqu ilə bərabər olduğunu iddia edirlər.Cəhmilərin fikirlərini görkəmli müsəlman alimləri qətiyyətlə rədd etmişlər. Onlardan Əhməd ibn Hənbəli,ibn Quteybəni,əd Darimini, ibn Teymiyyəni və s. qeyd etmək olar."[1]

Sonda bu çalışmanı tamamlamağı quluna müyəssər edən Allaha həmd olsun! Ümid edirəm ki,Uca Allah bu çalışmanı müsəlmanlar üçün faydalı edəcək və onları rafizi fitnəsindən qoruyacaqdır.

Müəllif (Əbu Əli Abdullah) bu çalışmanı cumədə əl axir ayının 29-u,1431-ci ildə tamamlamışdır.

[1] Elmir Quliyevin məqaləsindən